# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*iyirmi beşinci kitab*

*fevral, 2000 - mart, 2000*

AZƏRNƏŞR
BAKI-2008

**BBK 32**

**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 56 Müstəqilliyimiz əbədidir.** B., Azərnəşr, 2008, 520 səh.

Xalqımızın ümummilli lideri, ulu öndər Heydər Əlirza oğlu Əliyevin oxuculara təqdim olunan bu növbəti cildində müstəqil, suveren Azərbaycan dövlətinin möhkəmlənib inkişaf etməsinə, respublikamızın surətli iqtisadi tərəqqisinə, xalqımızın rifahı naminə aparılan iqtisadi və siyasi islahatlara hәsr olunmuş materiallar toplanmışdır.

Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri zamanı bu ölkənin tanınmış dövlət xadimləri, konqres üzvləri, nüfuzlu iqtisadi və maliyyə qurumlarının rəhbərləri ilə keçirdiyi yüksək səviyyəli görüşləri, dərin məzmunlu söhbətləri, «Vaşinqton post», «Nyu-York tayms» qəzetlərinin redaksiya heyəti ilə görüşləri, verdiyi müsahibələri verilmişdir.

Bu cilddə həmçinin, dövlətimizin başçısının görkəmli ədəbiyyat və incəsənət xadimləri ilə görüşləri, bu şəxslərə verdiyi yüksək qiymət və dəyərli məsləhətlər öz əksini tapmışdır.

Bütün cildlərdə olduğu kimi, bu cilddə də dövlətimizin başçısının Azərbaycanın ən ağrılı problemi olan Dağlıq Qarabağ məsələsinə aid ATƏT, Avropa Şurası, NATO rəhbərləri ilə görüşləri, bu münaqişə ilə əlaqədar onun prinsipial mövqeyi öz əksini tapmışdır.

$$\text{Я}\ \frac{0801000000}{\text{M} - 651(07) - 2008}$$

© Azərnəşr, 2008

## KİTABIN İÇİNDƏKİLƏR


**AVROPA BİRLİYİNİN AZƏRBAYCANDAKI XÜSUSİ ELÇİSİ RENATO BATTİ VƏ AVROPA KOMİSSİYASININ AZƏRBAYCAN ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ ROBİN LİDEL İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*5 fevral 2000-ci il*.................................................................................................... 10

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM ÇANDRİKA BANDARANAİKE UMARATUNQAYA**
*7 fevral 2000-ci il*.................................................................................................... 12

**YENİ ZELANDİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ XANIM CENNİ ŞİPLEYƏ**
*7 fevral 2000-ci il* .................................................................................................... 13

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM TARYA KAARİNA HALONENƏ**
*7 fevral 2000-ci il*.................................................................................................... 14

**XORVATİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB STEPİ MESİÇƏ**
*8 fevral 2000-ci il*.................................................................................................... 15

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOHANNES RAUYA**
*8 fevral 2000-ci il*.................................................................................................... 16

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB GERHARD ŞRÖDERƏ**
*8 fevral 2000-ci il*.................................................................................................... 17

**TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ YILDIRIM AKBULUT İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*8 fevral 2000-ci il*.................................................................................................... 18

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**
*10 fevral 2000-ci il*.................................................................................................. 23

**İRAN İSLAM RESPUBLİKASININ ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ**
*10 fevral 2000-ci il*.................................................................................................. 24

**ABŞ-ın «DEVON ENERJİ KORPOREYŞN» ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*10 fevral 2000-ci il*.................................................................................................. 25

**BAKI DÖVLƏT UNİVERSİTETİNİN 80 İLLİYİ MÜNASİBƏTİLƏ BDU-nun VƏ BİR SIRA XARİCİ ÖLKƏ UNİVERSİTETLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ**
*11 fevral 2000-ci il*.................................................................................................. 27
**YEKUN NİTQİ**.......................................................................................................... 33

**İRAN İSLAM RESPUBLİKASININ MİLLİ BAYRAMI – İSLAM İNQİLABININ 21-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ İİR-in AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ**
***11 fevral 2000-ci il*****……………………………………………………….. 35**

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ AZƏRBAYCANDAKI SƏFİRİ STENLİ ESKUDERO İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
***11 fevral 2000-ci il*****……………………………………………………….. 37**

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB**
***12 fevral 2000-ci il*****……………………………………………………….. 39**

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ BİLL KLİNTON İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
***15 fevral 2000-ci il*****……………………………………………………….. 40**

**ABŞ PREZİDENTİ BİLL KLİNTONLA GÖRÜŞ BAŞA ÇATDIQDAN SONRA AĞ EVİN QARŞISINDA YERLİ VƏ XARİCİ JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ ÇIXIŞ VƏ SUALLARA CAVAB**
***15 fevral 2000-ci il*****……………………………………………………….. 42**

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ENERGETİKA NAZİRİ BİLL RİÇARDSON İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
***15 fevral 2000-ci il*****……………………………………………………….. 43**

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KƏND TƏSƏRRÜFATI NAZİRİ DƏN QLİKMAN İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
***15 fevral 2000-ci il*****……………………………………………………….. 44**

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI «EKSİMBANK»ının PREZİDENTİ CEYMS HARMON İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
***15 fevral 2000-ci il*****……………………………………………………….. 45**

**CONS HOPKİNS VAŞİNQTON UNİVERSİTETİNDƏ GÖRÜŞDƏ NİTQ**
***15 fevral 2000-ci il*****……………………………………………………….. 46**

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MDB MƏSƏLƏLƏRİNƏ DAİR XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ SƏFİRİ STİV SESTANOVİÇ, ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ KERRİ KAVANO VƏ ABŞ-ın AZƏRBAYCANA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ROSS VİLSON İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
**15 fevral 2000-ci il……………………………………………………….. 56**

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ KEÇMİŞ MÜŞAVİRİ, GÖRKƏMLİ SİYASİ XADİM ZBİQNEV BJEZİNSKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
**15 fevral 2000-ci il………………………………………………………. 57**

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI KONQRESİNİN ÜZVÜ XANIM KAREN MAKKAFİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
15 fevral 2000-ci il………………………………………………………….. 58

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ TANINMIŞ DÖVLƏT XADİMİ, SƏFİR RİÇARD ARMİTAC İLƏ GÖRÜŞDƏ SÖHBƏT
15 fevral 2000-ci il………………………………………………………….. 59

«VAŞİNQTON POST» QƏZETİNİN REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
15 fevral 2000-ci il………………………………………………………….. 60

«NYU-YORK TAYMS» QƏZETİNİN REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
16 fevral 2000-ci il………………………………………………………….. 63

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ DÖVLƏT KATİBİ XANIM MADLEN OLBRAYT ARASINDA TELEFON DANIŞIĞI
16 fevral 2000-ci il………………………………………………………….. 68

AMERİKA–AZƏRBAYCAN TİCARƏT PALATASI TƏRƏFİNDƏN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ
16 fevral 2000-ci il…………………………………………………………. 69

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KEÇMİŞ DÖVLƏT KATİBİ, TANINMIŞ İCTİMAİ-SİYASİ XADİM LOURENS İQLBERGER İLƏ GÖRÜŞDƏ SÖHBƏT
16 fevral 2000-ci il………………………………………………………….. 74

TÜRKİYƏNİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDAKI SƏFİRİ BAKİ İLKİNLƏ GÖRÜŞDƏKİ SÖHBƏT
16 fevral 2000-ci il………………………………………………………….. 77

TÜRKMƏNİSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAPARMURAD NİYAZOVA
17 fevral 2000-ci il………………………………………………………….. 79

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MÜDAFİƏ NAZİRİ UİLYAM KOHEN İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
24 fevral 2000-ci il………………………………………………………….. 80

CONS HOPKİNS UNİVERSİTETİNİN GÖZ XƏSTƏLİKLƏRİ KLİNİKASINDA HƏKİM VALTER STARK İLƏ GÖRÜŞDƏ SÖHBƏT
24 fevral 2000-ci il………………………………………………………….. 81

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BİLL KLİNTONA
25 fevral 2000-ci il………………………………………………………….. 84

XOCALI SOYQIRIMININ SƏKKİZİNCİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏT
25 fevral 2000-ci il………………………………………………………….. 85

BRUNEYİN SULTANI ƏLAHƏZRƏT HƏSƏNƏL BOLKİAH MÜİZƏDDİN VƏDDAULLAHA
25 fevral 2000-ci il…………………………………………………………….. 86

QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YƏHYA CAMMEHƏ
25 fevral 2000-ci il…………………………………………………………….. 87

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LENNART MERİYƏ
25 fevral 2000-ci il…………………………………………………………….. 88

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ «Pİ ES Cİ İNTERNƏŞNL» ŞİRKƏTİNİN PREZİDENTİ ED SMİT İLƏ GÖRÜŞDƏ SÖHBƏT
27 fevral 2000-ci il…………………………………………………………….. 89

LONDONDAN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA JURNALİSTLƏRİN SUALLARINA CAVAB
28 fevral 2000-ci il…………………………………………………………….. 92

AZƏRBAYCAN DÖVLƏT TELEQRAF AGENTLİYİNİN (AzərTAc-ın) KOLLEKTİVİNƏ
29 fevral 2000-ci il…………………………………………………………….. 96

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX CABİR ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA
29 fevral 2000-ci il…………………………………………………………….. 97

AVROPA PARLAMENTİNİN DEPUTATLARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
29 fevral 2000-ci il…………………………………………………………….. 98

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB ALİYA İZZETBEQOVİÇƏ
1 mart 2000-ci il……………………………………………………………… 104

AVSTRİYA RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB VOLFQANQ ŞÜSSELƏ
1 mart 2000-ci il……………………………………………………………… 105

ESTONİYANIN XARİCİ İŞLƏR NAZİRİ TOMAS HENDRİK İLVES VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
2 mart 2000-ci il……………………………………………………………… 106

ESTONİYA XARİCİ İŞLƏR NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİN TƏRKİBİNDƏ RESPUBLİKAMIZA GƏLMİŞ, ESTONİYADA YAŞAYAN BİR QRUP SOYDAŞIMIZLA GÖRÜŞDƏ SÖHBƏT
2 mart 2000-ci il……………………………………………………………… 110

AZƏRBAYCAN SAHİBKARLAR ASSOSİASİYASI KONFRANSININ

İŞTİRAKÇILARINA
2 mart 2000-ci il.................................................................................. 112

MOZAMBİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB JOAKİM ALBERTU ÇİSSANOYA
2 mart 2000-ci il.................................................................................. 113

MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT VI MƏHƏMMƏDƏ
2 mart 2000-ci il.................................................................................. 114

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI TİCARƏT NAZİRLİYİNİN YENİ MÜSTƏQİL DÖVLƏTLƏR ÜZRƏ MÜŞAVİRİ, ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ SƏLAHİYYƏTLİ ŞƏXS YAN KALİTSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
3 mart 2000-ci il.................................................................................. 115

RUSİYA JURNALİSTLƏRİNİN BÖYÜK BİR QRUPU İLƏ GÖRÜŞDƏ SÖHBƏT
4 mart 2000-ci il.................................................................................. 118

DÜNYA BANKININ AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ GÜRCÜSTAN ÜZRƏ DİREKTORU XANIM CUDİ OKONNOR VƏ DÜNYA BANKININ ÖLKƏMİZDƏKİ DAİMİ NÜMAYƏNDƏSİ TEVFİK YAPRAQ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
4 mart 2000-ci il.................................................................................. 128

«Bİ-Pİ/AMOKO» ŞİRKƏTİNİN HASİLAT BÖLÜMÜNÜN PREZİDENTİ DEYİD VUDVORD VƏ ŞİRKƏTİN GEOLOJİ KƏŞFİYYAT BÖLÜMÜNÜN PREZİDENTİ ENDİ HOPVUD İLƏ GÖRÜŞDƏ SÖHBƏT
4 mart 2000-ci il.................................................................................. 130

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HƏRBİ KOLLECİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
4 mart 2000-ci il.................................................................................. 135

QANA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CERRİ CON ROULİNQCƏ
5 mart 2000-ci il.................................................................................. 140

AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QADIN SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ HAQQINDA
7 mart 2000-ci il.................................................................................. 141

8 MART – BEYNƏLXALQ QADINLAR BAYRAMINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ
7 mart 2000-ci il.................................................................................. 144

XALQ ARTİSTİ QƏMƏR XANIM ALMASZADƏYƏ
9 mart 2000-ci il.................................................................................. 146

XALQ ARTİSTİ CANƏLİ ƏKBƏROVA
9 mart 2000-ci il.................................................................................. 147

«KİTABİ –DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA NİTQ
11 mart 2000-ci il………………………………………………………….. 148
YEKUN NİTQİ……………………………………………………………….. 149

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
14 mart 2000-ci il………………………………………………………….. 154

BEYNƏLXALQ HÜQUQŞÜNASLAR İTTİFAQININ, RUSİYA HÜQUQŞÜNASLAR İTTİFAQININ SƏDRİ ANDREY TREBKOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT
14 mart 2000-ci il………………………………………………………….. 155

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ AZƏRBAYCANDAKI SƏFİRİ STENLİ ESKUDERO İLƏ GÖRÜŞDƏ SÖHBƏT
14 mart 2000-ci il………………………………………………………….. 161

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMA İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
16 mart 2000-ci il…………………………………………………………. 163

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN TƏKBƏTƏK GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA HƏR İKİ ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ ARASINDA AZƏRBAYCAN–UKRAYNA DANIŞIQLARINDA ÇIXIŞ
16 mart 2000-ci il………………………………………………………… 164

AZƏPBAYCAN–UKRAYNA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT
16 mart 2000-ci il……………………………………………………… 166

AZƏRBAYCAN PREZİDENTİ ADINDAN UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ NİTQ
16 mart 2000-ci il………………………………………………………… 172

UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN AZƏRBAYCAN İCTİMAİYYƏTİ İLƏ GÖRÜŞÜ VƏ ONA «İSTİQLAL» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ
17 mart 2000-ci il………………………………………………………… 175

1995-ci il MART DÖVLƏT ÇEVRİLİŞİNƏ CƏHDİN BEŞ İLLİYİNİN TAMAM OLMASI İLƏ ƏLAQƏDAR KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ
17 mart 2000-ci il………………………………………………………… 179
YEKUN ÇIXIŞI……………………………………………………………… 185

TÜRK DÖVLƏT VƏ TOPLULUQLARININ VIII DOSTLUQ, QARDAŞLIQ VƏ İŞBİRLİYİ QURULTAYINA
18 mart 2000-ci il………………………………………………………… 186

NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK
18 mart 2000-ci il………………………………………………………… 187

**2000-ci il MARTIN 26-da KEÇİRİLƏCƏK BƏLƏDİYYƏ SEÇKİLƏRİ İLƏ ƏLAQƏDAR MÜŞAVİRƏDƏ NİTQ**
**20 mart 2000-ci il…………………………………………………………………… 188**
**YEKUN NİTQİ…………………………………………………………………….. 191**

**QEYDLƏR……………………………………………………………………….. 195**

**ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ........................................................................... 221**

**COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ……………………………………………… 226**

## AVROPA BİRLİYİNİN AZƏRBAYCANDAKI XÜSUSİ ELÇİSİ RENATO BATTİ VƏ AVROPA KOMİSSİYASININ AZƏRBAYCAN ÜZRƏ ƏLAQƏLƏNDİRİCİSİ ROBİN LİDEL İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*5 fevral 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Azərbaycana xoş gəlmisiniz! Sizin Azərbaycana gəlməyinizdən çox məmnunam. Biz Avropa Birliyi ilə əməkdaşlığımıza daim çox böyük əhəmiyyət veririk və mən bu əməkdaşlığın çox müsbət nəticələrini də qeyd edirəm. Amma eyni zamanda mən bizim əməkdaşlığımızın daha da gözəl perspektivlərini hiss edirəm.

Mənə Baş nazir məlumat verdi ki, siz çox məsələləri ətraflı müzakirə etmisiniz. Mən də sizi dinləməyə hazıram.

**R e n a t o B a t t i:** Cənab prezident, bu gün bizi qəbul etdiyinizə görə çox sağ olun. Bu gün Sizinlə görüşmək bizim üçün həm xoşdur, həm də böyük şərəfdir. Həqiqətən də, biz hökumət üzvləri ilə çoxlu müzakirələr aparmışıq, görüşlər keçirmişik və bu görüşlərdə ikitərəfli münasibətləri müzakirə etmişik. Bizim Azərbaycanla olan əməkdaşlığımız regionda ən başlıca əməkdaşlıqdır. Avropa Birliyi Azərbaycana ən birinci donor olan təşkilatdır. Heç şübhəsiz ki, biz işimizi bu yönümdə davam etdiririk və gələcəkdə də Azərbaycanın bütün səylərini dəstəkləməkdə davam edəcəyik. Regionda sülh əldə olunan kimi, biz bütün dəstəyimizi daha da artırmağa hazırıq. Avropa icması beynəlxalq icma ilə birlikdə sülh əldə olunandan sonra reabilitasiya və yenidənqurmaya yönəlmiş bütün işləri dəstəkləməyə hazır olduğunu bildirir.

Biz burada olduğumuz müddətdə bir neçə layihəni müzakirə etmişik. Noyabr ayında burada olduğumuz zaman Naxçıvana aid bir layihəni nəzərdən keçirmişik və bu gün də işləməyə hazırıq. Bu da bizim maliyyə üzrə ikinci tranşımızdan ayrılan bir layihədir.

Bu imkandan istifadə edərək, bizim görüşlər zamanı təmasda olduğumuz bütün şəxslərə minnətdarlığımı bildirmək istəyirəm. Xüsusilə Azərbaycanın Baş nazirinin müavininə minnətdarlığımı bildirmək istəyirəm. O, bütün görüşlər zamanı bizimlə birlikdə idi və razılığın müddəalarını birlikdə həyata keçirməyə yardımçı olmuşdur.

Məlumdur ki, Avropa Birliyi ilə Azərbaycan razılıq əsasında bir sıra layihələri həyata keçirirlər və bu, tərəfdaşlıq və əməkdaşlıq haqqında olan razılıqdır. Bu razılıq əldə olunduqdan sonra biz ilk görüşümüzü noyabrda keçirmişik və mart ayında Brüssel şəhərində ikinci görüşümüz olacaqdır. Fevralın 24-dən martın 1-dək Avropa Parlamentinin üzvləri Qafqaz regionuna gələcəklər və bu səfər zamanı Azərbaycana da xüsusi diqqət yetiriləcəkdir. Mart ayında isə, bir qədər əvvəl qeyd etdiyim kimi, Azərbaycan nümayəndə heyəti əməkdaşlıq və tərəfdaşlıq razılığı çərçivəsində Brüsselə gələcəkdir. Sağ olun, cənab prezident.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl. Mən sizin verdiyiniz məlumatdan çox məmnunam. Mən təşəkkür edirəm ki, Avropa Birliyi regionda Azərbaycana xüsusi diqqət yetirir. Biz çalışacağıq ki, həmişə bunu, belə bir münasibəti doğruldaq.

İşğal altında olan ərazimizin bərpa edilməsi haqqında Avropa Birliyinin planları bizi çox sevindirir. Son zamanlar aparılan danışıqlar – həm Minsk qrupu çərçivəsində, həm də Azərbaycan prezidenti ilə Ermənistan prezidenti arasında aparılan bilavasitə danışıqlar ümid verir ki, biz sülhə nail olacağıq və işğal edilmiş torpaqlarımız işğaldan azad olunacaqdır. O torpaqlarda çox iş görmək lazım olacaqdır. Əgər Avropa Birliyinin, Dünya Birliyinin bu işdə iştirakı olmasa, biz burada heç bir şey edə bilmərik. Çünki orada olan bütün şəhərlər, qəsəbələr, kəndlər, hər bir şey – hansını ki, insanlar istifadə edirdi - dağıdılıbdır, viran edilibdir.

Bir müddət öncə Dünya Bankının, sonra Valyuta Fondunun, gərək ki, bir də Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının nümayəndələri Ermənistanda olmuş, Dağlıq Qarabağda olmuş, sonra Azərbaycanın işğal edilmiş Ağdam bölgəsində omuşlar. Onlar sonra öz təəssüratlarını dedilər və öz gözləri ilə görmüşlər ki, hər şey dağılıbdır, hər şey yenidən qurulmalıdır. Bu baxımdan sizin bugünkü bəyanatınız mənim üçün çox əhəmiyyətlidir.

Mən İstanbulda olarkən Avropa Komissiyasının sədri cənab Prodi ilə görüşmüşdüm. Biz bu barədə ətraflı söhbət etmişik, danışmışıq. Onunla danışanda da bu məsələ, demək olar ki, bizim müzakirəmizin mərkəzində idi. Bir daha ümidvar olduğumu bildirmək istəyirəm ki, biz onunla birlikdə məşğul olacağıq.

Mən sizin tranşlarınıza görə və müxtəlif layihələrin həyata keçirilməsində iştirakınıza görə təşəkkür edirəm. Bunların hər biri bizim üçün əhəmiyyətlidir.

Beləliklə, münasibətlərimiz genişlənir. Avropa Birliyinin Azərbaycanda daimi nümayəndəliyi lazımdır və Azərbaycanın da Brüsseldə daimi nümayəndəliyi lazımdır. Bu məsələləri də biz həll etməliyik.

Bir sözlə, geriyə baxarkən Avropa Birliyi ilə əməkdaşlığımızın bizim üçün nə qədər əhəmiyyətli olduğunu görürük və qiymətləndiririk. Amma irəlidə hələ daha çox işlər var. Ümidvaram ki, bizim əldə etdiyimiz təcrübə və əməkdaşlığımızın mütəşəkkilliyi gələcəkdə daha da çox nailiyyətlər əldə etməyə imkan verəcəkdir. Biz bunu istəyirik və bunu qəbul edirik.

**ŞRİ-LANKA DEMOKRATİK**
**SOSİALİST RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**XANIM ÇANDRİKA BANDARANAİKE UMARATUNQAYA**

Hörmətli xanım prezident!

Şri-Lankanın milli bayramı – Müstəqillik günü münasibətilə sizi və dost Şri-Lanka xalqını ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Şri-Lanka Sosialist Demokratik Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə bundan sonra da genişlənəcək və inkişaf edəcəkdir.

Fürsətdən istifadə edib sizə möhkəm cansağlığı və səadət, xalqınıza sülh, əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 fevral 2000-ci il*

**YENİ ZELANDİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM CENNİ ŞİPLEYƏ**

Hörmətli xanım Baş nazir!

Yeni Zelandiyanın milli bayramı – Baytanqa günü münasibətilə sizi və ölkənizin dost xalqını səmimi-qəlbdən təbrik edir, sizə cansağlığı və səadət, ölkənizə tərəqqi və əmin-amanlıq arzulayıram.

Əminəm ki, Azərbaycan Respublikası ilə Yeni Zelandiya arasında dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın mənafeyi naminə inkişaf edib genişlənərək sülh və təhlükəsizlik işinə xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 fevral 2000-ci il*

**FİNLANDİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**XANIM TARYA KAARİNA HALONENƏ**

Hörmətli xanım prezident!

Finlandiya Respublikasının prezidenti seçilməyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Finlandiya Respublikası arasında təşəkkül tapmış münasibətlərə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 fevral 2000-ci il*

**XORVATİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB STEPİ MESİÇƏ**

Hörmətli cənab prezident!

Xorvatiya Respublikasının prezidenti seçilməyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Xorvatiya Respublikası arasında təşəkkül tapmış münasibətlərə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 fevral 2000-ci il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB YOHANNES RAUYA**

Hörmətli cənab prezident!

Köln şəhəri yaxınlığında sərnişin qatarlarının qəzaya uğraması nəticəsində insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 fevral 2000-ci il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL KANSLERİ ZATİ-ALİLƏRİ CƏNAB GERHARD ŞRÖDERƏ**

Hörmətli cənab kansler!

Köln şəhəri yaxınlığında dəmir yolu qəzası nəticəsində insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi. Baş vermiş faciə ilə əlaqədar sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 fevral 2000-ci il*

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ YILDIRIM AKBULUT İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*8 fevral 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli sədr!

Hörmətli millət vəkilləri!

Hörmətli qonaqlar!

Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz! Türkiyə Böyük Millət Məclisinin sədri hörmətli Yıldırım Akbulutun başçılığı ilə Türkiyə Böyük Millət Məclisinin geniş tərkibdə nümayəndə heyətinin Azərbaycana ziyarəti, səfəri bizim üçün çox əhəmiyyətlidir, Türkiyə və Azərbaycan, ölkələrimiz, dövlətlərimiz arasında əlaqələrin sürətlə inkişaf etməsinə əyani sübutdur.

Türkiyə–Azərbaycan əlaqələri dostluq, qardaşlıq, geniş əməkdaşlıq əlaqələridir. Bu əməkdaşlıq daim inkişaf edir və hər iki tərəfdən böyük səylər göstərilir ki, bizim əlaqələrimiz daha da sıx, yaxın olsun. Bəzən düşünürsən ki, biz o qədər doğmayıq, dostuq, qardaşıq ki, bunu bir az da yüksəltməyə imkan yoxdur. Amma bu, belə deyildir. Hələ çox çalışmalıyıq ki, Azərbaycanda da, Türkiyədə də hər bir insan, vətəndaş – Türkiyənin, Azərbaycanın vətəndaşı bu siyasətimizi həqiqətən qəlbən dəstəkləsin, bizimlə həmfikir, bərabər olsun.

Hörmətli sədr, mən sizinlə Türkiyədəki görüşümü məmnuniyyətlə xatırlayıram. Bilirsiniz ki, o vaxt mən Amerikada cərrahiyyə əməliyyatından sonra sizin ölkədə qısamüddətli istirahətdə idim. Bizimlə sizin çox dəyərli görüşümüz oldu. O vaxt mən sizə müraciət etdim ki, Azərbaycana ziyarət edəsiniz. Azərbaycan Milli Məclisinin sədri də sizi ölkəmizə rəsmi ziyarətə dəvət edibdir. Mən çox məmnunam ki, siz bizim dəvətlərimizi qəbul etmisiniz, Azərbaycanı ziyarətə gəlmisiniz. Görürəm ki, Türkiyənin Böyük Millət Məclisində bütün partiyaları təmsil edən millət vəkilləri də sizinlə bərabərdir. Mən bundan çox məmnunam. Bir daha sizə deyirəm ki, Azərbaycana xoş gəlmisiniz!

**Y ı l d ı r ı m A k b u l u t:** Hörmətli cənab prezident!

Hər şeydən əvvəl, Azərbaycanda olduğumuz müddət ərzində bizə göstərilən qonaqpərvərlik üçün Azərbaycan Milli Məclisinin sədri hörmətli Murtuz Ələsgərova təşəkkür edirəm. Hörmətli Murtuz Ələsgərov ölkənizə qədəm qoyduğumuz ilk andan başlayaraq bizimlə bərabər oldu. Biz Türkiyə – Azərbaycan münasibətləri barədə məsələləri birlikdə müzakirə etdik. Bir sıra görüşlərimizdə parlamentlərarası münasibətlərin daha da gücləndirilməsi haqqında onun fikirlərini öyrəndik. Nümayəndə heyətimiz bütün bunlardan böyük məmnunluq duyur.

Hörmətli cənab prezident, mən hörmətli prezidentimiz Süleyman Dəmirəlin salamlarını Sizə çatdırmaqdan şərəf duyuram. Mən buraya gəlməmişdən bir gün əvvəl cənab prezident Süleyman Dəmirəllə görüşdüm və Azərbaycana səfərim, Sizinlə görüşəcəyim barədə ona məlumat verdim. Cənab Dəmirəl bundan çox məmnun oldu və onun səmimi salamlarını Sizə yetirməyimi xahiş etdi.

Hörmətli prezident, mən türk millətini təmsil edən Böyük Millət Məclisi üzvlərinin də salamlarını və xoş arzularını Sizə yetirirəm. Biz belə bir kəlamınızı hər zaman təkrar edirik: «Biz bir millət, iki dövlətik». Azərbaycanın müstəqillik uğrunda mübarizəsini Türkiyə həmişə dəstəkləmişdir və onunla birlikdə olmuşdur. Biz Azərbaycanın inkişafı və demokratikləşməsi uğrunda Sizin rəhbərliyiniz və liderliyinizlə aparılan mübarizəni dəstəkləyirik.

Məmnuniyyətlə qeyd etmək istəyirik ki, sərbəst bazar iqtisadiyyatı yolunu seçən və demokratikləşmənin getdikcə bərqərar olduğu Azərbaycanda hər şey yaxşılığa doğru dəyişir. Biz Sizin bu xəttinizi ürəkdən dəstəkləyir, bu sahədə Sizə əlimizdən gələn hər cür köməyi göstərəcəyimizi bəyan edirik. Türkiyənin bu sahədə xeyli təcrübəsi var və biz bu təcrübəni Sizinlə bölüşməyə həmişə hazırıq.

Cənab prezident, zati-alinizin təşəbbüsü və səyləri ilə Azərbaycan beynəlxalq birlikdə özünəlayiq yer tutmuşdur. Biz bunu çox yaxşı dərk edirik və bu sahədəki fəaliyyətinizi ürəkdən dəstəkləyirik.

Türkiyə Azərbaycanın Avropa Şurasına üzv qəbul olunmasını eyni səmimiyyətlə arzulayır. Biz arzu edirik ki, Azərbaycan Avropa qurumlarında öz layiqli yerini tutsun. Biz bu işdə də Sizə hər cür dəstək verməyə hazırıq.

Biz prezident Heydər Əliyev ilə prezident Robert Koçaryan arasında aparılan birbaşa danışıqlar nəticəsində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunacağına inanır, bu görüşləri dəstəkləyir və danışıqların davam etdirilməsini arzulayırıq.

Biz bilirik ki, beynəlxalq hüquq qaydalarına zidd olaraq Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bu münaqişənin ədalətli həlli üçün həmin torpaqlar azad edilməlidir.

Bu gün biz qaçqınların məskunlaşdığı yerə getdik, onların dözülməz şəraitdə yaşadıqlarını gördük, həmin insanlarla söhbət etdik. Onların hamısı tezliklə öz doğma ocaqlarına qayıtmaqdan başqa heç bir arzuları olmadığını söylədilər. Biz də onlarla həmfikir olduğumuzu bildirdik. Ən böyük arzumuz budur ki, bu münaqişə tezliklə sülh yolu ilə həll edilsin.

Hörmətli cənab prezident, biz bu gün səhər Şəhidlər xiyabanında olduq. Vətənin azadlığı və müstəqilliyi uğrunda canlarını fəda edən bu insanların məzarlarını böyük bir ehtiramla ziyarət etdik, onların ruhu qarşısında baş əydik.

Türkiyə vətəndaşları da 1918-ci ildə Azərbaycanın istiqlalı uğrunda mübarizədə iştirak edərkən burada azərbaycanlı qardaşları ilə birlikdə vuruşaraq şəhid olublar. Onların məzarları üzərində xatirə kompleksinin inşasında Sizin böyük əməyiniz vardır. Biz bunu yaxşı bilirik və göstərdiyiniz diqqətə, qayğıya görə Sizə xüsusilə minnətdarıq.

Cənab prezident, bizim səfərimiz bu gün başa çatır və sabah vətənə qayıdacağıq. Bildirmək istəyirəm ki, bu, son dərəcə faydalı bir səfər oldu. Bu səfər zamanı biz çox duyğulu və xoşbəxt anlar yaşadıq. Bildiyiniz kimi, biz şərqlilər çox hissiyyatlı insanlarıq.

Bu gün səhərdən bəri keçirdiyimiz görüşlər və apardığımız danışıqlar nəticəsində onu deyə bilərəm ki, biz ölkələrimiz arasındakı əməkdaşlığı daha da genişləndirməli və bunu konkret layihələrə çevirməliyik. Çalışmalıyıq ki, bu layihələrin həyata keçirilməsi həm Türkiyəyə, həm Azərbaycana, həm də türkdilli digər ölkələrə faydalar gətirsin. İnanırıq ki, bu, regionda sülhün və sabitliyin bərqərar olunmasına kömək göstərəcəkdir.

Cənab prezident, bizi qəbul etdiyiniz üçün Sizə bir daha öz səmimi təşəkkürlərimizi bildirmək istəyirik.

**H e y d ə r Ə l i y e v:** Hörmətli sədr, təşəkkür edirəm. Sizin bu məzmunlu və xoş sözləriniz elə bizim də qəlbimizdə olan sözlərdir. Azərbaycanın bu günü haqqında sizin fikirləriniz bizim üçün çox əhəmiyyətlidir. Bizim problemlərimiz, işimizin çətin tərəfləri, xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində ərazimizin 20 faizinin işğal edilməsi və köçkün, qaçqın vəziyyətində yaşayan insanlarımız barədə, bu münaqişənin sülh yolu ilə həll olunması, mənim Ermənistan prezidenti Robert Koçaryanla son bir il içərisində keçirdiyim görüşlər haqqında dediyiniz fikirlər məni sevindirir. Bizim üçün bir daha aydın olur ki, ölkəmiz doğru, düz yolla gedir.

Mən çox məmnunam ki, siz qısa müddətdə Azərbaycanın bugünkü mənzərəsini görmüsünüz. Azərbaycanın öz müstəqilliyini əldə etməsindən artıq 8 il keçibdir. Həmin illərin Azərbaycan üçün ağır və bəzən dəhşətli illər olduğunu nəzərə alsaq, bu, tarixi nöqteyi-nəzərdən o qədər də böyük zaman deyildir.

Ermənistanın Azərbaycana təcavüzü, 1988-ci ildən münaqişənin başlanması, müharibənin getməsi, qan tökülməsi, şəhidlər verilməsi, torpaqlarımızın işğal olunması və bir milyondan artıq insanın öz yerindən-yurdundan çıxarılması – bütün bunların bəlkə də dünyanın heç bir ölkəsində analoqu, bənzəri yoxdur. Çünki 8 milyon əhalisi olan bir ölkənin əhalisinin bir milyonu qaçqın vəziyyətindədir. Bu gün sizin görüşdüyünüz qaçqınlar heç olmasa Bakıda, bir binada məskunlaşıblar. Amma qaçqınların əksər hissəsi yeddi ildir ki, çadırlarda yaşayır. Bu, çox ağır bir həyatdır. Ancaq xalqımız bu illər ərzində sübut etdi ki, çox dözümlüdür, öz istəyinə, arzusuna nail olmaq üçün əzab-əziyyətə də dözür. Eyni zamanda, öz haqqını tələb etmək üçün xalqımızın qüdrəti də, cəsarəti də, ağlı da, zəkası da vardır.

Biz 1994-cü ilin may ayında atəşi dayandırdıq, atəşkəs haqqında saziş imzaladıq. Biz o illərdən indiyə qədər davamlı olaraq, dayanmadan bütün vasitələrdən istifadə edərək münaqişəni sülh yolu ilə həll etmək istəyirik. Ancaq ölkəmizin qarşısındakı çətinliklər sizə yaxşı məlumdur. Çünki Ermənistan tərəfi torpaqlarımızı işğal etdiyinə görə, təbiidir ki, bizim üçün məqbul olmayan şərtlər irəli sürür.

Onu da etiraf etmək lazımdır ki, - Türkiyə də bunu öz həyatında hiss edir – Ermənistanın dünyada, beynəlxalq aləmdə tərəfdarları həddindən artıq çoxdur. Elə Ermənistanın Türkiyəyə qarşı tam əsassız olaraq «genosid problemi»ni indiyə qədər qaldırması və ayrı-ayrı ölkələrdə parlamentdə, yaxud başqa bir qurumda bu məsələnin müzakirə edilməsi onların bir çox ölkələrdə nə qədər dəstəkləndiyini, tərəfdarları olduğunu göstərir. Beləliklə də bir tərəfdən torpaqlarımızı işğal etdiklərinə, ikinci tərəfdən dünyanın bir çox ölkələrində müəyyən dəstəklərə malik olduqlarına görə onlar ədalətli şərtlərə gələ bilmirlər.

Ancaq biz çalışırıq. ATƏT-in Minsk qrupu bu illərdə fəaliyyət göstərib. Türkiyə də ATƏT-in Minsk qrupunun üzvüdür. İndi siz qeyd etdiniz, mən də onu bildirirəm ki, keçən ilin aprel ayından bəri Ermənistan prezidenti Robert Koçaryanla bir neçə dəfə görüşlər keçirmişəm. Bizim son görüşümüz bu yaxınlarda Davosda olubdur. Bu görüşlər çox əhəmiyyətlidir. Hesab edirəm, bu görüşlər münaqişənin sülh yolu ilə həll olunmasına ciddi təsir göstərə biləcəkdir.

Bax, biz öz müstəqilliyimizi, dövlətimizi belə bir böyük problem içərisində qururuq. Sizin bildiyiniz kimi, Azərbaycanın daxilində bir neçə il müddətində sabitliyin olmamasını, ayrı-ayrı silahlı dəstələrin burada mübarizə aparmasını və hakimiyyətin güclə devrilməsinə iki dəfə cəhd göstərilməsini və başqa halları əgər buna

əlavə etsək, onda təsəvvür edə bilərsiniz ki, bu dövrdə Azərbaycan xalqı nə qədər böyük sınaqlardan keçibdir, amma eyni zamanda uğur əldə edibdir, irəliyə gedibdir.

Biz, demək olar ki, 1995-ci ildə Azərbaycanın daxilində ictimai-siyasi vəziyyəti sabitləşdirə bildik. Hesab edirəm ki, bu, bizim ən böyük nailiyyətimizdir. Çünki əgər 1988-ci ildə Ermənistan–Azərbaycan münaqişəsi başlayanda Azərbaycanda güclü dövlət, respublikamızın daxilində sabitlik olsaydı, təbiidir ki, Ermənistan Azərbaycana qarşı bu işləri edə bilməzdi. Onlar Azərbaycanın daxilindəki çəkişmələrdən, boğuşmalardan, hakimiyyət mübarizəsindən, qanunsuz silahlı dəstələrin bir-biri ilə toqquşmasından istifadə edərək çox böyük fürsət əldə etdilər və bunu da əldən vermədilər. Ona görə bizim üçün çox vacib idi ki, müharibədə atəşi dayandıraq. Çünki ölkənin belə vəziyyətində müharibəni davam etdirmək, təbiidir ki, uğursuz olacaqdı. Biz atəşi dayandırdıq. Ancaq atəşi dayandırandan sonra Azərbaycanın daxilində vəziyyəti normallaşdırmaq, sabitləşdirmək lazım idi. Bu da asan iş deyildi.

Bilirsiniz ki, 1992-ci ildə Azərbaycanda hakimiyyət dəyişildi. 1993-cü ildə vətəndaş müharibəsi baş verdi, hakimiyyət dəyişildi. O vaxt Azərbaycan parçalanırdı və artıq parçalanmışdı. Ölkəmizdə vətəndaş müharibəsi başlanmışdı. Biz vətəndaş müharibəsinin qarşısını aldıq, onu yatırtdıq. Ancaq bəzi insanlar yenə də öz bəd işlərindən əl çəkmədilər. 1994-cü ilin oktyabr ayında burada silahlı dövlət çevrilişinə cəhd edildi. Xalq bunun qarşısını aldı. Onlar silahlı idilər, amma xalq, millət Prezident sarayının önünə yığıldı, toplandı və həmin silahlı cinayətkarların qarşısını aldı.

Ancaq bəzi insanlar yenə də öz bəd əməllərindən əl çəkmirdilər. 1995-ci ilin mart ayında biz böyük bir böhran keçirdik. Yəni böyük bir silahlı dəstə müxtəlif xarici ölkələrin xüsusi xidmət orqanlarından dəstək, kömək alaraq Azərbaycanda hakimiyyəti devirməyə, prezidenti qətlə yetirməyə, onu öldürməyə və hakimiyyəti ələ keçirməyə cəhd göstərdi. Biz bunun da qarşısını aldıq. Ondan sonra da Azərbaycanda bir neçə terror cəhdlərinin qarşısı alındı.

Bunun nəticəsində biz 1995-ci ilin sonundan ölkədə sabitliyi təmin etməyə başladıq. Allaha şükürlər olsun ki, hər il Azərbaycanda daxili vəziyyət daha da sabitləşir, möhkəmlənir və insanlar artıq rahat yaşayır və rahat yaşamağı da öyrənirlər. Cinayətkarlar da – onlar hələ tükənməyiblər- anlayıblar ki, daha o yollarla getmək olmaz. Ancaq bəziləri anlamayıblar. Bəziləri bu gün də hələ o fikirlə, o hava ilə yaşayırlar ki, Azərbaycanda yenidən hakimiyyəti güclə, silahla devirmək, ələ almaq olar.

Ancaq indi bizim dövlətimiz güclüdür. Xalqımız da dövləti dəstəkləyir. Belə xəyalda olan adamlar da onlardan əvvəl belə işləri görən adamlar kimi öz cəzalarını alacaqlar.

Bu illərdə Azərbaycanda bir çox istiqamətdə işlər gedibdir. Mən sizə deyirəm, birincisi, əsası o idi ki, sabitliyi əldə edək. Bununla bərabər, Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu prosesini həyata keçirək. Azərbaycanda bazar iqtisadiyyatına keçmək tədbirlərini təmin edək, islahatlar həyata keçirək. Bunların hər biri özlüyündə çox ağır, çətin problemdir. Çünki əgər insanlar 70 il bir ictimai-siyasi, iqtisadi sistemdə yaşayıbsa, - təkcə insanlar yox, dövlət, bütün millət, - qısa bir zamanda başqa sistemə keçmək asan iş deyildir.

Ancaq biz bu yolla çox inamla gedirik. İnamla getdiyimizə görə uğurlar da əldə edirik. O illərdə ki, Azərbaycanda daxili sabitlik pozulmuşdu, müharibə gedirdi, - və uğursuz müharibə gedirdi, - Azərbaycanın iqtisadiyyatı dağılmışdı. Mən sizə deyə bilərəm ki, keçmiş Sovetlər Birliyinin tərkibində 70-80-ci illərin sonuna qədər Azərbaycanın çox güclü iqtisadi potensialı olubdur. Siz Bakını seyr edərkən yəqin ki, bunun nişanələrini indi də görürsünüz. O dövrdə Azərbaycanın güclü, çox güclü potensialı olubdur. Sizin sözünüzlə desək, altyapı çox güclü olubdur.

Ancaq o illərdə bunların bir qismi dağılıbdır. Dağılmış bir şəraitdə, iqtisadiyyat inkişaf əvəzinə ilbəil tənəzzül etdiyi bir halda bunu dayandırmaq lazım idi. İqtisadi vəziyyəti sabitləşdirmək, sonra da inkişaf etdirmək lazım idi. 1996-cı ildən biz bu yolla gedirik. Həyata keçirdiyimiz tədbirlər, demokratikləşmə, dövlət quruculuğu prosesi, çox dəyərli qanunların qəbul olunması və onların həyata keçirilməsi, iqtisadiyyatda görülən tədbirlər nəticəsində əldə edilən inkişaf göz qabağındadır.

Mən bu gün 1999-cu ilin iqtisadi göstəricilərinə dair rəqəmlərə baxırdım. Biz adətən, özümüzü Müstəqil Dövlətlər Birliyində olan ölkələrlə müqayisə edirik, - özümüzü Türkiyə ilə, başqası ilə müqayisə edə bilmərik, - çünki keçmişdə o dövlətlərlə Sovetlər Birliyində, bir iqtisadi sistemdə olmuşuq və indi də onlarla bərabər Müstəqil Dövlətlər Birliyindəyik. Ona görə də iqtisadiyyatımızın vəziyyətini onlarla müqayisə edirik.

Müqayisədən görünür ki, 1999-cu ilin yekunlarına görə Azərbaycan Müstəqil Dövlətlər Birliyinə daxil olan 12 ölkə içərisində çox hallarda birinci yerdədir. Çox hallarda! Təsəvvür edin, bizdə sənaye istehsalı ilbəil 25 faiz aşağı düşürdü. Eləcə də kənd təsərrüfatı istehsalı, ümumi daxili məhsulun həcmi aşağı düşürdü. 1996-cı ildən isə inkişaf edir – ildə 4 faiz, 5 faiz. Məsələn, heç gözlənilməyən şeydir – 1999-cu ildə sənaye istehsalı 4 faiz inkişaf edibdir. Baxmayaraq ki, sənayemizin böyük hissəsi dayanıbdır, amma biz başqa sahələri canlandırmışıq, inkişaf edibdir. Məsələn, kənd təsərrüfatında 7 faiz artım var. Ümumi daxili məhsul 7 faiz artıbdır. Bunların nəticəsində bizdə büdcədən verilən maaşlar artır. İstehlak mallarının qiyməti sabitdir, ya da aşağı düşür. Neçə ildir ki, bizdə inflyasiya yoxdur, manatın dəyəri sabitdir. Bunlar belə bir ağır şəraitdə əldə olunan göstəricilərdir.

Təbiidir, biz bunların heç biri ilə öyünmürük, heç birini də böyük nəticə hesab etmirik. Biz hələ çox işlər görməli və çox böyük nəticələr əldə etməliyik. Xalqın hamısının rifah halını, yaşayışını yüksəltməliyik. İqtisadi potensialımızı hərəkətə gətirməliyik. Biz bu yoldayıq, bu yolla gedirik. Hesab edirəm ki, bu yolda da uğurlar əldə edəcəyik.

Bir sözlə, mən sizə bildirmək istəyirəm ki, səkkiz illik müstəqillik dövrü bizə qürur hissi gətirir – böyük, tarixi nailiyyətdir ki, biz artıq müstəqil yaşayırıq, istiqlaliyyətimizə çatmışıq. Siz bildirdiyiniz kimi, Azərbaycan dünya miqyasında öz yerini tutubdur, onun öz imzası var, öz səsi var. Eyni zamanda problemlərimiz də çoxdur və bunları həll etməyə çalışırıq.

Yəni müstəqilliyimiz bizim üçün əsas nailiyyətdir. Amma bu müstəqillikdən istifadə edib sosial-iqtisadi inkişafı təmin etmək və müstəqillik şəraitində insanlarımızın həyat tərzini, rifahını keçmiş Sovetlər Birliyində olduğundan daha da yüksəklərə qaldırmaq bizim borcumuz, vəzifəmizdir. Bunu da edirik və edəcəyik.

Biz dünya təcrübəsindən istifadə edirik. Bizim üçün çox gözəl təcrübə mənbəyi Türkiyədir. Təbiidir ki, Türkiyənin keçdiyi yol böyük yoldur. Türkiyə Cümhuriyyəti böyük öndər Mustafa Kamal Atatürk tərəfindən yaranandan bəri 75 ildir ki, yaşayır və böyük nailiyyətlər əldə edibdir. Amma bəzən sizin mətbuatda da oxuyuram, mənim əziz dostum, qardaşım hörmətli Süleyman Dəmirəllə Türkiyənin müxtəlif yerlərində oluram. Məsələn, son vaxtlarda biz zəlzələ olan yerə birlikdə getmişdik. Kocaelidə idik, - deyəsən, burada Kocaelidən millət vəkili var, - oraya getmişdik, çox gözəl görüşlərimiz keçdi. Mən də insanlara xitab etdim, hörmətli Süleyman Dəmirəl də xitab etdi. Ondan sonra İspartada oldum, orada da bir neçə görüş oldu. Hörmətli Süleyman Dəmirəl İspartada, Süleyman Dəmirəl adına Universitetdə xalqa xitab etdi. Məsələn, hörmətli Süleyman Dəmirəl deyirdi: xatırlayın, cümhuriyyət yarananda 12 milyon nüfusu olan Türkiyənin əhalisi indi 65 milyondur. Yaxud da, pulu olmayan o dövlət indi təkcə İsparta şəhərində iki məktəb açdı, nə qədər universitetlər var, insanlar nə qədər savadlanıblar.

Yəni cümhuriyyət yaranandan indiyə qədər Türkiyənin belə yüksək səviyyəyə çatması üçün, birincisi, zaman lazım idi. İkincisi, əlbəttə ki, Mustafa Kamal Atatürk kimi müdrik bir liderin liderliyi lazım idi. Ondan sonra isə böyük Atatürkün qoyduğu yolla sədaqətlə gedən dövlət başçıları lazım idi. Bunlar hamısı var. Hesab edirəm, Türkiyənin ən böyük sərvəti ondan ibarətdir ki, onun cümhuriyyəti var, tarixi şəxsiyyət olan Mustafa Kamal Atatürk kimi unudulmaz lideri və onun yolu ilə gedən, demokratiya yolu ilə gedən dövləti, hökuməti və xalqı var.

Bunlara görə də mən deyirəm ki, biz Türkiyənin təcrübəsindən çox istifadə edirik, Türkiyə bizim üçün örnəkdir. Məsələn, xüsusən nə üçün? Ona görə ki, Turkiyə xalqı ilə Azərbaycan xalqı qədər bir-birinə yaxın xalq, millət yoxdur. Siz də bunu ifadə etdiniz, mən də dəfələrlə demişəm ki, biz bir millət, iki dövlətik. Görürsünüz, dilimiz birdir. Türkdilli dövlətlər var, onlarla siz də görüşürsünüz, biz də görüşürük. Biz onlarla rusca danışırıq. Çünki mənim azərbaycanca danışdığımı özbək, ola bilər, 10 faiz anlasın, onun da danışdığını mən 10 faiz anlaya bilərəm. Eləcə də sizin aranızda. Mən bilirəm ki, siz də tərcümansız danışa bilmirsiniz. Amma görürsünüz, mənim dediklərimin hamısı sizin dediyiniz kimidir. Ola bilər ki, 3 faiz sözlərdə fərq var. Bu, birincisi.

İkincisi, bizim adətimiz, ənənələrimiz, mənəvi dəyərlərimiz – bunlar hamısı birdir. Ona görə də Türkiyə bizim üçün hər sahədə örnəkdir və çalışırıq ki, bundan səmərəli istifadə edək.

Bizim xalqımızda Türkiyəyə çox böyük məhəbbət var, - siz bunu hiss etdiniz, - çox böyük sevgi var. Mən Türkiyədə olarkən dəfələrlə bunu ifadə etmişəm. Hörmətli sədr, bir neçə ay bundan öncə Ankarada mənə Beynəlxalq Atatürk Sülh Mükafatı verilərkən orada söylədiyim nitq sizin xatirinizdədir, orada da dedim. Bunun özü Azərbaycan xalqı üçün böyük bir tarixi hadisədir ki, Azərbaycanın prezidenti böyük öndər Atatürkün adını daşıyan Beynəlxalq Sülh Mükafatına layiq görülübdür. Mən bunu təntənəli şəraitdə aldım, sizin hamınız – dövlət də, hökumət də, Böyük Millət Məclisi də - iştirak edirdiniz. Mən bunu həyatımda ən böyük hadisə hesab edirəm.

Xatirinizdədir, o vaxt mən orada dedim ki, həyatımda çox dövlət nişanları, çox mükafatlar almışam, Sovetlər Birliyinin ən yüksək dövlət nişanlarının, mükafatlarının demək olar, hamısını almışam. Yalnız Sovetlər Birliyinin yox, bir neçə başqa dövlətlərin də. Ancaq 1996-cı ildə məni Türkiyənin dövlət nişanı ilə təltif etdilər, hörmətli cümhur başkanı Süleyman Dəmirəl onu mənə təqdim etdi. 1999-cu ildə isə – qərar aprel ayında qəbul olunmuşdur, ancaq xəstəxanada olduğuma görə təqdimat gecikdi – mənə Beynəlxalq Atatürk Sülh Mükafatı verildi. Mən o vaxt da demişəm, bu gün də deyirəm: bu, bizim Azərbaycan xalqına Türkiyə dövləti tərəfindən göstərilən qayğıdır, hörmətdir. Gənc müstəqil Azərbaycan dövlətinə qayğıdır. Yəni bu mükafat təkcə mənə aid deyil, bütün xalqımıza, millətimizə, bütün dövlətimizə aiddir.

Türkiyənin həyatında Böyük Millət Məclisinin çox önəmli yeri var. 1996-cı ildə mən Böyük Millət Məclisində geniş nitq söylədim – ola bilər, sizlərdən orada olanı vardı, xatırlayırsınız. Orada mən dedim ki, keçmişdə, Sovetlər Birliyi zamanı qəzetlərdə yazırdılar ki, Türkiyənin Böyük Millət Məclisi bunu etdi, onu etdi. Bu, hər dəfə bizdə böyük qürur hissi doğururdu. Amma eyni zamanda müxtəlif duyğular yaradırdı. Çünki biz Sovetlər Birliyinin tərkibində olaraq qəlbimizdə Türkiyəyə, Böyük Millət Məclisinə, Mustafa Kamal Atatürk

şəxsiyyətinə böyük hörmətlə yanaşırdıq. Məsələn, Böyük Millət Məclisi xalqımızın, o cümlədən mənim kimi bir insanın gözündə elə bir anlayış idi ki, o, dünyanın ən böyük məclislərindən biridir. Ona görə mən Böyük Millət Məclisində, bütün millət vəkillərinin qarşısında nitq söyləyərkən bu sözləri dedim. Dedim ki, Türkiyə Böyük Millət Məclisinin böyük tarixi var. Birincisi, bunun əsasını qoyan, bunu yaradan, bunun banisi Mustafa Kamal Atatürkdür. İkincisi, bu, böyük demokratiya yolu keçmiş millət məclisidir və Türkiyənin həyatında çox böyük rol oynayır, böyük təcrübəsi vardır.

Ona görə də biz sizin bu təcrübənizdən daim istifadə edirik. Bu baxımdan parlamentlərarası əlaqələrin də çox böyük əhəmiyyəti var. Mənə dedilər ki, siz bu gün Azərbaycanın Milli Məclisində çox dəyərli nitq söyləmisiniz Sizin fikirləriniz, bizim millət vəkillərinin bir-biri ilə daimi əlaqələri təbiidir ki, bizə lazımdır.

Bizim parlament 1995-ci ildə seçilmiş Milli Məclisdir. Bu, gənc parlamentdir. Biz demokratiya qururuq və deyə bilmərəm ki, demokratiyanı istənilən səviyyəyə qaldıra bilmişik. Əgər belə desəydik, bu, yanlış, səhv olardı. Çünki qısa bir müddətdə belə ola bilməz. Türkiyə Böyük Millət Məclisinin nə qədər tarixi var – 1923-cü ildən indiyə qədər. Bəlkə parlament ondan da öncə yaranmışdır, cümhuriyyət ondan sonra yaranmışdır. Elədir, mən səhv etmirəm ki? Nə qədər böyük tarixi var, nə qədər böyük yol keçibdir.

Amma bu gün də yenə, - bu ifadəmə görə üzr istəyirəm, - qüsursuz deyildir. Elədirmi? Ona görə bizim də Milli Məclisimiz yol keçir. Təbiidir, heç də düşünməməliyik ki, bizə 70 il lazımdır ki, gəlib sizin səviyyənizə çataq. Yox, biz sizin təcrübənizdən və dünyanın digər demokratik parlamentlərinin təcrübəsindən istifadə edərək daha da sürətlə gedəcəyik və tez bir zamanda gəlib çatacağıq. Amma bunun üçün zaman lazımdır.

Bu ilin sonunda, noyabr ayında bizdə yeni seçkilər olacaq, çünki beş il bitir. Güman edirəm ki, bu seçkilər daha da demokratik olacaq, Azərbaycan cəmiyyətini daha da geniş təmsil edəcək, Milli Məclisimiz bu beş ildə əldə etdiyi təcrübəni daha da artıracaqdır. Beləliklə, biz müstəqil Azərbaycanı yaşadacaq, inkişaf etdirəcəyik.

Bizim əlaqələrimiz haqqında çox danışmaq olar. Ancaq hesab edirəm, ən böyük nailiyyətimiz bir də odur ki, biz Azərbaycanın Xəzər dənizindəki böyük sərvətlərini – neft və qaz yataqlarını dünyaya təqdim etdik. 1994-cü ildə «Əsrin müqaviləsi»ni imzaladıq. Bu barədə Türkiyə ilə daim bərabər çalışdıq. Nəhayət, Bakı – Ceyhan neft kəmərinin yaranması haqqında noyabr ayında İstanbulda tarixi bir saziş imzaladıq.

Doğrudur, indi bizə çox sual verirlər ki, nə üçün işə başlanmayıbdır? Bunu siz bilirsiniz, biz də bilirik. Türkiyə ilə Azərbaycan bu layihə barədə eyni mövqedədirlər. Amma Gürcüstan bəzi şərtlər qoyubdur. Bu yaxınlarda Ankarada bu barədə danışıqlar getdi. İndi, fevral ayının 12-də Azərbaycanda toplaşacaqlar. Hörmətli Süleyman Dəmirəl Gürcüstanda olarkən orada bu məsələni müzakirə etmişdir. Mən də Moskvada olarkən Gürcüstanın prezidenti Şevardnadze ilə bu barədə danışdım. Hesab edirəm ki, onlar o şərtləri aradan qaldıracaqlar və ondan sonra biz Bakı–Ceyhan neft kəmərinin tikilməsinə başlayacağıq.

Təbiidir ki, bu, əsrlərə xidmət edən bir xətt olacaqdır. Yalnız Azərbaycan neftinin ixrac olunması üçün xətt yox, eyni zamanda dövlətlərimizin bir-biri ilə sıx bağlanması xəttidir. Yəni bu, böyük hadisədir, bunun böyük siyasi əhəmiyyəti var – bizim bölgədə, Azərbaycanda, Türkiyədə, Qafqazda, xüsusən Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsi üçün böyük əhəmiyyəti var. Təbiidir ki, biz bunu da həll edəcək, həyata keçirəcəyik.

Əgər bu məsələlər barəsində danışsaq, neçə saat vaxt lazımdır. Ancaq mən bəzi məsələlərə toxundum. Bir də bildirmək istəyirəm ki, sizin buraya ziyarətiniz, təbiidir ki, bizim ictimaiyyət üçün çox əhəmiyyətlidir və xalqlarımız, dövlətlərimiz arasında əlaqələrin daha da yüksəklərə qalxmasına yardım edəcəkdir. Buna görə də sizə və sizin bütün nümayəndə heyətinə öz təşəkkürümü bildirirəm.

**İRAN İSLAM RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB SEYİD MƏHƏMMƏD XATƏMİYƏ**

Hörmətli cənab prezident!

İran İslam Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizə, qonşu və dost İran xalqına səmimi salamlarımı və təbriklərimi yetirirəm.

Mən ölkələrimiz arasında dostluq və hərtərəfli əməkdaşlıq münasibətlərinin inkişaf edib möhkəmlənməsinə xüsusi əhəmiyyət verirəm.

İnanıram ki, xalqlarımızın qədim tarixə malik dini, mənəvi, mədəni-iqtisadi əlaqələri qarşılıqlı səylərlə hər iki ölkənin mənafeyi naminə genişlənib möhkəmlənəcək, regionumuzda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

Fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı və uğurlar, ölkənizə firavanlıq və tərəqqi arzulayıram.

*Hörmət və ehtiramla,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 fevral 2000-ci il*

**İRAN İSLAM RESPUBLİKASININ**
**ALİ DİNİ RƏHBƏRİ AYƏTULLAH**
**SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ**

Möhtərəm qardaşım!

İran İslam Respublikasının milli bayramı – İnqilab günü münasibətilə Sizi, dost və qardaş İran xalqını ürəkdən təbrik edir, Sizə möhkəm cansağlığı və səadət, xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

Biz yaxın qonşumuz olan İran dövləti ilə dostluq və hərtərəfli əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk.

Əminəm ki, qarşılıqlı əlaqələrimizin genişlənməsi tarixən bir-birinə bağlı olan xalqlarımızın rifahının yüksəlməsinə, regionumuzda sülh və əmin-amanlığın təmin olunmasına xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 fevral 2000-ci il*

## ABŞ-ın «DEVON ENERJİ KORPOREYŞN» ŞİRKƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*10 fevral 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Sizi səmimi-qəlbdən salamlayıram. Mənə məlumat veriblər ki, siz buraya gəlmisiniz və bir neçə görüş keçirmisiniz, mənimlə də görüşmək istəyirsiniz. Ancaq bu gün işim o qədər çox olub ki, görürsünüz, sizinlə belə gec görüşürəm. Sizin şirkət barədə və «Pennzoyl» şirkətini almağınız haqqında mənə məlumat veriblər. Başa düşürəm ki, siz Azərbaycana gəlib burada əməkdaşlıq edəcəksiniz. Buyurun, sizi dinləyirəm.

**L ə r r i N i k o l s** (*«Devon Enerji Korporeyşn» şirkətinin prezidenti və baş icraçı direktoru*): Cənab prezident, çox sağ olun ki, gərgin iş cədvəlinizdən vaxt ayırıb bizi qəbul edirsiniz. Sizi yeni yüzillik, habelə Davosda keçirdiyiniz uğurlu görüşlər münasibətilə təbrik etmək istəyirik və Birləşmiş Ştatlara səfərinizdə Sizə uğurlar diləyirik.

İcazə verin, ən əvvəl atamı Sizə təqdim edim: Con Nikols şirkətin fəxri sədri və təsisçisidir. Bu yaxınlarda ABŞ-da ən güclü və təsirli 100 neft-qaz hasilatçısından biri elan olunmuşdur.

**H e y d ə r Ə l i y e v:** Təbrik edirəm.

**L ə r r i N i k o l s:** Sizinlə görüşməkdən məqsədimiz «Devon Enerji Korporeyşn» şirkətini Sizə təqdim etməkdir. Keçən il «Pennzoyl» şirkəti ilə birləşdikdən sonra biz hazırda ABŞ-da neft və qaz sənayesi sahəsində fəaliyyət göstərən ən güclü 10 şirkətdən birinə çevrilmişik. Hazırda bizim ehtiyatlarımız 670 milyard barrelə bərabərdir. Neftin ekvivalenti kimi götürdükdə hər gün 230 min barrel qaz və neft hasil edirik. Şirkətimizin ümumi qiyməti təxminən 6 milyard dollardır. Biz çox sürətlə inkişaf edirik, keçən il faktiki olaraq 2 dəfə böyümüşük. Ümumiyyətlə, şirkətimiz 11 il bundan əvvəl təsis olunub və ötən müddətdə 84 dəfə böyümüşdür.

«Pennzoyl»la birləşdikdən çonra da xarici ölkələrdə əməliyyatlarımız davam edir. Braziliyada, Venesuelada, Misirdə, ən vacibi isə Azərbaycanda işimiz var. Fəxrlə deyə bilərik – biz Azərbaycanda işləyən şirkətlər arasında yeganə şirkətik ki, ən böyük payımız, istehsal gücümüz buradadır. Bizə burada fəaliyyətimizi daha da genişləndirməyi məsləhət görüblər.

Məqsədimiz «Pennzoyl» şirkətinin Azərbaycanda başladığı fəaliyyəti davam etdirmək və mümkün qədər genişləndirməkdir. Burada bizim ofisimiz fəaliyyət göstərir və ona cənab İqor Yefimof rəhbərlik edir. Biz ofisimizi də genişləndirmək əzmindəyik.

«Pennzoyl» şirkətinin başladığı proqramı da davam etdiririk. Bu, bizim sponsorluq etdiyimiz proqramdır və azərbaycanlı tələbələrin ABŞ-da təhsil almasına maliyyə cəhətdən yardım göstəririk. Ümidvarıq ki, onlar təhsillərini başa vurduqdan sonra Azərbaycana yaxşı mütəxəssis kimi dönəcəklər.

Məlum olduğu kimi, «Pennzoyl» şirkəti uşaq vərəm sanatoriyasının yenidən qurulmasında böyük işlər görmüşdür. Keçən il biz sanatoriyaya əlavə çarpayılar da vermişik, ötən ay isə dava-dərman ayırmışıq. Eyni zamanda mədəniyyət sahəsində də sponsorluğumuzu davam etdirir, muzeylərlə bağlı proqramlarda fəal işləyirik.

«Devon Enerji Korporeyşn»in Azərbaycanda çox az vaxt ərzində fəaliyyət göstərməsinə baxmayaraq, öyrənmişik ki, ölkənizə qarşı 907-ci maddə var, ABŞ tərəfindən çox böyük ədalətsizlik olmuşdur. Bununla əlaqədar, mən prezident Bill Klintona məktubla müraciət etmişəm və onun surətini Sizə çatdıracağam. Digər şirkətlərin bu məsələ ilə bağlı əsas diqqəti nəyə yönəltdiklərini bilmirəm, lakin mən bu sahədə Azərbaycana yardımçı olmaq üçün əlimdən gələni edəcəyəm. Öz ştatımdan olan senatorlarla çox sıx işləyəcəyəm ki, bu məsələni onların diqqətinə çatdırım.

Məlum olduğu kimi, biz «Pennzoyl»un ABƏŞ-də başladığı işi davam etdiririk və ümidvarıq ki, bu, uğurlu olacaqdır. Bu yaxınlarda «Qarabağ» yatağında yeni quyular qazmışıq. Məlum olduğu kimi, bu, 1996-cı ildə imzalanmış müqavilənin bir hissəsidir. Kommersiya baxımından orada işi davam etdirmək bir o qədər də sərfəli deyil, ona görə də lisenziyaları ARDNŞ-ə qaytarmışıq. Zənnimizcə, elə bir vaxt gələcək ki, olada işləmək kommersiya baxımından faydalı olacaq və biz işimizi davam etdirəcəyik.

**H e y d ə r Ə l i y e v:** Doğrudur.

**L ə r r i N i k o l s:** Biz qazdan istifadə stansiyasında da fəal iştirak edirik. Məlum olduğu kimi, həmin stansiya 1 milyard kubmetr qaz verir. Lakin bu stansiya ilə əlaqədar bir problemimiz var və ümidvarıq ki, Sizin köməyinizlə onu da həll edəcəyik. Biz Azərbaycanda uzunmüddətli işə qatılmışıq və ümid edirik ki, əməkdaşlığımız davamlı olacaqdır.

Bu görüşə əliboş gəlməmişik, bir hədiyyəmiz var və onu Sizə təqdim etmək istəyirik. Bu, məşhur Amerika heykəltəraşı Frederik Reminqtonun «Kovboy» əsəridir. Onda irəliləyiş ruhu var və bizim Oklahoma ştatında bu ruh çox yüksək olmuşdur. Cənab prezident, elə bilirik ki, bu heykəldə Sizin də irəliyə doğru getmək əzminiz əks olunmuşdur.

**H e y d ə r Ə l i y e v:** Sizin verdiyiniz məlumatlar əsasında işlərinizlə tanış oldum. Bu məlumatlara görə təşəkkür edirəm.

Biz «Pennzoyl» şirkəti ilə çox sıx əməkdaşlıq etmişik, onların gördükləri işlərin hamısını – sponsorluğunu, başqa işlərini bilirəm. Mən hiss etdim ki, siz bunları davam etdirirsiniz. Hesab edirəm, siz ki belə niyyətlərlə Azərbaycana gəlmisiniz, burada uğurla işləyə bilərsiniz.

«Pennzoyl» şirkəti buraya ən ilk gələn şirkətlərdən biri idi. Sonra, bilmirəm, onun daxilində nə oldusa, burada işini zəiflətdi. Amma biz onun üçün çox böyük imkanlar yaratmışdıq. Mən hiss edirəm ki, siz burada çox ciddi işlər görmək istəyirsiniz. Mən də burada ciddi, məsuliyyətlə iş görən hər bir şirkəti dəstəkləmişəm və bu gün də dəstəkləyirəm. Əmin ola bilərsiniz ki, sizin şirkətin Azərbaycanda geniş fəaliyyət göstərməsi üçün müvafiq təkliflərinizə diqqətlə baxılacaq və bu barədə sizə lazımi kömək ediləcəkdir.

907-ci maddəyə sizin münasibətinizi mən çox qiymətləndirirəm. Bəzi şirkətlər də təşəbbüs göstərib prezident Klintona məktublar göndərmişlər. Ancaq heç də hamısı yox. Siz indi Azərbaycanda işə başlayarkən bu məsələyə diqqət yetirdiyinizə görə mən bunu qiymətləndirirəm. Amerika ədalətli ölkədir, amma ədalətsiz işlər də görülür. Bunlardan biri də 907-ci maddədir.

Çalışın, çünki əgər bu işdə hansısa günahımız olsaydı, biz heç kəsi buna cəlb etməzdik. Azərbaycan günahsız olaraq cəzalanıb və bu cəzanı da üstündən götürmək mümkün olmur. Bu, çox qəribədir. Hər halda, mən ümid edirəm ki, bu problemi həll etməyimiz üçün sizin də səyləriniz müəyyən kömək olacaqdır.

Hədiyyənizə görə təşəkkür edirəm. Əgər sizin şirkət belə sürətlə irəliyə getməyə çalışarsa, deməli, Azərbaycanda sizin üçün meydan var. Biz də həmin sürətlə irəliyə getməyə çalışırıq. Ona görə qısa müddətdə çox böyük nailiyyətlər əldə etmişik. Amma bunların nəticələri hələ qabaqdadır, irəlidədir. İrəliyə də sürətlə gedirik.

Mən çox məmnunam ki, sizinlə tanış oldum. Çox məmnunam ki, atanızı da gördüm, tanıdım və tanış oldum. Güman edirəm bundan sonra Azərbaycana tez-tez gələcəksiniz və şübhə etmirəm ki, Azərbaycanı sevəcəksiniz. Çünki xalqımız qonaqpərvər, mehriban xalqdır. Ölkəmiz təbiətcə gözəldir. İşləri də elə aparırıq ki, qonaq gələn insanların hamısı bizdən razı olsun. Sizə bir daha təşəkkür edirəm. Çox sağ olun.

## BAKI DÖVLƏT UNİVERSİTETİNİN 80 İLLİYİ MÜNASİBƏTİLƏ BDU-nun VƏ BİR SIRA XARİCİ ÖLKƏ UNİVERSİTETLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*Prezident sarayı*

*11 fevral 2000-ci il*

Hörmətli alimlər!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Azərbaycan Dövlət Universitetinin – indi ona Bakı Dövlət Universiteti deyirlər – 80 illik yubileyi münasibətilə mən həm Azərbaycana gəlmiş qonaqlarla, həm də universitetin alimləri ilə bu gün qısamüddətli bir görüş üçün fürsət əldə etmişəm.

Azərbaycan Dövlət Universiteti tariximizdə çox böyük yer tutur. Məlumdur ki, o, 1919-cu ildə Azərbaycanda xalq cümhuriyyəti hakimiyyətdə olduğu zaman təşkil edilmiş və xalqımızın tarixində ilk universitetdir. Bu universitet təkcə bizim xalqımızın yox, ümumiyyətlə, Şərq aləminin ilk dünyəvi universitetidir. O, 80 illik fəaliyyəti dövründə Azərbaycana xidmət edibdir və Azərbaycanda təhsilin, elmin inkişafında böyük nailiyyətlər əldə edibdir.

İndi Azərbaycanda universitetlər də çoxdur. Bizim 1945-ci ildə yaranmış Elmlər Akademiyamız, böyük alimlərimiz vardır. Bizdə təhsil çox inkişaf edibdir. Azərbaycanda demək olar ki, təhsil almayan adam yoxdur. Azərbaycanda ümumi icbari təhsil sistemi çoxdan yaranıbdır və həyata keçirilir. Bütün bunların hamısında Azərbaycanın universitetlərinin, yəni ali məktəblərinin çox böyük əməyi, xidməti vardır. Bunların içərisində isə Bakı Dövlət Universiteti xüsusi yer tutur. Çünki son illər Azərbaycanda yaranan bir çox universitetlər, ali təhsil ocaqları Bakı Dövlət Universitetindən ayrılaraq müstəqil ali məktəbə, universitetə çevriliblər.

Bütün bunlara görə də Bakı Dövlət Universiteti Azərbaycanda çox böyük hörmətə malikdir. Təbiidir ki, onun tarixi həmişə bizim arzu etdiyimiz, istədiyimiz kimi olmayıbdır. Yaranandan sonra onun həyatında böyük nailiyyət nümayiş etdirən dövrlər də olubdur. Ancaq totalitar rejim dövründə, xüsusən 1930-cu illərdə Azərbaycanda ziyalılara və bir çox elm, təhsil adamlarına ədalətsiz münasibət göstərilən zaman, onlar repressiya edilən zaman universitetin də görkəmli şəxsiyyətləri repressiya qurbanları olublar.

Sonrakı dövrlərdə də, xüsusən Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra da Bakı Dövlət Universitetinin bu günə gəlib çatması üçün çox işlər görmək lazım idi. Yəni demək istəyirəm ki, universitetin tarixi, ümumiyyətlə, təbiidir, hər bir tarix müxtəlif mərhələlərdən ibarətdir. Mən çox məmnunam ki, Bakı Dövlət Universiteti indiyə qədər olduğu kimi, Azərbaycan ali təhsilinin önündə gedir. O, Azərbaycanda olan bütün universitetlərin, institutların və digər ali təhsil ocaqlarının hamısına örnəkdir, gözəl təcrübə əldə edibdir.

Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin 50 illik yubileyində iştirak etmişəm, Azərbaycanın o vaxtkı rəhbəri kimi, həmin yubileyin hazırlanmasında, təşkil olunmasında lazımi tədbirlər görmüşəm və universitetin professorları, müəllimləri, tələbələri ilə görüşlər keçirmişəm. Mənim ondan sonra da universitetlə əlaqəm olubdur. Universitetin 60 illiyi də, 50 illiyində olduğu kimi, mənim iştirakımla keçibdir. Çünki mən o vaxt da Azərbaycanın rəhbəri idim. Düşünürəm ki, universitetin 70 illiyi qeyd olunmayıbdır. O vaxt mən Azərbaycanda deyildim. Ancaq biz universitetin 75 illik yubileyini çox böyük təntənə ilə qeyd etdik. Biz möhtəşəm Respublika sarayında böyük yubiley tədbiri keçirdik. İndi universitetin 80 yaşı tamam olubdur və təkliflər verildi ki, bu yubileyi də qeyd edək. Belə çıxır ki, biz universitetin yubileyini hər beş ildən bir qeyd edəcəyik. Bəlkə bu da təbiidir. Çünki, yenə də deyirəm, universitet Azərbaycanın təhsil sistemində və cəmiyyətimizdə xüsusi yerə malikdir.

Son zamanlar universitetin işində böyük dəyişikliklər meydana çıxıbdır. Onlar bizim ictimaiyyət tərəfindən də böyük rəğbətlə qarşılanır. Hesab edirəm, universitetin işinin canlanması həm professor-müəllim heyətini, həm də tələbələri ruhlandırır.

İndi bizim təhsil sahəsində islahatlarımız həyata keçirilir. Təbiidir ki, bu islahatlar da müəyyən çətinliklərlə rastlaşır. Çünki biz 70 il sovet sosialist sistemində yaşamışıq və Azərbaycanda təhsil həmin hökumətin, dövlətin prinsipləri əsasında qurulubdur.

Mən qeyd etmək istəyirəm ki, o dövrün təhsil sistemi çox yaxşı təhsil sistemi olubdur. Əgər o olmasaydı, Azərbaycanda qısa bir zamanda təhsil, xalqın savadlanması, elmin inkişafı sahəsində belə müsbət dəyişikliklər olmazdı. Biz, indi yaşayan adamlar və bizdən gənc olan insanların hamısı həmin təhsil sisteminin bəhrələriyik. Biz, burada oturanların hamısı, Azərbaycanın bütün alimləri o təhsil sistemində – həm orta, həm də ali məktəbdə təhsil almışıq. Ona görə də mən sovet hakimiyyəti dövründəki təhsil sistemini yüksək qiymətləndirirəm. İndi konyunkturaya uyan bəzi adamlar vardır. Beləläri dünən bir söz, bu gün bir söz deyirlər, sabah başqa bir

söz deyəcəklər. Ola bilər ki, belə adamlar cəmiyyətdə müvəqqəti uğur qazana bilsinlər. Ancaq cəmiyyət onları heç vaxt ciddi qəbul etmir.

Tarixi təhrif etmək olmaz. Tarixdə hər şeyin öz yeri vardır. O nə sizdən, nə bizdən, nə də heç kəsdən asılı deyildir. Tarix obyektiv bir prosesdir. Bu obyektiv prosesə təsir etmək, müəyyən vaxtlarda onu zəiflətmək, gücləndirmək, məcrasından çıxarmaq olar. Müxtəlif hallar ola bilər. Amma bu obyektiv prosesi dayandırmaq və ona ciddi təsir göstərmək mümkün deyildir. Bu tarixdir.

Bizdə tarixi təhrif edənlər olubdur. Sovet hakimiyyəti qurulandan sonra keçmiş tariximiz təhrif edilibdir. Təəssüflər olsun ki, indi, sovet hakimiyyəti dağılandan sonra yenə də keçmişi təhrif edirlər. Bilirsiniz, o vaxtkı dövrdən ibrət götürmürlər. Siz alimlərsiniz, bunu bilirsiniz. Hesab edirəm ki, bu sözləri sizə deməyimin elə bir əhəmiyyəti yoxdur. Ancaq bu sözləri sizə deyərkən mən öz mövqeyimi bildirirəm. Mənim də mövqeyim ondan ibarətdir ki, Azərbaycan xalqı, təhsili 70 illik sovet hakimiyyəti dövründə böyük inkişaf yolu keçibdir. Xalqımız təhsillənib, yüksək təhsilə, elmə malik olubdur. Xalqımızın mədəniyyəti yüksəlib və respublikamız o vaxt da, indi də dünyəvi dövlət, ölkə kimi bütün başqa dövlətlərlə bir yerdədir. Ola bilər, bir çox ölkələr daha da çox inkişaf edibdir. Məsələn, bəziləri az inkişaf edibdir. Bu da təbiidir: dünya da müxtəlifdir.

Ona görə də bu fikirləri sizə çatdıraraq bildirmək istəyirəm ki, o dövrün təhsil sistemi heç də pis deyildi. Mən ondan məmnunam. Çünki mən özüm də o təhsil sisteminin yetişdirməsiyəm, başqaları da, siz də həmin təhsil sisteminin yetişdirmələrisiniz. Amma o təhsil sistemi Sovetlər İttifaqı, sovet hakimiyyəti qapalı dövlət şəraitində yaşadığı bir zaman ancaq o hakimiyyətə məxsus bir sistem idi. İndi isə biz müstəqil ölkəyik. Təkcə biz yox, elə Rusiyada da, keçmiş Sovetlər İttifaqına mənsub olmuş, indi müstəqil dövlət olan ölkələrdə də bu proseslər gedir. İndi biz istəyirik ki, ölkəmizin bütün sahələrində proseslər dünya ilə tam uyğun formalarda inkişaf etsin. Təhsil sahəsində islahatların keçirilməsi məhz bu məqsədi daşıyır. Bizim təhsilin məzmunu yüksəkdir. Amma onun forması və təhsilin bəzi ayrı-ayrı mərhələlərdə müddəti, yaxud onların nəticəsi indi dünyada, xüsusən Qərb ölkələrində, inkişaf etmiş ölkələrdə olan sistemlərdən bir az fərqlidir. Ona görə də indi biz bu islahatları həyata keçiririk ki, bizim təhsil sistemi də həmin o ümumdünya təhsil sisteminə uyğun olsun.

Azərbaycanda bu proses gedir və biz bu prosesi aparacağıq. Ümidvaram ki, hər bir keçid dövrü, hər bir proses, ola bilər, bir müddət işləri zəiflədir. Amma sonra – qarşıda qoyulan məqsəd əldə edilən zaman inkişaf sürətlənir. Təbiidir ki, bu, bizim təhsil sahəsində də, Bakı Dövlət Universitetinin həyatında da belə olacaqdır.

Bu gün burada qonaqlarımız vardır. Mənə dedilər ki, dost, qardaş Türkiyədən bir çox universitetlərin rektorları buraya gəliblər. Moskva universitetinin rektoru buraya gəlibdir. Gürcüstanın Tbilisi universitetinin rektoru buradadır. Başqa qonaqlar da vardır. Bunlar çox sevindirici haldır. Bunlar bizim həyatımızın yeni bir mənzərəsidir.

Biz keçmişdə Sovetlər İttifaqının tərkibində olanda – təbiidir ki, universitetin 50 illik, 60 illik yubileyləri mənim xatirimdədir – nümayəndələr yalnız Sovetlər İttifaqının daxilindəki cümhuriyyətlərdən, yaxud da ki, ali məktəblərdən gəlirdi. Ancaq indi dünyanın hər yerindən qonaqlar gəlir. Elə bu da bizim müstəqilliyimizin və müstəqilliklə əlaqədar olaraq ölkələrimizin – Azərbaycanın və başqa ölkələrin dünya prosesinə qoşulmasının nəticəsidir. Mən qonaqlarımızı səmimi-qəlbdən salamlayıram və onlara təşəkkür edirəm ki, vaxt tapıb gəliblər. Onlar həm universitetlə tanış olacaqlar, arzu edərdik ki, həm də Azərbaycanın bu günü ilə tanış olsunlar. Əminəm ki, bizim universitetlərin, xüsusən Bakı Dövlət Universitetinin dünyanın bir çox universitetləri ilə əlaqələri daha da geniş olacaqdır.

Mən bildiyimə görə, indi bu əlaqələr çox genişdir. Amma bu əlaqələr təkcə ondan ibarət deyildir ki, yubileyə kim gəlib, kim gəlməyibdir. Bu əlaqələr genişdir və mənim bu barədə məlumatım vardır. Bu da son illərin nailiyyətidir. Bu da bizim müstəqilliyimizin nailiyyətidir.

Bir daha qeyd edirəm, biz keçmişə layiqli qiymət verərək, eyni zamanda, Azərbaycanda əldə etdiyimiz dövlət müstəqilliyini xalqımız, millətimiz üçün tarixi hadisə, böyük nailiyyət hesab edirik. Əminəm ki, Azərbaycan bundan sonra da daim müstəqil dövlət olacaqdır.

Bu müstəqillik dövründə keçid mərhələsinin bir çox çətinliklərinə baxmayaraq – ölkəmizdə bu çətinliklər həm daxili, həm də xarici vəziyyətlə əlaqədar olubdur – Azərbaycan artıq 1995-96-cı illərdən inkişaf mərhələsinə başlayıbdır. Azərbaycanda bir zaman – 1989–90-cı illərdən iqtisadiyyat ilbəil tənəzzül etdi. Amma 1995–96-cı illərdən Azərbaycanda bu islahatların keçirilməsi və yeni iqtisadi sistemin tətbiq olunması ölkəmizin iqtisadi inkişafını təmin edibdir.

Biz bütün sahələrdə, o cümlədən iqtisadi sahədə islahatlar həyata keçiririk. İqtisadiyyat genişdir – sənaye də, infrastruktur da, nəqliyyat da, kənd təsərrüfatı da var. Biz bütün bu sahələrdə islahatlar aparırıq, özəlləşdirmə proqramı həyata keçiririk. Bunların da nəticəsində nailiyyətlərimiz vardır. Doğrudur, bu nailiyyətlər bizim istədiyimiz səviyyədə deyildir. Birincisi, ona görə ki, keçid dövründə bundan artıq bir şeyə nail olmaq bəlkə də mümkün deyildi. İkincisi də, bilirsiniz ki, keçmiş Sovetlər İttifaqına məxsus olmuş başqa respublikalardan fərqli olaraq Azərbaycan müstəqilliyini əldə edən zamandan Ermənistanla müharibə vəziyyətindədir.

Bilirsiniz ki, 1988-ci ildən Ermənistan Azərbaycana qarşı torpaq iddiası və Dağlıq Qarabağı Ermənistana birləşdirmək iddiası irəliyə sürərək münaqişəyə başlamışdır, sonra bu münaqişə müharibəyə çevrilmişdir. Bu müharibə nəticəsində çoxlu qanlar tökülüb, çoxlu itkilər verilibdir.

Müxtəlif obyektiv və subyektiv səbəblərdən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ərazisinin 20 faizi işğal olunubdur. İşğal olunmuş torpaqlardan bir milyondan çox azərbaycanlı vətəndaşlarımız öz yerlərindən-yurdlarından çıxarılıblar. Onlar artıq 7 ildir ki, ağır şəraitdə və əksəriyyəti çadırlarda yaşayırlar. Bu, bizim həyatımızda həm sosial-iqtisadi, həm də siyasi nöqteyi-nəzərdən ağır, ən çətin problemdir.

Biz 1994-cü ildən Ermənistan ilə atəşin kəsilməsi haqqında saziş imzalamışıq. Biz buna həmişə riayət edirik. İndi artıq döyüş, müharibə yoxdur. Amma hələ sülh də yoxdur. Biz beynəlxalq təşkilatlar – ATƏT, onun tərkibində olan Minsk qrupu vasitəsilə, Minsk qrupunun həmsədrləri – Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Fransanın iştirakı ilə sülh danışıqları aparırıq. Amma eyni zamanda, son zamanlar Ermənistan və Azərbaycan prezidentlərinin bilavasitə görüşlərinin keçirilməsi lazım olubdur. Biz bunu da həyata keçiririk. Azərbaycana çox böyük zərbələr vurulmasına baxmayaraq, bizim məqsədimiz məsələni sülh yolu ilə həll etməkdən ibarətdir. Ümid edirəm ki, biz buna nail olacağıq.

Azərbaycanın bu ağır problemi başqa ölkələrdə yoxdur. Doğrudur, Gürcüstan da buna bənzər bir problemlə yaşayır – orada Abxaziya münaqişəsi vardır, onlarda da qaçqınlar, köçkünlər vardır. Rusiyanın da özünün problemləri vardır. Böyük Rusiya üçün Çeçenistan problemi elə böyük bir problem deyildir. Amma bizim 8 milyon əhalimizdən bir milyonu qaçqın vəziyyətindədirsə, torpaqlarımızın 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadırsa, demək, bu, başqa ölkələrdən çox fərqlidir.

Yenə də deyirəm, bu, bizim həyatımızı həm gərginləşdirir, həm, təbiidir ki, iqtisadi inkişafımızın sürətinin artmasına maneçilik törədir, həm də siyasi nöqteyi-nəzərdən bizim üçün zərərlidir. Amma güman edirəm ki, biz münaqişənin sülh yolu ilə həllinə nail olacağıq.

Məmnuniyyətlə deyə bilərəm ki, bütün bu çətinliklərə baxmayaraq, Azərbaycanda təhsil davam edibdir. Məktəblər var, hətta o çadır şəhərciklərində də məktəblər yaradılıbdır – çadırda yaşayan uşaqlar məktəbə gedirlər, təhsil alırlar. Yəni Azərbaycanda təhsildən kənarda uşaq, gənc yoxdur. Bizim Təhsil Nazirliyimiz və universitetlərimiz də bu sahədə öz fəaliyyətlərini göstərirlər.

Bu gün mən qonaqlarımızı böyük məmnuniyyətlə salamlayıram. Moskva Dövlət Universiteti keçmiş Sovetlər İttifaqında çox böyük nüfuza malik olmuş yüksək təhsil ocağıdır. O, Sovetlər İttifaqının bütün universitetləri üçün həmişə nümunə idi. Mənim həyatım belə olubdur ki, Moskvada işləyərkən – Sov.İKP MK Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olarkən bir neçə digər sahə ilə yanaşı, bu sosial-mədəni sahəyə də rəhbərlik edirdim. O cümlədən, bütün təhsil sahəsi mənim rəhbərliyim altında idi. O vaxt Sovetlər İttifaqında təhsillə bağlı üç nazirlik – Ali Təhsil Nazirliyi, Maarif Nazirliyi (bu, orta məktəblər nazirliyi idi) və Texniki Peşə Məktəbləri Nazirliyi – var idi. Bu üç nazirlik Nazirlər Soveti sədrinin birinci müavini kimi mənə bağlı idi. Ona görə də, təbiidir ki, o vaxt mən bu nazirliklərlə yaxından işləyirdim, onların müxtəlif tədbirlərində, kollegiya iclaslarında iştirak edirdim.

Xatirimdədir, o vaxt Sovetlər İttifaqında 850-yə qədər universitet var idi. Mən o zaman Ali Təhsil Nazirliyində bütün universitet rektorlarının toplaşdığı geniş müşavirələrdə bir-iki dəfə iştirak etmişəm, nitq söyləmişəm və bu işlərlə çox ciddi məşğul olmuşam. 1983-cü ildə biz Sovetlər İttifaqında ilk dəfə məktəb islahatı keçirdik. Məktəb islahatı haqqında qanunların, bütün qərarların hazırlanması mənə həvalə olunmuşdu, həmin komissiyaya mən rəhbərlik edirdim. Mən o vaxtkı Sovetlər İttifaqının parlamentində – Ali Sovetində bu barədə böyük məruzə etmişəm və həmin islahat qanunlarının və qərarlarının, demək olar ki, müəllif heyətinə başçılıq etmişəm. Ona görə də mən bunları bilirəm.

Bu baxımdan Moskva Dövlət Universitetini də çox yaxşı tanıyıram. O vaxt bu universitetin rektoru akademik Loqunov idi. O, mənə tez-tez müraciət edərdi. Mən də Moskva Dövlət Universitetinə xüsusi qayğı göstərərdim, kömək edərdim. Xüsusən, onların inşaat, maliyyə və digər işləri ilə ciddi məşğul olardım.

Moskva Dövlət Universiteti Azərbaycanda böyük hörmətə malik olubdur. 1970-ci illərdə – mən burada işləyərkən biz Azərbaycanda yüksək səviyyəli kadrların hazırlanması ilə çox ciddi məşğul olurduq. Təbiidir ki, bu kadrların hazırlanması işinin böyük bir hissəsi Azərbaycanın universitetləri, ali məktəbləri, institutları vasitəsilə aparılırdı. Amma Azərbaycanın rəhbəri kimi, şəxsən mən bunu yetərli hesab etmirdim. İstəyirdim ki, bizim gənclər təkcə öz respublikasında – Azərbaycanda yox, kənarda da təhsil alsınlar. Təbiidir ki, o vaxt bizim imkanımız yox idi ki, gənclərimizi Almaniyaya, İngiltərəyə, Fransaya, Amerikaya təhsil almağa göndərək – bu imkan bizdə yox idi. Amma Sovetlər İttifaqının müxtəlif universitetlərində gənclərimizin təhsil alması üçün imkan əldə etmişdik. O vaxt mənim təşəbbüsümlə, sovet hökumətinin qərarı ilə Azərbaycandan ildə 800–850 gənc, demək olar ki, güzəştli imtahanlarla Sovetlər İttifaqının təxminən 40–45 şəhərindəki universitetlərə göndərilirdi.

Biz o vaxt gənclərimizi təhsil almağa ən çox Moskva Dövlət Universitetinə göndərməyə çalışırdıq. Xatirimdədir, biz ildə təxminən 150 gənci Moskva Dövlət Universitetinə göndərirdik. İndi onların çoxu ali təhsil

alıb, sonra alim olublar, elmi dərəcə qazanıblar, bəziləri Rusiyada qalıb işləyiblər, çoxları Azərbaycana qayıdıblar. Ona görə də Moskva Dövlət Universitetinin rektorunun burada olması məni çox sevindirir.

Türkiyə Cümhuriyyətinin universitetləri ilə bizim əlaqələrimiz Azərbaycanda dövlət müstəqilliyi əldə olunandan sonra yaranıbdır. Amma bu əlaqələr çox sürətlə inkişaf edir. Mən bundan çox məmnunam.

Türkiyədə universitetlər tarix nöqteyi-nəzərindən Azərbaycandan xeyli sonra yaranıbdır. İndi bizim türk dostlarımız bu barədə bilməlidirlər ki, Azərbaycan çox irəlidə olubdur. Türkiyədə universitetlər yaranandan sonra bu proses çox sürətlə inkişaf edibdir. Ona görə də indi Türkiyənin çox yüksək elmi, texniki, maliyyə potensialına malik olan böyük universitetləri vardır. Mən onların bir neçəsində olmuşam və olduğum universitetlərdə mənə fəxri doktor adları verilibdir.

Mən yenə də deyirəm, biz Gürcüstanla dost, qardaş bir ölkəyik. Azərbaycan, Gürcüstan, Ermənistan Cənubi Qafqazda üç ölkədir. Təbiidir, bu ölkələr o illərdə dostluq, əmin-amanlıq şəraitində yaşayırdı. Ermənistan, Gürcüstan ilə Azərbaycan arasında da çox yaxın dostluq var idi. Ancaq sonra Ermənistanın Azərbaycana torpaq iddiası ilə əlaqədar Ermənistanla əlaqələrimiz nəinki pozuldu, hətta müharibə vəziyyətinə gəlib çıxdı.

Sovetlər İttifaqı dağılandan sonra, müstəqillik əldə edəndən sonra Gürcüstanın da həyatında çox ağır proseslər getməsinə baxmayaraq, o öz müstəqilliyini qoruyub saxlayıb, inkişaf etdirir. Gürcüstan ilə Azərbaycan arasında əlaqələr səmimi dostluq, qardaşlıq əlaqələridir. Bu, bizim üçün xüsusi əhəmiyyət daşıyır. Tbilisi universiteti də çox böyük, hörmətli bir universitetdir. Mən məmnunam ki, bu universitetin də fəxri doktoru adına layiq görülmüşəm. Mən çox şadam ki, Tbilisi universitetinin rektoru da burada iştirak edir.

Burada bizim universitetin mötəbər alimləri vardır. Mən sizinlə tez-tez görüşürəm. Amma bəlkə də daha tez-tez görüşmək istəyirəm. Təbiidir ki, mən bu 80 illik yubileydə də 50 illik, 60 illik, 75 illik yubileylərdə olduğu kimi, bilavasitə iştirak etmək istəyirdim, ancaq mən sabah səhər Amerikaya yola düşürəm, burada olmayacağam. Ona görə də belə məsləhət gördüm ki, burada bir görüş keçirək.

Mən Bakı Dövlət Universitetinin 80 illik yubileyi münasibətilə təbrik məktubu göndərmişəm, orada öz fikirlərimi, arzularımı ifadə etmişəm. Bu gün sizi bir daha təbrik edirəm və universitetə yeni-yeni uğurlar arzulayıram.

Mən bu gün Bakı Dövlət Universitetinin fəaliyyətinə yüksək qiymət verərək, universitetin alimlərinin, müəllimlərinin Azərbaycanın fəxri adlarını alması, orden və medallarla təltif edilməsi haqqında fərmanlar imzalamışam. Yəqin ki, o fərmanlar bu gün sizə çatacaqdır.

Deyə bilərəm ki, mən yeddi ildir Azərbaycana müstəqillik dövründə rəhbərlik edirəm, ilk dəfədir ki, belə bir geniş təltif fərmanı imzalayıram. Doğrudur, bizim ordumuzda, döyüşlərdə fəal iştirak etmiş və canlarını qurban vermiş, şəhid olmuş gənclərimizin qəhrəmanlığını, şücaətini qiymətləndirən fərmanlarım olubdur. Ancaq həyatımızın başqa sahəsinə aid bu gün imzaladığım kimi fərmanlarım indiyə qədər olmamışdır. Bu da mənim – Azərbaycan prezidentinin Bakı Dövlət Universitetinə verdiyim yüksək qiymətdir.

Sizi bir daha təbrik edirəm. Sizə yeni-yeni uğurlar arzulayıram və ümidvaram ki, universitet bundan sonra da öz nailiyyətləri ilə xalqımıza xidmət edəcəkdir, islahatların həyata keçirilməsini tamamlayacaqdır və öz səviyyəsini – həm təhsil, tərbiyə, həm də elm səviyyəsini daha da yüksəldəcəkdir.

Təşəkkür edirəm ki, siz məni dinlədiniz. İndi əgər siz də mənə bir söz demək istəyirsinizsə, buyurun. Mən vaxtı çox aldım, amma sizə çox vaxt verə bilmərəm. Çünki mənim bu gün işlərim çoxdur.

**Abel Məhərrəmov** (*Bakı Dövlət Universitetinin rektoru, professor)*: Möhtərəm cənab prezident!

İlk növbədə istərdim ki, vaxtınızın belə bir dar məqamında, gərgin anda imkan tapıb bizi, universitet ziyalılarını, müəllimlərini, qonaqlarımızı qəbul etdiyinizə, bizi təbrik etdiyinizə görə sizə öz təşəkkürümüzü bildirək.

Çox düzgün buyurdunuz, - universitet 80 il ərzində şərəfli yol keçmişdir. Bu şərəfli yolun ən intibah dövrü, tarixi sizin respublikaya rəhbərlik etdiyiniz vaxta düşür. Bu, universitetin son otuz illik fəaliyyətidir.

Azərbaycan gənclərini müəyyən ixtisaslar üzrə təhsil almaq üçün Rusiyanın ali məktəblərinə göndərirdiniz. Onlardan biri də mən özüməm. O vaxt biz sizin qayğınızı hiss etmişik. Bu gün o insanlar universitetlərin, o cümlədən də Bakı Dövlət Universitetinin elmi potensialına çevrilən insanlardır.

Yaxşı yadımızdadır, mən o vaxt, 1969-cu ildə tələbə idim. Universitetin 50 illik yubileyini necə yüksək səviyyədə keçirdiniz! İlk dəfə olaraq orada milli dilimizdə çıxışınız bu gün hamımızın xatirindədir. Bildiyiniz kimi, universitetin 60,75 illik yubileyləri sizin adınızla bağlıdır. Mən hesab edirəm ki, bugünkü 80 illik yubiley də sizin adınızla bağlıdır.

Bakı Dövlət Universitetinin kollektivi Azərbaycan elminin bayraqdarı olan universitet təhsilini, elmini Dünya Birliyinə çıxardı, onun inteqrasiyasına zəmin yaratdı. Bu imkanı da bizə yaratdığınız üçün sizə minnətdarlığımızı yetiririk və sizi əmin edərək bildiririk ki, Bakı Dövlət Universitetinin kollektivi bütün əməli fəaliyyəti ilə bundan sonra da Azərbaycan dövlətçiliyini müdafiə edəcək və Azərbaycan dövlətinin rəhbəri, möhtərəm prezident, sizin daxili və xarici siyasətinizi bundan sonra da dəstəkləyəcəkdir.

**V i k t o r  S a d o v n i ç i** (*Moskva Dövlət Universitetinin rektoru, Avrasiya Universitetləri Assosiasiyasının prezidenti, Rusiya Elmlər Akademiyasının akademiki*): Heydər Əliyeviç, ölkənizdə təhsilə göstərdiyiniz qayğıya görə, bir prezident kimi, Sizə Moskva universiteti adından sağ olun demək istəyirəm.

Əlbəttə, biz başqa ölkələrdə nə kimi universitetlər olduğuna biganə deyilik və başa düşürük ki, Bakı Dövlət Universiteti sizin qayğınız sayəsində çiçəklənir, yaxşı yoldadır.

Bir məsələ barəsində də bir neçə kəlmə demək istərdim. Heydər Əliyeviç, mən o dövrə mənsubam ki, həmin dövrdə sizin yüzlərlə gənc aliminiz Moskva universitetində oxuyurdu. Mənim aspiranturada oxuduğum gənclik illərim sizin adamlarla – Maqsud Fərmanovla, Zülal Abverdiyevlə birlikdə keçmişdir. Mən Rəsulovun, Xəlilovun kitablarından dərs almışam. Elə burada əyləşən bir çox dekanlarla da Moskva universitetində bu və ya başqa cür görüşmüşük, yaxud bir yerdə oxumuşuq.

O illər gözəl illər idi. O vaxtlar biz məktəbimizin, elmi məktəblərimizin görünməmiş dərəcədə yüksək səviyyəsini birlikdə yaradırdıq. Buna görə də istərdik ki, bu ənənələr davam etdirilsin. Hər bir təhsil sisteminin öz xüsusiyyətləri var, lakin elm və təhsil bütövlükdə beynəlmiləldir. Əlbəttə, universitetlərimiz arasında əlaqələr gələcəkdə böyük rol oynayacaqdır.

Demək istəyirəm ki, mənə Rusiya Rektorlar İttifaqına, - bu isə min universitetdir, - və sizin universitetin də daxil olduğu Avrasiya Universitetlər Assosiasiyasına başçılıq etmək etibar olunubdur. Biz bu assosiasiyanı Sovet İttifaqının dağıldığı vaxtlarda yaratmışıq və dostluğumuzu çox qiymətləndiririk. Avrasiya assosiasiyasının qurultaylarından biri Bakıda keçirilmişdir. Biz mart ayında Moskva universitetində konfrans keçirmək niyyətindəyik və sizin professorların böyük bir nümayəndə heyətini dəvət etmək istəyirik. İstəyirik ki, nəinki rəhbərlik, həm də professorlar, alimlər gəlsinlər, bir-birilə ünsiyyətdə ola bilsinlər. Bu konfransın keçirilməsi qayğısını Moskva universiteti öz üzərinə götürür.

Hörmətli prezident, sözümü bitirərək, sovet məktəbinin inkişafına verdiyiniz töhfəyə görə Sizə sağ olun demək istəyirəm. Mən şəxsən Sizə çoxlu məktub yazmışam və həmişə də dəstək almışam. Heydər Əliyeviç, ona görə də biz Moskva universitetində sizi sevir, qiymətləndiririk və tutduğunuz yolda sizə çoxlu-çoxlu yaradıcılıq illəri arzulayırıq.

Moskva universiteti adından ən əziz hədiyyəmizi – vaxtilə dəstəkləmiş olduğunuz Moskva universiteti haqqında fotoalbomu, habelə ali mükafatımızı – Moskva Dövlət Universitetinin medalını sizə minnətdarlıq hissi ilə təqdim etmək istərdim. Çox sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Mən Sizə təşəkkürümü bildirirəm. Mən milli dilimizdə danışırdım, lakin ümidvaram ki, sizə hər şeyi tərcümə ediblər.

Bir daha demək istəyirəm ki, dünyanın hamımız üçün açıq olduğu indiki vaxtda biz müxtəlif ölkələrin universitetlərini görürük, müqayisə etmək imkanımız var və nəyə malik olduğumuzu daha düzgün qiymətləndirə bilirik. Ola bilsin, bağlı cəmiyyətdə yaşadığımız dövrdə bizə elə gəlirdi ki, haradasa başqa yerdə xüsusi möcüzə var. Dünyada məşhur olan bəzi universitetlər bizdə həmişə qeyri-adi bir şey təəssüratı yaradırdı. Əlbəttə, bununla mən onların əhəmiyyətini və ləyaqətini azaltmaq istəmirəm, ancaq eyni zamanda Sovetlər İttifaqı dövründə fəaliyyət göstərmiş universitetlər yüksək səviyyədə idilər.

Əlbəttə, xüsusilə Moskva Dövlət Universiteti. Keçmişdə bu sahə ilə yaxından təmasda olduğum üçün cəsarətlə deyə bilərəm ki, Moskva Dövlət Universiteti dünyanın ən yüksək universitetləri ilə bir səviyyədədir. Onun hazırladığı kadrlar da, həqiqətən, ən yüksək ixtisasa malik kadrlardır. İstərdim ki, siz bu ənənəni saxlayasınız. Mənim istəyim hətta bundan da artıqdır. İstərdim ki, siz bir yerdə dayanmayasınız və indi, dünya təcrübəsindən bəhrələnərək, - bu təcrübə indi sizdə əvvəlkindən daha çoxdur, - elə edəsiniz ki, Moskva universiteti həmişə zirvədə dayansın. Mən bunu ürəkdən arzulayıram.

Xahiş edirəm kollektivinizə, professorlarınıza, mənim tanıdığım və məni tanıyan hər kəsə salamımı və ən xoş arzularımı çatdırasınız. Məsələ burasındadır ki, mən şəxsən çox adamı tanımasam da, onların hamısı məni tanıyırdı. Çox sağ olun.

**V i k t o r  S a d o v n i ç i:** Heydər Əliyeviç, çox sağ olun. Mən sizin arzularınızı çatdıracağam.

**Ə n v ə r  H ə s ə n o ğ l u** (*Ankara Qazi Universitetinin rektoru, professor*): Hörmətli cümhur başkanım!

Biz Bakı Dövlət Universitetindən dəvət aldıq və canlı olaraq, üzbəüz görüşmək istədik. Çünki biz babalarımız, dədələrimiz bir olan qan qardaşlarıyıq. Hüzurunuzda bunları söyləmək istədim.

Mən Bakını çox gəzmişəm. Bakı şəhəri çox inkişaf edibdir və bu, davam etməkdədir. Bu da sizin rəhbərliyiniz altında gedir. Dünən Bakı Dövlət Universitetini gördüm. Xarici çox dəyişmişdir. Yalnız xarici deyil, məzmunu da dəyişmişdir. Elə onun üçün icazənizlə, qarşınızda bunları söylədim.

Bakı Tibb Universitetini də ziyarət etdim. Çox inkişaf etmişdir. Ona görə də biz buraya gəlməklə, bizi buraya dəvət etməklə Bakını bir daha yaxından görmək imkanı verdiniz. Sizə Allahdan cansağlığı, uzun ömür diləyir, Allah gücünüzü artırsın, - deyirəm. Təşəkkür edirəm.

**H e y d ə r  Ə l i y e v:** Qazi Universiteti Türkiyənin ən mötəbər universitetlərindən biridir və bəlkə də aparıcı universitetdir. Ona görə mən çox məmnunam ki, siz buradasınız və Azərbaycan haqqında, onun bu günü haqqında belə çox xoş sözlər dediniz. Təşəkkür edirəm.

**G ü n a y  A k b a y** (*Ankara Universitetinin rektoru, professor)*: Görüşdə çıxış edərək dedi:

Hörmətli cümhur başkanım!

Mən Sizinlə görüşdən böyük şərəf duyduğumu söyləmək istəyirəm. Çünki doğrudan da mənim üçün bu ziyarət böyük bir şərəfdir. Təşəkkür və minnətdarlığımı ərz edirəm.

Qarşınızda hörmətli rektora təşəkkür etmək istəyirəm. Mən Bakıya sonuncu dəfə 1993-cü ildə gəlmişdim. Amma bu gəlişim zamanı həqiqətən də Azərbaycandakı inkişafı, universitetinizdəki inkişafı bir daha görməkdən böyük məmnunluq duydum. Sizi təbrik edirəm. Ankara Universiteti olaraq həyata keçirdiyimiz işbirliyini daha da genişləndirməyi, möhkəmləndirməyi arzu edirəm. Bütün Ankara Universiteti adından, öz adımdan sizə ən dərin hörmət və ehtiramımı bildirirəm.

**H e y d ə r  Ə l i y e v:** Təşəkkür edirəm. Çox sağ olun.

**S ü h a  S e v i k** (*Türkiyənin Ortadoğu Texniki Universitetinin rektoru, professor)*: Hörmətli cümhur başkanım!

Mən də bu ziyarətim zamanı Azərbaycanın universitetlərindəki inkişafı gördüm və böyük məmnuniyyət hissi keçirdim. Arkadaşlarımızdakı sevinci gördüm. Hörmətli naziri və hörmətli rektoru təbrik edirəm, uğurlar arzulayıram və sizə neçə belə səksən illər yaşamağı arzulayıram. Sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Təşəkkür edirəm.

**L ü t f ü  Ç a x m a q ç ı** (*Süleyman Dəmirəl adına İsparta Universitetinin rektoru, professor*): Hörmətli cümhur başkanım!

Səmimi dəvətinizə görə ayrıca Sizə və hörmətli nazirinizə və Bakı Dövlət Universitetinin rektoruna təşəkkür edirəm. Biz, Süleyman Dəmirəl adına İsparta Universiteti sizin universitet ilə işbirliyinə gedəcəyik. Əgər qəbul edirsinizsə, İspartada fəxri doktor adı aldığınız zaman çəkilmiş şəkilləri Sizə təqdim etmək istəyirəm.

**H e y d ə r  Ə l i y e v**: Təşəkkür edirəm. Çox sağ olun. Bəli, mən Süleyman Dəmirəl adına İsparta Universitetinin fəxri doktoruyam və bir müddət bundan öncə orada oldum. Qısa bir zamanda bu universitet nə qədər böyük nailiyyətlər əldə etmişdir, nə qədər böyümüşdür, genişlənmişdir! Mən onu gördüm və çox heyran oldum. Sizi bir də təbrik edirəm.

**R o i n  M e t r e v e l i** (*Tbilisi Dövlət Universitetinin rektoru, Gürcüstan Elmlər Akademiyasının akademiki):* Cənab Prezident, bu gün Tbilisi universitetinin ünvanına söylədiyiniz səmimi sözlərə görə sizə çox minnətdaram.

Tbilisi universitetinin rektoru kimi fəxr edirəm ki, Siz – ali təhsil üçün çox işlər görmüş, ali məktəbə çox qüvvə sərf etmiş bir insan Tbilisi Dövlət Universitetinin fəxri doktorusunuz. Sağ olun ki, Siz nəinki özünüzün Bakı universitetini, həm də bizim universiteti dəstəkləyirsiniz.

Prezidentimiz Eduard Şevardnadze iki gün bundan əvvəl universitetimizə gəlmişdi. Mən ona məlumat verdim ki, Bakı Dövlət Universitetinin 80 illik yubileyini təbrik etmək üçün Bakıya gedirəm. O, hamıya və şəxsən Sizə ən xoş arzularını yetirməyi xahiş etdi.

Nə gizlədim, sabah çıxış edəcəyəm və iki prezident arasındakı – Heydər Əliyev ilə Eduard Şevardnadze arasındakı böyük dostluğu nümunə gətirmək istəyirəm. Bu, bizim üçün həqiqətən, böyük işdir.

Balaca bir təklifim var. Siz bizim prezidentimizlə birlikdə Ümumqafqaz evi üçün çox böyük işlər görmüsünüz – mən həm iqtisadiyyatı, həm də siyasəti nəzərdə tuturam. Olduqca maraqlı layihələr var və onların bəziləri həyata keçirilir. Biz – Bakı və Tbilisi universitetləri bu işə böyük həvəslə qoşulardıq. İstərdik ki, bizim potensialımızı nəzərə alasınız və bizi bu işə yönəldəsiniz. Sağ olun.

İcazə verin mən də Gürcüstan haqqında kitabımı sizə təqdim edim.

**T a h s i n  N u r i  D u r l u** (*Türkiyənin Kırıkkala Universitetinin rektoru, professor)*: Hörmətli cümhur başkanım!

Bakı Dövlət Universiteti türk dünyasında qürur duyduğumuz bir təhsil və araşdırma abidəsi olmuşdur. Sizin qarşınızda müəllimləri təbrik edirəm. Biz Azərbaycanı və sizləri çox sevirik. Hörmət və ehtiramımı ərz edirəm.

**H e y d ə r  Ə l i y e v:** Təşəkkür edirəm. Çox sağ olun.

**İ b r a h i m  Y ı l d ı r ı m** (*İstanbul Universitetinin Akademik Əlaqələr İdarəsinin rəisi):* Hörmətli cümhur başkanım!

Biz buraya çox böyük sevinclə gəldik. Yəqin ki, xatırlayarsınız – biz qrupumuzla birlikdə Bakıya bir dəfə də gəlmişdik və siz bizi qəbul etmişdiniz. Həmin görüşdən duyduğumuz sevinci yaşayırıq və bu gün siz bizə yeni böyük sevinc bəxş etdiniz. Azərbaycanın altı universitetinin İstanbul Universiteti ilə əməkdaşlıq sazişi vardır. Universitetimizin xarici tələbələri sırasında öz arkadaşlarımız olan 260 azərbaycanlı tələbə də vardır və bizim ali təhsil ocağında oxuyurlar.

Mən son illərdə Azərbaycanın istər dövlət universitetlərinin, istərsə də özəl universitetlərinin necə nailiyyətlər əldə etdiyinin şahidi oldum, onlara necə şərait yaradıldığını gördüm. Amma məni ən çox məmnun

edən orada çalışan insanların, idarəedənlərin böyük sevinc daşıması, daha gözəl, daha yaxşı iş görmək üçün çalışmalarıdır. Bu, təbii ki, sizin yaratdığınız sevinc və yardımla həyata keçirilmişdir.

Bir arzumu da ərz etmək istəyirəm. Siz Türkiyəyə gedib bir çox universitetləri ziyarət etmisiniz. Sizi Türkiyənin ən qədim universiteti olan İstanbul Universitetində də görmək istəyirik. Sizə yalnız elmə diqqət və qayğınız üçün deyil, bütün türk dünyasına göstərdiyiniz böyük qayğılar üçün də təşəkkür edirəm, hörmət və ehtiramımı bildirirəm.

**H e y d ə r  Ə l i y e v:** Təşəkkür edirəm.

**A b e l  M ə h ə r r ə m o v:** Cənab prezident, siz bu gün bizim universitetin əməkdaşlarını təltif etmisiniz. Kollektivimiz deyir ki, bizim də bir arzumuz var və onu bu gün yerinə yetirməliyik. Siz bizim universitetin həm fəxri məzunu, həm də fəxri doktorusunuz. O diplomu neçə illərdir Sizə verə bilmirik. İstərdim ki, hörmətli həmkarlarımın iştirakı ilə bu missiyanı həyata keçirək, fəxri doktor diplomunu, Qızıl medalını və mantiyasını sizə təqdim edək.

**H e y d ə r  Ə l i y e v:** (*zarafatla*): Bəs 1994-cü ildən bəri niyə verməmisiniz, mənim hüquqlarımı pozmusunuz.

Çox sağ olun.

## YEKUN NİTQİ

Türkiyədən bir çox universitetlərin rektorlarının Azərbaycana gəlməsi təbiidir. Çünki, - siz burada qeyd etdiniz, - Türkiyə universitetləri ilə Azərbaycan universitetləri arasında əlaqələr çox genişdir. Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri də sizə məlumdur. Mən bir neçə universitetdə olmuşam, mənə doktor adı veriblər. Amma mən universitetə heç də ona görə getmirəm ki, doktor adı alım. Məsələn, bizim universitet 1994-cü ildə bu adı mənə verib, amma imkanım olmayıb ki, mənə təqdim etsinlər.

Türkiyə–Azərbaycan əlaqələri genişlənir və bundan sonra daha da genişlənəcəkdir. Bizim dostluğumuz çox böyük təməllər əsasındadır. Bilirsiniz ki, mən Türkiyədə tez-tez oluram. İndi, üç ay tamam olmayıb, mən Türkiyədə üç dəfə olmuşam. Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəli də Azərbaycana bağlayan sıx dostluğu, böyük məhəbbətidir. Mən hesab edirəm ki, Türkiyə Cümhuriyyəti, onun vətəndaşları çox xoşbəxtdirlər ki, beynəlxalq aləmin bu çətin dövründə Süleyman Dəmirəl kimi böyük bir şəxsiyyət, siyasi xadim Türkiyənin cümhur başkanı, prezidentidir.

Türkiyədə çıxışlarımda, nitqlərimdə də demişəm – mən böyük iftixar hissi keçirirəm ki, Türkiyənin Mustafa Kamal Atatürk Sülh Mükafatı Komissiyası və Türkiyə dövləti keçən il mənə o mükafatı – Atatürk Sülh Mükafatını vermişdir və təntənəli şəraitdə mənə təqdim etdilər. Mən bilirəm ki, bu mükafat nə qədər səviyyəli, yüksək qiymətə layiq olan mükafatdır. Bilirəm ki, 16-18 il bundan öncə təsis olunub, amma çox az insanlar bunu alıbdır. Mənə belə yüksək qiymət verildiyinə görə çox məmnunam və təşəkkür edirəm.

Son dəfə İsparta Universitetində hörmətli dostum, qardaşım Süleyman Dəmirəl ilə bərabər idik. Bu səfər məni heyran etdi. İspartada, - təkcə orada yox, zəlzələ ilə əlaqədar mən Kocaeliyə də getmişdim, orada xalqla görüşmüşdüm, Türkiyədə çox yerlərdə xalqla görüşmüşəm, - xalqın, millətin Süleyman Dəmirələ nə qədər hörməti, böyük inamı, ehtiramı olduğunun şahidiyəm.

Siz bilməlisiniz – alimsiniz, professorsunuz, güman edirəm ki, siyasətlə də maraqlanır, siyasəti də bilirsiniz – Süleyman Dəmirəl beynəlxalq aləmdə ən yüksək səviyyədə duran, təcrübəli bir siyasi liderdir. 1975-ci ildə Helsinkidə ilk dəfə Avropa anlaşması imzalananda onu 35 ölkə imzalayıbdır. Bu ölkələrdən biri Türkiyədir. İndi ATƏT-in əsas nizamnaməsi olan bu anlaşmanı Süleyman Dəmirəl imzalayıbdır. İmza atan 35 nəfərdən indi siyasi səhnədə qalan təkcə Süleyman Dəmirəldir, çoxları da həyatdan getmişdir. Bunun özü tarixi bir hadisədir.

Deməк, Süleyman Dəmirəl nadir şəxsiyyətdir. O vaxtdan 25 ildən artıq keçib, amma o, bu gün də beynəlxalq aləmdə böyük siyasi fəaliyyətdədir.

Bilirəm ki, bu ilin may ayında sizdə prezident seçkiləri olacaqdır. Mən Türkiyədə olanda həm Süleyman Dəmirəl universitetində, həm də mənə Beynəlxalq Atatürk Sülh Mükafatı veriləndə demişdim və bu gün də deyirəm: Süleyman Dəmirəl təkcə Türkiyəyə yox, bizə də lazımdır. Qafqaza lazımdır, türk dünyasına lazımdır. Dünyanın bugünkü siyasətinə lazımdır.

Bilirsiniz ki, Süleyman Dəmirəlin və mərhum Turqut Özalın təşəbbüsü ilə 1992-ci ildə Ankarada Türkdilli Dövlətlər Birliyi yaranıbdır. Ona beş dövlət daxildir. Beş dövlətin prezidentlərinin lideri də Süleyman Dəmirəldir.

Bizim dostumuz, qonşumuz Gürcüstan və onun prezidenti hörmətli Eduard Şevardnadze Türkiyənin ən yaxın dostudur. Bu dostluq əlaqələri də çox səmimidir.

Mən bu barədə bir neçə görüşlər keçirdim və Türkiyədə olarkən bunu bəyan etdim. Moskvada olarkən biz beş nəfər – Azərbaycan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan prezidentləri, bir də Gürcüstan prezidenti bir daha danışdıq ki, öz birliyimizin gələcəyi haqqında düşünməliyik. Ona görə də mən altı prezidentin, dövlət başçısının fikrini ifadə edərək Türkiyədə dedim ki, Süleyman Dəmirəl təkcə Türkiyə üçün

yox, bütün bizim ölkələrimiz üçün lazımdır. Ona görə də biz istəyirik ki, dostumuz, qardaşımız Süleyman Dəmirəli bu seçkilər zamanı yenidən Türkiyənin cümhur başkanı seçəsiniz.

Hörmətli rektor, siz doğru dediniz ki, Gürcüstanla Azərbaycan arasında dostluğun xüsusi xarakteri var. Bütün tarixi izləyin və görəcəksiniz ki, gürcü və Azərbaycan xalqları arasında heç vaxt münaqişələr olmayıbdır. Heç vaxt, heç bir münaqişə! Həmişə dostluq olub, həmişə qarşılıqlı yardım olub, həmişə qarşılıqlı anlaşma olubdur.

Gürcüstanda 500 min azərbaycanlı yaşayır, onlar bu torpağın yerli sakinləridir, müstəqil, suveren Gürcüstanın tam hüquqlu vətəndaşlarıdır.

Məni dostum Eduard Şevardnadze ilə 32 illik dostluq telləri bağlayır. Bu dostluq bir çox sınaqlardan keçibdir. Tale elə gətirib ki, hər ikimiz Moskvada işləmişik, sonra isə, Gürcüstan və Azərbaycanın vəziyyəti ağır olanda xalqlarımız bizdən geri, öz ölkələrimizə qayıtmağı tələb etdilər. Eduard Şevardnadze Gürcüstana qayıtdı, mən Azərbaycana qayıtdım. Belə mürəkkəb keçid dövrünün uzun illəri ərzində dövlətlərarası münasibətlərimizdə bir çox məsələlərin həlli üçün bizim şəxsi dostluğumuzun – Eduard Şevardnadzenin və Heydər Əliyevin dostluğunun olduqca böyük əhəmiyyəti var. Yəni xalqlarımızı möhkəm dostluq telləri bağlayır, Eduard Şevardnadze ilə bizi dostluq telləri bağlayır. Bu isə təminat verir ki, biz – Gürcüstan və Azərbaycan – Cənubi Qafqazda layiqli rol oynayacağıq, Qafqazın dinc, sabit və çiçəklənən bölgə olması üçün hər şeyi edəcəyik.

Bilirəm ki, hazırda Gürcüstanda prezident seçkiləri kampaniyası başlamışdır. Təbiidir ki, bütün seçkilər demokratiya prinsipləri əsasında keçir. Lakin hər bir kəs demokratiya prinsiplərini əsas tutaraq, öz fikrini söyləmək hüququna malikdir. Öz fikrimi ifadə edərək, bütün Gürcüstan vətəndaşlarına üzümü tutub deyirəm: gürcü xalqı, Gürcüstan vətəndaşları bunun qədrini bilməlidirlər ki, Eduard Şevardnadze ağır illərdə öz ölkəsinə, öz xalqına başçılıq edir və uğurlar qazanır. Şübhəsiz ki, gürcü xalqı, Gürcüstan vətəndaşları bunu layiqincə qiymətləndirəcək, müdriklik göstərəcək və apreldə öz səslərini Eduard Şevardnadzeyə verəcəklər.

Mən martın əvvəllərində Gürcüstanda olacağam. Orada öz fikrimi daha geniş auditoriya qarşısında deyəcəyəm. Lakin bu gün, indiki görüşümüzdən istifadə edərək, bunu deyirəm və çox xahiş edirəm ki, mənim bu sözlərimi professor və alimlərinizə, ziyalılarınızın nümayəndələrinə və mümkün olan hər bir kəsə çatdırasınız.

Deyirəm ki, hazırda ölkələrimiz inkişafın çox mürəkkəb mərhələsindədirlər. Həm öz ölkəsində, həm də Dünya Birliyində nüfuza malik siyasi liderlər gərəkdir. Eduard Şevardnadze gürcü xalqının məhz belə bir oğludur. Hesab edirəm ki, gürcü xalqı müdriklik göstərəcəkdir. Mənim salamımı, ən xoş arzularımı ona yetirin, deyin ki, mən martın əvvəllərində Gürcüstanda olacağam.

Sizin hamınızı bir daha təbrik edirəm. Doğrudur, mənim vaxtımı çox aldınız, işlərimin hamısı tökülüb qaldı. Ancaq mən heyfslənmirəm, ona görə ki, yaxşı görüş keçdi. Sağ olun.

## İRAN İSLAM RESPUBLİKASININ MİLLİ BAYRAMI – İSLAM İNQİLABININ 21-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ İİR-in AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*11 fevral 2000-ci il*

Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

Mən sizi, bütün qardaş İran xalqını İran İslam İnqilabının 21-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Mən İran xalqına sülh, əmin-amanlıq, rifah arzulayıram.

İran İslam İnqilabından keçən müddətdə İran həqiqətən inkişaf dövrünü yaşayır. Bu ölkədə gedən ictimai-siyasi, iqtisadi proseslər bizə məlumdur və dünya ictimaiyyətinin diqqət mərkəzindədir. Ona görə də biz yaxşı bilirik ki, bu illərdə İran hökuməti islam inqilabının banisi Ayətullah Xomeyninin qoyduğu yolla gedərək böyük nailiyyətlər əldə edibdir. Biz buna sevinirik və arzu edirik ki, bu nailiyyətlər daha da çox olsun. Çünki İran ilə Azərbaycan ən yaxın qonşudur, dostdur. Xalqlarımızın qədim, müştərək tarixi kökləri var. Bizim adət-ənənələrimiz, mənəvi dəyərlərimiz tarixən eyni mənbədən gəlibdir. Biz əsrlər boyu, müxtəlif zamanlarda bir yerdə yaşamışıq. İndi də Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra İran ilə Azərbaycan arasındakı əlaqələr yenidən qurulub və inkişaf edib. Bəlkə də heç bir ölkədə azərbaycanlıların İranda olduğu kimi qohum-əqrəbası, dostu-tanışı yoxdur. Eləcə də, güman edirəm ki, İran vətəndaşlarının da Azərbaycanda həm qohum-əqrəbası, həm də dostları var. Bu qohumlar, dostlar uzun illər bir-birindən ayrı düşmüşlər və görüşmək həsrəti ilə yaşamışlar.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra sərhədlər açılmış, insanlar bir-birinə qovuşmuşdur. Hörmətli səfir burada qeyd etdi ki, bir milyon insan İrandan Azərbaycana, Azərbaycandan İrana gedib-gəlmişdir. Güman edirəm ki, Azərbaycanın başqa ölkələrlə bu qədər insani əlaqələri yoxdur. Bu təbiidir. Bir də deyirəm, biz qonşuyuq, özü də qonşuluğumuz məhdud çərçivə içərisində deyil. İran ilə Azərbaycan arasındakı sərhəd çox böyükdür. Azərbaycanda belə deyirlər ki, o tayda da, bu tayda da yaşayanlar bir-biri ilə dostdurlar, qohumdurlar, qardaşdırlar. Təbiidir ki, bu hissiyyatlar həm azərbaycanlıların İrana getməsinin güclü olmasını, həm də iranlıların Azərbaycana gəlməsini təmin edir.

Bizim iqtisadi əlaqələrimiz inkişaf edir. Ticarət əlaqələri yüksək səviyyədədir. Hesab edirəm ki, Azərbaycanla ticarət əlaqələrində İran indi birinci yerdədir.

**Əlirza Bikdeli:** Birinci-ikinci yerdədir.

**Heydər Əliyev**: Yaxşı ki, birinci-ikinci yerdədir. Elə birinci-ikinci çox yaxşıdır. Yaxşı ki, dördüncü-beşinci deyil (gülüş). Birinci-ikinci yeri tutmaq asan deyil. Deməliyəm ki, həm İran tərəfi, həm də Azərbaycan tərəfi o qədər səy edirlər ki, belə yüksək yerləri tutmağa nail olurlar. Ancaq bu iqtisadi əlaqələr bizi hələ təmin etmir. Bizim iqtisadi əlaqələrimizi inkişaf etdirmək üçün çox böyük imkanlarımız vardır. Həm İran tərəfindən, həm də Azərbaycan tərəfindən. Müştərək iqtisadi komissiya bu yolda fəaliyyətini daha da gücləndirməlidir. Mən komissiyanın Azərbaycan tərəfinin fəaliyyətini daim nəzarət altında saxlayıram və fəaliyyətlərini daha da genişləndirməyi onlardan tələb edirəm.

Mədəni əlaqələrimiz, insani əlaqələrimiz də genişdir. Ancaq bunlar da azdır. Mən hesab edirəm ki, bizim əlaqələrimizin bütün sahələrdə genişlənməsinə imkanlar var və bu imkanlardan istifadə etmək lazımdır.

Sərhədlərin açıq olması insanlarda böyük məmnunluq hissi doğurur. Məsələn, blokada şəraitində yaşayan bizim Naxçıvan Muxtar Respublikasının, bilirsiniz ki, Ermənistan–Azərbaycan münaqişəsi nəticəsində Azərbaycanın əsas hissəsi ilə nəqliyyat və başqa kommunikasiya xətləri kəsilibdir. İranın sərhədlərini açması və İran vətəndaşlarının Azərbaycanın Naxçıvan hissəsinə külli miqdarda gəlməsi, Naxçıvandan Azərbaycan vətəndaşlarının xeyli hissəsinin İranı ziyarət etməsi – bu, həm insani əlaqələri inkişaf etdirir, insanlara mənəvi rahatlıq verir, həm ticarət əlaqələrini genişləndirir, həm də hər iki tərəfə iqtisadi mənfəət gətirir.

Bizim başqa sərhəd bölgələrimizdə də belə imkanlar vardır. Hesab edirəm ki, onlardan da səmərəli istifadə etməliyik.

İran həqiqətən Ermənistanın Azərbaycana etdiyi hərbi təcavüzü həmişə pisləmiş, bunu hərbi təcavüz kimi qiymətləndirmişdir. Bilirsiniz ki, biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün daha ciddi addımlar atırıq. Mən ümidvar olduğumu bildirmək istəyirəm ki, İran hökuməti bu sülhə nail olunması üçün daha da təsirli fəaliyyət göstərəcəkdir. İran hökumətinin bu barədə böyük imkanları vardır. Məlumdur

ki, İranın Ermənistanla da çox sıx ticarət, iqtisadi və başqa dostluq əlaqələri və onlara təsir etmək imkanları vardır.

Məqsədimiz odur ki, münaqişə sülh yolu ilə həll edilsin, işğal altındakı torpaqlar azad olunsun, Azərbaycanın ərazi bütövlüyü təmin edilsin. Hesab edirəm ki, bu halda Ermənistanla Azərbaycan arasında sülh yaradılandan sonra bizim bölgədə əməkdaşlıq etmək, sülhü və təhlükəsizliyi təmin etmək sahəsində daha böyük imkanlar olacaqdır. İran bu proseslərin iştirakçısı olmalıdır və bizim bölgədə – Qafqazda, xüsusən Cənubi Qafqazda sülhə, əmin-amanlığa nail olmaq üçün öz xidmətlərini göstərməlidir.

İndi İranın iqtisadi inkişafı, demokratikləşməsi, təbiidir ki, bizi sevindirir. Cənab Xatəmi prezident seçiləndən sonra bu istiqamətdə çox ciddi addımlar atıbdır. Bu, həm bizim ölkədə, həm də bir çox ölkələrdə layiqincə qiymətləndirilir. İran son illərdə keçmişdən fərqli olaraq qapalı vəziyyətdən çıxıbdır, dünyanın bir çox ölkələri ilə yaxşı əlaqələr yaradıbdır və bu əlaqələri inkişaf etdirmək istəyir. Bunların hamısını biz dəstəkləyirik. İranın nümayəndə heyətləri ilə görüşlərimdə öz fikirlərimi açıq-aydın bildirirəm ki, heç bir ölkə dünyada gedən proseslərdən təcrid olunmuş şəraitdə yaşayıb inkişaf edə bilməz. İran indi bu barədə çox böyük addımlar atır. Mən arzu edirəm ki, bu addımlar daha da uğurlu olsun və İran beynəlxalq aləmdə özünə layiq yerini tuta bilsin.

İranın iqtisadi inkişaf proqramı qəbul etməsini mən məmnuniyyətlə dinlədim. Şübhə etmirəm ki, bu proqram həyata keçiriləcəkdir. Çünki islam inqilabından sonra İranın ilbəil sosial-iqtisadi inkişafı göz qabağındadır. Biz bunu müşahidə edirik və dost kimi buna sevinirik.

Mən prezident Xatəminin dəvətini məmnuniyyətlə qəbul etmişəm və bu il İrana məmnuniyyətlə rəsmi səfərə gedəcəyəm. Hörmətli cənab Xatəminin Azərbaycana gəlməsi üçün də mən ona dəvətnamə göndərmişəm. Ümidvaram ki, mənim səfərimdən sonra o da Azərbaycana səfər edəcəkdir. Bunlar çox vacibdir. Doğrudur, son zamanlar bizim ölkələrimiz arasında hökumət və dövlət səviyyəsində gediş-gəliş artıb. Ancaq bu, nə İran tərəfini, nə də Azərbaycan tərəfini qane edə bilməz. Biz bunları daha da yüksək səviyyəyə qaldırmalıyıq və qaldırmaq istəyirik.

İranda hamı bilməlidir ki, Azərbaycan həmişə İranın dostu olub, bu gün də dostudur, gələcəkdə də dostu olacaqdır. Bəzi qüvvələr İran–Azərbaycan əlaqələrini gərginləşdirmək, onlara ləkə vurmaq, yaxud hansısa problemlər yaratmaq istəyirlər. Beləlləri hər yerdə vardır – başqa ölkələrdə də var, Azərbaycanda da, İranda da var. Bunu həm İranda bilirlər, həm də Azərbaycanda biz bilirik. Ancaq mən Azərbaycanın prezidenti olaraq bildirmək istəyirəm ki, heç bir qüvvə İran–Azərbaycan, Azərbaycan–İran dostluq və qardaşlıq əlaqələrini poza bilməz. Biz heç kəsin başqa ölkənin daxili işlərinə qarışmasına tərəfdar çıxmamışıq və çıxmayacağıq. Hər dövlət öz ölkəsinin siyasətini müstəqil olaraq aparır və müstəqil də aparmalıdır. Ölkələrin, dövlətlərin bir-birinin daxili işlərinə qarışmaması beynəlxalq hüquq normalarının əsas prinsiplərindən biridir. Buna görə də kimsə belə cəhdlər edirsə, onlar həm Azərbaycan üçün, həm də İran üçün zərərli olurlar. Biz bunları pisləyirik, belə halları heç vaxt dəstəkləməmişik və dəstəkləməyəcəyik. Güman edirəm ki, İran tərəfi də belə mövqedədir.

Beləliklə, bu gün İran İslam İnqilabının 21-ci ildönümünü qeyd edərkən biz Azərbaycanda yeni bir mənzərənin şahidiyik. Baxın, bu salona nə qədər insan toplaşıbdır, İran səfirinin nə qədər çox qonağı var. Ancaq əgər xatırlayırsınızsa, 8–9 il bundan öncə 2–3 nəfər bir-biri ilə görüşə bilməzdi. Bunların hamısı Azərbaycanın dövlət müstəqilliyinin nəticəsidir, Azərbaycan–İran əlaqələrinin yaranmasının və inkişaf etdirilməsinin, bizim sərhədlərimizin açılmasının, müxtəlif istiqamətlərdə əməkdaşlığın nəticəsidir. Bu, bizim hamımızı sevindirməlidir və çalışmalıyıq ki, bu meyllər bundan sonra daha da çoxalsın, daha da inkişaf etsin.

Mən sizi bir daha təbrik edirəm. İran xalqına səadət, xoşbəxtlik arzu edirəm, qarşısına qoyduğu böyük, əzəmətli proqramların həyata keçirilməsində İran hökumətinə uğurlar arzulayıram. Sağ olun.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ AZƏRBAYCANDAKI SƏFİRİ STENLİ ESKUDERO İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*11 fevral 2000-ci il*

**H e y d ə r  Ə l i y e v:** Cənab səfir, mən sabah sizin ölkəyə yola düşürəm. Mən çox məmnunam ki, belə bir səfər edirəm və ümid edirəm ki, ölkələrimiz arasındakı əlaqələrin daha da genişlənməsi və inkişaf etməsi üçün və bizi maraqlandıran bütün başqa məsələlərin müzakirəsi üçün mənim orada lazımi imkanlarım olacaqdır.

Siz bilirsiniz və mən bunu bir daha bəyan edirəm ki, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasındakı əlaqələrə biz xüsusi əhəmiyyət veririk və bu əlaqələrin daim inkişaf etməsi, genişlənməsi üçün çalışırıq və bundan sonra da çalışacağıq. Bunları bizim ölkəmiz üçün çox vacib hesab edirik. Buyurun, sizin mənə bu münasibətlə sözünüz var.

**S t e n l i  E s k u d e r o:** Cənab prezident, çox sağ olun. Amerika Birləşmiş Ştatlarına səfərinizdən bir gün öncə mənimlə görüşmək üçün vaxt ayırdığınıza görə sizə təşəkkürümü bildirirəm. Baxmayaraq ki, sizin bu səfəriniz işgüzar səfərdir, biz bu səfərə mühüm əhəmiyyət veririk və hesab edirik ki, sizin prezident Klinton və xanım Olbrayt ilə Davosda keçirdiyiniz görüşlərin davamı kimi, ölkələrimiz arasındakı münasibətlərə aid məsələlərin müzakirəsi üçün də yaxşı bir imkan olacaqdır.

Sizin kimi, mən də inanıram ki, Vaşinqtonu ziyarətiniz zamanı həm prezident Klinton ilə keçirəcəyiniz görüş və həmçinin hökumətimizin üzvləri ilə görüşlər, habelə Amerika Birləşmiş Ştatlarında siyasəti müəyyənləşdirən elitanın nümayəndələri ilə keçirəcəyiniz görüşlər müvəffəqiyyətli olacaqdır. Ümidvaram ki, bu görüşlər ölkələrimiz arasındakı münasibətləri inkişaf etdirmək üçün daha səmimi fikir mübadiləsi aparmaq imkanı verəcəkdir.

Sizin Vaşinqtonda olacağınız müddətdəki iş cədvəlinizlə məni tanış etdilər. Mən bunu gördükdən sonra hesab edirəm ki, bu qədər işin müqabilində mən özüm belə bir ziyarətə getsəydim, yorulmuş olardım, cənab prezident. İş cədvəliniz onu göstərir ki, sizin həddindən artıq çoxsaylı görüşləriniz olacaqdır və səfəriniz çox gərgin bir şəraitdə keçəcəkdir. Sizin ölkəmizə ziyarətinizin nəticələrini səbirsizliklə gözləyəcəyəm. Əminəm və bilirəm ki, bu nəticələr müsbət olacaqdır. Ümidvaram ki, ziyarətdən qayıtdıqdan sonra da mənə imkan verəcəksiniz ki, sizin üçün münasib olan bir vaxtda yenidən sizi ziyarət edib səfərin nəticələri barədə fikir mübadiləsi aparım.

Cənab prezident, icazə versəydiniz, mən bu fürsətdən istifadə edib, bu ayın 7-də bir qrup kəndlinin Müsavat Partiyasının binasına hücumu zamanı baş vermiş hadisə ilə əlaqədar hökumətinizin cəld və dərhal reaksiya verməsi münasibətilə sizi təbrik edərdim. Yəqin məlumatınız vardır ki, bu hadisələrdən sonra mən sizin hökumətin bir sıra üzvləri ilə, o cümlədən daxili işlər naziri, baş prokuror ilə görüşlər keçirdim və sizə bildirmək istəyirəm ki, mən onların bu hadisəyə reaksiyasından, cavabından çox razı qaldım. Mən hesab edirəm ki, bu qəbildən olan hadisə dünyanın hər bir yerində baş verə bilərdi və sizin hökumətiniz hər hansı başqa bir hökumətin görə biləcəyi tədbirləri də məhz görmüş oldu.

**H e y d ə r  Ə l i y e v:** Təşəkkür edirəm, cənab səfir. Birinci, mən bir daha bildirmək istəyirəm və məmnunam ki, Davosda prezident Klinton ilə, xanım Olbrayt ilə görüşlərimdən sonra qısa bir zamanda bu görüşlərin məntiqi nəticəsi olaraq danışıqları davam etdirmək üçün Vaşinqtona getməyimlə əlaqədar yaranmış şərait mənim üçün çox əhəmiyyətlidir. Mən inanıram ki, bu görüşlər, bu danışıqlar bizim üçün çox faydalı olacaq və ölkələrimiz arasındakı əlaqələrin inkişaf etdirilməsi üçün şübhəsiz ki, çox xeyirli olacaqdır. Bir çox vacib məsələlər – Dağlıq Qarabağ münaqişəsi, Xəzər hövzəsi ilə əlaqədar məsələlər, Bakı-Ceyhan, Transxəzər kəmərləri ilə əlaqədar məsələlər barəsində də geniş fikir mübadiləsi aparmaq imkanı olacaqdır.

Mənə verilən proqramla siz də tanışsınız. Həqiqətən, orada iş cədvəli çox gərgindir. Amma siz məni tanıyırsınız. Bilirsiniz ki, bu, məni narahat etmir, əksinə, sevindirir. Çünki bu qədər böyük məsafəni qət edib Amerikaya gedəndən sonra, əlbəttə ki, mən Azərbaycanın dövlət başçısı kimi, hər bir dəqiqədən, hər bir saatdan istifadə etmək məqsədini qarşımda qoyuram. Ona görə də mən bu proqramı qəbul etmişəm, hamısını artıqlaması ilə yerinə yetirəcəyəm.

Təbiidir ki, mənim üçün prezident Klinton ilə görüşmək və fikir mübadiləsi aparmaq əsas məqsəddir. Bizim aramızda yaranmış səmimi münasibətlər onu göstərir ki, bu danışıqlarımız Azərbaycan və Amerika əlaqələri üçün çox faydalı olacaqdır. Çox məmnunam ki, mənə hökumətin başqa üzvləri ilə də görüşmək

mümkün olacaqdır. Mən dönəndən sonra sizinlə mütləq görüşəcəyəm və öz səfərim barədə geniş məlumat verəcəyəm.

Bu ayın 7-dəki hadisə münasibətilə sizin indiki bəyanatınız məni çox sevindirir. Həqiqətən, siz doğru buyurdunuz ki, belə hadisə hər bir ölkədə ola bilər. Amma iş bu hadisənin olmasından ibarət deyil, ona hakimiyyət orqanlarının münasibətindədir.

Mən çox məmnunam ki, siz şəxsən bu məsələ ilə çox ciddi məşğul oldunuz. Daxili işlər naziri ilə görüşdünüz, baş prokuror ilə görüşdünüz və özünüz çox obyektiv, doğru-düzgün nəticə çıxarmısınız. Bu, bizim üçün çox əhəmiyyətlidir və bildirmək istəyirəm ki, bu, bizə göstərilən yardımdır. Çünki təəssüf ki, bəzən belə halları şişirdirlər, təhrif edirlər və həm Azərbaycanda, həm də Azərbaycanın xaricində qeyri-obyektiv ictimai rəy yaradırlar. Mən bu gün bir daha bəyan edirəm ki, Azərbaycanda demokratik prinsiplərin qorunması, mətbuat azadlığı, söz azadlığı, fikir azadlığı və başqa azadlıqlar – hamısı Azərbaycanın prezidentinin təminatı altındadır. Gərək heç kəs düşünməsin ki, belə pozuntuluqlar, yəni bu prinsiplərin pozulması ola bilməz, ya olmamalıdır. Əgər biz elə bir şəraitə gəlib çıxmış olsaydıq, mən bizim dövlət orqanlarının 70 faizini ixtisar edərdim.

Əsas ondan ibarətdir ki, təəssüf ki, biz belə hallardan, necə deyərlər, xali deyilik. Yəni belə hallar bu gün də var, sabah da ola bilər. Əsas ondan ibarətdir ki, hakimiyyət orqanları, dövlət orqanları buna nə cür münasibət göstərir, nə cür reaksiya verir və hansı tədbirləri görür. Əmin ola bilərsiniz ki, biz bu prinsipləri daim qoruyacağıq. Cənab səfir, bu məsələyə ciddi münasibət göstərib obyektiv araşdırma apardığınıza görə sizə təşəkkür edirəm.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINA İŞGÜZAR SƏFƏRƏ YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

*12 fevral 2000-ci il*

**S u a l: Cənab Prezident, Amerika Birləşmiş Ştatlarına səfər zamanı əsasən hansı məsələləri müzakirə etmək niyyətindəsiniz?**

**C a v a b:** Sizə məlumdur, bizim mətbuat xidməti mənim səfərim haqqında məlumat veribdir. Elə həmin məsələləri də müzakirə edəcəyik.

Bilirsiniz ki, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasındakı əlaqələr çox genişdir, ətraflıdır və biz Amerika Birləşmiş Ştatlarının dövlət başçısı, hökumət üzvləri ilə vaxtaşırı görüşlər keçiririk. Bir neçə məsələ bizim görüşlərin həmişə mərkəzində olur. Birinci, Ermənistan–Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması. Bu məsələ hələ ki, həll olunmayıbdır. Ancaq son bir il içərisində, hesab edirəm ki, müəyyən irəliləmələr vardır.

Xəzər dənizinin enerji ehtiyatlarından istifadə olunması, Bakı–Ceyhan, Xəzər qaz kəmərlərinin çəkilməsi və başqa bu kimi problemlər, ticarət əlaqələrimiz, Amerika Birləşmiş Ştatlarının başqa strukturları ilə də bizim əməkdaşlığımız – bunlar hamısı çox geniş əhəmiyyət kəsb edir.

Bilirsiniz ki, son vaxtlar mənim çox görüşlərim olubdur. Mənim Davosda görüşlərim sizə məlumdur. Prezident cənab Bill Klintonla və Xarici İşlər naziri xanım Olbraytla, başqa hökumət üzvləri ilə – orada Amerikanın çox hökumət üzvləri var idi – onlarla bu danışıqları davam etdirmək lazımdır. Doğrudur, Davosda biz yaxşı söhbət edə bildik, amma biz eyni fikrə gəldik ki, bunları daha da geniş təhlil etmək üçün görüşlər lazımdır. Ona görə də mən gedirəm.

Mənim bu səfərim işgüzar səfərdir və artıq bilirsiniz ki, çox görüşlər təyin olunubdur. Həm prezident Bill Klintonla, həm xarici işlər naziri xanım Olbraytla, enerji naziri ilə görüşəcəyəm. Başqa nazirlərin də mənimlə görüşmək arzuları vardır. Əgər vaxt olsa, orada bir neçə siyasi xadimlər, Amerikanın çox hörmətli mətbuat orqanlarının nümayəndələri mənimlə görüşmək istəyirlər. Xahiş ediblər ki, Con Hopkins Universitetinin Beynəlxalq Əlaqələr İnstitutunda mən onları maraqlandıran məsələlər barəsində çıxış edim. Yəqin o da olacaqdır. Hər halda, hər dəfə olduğu kimi, işim çoxdur. Bunların hamısı üçün Amerikaya gedirəm və bunlar da bizim dövlətimiz üçün bu gün çox vacib məsələlərdir.

**S u a l: Cənab Prezident, 907-ci düzəliş barədə nə demək olar?**

**C a v a b:** Bəli, bu məsələ mütləq bizim danışıqlarımızın mərkəzində olacaqdır. Çünki bu barədə mən Davosda çox kəskin danışmışam.

**S u a l: Bakı–Ceyhan neft kəməri ilə əlaqədar danışıqlar olacaqmı?**

**C a v a b:** Bakı–Ceyhan məsələsi həll olunubdur. Sadəcə, orada Gürcüstanın mövqeyində bir balaca məsələ var – onu həll etmək lazımdır. Güman edirəm ki, bu gün, yaxud ayın 14-də Azərbaycanda Türkiyə, Gürcüstan, Azərbaycan nümayəndə heyətləri görüşəcəklər və bunu həll edəcəklər.*

---

* Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev fevralın 12-də yolüstü Londonda oldu. Dövlətimizin başçısını London şəhərinin beynəlxalq «Hitroy» hava limanında Böyük Britaniya hökumətinin yüksək vəzifəli şəxsləri, Azərbaycanın Böyük Britaniyadakı səfiri, prezidentin qızı Sevil xanım Əliyeva qarşıladılar. Heydər Əliyev qısa fasilədən sonra Londondan Vaşinqtona yola düşdü.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ BİLL KLİNTON İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN**

*Vaşinqton, Ağ ev*

*15 fevral 2000-ci il*

**B i l l K l i n t o n:** Hörmətli cənab Prezident, xoş gəlmisiniz. Sizinlə Ağ evdə yenidən görüşməyimdən çox məmnunam.

Sizinlə bu ilin yanvarında Davosda keçirdiyimiz görüşləri, apardığımız danışıqları yüksək dəyərləndirirəm. Aramızda illər ərzində yaranmış sıx əməkdaşlığın yaxın dostluğa çevrilməsindən böyük məmnunluq duyuram.

Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında qurulmuş strateji tərəfdaşlıq böyük əhəmiyyət daşıyır. Əminəm ki, ölkələrimizin bütün sahələrdəki qarşılıqlı surətdə faydalı əlaqələri bundan sonra daha da genişlənəcəkdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün Sizinlə prezident Robert Koçaryan arasında aparılan birbaşa danışıqlar Amerika Birləşmiş Ştatları tərəfindən dəstəklənir. Münaqişənin tezliklə aradan qaldırılması üçün şəxsi səylərimi artırmağa və ATƏT-in Minsk qrupunda Amerika Birləşmiş Ştatlarının fəaliyyətini gücləndirməyə hazır olduğumu bildirirəm.

Ümidvaram ki, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılması Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin birqərar olunmasına, region dövlətlərində demokratiyanın inkişafına, onların arasında iqtisadi əməkdaşlığın genişlənməsinə kömək edəcək və bu, regionda yaşayan xalqların rifahının yüksəlməsinə dəyərli töhfə verəcəkdir.

Xəzərin Azərbaycan sektorundakı zəngin enerji ehtiyatlarının dünyanın aparıcı neft şirkətləri ilə birgə işlənilməsi sahəsində Sizin liderliyinizlə görülən işlər tarixi əhəmiyyət daşıyır.

Keçən ilin noyabrında İstanbulda Bakı–Ceyhan əsas ixrac boru kəməri barədə sazişin imzalanması mərasimində iştirakımı məmnuniyyətlə xatırlayıram.

Bakı–Ceyhan və Transxəzər boru kəmərləri kimi nəhəng layihələrin həyata keçirilməsində Azərbaycan aparıcı rol oynayır. Bu layihələri reallaşdırmaq üçün görülən işlərin sürətləndirilməsi vacibdir.

**H e y d ə r Ə l i y e v:** Cənab Klinton, Sizinlə Ağ evdə növbəti dəfə görüşməyimdən çox məmnun olduğumu bildirirəm. Sizinlə şəxsi dostluq münasibətlərini yüksək qiymətləndirirəm. Hazırkı işgüzar səfərə dəvətə və qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm. Ötən il Klivlenddə cərrahiyyə əməliyyatı keçirdiyim zaman mənə göstərilən diqqət və qayğıya görə dərin təşəkkürümü bildirirəm.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması üçün prezident Robert Koçaryanla danışıqlar oldu. Sülh prosesinin davam etməsi daim diqqətimdədir. Danışıqların uğurla başa çatması üçün göstərdiyiniz şəxsi səylərə və dəstəyə görə Sizə dərin təşəkkürümü bildirirəm. İstərdim Minsk qrupunda ABŞ həmsədr kimi öz səylərini artırsın.

Bakı-Ceyhan əsas ixrac boru kəmərinin çəkilməsi barədə ötən ilin noyabrında İstanbulda imzalanmış sazişi tarixi hadisə kimi dəyərləndirirəm. Bu mərasimdə ABŞ prezidentinin iştirak etməsi, sazişə imza atması, həmin sənədin həyata keçirilməsi üçün çox əhəmiyyətli Bakı-Ceyhan neft və Transxəzər qaz kəmərlərinin tikintisi üçün görülən işlər yüksək səviyyədə gedir. Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsində və ölkəmizin iqtisadiyyatının digər sahələrində Amerikanın 100-dən çox şirkəti fəaliyyət göstərir.

Azərbaycan ilə Amerika arasında strateji tərəfdaşlıq münasibətləri xüsusi əhəmiyyət daşıyır. ABŞ-ın işgüzar dairələrinin respublikamızda qarşılıqlı surətdə faydalı iş görməsi və sərmayə qoyması üçün bundan sonra da hər cür şərait yaradılacaqdır.

ABŞ Konqresinin 1992-ci ildə qəbul etdiyi ədalətsiz 907-ci düzəlişin ləğv olunmasına xüsusi diqqət yetirilməsi vacibdir.

**B i l l K l i n t o n:** Hörmətli cənab prezident, Sizinlə keçirdiyimiz bu görüş fövqəladə əhəmiyyətli və olduqca səmərəli bir görüşdür.

Heydər Əliyev Ağ evdəki Ruzvelt otağının fəxri qonaqlar kitabına öz ürək sözlərini yazdı: *«Ağ evin Ruzvelt otağını ziyarət etmək mənim üçün böyük şərəfdir. ABŞ prezidentinin iqamətgahında səmərəli görüşmək*

---

- Görüşdə ABŞ-ın dövlət katibi xanım Madlen Olbrayt, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Sendi Berger, ARDNŞ-in birinci vitse-prezidenti İlham Əliyev, Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev iştirak edirdilər.

*arzusundayam. Prezident Bill Klinton ilə görüşümü, danışıqlarımı çox əhəmiyyətli hesab edirəm, səbirsizliklə gözləyirəm.*

*Azərbaycan Respublikasının Prezidenti*
*Heydər Əliyev*

*15 fevral 2000-ci il»*

## ABŞ PREZİDENTİ BİLL KLİNTONLA GÖRÜŞ BAŞA ÇATDIQDAN SONRA AĞ EVİN QARŞISINDA YERLİ VƏ XARİCİ JURNALİSTLƏRLƏ GÖRÜŞDƏ ÇIXIŞ VƏ SUALLARA CAVAB

*15 fevral 2000-ci il*

**H e y d ə r  Ə l i y e v:** Mən sizi salamlayıram və anlayıram ki, məndən hansısa məlumatlar gözləyirsiniz. Sizə deyə bilərəm ki, prezident cənab Bill Klintonla mənim danışığım çox uğurlu, çox səmərəli və çox da məzmunlu oldu. Birincisi, biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məsələsini müzakirə etdik. Mən hesab edirəm ki, bizim danışıqlarımız, fikir mübadiləmiz bu məsələnin həll olunması üçün çox əhəmiyyətlidir və sülh danışıqlarının irəliyə getməsinə yardım edəcəkdir.

Sonra, biz Xəzər dənizinin enerji ehtiyatlarından istifadə edilməsi məsələsi barədə fikir mübadiləsi apardıq. Bilirsiniz ki, biz Bakı –Ceyhan neft kəmərinin tikilməsi haqqında saziş imzalamışıq. İndi onun əməli surətdə həyata keçirilməsi barədə danışıqlar apardıq. Türkmənistandan Azərbaycan, Gürcüstan vasitəsilə Türkiyəyə gedəcək Transxəzər qaz kəmərinin tikilməsi ilə də əlaqədar fikir mübadiləsi apardıq. Biz bütün bu məsələlərdə eyni fikirdəyik və mən prezidentin mövqeyindən çox məmnunam.

Müzakirə etdiyimiz məsələlərdən biri də 1992-ci ildə Amerika Konqresi tərəfindən Azərbaycana qarşı edilmiş ədalətsizlikdir, yəni ədalətsiz 907-ci maddənin qəbul olunmasıdır. Amerika kimi ədalətli bir ölkədə, ədalətli Konqresdə, təəssüf ki, ədalətsiz qanun da qəbul edilibdir. Bunun qəbul edilməsinə Amerikadakı erməni lobbisi nail olubdur. Ancaq bu maddənin heç bir əsası yoxdur. Guya 907-ci maddəni ona görə qəbul ediblər ki, «Azərbaycan Ermənistanı blokadaya alıbdır». Əksinə, Ermənistan silahlı qüvvələri Azərbaycanla müharibə edib, Azərbaycan torpaqlarının 20 faizini işğal edib və indiyə qədər də işğal altında saxlayır. İşğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxarılıb, oralarda etnik təmizləmə aparılıbdır. Yerindən-yurdundan çıxarılmış insanlar çadırlarda ağır vəziyyətdə yaşayırlar.

Belə olduğu halda, «Azərbaycanın Ermənistanı blokadaya alması» haqqında fikir tamamilə əsassızdır. Ona görə də 907-ci maddənin ləğv olunması məsələsi bizim üçün çox əhəmiyyətlidir. Biz prezidentlə bu məsələni də müzakirə etdik.

Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında dostluq, tərəfdaşlıq əlaqələri yaranıbdır, geniş iqtisadi əməkdaşlıq həyata keçirilir və bu, hər iki tərəf üçün faydalıdır. Biz Amerikanı özümüzün dostu və strateji tərəfdaşı hesab edirik. Bir də qeyd edirəm ki, mən prezidentlə görüşümdən və apardığım danışıqlardan çox məmnunam. Sağ olun.

**S u a l: Cənab Prezident, Bakı–Ceyhan boru kəməri həm də maliyyələşdirilməlidir. Biz belə anlayırıq ki, maliyyənin əsas hissəsi özəl şirkətlərdən gəlməlidir. Siz bu görüşünüz zamanı Bakı-Ceyhan boru kəmərinin maliyyələşdirilməsi yolları barədə də fikir mübadiləsi apardınızmı? Əgər apardınızsa, layihənin kimlər tərəfindən maliyyələşdiriləcəyi barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Bakı–Ceyhan layihəsi yalnız özəl şirkətlər tərəfindən maliyyələşdiriləcəkdir. Azərbaycanda təşkil edilmiş konsorsiuma həm Amerika Birləşmiş Ştatlarının şirkətləri, həm də Böyük Britaniyanın şirkətləri, başqa şirkətlər daxildir və onlar hamısı birlikdə Azərbaycanda neft hasilatı ilə məşğul olduqlarına görə hamısı birlikdə də Bakı–Ceyhan neft kəmərinin maliyyələşdirilməsi ilə məşğul olacaqlar. Bu məsələ həll edilib, bunun prezidentlə müzakirəsinə ehtiyac olmayıbdır.

**S u a l: Cənab Prezident, Qafqaz regionunda terrorizm problemi müzakirə edildimi? Vəhhabilik probleminə Azərbaycanın münasibəti necədir?**

**C a v a b:** Biz bu məsələni müzakirə etməmişik. Biz vəhhabiliyə son dərəcə mənfi münasibət bəsləyirik. Hesab edirik ki, bu hərəkat həm Şimali Qafqaz üçün, həm də ümumən Qafqaz üçün və regionumuzun digər ölkələri üçün təhlükəlidir.

**S u a l: Cənab Prezident, Dağlıq Qarabağda sülh əldə edilməsi üçün Azərbaycan və Ermənistan nə kimi güzəştlərə gedirlər? Sülh üçün ərazi verilməsi ehtimalı varmı?**

**C a v a b:** Təbiidir ki, hər iki tərəfdən güzəşt olmalıdır. Bizim danışıqlarımız əsasən güzəştlərin müəyyən olunması ilə əlaqədardır. Ancaq danışıqlarımız qurtarmadığına görə bu barədə hələ bir şey deyə bilmərəm.

Daha kimin nə sualı var, yoxdur? Sağ olun.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ ENERGETİKA NAZİRİ BİLL RİÇARDSON İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Vaşinqton*

*15 fevral 2000-ci il*

**B i l l R i ç a r d s o n:** Hörmətli cənab Prezident! Xoş gəlmisiniz. Sizinlə yenidən görüşməyimdən şərəf duyuram. Onu da deyim ki, Sizin Vaşinqtonda keçirdiyiniz görüşlər, apardığınız danışıqlar böyük maraq doğurur.

Ötən ilin avqustunda Bakıya səfərim zamanı mənə göstərilmiş qonaqpərvərliyə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. ABŞ və Azərbaycan hökumətləri arasında birgə işçi qrupunun yaradılması barədə memorandumun, cənab prezident, Sizin iştirakınız ilə imzalanması böyük əhəmiyyət daşıyır. Azərbaycan–Amerika strateji tərəfdaşlığının daim inkişaf etməsi hər iki ölkə üçün faydalıdır.

1998-ci ilin oktyabrında Ankara Bəyannaməsinin, ötən ilin noyabrında İstanbulda ABŞ prezidenti Bill Klintonun iştirakı ilə Bakı–Ceyhan əsas ixrac boru kəməri barədə sazişin imzalanması tarixi hadisədir. Məhz Sizin liderliyiniz, uzaqgörən siyasətiniz sayəsində əlaqədar ölkələrin dövlət başçılarının bu layihə ətrafında birləşdirilməsinin əhəmiyyəti vardır. Layihə çox böyük perspektivlərə malikdir.

**H e y d ə r Ə l i y e v:** Cənab nazir, dövlətlərimizin əlaqəsi və şəxsən mənim haqqımda dediyiniz xoş sözlərə görə Sizə təşəkkür edirəm.

1999-cu ilin noyabrında ATƏT-in İstanbul zirvə görüşü çərçivəsində məşhur «Çırağan» sarayında Bakı–Ceyhan əsas ixrac neft boru kəməri barədə sazişin imzalanmasını mən də yüksək qiymətləndirirəm. Həmin mərasimdə cənab Bill Klintonun iştirak etməsi, sənədə imza atması bu sazişin həyata keçirilməsi üçün xüsusi əhəmiyyət daşıyır.

Neft ölkəsi kimi tanınan Azərbaycan yaxın gələcəkdə həm də böyük həcmdə qaz ixrac edəcək. Transxəzər qaz kəmərinin bu mənada böyük perspektivləri vardır. «Bi-Pi – Amoko» şirkətinin operatorluğu ilə «Şahdəniz» yatağında 1 trilyon kubmetr, «Şevron» şirkətinin operatorluğu ilə «Abşeron» yatağında 3 trilyon kubmetr qaz aşkar edilmişdir.

ABŞ şirkətlərinin qarşılıqlı surətdə faydalı iş görməsi və sərmayə qoyması üçün respublikamızda geniş imkanlar vardır. Amerikanın işgüzar dairələrinin Azərbaycana marağının gündən-günə artması xüsusi əhəmiyyət daşıyır.

**B i l l R i ç a r d s o n:** Bəli, bu, doğrudan da belədir. Biz hər iki dövlətlərimizi maraqlandıran məsələləri qarşılıqlı anlaşma şəraitində həll etməliyik.

**H e y d ə r Ə l i y e v:** Azərbaycan dövləti xoşməramlı əlaqələrin genişləndirilməsinə maraqlıdır və bu əlaqələrin perspektivlərini müzakirə etməyə hazırdır.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KƏND TƏSƏRRÜFATI NAZİRİ DƏN QLİKMAN İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Vaşinqton*

*15 fevral 2000-ci il*

**D ə n Q l i k m a n:** Hörmətli cənab Prezident! Sizinlə ilk dəfə görüşməyimdən məmnun olduğumu bildirirəm. Sizin Vaşinqtona işgüzar səfərinizi böyük maraqla gözləyirdim və bu səfərə xüsusi əhəmiyyət verirdim.

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab nazir! Mən də sizinlə görüşümdən məmnunam. İqtisadiyyatın bütün sahələrində olduğu kimi, aqrar sahədə də Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında geniş əməkdaşlıq imkanları mövcuddur. Azərbaycanın kənd təsərrüfatında artıq formalaşmış nəhəng potensialı vardır. Ölkəmizdə aqrar sahədə islahatlar həyata keçirilir. Azərbaycan Respublikasının iqtisadiyyatında əvvəlki illərdə yol verilmiş geriləmənin dayandırılması və iqtisadi artıma nail olunması, ölkəmizin dünya iqtisadiyyatına daha sıx inteqrasiyası və bazar iqtisadiyyatı münasibətlərinin inkişafı üçün işlər görülür. Neft və qaz sənayesinə cəlb edilən sərmayələrin köməyi ilə nəhəng layihələr həyata keçirilir. Hazırda neft-qaz sahəsində Amerikanın on nəhəng şirkətinin Azərbaycanla geniş əməkdaşlığı vardır. İlkin neftin ixracı üçün nəzərdə tutulmuş şimal və qərb marşrutları istifadəyə verilmişdir. Əsas, neftin ixracından ötrü isə Bakı–Ceyhan boru kəmərinin reallığa çevrilməsi üçün ABŞ prezidenti Bill Klintonun xidmətləri xüsusi diqqətə layiqdir. Neft-qaz sahəsində uğurlu əməkdaşlıqla yanaşı, aqrar sahədə də geniş işbirliyi imkanları mövcuddur. Bunun üçün Azərbaycanın böyük kənd təsərrüfatı potensialı vardır. Torpaq islahatı həyata keçirilir, maldarlıq sahəsində nailiyyətlər qazanılmışdır. İqlim qurşaqlarının əksəriyyətinin mövcud olduğu Azərbaycanda pambıqçılıq, üzümçülük, tütünçülük, taxılçılıqla yanaşı, subtropik bitkilərin də becərilməsi üçün əlverişli şərait vardır.

Ölkəmizdə fermer təsərrüfatları yaranmış, xırda və orta sahibkarlıq inkişaf etdirilir. Dünya Bankı, eləcə də digər maliyyə qurumları bu sahədə Azərbaycana yardım göstərir. Görülmüş tədbirlər ilkin nəticələr vermiş, iqtisadiyyatda, o cümlədən kənd təsərrüfatında böhran dayandırılmış, 1999-cu ilin yekunlarına görə əksər sahələr üzrə sabit iqtisadi artıma nail olunmuşdur.

**D ə n Q l i k m a n:** Hörmətli cənab Prezident, ətraflı və dolğun məlumat üçün təşəkkürümü bildirirəm. Azərbaycanla ABŞ arasında aqrar sahədə də daha geniş əlaqələr qurulmasına tərəfdaram. Tezliklə bu istiqamətdə daha səmərəli addımlar atılacağına ümid edirəm. Bizim ölkələrimiz kənd təsərrüfatı məhsulları ticarəti dövriyyəsinin artırılmasına çalışmalı, bu iş birgə əməkdaşlığımızın əsas şərtlərindən biri olmalıdır.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI «EKSİMBANK»ının PREZİDENTİ CEYMS HARMON İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Vaşinqton*

*15 fevral 2000-ci il*

**C e y m s  H a r m o n:** Hörmətli cənab Prezident! Xoş gəlmisiniz. Sizinlə yenidən görüşməyim məni məmnun edir. Siz bilirsiniz ki, ABŞ-ın «Eksimbank»ı, yəni idxal-ixrac bankı 1934-cü ildən fəaliyyət göstərir. Bu bank hazırda digər fəaliyyət üsulları ilə yanaşı, öz imkanlarını inkişaf etməkdə olan ölkələrdə ixrac əməliyyatlarının tənzimlənməsinə və onlara yardım edilməsinə, kiçik biznesin və maliyyə layihələrinin imkanlarının genişləndirilməsinə yönəltmişdir. Azərbaycanla bank arasında əməkdaşlıq münasibətləri qurulmuşdur.

**H e y d ə r  Ə l i y e v:** Sizinlə yenidən görüşmək məni də məmnun edir.

**C e y m s  H a r m o n:** Cənab prezident, hal-hazırda qarşılıqlı surətdə faydalı əlaqələrin genişləndirilməsi üçün etibarlı əsas yaranmışdır. 1997-ci ilin yayında Vaşinqtonda görüşümüz və Azərbaycan Respublikası ilə «Eksimbank» arasında əməkdaşlıq sənədlərinin imzalanmasını xatırlayırsınız. Bu gün də «Eksimbank» Azərbaycanla əlaqələrini genişləndirməyə böyük maraq göstərir.

**H e y d ə r  Ə l i y e v:** «Eksimbank» ilə ölkəmizin əməkdaşlığının möhkəmlənməsinə tərəfdaram. Bu gün artıq ölkəmizdə maliyyə sabitliyi yaranmış, bank sistemi təkmilləşdirilmiş, işlər müasir səviyyədə qurulmuş, maliyyə-kredit siyasəti sahəsində islahatlar aparılmışdır. ABŞ ilə Azərbaycan arasında sıx əməkdaşlıq mövcuddur. Belə ki, ABŞ-ın 100-dən çox şirkəti Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərir. Amerika Birləşmiş Ştatlarının hökumət səviyyəsində əsas idxal-ixrac əməliyyatlarını həyata keçirən bu nəhəng maliyyə təsisatı da ölkəmizlə əməkdaşlığını daha da genişləndirməlidir.

**C e y m s  H a r m o n:** Elə buna görə də biz gələcək əlaqələrin perspektivlərini ətraflı müzakirə etməliyik.

**H e y d ə r  Ə l i y e v:** Azərbaycan dövləti qarşılıqlı anlaşma şəraitində keçən müzakirələrin aparılmasına və hər iki ölkənin maraqlarına cavab verən layihələrin hazırlanmasına tərəfdardır.

## CONS HOPKİNS VAŞİNQTON UNİVERSİTETİNDƏ GÖRÜŞDƏ* NİTQ

*15 fevral 2000-ci il*

***P o l V o l f o v i ç** (Universitetin xüsusi Beynəlxalq Tədqiqatlar İnstitutunun rəhbəri,səfir): Cənab prezident, sizi, görkəmli dövlət xadimini salamlamaqdan, Sizinlə görüşümdən şərəf duyduğumu bildirirəm.*

*Mən böyük məmnunluq hissi ilə bildirirəm ki, Azərbaycan prezidenti cənab Heydər Əliyev ilə mərkəzin böyük salonunda keçiriləcək görüşə ABŞ-ın keçmiş və hazırkı yüksək vəzifəli siyasi xadimləri, səfirlər, diplomatik fəaliyyətlə məşğul olan şəxslər, MDB və Azərbaycan üzrə ekspertlər, beynəlxalq təşkilatların, yerli və xarici şirkətlərin nümayəndələri, universitetin professor-müəllim heyəti, tələbələr, kütləvi informasiya vasitələrinin təmsilçiləri toplaşıblar. Onlar görkəmli dövlət xadimi, dünyanın ən nüfuzlu şəxsiyyətlərindən biri olan prezident Heydər Əliyevi dinləmək və beynəlxalq, regional məsələlər, ikitərəfli münasibətlər və s. barədə onun fikirlərini öyrənmək arzusundadırlar.*

*Onu da vurğulamaq istəyirəm ki, Azərbaycan prezidentinin həyatı öyrənilməyə layiq bir tarixdir. İnstitut görkəmli dövlət xadimi Heydər Əliyev haqqında kitab nəşr etmək istəyir və bu məqsədlə öz nümayəndəsini Bakıya göndərmək niyyətindədir.*

* * *

*Cons Hopkins Universitetinin nəzdindəki Pol Nitz Mərkəzi, habelə Mərkəzi Asiya-Qafqaz İnstitutu adından və şəxsən öz adımdan bugünkü çox görkəmli qonağımız, gözəl natiqlik qabiliyyəti ilə tanınan Azərbaycan prezidenti Heydər Əliyevi salamlamaqdan qürur və məmnunluq hissi duyuram.*

*Buraya gəlməzdən əvvəl mən prezident Əliyevlə söhbət edərkən ona da dedim ki, Henri Kissincer dövlət katibi işləyən vaxt Avstraliyaya səfəri zamanı demişdir ki, Yeni Zelandiya Antarktidanın ürəyinə yönəlmiş strateji bir ərazidir. Bəlkə də o zaman Kissincer yeni zelandiyalılarla zarafat etmək fikrində idi. Amma mən bilirəm ki, yeni zelandiyalıların çoxu həqiqətən, ölkələrinin strateji əhəmiyyətindən tam məmnundurlar.*

*Azərbaycan kimi strateji əhəmiyyətli ölkə olmaq, Rusiya və İran kimi iki böyük qədim imperiyanın arasında yerləşmək daim diqqət mərkəzində olmaq deməkdir. Bu iki imperiya hələ ki, imperialist siyasətlərindən tam əl çəkməyiblər. Amma biz coğrafi ərazimizi və tariximizi seçmək iddiasında deyilik. Əlbəttə, tarixə gəldikdə, prezident Heydər Əliyev qeyri-adi siyasi karyerası dövründə tarixin çox mürəkkəb məqamlarını yaşamışdır. O, sovet dövründə Siyasi Büronun üzvü - 1976-cı ildən namizəd, 1982-ci ildən isə tam səlahiyyətli üzv oldu. 1969-cu ildə Heydər Əliyev Leonid Brejnevlə tanış oldu və elə o dövrdən SSRİ tarixinin fəal iştirakçısına çevrildi. O, Yuri Andropov dövründə də Siyasi Büro üzvü idi. 1982-ci ildə Andropov onu SSRİ Nazirlər Sovetində Baş nazirin birinci müavini vəzifəsinə təyin etdi. Heydər Əliyev Sovet İttifaqı dövründə yeganə azərbaycanlı idi ki, belə yüksək vəzifə sahibi olmuşdur. Amma 1987-ci ildə o, siyasətdən uzaqlaşır və anadan olduğu Naxçıvana gəlir.*

*SSRİ dağılandan sonra o, Azərbaycanın daxilindəki Naxçıvan Muxtar Respublikasının başçısı seçilir. Azərbaycanın müstəqillik qazandığı vaxt çətin bir dövr idi: etnik münaqişələr, xaricdən təcavüz, Moskvanın daxili işlərə müdaxilə etməsi və sairə.*

*1993-cü ilin yayında Surət Hüseynov Moskvanın dəstəyi ilə çevriliş cəhdi etdi. O zaman Azərbaycan xaosa yuvarlanmışdı. Cənab Heydər Əliyev Bakıya dəvət olundu və qısa vaxtda Azərbaycanın prezidenti seçildi. O, bir müddət Hüseynovla birgə işləməli oldu. Cənab Əliyev bu dövrdə intriqalar, çevriliş cəhdləri və digər mümkün variantlarla üzləşdi. Amma o, bütün bunların hamısının qarşısını aldı və həmrəylik yaratdı. Möhkəm, qüvvətli əli ilə ölkəni idarə edərək, eyni zamanda müxalif partiya və qəzetlərə də icazə verdi. O, parçalanmış orduda qayda-qanun yaradıb, itirilmiş ərazilərin bir hissəsini qısa müddətdə geri qaytardı. Sonra o, «Əsrin müqaviləsi»ni imzaladı. Bu, Amerika və Avropa şirkətlərinin Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə birgə imzaladığı müqavilədir. Bu müqavilə üçün iki boru kəməri, o cümlədən Amerika Birləşmiş Ştatlarının dəstəklədiyi Bakı-Ceyhan boru kəməri əsas götürüldü.*

*Prezident Heydər Əliyev ilk dəfə Azərbaycanın əsl müstəqilliyini təmin edəcək ehtiyatların işlənilməsinə nail oldu. Elə Amerika Birləşmiş Ştatlarında da və regionda da bəzilərini məyusluğa düçar*

* Azərbaycan prezidenti Heydər Əliyev ilə bu görüşü Amerikadakı Mərkəzi Asiya-Qafqaz İnstitutu və Cons Hopkins Universitetinin Pol Nitz adına Beynəlxalq Tədqiqatlar Mərkəzi təşkil etmişdir.

*edən cənab Heydər Əliyev ABŞ-ın və NATO-nun yaxın dostuna çevrildi. O, iki ölkə arasında münasibətləri inkişaf etdirmək istəyindədir. Amma məlumdur ki, 907-ci maddə əlaqələri korlayır və Amerika Birləşmiş Ştatları bu böyük strateji əhəmiyyətə malik ölkəyə yardım etməkdən məhrumdur.*

*Son bir neçə ayda prezident Əliyev Ermənistan prezidenti Koçaryanla dialoqa başlamışdır. Bizim ümid etdiyimiz kimi, bu dialoq Dağlıq Qarabağ münaqişəsi ilə bağlı sülh sazişinin imzalanmasına gətirib çıxaracaqdır. Razılıq əldə edilsə, bu, növbəti tarixi nailiyyət olacaqdır. Cənab Əliyevin son nailiyyəti bu olacaqdır ki, növbəti prezident bütün ölkə əhalisinin dəstəklədiyi şəxs olsun. Biz amerikalılar bilirik ki, güclü, demokratik sistem yeni seçilən liderin təhlükə ilə üzləşməməsinin ən yaxşı təminatçısıdır.*

*Prezident Heydər Əliyev təhlükəli qonşuluqda işləməli olmuşdur. Ən son təhlükə çeçen müharibəsi dövründə Gürcüstana və Azərbaycana hədə-qorxu ilə nəticələndi. Mən bilirəm ki, Klinton hökuməti bu hədə-qorxunun qarşısını almaq işinə sadiqdir və əminəm ki, siyasi partiyalar və Konqres də bu işdə həmrəy olacaqlar.*

*Cənab prezident, mən Sizə işinizi uğurla tamamlamağı arzu edirəm və sizi ürəkdən salamlayıram.*

* * *

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab səfir Volfoviç!

Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram və sizə ən xoş arzularımı bildirirəm.

Mən Hopkins Universitetinə, onun Beynəlxalq Tədqiqatlar Mərkəzinə gəlib burada görüş keçirmək üçün aldığım dəvətə görə çox məmnunam və təşəkkür edirəm. Hamınıza təşəkkür edirəm ki, siz mənimlə bu görüşə maraq göstərmisiniz, gəlmisiniz və güman edirəm ki, məni səbrlə dinləyəcəksiniz.

Mənim burada deyəcəyim söz çoxdur. Ancaq bilirəm ki, vaxt məhduddur. Mən bilirəm, - sizi bizim bölgəyə, yəni Qafqaza aid, Mərkəzi Asiyaya aid, keçmiş Sovetlər İttifaqı məkanına aid məsələlər çox maraqlandırır. Mən bu barədə sizə saatlarla danışa bilərəm. Ancaq sizi incitmək istəmirəm. Mən bir neçə məsələ haqqında sizə məlumatlar vermək istəyirəm.

Səfir cənab Volfoviç məni təqdim edərkən mənim haqqımda və ölkəm barədə artıq bir neçə məlumatları verdi. Ancaq ona baxmayaraq, mən istəyirəm sizə Azərbaycan haqqında qısaca məlumat verim.

Bilirsiniz, xəritədən də sizə məlumdur ki, Azərbaycan Qafqazda yerləşən bir ölkədir. Azərbaycan xalqının çox qədim və zəngin tarixi vardır. Bu tarix çox minillikdir. YII əsrdə azərbaycanlılar müsəlman dinini qəbul ediblər. Azərbaycanın keçmişdə çox zəngin ədəbiyyatı, elmi dünyada məşhur olubdur. Hələ X-XII əsrlərdə Azərbaycanın böyük şairləri – Nizami Gəncəvi, Xaqani çox dəyərli əsərlər yazıblar. Ondan sonrakı əsrlərdə böyük şairlər – Məhəmməd Füzuli, Nəsimi və bir çox başqaları dünya mədəniyyətini, dünya sivilizasiyasını öz dəyərli əsərləri ilə zənginləşdiriblər.

XIX əsrin əvvəlində Rusiya-İran müharibəsi nəticəsində - əvvəl iki dəfə də müharibə olubdur – Azərbaycan parçalanıbdır. Azərbaycanın şimal hissəsi, indi biz yaşadığımız Azərbaycan Rusiya imperiyasının tərkibinə keçib və Azərbaycanın cənub hissəsi – o sərhədi də Araz çayı təşkil edir – İranın tərkibinə keçibdir. İki əsr – XIX, XX əsrlərdə Azərbaycan Rusiya imperiyasının tərkibində yaşayıbdır. Oktyabr inqilabından sonra, 1920-ci ildə Azərbaycanda da sovet hakimiyyəti qurulubdur və 70 il sovet hakimiyyəti Azərbaycanda hakim olubdur. Azərbaycan Sovetlər İttifaqını təşkil edən 15 müttəfiq respublikadan biri olubdur.

Həqiqətən, səfir Volfoviç burada çox gözəl dedi ki, Azərbaycanın çox əhəmiyyətli və dəyərli coğrafi vəziyyəti var. Bunu biz yaratmamışıq, bunu təbiət yaradıbdır. Azərbaycanın zəngin təbii sərvətləri var. 1848-ci ildə Azərbaycanda dünyada ilk dəfə sənaye üsulu ilə neft istehsal edilməyə başlanıbdır. Bundan bir neçə il sonra Amerikada, Pensilvaniyada neft istehsalına başlanıbdır, ona görə də Azərbaycan dünyada bu məsələ üzrə birinci yer tutur. Azərbaycan uzun illər, on illər böyük bir neft ölkəsi kimi tanınıbdır. XX əsrin əvvəlində dünya neftinin təxminən 80 faizi Azərbaycanda hasil olunurdu.

Azərbaycan təxminən XIX əsrin ortalarından, 70-ci illərindən xarici şirkətlərin diqqətini cəlb edibdir. Bir çox böyük şirkətlər, o cümlədən Nobel qardaşları Azərbaycana gəliblər və orada neft sənayesinin inkişafı ilə məşğul olublar. Nobel qardaşlarının əldə etdiyi sərvətin bir hissəsi də Azərbaycanın olubdur. Buna görə, o Nobel mükafatını alanlar da bunu bilməlidirlər.

İkinci dünya müharibəsi zamanı Sovet İttifaqının neft ilə təchizatının 80 faizi Azərbaycandan, Bakıdan olubdur. Demək, bu neft Sovet İttifaqını təmin edirdi. Bəzi mütəxəssislər belə hesab edirlər ki, əgər Azərbaycan nefti olmasaydı İkinci dünya müharibəsində Sovetlər İttifaqının faşist Almaniyasına qalib gəlməsi ya mümkün olmazdı, ya da çox çətin olardı.

Sovet hakimiyyəti dövründə Azərbaycanın sənayesi, bütün iqtisadiyyatı, mədəniyyəti, elmi, təhsili çox inkişaf edibdir. Azərbaycan Avropa qitəsinə daxildir, Avropa ilə Asiyanın qovşağında yerləşir.

1991-ci ildə Sovetlər İttifaqı dağılan zaman başqa müttəfiq respublikalar kimi, Azərbaycan da öz müstəqilliyini, dövlət müstəqilliyini elan edibdir. Səkkiz ildir ki, biz müstəqil dövlət kimi yaşayırıq. Bu dövr bizim üçün nə qədər çətin, nə qədər ağır olsa da, o qədər də əzizdir, qiymətlidir. Çünki nəhayət, Azərbaycan xalqı öz müstəqil dövlətində yaşayır və öz milli azadlığını əldə edibdir.

Sovetlər İttifaqının dağılması və müttəfiq respublikaların dövlət müstəqilliyinin elan edilməsi çox ağır, çətin bir proses olubdur. Çünki müstəqillik əldə edən ölkələr, respublikalar artıq sovet ideologiyasından, kommunist ideologiyasından, sosialist iqtisadi-siyasi sistemindən imtina etməyə başlayıb, yeni, yəni Qərb ölkələrində olan iqtisadi sistemi qəbul edərək, demokratiyanı qəbul edərək inkişaf etməyə başlayıblar. Bunu biz hamımız keçid dövrü hesab edirik. Amma keçid dövrü müstəqillik əldə etmiş bu ölkələrin hamısında eyni şəraitdə keçmir. Bəzilərində sakit, münaqişəsiz, bəzilərində isə münaqişələr və daxili ictimai-siyasi vəziyyətin qeyri-sabit olması şəraitində keçir. Bu baxımdan, deyə bilərəm ki, Azərbaycan keçmiş Sovet İttifaqına daxil olmuş bütün respublikalar içərisində ən ağır vəziyyətdə olubdur və bu gün də ağır vəziyyətdədir. Çünki Azərbaycan öz dövlət müstəqilliyini əldə edən zaman- 1991-ci ildə artıq üç il idi ki, Ermənistanla Azərbaycan arasında hərbi münaqişə mövcud idi və müharibə gedirdi.

Ermənistan-Azərbaycan münaqişəsi 1988-ci ildə Ermənistanın Azərbaycanın tərkibində olan Dağlıq Qarabağ Muxtar Vilayətini ələ keçirmək məqsədi ilə başlayıbdır. Artıq burada deyildi ki, mən keçmişdə Sovetlər İttifaqının rəhbərliyində olmuşam, Siyasi Büro üzvü, sonra Baş nazirin, yəni Nazirlər Soveti sədrinin birinci müavini olmuşam. Buna görə də Sovetlər İttifaqını yaxşı tanıyıram- yuxarıdan da tanıyıram, aşağıdan da tanıyıram. Mən hesab edirəm ki, 1988-ci ildə bu münaqişənin qarşısı alına bilərdi. Ancaq hesab edirəm ki, o vaxt bəzi qüvvələrə, bəzi şəxslərə, bəlkə Moskvadakılara da lazım idi ki, bu münaqişə olsun. Bu, keçmiş Sovet İttifaqı ərazisində, postsovet məkanında ilk münaqişədir. Bu münaqişənin qarşısı alınmadığına görə o genişlənib və nəhayət, müharibəyə çevrilibdir. Bu müharibə də çox böyük faciəvi nəticələrə gətirib çıxarıbdır. Yenə də deyirəm, Moskva bu məsələnin qarşısını almamaqda, hesab edirəm ki, həm Ermənistana qarşı, həm də Azərbaycana qarşı çox günahlar edibdir.

Dağlıq Qarabağ – o, xəritədə qırmızı rənglə rənglənmişdir – Azərbaycanın tərkibində 1923-cü ildə yaranmış muxtar vilayətdir. Bu muxtar vilayət yarananda orada həm azərbaycanlılar, həm də ermənilər yaşayırdılar. Amma ermənilər çoxluq təşkil edirdilər. Ona görə də bu vilayətə muxtariyyət statusu verilibdir. Sonrakı dövrlərdə, məsələn, 50-ci, 60-cı illərdə Ermənistan tərəfindən məsələ qaldırılmışdır ki, Dağlıq Qarabağ Ermənistana birləşdirilsin. Amma o vaxtkı sovet hökuməti, təbiidir ki, bu təklifləri qəbul etməmişdir.

1988-ci ildə münaqişə başlayan zaman Dağlıq Qarabağda 170 min insan yaşayıbdır. Onun 70 faizi ermənilər, 30 faizi azərbaycanlılar olubdur. Münaqişə nəticəsində 1990-cı ildə azərbaycanlılar Dağlıq Qarabağdan tamamilə, zorla çıxarılıbdır. Ondan sonra isə Ermənistan Azərbaycanla müharibə etdiyinə görə və Ermənistana həm Rusiyadan, həm də başqa ölkələrdən yardım göstərildiyinə görə, Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağın ətrafında olan, bu xəritədə yaşıl və sarı rənglərlə rənglənmiş əraziləri də işğal ediblər. Beləliklə, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan ərazisinin 20 faizi işğal olunubdur. Burada yaşamış bir milyona qədər azərbaycanlı öz yerlərindən, yurdlarından zorla çıxarılıbdır və Azərbaycanın müxtəlif şəhərlərində, qəsəbələrində, əksəriyyəti çadırlarda yaşayırlar.

Bu müharibə 1994-cü ilə qədər davam edibdir. Səfir Volfoviç bildirdi ki, 1993-cü ildə mən Azərbaycanın prezidenti seçilmişəm. 1994-cü ilin may ayında biz müharibəni dayandırmışıq, Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş imzalamışıq. Beş ildən artıqdır ki, biz atəşkəs şəraitində yaşayırıq, yəni müharibə yoxdur, döyüşlər yoxdur. Ancaq sülh də yoxdur. Mühüm cəhət ondan ibarətdir ki, həm Azərbaycan tərəfi, həm də Ermənistan tərəfi atəşkəs rejiminə riayət edir.

Bir də onu qeyd edim, xüsusiyyət ondan ibarətdir ki, Ermənistanla Azərbaycan arasındakı bu münaqişəyə baxmayaraq, bu sərhədlərdə heç bir kənar sülhməramlı, yaxud ayırıcı hərbi hissələr yoxdur. Bütün bu beş il ərzində biz çalışırıq ki, məsələni sülh yolu ilə həll edək. ATƏT bu işlə məşğuldur və ATƏT bunu öz tərkibində yaradılmış Minsk qrupuna həvalə edibdir. Minsk qrupuna Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa başçılıq edirlər.

Bəs nə üçün məsələ həll olunmur? Biz hesab edirik ki, Ermənistanın qeyri-konstruktiv mövqeyinə görə. Çünki biz Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu verməyə hazırıq və bunu dəfələrlə bəyan etmişik. Biz belə bir status verərkən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxmasını tələb edirik və yerindən-yurdundan didərgin düşmüş insanların öz yerlərinə qayıtmasını təmin etmək istəyirik. Ancaq Ermənistan Dağlıq Qarabağa dövlət müstəqilliyi statusu almaq istəyir. Təbiidir ki, biz buna razı ola bilmərik.

Ümumiyyətlə, Ermənistanda belə fikirlər deyilir ki, «Dağlıq Qarabağ öz müqəddəratını təyin etmək prinsipi əsasında bunu edir». Beynəlxalq hüquq normaları, o cümlədən 1975-ci ildə qəbul olunmuş Helsinki aktı onu göstərir ki, hər bir ölkənin ərazi bütövlüyü qorunmalıdır və hər bir millətə də öz müqəddəratını təyin etmək imkanı verilməlidir.

Azərbaycanın ərazi bütövlüyü pozulubdur. Bu, bərpa olunmalıdır, torpaq bütövlüyümüz bərpa olunmalıdır. Dağlıq Qarabağ isə yüksək dərəcəli status alarkən özünüidarəetmə hüququna malik olacaqdır. Amma burada bir qəribə məqam var. Erməni xalqının öz dövləti var – Ermənistan. Demək, erməni xalqı öz müqəddəratını təyin edibdir, müstəqil dövləti var. Əgər Dağlıq Qarabağ dünyada ikinci erməni dövləti olmaq istəyirsə, bu, çox təəccüb doğurur.

Təbiidir ki, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə statusu veriləndə onun dünya ilə və o cümlədən Ermənistan ilə bilavasitə əlaqələri təmin olunmalıdır. Ermənistan tərəfi deyir ki, Dağlıq Qarabağ anklav vəziyyətində ola bilməz. Ancaq Dağlıq Qarabağa bu istiqamətdən yol var. Demək, Ermənistanla əlaqə qurmaq üçün yol var, oradan dəhliz verilə bilər. Amma onu da bilməlisiniz ki, Naxçıvan Muxtar Respublikası anklav şəraitindədir. Ermənistan-Azərbaycan münaqişəsi başlayandan Naxçıvan Muxtar Respublikası blokadadadır. Çünki Azərbaycanın əsas hissəsindən Naxçıvana gedən yollar Ermənistanın ərazisindən keçirdi. Dəmir yolu, avtomobil yolu, elektrik xətləri, qaz xətləri, telefon xətləri - hamısı kəsilibdir. Bunu bildirmək istəyirəm ki, siz nəzərə alasınız. İndi vəziyyət bu cürdür.

Keçən ilin aprel ayında Vaşinqtonda mən Ermənistanın prezidenti Koçaryanla görüşdüm və ondan sonra 1999-cu ilin içərisində və bu il də biz bir neçə görüş keçirmişik. Bu görüşlərimizin əsas məqsədi iki prezidentin bilavasitə danışıqları nəticəsində sülh əldə etməkdir. Hər iki tərəf elan edibdir ki, bunun üçün müəyyən kompromislər lazımdır və hər iki tərəf də belə kompromis addımlar atmaq fikrini ifadə edibdir. Ancaq təəssüflər olsun ki, biz bu məsələni indiyə qədər hələ də həll edə bilməmişik.

Koçaryan-Əliyev görüşü son dəfə Davosda olmuşdur. Mənim fikrim budur ki, məsələ sülh yolu ilə həll edilməlidir. Bəyan edirəm ki, yenidən müharibə başlamaq, yenidən döyüşlər aparmaq olmaz, buna yol vermək olmaz. Baxmayaraq ki, Azərbaycanın ərazi bütövlüyü pozulubdur və bir milyondan artıq azərbaycanlı çadırlarda yaşayır, Ermənistan ərazisinin bir metri də işğal olunmayıbdır, Azərbaycana böyük zərbələr dəyibdir, işğal olunmuş ərazilərdə bütün mülkiyyət dağıdılıbdır, viran edilibdir, - bunlara baxmayaraq biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Mənə belə gəlirdi ki, 2000-ci ildə biz bu məsələni həll edə bilərik. Mən bu gün də bu ümidlərlə yaşayıram. Amma Minsk qrupunun həmsədrləri - Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa bu məsələyə daha da ciddi yanaşmalıdırlar, daha da böyük səylər qoymalıdırlar. Təbiidir ki, eyni zamanda Koçaryan-Əliyev dialoqu da davam etməlidir.

Bu münaqişə bütün Qafqazda vəziyyəti gərginləşdiribdir. Məhz bu münaqişədən dörd il sonra Gürcüstanda Abxaziya, Osetiya münaqişələri başlayıbdır. Ondan sonra Moldovada Dnestryanı münaqişəsi başlayıbdır. Ondan da sonra Çeçenistan münaqişəsi başlayıbdır. Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi bütün postsovet məkanında münaqişələrin meydana çıxmasının əsasını qoyubdur. Hesab edirəm ki, əgər bu münaqişənin təkcə Ermənistan və Azərbaycan üçün zərərli olduğunu yox, bütün başqa ölkələrə də sirayət edəcəyini vaxtında anlaya bilsəydilər, bu münaqişənin qarşısı alına bilərdi.

Mən bilirəm ki, Azərbaycan haqqında sizi maraqlandıran bir neçə məsələ də vardır. Onlardan biri də Azərbaycanın neft və qaz sərvətlərinin istifadə edilməsi və bu sahədə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları, Avropa ölkələri arasında müştərək işlər görülməsidir.

Mən bəyan etdim ki, Azərbaycan qədim neft ölkəsidir. 50 il bundan öncə Azərbaycan Xəzər dənizinin dərinliklərindən neft hasil etməyə başlamışdır. Demək olar ki, Azərbaycan dünyada ilk dəfə dənizdən neft hasil edən ölkə olmuşdur. Amma sonra dünyanın bir çox ölkələrində bu məsələ çox güclü inkişaf etmişdir. Çox yüksək imkanlara malik olan texnika, texnologiya, avadanlıq yaranmışdır və suyun böyük dərinliklərindən neft çıxarılması prosesi indi dünyada çox yüksək səviyyədədir.

Dövlət müstəqilliyini əldə etməyimiz bizə imkan verdi ki, artıq özümüz müstəqil olaraq öz təbii sərvətlərimizdən istədiyimiz kimi istifadə etməyə başlayaq. Bunun üçün biz birinci növbədə Amerikada, Avropa ölkələrində çox yüksək texnikaya, texnologiyaya malik olan böyük neft şirkətləri ilə müştərək işlər görməyə başladıq və 1994-cü ilin sentyabr ayında Azərbaycanda 11 neft şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında - 11 neft şirkəti yeddi dövləti təmsil edirdi - böyük bir müqavilə imzalandı. Buna da «Əsrin müqaviləsi» adı verildi.

Bu müqavilə ilk dəfə «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının əsasında imzalandı. Burada əvvəlki illərdə geofizika işləri getmişdi və biz bilirdik ki, orada çoxlu neft ehtiyatları vardır. Doğrudur, bu müqavilənin imzalanmasına hazırlıq dövründə bizə çox maneçilik etmək istəyənlər oldu. «Xəzər dənizinin statusu müəyyən edilməlidir»- bu məsələ ortaya atıldı. Qərb ölkələrinin- Amerikanın, Avropa ölkələrinin Xəzər dənizinə gəlməsinə etirazlar oldu. Bizə çox təzyiqlər oldu. Amma buna baxmayaraq, biz müqaviləni imzaladıq. Bundan sonra təzyiqlər artdı. Bəzi Xəzəryanı ölkələr elan etdilər ki, onlar bu müqaviləni tanımaq istəmirlər. Hətta bizim tərəfdaşlarımızdan biri- İngiltərənin bir naziri mənimlə görüşdü və dedi ki, biz nə edəcəyik? Dedim nə barədə? Dedi elan ediblər ki, kimsə bu müqaviləni tanımır.

Mən dedim, narahat olmayın, kim tanıyır- tanısın, kim tanımır-tanımasın. Bu yataqlar Xəzər dənizinin Azərbaycan sektorundadır və bu sektor da Azərbaycana məxsusdur. Ona görə də biz müstəqil dövlət kimi, öz təbii sərvətlərimizdən istifadə etmək hüququna malikik.

Xəzər dənizinin statusu məsələsi belədir. Hələ Sovetlər İttifaqı dövründə Xəzər dənizində neft hasilatına başlanan zaman sovet hökumətinin qərarı ilə 70-ci ildə Xəzər dənizi sektorlara bölünmüşdür. Bu, Azərbaycan sektorudur, sonra Rusiya sektoru, Qazaxıstan sektoru, Türkmənistan sektoru, ondan sonra İran sektoru. Biz öz sektorumuzdan kənara çıxmamışıq. Ancaq bəzi Xəzəryanı ölkələr deyirdilər ki, bu sektor prinsipi sovetlər hökuməti zamanından yaranıbdır, biz buna yenidən baxmalıyıq. Biz buna etiraz etmirik. Bir neçə dəfə müzakirələr gedibdir. Biz bu gün də müzakirəyə hazırıq. Ancaq əgər sektor məsələsini ortaya atıb bizim işlərimizin qarşısı alınacaqsa, biz buna razı ola bilmərik.

Ötən beş ildə biz böyük nailiyyətlər əldə etmişik. Birincisi, ilk müqavilədən 1997-ci ildə «Çıraq» yatağından neft hasil etmişik və onun ixracına başlamışıq. Təbiidir ki, Bakının yaxınlığında böyük bir terminal - Səngəçal terminalı tikilibdir, neft oraya borularla gəlir. Eyni zamanda biz neftin ixracı haqqında da hələ 1994-cü ildən lazımi işlər görmüşük. 1994-cü ildə imzaladığımız müqavilədə yazılıbdır ki, əsas ixrac kəməri Bakı–Ceyhan boru xətti olmalıdır. Ancaq ilk neftin ixracı üçün biz 1996-cı ildən başlayaraq Bakıdan Qara dənizdəki Novorossiysk limanına bir xətt çəkmişik. Bunu Rusiya çox istəyirdi, biz də razı olduq. Rusiya istəyir ki, bütün neftin hamısı Rusiyanın ərazisindən ixrac edilsin.

Doğrudur, o vaxt biz narahat idik ki, Çeçenistandakı vəziyyət, ola bilər, bu boru xəttindən lazımi qədər istifadə edilməsinə mane olsun. Amma Rusiya bizə zəmanət verdi ki, onlar bunu təmin edəcəklər, yəni neft ixrac olunacaqdır. Bunu nəzərə alaraq biz alternativ neft kəməri - Bakıdan Gürcüstanın Qara dənizdəki Supsa limanına xətt çəkmişik. 1997-ci ilin noyabrında biz ilkin neft doldurulmuş ilk tankeri Novorossiysk limanından yola salmışıq. Amma sonra, Çeçenistandakı müharibə nəticəsində bu xətt artıq işləmir. 1999-cu ilin aprel ayında biz Bakı-Supsa boru xəttini tamamlamışıq və oradan ilk tankerlə neft ixrac etmişik. 1997-ci ilin noyabr ayından indiyə qədər 8 milyon tonadək neft hasil etmişik və onu ixrac etmişik.

Amma bizim qarşımızda duran məqsəd Bakı-Ceyhan neft kəməri idi. Bunun da tikilməsinə çox maneçilik vardı. Beş il idi ki, biz bu barədə işləyirdik. Nəhayət, keçən il noyabr ayının 18-də İstanbulda dörd ölkə - Türkiyə, Azərbaycan, Gürcüstan və Qazaxıstan Bakı-Ceyhan neft kəməri haqqında saziş imzalayıbdır. Çünki Qazaxıstan da öz ərazisində hasil olunan neftin böyük bir hissəsini Xəzər dənizi vasitəsilə Bakıya gətirib, oradan Bakı-Ceyhan boru xətti ilə dünya bazarlarına çıxarmaq istəyir.

Qeyd etmək istəyirəm ki, bizim bütün bu işlərimizi Amerika Birləşmiş Ştatlarının hökuməti və şəxsən prezident cənab Bill Klinton daim dəstəkləyibdir. Amerika Birləşmiş Ştatlarının dəstəyi olmasaydı biz 1994-cü ildə ilk müqaviləni imzalaya, başqa işləri də görə bilməzdik. Bakı-Ceyhan neft borusu haqqında da sazişi imzalaya bilməzdik. Ona görə də, təbiidir ki, keçən il noyabr ayının 18-də biz İstanbulda bu sazişi imzalayarkən prezident cənab Bill Klinton da bu sazişə öz imzasını atıbdır.

Biz Xəzər dənizində neft yataqlarının işlənilməsinə 1994-cü ildə başladıq. Amma ondan sonra dünya ölkələri şirkətlərinin Azərbaycanın Xəzər dənizindəki sektoruna marağı o qədər artdı ki, beş il müddətində 19 müqavilə imzalanıbdır. 19 müqavilədə 30 neft şirkəti iştirak edir və 15 ölkə təmsil olunubdur. Amerika Birləşmiş Ştatlarının 9-dan çox neft şirkəti Azərbaycanda yer aldı.

İlkin hesablamalarımıza görə, bu müqavilələrin hamısına təxminən 57–60 milyard dollar investisiya qoyulmalıdır. Müqavilələr 30 il müddətinə bağlanıbdır. Amma güman edirəm ki, neft də gözlənildiyindən artıq olacaq, bəlkə investisiya da daha çox olacaqdır. Bu gördüyünüz - pay bölgüsünə aid xəritədir. Başqa yataqlarımızda da böyük imkanlarımız var. Bizim Xəzər dənizindəki sektorumuzda neft və qaz vermək imkanı olan təxminən 120-130 yataq var. Deyə bilərəm ki, bunların hamısını son 50 il ərzində Azərbaycanın alimləri, mütəxəssisləri, Azərbaycanın neftçiləri kəşf ediblər.

Biz gözləyirik ki, bu müqavilələr nəticəsində təxminən 4,5 milyard ton neft hasil ediləcəkdir. Amma hesab edirik ki, bundan da çox olacaqdır. Məsələn, biz hesab edirdik ki, «Çıraq» yatağında hər quyudan gündə 500 ton neft alınacaqdır. Amma 1000–1500 ton alınır.

Son illər aparılan işlər onu göstərir ki, Xəzər dənizinin Azərbaycan sektorunda böyük qaz yataqlarımız da var. 1996-cı ildə «Şahdəniz» yatağına dair imzaladığımız müqaviləni indi həyata keçiririk. Birinci quyu qazılandan sonra orada 1 trilyon kubmetrdən artıq qaz ehtiyatı olduğu gözlənilir.

Onun yanında «Abşeron» yatağı var. Orada Amerikanın «Şevron» şirkəti işləyir. Onlar belə proqnoz verirlər ki, orada 3 trilyon kubmetrdən artıq qaz ehtiyatı gözlənilir. Bunlar hələ ilkin nailiyyətlərdir. Güman edirəm ki, başqa yataqlarda da böyük qaz ehtiyatları açılacaq və Azərbaycan təkcə neft yox, eyni zamanda böyük miqdarda qaz ixrac etmək imkanına malik olacaqdır.

Demək, indi biz qazın ixracı haqqında düşünürük. Çünki nefti, ola bilər, sisternlərdə dəmir yolu ilə daşıyasan, tankerlərlə daşıyasan. Ancaq qaz yalnız borularla gedə bilər. Güman edirik ki, biz bunun da yolunu tapacağıq.

Doğrudur, biz bu işlərə başlayandan indiyə qədər dünyanın bir çox ölkələrinin mətbuatında, o cümlədən Amerika mətbuatında belə fikirlər irəli sürülür, belə məqalələr yazılır ki, guya Azərbaycanın neft və qaz imkanları haqqında verilən məlumatlar şişirdilmişdir, bu qədər ehtiyatlar yoxdur. Güman edirəm, onlar səhv edirlər. Ya vəziyyəti bilmirlər, yaxud da qəsdən qərəzlilik edirlər. Biz bilirik ki, bu sahədə Azərbaycana qarşı düşmən mövqedə duran qüvvələr az deyildir. Bizim rəqəmləri şişirtməyə ehtiyacımız yoxdur – nə var, odur. İndiyə qədər nefti də, qazı da gözlədiyimizdən artıq alırıq və gələcəkdə də belə olacaqdır. Yaxın vaxtlarda biz Bakı–Ceyhan neft kəmərinin inşasına başlamalıyıq.

Bir də qeyd edirəm, Azərbaycan çox əhəmiyyətli coğrafi-strateji vəziyyətə malikdir. Bu, bizim üçün yaxşıdır. Amma eyni zamanda bizə qarşı müxtəlif qüvvələri də hərəkətə gətirir. Biz öz vəzifəmizi onda görürük ki, ölkəmizi inkişaf etdirək və bizə göstərilən bütün təzyiqlərin qarşısını alaq.

Ölkəmiz müstəqillik əldə edəndən elan edibdir ki, demokratiya yolu ilə gedir. Azərbaycanda ardıcıl olaraq demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi həyata keçirilir. 1995-ci ildə biz ilk Konstitusiyamızı qəbul etmişik, orada bütün demokratik prinsiplər öz əksini tapıbdır. Bazar iqtisadiyyatı yolu ilə gedirik və gedəcəyik. İqtisadi, sosial islahatlar həyata keçiririk. Xarici investisiyanı cəlb etməyə çalışırıq - özü də təkcə neft sektoruna deyil, həm də başqa sektorlara. Beş il müddətində Azərbaycana 5 milyard dollardan artıq xarici investisiya gəlibdir. Qeyri-neft sektoruna gələn investisiyanın miqdarı get-gedə artır. Məsələn, 1999-cu ildə xarici investisiyanın 60 faizi qeyri-neft sektoruna, 40 faizi neft sektoruna gəlibdir.

İqtisadi islahatlar öz nəticələrini verir. Özəlləşdirmə, torpaq islahatı, torpağın şəxsi mülkiyyətə verilməsi, sahibkarlığın formalaşması və bir çox başqa proseslər gedir. Təbiidir ki, biz bu proseslərin hələ ilkin mərhələsindəyik. Qarşımızda görüləsi hələ çox işlər var. İqtisadi cəhətdən biz Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Birliyi ilə çox sıx əməkdaşlıq edirik. Biz inanırıq və indi əhalimizin də əksəriyyəti inanır ki, sosialist sistemindən tam imtina etmək və bazar iqtisadiyyatı, demokratiya yolu ilə getmək lazımdır.

Biz bütün qonşu dövlətlərlə çox mehriban əlaqə yaratmaq istəyirik. İstəyirik ki, dünyanın bütün dövlətləri ilə çox mehriban, qarşılıqlı surətdə faydalı əlaqələr yaradaq. Təbiidir, bizi birinci növbədə Qafqaz və xüsusən Cənubi Qafqaz maraqlandırır. Cənubi Qafqazda üç ölkə var – Azərbaycan, Gürcüstan və Ermənistan. Gürcüstanla Azərbaycan arasında çox yaxşı dostluq, əməkdaşlıq əlaqələri var. Amma Ermənistan-Azərbaycan münaqişəsi Cənubi Qafqazda ümumi əməkdaşlığın həyata keçirilməsinə maneçilik törədir. Ona görə də Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi təkcə iki ölkə üçün yox, bütün Qafqazda sülhün, təhlükəsizliyin, əmin-amanlığın təmin olunması və geniş iqtisadi əməkdaşlığın təmin olunması üçün lazımdır.

Qonşu Türkiyə ilə bizim çox yaxşı dostluq, mehribanlıq əlaqələrimiz var. Rusiya ilə də əlaqələrimiz normaldır, İran ilə də normaldır. Amma biz arzu edirik ki, bundan da yaxşı olsun. Lakin bu, təkcə bizdən asılı deyildir.

Beləliklə, hesab edirəm ki, Qafqaz problemi dünyanın ən çətin və ən ağır bir problemidir. Dünyanın Qafqaza marağı artıb, ancaq bununla yanaşı, Qafqazda sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin olunması üçün də bizlərə kömək etmək lazımdır.

Dedim ki, Azərbaycan Avropa ilə Asiya arasında yerləşən bir ölkədir. Son illər tarixi Böyük İpək yolunun bərpa edilməsi aktual bir problem kimi meydana çıxıbdır. Bu məsələ hələ 1980-ci ildə YUNESKO tərəfindən qaldırılmışdı. Amma sovet hakimiyyəti, Sovet İttifaqı dağılandan sonra bu proses inkişaf edibdir.

Azərbaycan İpək yolunun bərpasında, demək olar ki, açar rolunu oynayır. Biz bu barədə çox fəaliyyət göstəririk. Təbiidir ki, bunun əsasını Avropa Birliyinin tərtib etdiyi TRASEKA proqramı təşkil edir. Son beş ildə bu barədə çox işlər görmüşük. 1996-cı ildə biz – Türkmənistan, Özbəkistan, Azərbaycan və Gürcüstan Türkmənistanın Sərəxs şəhərində müqavilə imzaladıq və Transqafqaz, Transxəzər dəhlizindən istifadə olunması haqqında lazımi tədbirlər gördük. Bu, qısa bir müddətdə öz müsbət nəticəsini göstərdi.

1998-ci ilin sentyabr ayında Azərbaycanda böyük beynəlxalq konfrans keçirildi. İpək yolu üzərində yerləşən Yaponiyadan, Çindən ta İspaniyaya qədər uzanan ölkələrin - 32 ölkənin nümayəndələri Azərbaycanda toplaşdılar. 9 ölkəni prezidentlər təmsil edirdi. 12 beynəlxalq təşkilatın nümayəndələri konfransda iştirak etdilər. Biz saziş imzaladıq və indi onu həyata keçirməyə çalışırıq.

Qısaca, bunun səmərəliliyi nədən ibarətdir? Məsələn, son beş ildə Özbəkistan–Türkmənistan–Azərbaycan–Gürcüstan xətti ilə keçən nəqliyyatdan istifadə edilməklə yük daşımaları 2,5 dəfə artıbdır. 1996-cı ildə yük daşınması 2 milyon ton idi, 1999-cu ildə isə 5 milyon ton yük daşınmışdır. Asiyanı Avropa ilə birləşdirən şimal marşrutlarına nisbətən burada məsafə 2 min kilometr azdır. Gömrük rüsumları və başqa şeylər də burada oradakından xeyli ucuzdur. Ona görə İpək yolunun bərpası indi aktual məsələlərdən biridir.

Amerika Birləşmiş Ştatlarında da buna çox diqqət yetirilir. Senator Sem Braunbək bu barədə Konqresə böyük bir layihə təqdim etmişdir. Keçən ilin aprel ayında biz burada, Senatın binasında bir konfransda iştirak etdik. Senat üzvləri, hökumətin nümayəndəsi Semüel Berger, böyük siyasi xadimlər Beyker, Bjezinski və başqaları bu barədə çox müsbət fikirlər söylədilər. Bu konfransda Türkiyə, Rumıniya ilə birlikdə Asiya və Qafqaz ölkələrinin doqquz prezidenti nitq söylədilər və onların hamısı Böyük İpək yolunun bərpa edilməsinin lazım olduğunu bildirdi. Təəssüf ki, Konqres Sem Braunbəkin təqdim etdiyi qanun layihəsini təsdiq etmədi. Amma bunun bizim üçün o qədər də əhəmiyyəti yoxdur, biz bu proqramı həyata keçiririk və keçirəcəyik.

Beləliklə, indi Qafqaz və Mərkəzi Asiya çox maraqlı regiondur. Burada yeni müstəqil dövlətlər var. Müstəqilliyini möhkəmləndirmək və proqramlarını həyata keçirmək üçün onların hamısına kömək etmək lazımdır.

Azərbaycan haqqında onu deyə bilərəm ki, o, özünün dövlət müstəqilliyini gündən-günə möhkəmləndirir. Azərbaycanın ərazisində heç bir başqa ölkənin ordusu yoxdur. Təəssüflər olsun ki, Ermənistanda Rusiyanın çox böyük ordu hissələri və hərbi bazaları var. İndi Rusiya o hərbi bazalara daha da yeni silahlar – «C-300» raketləri, «MİQ-29» təyyarələri və başqa güclü silahlar gətiribdir. Beləliklə, Cənubi Qafqazın militarizasiyası gedir. Biz bunun əleyhinəyik.

Ermənistanla Rusiya arasında hərbi ittifaq yaranıbdır. Bu gün xəbər verdilər ki, Belarus ilə Ermənistan arasında da hərbi ittifaq yaranır. Rusiyada bəzi qüvvələr var ki, Sovetlər İttifaqını yenidən bərpa etmək istəyirlər.

Biz bunun əleyhinəyik. Azərbaycan öz dövlət müstəqilliyini xalqın tarixi nailiyyəti hesab edir və biz daim müstəqil yaşamaq istəyirik. Biz istəyirik ki, müstəqilliyimizə heç kəs təcavüz etməsin. İstəyirik ki, böyük dövlətlər, iqtisadi cəhətdən inkişaf etmiş dövlətlər – Amerika, Avropa dövlətləri və başqa dövlətlər bizim kimi ölkələrin, konkret olaraq Azərbaycanın müstəqil, demokratik dövlət kimi yaşamasına, inkişaf etməsinə yardım etsinlər.

Təəssüf ki, 1992-ci ildə Amerika Birləşmiş Ştatlarının Konqresi Azərbaycana qarşı ədalətsiz bir qərar qəbul edibdir – «Azadlığı dəstəkləmə aktı»na düzəliş, 907-ci maddə. Bu qərarı guya ona görə qəbul edib ki, «Azərbaycan Ermənistanı blokadaya alıbdır». Buna görə də Amerika Birləşmiş Ştatlarından Azərbaycana hər türlü yardıma embarqo qoyulubdur.

Amma əslində baxın, kim kimi blokayada alıbdır – Azərbaycan Ermənistanı, yoxsa Ermənistan Azərbaycanı? Bakıdan Ermənistana gedən dəmir yolu var – o, Naxçıvandan keçib Yerevana gedir. Bu dəmir yolu bizim üçün də, Ermənistan üçün də əhəmiyyətlidir. Amma Ermənistan Azərbaycan torpaqlarını işğal edərək bizim dəmir yolunu, İranla sərhədin 130 kilometrini ələ keçiribdir. Ona görə biz bu dəmir yolunu işlədə bilmirik. Əgər işğal edilən torpaqlar azad olunsa, dəmir yolu işləməyə başlayacaq, Ermənistanla Azərbaycan arasında dəmir yolu xətti olacaqdır. Ona görə deyirəm – blokadaya alınan da Azərbaycandır və 907-ci maddə ilə cəzalanan da Azərbaycandır.

Amerika Konqresində çox dəyərli senatorlar, konqresmenlər var ki, 907-ci maddənin aradan götürülməsi üçün təkliflər veriblər. Amma elə konqresmenlər də var ki, bu təkliflərin həyata keçirilməsinə maneçilik törədirlər.

Amerika hökuməti 907-ci maddənin Azərbaycana qarşı ədalətsiz olduğunu dəfələrlə bəyan edibdir, onun ləğv olunması haqqında fikirlərini söyləyibdir. Ancaq bu, ləğv olunmayıbdır. Mən bununla onu demək istəyirəm ki, son beş-altı il içərisində Azərbaycan Amerika Birləşmiş Ştatları ilə çox böyük müttəfiqlik, tərəfdaşlıq əlaqələri yaradıbdır və geniş iqtisadi əməkdaşlıq edir. Bizim haqqımız var ki, Amerika Birləşmiş Ştatlarına sual verək: Ermənistan-Azərbaycan münaqişəsinin həll olunmasında nə üçün Azərbaycana təsirli kömək etmirsiniz? Nə üçün 907-ci maddəni aradan götürmürsünüz?

Ancaq mən nikbinəm, hesab edirəm ki, məsələ sülh yolu ilə həll ediləcək, Cənubi Qafqazda sülh, əmin-amanlıq təmin olunacaq və Azərbaycan müstəqil, demokratik dövlət kimi yaşayıb inkişaf edəcəkdir.

Mən sizin vaxtınızı çox aldım, diqqətinizə görə təşəkkür edirəm.

* * *

**P o l V o l f o v i ç:** Prezident Əliyev razılaşdı ki, suallara cavab versin. Elə bilirəm, bizim bir qədər vaxtımız var. Xahiş etmək istəyirəm ki, mikrofonlara yaxınlaşıb suallarınızı verəsiniz, bundan əvvəl isə özünüzü təqdim edəsiniz. Buyurun.

**S u a l: Cənab Prezident, mən NATO-nun üzvü olan dövlətlər barədə nəşr edilən jurnalın təmsilçisiyəm. Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramının iştirakçısıdır. Azərbaycan NATO-nun üzvü olmağa ən çox can atan, səy göstərən ölkələrdən biridir. Bilmək istərdik ki, siz NATO-nun tam hüquqlu üzvü olmaq istəyirsinizmi? Əgər istəyirsinizsə, Azərbaycan NATO-dan necə faydalana və ona özünün hansı töhfələrini verə bilər?**

**H e y d ə r  Ə l i y e v:** Mən sizin dediyiniz sözləri təsdiq edirəm. NATO-nun üzvü olmaq asan iş deyildir. Bu, təkcə bizdən asılı deyil. Bilirəm ki, bu, çox böyük bir prosesdir. Biz «Sülh naminə tərəfdaşlıq» proqramında çox fəal iştirak edirik. Şimali Atlantika Assambleyasında da fəaliyyət göstəririk və bundan sonra da göstərəcəyik. Sağ olun.

**S u a l: Cənab Prezident, siz bizə Azərbaycanın tarixi, Azərbaycan xalqının adət-ənənələri, mədəniyyəti barədə danışdınız. İstərdik ki, bir az da İranda yaşayan azərbaycanlılarla Azərbaycanın münasibəti haqqında fikirlərinizi açıqlayasınız. Məlumdur ki, İranda Azərbaycanın əhalisindən üç dəfədən də çox azərbaycanlı yaşayır. Bir də istərdik ki, 50–60 il bundan öncə Zəngəzurda baş vermiş hadisələr, Zəngəzurun əhalisi barədə fikirlərinizi bizimlə bölüşəsiniz.**

**C a v a b:** Bizdə olan məlumatlara görə, İranda təxminən 30 milyon azərbaycanlı yaşayır. Amma onlar İran vətəndaşlarıdır. Təbiidir ki, bizim Azərbaycanla İranda yaşayan azərbaycanlıların fərqi var. Dilimiz birdir, dinimiz də birdir, adət-ənənələrimiz də, hətta yeməklərimiz də birdir. Çox şeylər birdir. Ancaq fərq odur ki,- mən sizə dedim,- biz 200 il Rusiyanın tərkibində olmuşuq və Avropa mədəniyyətinə yaxınlaşmışıq. Azərbaycan Avropa ölkəsi, sivil ölkə kimi bütün Avropa dəyərlərini mənimsəyibdir. Amma İranda yaşayan azərbaycanlılar İran mühitinin dəyərləri ilə yaşayırlar.

Şübhəsiz ki, indi əlaqələr çox genişlənibdir. 70 illik həsrətdən sonra çox adamlar qohum-qardaşları ilə görüşübdür. Ancaq biz həmişə bir prinsipi rəhbər tuturuq ki, heç bir başqa ölkənin daxili işinə qarışmamalıyıq və bizim də daxili işimizə heç kəs qarışmamalıdır.

50–60 il bundan öncə Zəngəzurdakı hadisə dedikdə siz nəyi nəzərə alırsınız, mən bilmirəm.

**S u a l: O ərazidə yerləşən əhalinin formalaşması da müxtəlif olubdur. Yəni dəhlizin hər iki tərəfində azərbaycanlılar yaşayırlar. Naxçıvan ilə Azərbaycanın qalan hissəsi arasındakı ərazinin taleyi necə olubdur?**

**C a v a b:** Bəli, Zəngəzurda azərbaycanlılar çox yaşayıbdır. Vaxtilə Zəngəzurun əhalisinin əksəriyyəti azərbaycanlılar olubdur. Ancaq Sovetlər İttifaqı yaranan zaman respublikaların xəritələri çəkilib, Zəngəzur Ermənistanın tərkibində qalıbdır. Azərbaycanlılar oradan tədricən köçüblər. Amma sizin nəzərdə tutduğunuz Mehri rayonunda 1988-ci, 1989-cu illərdə, 1990-cı ilə qədər daha çox azərbaycanlı yaşayıb, nəinki erməni.

**S u a l: Mən Cons Hopkins Universitetinin Beynəlxalq Münasibətlər İnstitutunun sosial inkişaf fakültəsinin tələbəsiyəm. Keçən yay Azərbaycanda fəaliyyət göstərən bir qeyri-dövlət təşkilatında çalışırdım. Bizim təşkilatımız Azərbaycandakı sahibkarlara kiçik kreditlər verilməsi ilə məşğul idi. Lakin mən orada işə başlayanda bizim qeyri-dövlət təşkilatımız hökumət tərəfindən bağlandı. Hökumət bəyan etdi ki, hətta kiçik həcmli olsa da, kreditlərin verilməsi mütləq mərkəzi bank tərəfindən lisenziyalaşdırılmalıdır. Bilmək istərdim ki, Azərbaycanda qeyri-dövlət təşkilatlarının hüquqi statuslarını müəyyənləşdirmək üçün hansı tədbirlər görülür? Bu təşkilatların orada fəaliyyət göstərib azərbaycanlılara yardım etməsi üçün hansı şərait yaradılır? Bir də, Azərbaycan neftdən əldə edəcəyi gəlirdən necə istifadə etməyi nəzərdə tutur?**

**C a v a b:** Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi üçün, xüsusən kiçik və orta sahibkarlığın yaranması və inkişafı üçün çox işlər görülür və bir çox qanunlar qəbul olunubdur. Bizim iqtisadi siyasətimizin strategiyası belədir ki, mütləq bütün sahibkarlara yardım etmək və Azərbaycana gələn kiçik şirkətlərin işləməsi üçün daha geniş şərait yaratmaq lazımdır.

Doğrudur, bizim hökumət orqanlarında, icra orqanlarında qanunlara riayət etməyən adamlar da var. Onlar bizim işimizə zərər vururlar. Bu, çox çətin prosesdir. Ona görə, məsələn, mən belə qərara gəlmişəm ki, - yaqin bu günlərdə fərman verəcəyəm,- Azərbaycanda xaricdən gələn bütün şirkətlərin işləməsi üçün vahid bir agentlik yaradılsın, Azərbaycana gələn investorlar - kiçik də, orta da, böyük də – hamısı bir təşkilata müraciət etsinlər. İndi isə bizdə hələlik bu barədə lazımi qayda yoxdur. Bəzi lisenziyaları Ticarət Nazirliyi verir, bəzilərini Ədliyyə Nazirliyi, bəzilərini Kənd Təsərrüfatı Nazirliyi verir. Ona görə də bu, işimizi çətinləşdirir.

Bizdə qeyri-dövlət təşkilatları çoxdur. Çoxlu özəl banklar var. Onlar çox geniş fəaliyyət göstərir və kreditlər verirlər. Amma bilmirəm, sizin o qeyri-dövlət təşkilatına nə üçün imkan verməyiblər. Hər halda, əmin ola bilərsiniz ki, belə nöqsanlar aradan qaldırılacaqdır.

Neftdən gələn gəlirlər haqqında maraqlanırsınız. Mən bir neçə ay bundan öncə fərman vermişəm, Azərbaycanda xüsusi neft fondu yaratmışam. Neftdən gələn gəlirlərin hamısı neft fonduna toplanacaq, Azərbaycanın sosial inkişafı üçün, bazar iqtisadiyyatını inkişaf etdirmək, iş yerləri açmaq üçün istifadə olunacaqdır. Yəni gəlirləri ancaq insanlara verib onların maddi vəziyyətini yaxşılaşdırmaq yox, istehsal yaratmaq, başqa imkanlar yaratmaq lazımdır ki, onlar işləsinlər, daha çox gəlir gətirsinlər və insanlar bu gəlirdən istifadə etsinlər.

**S u a l: Mən parlament sədrinin birinci müavini, Çeçenistan nümayəndə heyətinin rəhbəri Silan Beşayevəm. Cənab Əliyev, sizi Amerikada görməyimizə şadıq. Sizə bir sual vermək istərdim:**

**Rusiya qoşunlarının Çeçenistandakı fəaliyyətini necə qiymətləndirirsiniz və bu münaqişənin həlli perspektivini necə görürsünüz? Sağ olun.**

**C a v a b:** Siz mənə çox çətin sual verirsiniz. Mən bu günlər bu barədə çox danışmışam. Biz separatçılığın, terrorizmin və cürbəcür cinayətlərin əleyhinəyik. Çeçen xalqına böyük rəğbətimiz var. Çeçen xalqı Qafqazın dəyərli xalqlarından biridir və çeçen millətinə həmişə hörmət etmişik. Məshədov Çeçenistanda prezident seçiləndən sonra Azərbaycanla Məshədov arasında çox mehriban əlaqələr olmuşdur. Ancaq müharibə də var, Rusiya öz ərazi bütövlüyünü təmin etmək, özünə məxsus olan Çeçenistan ərazisində hakimiyyətini bərpa etmək istəyir. Gələcəyi haqqında isə, güman edirəm ki, bunu gözləmək lazımdır.

**S u a l: Cənab prezident, siz həm Sovet İttifaqı dövründə, həm də ondan sonra beynəlxalq münasibətlər sahəsində çox böyük təcrübə toplamış və çox böyük, dəyərli nailiyyətlər əldə etmiş bir şəxs kimi dünyada tanınırsınız. Bu gün burada, Cons Hopkins Universiteti Beynəlxalq Tədqiqatlar İnstitutunun tələbələri qarşısında çıxış edərkən gələcəkdə beynəlxalq münasibətlər sahəsində mütəxəssis olmaq istəyən gənclərə bu elmin böyük bilicisi kimi hansı tövsiyələri, məsləhətləri verərdiniz?**

**C a v a b:** Bu barədə çox demək olar. Birincisi, çox məmnuniyyətlə bildim ki, Cons Hopkins Universitetinin beynəlxalq əlaqələr hissəsində Qafqaz və Asiya ölkələri üzrə bir institut yaranıbdır. Mən bunu alqışlayıram və öz tərəfimizdən bu institutun inkişaf etməsi üçün lazımi yardımlar etməyə hazırıq.

Mərkəzi Asiyanın öyrənilməsinə gec başlanıbdır. Amma, necə deyərlər, heç olmamaqdansa, gec olması yaxşıdır. Ona görə də mən arzu edərdim ki, Qafqaz və Asiya İnstitutunun tələbələri həqiqətən, bizim bölgəyə çox diqqət versinlər, bizim ölkələrin xüsusiyyətlərini öyrənsinlər, xalqların ənənələrini, mentalitetini, keçmişini öyrənsinlər. Çünki Qafqaz elə bir yerdir ki, orada bir-birindən hədsiz fərqli olan xalqlar yaşayır. Bu xalqların hər birinin özünəməxsus dili var, mentaliteti, xüsusiyyəti var. Bunları öyrənmək lazımdır.

Amerikada bəziləri belə hesab edirlər ki, bütün ölkələrdə hər şey Amerikada olduğu kimi olmalıdır. Bu, səhv düşüncədir. Çünki Amerika inkişaf etmiş ölkədir. Doğrudur, onun dərin keçmiş tarixi yoxdur. Amma qısa bir zamanda, 200 il içərisində çox böyük nailiyyətlər əldə edibdir. Ölkələr də var ki, çox qədim tarixi var, özünəməxsus ənənələri, mənəvi dəyərləri var, amma hələ ki, Amerika cəmiyyətinin səviyyəsinə qalxa bilmirlər. Bu, bəlkə də lazım deyil – çünki əgər hamı bir cür olsaydı, hamı bir rəngdə, bir paltarda olsaydı, bu, maraqlı olmazdı: dünyada paltar müxtəlifdir və bu müxtəlifliyi qəbul etmək lazımdır.

Qafqazın özündə, Asiyanın özündə həddindən çox müxtəliflik var. Əgər sizin tələbələr bunları dərindən öyrənsələr, onda çox yaxşı mütəxəssis olacaqlar.

**S u a l: Cənab prezident, mənim adım Fatihdir, türkəm. Öncədən bildirmək istəyirəm ki, bütün türklər Azərbaycanı bu münaqişədə axıradək dəstəkləyirlər. Cənab prezident, mənim sualım əsasən Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədardır. Siz bu münaqişə barədə danışarkən Ermənistanla Dağlıq Qarabağ arasında dəhliz olmasının mümkünlüyünə toxundunuz. Bilmək istərdim ki, Azərbaycanın əsas ərazisi ilə Naxçıvan arasında Mehri rayonundan dəhlizin olmasına necə baxırsınız? Çünki biz istərdik ki, belə bir dəhliz vasitəsilə Azərbaycanla Türkiyə, bütün türk dünyası bir-birini qucaqlasın. Bu dəhliz barədə fikirlərinizi bilmək bizim üçün maraqlı olardı.**

**C a v a b:** Bu barədə mənim fikrim çox aydındır: əgər Dağlıq Qarabağdan Ermənistana dəhliz veriləcəksə, onda Azərbaycandan da Naxçıvana dəhliz olmalıdır.

**S u a l: Cənab prezident, mən universitetimizin Beynəlxalq Münasibətlər İnstitutunda çalışıram. Cənab prezident, noyabr ayında siz Cənubi Qafqazda təhlükəsizlik və əməkdaşlıq paktının yaradılması barədə təkliflə çıxış etmisiniz. O vaxtdan bəri bu təklif həm Türkiyədə, həm də Azərbaycanda müxtəlif baxışlardan müzakirə olunmaqdadır. Bilmək istərdik ki, bu təklif Moskva və Vaşinqton tərəfindən necə qarşılanıbdır?**

**C a v a b:** Bilirsiniz, mən həqiqətən bu təklifi İstanbulda, ATƏT-in zirvə görüşündə irəli sürmüşəm. Bu təklifi irəli sürərkən dedim ki, mən Amerika Birləşmiş Ştatlarına müraciət edirəm, Avropa Birliyinə, ATƏT-ə müraciət edirəm, Rusiyaya, Türkiyəyə və Qafqazda sülhün, təhlükəsizliyin yaranması üçün marağı olan başqa ölkələrə müraciət edirəm ki, hamınız bir yerdə Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın yaranmasını təmin edəsiniz.

Bu, asan məsələ deyildir. Hələ deyə bilmərəm ki, biz buna böyük dəstək almışıq. Amma güman edirəm, bu, elə bir məsələdir ki, biz buna mütləq nail olmalıyıq.

**P o l V o l f o v i ç:** Mən daha iki suala icazə verəcəyəm. Hesab edirəm ki, biz insanların şam yeməyi vaxtı ilə rəqabətə giririk. Amma istəyirəm ki, bu tədbirdən sonra prezidentin bəzi iştirakçılarla qeyri-rəsmi söhbət etməsinə də vaxt qalsın.

**S u a l: Mənim adım Alan Nurdur. ABŞ-Türkmənistan Biznes Şurasının sədriyəm. Cənab prezident, bəzi ehtimallara görə sizin hökumətiniz Türkmənistan qazının Türkiyəyə ixrac olunması üçün nəzərdə tutulan Transxəzər qaz kəmərinə dəstək verir. Bilmək istərdik ki, sizin bu layihədə**

**iştirakınız, onun əhəmiyyəti barədə fikirləriniz nədən ibarətdir? Qonşu dövlətlərlə bu sahədə hansı danışıqlar aparırsınız?**

**C a v a b:** Birincisi, demək istəyirəm ki, Türkmənistan və siz bu barədə çox gecikmisiniz. Artıq bir neçə ildir ki, bu məsələ gündəlikdədir. Amma, nədənsə, Türkmənistanın rəhbərliyi, mənim dostum, prezident Saparmurad Niyazov bu barədə qəti qərar qəbul etməmişdi. Nəhayət, keçən ilin noyabr ayında ATƏT-in İstanbul zirvə görüşü zamanı Transxəzər qaz kəməri haqqında müqavilə imzalandı. Onu Türkmənistan, Azərbaycan, Gürcüstan, Türkiyə imzaladılar. Prezident cənab Bill Klinton da bunu dəstəklədi. Bu barədə bizim başqa fikrimiz ola bilməz. Amma eyni zamanda biz istəyirik ki, gələcəkdə həmin qaz kəməri ilə Azərbaycan qazı da ixrac olunsun. Bu mümkündür və prezident Niyazov da bu fikri dəstəkləyir. Ona görə indi iş sizdən asılıdır – bundan sonra da gecikdirəcəksiniz, yoxsa sürətləndirəcəksiniz?

**S u a l: Mən bu universitetdə islam hərəkatının təmsilçisiyəm. Bizim hərəkatın rəhbəri cənab Jan Kopari dünyanın müxtəlif bölgələrində, əsasən Amerika Birləşmiş Ştatlarında islam barədə stereotiplərə qarşı mübarizə məqsədi ilə ənənəvi islamın öyrənilməsi ilə məşğuldur. Yəni bizim məqsədimiz stereotiplərdən yaxa qurtarıb həqiqi, ənənəvi islamın tədrisi ilə məşğul olmaqdır. Məlumdur ki, müxtəlif islam təriqətləri Qafqazda və Mərkəzi Asiyada da yayılmışdır. Bilmək istərdik ki, siz də ölkənizdə belə çətinliklərlə rastlaşırsınızmı və bu barədə fikirləriniz nədən ibarətdir?**

**C a v a b:** Birincisi, mən demək istəyirəm ki, Azərbaycan dövləti demokratik prinsiplərə söykənərək Azərbaycanda vicdan azadlığını təmin edir. Azərbaycanda üç konfessiya – islam, pravoslav xristian və yəhudi konfessiyaları bərabər fəaliyyətdədir və bir-biri ilə çox dostdurlar. Bəzən bu üç konfessiyanın başçıları birlikdə mənimlə görüşə gəlirlər. Yəni dini nöqteyi-nəzərdən konfessiyalar arasında heç bir ziddiyyət yoxdur.

Eyni zamanda, Azərbaycanda bəzi missionerlərin fəaliyyətinə də etiraz etmirik. Doğrudur, bir neçə ay bundan öncə Azərbaycanda bəzi missionerlərə qarşı polis tərəfindən müəyyən qanunsuz hərəkətlər olmuşdur. Mən dərhal bunların qarşısını aldım və bəyan etdim ki, Azərbaycanda hər bir konfessiya bərabər hüquqa malikdir. Ancaq eyni zamanda, biz terrorizmi, düşmənçiliyi və yaxud zorakılığı təbliğ edən təriqətlərin tərəfdarı deyilik. Hesab edirik ki, insanların bəzi maddi çətinliklərinə, yaxud başqa asılılıqlarına görə onlardan sui-istifadə edib zorla hansısa bir təriqətə cəlb etmək olmaz. Vicdan azadlığı prinsipi bizim əsas prinsiplərimizdəndir.

**P o l V o l f o v i ç:** Cənab prezident, vaxt ayırdığınıza görə sizə çox təşəkkür edirik. Bildiyimizə görə, siz bizim məktəbimizə hədiyyə vermək istəyirsiniz. Bir halda ki, televiziya kameraları buradadır, onu edək.

**H e y d ə r Ə l i y e v**: Mən sizin universitetə Azərbaycanın məşhur rəssamlarından birinin Bakı mənzərəsini əks etdirən rəsm əsərini verirəm. Güman edirəm ki, bu, sizin universitetdə Azərbaycanı, Bakını daim xatırladacaqdır.

Hörmətli xanımlar və cənablar! Mən sizinlə bu görüşümdən həddən ziyadə məmnun olduğumu bir daha bildirirəm. Məni səbrlə dinlədiyinizə görə sizə təşəkkür edirəm. Verdiyiniz suallar çox maraqlı idi. Onlar mənə imkan verdi ki, sizə daha da geniş məlumatlar verim. Bu görüşü təşkil etdiyinə görə səfir Volfoviçə təşəkkür edirəm. Sizə təşəkkür edirəm və hamınızı Azərbaycana dəvət edirəm. Sağ olun.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MDB MƏSƏLƏLƏRİNƏ DAİR XÜSUSİ TAPŞIRIQLAR ÜZRƏ SƏFİRİ STİV SESTANOVİÇ, ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ KERRİ KAVANO VƏ ABŞ-ın AZƏRBAYCANA YENİ TƏYİN OLUNMUŞ FÖVQƏLADƏ VƏ SƏLAHİYYƏTLİ SƏFİRİ ROSS VİLSON İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Vaşinqton*

*15 fevral 2000-ci il*

**S t i v S e s t a n o v i ç:** Cənab prezident, biz Sizə öz dərin minnətdarlığımızı bildirir və demək istəyirəm ki, Siz bu gün prezident Bill Klintonla görüşəndən sonra biz özümüz qısa bir görüş keçirdik. Prezident Klinton hamımıza dedi ki, bu, fövqəladə əhəmiyyətli və çox xeyirli bir görüş oldu. Prezident Klinton Sizinlə görüşündən sonra bizə tapşırıq verib bu görüşə göndərdi ki, Sizin onunla bugünkü görüşünüzdə müzakirə etdiyiniz məsələlər – həm sülh sahəsində diplomatiyanın irəli aparılması, danışıqların irəli aparılması, həm enerji sektorundakı əməkdaşlığınızın irəli getməsi üçün Sizinlə onun arasında olmuş müzakirələri bir növ davam etdirək.

**H e y d ə r Ə l i y e v:** Mən çox məmnunam. Öz tərəfimdən deyə bilərəm ki, mən bu gün Ağ evdə prezident Klintonla və onun ətrafında olan şəxslərlə görüşümdən həddindən ziyadə məmnunam.

Siz dediniz ki, prezident Klinton bəyan etdi ki, bu görüş fövqəladə əhəmiyyətlidir. Mənim üçün isə bu, qat-qat artıq fövqəladə əhəmiyyətlidir. Birincisi, prezident Klinton ilə mənim aramda yaranmış səmimi dostluq münasibətləri bu gün bir daha öz təzahürünü göstərdi. İkincisi, bizim danışıqlarımız çox mehribanlıq şəraitində keçdi və prezident Klinton bütün danışılan məsələləri çox diqqətlə dinlədi.

Mən belə anladım ki, prezident Klinton bütün bu məsələləri çox dərindən bilir, onun həm Amerika Birləşmiş Ştatlarında, həm dünyada bir çox problemlərlə məşğul olmasına baxmayaraq, bizim ölkənin, bizim bölgənin problemlərini çox gözəl bilir və çox dəyərli fikirlər söylədi. Bizim bu görüş, bu danışıqlar təkcə mənim üçün yox, bütün Azərbaycan dövləti üçün, cəmiyyəti üçün, bizim xalqımız üçün çox əhəmiyyətlidir. Əminəm ki, xalqımız bunu çox böyük ruh yüksəkliyi ilə qəbul edəcəkdir.

Mən məmnunam ki, bizim bölgəmizdə sülh barədə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barəsində biz geniş fikir mübadiləsi apardıq. Bədnam 907-ci maddə haqqında, enerji ehtiyatları və onların ixrac edilməsi, Xəzər dənizi və bunlarla bərabər problemləri də, hesab edirəm, biz çox ətraflı müzakirə etdik.

Mən hesab edirəm ki, bugünkü görüşümüz və danışıqlarımız bütün bu problemlərin həll olunmasında irəli getmək üçün şərait yaradır. Buna görə mən prezident Klintona bu görüş üçün və çox səmərəli, çox əhəmiyyətli danışıqlar üçün bir daha təşəkkür edirəm və çox məmnunam ki, bu gün biz sizinlə bu danışıqları davam etdirəcəyik.

**S t i v S e s t a n o v i ç:** Cənab prezident, söylədiyiniz fikirlərlə tam razı olduğumu nəzərinizə çarpdırıram. İcazə verin, mən bir şeyi də əlavə edim. Bugünkü görüş zamanı Siz və prezident Klinton 907-ci maddə barədə ətraflı danışdınız. Siz bilirsiniz ki, prezident Klinton 907-ci maddənin əleyhinədir. Amma xatırlayırsınızsa, görüş zamanı o, sizə bildirdi ki, öz tərəfindən səylər qoyub ki, bu 907-ci maddədən istisnalar təşkil edərək Azərbaycana yardımları artırsın. Biz bu sahədə artıq bir sıra nailiyyətlər əldə etmişik və bu yaxınlarda da Azərbaycana gələcək xanım Olbrayt həmin məsələlər ətrafında fikirlərini bildirəcək və əvvəlki mövqeləri təsdiqləyəcəkdir.

Sizin regionunuzda son dövrlər meydana çıxmış qeyri-sabitlik bizi daha çox sövq edir ki, Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasındakı münasibətləri daha da gücləndirək və bu münasibətləri daha da yaxınlaşdırmaq və gücləndirmək yolu ilə, regionda meydana çıxan qeyri-sabitliyin sizin bölgəyə, sizin ölkələrə sirayət etməsinin qarşısını almağa və o təhlükələrin aradan qaldırılmasına nail olaq.

**H e y d ə r Ə l i y e v:** Mən bundan çox razıyam. Bəli, bu gün prezident Klinton dedi ki, bu 907-ci maddədən bəzi istisnalar əsasında müəyyən yardımlar göstəriləcəkdir. Mən inanıram ki, bu ediləcəkdir və çox məmnunam ki, sabah xanım Olbrayt Konqresdə çıxış edəcəkdir. O, əgər bu məsələləri bir daha pozitiv mövqedən qaldırsa, təbiidir ki, Konqresdə də fikir artıq dəyişir və dəyişiləcəkdir. Gözləyəcəyik.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI PREZİDENTİNİN MİLLİ TƏHLÜKƏSİZLİK MƏSƏLƏLƏRİ ÜZRƏ KEÇMİŞ MÜŞAVİRİ, GÖRKƏMLİ SİYASİ XADİM ZBİQNEV BJEZİNSKİ İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

*Vaşinqton*

*15 fevral 2000-ci il*

**B j e z i n s k i:** Möhtərəm cənab prezident! Mən və xanımım Sizi səmimi-qəlbdən salamlayır, Sizinlə görüşdən böyük şərəf duyuruq. Bizim iqamətgahımıza xoş gəlmişsiniz. Əvvəllər bir fermerin evi olmuş bu binanın əsas hissəsi 1800-cü ildə tikilmişdir. Vaxtilə prezident Avraam Linkoln bu evi Amerika uğrunda mübarizə aparmış bir zənciyə bağışlamışdır. Sonralar bu binada yenidənqurma və bərpa işləri aparılmışdır. Onu da deyim ki, Vaşinqtonun bu hissəsi, yəni evin yerləşdiyi ərazi bir vaxtlar təcrid olunmuş bir yer imiş. Amma Kennedinin prezidentliyi dövründə bu yer məşhurlaşmışdır. Çünki prezident Kennedinin ailəsi indi də bu ərazidə, qonşuluqda yaşayır.

**H e y d ə r Ə l i y e v:** Səmimi sözlərinizə və mehriban qəbulunuza görə Sizə və xanımınıza dərin təşəkkürümü bildirirəm. Bu tarixi bina həqiqətən də tarixi binadır.

**B j e z i n s k i:** Mən əminəm ki, Ermənistan –Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün ATƏT-in Minsk qrupu çərçivəsində, eləcə də birbaşa aparılan danışıqlar nəhayət ki, müsbət nəticə verəcəkdir. Bakı-Ceyhan əsas ixrac boru neft kəmərinin və Transxəzər qaz kəmərinin çəkilişi istər region ölkələrinin, istərsə də ABŞ-ın iqtisadiyyatında əhəmiyyətli yer tutacaqdır.

**H e y d ə r Ə l i y e v:** Münaqişənin sülh yolu ilə həlli Azərbaycan dövləti üçün də çox önəmlidir. Regionda əmin-amanlığın bərpası nəinki region xalqları, ümumiyyətlə, bəşəriyyət üçün qaçılmazdır. Bu baxımdan Azərbaycan-Amerika strateji tərəfdaşlığının daha da möhkəmləndirilməsi günün ən vacib məsələlərindəndir. Bu, hər iki dövlət üçün faydalıdır.

* Görüşdə Amerikanın müdafiə naziri, energetika naziri və Mərkəzi Kəşfiyyat İdarəsinin başçısı vəzifələrində işləmiş cənab Ceyms Slezincer, kəşfiyyat, ən əvvəl, peyk vasitəsilə kəşfiyyat məsələləri ilə müşğul olan Milli Təhlükəsizlik Agentliyinin direktoru, son illərdə Hudzon İnstitutu yanında Milli Təhlükəsizlik Tədqiqatları Mərkəzinin direktoru vəzifələrində çalışmış Yel Universitetinin professoru general-leytenant Uilyam Odom, Zbiqnev Bjezinskinin oğlu Mark Bjezinski, ARDNŞ-in birinci vitse-prezidenti millət vəkili İlham Əliyev iştirak edirdilər.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI KONQRESİNİN ÜZVÜ XANIM KAREN MAKKAFİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Vaşinqton*

*15 fevral 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli xanım Makkafi! Sizi səmimi-qəlbdən salamlayır və məmnunluq hissi ilə qeyd edirəm ki, Azərbaycan ilə Amerika Konqresi arasında əlaqələrin daha da möhkəmləndirilməsi vacibdir. Biz Amerika ilə uzunmüddətli əməkdaşlıq haqqında çox dəyərli qərarlar qəbul etmişik. Mən Amerika Birləşmiş Ştatlarına hər gəlişim zamanı bu məsələ çox geniş müzakirə olunur.

**K a r e n M a k k a f i:** Mən də Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev ilə görüşümdən şərəf duyduğumu bildirirəm. Müstəqil Azərbaycan Respublikası ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə Amerika Birləşmiş Ştatlarının xüsusi maraq göstərdiyini vurğulamaq istəyirəm.

**H e y d ə r Ə l i y e v:** Sizə məlumat verim ki, biz ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi aparırıq. Bütün ölkələrlə iqtisadi inteqrasiya prosesinə qoşulmuşuq. Mustəqillik yolunu seçmiş Azərbaycan Respublikasının qarşılaşdığı bir sıra çətinliklər də vardır.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ TANINMIŞ DÖVLƏT XADİMİ, SƏFİR RİÇARD ARMİTAC İLƏ GÖRÜŞDƏ SÖHBƏT*

*Vaşinqton*

*15 fevral 2000-ci il*

**R i ç a r d  A r m i t a c:** Hörmətli cənab prezident!

Sizi Vaşinqtonda salamlamaqdan şərəf duyduğumu bildirirəm.

Bilirsiniz ki, indi Amerikada prezident seçkiləri kampaniyası fəal surətdə gedir. Bu da bizim fəal olmağımıza kömək edir.

Cənab prezident, ötən ilin aprelində NATO-nun 50 illik yubiley tədbirlərində iştirak etmək üçün Vaşinqtona səfərinizi biz hələ də böyük məmnuniyyətlə xatırlayırıq. Amerika Hərbi Dəniz Akademiyasının kursantları onlarla keçirdiyiniz görüşü öz həyatlarında çox əlamətdar bir hadisə kimi dəyərləndirirlər. Kursantlar qarşısında tarixi əhəmiyyətli çıxışınız və xüsusilə «qalib gəlin» deməyiniz onların xatirində dərin iz buraxmışdır.

Cənab prezident, mən televiziya kanallarından gördüm. Siz son vaxtlar bir sıra ölkələrə səfərlər etmisiniz, Davosda olmusunuz.

**H e y d ə r  Ə l i y e v:** Səmimi sözlərə görə minnətdarlığımı bildirirəm. Amerika Hərbi Dəniz Akademiyasında keçirdiyim görüşü mən də yaxşı xatırlayıram.

Həmin görüş mənim üçün də çox əlamətdar bir hadisə idi.

Doğru deyirsiniz, Davosa getmişdim. Bu il başlanandan bir çox ölkələrə ziyarətlər etmişəm. Türkiyədə, Rusiyada, Davosda səfərdə olmuşam. İndi də Vaşinqtona işgüzar səfərə gəlmişəm.

**R i ç a r d  A r m i t a c:** Amerikada çoxlu insan Sizi dinləməyi gözləyir. Sülh əldə etmək sahəsində Sizin göstərdiyiniz ciddi səyləri onlar çox böyük maraqla izləyirlər. Bundan başqa, GUÖAM ilə bağlı məsələlər də burada geniş maraq doğurubdur.

---

* Söhbət zamanı Azərbaycan–Amerika strateji tərəfdaşlığının daha da inkişaf etdirilməsi, Bakı–Ceyhan əsas ixrac neft kəmərinin perspektivləri, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların gedişi, regionda vəziyyət və digər məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.

## «VAŞİNQTON POST» QƏZETİNİN REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*Vaşinqton*

*15 fevral 2000-ci il*

**F r e d  H a y a t:** Cənab prezident, Sizi səmimi-qəlbdən salamlayır və bizimlə görüşdən məmnun olduğumuzu bildirirəm.

**H e y d ə r  Ə l i y e v:** Səmimi sözlərə və ötən ilin aprel ayında NATO-nun 50 illik yubileyində iştirak edərkən «Vaşinqton post»un birinci səhifəsində mənim fotoşəklim ilə birlikdə dərc etdiyiniz məqaləyə görə qəzetin kollektivinə təşəkkürümü bildirirəm.

Terrorizmin, separatizmin xalqlara, ölkələrə böyük zərər gətirdiyini nəzərə çarpdıraraq bildirmək istəyirəm ki, Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyü pozulmuş, respublikamızın ərazisinin 20 faizi hələ də işğal altındadır. Bu hərbi münaqişə zamanı Azərbaycan xalqına qarşı etnik təmizləmə, soyqırım siyasəti aparılıbdır. Yəni Dağlıq Qarabağda yaşayan azərbaycanlılar 1989-1990-cı illərdə öz doğma yerlərindən zorla qovulub, onların evləri yandırılıbdır. Sonra bu müharibə genişlənib və Dağlıq Qarabağın sərhədindən çıxıb, Ermənistan silahlı qüvvələri ətraf əraziləri də işğal ediblər.

Bu münaqişənin əsl mahiyyətini ətraflı şərh edərək bildirirəm ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi keçmiş Sovetlər İttifaqı məkanında baş vermiş ilk münaqişədir. O vaxt Sovet İttifaqı hələ mövcud idi və bu münaqişənin qarşısını ala bilərdi. Ancaq bu separatizmin, Azərbaycanın ərazi bütövlüyünün pozulmasının qarşısını almaq üçün bizə heç kim kömək etmədi.

1992-ci ildə Dağlıq Qarabağda azərbaycanlıların yaşadığı Xocalı şəhəri sovet ordusunun 366-cı alayının köməyi ilə erməni silahlı qüvvələri tərəfindən tamamilə dağıdıldı, əhali qırıldı.

Amma heç bir ölkə bəyanat vermədi ki, azərbaycanlılara qarşı nə üçün bu qədər vəhşilik edilir?

Azərbaycan neftini dünya bazarına çıxaran Bakı–Novorossiysk və Bakı–Supsa neft boru kəmərlərinin hazırkı vəziyyəti və gələcək perspektivləri barədə suala cavabında onu deyə bilərəm ki, biz Bakı – Novorossiysk xəttini tikərkən bu marşrutun çətinliklərini Rusiyaya bildirdik. 1997-ci ilin noyabrından həmin kəmər vasitəsilə nefti ixrac etməyə başladıq. Lakin Çeçenistanda vəziyyət gərginləşdikdən sonra bu boru xəttindən istifadə olunmur. Rusiya həmin kəməri Dağıstan ərazisindən keçməklə bərpa etmək istəyir. Əgər bu kəmər bərpa olunsa, biz oradan neftin ixracını da bərpa edəcəyik.

Bakı- Supsanın məhz alternativ kəmər olduğunu nəzərə çarpdıraraq bildirmək istəyirəm ki, indi hasil edilən neftin bu kəmər vasitəsilə ixrac olunması mümkündür. Amma gələcək üçün biz Bakı-Ceyhan əsas ixrac neft kəmərinin tikilməsi barədə saziş imzalamışıq.

Ermənistan–Azərbaycan münaqişəsində Rusiyanın rolu barədə suala cavabında onu bildirirəm ki, dünyada bəzi məsələlərə ikili standartlar tətbiq olunmasından narahatlıq doğulur. Əgər Rusiyanın yardımı olmasaydı, Ermənistan Azərbaycanın bu qədər torpağını işğal edə bilməzdi. 1997-ci ildə Moskvanın rəsmi orqanları aşkar etdilər ki, ondan əvvəlki üç il müddətində Rusiyanın Müdafiə Nazirliyi Ermənistana gizli olaraq pulsuz bir milyard dollar dəyərində silah-sursat və hərbi texnika veribdir. Biz məsələni qaldırdıq, bütün dünyaya səs saldıq. Mən prezident Yeltsinə müraciət etdim. O, bəyan etdi ki, bu məsələnin istintaqla araşdırılması barədə göstəriş verəcəkdir. Rusiyanın Ermənistana silah verməsi barədə Amerikada senator Berd prezident Bill Klintona məktub yazdı. O vaxtdan üç il keçib, amma bu barədə heç bir tədbir görülmədi.

Rusiyanın Ermənistana bu gün də hərbi yardım etdiyini və orada onun hərbi bazası olduğunu vurğulayıram. Son altı ayda Rusiya Ermənistanda yeni tipli güclü silahlar yerləşdirmişdir. Ermənistanın ərazisi böyük deyildir, amma orada Rusiyanın böyük həcmdə ordusu vardır. Biz buna etiraz edirik, amma Rusiya cavab verir ki, Ermənistan hərbi müttəfiqimizdir.

Rusiyanın, Azərbaycanın və Ermənistanın MDB üzvü olduğunu, ABŞ və Fransa ilə birlikdə Rusiyanın ATƏT-in Minsk qrupuna həmsədrlik etdiyini xatırladıram. Ermənistan–Azərbaycan münaqişəsində Rusiya nəinki neytral mövqe tutmur, əksinə, Ermənistanda silahlarının sayını hər il artırır. Dünya ölkələri isə Rusiyanın bu hərəkətinə o qədər də diqqət yetirmir.

---

* Görüşdə «Vaşinqton post» qəzetinin baş redaktoru Fred Hayat, icraçı redaktor Leonard Daoni, redaktor müavinləri Robert Kayzer, Alan Kupelham, diplomatik məsələlər üzrə şərhçi Noça Bustani, müxbirlər Devid Ottave, Çarlz Leyn, Maykl Daus, Dən Morqan iştirak edirdilər.

Amerika Konqresinin 1992-ci ildə qəbul etdiyi 907-ci düzəliş barədə suala cavabında onu deyə bilərəm ki, 1994-cü ildə «Əsrin müqaviləsi» imzalandıqdan sonra biz ABŞ ilə iqtisadi sahədə geniş əlaqələr qurmuşuq. Hazırda Amerikanın 100-dən çox şirkəti Azərbaycanda fəaliyyət göstərir. Bu şirkətlər ölkəmizin təkcə neft sektoruna təxminən 1,7 milyard dollar sərmayə qoyublar. Amerika şirkətlərini Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsinə geniş cəlb etməyimizdən bir sıra ölkələr narazıdırlar. Amma Konqres müstəqillik qazanmış digər ölkələrə, o cümlədən Ermənistana Amerikanın göstərdiyi yardımdan bizi məhrum edibdir.

Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllində ABŞ-ın rolu və Sizin ilə Robert Koçaryan arasında birbaşa danışıqların gedişi barədə suala cavabında demək istəyirəm ki, mən sabah prezident Bill Klintonla görüşəcəyəm, Amerikaya bu işgüzar səfərim zamanı apardığım bütün danışıqlarda bu məsələ əsas mövzulardan biridir. Hesab edirəm ki, Ermənistan –Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasında Amerika hökumətinin imkanları çoxdur. Arzu edirik ki, onlar bu imkanlarından səmərəli istifadə etsinlər.

**F r e d H a y a t:** Cənab prezident, biz «Vaşinqton post» qəzetinin redaksiya heyətinin üzvləri Sizi dinləməkdən, bir sıra beynəlxalq, regional məsələlər barədə Sizin fikirlərinizi öyrənməkdən çox məmnun qaldığımızı bildiririk.

**H e y d ə r Ə l i y e v:** Mən sizinlə görüşümdən çox məmnunam. Azərbaycana gəlin, ölkəmizi öz gözünüzlə görün. Son 4-5 ildə Azərbaycan çox dəyişilibdir. Baxmayaraq ki, Azərbaycanın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqlarından bir milyondan çox vətəndaşımız sürgün olunubdur və onların əksəriyyəti çadırlarda yaşayır, işsizdirlər, ancaq biz demokratik dövlət quruculuğu prosesini, iqtisadi islahatları ardıcıl surətdə həyata keçiririk.

Azərbaycan Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Birliyi və digər beynəlxalq qurumlarla sıx əməkdaşlıq edir. İqtisadi islahatların həyata keçirilməsində onlar bizə yardım göstərirlər. Bütün bunların nəticəsində 1996-cı ildən Azərbaycan iqtisadiyyatında tənəzzülə son qoyulub, sabitlik əldə olunub və ölkəmiz hər il sürətlə inkişaf edir.

Respublikamızın bir sıra çətinliklərinə baxmayaraq, 1999-cu ilin iqtisadi yekunlarının göstəricilərinə görə Azərbaycan MDB-nin üzvü olan digər ölkələr içərisində irəlidə gedənlər sırasındadır. Təbiidir ki, özəlləşdirmə, torpaq islahatı və xarici investisiyanın respublikamıza cəlb olunması bütün bu işlərimizin əsasını təşkil edir. Sağ olun.

Bilirsiniz ki, Ermənistan ilə Azərbaycan arasında hərbi münaqişə vardır. Bu münaqişə nəticəsində Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Qanlı müharibə gedib, insanlar tələf olub. İşğal edilmiş torpaqlarımızdan bir milyondan çox azərbaycanlı öz yerindən-yurdundan zorla çıxarılıbdır. Onlar 7-8 ildir ki, çadırlarda çox ağır vəziyyətdə yaşayırlar.

Biz 1994-cü ildə müharibəni dayandırdıq. Ermənistan ilə Azərbaycan arasında atəşkəs haqqında saziş imzalanıbdır. Biz münaqişəni sülh yolu ilə həll etmək istəyirik, danışıqlar aparırıq. Bu məsələ ilə ATƏT-in Minsk qrupu məşğul olur. Amerika Birləşmiş Ştatları, Rusiya və Fransa Minsk qrupuna həmsədrlik edirlər. Ancaq biz hələlik sülhə nail ola bilməmişik. Bu münaqişə ölkəmiz üçün ən ağrılı problemdir.

Respublikamız üçün digər problem ABŞ Konqresinin 1992-ci ildə Azərbaycana qarşı qəbul etdiyi ədalətsiz 907-ci düzəlişdir. Mən 7 ildir ki, Azərbaycanın prezidentiyəm, ABŞ Konqresinin üzvləri ilə, prezident Bill Klintonla dəfələrlə görüşmüşəm, bu barədə banışıqlar aparmışam. Amma ədalətsiz 907-ci düzəliş hələ də ləğv edilməyibdir. Amerika hökuməti tərəfindən Azərbaycana heç bir yardım gəlmir. Amma yeni müstəqillik əldə etmiş digər ölkələr, xüsusən Ermənistan Amerikadan hər il külli miqdarda yardım alır.

Azərbaycanın Amerika ilə çox yaxın dostluq əlaqələri vardır. Mən Amerikanın və Qərb ölkələrinin neft şirkətlərini Xəzər dənizinə gətirmişəm. Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi üçün xarici ölkələrin, o cümlədən Amerikanın nüfuzlu şirkətlərinin iştirakı ilə 19 müqavilə imzalanıbdır. Birinci müqavilənin – «Əsrin müqaviləsi»nin həyata keçirilməsi nəticəsində biz artıq 8 milyon ton neft hasil edib ixrac etmişik. Ötən beş ildə Azərbaycana 5 milyard dollar sərmayə qoyulubdur. Bu sərmayənin təxminən 3 milyard dolları neft sahəsinə yönəldilibdir. Həmin sərmayənin təxminən 50 faizi Amerikanın ən böyük şirkətləri – «Eksson», «Mobil», «Şevron», «Yunokal», «Konoko», «Teksako», indi «Britiş petroleum» şirkəti ilə birləşmiş «Amoko», «Pennzoyl», «Frontera Resursez» və sair şirkətlər tərəfindən qoyulmuşdur. Bu şirkətlərin hamısı Azərbaycanda işləyir.

Mən sizə təkcə Amerika şirkətlərinin adlarını söylədim. İmzaladığımız müqavilələrdə 30 dövlətin nüfuzlu şirkətləri iştirak edir. Yəni biz Amerika Birləşmiş Ştatları ilə geniş əməkdaşlıq edirik. İndi Azərbaycanda Amerikanın 100-dən çox şirkəti işləyir.

Mən bu gün prezident Bill Klintonla görüşdüm. Biz çox ətraflı danışıqlar apardıq və mən bundan məmnunam. Biz Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması və 907-ci düzəlişin ləğv edilməsi barədə də geniş müzakirələr apardıq.

**K a r e n M a k k a f i:** Bildirmək istəyirəm ki, 1992-ci ildə 907-ci düzəliş qəbul olunanda mən Konqresin üzvü deyildim.

Cənab prezident, mən Sizinlə görüşümə çox böyük əhəmiyyət verirəm. Məni bu gecə prezident Bill Klintonun yanında keçirilən bir tədbirə – ticarət sahəsində strategiyanın müzakirəsinə dəvət etmişdilər. Mən Sizinlə görüşümə üstünlük verdim, həmin tədbirdə iştirakımdan imtina etdim. İndi bir daha bildirirəm ki, Sizinlə görüşüm mənim üçün çox faydalı oldu. Mən bu gündən sonra Azərbaycanın güclü vəkilinə çevriləcəyəm. Görünür, tale belə imiş ki, mən Sizinlə bu gün görüşməli idim.

Cənab prezident, mən Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması və 907-ci düzəlişin ləğv edilməsi üçün burada ciddi çalışacağam. Bu münaqişə barədə mənim müəyyən məlumatım vardır. Hesab edirəm ki, Azərbaycan xalqı dözümlü xalqdır. Əminəm ki, sizin xalqınız bu münaqişədən qalib çıxacaqdır.

**H e y d ə r Ə l i y e v:** Səmimi sözlərə görə, xanım Makkafi, Sizə minnətdarlığımı bildirirəm. İcazənizlə, Ermənistan–Azərbaycan münaqişəsinin əsl mahiyyətini xəritə üzərində Sizə bir daha ətraflı izah edim.

Nəzərə çarpdırıram ki, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli status verməyə ölkəmiz hazırdır. Amma Ermənistan silahlı qüvvələri işğal etdikləri Azərbaycan torpaqlarından çıxarılmalıdır, yerindən-yurdundan qovulmuş qaçqınlarımız öz yerlərinə qaytarılmalıdır, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır.

## «NYU-YORK TAYMS» QƏZETİNİN REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*Vaşinqton*

*16 fevral 2000-ci il*

**C e y n P e r l e z:** Cənab prezident, çox məmnunuq ki, bizimlə görüşmək üçün vaxt ayırmısınız. Ümidvaram ki, bizim belə çoxsaylı olmağımız Sizə təsir etməyəcəkdir. «Nyu-York tayms» qəzetindən beş nəfər sizin görüşünüzə gəlmişik.

**H e y d ə r Ə l i y e v:** Mən də çox məmnunam. On nəfər olsaydı, daha yaxşı olardı.

**C e y n P e r l e z:** Bu qəbulunuzla bizi çox şərəfləndirdiniz. Ümidvarıq ki, Sizinlə birbaşa sual-cavaba keçə bilərik. İstərdik ki, ilk sualımızı Vaşinqtonda hamını narahat edən, hamını maraqlandıran bir məsələ barədə verək. Bu, Azərbaycan nefti ilə əlaqədardır. Bilmək istərdik ki, Siz Azərbaycan neftinin İran ərazisindən ixrac olunması variantına necə baxırsınız? Mümkündürmü ki, Azərbaycan nefti Bakı-Ceyhanla paralel surətdə həm də İran vasitəsilə ixrac edilsin?

**H e y d ə r Ə l i y e v:** Mən belə başa düşürəm ki, Amerikada fikir dəyişilir? Çünki indiyə qədər mən beş ildir bu işlə məşğul oluram, Amerika Birləşmiş Ştatlarında mənə belə sual vermirdilər. Həmişə deyirdilər ki, qərb istiqamətində, Bakı–Ceyhan boru xətti ilə neftin ixracı nə cür olacaq? Amma indi siz başqa bir sual verirsiniz.

**J u r n a l i s t:** Ona görə də Sizin cavabınız bizi maraqlandırır.

**H e y d ə r Ə l i y e v:** Mən bunu belə deyə bilərəm ki, biz beş ildir Azərbaycanın qərb ölkələrinin şirkətləri ilə imzaladığı ilk müqavilənin - dünyada buna «Əsrin müqaviləsi» deyirlər - həyata keçirilməsi ilə məşğuluq. Bu gün mən çox qürur hissi ilə deyirəm ki, biz böyük nailiyyətlər əldə etmişik. 1994-cü ilin sentyabr ayında o müqaviləni imzalayanda bəziləri buna inanmırdı, bəziləri isə müxtəlif istiqamətlərdən təzyiqlər edirdilər, yəni buna etiraz edirdilər. Amma biz bütün sınaqlardan keçdik, neftin hasilatına və sonra ixracına başladıq.

Təbiidir ki, biz neft hasilatına başlayanda düşünürdük və həmişə düşünmək lazımdır ki, nefti hasil edəndən sonra onu dünya bazarlarına necə ixrac edəcəksən?

Ona görə də biz 1994-cü ildə müqaviləni imzalayanda orada birmənalı yazılmışdı ki, Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan neft Bakı–Ceyhan boru kəməri ilə ixrac olunacaqdır. Ancaq, təbiidir ki, Bakı-Ceyhan boru kəmərinin tikilməsinə dərhal başlaya bilməzdik. Sizə məlumdur ki, ona görə ilkin neftin ixracı üçün biz 1996–1997-ci illərdə Rusiyanın Qara dənizdəki limanına çıxan Bakı-Novorossiysk boru xəttini çəkdik. 1997-ci ilin noyabr ayında biz Novorossiysk limanından artıq ilk tankerləri yola saldıq.

Amma bilirdik ki, bizə bir alternativ variant da lazımdır. Ona görə də biz eyni zamanda Bakı-Supsa boru xəttini Gürcüstanın Qara dənizdəki limanına çəkməyə başladıq. Keçən ilin aprel ayında biz Supsa limanından neft tankerlərini yola saldıq. Ona görə də indi hasil olunan neftimizi iki istiqamətdə ixrac etmək imkanımız var. Amma bunların ikisi də Qara dəniz limanlarınadır və tankerlər gərək Bosfor boğazından keçsin. Bu da get-gedə çətinləşir.

Doğrudur, Rusiyadan keçən, yəni Bakıdan Novorossiysk limanına gedən boru xəttimiz normal işləmir. Çünki bilirsiniz ki, Çeçenistandakı vəziyyətlə əlaqədar bir müddət bundan öncə o xətt tamamilə bağlanıbdır. Ona görə Bakı-Supsa boru kəməri indi çox əhəmiyyətlidir.

Ancaq neft hasilatı artır. Əgər 1994-cü ildə biz bir müqavilə imzalamışdıqsa, indi Xəzərin Azərbaycan sektorundakı və qurudakı yataqlara dair 19 müqavilə imzalamışıq. Gələcəkdə bu yataqlardan ildə azı 50–60 milyon ton neft hasil ediləcəkdir. Ona görə də əsas ixrac boru kəməri hesab etdiyimiz Bakı-Ceyhan boru kəməri ilə daim məşğul olmuşuq.

Bilirsiniz ki, keçən ilin noyabr ayında İstanbulda biz, yəni Azərbaycan, Gürcüstan, Türkiyə – bu işə Qazaxıstan da qoşuldu, çünki öz neftini Xəzər dənizindən keçməklə bu yolla ixrac etmək istəyir – son müqaviləni imzaladıq. Bu müqaviləni Amerika Birləşmiş Ştatlarının prezidenti cənab Bill Klinton da imzaladı.

---

* Görüşdə «Nyu-York tayms» qəzetinin baş diplomatik müxbiri xanım Ceyn Perlez, Ağ ev üzrə müxbir Mark Leysi, beynəlxalq iqtisadiyyat üzrə müxbir Cozef Kan, Vaşinqton üzrə redaktorun müavini Tom Şanker və Vaşinqton Bürosunun redaktoru Karl lavin iştirak edirdilər.

Ona görə indi Bakı–Ceyhan neft kəməri bizim üçün əsas ixrac kəməridir və onu tikib başa çatdırmaq əzmindəyik, bunu da edəcəyik. Bu barədə heç kəs şübhəsi olmasın. Doğrudur, biz İstanbulda bu müqaviləni imzalayandan sonra mətbuatda buna müxtəlif münasibətlər bildirilir, müxtəlif qiymətlər verilir. Amma bunda da qeyri-adi bir şey yoxdur. Çünki əvvəldən bunun əleyhinə olanlar, yaxud başqa marşrutlardan istifadə edilməsini istəyənlər var. Hər halda, bəzi ölkələr hərə öz marağını güdərək bu barədə müxtəlif fikirlər deyirlər.

Ancaq Xəzər dənizində, elə Azərbaycan sektorunda neft ehtiyatları çoxdur. Ona görə, əgər gələcəkdə mümkün olsa, biz İran ərazisindən də neft ixrac edə bilərik. Bunun üçün lazımi şərait yaranmalıdır.

Güman edirəm, siz bilirsiniz ki, Azərbaycanın Xəzər dənizindəki sektoru təkcə neftlə yox, qazla da çox zəngindir. Təbiidir ki, biz bunu bilirdik, ancaq fikrimizi əvvəl neftə cəlb etmişdik. Amma indi aparılan işlər, yəni xarici şirkətlərlə birgə gördüyümüz işlər nəticəsində bizim gözlədiyimizdən də çox qaz yataqları açılmışdır. Məsələn, Xəzərdəki «Şahdəniz» yatağında iş aparmaq üçün 1996-cı ildə imzaladımız müqavilə – doğrudur, bu müqavilədə Amerika şirkətləri iştirak etmir. Orada əsas «Bi-Pi», «Statoyl» və başqa şirkətlər var – əsasında indi oradan 1 trilyon kubmetrdən artıq qaz hasil etmək imkanı olduğu görünür. Amma əvvəl biz hesab edirdik ki, orada ehtiyat 400 milyard kubmetr olacaqdır. Deməli, 2,5 dəfə artıqdır, amma bu da son hədd deyildir.

O yatağa yaxın olan başqa bir yatağımız var, «Abşeron» adlanır. Onu işlətmək üçün biz Amerikanın «Şevron» şirkəti ilə müqavilə imzalamışıq. Son iki ildə orada aparılan işlər bu yataqda «Şahdəniz»dəkindən də çox - 3 trilyon kubmetr qaz ehtiyatı olduğunu göstərir. Biz görürük ki, başqa neft yataqlarında da böyük qaz ehtiyatları aşkar edəcəyik.

Ona görə də indi qazın ixracı bizim qarşımızda duran bir problemdir. Güman edirəm, biz bunu da həll edə bilərik. Bilirsiniz ki, Türkmənistan qazının Xəzər dənizi, Azərbaycan, Gürcüstan vasitəsilə Türkiyəyə ixrac edilməsi üçün İstanbulda müqavilə imzalanıbdır. Biz hesab edirik ki, Transxəzər borusu ilə Azərbaycan qazının da bir hissəsi ixrac olunmalıdır.

Gələcəkdə daha çox şeylər gözlənilir. Ona görə İran,- sizin sualınıza bir də qayıdıram,- təbiidir ki, istifadə oluna bilər.

**S u a l: Sizcə, İran ərazisindən daha çox qaz ixracı üçün istifadə etmək olar, yoxsa neft ixracı üçün?**

**C a v a b:** Həm neft üçün, həm də qaz üçün.

**S u a l: Siz «gələcək» deyəndə, bunun müddətini nə qədər görürsünüz?**

**C a v a b:** Bilirsiniz, hesab edirəm, gələcək beş il, on il... Bizim müqavilələr 30–40 il müddətinə imzalanıbdır. Bu işlər o qədər də asan deyildir. Çünki müqavilə imzalanandan sonra təxminən iki-üç il geoloji kəşfiyyat işləri gedir. Ondan sonra orada olan neftin və ya qazın həcmi müəyyən edilir. Sonra hasilat prosesi başlayır. Hasilat prosesinə başlamaq üçün bir çox işlər görmək, dənizdən qazı, yaxud da nefti sahilə çatdırmaq üçün borular çəkmək, infrastruktur yaratmaq lazımdır. Çox çətin işdir. Mən sizə məsləhət görürəm, Azərbaycana gəlin, indi işlətdiyimiz «Çıraq» yatağındakı platformaya sizi vertolyotla göndərərəm, orada gözəl mənzərə görərsiniz.

Neft sahəsində daha geniş bilgi almaq istəyirsinizsə, neft şirkətinin birinci vitse-prezidenti İlham Əliyev bu işlərlə bilavasitə məşğul olur, o sizə əlavə cavablar verə bilər.

**S u a l: Cənab prezident, siz qarşıdakı həftə ərzində prezident Klinton ilə görüşəcəksiniz. Bilmək istərdik ki, prezident Klintonla görüşdə müzakirə edəcəyiniz məsələlər sırasında öncül məsələlərdən biri ABŞ-dan sizin ölkənizə yardım göstərilməsinə qoyulmuş məhdudiyyətlərin aradan qaldırılması məsələsi olacaqmı? Əgər bu məsələni qaldıracaqsınızsa, o zaman Ermənistana hər hansı güzəştlər edilməsini nəzərdə tutacaqsınızmı? Məsələn, Ermənistanın tərkibində bir muxtar qurumun yaradılması, yaxud Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtariyyət verilməsi sahəsində hansı güzəştlər olunmasını planlaşdırırsınız?**

**C a v a b:** Bəli, sabah mən prezident Bill Klintonla görüşəcəyəm. Onunla danışılası çox sözlərim var. Ancaq sizin dediyiniz problem, təbiidir ki, bizim üçün öncül problemdir. Çünki sizə məlumdur ki, on iki ildir Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi davam edir. Bəzi səbəblərdən bu münaqişə nəticəsində Ermənistan silahlı qüvvələri Azərbaycanın ərazisinin 20 faizini işğal ediblər.

Siz bu xəritəni görürsünüz. Burada Azərbaycan, ərazi etibarilə Azərbaycandan bir az aralı düşən, Azərbaycanın tərkib hissəsi olan Naxçıvan göstərilibdir. Bu xəritənin rənglənmiş hissələri var. Qırmızı rənglə rənglənən Azərbaycanın tərkibindəki keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətidir.

Ermənistan 1988-ci ildə Dağlıq Qarabağ Vilayətini özünə bağlamaq üçün münaqişəni başlayıbdır. Azərbaycan da etiraz edibdir. Çünki bu, Azərbaycanın torpağıdır. Dağlıq Qarabağda ermənilərlə bərabər, azərbaycanlılar da yaşayırdı. Amma Ermənistan nəyin bahasına olursa-olsun Dağlıq Qarabağı ələ keçirməyə çalışıbdır. Bununla da müharibə başlayıbdır. Qan tökülüb, döyüşlər gedib və müxtəlif səbəblərdən Ermənistan silahlı qüvvələri birinci növbədə Dağlıq Qarabağı tamamilə işğal ediblər.

Ondan sonra Ermənistan müharibəni genişləndirib və Dağlıq Qarabağın ətrafında yerləşən, gördüyünüz xəritədə yaşıl və sarı rənglərlə rənglənmiş, bütünlüklə azərbaycanlılar yaşayan ərazini, Dağlıq Qarabağa heç bir dəxli olmayan rayonları işğal edibdir. Rənglənmiş bütün bu yerlər Azərbaycan ərazisinin 20 faizini təşkil edir və Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Buradan zorla çıxarılmış bir milyon azərbaycanlı indi Azərbaycanın müxtəlif bölgələrində yaşayır - bu da xəritədə göstərilibdir. Onların əksəriyyəti çadırlarda yaşayır. Təsəvvür edin, insanlar yeddi ildir ki, çadırlarda, ağır vəziyyətdə yaşayırlar.

1994-cü ildə biz döyüşləri, atəşi dayandırdıq və Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş əldə etdik. Ancaq indiyə qədər məsələnin sülh yolu ilə həll edilməsinə nail ola bilməmişik. Bilirsiniz ki, bu məsələ ilə ATƏT-in Minsk qrupu məşğul olur və Minsk qrupuna da üç böyük dövlət – Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa başçılıq edirlər.

Biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Vaxtilə, 1996-cı ildə ATƏT-in lissabon zirvə görüşündə qəbul olunmuş sənəddə də göstərilir ki, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarə hüququ, yəni muxtariyyət hüququ verilsin və Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxarılsın, bu torpaqlardan zorla çıxarılmış azərbaycanlılar öz yerlərinə-yurdlarına qayıtsınlar.

Amma Ermənistan buna razı olmur. Ermənistan istəyir ki, Dağlıq Qarabağa müstəqillik statusu, müstəqillik hüququ verilsin. Biz buna razı ola bilmərik. Beynəlxalq hüquq normaları da buna razı ola bilməz. Çünki bu, Azərbaycanın ərazi bütövlüyünün tamamilə pozulması deməkdir.

O ki qaldı, siz deyirsiniz, Azərbaycana qarşı qoyulmuş qadağanın götürülməsi, deməliyəm ki, bəlkə də Amerika kimi demokratik, ədalətli ölkənin tarixində Konqresin ən ədalətsiz qərarı 1992-ci ildə qəbul olunubdur. Bu, «Azadlığı dəstəkləmə aktı»nın 907-ci maddəsinin Azərbaycana tətbiq edilməsidir.

Səbəbi nə olubdur? İzah edirlər ki, guya Azərbaycan Ermənistanı və Dağlıq Qarabağı blokadaya alıbdır. Birincisi, Azərbaycan Ermənistanı necə blokadaya ala bilər? Ermənistan tamamilə başqa bir ölkədir. Burada dəmir yolundan söhbət gedir. Bəli, müharibə başlanandan bir müddət sonra Bakıdan, Azərbaycandan gedən dəmir yolunun – baxın, dəmir yolu gəlir buraya, buradan Yerevana gedir – bu hissəsi, İranla bizim sərhədimizin 130 kilometr hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bizim Naxçıvan Muxtar Respublikası, - hansı ki, dəmir yolu, başqa yollar vasitəsilə Azərbaycanla bağlı idi, - o, blokadaya alınıbdır.

Ona görə də biz deyirik ki, gəlin bu münaqişəni qurtaraq, Dağlıq Qarabağa həmin o statusu verək və sülh yaransın. Amma hələ bu məsələ həll olunana qədər 907-ci maddəni mütləq götürmək lazımdır. Çünki, birincisi, o, 1992-ci ildə əsassız qəbul olunub və Amerika Birləşmiş Ştatlarının hakimiyyətinin – həm Konqresinin, həm də hökumətinin ədalətsiz bir qanun qəbul etdiyini göstərir. İkincisi də, əgər istəyirsinizsə ki, hər şey qurtarsın, onda gərək Ermənistan silahlı qüvvələri işğal olunmuş torpaqlardan çıxsın, yol açılsın və əgər Ermənistan hesab edirsə ki, o blokadadadır,- amma blokadada deyil, çox gözəl inkişaf edir, İranla, Gürcüstan yolu ilə, başqa vasitələrlə onun iqtisadi inkişafı çox yüksək səviyyədədir,- onda bu yol da açılacaqdır.

**S u a l: Bu münaqişəyə son qoymaq üçün Siz Dağlıq Qarabağın beynəlxalq administrasiyanın nəzarətinə verilməsi ideyasını nəzərdən keçirə bilərsinizmi?**

**C a v a b:** Bilirsiniz, belə ideyalar çoxdur, təkcə siz dediyiniz deyildir. Biz bunların hər birini nəzərdən keçirə və lazımi güzəştlərə gedə bilərik. Baxmayaraq ki, bizə böyük zərbələr vurulub, Azərbaycanın işğal olunmuş torpaqlardakı bütün mülkü, varidatı dağılıbdır. Azərbaycanın bir milyon vətəndaşı öz varından, mülkündən məhrum olubdur. Nə qədər insanlar tələf olubdur. Bunlara baxmayaraq, biz sülh istəyirik. Təbii ki, sülhü də həm Azərbaycan tərəfindən, həm də Ermənistan tərəfindən olunacaq qarşılıqlı güzəştlərlə əldə etmək olar.

Ancaq Ermənistan çox qeyri-konstruktiv mövqe tutur: «Dağlıq Qarabağa müstəqillik verilsin». Heç bir başqa status qəbul etmirlər. Dünyada muxtariyyət statusunun bir çox forması var. Biz təklif edirik ki, bunlardan hansını istəyirsinizsə, onu götürək. Amma onlar deyirlər ki, «biz dünyada olan statusların heç birini qəbul etmirik, bizə müstəqillik verilməlidir».

**S u a l: Cənab prezident, Sizin həyatınıza bir neçə dəfə qəsdlər olub və Siz təhlükələrlə qarşılaşmısınız. Bilmək istərdik ki, bu təhlükələrdə, bu qəsdlərdə kimin əlini görürsünüz? Sizcə, bu, daxili opponentlərinizin, yoxsa Moskvanın əlidir? Moskva mövzusuna toxunmuşkən, onu da soruşmaq istərdim ki, sizcə, Putinin meydana çıxması və irəliləməsi Azərbaycan-Rusiya münasibətlərinin inkişafına gətirib çıxaracaqmı?**

**C a v a b:** Bilirsiniz, Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyi əldə edəndən burada üç dəfə silahlı dövlət çevrilişi cəhdi olmuşdur. Nəhayət, 1993-cü ilin iyun ayında Azərbaycanda kritik vəziyyət yaranmışdı, yəni vətəndaş müharibəsi başlanmışdı və Azərbaycan parçalanırdı.

Məhz o zaman mən Azərbaycana rəhbərliyə dəvət olunmuşam. Ağır bir dövrdə Azərbaycana başçılıq etmək vəzifəsini üzərimə götürmüşəm. Bundan sonra, 1994-cü ilin oktyabr ayında böyük bir silahlı çevriliş cəhdi göstərildi. 1995-ci ilin mart ayında böyük bir silahlı qrup Heydər Əliyevi öldürüb hakimiyyəti devirmək istədi.

1995-ci ildə mən xarici səfərdən qayıdarkən təyyarəmi raketlə vurmaq, təbii ki, mənə qarşı terror etmək və Azərbaycanda hakimiyyəti dəyişdirmək cəhdi göstərildi. 1996-cı ildə şəhərdən hava limanına gedən körpünün – o vaxt mən Ukraynanın prezidenti Leonid Kuçmanı yola salmalı idim – altına 200 kiloqram trotil qoyulmuş, körpünü partladıb mənə terror etmək cəhdi göstərilmişdi. 1996-cı ilin dekabrında yenə bir terrorist qrupu gəlib Azərbaycanda mənim iqamətgahımı zəbt etmək, məni öldürüb çevriliş etmək istəmişdi.

Bunların hamısı xarici ölkələrin xüsusi xidmət orqanları tərəfindən və təbiidir ki, Azərbaycanın daxilində olan cinayətkarların vasitəsilə təşkil edilmişdi. Bizdə çox konkret sübutlar, dəlillər var ki, bu xüsusi xidmət orqanlarının içərisində Rusiya Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsi deyilən təşkilatı çox fəal iştirak etmişdir. O, çox dəhşətli bir təşkilatdır. Mən bu barədə prezident Boris Yeltsinə çox açıq-aydın məktublar da yazıb göndərmişdim.

Sualın ikinci hissəsi Rusiyanın yeni rəhbəri Putin haqqındadır. Təbiidir, biz istəyirik ki, Rusiya ilə Azərbaycan arasında normal münasibətlər yaransın, bizim ölkəmizin müstəqilliyinə heç bir qəsd olmasın, Rusiya ilə dostluq əlaqələrimiz və geniş əməkdaşlığımız olsun. Mən bununla demək istəmirəm ki, Rusiya ilə bizim əlaqələrimiz düşmənçilik vəziyyətində, yaxud da çox gərgin vəziyyətdədir. Amma istəyirik ki, həqiqətən səmimi münasibətlər olsun.

Məsələn, Rusiyadan əsas narazılığımız bir də ondan ibarətdir ki, Rusiya bizimlə münaqişədə olan Ermənistana həddindən çox silah-sursat verir. 1997-ci ildə Rusiyanın hakimiyyət orqanlarına məlum oldu ki, əvvəlki üç il müddətində Rusiya Ermənistana gizli olaraq bir milyard dollar dəyərində müxtəlif silahlar və hərbi texnika vermişdir.

**S u a l: Cənab Putinin özünün tərcümeyi-halı da kəşfiyyat orqanları ilə bağlıdır. İndi isə o, Rusiyada iqtisadi islahatlar aparmaq amalları ilə çıxış edir. Putinin gəlişi ilə Rusiya-Azərbaycan münasibətlərində yaxşılaşma meyli görürsünüzmü?**

**C a v a b:** Bilirsiniz, kimin keçmişi kəşfiyyatla bağlıdır, - bu, onun siyasi fəaliyyəti üçün əhəmiyyətli deyildir. Sizin keçmiş prezident Corc Buş da Mərkəzi Kəşfiyyat İdarəsinə başçılıq etmişdir. Bunun heç bir əhəmiyyəti yoxdur. Mən də keçmişdə təhlükəsizlik orqanlarında xidmət etmişəm. Bu, insan üçün heç də mənfi bir şey deyildir.

Putin haqqında ki, soruşursunuz, mən hesab edirəm, indi Rusiyanın siyasi səhnəsində Putin çox görkəmli bir simadır. Düşünürəm ki, qarşıdakı seçkilərdə Putin qalib gələcək və onun prezidentliyi zamanı Azərbaycanla Rusiya arasında əlaqələrin daha da inkişaf etməsinə ümid bəsləyirəm. Mən Putinlə görüşmüşəm və onu həm ağıllı, həm praqmatik, həm də tarazlı siyasət apara bilən adam kimi hiss edirəm.

**S u a l: Sizcə, 907-ci maddənin aradan qaldırılmasına nə qədər yaxınlaşmısınız?**

**C a v a b:** Bilmirəm, hökumət və Konqres nə qədər yaxınlaşıbdır. Bu, bizdən asılı deyil, onlardan asılıdır.

**M ü x b i r:** Onlar çox yaxınlaşmayıblar.

**C a v a b:** Mən nə edə bilərəm? Prezident Klinton neçə dəfə bəyan edib, hətta 1997-ci ildə bizim birgə imzaladığımız bəyanatda da yazılıb ki, 907-ci maddə götürülməlidir. Dövlət katibi xanım Olbrayt bir neçə gün bundan öncə Konqresdə çıxış edərkən 907-ci maddənin götürülməsi haqqında öz fikrini bildiribdir. Ancaq hələ ki, nəticə yoxdur.

Mən bir də deyirəm, biz Amerikanı ədalətli ölkə, dövlət hesab edirik. Amerika düşünməlidir ki, bu cür ədalətsiz hala bundan sonra daha yol vermək olmaz.

**S u a l: Cənab prezident, Siz Konqresdə məqsədlərinizə nail olmaq üçün konqresmenlərlə birbaşa danışıqlar aparmısınızmı? Hansı konqresmenləri əhəmiyyətli hesab edirsiniz ki, onlarla bu sahədə danışıqlar aparmaq olar?**

**C a v a b:** Çox danışıqlar aparmışam. Mən dəfələrlə Vaşinqtonda, Konqresdə olmuşam. Senatorların, Nümayəndələr Palatasının üzvlərinin çoxları Azərbaycanı ziyarət ediblər, onlarla çox danışıqlar aparmışam. Onların içərisində çox adam var ki, dərk edirlər ki, 907-ci maddə ədalətsizdir və onun aradan götürülməsi üçün təşəbbüs göstərirlər. Məsələn, konqresmen Kinq, yaxud senator Sem Braunbək təkcə söz demir, konkret proqramlar meydana çıxarıblar.

Məsələn, keçən ilin aprel ayında biz burada olanda Sem Braunbək İpək yolu layihəsi haqqında Senatda böyük bir konfrans təşkil etdi. Orada 9 prezident iştirak elədi: Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Azərbaycan, Türkiyə, Gürcüstan, Ermənistan, Rumıniya. Semüel Berger nitq söylədi, Beyker nitq söylədi, Bjezinski nitq söylədi, bütün prezidentlər nitq söylədilər. Hamı hesab etdi ki, İpək yolu layihəsi, Sem Braunbəkin layihəsi Amerika üçün çox əhəmiyyətlidir. Bu layihə həyata keçirilsə, təbiidir ki, 907-ci maddə götürülməsə də, onun bir çox bəndləri zəifləyəcəkdi. Amma Amerika üçün belə faydalı olan bir layihəni də Konqres qəbul etmədi.

**S u a l: Sonuncu sualımı vermək istəyirəm. Dağlıq Qarabağa muxtariyyət vermək təklifiniz və mümkün olsa, bu muxtariyyətin beynəlxalq administrasiyanın nəzarətinə verilməsinə razı olmağınız 907-ci maddənin aradan qaldırılması məqsədi daşıyırmı?**

**C a v a b:** Bilirsiniz, bizim Dağlıq Qarabağ problemimiz təkcə 907-ci maddədən ibarət deyildir. Bizim Dağlıq Qarabağ problemimiz Ermənistanla Azərbaycan arasında sülh yaratmaq məqsədi daşıyır. Əgər

Ermənistanla Azərbaycan arasında sülh yaransa, Cənubi Qafqazda sülh, təhlükəsizlik, əmin-amanlıq yaranacaqdır.

İndi Azərbaycanda Amerika Birləşmiş Ştatlarından təxminən 100 şirkət fəaliyyət göstərir. Beş il müddətində Azərbaycana təxminən 5 milyard dollar həcmində sərmayə qoyulubdur. Amerikanın təkcə neft şirkətləri Azərbaycana 1 milyard 700-800 milyon dollar sərmayə qoyublar. Gələcəkdə bu artacaqdır. Yəni Amerika Cənubi Qafqaza daxil olur. Cənubi Qafqaz - Azərbaycan, Gürcüstan, Ermənistandır.

Amma Ermənistan-Azərbaycan münaqişəsi, sülh olmaması bu məsələləri çətinləşdirir. Bizim məqsədimiz budur, 907-ci maddə ikinci dərəcəlidir. Bəs nə üçün bu gün 907-ci maddəni belə kəskin qoyuruq? Çünki hələ bu böyük məsələ həll olunmadan 907-ci maddə Azərbaycana böyük zərbə vurur.

Amerika yeni müstəqillik almış bütün ölkələrə maliyyə yardımı göstərir: ildə 100 milyon dollar Ermənistana, Gürcüstana, başqalarına. Amma Azərbaycan bu yardımdan məhrumdur. Məsələ belədir.

**M ü x b i r:** Bu gün səhər-səhər bizə həddindən çox vaxt ayırdınız. Suallarımıza cavab verdiyinizə, vaxt ayırdığınıza görə Sizə təşəkkürümüzü bildiririk.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Mən çox məmnunam ki, sizinlə görüşdüm. Sizin qəzetiniz təkcə Amerikada yox, dünyada çox məşhur və eyni zamanda dünya ictimaiyyətinə təsir edən bir qəzetdir. Mən sizə arzu edirəm ki,- bu, ümumiyyətlə, jurnalistlərə olan arzumdur,- qəzetiniz ədalətli olsun, obyektiv olasınız, Konqresin ədalətsizliyini təkrar etməyəsiniz. Sağ olun.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
DÖVLƏT KATİBİ
XANIM MADLEN OLBRAYT
ARASINDA TELEFON DANIŞIĞI**

*Vaşinqton*

*16 fevral 2000-ci il*

**M a d l e n O l b r a y t:** Hörmətli cənab prezident! Salam, Sizi eşitməyimə çox şadam. Sizə deməliyəm ki, Bill Klinton Sizinlə Ağ evdə görüşündən çox məmnun qalmışdır. Həm prezident Bill Klinton, həm də mən özüm Sizinlə yenidən görüşüb Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə aradan qaldırılması məqsədi ilə aparılan sülh danışıqları barədə, Xəzərin zəngin enerji ehtiyatlarından birgə istifadə olunması ilə əlaqədar əldə edilmiş nailiyyətlər, çoxşaxəli boru kəmərləri, xüsusilə Bakı- Ceyhan əsas ixrac neft kəməri və Transxəzər qaz kəməri barədə, regional təhlükəsizlik məsələləri və ölkələrimiz arasında yaranmış strateji tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi üçün görüləcək işlər barədə ətraflı fikir mübadiləsi aparmaq imkanı əldə etdiyimiz üçün çox şadam. Dağlıq Qarabağ münaqişəsinin həll olunması ilə əlaqədar Sizinlə səfir Sestanoviç və səfir Kavano arasındakı danışıqlar barədə ətraflı məlumat aldım. Ümidvaram ki, Ermənistan və Azərbaycan prezidentləri arasında birbaşa dialoq davam etdiriləcək və tezliklə sülh əldə ediləcəkdir.

Cons Hopkins Universitetinin klinikasında gözünüzün müalicəsi necə keçdi?

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun, xanım Olbrayt. Diqqətinizə görə təşəkkür edirəm.

**M a d l e n O l b r a y t:** Mən, cənab prezident, Sizi Amerikanın yaxın dostu hesab edir, həm prezident Bill Klinton ilə, həm də şəxsən özümlə aramızda yaranmış şəxsi dostluq münasibətlərini çox əziz tuturam.

**H e y d ə r Ə l i y e v:** Minnətdarlığımı qəbul edin, xanım Olbrayt. Vaşinqtonu ziyarət etməyimdən çox məmnunam. Prezident Klinton ilə Ağ evdə keçirdiyim görüşə çox böyük əhəmiyyət verirəm. Bu mühüm görüşə görə təşəkkürlərimi prezident Bill Klintona çatdırmağı xahiş edirəm. Ağ evdə keçirilən görüş dünyanın aparıcı kütləvi informasiya vasitələri ilə ətraflı işıqlandırılıb və geniş əks-səda doğurub. Azərbaycan üçün çox ağrılı problem olan, bütün bölgədə sabitliyə və əməkdaşlığa xələl gətirən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması üçün göstərdiyiniz səylərə və dəstəyə görə Amerika Birləşmiş Ştatları hökumətinə, şəxsən prezident Klintona və xanım Olbrayta minnətdarlığımı bildirirəm. Bu münaqişənin tezliklə həll olunması üçün Amerika Birləşmiş Ştatlarına böyük ümidlər bəsləyirəm. Azərbaycan-Amerika ikitərəfli münasibətlərinin qarşılıqlı surətdə faydalı prinsiplər əsasında bundan sonra da sürətlə inkişaf etməsi və möhkəmlənməsi üçün Azərbaycan tərəfindən bütün lazımi tədbirlərin görüləcəyini bildirirəm.

Mənə göstərilən yüksək qonaqpərvərliyə, diqqətə və qayğıya görə Sizə və Amerika Birləşmiş Ştatları hökumətinə dərin minnətdarlığımı bildirirəm.

## AMERİKA–AZƏRBAYCAN TİCARƏT PALATASI TƏRƏFİNDƏN TƏŞKİL EDİLMİŞ RƏSMİ QƏBULDA NİTQ*

*Vaşinqton,*
*«Meridian Hauz» qəsri*

*16 fevral 2000-ci il*

**Q r e m  E l i a s o n:** *Biz indi günün əsas hadisəsinə yaxınlaşırıq. Mən Azərbaycan prezidenti Heydər Əliyevi böyük şərəf hissi ilə sizə təqdim edirəm.*

*Prezident Heydər Əliyevin dövlət strukturlarında uzun illər ərzində görkəmli xidmətləri olmuşdur. O, ölkəsinin əslində yeni doğum tarixində və ilkin inkişaf mərhələsində xalqının həqiqi lideri kimi Azərbaycanı irəli aparmış, SSRİ-dən müstəqilliyə keçid, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində sülh axtarışı, Qərblə və Birləşmiş Ştatlarla beynəlxlaq müstəqil əlaqələr yaratmaq dövründə ölkəsini idarə etmişdir. Prezident Heydər Əliyev özünün əsl dövlət xadimi olduğunu nümayiş etdirmiş və bölgənin iqtisadi inkişafı və təhlükəsizliyi, sabitliyi yollarının axtarışında regionun digər liderləri ilə birgə çalışmış, yalnız Azərbaycanın deyil, bütünlükdə regionun* gələcəyinin *təminatçısı olacaq müxtəlif boru kəmərlərinin inkişaf etdirilməsində əvəzsiz xidmətlər göstərmişdir. Mən Bakı-Ceyhan boru xəttini xüsusi qeyd edirəm. Biz amerikalılar üçün bu, xüsusilə əhəmiyyətlidir. Cənab Bjezinski bu haqda öz fikirlərini artıq söylədi.*

*Azərbaycan Amerika Birləşmiş Ştatları ilə möhkəm əlaqələr yaratmışdır. Bu əlaqələr hökumətin hökumətlə, biznesmenlərin biznesmenlərlə, xalqın xalqla əməkdaşlığıdır.*

*Prezident Heydər Əliyevi burada görmək bizim üçün böyük şərəfdir və onun şərhlərini səbirsizliklə gözləyirik.*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli konqresmen xanım Makkafi!

Hörmətli xanımlar və cənablar!

Hörmətli dostlar!

Mən bu gün, bu axşam sizinlə bərabər olmağımdan çox şadam və sizin hamınızı səmimi-qəlbdən salamlayıram. Sizə, hər birinizə, Amerika- Azərbaycan Ticarət Palatasına yeni-yeni uğurlar arzulayıram.

Məndən öncə burada bizim çox hörmətli dostlarımız çox dəyərli nitqlər söylədilər. Hörmətli cənab Bjezinski, hörmətli səfir Eliason, hörmətli cənab Kalitski burada çox dəyərli, əhəmiyyətli sözlər dedilər. Hesab edirəm ki, bu çıxışlar artıq sizdə Azərbaycan haqqında, bizim bölgəmiz haqqında və problemlərimiz haqqında müəyyən təsəvvürlər yaradıbdır. Ancaq mən, təbiidir ki, Azərbaycanın prezidenti kimi, çalışıram Azərbaycanı daha da yaxşı tanıdım. Əgər həqiqətən, səfir Eliasonun burada dediyi kimi, bəzi konqresmenlər Xəzəryanı ölkələrin xəritəsində hansı ölkənin harada olduğunu göstərə bilmirsə, demək, biz hələ çox iş görməliyik. Təbiidir ki, bu, burada oturanlara aid deyildir. Siz Azərbaycanı yaxşı tanıyırsınız. Ancaq mən Harvard Universitetində Xəzər hövzəsi ilə əlaqədar, Azərbaycan ilə əlaqədar yeni bir kafedranın açılmasını alqışlayıram, buna Amerika-Azərbaycan Ticarət Palatasının göstərdiyi xidmətlərə görə təşəkkür edirəm və ümidvar olduğumu bildirmək istəyirəm ki, Harvard Universitetindəki bu kafedra yaşayacaq, inkişaf edəcək və Azərbaycanı, Qafqazı, Xəzər hövzəsini Amerikaya, təkcə Amerikaya yox, dünyaya daha da çox tanıdacaqdır.

Mən bu dəfə Amerika Birləşmiş Ştatlarına işgüzar səfərə gəlmişəm və üçüncü gündür ki, Vaşinqtondayam. Bu gün Ağ evdə cənab Bill Klintonla görüşüb çox əhəmiyyətli danışıqlar aparmışıq. Bizim bu görüşümüzdə və danışıqlarımızda Ağ evdə xanım Olbrayt, Sendi Berger və Ağ evin başqa məsul şəxsləri də iştirak edirdilər. Mən sizə bildirmək istəyirəm ki, prezident Klinton ilə mənim görüşüm və apardığımız danışıqlar mənim üçün, Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edir.

Təbiidir ki, bizim müzakirə etmək üçün məsələlərimiz çoxdur. Amma biz əsasən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması məsələlərini müzakirə etdik. Xəzər dənizinin enerji ehtiyatlarından istifadə olunması, neft hasilatının təmin edilməsi, qaz hasilatının təmin edilməsi və onların dünya bazarlarına çıxarılması, xüsusən Bakı-Ceyhan neft kəmərinin tikilməsi ilə əlaqədar müzakirələr apardıq.

Azərbaycana qarşı 1992-ci ildə Konqres tərəfindən qəbul edilmiş ədalətsiz 907-ci maddənin ləğv olunması məsələsini də yenidən müzakirə etdik. Biz Amerika-Azərbaycan əlaqələrinin inkişaf etdirilməsinə aid bir çox

---

* Rəsmi qəbulda ABŞ Dövlət Departamentinin nümayəndələri, Konqres üzvləri, nüfuzlu iqtisadi və maliyyə qurumlarının rəhbərləri, ictimai-siyasi xadimlər iştirak edirdilər.

Qəbulda palatanın həmsədri Rza Vəziri, Harvard Universitetinin Azərbaycan İnstitutunun direktoru doktor Qrem Eliason, görkəmli siyasi xadim Zbiqnev Bjezinski, ABŞ hökumətinin enerji və kommersiya məsələləri üzrə müşaviri Yan Kalitski çıxış etdilər.

məsələlərə də toxunduq. Bir daha qeyd edirəm ki, mən bu görüşə çox əhəmiyyət verirəm və çox böyük ümidlər bəsləyirəm. Prezident Klinton da, mən də bu gün bəyan etdik ki, Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında səmimi dostluq əlaqələri var. Biz Azərbaycan olaraq Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizi genişləndirmək, inkişaf etdirmək istəyirik və Amerika Birləşmiş Ştatlarına çox böyük ümidlər bəsləyirik. Son illər Qafqaz regionu və Xəzər dənizi hövzəsi dünyanın bir çox ölkələrinin nəzər-diqqətini cəlb edibdir. Orada bir-birinə bənzəməyən iki proses gedir. Birincisi, Qafqazda hərbi münaqişələr mövcuddur və onlar insanları narahat edir – qan tökülür, müharibələr gedir, döyüşlər gedir, çox mürəkkəb region olan Qafqazda sabitlik pozulur. Təbiidir ki, bunlar Qafqazın böyük imkanlarından insanların həyatı üçün istifadə olunmasına maneçilik törədir. İkinci proses – Xəzər dənizinin enerji ehtiyatlarından istifadə edilməsi və dünyanın böyük ölkələrinin, böyük dövlətlərinin neft şirkətlərinin Xəzər dənizi hövzəsində neft və qaz hasilatı işləri ilə məşğul olması və hasil olunan neftin və qazın gələcəkdə dünya bazarlarına çıxarılması prosesidir.

Sizə məlumdur ki, Azərbaycan çox qədim tarixə malik olan bir ölkədir, xalqdır. 1991-ci ildə Sovetlər İttifaqının dağılması ilə əlaqədar Azərbaycan öz dövlət müstəqilliyini elan edibdir. Son əsrlərdə ilk dəfədir ki, biz səkkiz il müddətində müstəqil, azad bir dövlət, xalq kimi yaşayırıq. Xalqımızın çoxəsrlik tarixində biz bunu ən böyük nailiyyət hesab edirik. Təbii ki, biz bu nailiyyəti, yəni dövlət müstəqilliyimizi qorumaq, möhkəmləndirmək və əlimizdə möhkəm saxlamaq istəyirik. Ancaq bu səkkiz il Azərbaycanın həyatı üçün çox mürəkkəb olubdur. Bizim həyatımızı mürəkkəbləşdirən hələ 1988-ci ildə, Sovetlər İttifaqı mövcud olduğu halda, Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağ vilayəti ilə əlaqədar münaqişənin başlanması və onun indiyə qədər davam etməsindən ibarətdir.

Mən qeyd etdim ki, son illər Qafqazda gedən proseslərin biri bütün Qafqazı əhatə edən münaqişələrdir. Qafqazda ilk münaqişə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ hərbi münaqişəsi olubdur. Bu, çox ağır və çox faciəli nəticələr gətirmiş münaqişədir. Qafqazda olan sonrakı münaqişələr, demək olar ki, bəlkə də bunun təsiri altında başqa bölgələrdə meydana çıxmış münaqişələrdir. Mən bu münaqişənin tarixi haqqında çox danışa bilərəm, amma sizin vaxtınızı almaq istəmirəm. Güman edirəm ki, siz bilirsiniz. Qısaca onu deyə bilərəm ki, 1988-ci ildən 1994-cü ilə qədər Ermənistanla Azərbaycan arasında müharibə gedibdir.

O illər Ermənistana bir çox ölkələrin yardımı nəticəsində və bəzi obyektiv, subyektiv səbəblərdən Ermənistan silahlı qüvvələri Azərbaycanın torpağı olan Dağlıq Qarabağı və onun ətrafında böyük bir bölgəni işğal ediblər. İşğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla sürgün edilibdir, Azərbaycanın başqa bölgələrində ağır vəziyyətdə çadırlarda yaşayırlar. İndi Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Mənim hörmətli dostum cənab Bjezinski Azərbaycanda olarkən qaçqınlar yaşayan düşərgələrin birini ziyarət etdi. Ondan sonra mən onunla görüşəndə dediyi sözlər xatirimdədir. O dedi ki, mən dünyanın bir çox yerlərində olan qaçqınları görmüşəm – Əfqanıstanda görmüşəm, Yaxın Şərqdə görmüşəm, Afrikada görmüşəm. Bjezinski dedi ki, ancaq mən bu qədər ağır şəraitdə yaşayan qaçqınları indiyə qədər görməmişəm. Beləliklə, indi siz təsəvvür edə bilərsiniz ki, bizim xalqımızın böyük bir hissəsi nə qədər ağır şəraitdə yaşayır.

1994-cü ilin may ayında biz Ermənistanla atəşin dayandırılması haqqında saziş imzalamışıq. İndi atəş yoxdur, qan tökülmür. Amma sülh də yoxdur. Biz beş ildən artıqdır ki, məsələnin sülh yolu ilə həll olunması üçün çalışırıq. Bu məsələ ilə ATƏT və onun təşkil etdiyi Minsk qrupu məşğul olur. Minsk qrupuna dünyanın üç böyük ölkəsi – Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa rəhbərlik edir. Amma bu işlər hələ ki, münaqişənin aradan götürülməsini təmin etməyibdir.

1999-cu ildə Vaşinqtonda NATO-nun 50 illiyində olduğum zaman mən belə qərara gəldim və bunu Amerika Birləşmiş Ştatlarının Dövlət Departamenti çox arzu etdi və bu məsələdə xanım Olbrayt yardım etdi ki, Ermənistan prezidenti Koçaryanla mənim aramda bilavasitə görüşlər olsun. Görüşlər başladı. Ondan sonra biz bu görüşləri Cenevrədə davam etdirdik, Yaltada görüşdük, sonra Ermənistan-Azərbaycan sərhədində bir neçə görüş keçirdik. Prezident Koçaryan və mən eyni fikri ifadə etdik ki, məsələni sülh yolu ilə həll etmək lazımdır. Bunun üçün biz belə fikrə gəldik ki, qarşılıqlı kompromislər olunmalıdır. Biz bu kompromisləri də müəyyən qədər müzakirə etdik. Amma indiyə qədər hələ son nəticəyə gələ bilməmişik və bu münaqişə ləğv edilməyibdir. Ancaq mən nikbinəm və ümid edirəm ki, biz məsələnin sülh yolu ilə həll edilməsinə nail olacağıq.

Azərbaycanın işğal edilmiş torpaqlarında yerin üstündə nə varsa, demək olar ki, hamısı dağıdılıbdır. İnsanların yaşaması və əmək fəaliyyəti ilə məşğul olması üçün çox işlər görmək lazımdır və böyük vəsait lazımdır. Dəmir yollarını, avtomobil yollarını təmir etmək lazımdır və ümid edirik ki, sülh əldə edəndən sonra Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Birliyi, dünyanın başqa maliyyə mərkəzləri bu məsələlərin həll olunması üçün lazımi vəsait ayıracaqlar.

Mən bəyan edirəm ki, əgər biz Ermənistanla Azərbaycan arasında sülh yarada bilsək, Azərbaycanın işğal olunmuş torpaqları işğaldan azad edilsə, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsa və bir milyondan artıq insan öz yerlərinə-yurdlarına qayıtsa Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunması üçün böyük əsas yaranacaqdır.

İkinci proses, - mən dedim, - Xəzər dənizi hövzəsində gedən proseslərdir. Birincidən fərqli olaraq bu, pozitiv xarakter daşıyır və bu işlərin əsasını 1994-cü ildə məhz Azərbaycan qoyubdur. Azərbaycan Xəzər dənizindəki öz sektorunda olan zəngin neft və qaz yataqlarının istifadə edilməsi üçün dünyanın böyük neft şirkətləri ilə əlaqələr yaradıbdır, müqavilələr imzalayıbdır.

1994-cü ildə biz ilk müqaviləni imzaladıq. Amerika şirkətləri, Avropa şirkətləri, yeddi ölkəni təmsil edən 11 neft şirkəti, onların içərisində amerika şirkətləri «AMOKO», «Pennzoyl», «Yunokal», «Eksson» və başqaları, eləcə də «Bi-Pi», «Statoyl», Rusiya şirkəti «LUKoyl» – bu şirkətlər toplaşıb bir konsorsium yaratdılar və Azərbaycan Dövlət Neft Şirkəti ilə müqavilə imzaladılar. Amma o müqaviləni imzalamaq asan deyildi, buna çox güclü maneçiliklər var idi. Müqavilə imzalanandan sonra da onun əleyhinə çox işlər aparılırdı. Ancaq biz birlikdə bunların qarşısını ala bildik.

Burada cənab Bjezinski dedi, neftin ixracı üçün bir neft kəməri - Bakı-Novorossiysk kəməri, yəni Rusiyanın Qara dənizdə olan limanına çatan neft kəməri tikdik və təbiidir ki, özümüzü tamamilə təmin etmək üçün Bakı-Supsa, Gürcüstanın Qara dənizdəki Supsa limanına ikinci neft kəmərini tikdik.

1997-ci ilin noyabr ayında həmin birinci konsorsium neftin hasilatına başladı, onun ixracına başladı. İndiyə qədər səkkiz milyon tondan çox neft hasil olunub və ixrac edilibdir.

Bundan sonra Xəzər dənizinə maraq artdı. Amerika şirkətləri, Avropa və başqa ölkələrin şirkətləri Azərbaycana gəlib birgə işləməyə başladılar. Ötən beş ildə yeni müqavilələr imzalandı. İndi artıq 19 müqavilə imzalanıbdır. Bu müqavilələrdə 30 böyük neft şirkəti iştirak edir. Həmin şirkətlər 15 ölkəni təmsil edirlər. Bu müqavilələr əsasında qoyulacaq investisiyanın məbləği təxminən 60 milyard dollardır. Bunlar 30 illiyə bağlanıbdır və ilkin hesablamalara görə 4,5 milyard ton neft hasil edilməlidir. Ancaq bizim iş təcrübəmiz göstərir ki, bundan xeyli çox olacaqdır.

Amerika Birləşmiş Ştatlarının 10 böyük neft şirkəti Azərbaycanda çalışır. Sonuncu «Konoko» şirkəti də bu yaxınlarda Azərbaycanda böyük bir yataqda «Eksson» ilə bərabər yer aldı. Bu müqavilələrin icrası üçün təxminən üç milyard dollar sərmayə qoyulubdur. Bunun 50 faizindən çoxu Amerika Birləşmiş Ştatlarının şirkətlərinə məxsusdur. Ümumən, indi Azərbaycanda Amerika Birləşmiş Ştatlarının yüzdən yuxarı müxtəlif şirkətləri fəaliyyət göstərir.

Beləliklə, Azərbaycan Xəzər dənizini dünyaya açdı, Xəzər dənizinin zəngin yataqlarından istifadə edilməsi üçün əməli işlər gördü. İndi Xəzər dənizinin başqa sektorlarında da - Qazaxıstan sektorunda da, Türkmənistan sektorunda da, Rusiya sektorunda da artıq bu işlər görülür. Təbiidir ki, bu qədər miqdarda nefti ixrac etmək üçün iki neft kəməri yetərli deyil. Ona görə də biz beş ildir ki, Bakı-Ceyhan neft kəmərini çəkmək üçün səylər – göstəririk və nəticədə keçən ilin noyabr ayında İstanbulda ATƏT-in zirvə görüşü zamanı biz Bakı-Ceyhan neft kəmərinin tikilməsi haqqında saziş imzaladıq. Bu sazişi Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan imzaladılar. Qazaxıstan da öz ərazisində hasil olunacaq neftin bir hissəsini Bakı–Ceyhan neft kəməri ilə ixrac etmək istəyir. Həmin sazişi Amerikanın prezidenti cənab Bill Klinton da imzaladı.

Bu, beş il müddətində görülən işlərdir. Amma Xəzər dənizinin imkanları böyükdür. Xəzər dənizinin Azərbaycan sektorunda müəyyən olunmuş təxminən 120–130 neft və qaz yatağı vardır.

Mən bu gün deməliyəm ki, əgər Amerika Birləşmiş Ştatlarının və şəxsən prezident Bill Klintonun 1994-cü ildən indiyə qədər dəstəyi və yardımı olmasaydı, biz bu müqavilələri nə imzalaya bilərdik, nə həyata keçirə bilərdik, nə də Bakı-Ceyhan neft kəməri haqqında sazişi imzalaya bilərdik.

Bəlkə də bir on-on beş il bundan öncə Amerika Birləşmiş Ştatlarında heç kəs təsəvvür edə bilməzdi ki, Xəzər dənizində bu qədər imkanlar var və Amerika Birləşmiş Ştatlarının böyük neft şirkətləri böyük həvəslə gedib orada işə başlayacaqlar. Amma bu gün bu reallıqdır və böyük gələcəyi olan reallıqdır. Beləliklə, biz Amerika Birləşmiş Ştatlarını Xəzər dənizi regionuna gətirdik, Qafqaza gətirdik. Bunlarla bərabər, çoxsaylı Avropa ölkələrinin şirkətlərini də Xəzər dənizinə, Qafqaza gətirdik. Hesab edirəm ki, bu, bizim üçün də çox əhəmiyyətlidir, qiymətlidir və Amerika Birləşmiş Ştatları üçün də Qafqaz, Asiya bölgəsində fəaliyyət göstərmək və burada olmaq çox əhəmiyyətlidir. Ancaq biz Xəzər dənizində neftlə bərabər, böyük qaz hasilatı imkanı da əldə edirik.

1996-cı ildə biz «Şahdəniz» neft yatağına dair bir müqavilə imzaladıq. O konsorsiuma «Bi-Pi» başçılıq edir. Son bir il içərisində aparılan qazma işləri nəticəsində onlar artıq bu gün bəyan ediblər ki, orada bir trilyon kubmetrdən artıq qaz ehtiyatı vardır. Bir trilyon kubmetr qaz! Amma hesab edirəm, bundan da çoxdur.

Bu gün burada «Bi-Pi»nin nümayəndəsi mənə yanaşdı və bildirdi ki, bu, «Bi-Pi»nin tarixində – onlar birinci dəfə böyük qaz yatağını Alyaskada kəşf ediblər – ondan sonra dünyada ikinci böyük qaz yatağıdır. Amma Amerikanın «Şevron» şirkəti də geri qalmır. «Şahdəniz» yatağının yanında «Abşeron» yatağı var. Biz 1997-ci ildə burada, Ağ evdə «Şevron» və başqa şirkətlərin «Abşeron» yatağında müştərək işləməsi haqqında müqavilə imzaladıq.

Mən Davosda olarkən «Şevron»un prezidenti cənab Maks ilə görüşdüm, onun nümayəndəsini də burada görürəm. O mənə dedi ki, bu yaxınlarda biz sizi sevindirəcəyik. Aparılan geofiziki kəşfiyyat işləri göstərir ki, «Abşeron» yatağında üç trilyon kubmetrdən artıq qaz gözlənilir. Güman edirəm, bu da işin sonu deyil. Biz hələ gələcəkdə belə çox böyük möcüzələrin şahidi olacağıq.

Beləliklə, Azərbaycan müstəqillik əldə edəndən sonra zəngin təbii sərvətlərindən dünyanın böyük neft şirkətləri ilə birgə istifadə olunmasına başlayıbdır. Bunlar hamısı Azərbaycanı Amerika Birləşmiş Ştatları ilə, Qərb ilə, Avropa ölkələri ilə sıx əməkdaşlıq etməyə sövq edir və daim belə olacaqdır. Əgər biz dövlət müstəqilliyi əldə etməsəydik, indi bunların heç birini edə bilməzdik. Buna görə də dövlət müstəqilliyi bizim üçün, dediyim kimi, ən böyük nailiyyətdir.

Azərbaycanda səkkiz milyon əhali yaşayır. Biz Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi həyata keçiririk. Biz çoxsaylı iqtisadi, sosial, siyasi islahatlar həyata keçiririk. Özəlləşdirmə proqramını həyata keçiririk, torpaq islahatı həyata keçiririk və torpağın hamısını kəndlilərə şəxsi mülkiyyətə vermişik. Ölkəyə xarici investisiyanın gəlməsi üçün şərait yaratmışıq. Azərbaycana beş ildə 5 milyard dollar miqdarında xarici investisiya gəlibdir. Əgər əvvəlki illərdə bu investisiyanın çox hissəsi neft və qaz sektoruna gəlirdisə, 1999-cu ildə təxminən 60 faiz qeyri-neft sektoruna, 40 faiz neft sektoruna gəlibdir.

Biz Azərbaycanda bazar iqtisadiyyatı yolu ilə gedirik və bunlar hamısı böyük makroiqtisadi dəyişikliklərlə nəticələnibdir. Biz bunların nəticəsində 1995-ci ildə iqtisadiyyatda sabitlik yaratdıq. O vaxta qədər bizdə iqtisadiyyat inkişaf etmirdi, ilbəil təxminən 20 faiz tənəzzül edirdi. 1996-cı ildə biz inkişafa başladıq və indi hər il bizdə iqtisadiyyat inkişaf edir. 1999-cu ildə ümumi daxili məhsul yeddi faiz, sənaye istehsalı üç faiz, kənd təsərrüfatı istehsalı yeddi faiz artıbdır. Bütün başqa sahələrdə də inkişaf vardır.

1994-1995-ci illərdə bizdə inflyasiya ildə 1400–1600 faiz idi. 1997-ci ildən bizdə inflyasiya yoxdur. Bu gün o, sıfır dərəcəsindədir. Açıq iqtisadi siyasət aparırıq. Azərbaycanın milli valyutası bütün valyutalara dəyişilə bilir. Beynəlxalq Valyuta Fondu ilə, Dünya Bankı ilə bu məsələlər üzrə çox sıx əməkdaşlıq edirik və onlardan çox yardımlar alırıq. Bunlar hamısı bizim nailiyyətlərimizdir. Amma nöqsanlarımız da çoxdur, çatışmazlıqlarımız da çoxdur.

Nailiyyətləri əldə etmək üçün ölkədə ictimai-siyasi sabitlik yaratmaq lazım idi. Bu, bizim üçün asan deyildi. Çünki Ermənistan–Azərbaycan münaqişəsi başlayandan Azərbaycanın daxilində də ictimai-siyasi sabitlik pozulmuşdu. Müxtəlif qanunsuz silahlı dəstələr bir-biri ilə hakimiyyət uğrunda mübarizə aparırdılar.

1993-cü ildə Azərbaycanda Vətəndaş müharibəsi başlamışdı. Biz 1995-ci ildən başlayaraq Azərbaycanda daxili ictimai-siyasi sabitliyi təmin edə bildik. Hər bir ölkəyə xarici investisiyanın gəlməsi üçün birinci növbədə ictimai-siyasi sabitlik lazımdır. Bu, Azərbaycanda təmin olunubdur. Deyə bilərəm ki, Müstəqil Dövlətlər Birliyinə daxil olan ölkələr içərisində ən möhkəm daxili sabitlik Azərbaycandadır. Ancaq xarici investisiyanın gəlməsi üçün, təbiidir ki, zəruri qanunlar da lazımdır. Biz bu qanunları qəbul etmişik.

Biz son vaxtlarda çox mütərəqqi vergi qanunu qəbul etmişik. Ölkəmizdə gömrük rüsumları çox aşağıdır. Ancaq xarici investisiyanın Azərbaycana gəlməsi üçün maneçilik törədənlər də vardır. İcra orqanlarında bürokratizm, yaxud da ki, ayrı-ayrı şəxslərin vəzifəsindən sui-istifadə etməsi və başqa qanun pozuntuları mövcuddur. Başqa ölkələrdə olduğu kimi, bizdə də korrupsiya var. Amma əsas odur ki, biz bunların hamısı ilə kəskin mübarizə aparırıq. Bir çox vacib qanunlar qəbul etmişik. Mən prezident kimi, bu barədə bir çox fərmanlar vermişəm. Əsas odur ki, biz əməli iş görürük.

Bu günlərdə Azərbaycanda xarici şirkətlərin lisenziya alması üçün və investisiyaların hansı sahəyə yönəldilməsi üçün mərkəzləşmiş bir agentlik yaranacaqdır. Böyük neft şirkətlərinin Azərbaycanda normal işləməsi üçün heç bir maneçilik yoxdur. Biz burada rahatıq. Amma müxtəlif kiçik, orta şirkətlərin gəlib Azərbaycanda işləməsi üçün bəzi maneçiliklər var və biz də bunu bilirik. Amma onların aradan qaldırılması üçün çox ciddi tədbirlər görürük. Beləliklə, mən Amerika Birləşmiş Ştatlarının həm orta, həm kiçik şirkətlərini də Azərbaycana dəvət edirəm və əmin edirəm ki, onların gəlib səmərəli işləməsi üçün, gəlir götürməsi üçün lazımi imkanlar yaradılacaqdır.

Sizə deyəsi sözüm çoxdur, ancaq vaxt gecdir. Buna görə də hesab edirəm ki, verdiyim bu məlumatlar sizdə Azərbaycan haqqında geniş təsəvvür yaranmasına imkan verəcəkdir. Mənim dediyim bütün bu sözlər onu göstərir ki, Azərbaycan Amerika Birləşmiş Ştatları ilə bütün sahələrdə əməkdaşlıq edir və bundan sonra daha da geniş əməkdaşlıq etmək istəyir. Amerika Birləşmiş Ştatları bizim dostumuzdur və biz bu dostluq əlaqələrini inkişaf etdirəcəyik.

Burada cənab Bjezinski Qafqazda ölkələrin müstəqilliyi haqqında çox dəyərli sözlər dedi. Bu həqiqətdir ki, bizim kimi ölkələrin müstəqilliyini saxlamaq üçün hələ çox işlər görmək lazımdır. Amma mən sizi əmin edirəm ki, müxtəlif tərəflərdən bizə edilən təzyiqlərə baxmayaraq, Azərbaycan xalqı, Azərbaycan prezidenti dövlət müstəqilliyini qoruyub saxlamaq əzmindədir və biz bu müstəqilliyimizi heç vaxt əldən verməzik. İnanıram ki, Amerika Birləşmiş Ştatları Azərbaycanı özünün etibarlı tərəfdaşı hesab edərək bizə bütün sahələrdə bundan sonra da yardım edəcəkdir.

Sizin ölkəniz dünyanın ən böyük və eyni zamanda iqtisadi cəhətdən ən inkişaf etmiş ölkəsidir. Sizin ölkəniz demokratik ölkədir və demokratik dəyərləri, insan haqları dəyərlərini siz çox üstün tutursunuz. Biz də öz ölkəmizdə bu yol ilə gedirik. Amma sizin səviyyənizə çatmaq üçün bizə zaman lazımdır. Əsas ondan ibarətdir ki, biz bu yolu tutmuşuq və bu yoldan da dönməyəcəyik. Siz bu səviyyəyə 200 il ərzində çatmısınız. Amma biz 200 il gözləyə bilmərik. Biz gərək daha qısa bir zamanda yüksək demokratik dövlət səviyyəsinə qalxaq, iqtisadi

cəhətdən inkişaf etmiş dövlət səviyyəsinə qalxaq, bütün vətəndaşlarımız üçün lazımi həyat tərzi yaradaq. Biz bu məqsədlərə nail olacağıq.

Mən Amerika–Azərbaycan dostluğunu çox yüksək qiymətləndirirəm. Bu gün bizim burada toplaşmağımız Amerika-Azərbaycan dostluğunun çox gözəl təzahürüdür. Mən arzu edirəm ki, bu dostluq daim inkişaf etsin.

Mən də bir sağlıq demək istəyirəm. Çünki məndən qabaq çıxış edənlər deyiblər. Mən Amerika xalqının şərəfinə, Amerika Birləşmiş Ştatlarının şərəfinə, Amerika dövlətinin şərəfinə, Amerika–Azərbaycan dostluğunun və etibarlı tərəfdaşlığının şərəfinə, Amerika Birləşmiş Ştatlarının prezidenti Bill Klintonun şərəfinə, əziz dostlar, sizin şərəfinizə, gələcək işlərimizin şərəfinə bu badəni qaldırmağı rica edirəm.

Çox sağ olun.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ KEÇMİŞ DÖVLƏT KATİBİ, TANINMIŞ İCTİMAİ-SİYASİ XADİM LOURENS İQLBERGER İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Vaşinqton*

*16 fevral 2000-ci il*

**Heydər Əliyev:** Cənab İqlberger, sizi səmimi-qəlbdən salamlayır və sizinlə görüşümdən məmnun qaldığımı bildirirəm.

**Lourens İqlberger:** Əziz dostum, Sizin səhhətinizin yaxşı olduğunu görməkdən hədsiz sevinc hissi keçirirəm. Sizinlə görüşümdən şərəf duyuram, müstəqil Azərbaycanın gələcəyi naminə Sizə möhkəm cansağlığı arzulayıram.

Cənab prezident, Siz gündən-günə yaxşı görünürsünüz. Prezident Bill Klintonla görüşünüz necə keçdi?

**Heydər Əliyev**: Siz də yaxşı görünürsünüz. Cənab Bill Klintonla görüşüm çox yaxşı keçdi. Mən çox məmnunam ki, həmin görüşdə xanım Madlen Olbrayt, cənab Sendi Berger, cənab Sestanoviç və başqaları da iştirak edirdilər. Biz əsas məsələləri ətraflı müzakirə etdik. Görək, nəticə necə olacaqdır.

**Lourens İqlberger**: Siz Vaşinqtonda olduğunuz müddətdə bir sıra neft şirkətləri yaxşı elanlarla çıxış etdilər.

**Heydər Əliyev**: Bəli, doğru deyirsiniz, Amerika şirkətləri yaxşı elanlarla çıxış etdilər. Biz Amerikanın «Konoko» şirkətinə Azərbaycanda geniş yer vermişik. «Bi-Pi/ AMOKO» şirkəti mətbuat üçün geniş bir məlumat yaydı ki, Azərbaycanda yeni böyük qaz yataqları aşkar ediblər. Biz bunu bilirdik, amma onlar bu sahədə işləyib belə böyük yatağın olduğunu təsdiqləyiblər, Azərbaycandan Türkiyəyə qaz ixrac etmək imkanı qazanıblar.

İndi Azərbaycan, Xəzər dənizi dünyanın çox böyük diqqətini cəlb edir. Biz bu sahədə gözəl nailiyyətlər əldə etmişik, amma bəzi mətbuat orqanları, mərkəzlər müəyyən cəhdlər göstərirlər ki, guya bu, belə deyildir.

Mən bu gün Moskvada çıxan «Rossiyskaya qazeta»nı oxudum. Orada böyük bir material veriblər və sübut etmək istəyirlər ki, Xəzər dənizində o qədər də neft ehtiyatları yoxdur. Amma iş kimin nə yazmasında deyildir. Xəzərin Azərbaycan sektorunda böyük neft ehtiyatlarının olduğu realdır.

**Lourens İqlberger:** Cənab prezident, Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsinə dünyanın aparıcı neft şirkətlərinin cəlb olunmasında şəxsən Sizin xidmətləriniz çox böyükdür, buna görə Sizi alqışlamaq lazımdır. Siz olmasaydınız bu işlərin çoxu baş tutmayacaqdı. Mənə belə gəlir ki, bu işlərin uğurunu Sizin şəxsi uğurunuz kimi qiymətləndirmək lazımdır. Mən əminəm ki, bağlanmış müqavilələr sürətlə həyata keçiriləcəkdir, bu da öz-özlüyündə Azərbaycan hökumətinin çox böyük gəlirlər əldə etməsinə gətirib çıxaracaqdır.

Bildiyiniz kimi, mən respublikaçıyam. İstərdim ki, senator Makkeyn qalib gəlsin. Amma Cənubi Karolina ştatında onun dünənki məğlubiyyəti işləri çox pisləşdirdi. Qubernator Buş bu işdə sanki hər zaman irəlidə idi. Dünənki seçki onu göstərir ki, qubernator Buş, deyəsən, Respublikaçılar Partiyasından prezidentliyə namizəd olacaqdır. Amma hər halda, mən senator Makkeyn üçün çalışmağımı davam etdirəcəyəm.

Cənab prezident, istəyirəm Sizə məlumat verim, - qarşıdan gələn noyabr ayında Respublikaçılar Partiyasının nümayəndəsi Ağ evdə prezident olacaqdır. Gərək Siz burada yeni Amerika prezidenti ilə dostluğa başlayasınız.

**Heydər Əliyev:** Mənim burada sizin kimi dostum vardır.

**Lourens İqlberger:** Doğrudur. Siz vitse-prezident Albert Qoru yaxşı tanıyırsınız. Əgər o qalib gəlsə, onda problem olmayacaqdır. Mən söz və təminat verirəm ki, əgər Amerikanın növbəti prezidenti respublikaçı seçilsə, o, Azərbaycanın və prezident Heydər Əliyevin dostu olacaqdır.

**Heydər Əliyev:** Çox sağ olun.

**Lourens İqlberger:** Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında münasibətlər elə bir səviyyəyə çatıbdır ki, Amerikada hansı partiyanın nümayəndəsinin prezident seçilməsindən asılı olmayaraq, biz belə hesab edirik ki, - yəqin siz də mənim bu fikrimə şəriksiniz – ölkələrimizin münasibətləri hər iki tərəf üçün çox böyük əhəmiyyət daşıyır.

Hansı partiyanın qalib gəlməsindən asılı olmayaraq bizim burada görəcəyimiz işlər hələ çoxdur. Birincisi, Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında tamamilə açıq münasibətlər yaradılmasına qoyulmuş məhdudiyyətlər aradan qaldırılmalıdır. Hansı prezident olmasından asılı olmayaraq, bu, baş verəcəkdir.

İkincisi – ölkələrimiz arasında siyasi və iqtisadi əlaqələrin daha da genişləndirilməsi məsələsidir. Neft şirkətləri barədə Sizin indi mənə söylədikləriniz bu işə mütləq yardım göstərəcəkdir. Biz Sizə kömək etməliyik ki, qaçqınların problemi tamamilə həll olunsun. Bu məsələ də Amerikada hansı partiyanın nümayəndəsinin prezident seçilməsindən asılı deyildir. Ümumiyyətlə, hesab edirəm ki, ölkələrimiz arasındakı münasibətlər indi yaxşıdır, gələn il isə daha da yaxşı olacaqdır. Əgər Amerikada prezident respublikaçı olsa, mən Sizə təminat verirəm ki, bu münasibətlər indikindən daha yaxşı olacaqdır.

**H e y d ə r  Ə l i y e v**: Əziz dostum, çox sağ olun. Mən sizin fikirlərinizlə tamamilə razıyam. Çünki son 5-6 ildə Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında çox geniş əlaqələr yaranıbdır. Amerika Birləşmiş Ştatlarının hökuməti Qafqaz, Xəzər dənizi hövzəsi, Cənubi Qafqaz problemi ilə məşğul olaraq burada Azərbaycanın tutduğu yerin, oynadığı rolun nədən ibarət olduğunu yaxşı dərk edir.

Amerikanın neft şirkətləri ilə imzaladığımız müqavilələrin müddəti 30-40 ildir. Bəzi şirkətlər əvvəlki illərdə Azərbaycanda yaranmış sabitliyin daimi olub-olmayacağından narahat idilər. Düşünürdülər ki, Azərbaycanda hakimiyyət dəyişikliyi onların gördüyü işə zərər vura bilərmi? Biz gördüyümüz işlərlə onları inandırdıq. İndi şübhə edən yoxdur ki, Azərbaycanda sabitlik daimi olacaqdır və şirkətlər səmərəli işləyəcəklər.

Təbiidir ki, biz də Amerika Birləşmiş Ştatlarında siyasətin sabitliyini istəyirik. Dediyiniz kimi, indi ölkələrimiz arasında elə əlaqələr qurulmuşdur ki, Ağ evdə respublikaçının, yaxud demokratın prezident olması Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında yaranmış əlaqələri poza bilməz, bu əməkdaşlıq inkişaf etdirilməlidir.

**L o u r e n s  İ q l b e r g e r:** Cənab prezident, doğru deyirsiniz. Təkcə bu münasibətlər yox, həmçinin hər iki ölkənin maraqları da böyük əhəmiyyət daşıyır. Çox gərgin bir regionda yerləşən Azərbaycanın müstəqilliyi də bu məsələlərin bir hissəsidir.

**H e y d ə r  Ə l i y e v:** Bəli, doğrudur. Biz Amerika Birləşmiş Ştatlarına çox etibar edirik ki, əgər Azərbaycanın müstəqilliyinə hər hansı bir təcavüz olunarsa, Amerika gərək ölkəmizin arxasında dayansın.

Siz mənim dostumsunuz, mən arzu edirəm ki, siz istədiyiniz olsun, amma axırda fərqi yoxdur.

**L o u r e n s  İ q l b e r g e r:** Doğru deyirsiniz, ölkələrimiz arasındakı münasibətlər baxımından bunun heç bir fərqi yoxdur.

Cənab prezident, bir məsələni də demək istəyirəm. Hesab edirəm ki, Amerika Birləşmiş Ştatları gərək bu məsələdə səylərini daha da artırsın. Bu da boru kəməri məsələsidir. Bu boru kəməri məsələsinin həll olunması üçün biz gərək mütləq əlavə səylər qoyaq.

Bir halda ki, bu boru kəmərinin haraya çəkilməsi barədə fikrimizi artıq müəyyənləşdirmişik və istəyiriksə bu boru kəməri məhz həmin istiqamətdə çəkilsin, - səmimi söyləyirəm, - gərək biz bunun pulunu ödəyək. Biz bunu maliyyələşdirməliyik. Bu, mənim şəxsi fikrimdir. Amerikanın gələcək hökumətinin bu fikri bölüşüb-bölüşməyəcəyi barədə hələlik bir söz deyə bilmərəm. Lakin şəxsən mən hesab edirəm ki, biz bu boru kəmərinin maliyyələşdirilməsinə ciddi surətdə qoşulmalıyıq.

**H e y d ə r  Ə l i y e v**: Siz tamamilə doğru deyirsiniz. Bu, əsas məsələlərdən biridir. Əgər lazımi maliyyələşdirmə olmasa, ötən beş ildə bizim apardığımız mübarizə nəticəsiz qalacaqdır.

**L o u r e n s  İ q l b e r g e r:** Mən ona görə deyirəm ki, bir halda Amerika Birləşmiş Ştatları bu boru kəməri barədə fikirlərini müəyyənləşdiribsə, gərək həmin kəmərin çəkilməsi xərcinin azaldılmasında yardımçı olsun.

Cənab prezident, bu işgüzar səfəriniz zamanı həmin məsələlərin həllində Amerikanın sizə yardımı barədə bir problemlə qarşılaşmadınız ki?

**H e y d ə r  Ə l i y e v:** Yox, mən bu işgüzar səfərimdə qarşıya qoyduğum məsələləri həll etdim. Amma sizin dəstəyinizə bizim həmişə ehtiyacımız vardır. Amerika bizim strateji dostumuzdur. Ona görə də bu dostluq müvəqqəti xarakter daşımır, müəyyən bir zaman çərçivəsində deyil.

Cənab İqlberger, mən ümid edirəm ki, seçkilərdən sonra siz Azərbaycana səfərə gələrsiniz. Mən sizi ölkəmizə dəvət edirəm.

**L o u r e n s  İ q l b e r g e r**: Mən məmnuniyyətlə Azərbaycana gəlmək istəyərdim. Axırıncı dəfə mən Azərbaycanda çox qısa bir müddətdə oldum.

**H e y d ə r  Ə l i y e v:** Bəli, o vaxt səfəriniz çox qısa oldu. Amma bu dəfə xanımınızı da gətirin, Azərbaycanla daha da yaxından tanış olun. Mən sizi dəvət edirəm.

**L o u r e n s  İ q l b e r g e r:** Cənab prezident, mən Sizin ölkəni birinci dəfə ziyarət edəndə qaçqın düşərgələrində oldum. Soruşmaq istəyirəm ki, onların doğma yerlərinə qayıtması məsələsinin həllində bir irəliləyiş varmı?

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz ki, son vaxtlar, yəni ötən ilin aprel ayında Vaşinqtonda NATO-nun 50 illik yubileyində iştirak edərkən mən Ermənistan prezidenti Robert Koçaryanla bilavasitə görüşlərə başladım. Biz sonra bir neçə görüş keçirdik. Hər iki tərəf belə fikrə gəldi ki, bu məsələni həll etmək üçün qarşılıqlı kompromislərə getmək lazımdır. Biz bu kompromisləri araşdırdıq. Ancaq bilirsiniz ki, ötən ilin oktyabr ayında Ermənistanın parlamentində böyük bir terror hadisəsi oldu. Ondan sonra vəziyyət bir qədər dəyişdi. Amma bu məsələ sülh danışıqları prosesini dayandırmayıbdır.

Biz həm də Minsk qrupu həmsədrlərinin apardığı işə böyük ümid bəsləyirik. Ötən ilin noyabrında ATƏT-in İstanbul zirvə görüşündə mən Amerika prezidenti Bill Klintonla, Fransa prezidenti Jak Şirakla bu barədə çox ətraflı danışdım. Sonra mən Moskvada olarkən Rusiya prezidentinin səlahiyyətlərini icra edən Putinlə də danışıqlar apardım. Bilirsiniz ki, bu üç ölkə Minsk qrupunun həmsədrləridir. Prezident Robert Koçaryan da belə görüşlər keçirdi. Ona görə də mən ümid edirəm ki, prezident Robert Koçaryanla mənim görüşlərim bundan sonra da davam edəcəkdir və Minsk qrupu da öz işini görəcəkdir. Biz bunların hamısını birləşdirməliyik.

Mən demişəm, bu gün bir daha bildirirəm ki, bu münaqişəni yalnız sülh yolu ilə həll etmək mümkündür. Bunun üçün də imkanlar görünür. Mən prezident Bill Klintonla Ağ evdə keçirdiyim görüşdə bu barədə ətraflı danışdım.

Bu münaqişənin sülh yolu ilə həll olunması üçün prezident Heydər Əliyevin gördüyü işləri yüksək dəyərləndirən cənab **L o u r e n s  İ q l b e r g e r** dedi:

Bilirəm ki, siz bu məsələnin həll olunması üçün gecə-gündüz çalışırsınız, çoxlu səylər qoyursunuz. Biz də ümid bəsləyirik ki, Sizin keçirdiyiniz görüşlər, apardığınız danışıqlar uğurla başa çatacaqdır. Çünki məzlum insanların - qaçqınların öz yerlərinə-yurdlarına qayıtması çox vacibdir, lazımdır.

**H e y d ə r  Ə l i y e v:** Bəli, biz bu işlərdə də sizə, Amerikaya arxalanırıq. *

* Söhbət zamanı Azərbaycan–Amerika strateji tərəfdaşlığının daha da möhkəmləndirilməsi, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasından ötrü ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların gedişi, ölkəmizi Amerikanın dövlət yardımından məhrum edən ədalətsiz 907-ci düzəlişin ləğv olunması, Bakı-Ceyhan əsas ixrac neft boru kəmərinin və Transxəzər qaz kəmərinin çəkilişinin reallaşdırılması, regionda vəziyyət və digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparıldı.

## TÜRKİYƏNİN AMERİKA BİRLƏŞMİŞ ŞTATLARINDAKI SƏFİRİ BAKİ İLKİNLƏ GÖRÜŞDƏKİ SÖHBƏT

*Vaşinqton*

*16 fevral 2000-ci il*

**B a k i İ l k i n:** Cənab prezident, Sizinlə, Azərbaycan dövlətinin başçısı, dünyanın tanınmış siyasətçisi Heydər Əliyev ilə görüşü özüm üçün böyük şərəf saydığımı vurğulayıram. Türkiyənin dövlət və hökumət rəhbərlərinin səmimi arzularını və qardaşlıq salamlarını Sizə yetirirəm.

**H e y d ə r Ə l i y e v:** Yəqin ki, siz bizim buradakı görüşümüzü xatırlayırsınız.

**B a k i İ l k i n**: O gün Sizin üçün uzun bir gün idi. Çünki bütün günü - səhərdən axşama, gecə yarıya qədər görüşləriniz, danışıqlarınız vardı. Mən də, bütün Ankara da Sizin səhhətinizi izləyirik. Elə bir ciddi şey olmadığını bilirəm.

**H e y d ə r Ə l i y e v:** Hopkins Universitetinin klinikasında baxdılar və bildirdilər ki, katarakt var, onu götürmək lazımdır.

**B a k i İ l k i n:** Bizim sayın cümhur başkanı da o göz klinikasına gəlmişdi. Çox yaxşı bir yerdir.

**H e y d ə r Ə l i y e v:** Bilirəm, mənə söyləmişdi.

**B a k i İ l k i n:** Hörmətli prezidentim, mənim sayın cümhur başkanım Süleyman Dəmirəl, məclis başkanımız sayın Akbulut, baş bakanımız sayın Ecevit və xarici işlər nazirimiz sayın Cəm Sizə «keçmiş olsun» deyirlər. Məni qəbul etdiyiniz üçün təşəkkürümü bildirirəm. Onların məktublarını sizə təqdim etmək istəyirəm. Sizin sağlığınız, səhhətinizin yaxşı olması bizim sağlığımızdır, - desəm, bu, çox bəsit səslənər. Amma Sizi sonuncu dəfə gördüyümdən daha da yaxşısınız. O vaxt Sizi Klivlenddə görmüşdüm, cərrahiyyə əməliyyatından sonra idi. İndi isə, maşallah, sizi çox yaxşı gördüm. İnşallah, Azərbaycan Sizdən neçə-neçə illər xidmət gözləyir.

**H e y d ə r Ə l i y e v:** Hörmətli dostum, qardaşım Süleyman Dəmirəl mənə həmişə dostluq qayğısı göstərir. Mən Klivlenddə olanda da o mənə tez-tez telefon edirdi, danışırdıq, görüşürdük. Siz oraya xüsusi olaraq gəldiniz, məni ziyarət etdiniz. Mən buraya gələndə də onunla danışmışdıq, söhbət etmişdik. Çünki mən burada prezident Bill Klintonla, başqa adamlarla görüşlərimdə çox məsələləri müzakirə edirəm. Bu barədə də hörmətli cümhur başkanı Süleyman Dəmirəllə söhbətlərimiz olmuşdur.

Mən burada Klintonla görüşəndən sonra telefon etdim, xüsusən Bakı-Ceyhan boru xətti barədə danışdıq. Çünki burada çox tələsdirirlər, istəyirlər ki, bu iş tez getsin. Biz də istəyirik, Türkiyə də istəyir. Amma gürcülər bəzi problemlər yaradıblar. İndi bizim nümayəndə heyətləri – Türkiyədən, Gürcüstandan gəlmiş və Azərbaycanın nümayəndə heyətləri bunları Bakıda müzakirə ediblər və həll olunacaqdır.

Başqa çox məsələlər də var. Türkiyə ilə Azərbaycan arasında olan dostluq, qardaşlıq əlaqələri və şəxsən mənimlə hörmətli cümhur başkanı Süleyman Dəmirəl arasındakı dostluq, qardaşlıq əlaqələri onu tələb edir ki, biz həmişə əlaqə saxlayaq, məsləhətləşək.

Çox məmnunam ki, bu gün siz gəlmisiniz və məni ziyarət edirsiniz, həm də mənim dostlarımdan mesajlar gətirmisiniz. Sizə çox təşəkkür edirəm. Bilirəm ki, burada bizim səfirliklə də sıx əməkdaşlıq edirsiniz. Bu da təbiidir. Çünki hər bir ölkədə bizim elçiliyimizin, səfirliyimizin bir nömrəli dostu Türkiyənin elçisidir. Burada gördüyünüz işlərə görə də təşəkkürümü bildirirəm.

Azərbaycan müstəqillik, istiqlaliyyət əldə edəndən sonra heç bir yerdə elçiliyi yox idi. Elçilikləri yaradanda Türkiyə elçiliklərinin yardımı ilə – burada, Vaşinqtonda da, başqa yerlərdə də belə idi – işləyirdilər. Bu, artıq keçən dövrdür. Amma indi də gərək dost dostla görüşsün, məsləhətləşsin, danışsın. Bizim elçinin də belə təlimatı var ki, daim sizinlə əlaqədə olsun.

**B a k i İ l k i n:** Eyni təlimat məndə də var. Sizin hörmətli elçi mükəmməl iş görür. Çox yaxın əlaqədəyik. Azərbaycanı da ən gözəl şəkildə təmsil edir. Mən də zaman-zaman onunla məsləhətləşirəm.

Hörmətli prezident, siz buraya Azərbaycanın ehtiyaclarını, çətinliklərini, uğurlarını anlatmaq mənasında çox vacib bir vaxtda gəldiniz və zənnimcə, çox da faydalı görüşləriniz oldu, çox işlər gördünüz. İndi Azərbaycanı əvvəlkindən daha yaxşı tanıyırlar və Azərbaycanın əhəmiyyəti də başa düşülür. Doğrudur, səfirlər də müəyyən işlər görürlər, lakin prezidentlər, baş nazirlər səfər edəndə ölkəni daha yaxşı tanıdırlar.

Bu baxımdan Sizi burada görməkdən mən özüm də çox məmnunam. Türkiyənin böyük elçiliyi Azərbaycan böyük elçiliyinə qardaşdır və öz adımdan deyirəm ki, nə etmək lazımdırsa, hər zaman buna hazırıq. Hörmətli prezident deyəndə ilk öncə üç kişini düşünürəm: Süleyman Dəmirəl, Siz və sayın Rauf Denktaş.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun, təşəkkür edirəm. Burada prezident Klinton ilə çox dəyərli danışığımız, söhbətlərimiz oldu. Orada xanım Olbrayt da, Semüel Berger də, digərləri də vardı. Yəni böyük bir heyət idilər. Çox dəyərli söhbətlərimiz oldu və bu, indi bizim üçün çox lazımdır. Xüsusən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması, 907-ci maddənin,- onun aradan qaldırılması üçün neçə ildir sizinlə bərabər çalışırıq (Baki İlkin: Bu, mənim də problemimdir, sənin də problemindir),- götürülməsi, yenə də deyirəm, Xəzər dənizinin enerji ehtiyatlarının daha da geniş işlənilməsi və Bakı-Ceyhan boru xətti barəsində söhbətimiz oldu.

Siz dinlədiniz, mən orada söylədim ki, neftdən başqa, biz çoxlu qaz yataqları da açmışıq. Mən mətbuat üçün məlumatlara baxıram, - indi «Bi-Pi/AMOKO»da özləri, heç bir şey gözləmədən Azərbaycandan Türkiyəyə qaz borusu çəkmək, qaz çıxarmaq istəyirlər. Bu şirkət «Şahdəniz» yatağında işləyir. Ancaq başqa bir yerdə Amerikanın «Şevron» şirkəti işləyir və deyirlər ki, oradan da çoxlu qaz çıxaracağıq.

**B a k i İ l k i n:** Allah daha da artıq eləsin.

**H e y d ə r Ə l i y e v:** Bu, hələ iki yataqdır. Amma bizim belə yerlərimiz çoxdur. 19 müqavilə imzalamışıq. Ona görə də zaman-zaman bunlar artacaqdır.

Bu məsələləri prezident Klintonla çox ətraflı müzakirə etdim. Çox əhəmiyyətli görüş oldu. Mən bu səfərimdən çox məmnunam, çox lazımlı bir səfər oldu. Davosda mən prezident Klintonla görüşdüm, qısa danışdıq. Orada razılaşdıq ki, mən buraya gəlim və geniş danışaq. İndi belə imkan oldu. Cons Hopkins Universitetində çox adam toplaşmışdı. Mən geniş nitq söylədim, yəni Azərbaycanın bugünkü gününü tanıtdım. Ticarət Palatasının təşkil etdiyi axşam yeməyində sizinlə iştirak etdik, orada da çox geniş məlumat verdim.

Dünən, o birisi gün çıxan qəzetlərə baxıram. Bütün dünya mətbuatı Heydər Əliyevin Amerikaya səfəri, prezident Klintonla görüşü, danışıqları, Bakı-Ceyhan, Xəzər dənizi və s. barədə yazır. Təkcə Amerika mətbuatında deyil, Avropa mətbuatında, hər yerdə və təbiidir ki, Türkiyə mətbuatında da bu barədə yazırlar. Ona görə də bu, çox əhəmiyyətlidir.

**B a k i İ l k i n:** Hörmətli prezident Klinton bizim bölgəmizin, müştərək bölgəmizin əhəmiyyətini daha yaxşı bilərək hər işdə bizə dəstək olmağa çalışır. Bildiyiniz kimi, onun nümayəndələrindən biri bu yaxınlarda Cənubi Qafqaza və Türkiyəyə səfər etmişdir. Həqiqətən, Azərbaycan Qafqazda sülh, sabitlik və əmin-amanlıq olması üçün çox önəmli rol oynayacaqdır. İnşallah, Sizin səylərinizlə Qarabağ məsələniz də həll ediləcək, köçkünlər öz yerlərinə qayıdacaq və Azərbaycanın ərazi bütövlüyü yenidən bərpa olunacaqdır. Azərbaycanın uğurları bizim sevincimizdir. Şəxsən mən Azərbaycanı və Türkiyəni bir evin ayrı-ayrı otaqlarında yaşayan iki qardaş hesab edirəm. Otaqlarımız ayrı olsa da, qəlbimiz birdir.

Sayın cümhur başkanım, mən yaxından izləyirəm, - Siz Azərbaycana həqiqətən böyük xidmətlər göstərmisiniz. Bütün arzu və təmənnam budur ki, Azərbaycan xalqına bundan sonra da uzun illər xidmət edə biləsiniz, Azərbaycan xalqı da sizin xidmətlərinizdən daim faydalana bilsin.

Gördüyünüz kimi, buraya gəldiyiniz gündən Vaşinqton sayın Heydər Əliyevdən danışır. Bu sevinci sayın Dəmirəllə də yaşadıq. Siz burada da Türkiyənin daim diqqət mərkəzindəsiniz. Məni qəbul etdiyinizə görə təşəkkürümü bildirir və cərrahiyyə əməliyyatı ilə əlaqədar bir daha «keçmiş olsun» deyirəm. İlk fürsət düşən kimi Sizi bir daha görmək istəyirəm. Sağ olun.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun. Hörmətli dostum, qardaşım Süleyman Dəmirələ, hörmətli dostum Bülənd Ecevitə, hörmətli dostum Yıldırım Akbuluta, xarici işlər naziri, hörmətli İsmayıl Cəmə mənim salamlarımı və ehtiramımı çatdırın. Mesajlarına görə onların hər birinə və məni ziyarətinizə görə sizə təşəkkürümü bildirirəm. Sağ olun.

**TÜRKMƏNİSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAPARMURAD NİYAZOVA**

Hörmətli Saparmurad Atayeviç!

Sizi əlamətdar yubiley – doğum gününüzün 60 illiyi münasibətilə ürəkdən təbrik edirəm.

Siz qardaş türkmən xalqına mürəkkəb bir tarixi dövrdə başçılıq edirsiniz. Sizin müdrik və uzaqgörən siyasətiniz sayəsində ölkəniz keçid dövrünün çətinliklərini müvəffəqiyyətlə aradan qaldırır, müstəqillik və tərəqqi yolu ilə inamla irəliləyir. Suveren Türkmənistanın vətəndaşları öz ümidlərini Sizin adınızla bağlayırlar.

Şadam ki, xalqlarımız arasında dərin tarixi kökləri olan dostluq münasibətləri keyfiyyətcə yeni xarakter almaqdadır. Bu gün bizim ölkələrimizi sıx əməkdaşlıq və strateji tərəfdaşlıq əlaqələri bağlayır.

İnanıram ki, qlobal regional layihələrin həyata keçirilməsi sayəsində bizim əlbir səylərimiz sülh və sabitlik işinə, xalqlarımızın əmin-amanlığına və firavanlığına xidmət edəcəkdir.

Bizim qarşılıqlı hörmət və etimad hisslərinə əsaslanan şəxsi münasibətlərimizi yüksək qiymətləndirirəm.

Əziz Saparmurad Atayeviç, Sizə möhkəm cansağlığı, səadət və dövləti fəaliyyətinizdə böyük müvəffəqiyyətlər arzulayıram.

*Hörmətlə,*

***HEYDƏR ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

*17 fevral 2000-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ MÜDAFİƏ NAZİRİ UİLYAM KOHEN İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Vaşinqton*

*24 fevral 2000-ci il*

**U i l y a m  K o h e n:** Hörmətli cənab prezident! Xoş gəlmisiniz. Sizinlə yenidən görüşməyimə görə çox şadam. 1997-ci ildə Sizinlə keçirdiyim görüşü bu gün də məmnunluqla xatırlayıram. O vaxtdan indiyə qədər ölkələrimiz arasındakı münasibətlər xeyli inkişaf etmişdir. Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında yaranmış strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirir və ümidvar olduğumu bildirirəm. Vaşinqtona bu dəfəki uğurlu səfəriniz bu münasibətlərin daha da genişlənməsinə öz töhfəsini verəcəkdir.

Cənab prezident, Sizin təşəbbüsünüz ilə «Azərbaycan Respublikası hökuməti və Amerika Birləşmiş Ştatları hökuməti arasında kütləvi qırğın silahlarının yayılması qarşısının alınması və müdafiə sahəsində tədbirlər haqqında» sənədin qəbul edilməsini xüsusilə alqışlayıram.

Yeri gəlmişkən ölkələrimiz arasındakı əməkdaşlığın inkişaf etdirilməsinə maneə olan 907-ci maddənin hələ də qüvvədə qaldığına təəssüfləndiyimi nəzərinizə çatdırmaq istəyirəm. Onu da deyim ki, 907-ci maddəyə edilmiş düzəlişlər sayəsində Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi üçün imkanlar yaranmışdır. Həmin imkanlardan daha səmərəli istifadə etmək üçün mən Konqres qarşısında məsələ qaldıracağam.

**H e y d ə r  Ə l i y e v:** Cənab Uilyam Kohen! Mən Amerika Birləşmiş Ştatlarının müdafiə naziri ilə yenidən görüşdüyümə çox məmnunam. Amerika Birləşmiş Ştatları ilə müstəqil Azərbaycan Respublikası arasında mövcud olan hərtərəfli əməkdaşlıq ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyır. Vaşinqtona bu dəfəki səfərim zamanı prezident Bill Klinton, dövlət katibi xanım Madlen Olbrayt, milli təhlükəsizlik məsələləri üzrə müşavir Sendi Berger, enerji naziri Bill Riçardson, kənd təsərrüfatı naziri Dən Qlikman ilə və bir sıra digər yüksək səviyyəli şəxslərlə keçirdiyim görüşlər səmərəli və məhsuldar olmuşdur.

Ölkəmizin ən ağrılı problemi olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tezliklə həll edilməsi üçün ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Amerika Birləşmiş Ştatlarının fəaliyyətinin daha da güclənməsinə ehtiyac duyuruq. Lakin hər cür maneəyə baxmayaraq sülh danışıqları bu gün də davam edir.

907-ci maddəyə edilmiş düzəlişlər sayəsində Azərbaycana göstəriləcək yardıma görə Sizə təşəkkür edirəm. Ümidvar olduğumu bildirirəm ki, bu ədalətsiz maddə tamamilə aradan qaldırılacaqdır.

Keçən ilin aprel ayında Vaşinqtonda NATO-nun 50 illik yubileyində iştirakımı məmnuniyyətlə xatırlayıram. Əminəm ki, «Sülh naminə tərəfdaşlıq» proqramı və Şimali Atlantika Tərəfdaşlıq Şurası çərçivəsində Azərbaycanın NATO ilə əməkdaşlığı uğurla davam edəcəkdir.

## CONS HOPKİNS UNİVERSİTETİNİN GÖZ XƏSTƏLİKLƏRİ KLİNİKASINDA* HƏKİM VALTER STARK İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Vaşinqton*

*24 fevral 2000-ci il*

**V a l t e r   S t a r k:** Cənab prezident, Sizin gözlərinizdə apardığım əməliyyat çox uğurlu olmuşdur. Müalicənin belə nəticələr verməsindən mən çox-çox məmnunam. Üç günün ərzində sizin gözləriniz bu cür nəticə göstəribsə, bu onu göstərir ki, gözlərinizin sağlıq durumu çox əladır. Gözlərinizin görmə qabiliyyəti o qədər yaxşılaşacaq ki, siz bəlkə hətta istədiyinizdən də çox şeyləri görə biləcəksiniz.

**H e y d ə r   Ə l i y e v:** Çox sağ olun. Mən çox məmnunam. Sizə çox təşəkkür edirəm. Siz dünyada məşhur bir oftalmoloqsunuz. Mən bura sizin adınızla gəlmişəm. Mənə deyiblər ki, Cons Hopkins Universitetinin klinikasında bir doktor Stark var. Mənim dostum Süleyman Dəmirəl mənə demişdi. Dedi ki, ancaq onun yanına getmək lazımdır. Mən də gəldim və çox məmnunam.

**V a l t e r   S t a r k:** Çox şadam ki, hər şey yaxşı olubdur. Çox əla nəticə əldə etdik.

**H e y d ə r   Ə l i y e v:** İndi o gözlükləri də müəyyən etmək lazımdır.

**V a l t e r   S t a r k:** O da sizin üçün asandır. Çünki Sizin uzağı görməyiniz üçün qətiyyən ehtiyacınız yoxdur.

**H e y d ə r   Ə l i y e v:** Ehtiyac yoxdur.

**V a l t e r   S t a r k:** Yaxını görmək üçün də - gözləriniz çox yaxşı gördüyü üçün – adi, sadə bir gözlük lazım olacaqdır. Sizin ölkənizi ziyarət etməyi səbirsizliklə gözləyirəm.

**H e y d ə r   Ə l i y e v:** Bəli, mən sizi çox gözləyəcəyəm. Yaxşı olar ki, may-iyun aylarında gələsiniz. İyul ayı daha yaxşıdır, dənizdə çimməyə də yaxşıdır.

**V a l t e r   S t a r k:** Çox gözəl. İyul ayının əvvəllərində Türkiyədə bizim Ümumdünya Göz Həkimləri Təşkilatının böyük bir yığıncağı, toplantısı olacaqdır. O zaman mən o tədbirdən bir neçə gün öncə gələrəm və sizi də ziyarət edərəm. Səhv etmirəmsə, konfrans Türkiyədə iyul ayının 5-də başlayır. Ona görə də mən istəyirəm sizin ölkənizə iyunun sonu – iyulun əvvəlində gəlim.

**H e y d ə r   Ə l i y e v:** Çox gözəl.

* * *

*Həmin klinikada müalicə olunan diplomat – İtaliyanın Amerika Birləşmiş Ştatlarındakı səfiri cənab Ferdinando Salleo ilə görüşdə söhbət.*

**F e r d i n a n d o   S a l l e o:** Cənab prezident. Sizinlə bu görüşdən şərəf duyduğumu bildirirəm. Mən Azərbaycanda da səfir olmuşam. 1989-cu ildən 1993-cü ilə qədər İtaliyanın Moskvadakı səfiri idim və müstəqillik əldə olunan kimi məni həm də müstəqil ölkələr üzrə səfir təyin etdilər. Bakıya gəldim. Çox gözəl şəhəriniz vardır.

**H e y d ə r   Ə l i y e v:** Sizə təşəkkür edirəm. İndi gəlin, daha da gözəlləşibdir. O vaxtlar qarmaqarışıqlıq idi, müharibə gedirdi.

**F e r d i n a n d o   S a l l e o:** Siz o vaxt Sovetlər İttifaqının baş katibi olmağa çox yaxınlaşdınız.

**H e y d ə r   Ə l i y e v:** Doğrudur. Görürsünüz, amma sonra qoymadılar. Yaxşı ki, qoymadılar. İndi gəldim, öz vətənimdə prezidentəm.

**F e r d i n a n d o   S a l l e o:** Ölkənizə çox böyük xoşbəxtliklər gətiribsiniz.

**H e y d ə r   Ə l i y e v:** Bəli. Çox sağ olun.

**H a f i z   P a ş a y e v** (*Azərbaycanın ABŞ-dakı səfiri*): Cənab prezident, buradakı İtaliya diasporu ilə əlaqələrimiz vardır. Onlar bizə kömək edirlər.

**H e y d ə r   Ə l i y e v:** Mən 1997-ci ildə sizin ölkədə rəsmi səfərdə oldum.

---

* Vaşinqtonda olarkən Cons Hopkins adına Universitetin göz xəstəlikləri klinikasında prezident Heydər Əliyevin gözündə müəyyən edilmiş katarakta qarşı uğurlu əməliyyat aparılmış və prezident Heydər Əliyev bir neçə günlük müalicə kursu almışdır.

**F e r d i n a n d o  S a l l e o:** Onda mən artıq burada idim.

**H e y d ə r  Ə l i y e v:** Məni sizin prezident Skalfaro dəvət etmişdi. Onda Baş nazir Prodi idi. Bir çox sənədlər imzaladıq. Sizin «Eni»/ACİP» şirkəti Azərbaycanda çox işlər görür.

**F e r d i n a n d o  S a l l e o:** Mən hələ Moskvada olarkən həm «Eni», həm də «ACİP» şirkətlərinə məsləhət görmüşdüm ki, Azərbaycana gəlsinlər. Çünki Azərbaycanda çox görməli işlər var idi. Əlalxüsus isə oradakı dəniz yataqlarında.

**H e y d ə r  Ə l i y e v:** Onlar gec gəldilər. Onları 1995-ci ildə mən gətirdim.

**F e r d i n a n d o  S a l l e o:** Cənab prezident, sizə cansağlığı arzulayıram. Sizə burada çox yaxşı həkim xidmət edir. Sizin ölkəniz barədə çox-çox xoş xatirələrimi hələ də yadımda saxlayıram. Sizin çox isti qonaqpərvərliyiniz vardır, çox gözəl ölkəniz vardır.

**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun. Biz İtaliya ilə dostuq. Burada da siz bizim səfir ilə əməkdaşlıq edin və dostluq əlaqələri də inkişaf edəcəkdir.

* * *

*Dünya şöhrətli aktrisa, Hollivudun ulduzu, «Super xanım» teleserialında baş rolun ifaçısı və çoxsaylı filmlərdə aparıcı rollarda çəkilmiş xanım Linda Karter ilə görüşdə söhbət.*

**L i n d a  K a r t e r:** Cənab prezident, sizinlə görüşmək mənim üçün çox şərəfdir.

**H e y d ə r  Ə l i y e v:** Sizinlə görüşmək mənim üçün də çox şərəflidir.

**L i n d a  K a r t e r:** Sizin ölkənizdə mənim şoularımı göstərirlərmi?

**H e y d ə r  Ə l i y e v:** Göstərirlər. Biz sizin şoularınızı çox sevirik. Amma yaxşı olar ki, sizin özünüz gələsiniz, özünüzü görək.

**L i n d a  K a r t e r:** Cənab prezident, dünyanın o hissəsində olmamışam. Oranı ziyarət etmək çox yaxşı olardı.

**H e y d ə r  Ə l i y e v:** Mən sizi dəvət edirəm. Mənim şəxsi qonağım olun. Hansı şəraiti istəyirsiniz, mən sizə yaradacağam. Bu doktor Starkın yanında söz verirəm.

**L i n d a  K a r t e r:** Sənab doktor, sizdən soruşuram, mənimlə gedərsiniz?

**V a l t e r  S t a r k:** Azərbaycan Xəzər dənizinin sahilində yerləşir. Çox gözəldir.

**L i n d a  K a r t e r:** Xəzər dənizində yaxşı kürü olur.

**V a l t e r  S t a r k:** Cənab prezident mənə hədiyyə veribdir. Mən həmin kürüdən sizə birini göndərərəm.

**L i n d a  K a r t e r:** Mən kürünü çox sevirəm. Cənab prezident, sizin qalstukunuz çox xoşuma gəldi. Gözəl qalstuk vurmusunuz.

**H e y d ə r  Ə l i y e v:** Ancaq qalstukum?

**L i n d a  K a r t e r:** Deyim ki, siz çox nadir, çox gözəl, çox yaraşıqlı bir kişisiniz. Onda gərək deyəsiniz ki, mən də gözələm.

**H e y d ə r  Ə l i y e v:** Siz dünya gözəlisiniz. Sizin qalstukunuz yoxdur, amma bunlarla müqayisə oluna bilməz. Sənin çox gözəl gözlərin var. Doktor Stark, sən bunun gözlərini nə edirsən?

**V a l t e r  S t a r k:** Cənab prezident, heç bir şey etmirəm, damcı salıram.

**H e y d ə r  Ə l i y e v:** Amma sən bunun gözlərini xarab etmə. Necə gözəl gözlərdir! Sənin gözünün rəngi də mənimki kimidir, elədir?

**L i n d a  K a r t e r:** Tamamilə doğrudur.

**V a l t e r  S t a r k:** Cənab prezident, sizin gözünüz çox əla görür.

**L i n d a  K a r t e r:** Doktor, cənab prezidentin gözündə nə etmisiniz?

**V a l t e r  S t a r k:** Katarakt var idi.

**L i n d a  K a r t e r:** Sənab prezident, sizi təbrik edirəm. İndi sizə yeni həyat verilibdir.

**H e y d ə r  Ə l i y e v:** İndi sənin gözlərini elə gözəl görürəm. Beş gün bundan qabaq olsaydı belə görməzdim.

**L i n d a  K a r t e r:** Cənab prezident, sizinlə görüşümdən çox şad oldum.

**H e y d ə r  Ə l i y e v:** Baxın, bu mənim gənclik illərimin fotoşəkilləridir.

**L i n d a  K a r t e r:** Siz heç dəyişilməmisiniz.

**H e y d ə r  Ə l i y e v:** Bu, 15 il bundan öncə çəkilən şəkildir. Bu isə 20 il öncə olan şəkildir.

**L i n d a  K a r t e r:** Burada daha yaxşı görünürsünüz. Yaşlaşdıqca sizin gözəlliyiniz artır. O, cəvahirat kimidir - nə qədər çox qalır, o qədər də gözəlləşir. Görürsünüz, mən necə yaxşıyam. Çox şad oldum. Mən həqiqətən ümid edirəm ki, sizin ölkənizi ziyarət edəcəyəm.

**H e y d ə r  Ə l i y e v:** Siz ünvanınızı mənə verin.

**L i n d a  K a r t e r:** Doktor Starka verəcəyəm.

**H e y d ə r  Ə l i y e v:** Verin ona, o mənə versin. Mən sənə məktub yazacağam. Sağ olun.*

---

* Azərbaycan dövlətinin başçısı Heydər Əliyev fevralın 24-də Vaşinqtonda Azərbaycan Respublikasının Amerika Birləşmiş Ştatlarındakı səfirliyi üçün alınması nəzərdə tutulan bina ilə tanış oldu.

Azərbaycanın ABŞ-dakı səfiri Hafiz Paşayev respublikamızın rəhbərinə məlumat verdi ki, 1949-cu ildə tikilmiş və 80-ci illərin ortalarında əsaslı surətdə yenidən qurularaq müasir standartlara uyğunlaşdırılmış bu bina səfirliyin ehtiyaclarını tam ödəyəcəkdir. 1300 kvadratmetrdən çox ərazidə yerləşən mülk Vaşinqtonun ən möhtəşəm və görkəmli hissəsindədir. Amerika Birləşmiş Ştatları vitse-prezidentinin iqamətgahı, Böyük Britaniya, Vatikan, Belçika, Finlandiya və Norveç səfirlikləri ilə qonşuluqda yerləşən və Azərbaycan Respublikasının mülkiyyəti olacaq bu binanın üzərində üçrəngli bayrağımız əzəmətlə dalğalanacaqdır.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BİLL KLİNTONA**

Əziz cənab prezident!

Amerika Birləşmiş Ştatlarına işgüzar səfərim zamanı fevralın 15-də Vaşinqtonda, Ağ evdə Sizinlə yenidən görüşüb ölkələrimiz üçün mühüm əhəmiyyət kəsb edən məsələlər barədə bir daha ətraflı müzakirələr aparmaq imkanı əldə etdiyimə çox şad oldum.

Vaşinqtona fevral ayının 12-dən başlanan səfərim zamanı Amerika Birləşmiş Ştatlarının müdafiə, enerji və kənd təsərrüfatı nazirləri, «Eksimbank»ın prezidenti və görkəmli ictimai-siyasi xadimlərlə çoxsaylı görüşlərimiz və səmərəli danışıqlarımız oldu. Zənnimcə, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında ikitərəfli münasibətləri və qarşılıqlı faydalı əlaqələri bütün sahələrdə inkişaf etdirmək üçün xeyli iş görə bildik.

Hər şeydən öncə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması, Ermənistan ilə Azərbaycan arasında möhkəm, davamlı sülhün yaradılması məqsədi ilə davam edən sülh prosesini daim diqqətinizdə saxladığınıza, Ermənistan prezidenti ilə mənim aramda aparılan birbaşa danışıqların uğurla başa çatması üçün göstərdiyiniz şəxsi səylərə və dəstəyə görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Biz ATƏT-in Minsk qrupunun həmsədri kimi, Amerika Birləşmiş Ştatlarının sülhpərvər fəaliyyətinə böyük ümidlər bəsləyirik. Əminəm ki, münaqişənin tezliklə sülh yolu ilə aradan qaldırılması Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi, bir milyondan çox azərbaycanlı qaçqınların öz yurd-yuvalarına dönməsi üçün şərait yaradacaqdır və bütün Cənubi Qafqazda sülhün, sabitliyin və təhlükəsizliyin bərqərar olunmasına öz töhfəsini verəcəkdir.

Biz ölkələrimizin arasında çoxtərəfli qarşılıqlı faydalı siyasi, iqtisadi əlaqələrin genişləndirilməsinə, strateji tərəfdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsinə böyük əhəmiyyət veririk. Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən zəngin enerji ehtiyatlarının Amerika Birləşmiş Ştatlarının və dünyanın böyük neft və qaz şirkətləri ilə birgə istismar olunması və dünya bazarına etibarlı, təhlükəsiz yollarla ixrac edilməsi sahəsində Sizin administrasiyanız və Amerika şirkətləri ilə sıx əməkdaşlığımızı bundan sonra daha da artıracağıq. Sizi əmin edirəm ki, keçən ilin noyabr ayında ATƏT-in zirvə görüşü çərçivəsində İstanbulda Sizin iştirakınızla imzalanmış Bakı-Ceyhan əsas ixrac boru kəməri barədə tarixi sazişin həyata keçirilməsi və Xəzər hövzəsinin zəngin qaz ehtiyatlarının Türkiyəyə və Avropaya ixrac edilməsi üçün biz öz qətiyyətli və ardıcıl siyasətimizi davam etdirəcəyik.

Möhtərəm prezident!

Vaşinqtonda olduğum zaman Cons Hopkins Universitetinin göz xəstəlikləri klinikasında müayinədən keçdim. Gözümdə katarakt olduğu müəyyən edildi. Çox uğurlu keçən əməliyyatdan sonra bir neçə günlük müalicə kursu aldım. Sonra isə Klivlendə uçaraq müayinədən keçdim. Özümü çox yaxşı hiss edirəm. Həkimlərin dediyinə görə səhhətimlə əlaqədar bütün göstəricilər normaldır.

Mənə göstərdiyiniz qonaqpərvərliyə, diqqətə, qayğıya, hörmət və ehtirama görə Sizə dərin minnətdarlığımı bildirirəm. Sizinlə aramızda formalaşmış şəxsi dostluq münasibətləri mənim üçün çox əziz və çox dəyərlidir. Mən bu dostluğumuza daim sadiq qalacağam və ölkələrimiz arasındakı strateji dostluq münasibətlərinin günü-gündən inkişaf etməsi və möhkəmlənməsi üçün bundan sonra da var qüvvəmlə çalışacağam.

Gözəl ölkənizi tərk edərək bir daha Sizə öz dərin hörmət və ehtiramımı bildirir, Sizə və ailənizə cansağlığı, xoşbəxtlik diləyir və gələcək işlərinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.*

*Səmimiyyətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*25 fevral 2000-ci il*

---

* Fevralın 25-də Azərbaycanın dövlət başçısı Ohayo ştatının Klivlend şəhərinə gedərək, Klivlend klinikasında bir neçə saat ərzində müayinədən keçmişdir. Müayinənin nəticələri prezidentin səhhəti ilə əlaqədar bütün göstəricilərin normaya tam uyğun olduğunu bir daha təsdiq etmişdir.

## XOCALI SOYQIRIMININ
## SƏKKİZİNCİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Əziz həmvətənlər!

Bəşər tarixinə insanlığa qarşı öz vəhşiliyinə və qəddarlığına görə ən dəhşətli kütləvi terror hadisələrindən biri kimi düşmüş Xocalı soyqırımının törədilməsindən səkkiz il keçir. 1992-ci ilin o qanlı fevral gecəsində ən müasir texnika ilə silahlanmış Ermənistan hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı motoatıcı alayının köməyi və bilavasitə iştirakı ilə Azərbaycanın Xocalı şəhərini yerlə-yeksan edərək yüzlərlə köməksiz, günahsız dinc əhaliyə divan tutmuş, uşaqlara, qadınlara və qocalara belə aman verməmişlər.

XX əsrdə ermənilər tərəfindən Azərbaycan xalqına qarşı dəfələrlə təcavüz edilib, soyqırımı törədilibdir. Onlardan ən dəhşətlisi Xocalıda baş vermişdir. Bu faciə bütün Azərbaycan xalqını sarsıtmış, xocalılara ağır mənəvi zərbə olmuşdur. Ancaq xocalılar hətta genosid günündə belə özünü əsl qəhrəman kimi aparmış, son damla qanlarına qədər qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş və bu şəhərin ölməzlik tarixini yaratmışlar.

Xocalı faciəsinin baş verməsində Azərbaycanın o vaxtkı rəhbərliyi, hakimiyyət orqanları böyük məsuliyyət daşıyırlar. Uzun müddət mühasirə şəraitində, güclü düşmənlə üzbəüz, mərdliklə vuruşan yerli əhalidən fərqli olaraq, hər bir vətəndaşın müdafiəsini təmin etməyə borclu olan respublika rəhbərliyi o zaman tam fəaliyyətsizlik və xalqın taleyinə biganəlik göstərmiş, əsas diqqəti hakimiyyət uğrunda mübarizəyə yönəltmişdir. Ən acınacaqlısı odur ki, sonralar da Xocalı hadisələrindən erməni terrorçularının vəhşi əməllərinin mahiyyətini ifşa etmək istiqamətində deyil, siyasi çəkişmələrdə istifadə olunmuşdur.

Xocalıda misli görünməmiş qəddarlıqla, vəhşiliklə törədilmiş dinc əhalinin qırğınının dünyanın hər hansı guşəsində baş verməsinin qarşısını almaq üçün Xocalı həqiqətləri, ümumiyyətlə, Azərbaycan xalqının ədalətsizcəsinə cəlb olunduğu Ermənistan–Azərbaycan müharibəsinin bütun məşəqqətləri dünya ictimaiyyətinə hərtərəfli çatdırılmalı, onların qəti, birmənalı mövqelərini bildirmələri üçün ciddi və məqsədyönlü iş aparılmalıdır.

Heç şübhə yoxdur ki, Azərbaycan dövlətinin bütün sülhsevər addımları, təşəbbüsləri, xüsusilə son illər ərzində Ermənistan–Azərbaycan münaqişəsinin nizamlanması və Dağlıq Qarabağ probleminin həlli istiqamətində apardığı məqsədyönlü siyasət işğal edilmiş torpaqlarımızın azad olunmasına, dövlətimizin ərazi bütövlüyünün bərpa olunmasına, soydaşlarımızın, o cümlədən qəhrəman xocalıların öz doğma yurduna qayıdacağına böyük ümid verir.

İnanıram ki, bu gün xalqımız müstəqil Azərbaycan dövlətində daha da mətinləşib və dövlətimizin müstəqilliyini qoruyub saxlamaq, işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda yenilməz mübarizə aparmaq əzmindədir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan dövləti xalqımızın bu müqəddəs amallarının gerçəkləşməsi yolunda var qüvvəsini sərf edəcək, soydaşlarımıza qarşı törədilmiş qanlı cinayətlərin, o cümlədən Xocalı faciəsinin bütün günahkarlarının lazımınca cəzalandırılması üçün bütün tədbirləri görəcəkdir.

Bu milli matəm günündə Xocalı faciəsinin günahsız qurbanlarının müqəddəs ruhu qarşısında baş əyirəm, onların ailələrinə və yaxınlarına, bütün xalqımıza başsağlığı verirəm və şəhidlərimizə Tanrıdan rəhmət diləyirəm!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Vaşinqton, *25 fevral 2000-ci il*

**BRUNEYİN SULTANI ƏLAHƏZRƏT**
**HƏSƏNƏL BOLKİAH MÜİZƏDDİN**
**VƏDDAULLAHA**

Əlahəzrət!

Bruney Sultanlığının Müstəqillik gününün ildönümü münasibətilə sizi, sultan ailəsinin üzvlərini və ölkənizin dost xalqını səmimi-qəlbdən təbrik edir, sizə cansağlığı və uğurlar, ölkənizə əmin-amanlıq və tərəqqi arzulayıram.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Bruney arasında dostluq və əməkdaşlıq əlaqələri inkişaf edərək xalqlarımızın rifahının yüksəlməsinə xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*25 fevral 2000-ci il*

**QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YƏHYA CAMMEHƏ**

Hörmətli cənab prezident!

Qambiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost xalqınızı səmimiqəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Qambiya Respublikası arasında dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafeyi naminə hərtərəfli inkişaf edəcəkdir.

Cənab prezident, Sizə cansağlığı və uğurlar, ölkənizə firavanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*25 fevral 2000-ci il*

**ESTONİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB LENNART MERİYƏ**

Hörmətli cənab prezident!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və dost eston xalqını ürəkdən salamlayır və təbrik edirəm.

Mən ölkələrimiz və xalqlarımız arasında təşəkkül tapmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Estoniya Respublikası arasındakı əlaqələr bundan sonra da genişlənərək xalqlarımızın rifahının yüksəlməsinə, ölkələrimizin tərəqqisinə xidmət edəcəkdir.

Cənab prezident, fürsətdən istifadə edib Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh, səadət və çiçəklənmə arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*25 fevral 2000-ci il*

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ «Pİ ES Cİ İNTERNƏŞNL» ŞİRKƏTİNİN PREZİDENTİ ED SMİT İLƏ GÖRÜŞDƏ SÖHBƏT***

*London*

*27 fevral 2000-ci il*

**E d S m i t:** Cənab prezident, Sizinlə görüşməyimdən şərəf duyduğumu bildirirəm. Sizin Amerika Birləşmiş Ştatlarına işgüzar səfərinizin uğurla başa çatmasından məmnun qaldığımı bildirirəm.

Cənab prezident, yəqin xatırlayırsınız, Amerikanın keçmiş dövlət katibi cənab Şults ilə biz Azərbaycanda olarkən, Sizinlə görüşərkən söylədim ki, Klivlend mənim anadan olduğum şəhərdir. Ümid edirdim, Sizinlə bu dəfə orada görüşərəm, onda gedib ailəmi ziyarət etməyim üçün də əlimə bəhanə düşər.

**H e y d ə r Ə l i y e v:** Səmimi sözlərə görə minnətdarlığımı bildirirəm. Mən orada az qaldım, imkanım olmadı. Klivlenddə heç otelə də getmədim. Klinikaya getdim, məni orada müayinə etdilər, sonra hava limanına gəldim, təyyarə ilə buraya uçdum. Amma mən ötən dəfə Klivlenddə çox olmuşdum. Bu dəfə həkimlər dedilər ki, qalmağa ehtiyac yoxdur.

Siz burada yaşayırsınız?

**E d S m i t:** Bəli, burada yaşayıram. Bizim şirkətin baş qərargahı «Dorçester» otelinin yaxınlığında yerləşir. Bizim «Pi es ci internəşnl» şirkəti bütün dünyadakı boru kəmərləri ilə əlaqədar işlədiyinə görə biz öz baş qərargahımızın ofisini dünyanın mərkəzi kimi Londonda açmışıq. Lakin onu da deməyi özümə borc bilirəm ki, indi biz əsas diqqətimizi Xəzər hövzəsinə yönəldirik.

Cənab prezident, ümid edirdim ki, bu gün Sizinlə görüşmək imkanı qazanacağam və Transxəzər qaz kəməri ilə əlaqədar aparılan işlər barədə Sizə məruzə edəcəyəm.

**H e y d ə r Ə l i y e v:** Mən də maraqlanıram, çünki son vaxtlar xoşa gəlməyən bəzi məlumatlar alıram. Mən də sizinlə görüşmək istəyirdim ki, öyrənim görüm, həqiqət nədən ibarətdir.

Bilirsiniz ki, siz cənab Şults ilə bərabər Bakıda olarkən, mənimlə görüşərkən dövlətimizin, şəxsən mənim bu barədə mövqeyimi açıq-aydın bildirdim ki, biz bunu dəstəkləyirik. Yəni biz tərəfdən bir problem yoxdur. Amma nə üçünsə, deyirlər ki, son vaxtlar işlər yaxşı getmir. Deyə bilərsinizmi, vəziyyət necədir?

**E d S m i t:** Doğru buyurursunuz, işlər arzu olunan qədər də yaxşı deyildir.

Həm biz, həm də «Şell» şirkəti indi anlayırıq ki, öz qazını Türkiyəyə ixrac etmək üçün Türkmənistanın Türkiyə ilə müqaviləsi olmasına baxmayaraq, "Şahdəniz" yatağında açılmış böyük qaz ehtiyatları Azərbaycanın Xəzər bölgəsində qaz ixrac edən ən əsas ölkələrdən birinə çevrilməsinə səbəb olacaqdır.

Biz prezident Niyazova bildirmişik ki, Transxəzər qaz kəməri çəkilərkən təkcə Türkmənistanın deyil, həm də Azərbaycanın qazının Türkiyəyə çatdırılmasına, ixrac olunmasına şərait yaratmalıyıq. Biz Türkmənistanın prezidentinə bildirmişik ki, Türkmənistandan ilk boru kəmərini biz çəkəcəyik və elə edəcəyik ki, onun tutumu ildə 16 milyard kubmetr Türkmənistan qazını Türkiyəyə ixrac etməyə, gələcəkdə isə həm də 8 milyard kubmetr Azərbaycan qazını ixrac etməyə imkan yaratsın.

Qaz kəmərlərinin özünəməxsus xüsusiyyətləri vardır. Bu, ondan ibarətdir ki, qaz kəməri çəkildikdən sonra ya onun yanından paralel olaraq əlavə bir kəmər çəkmək vasitəsilə, yaxud da kompressorlar quraşdırmaq yolu ilə həmin kəmərdən daha çox miqdarda qaz - istər Türkmənistan qazı, istərsə də Azərbaycan qazı - ixrac edilməsinə şərait yaratmaq mümkündür.

Bildiyiniz kimi, həm "Pi es ci internəşnl", həm də "Şell" şirkətləri Tranxəzər qaz kəmərini çəkmək üçün hazırda yaradılmış konsorsiuma daxildirlər. Lakin biz istəyirik ki, bu konsorsiumu genişləndirərək orada Azərbaycanın, Gürcüstanın və Türkiyənin də maraqlarını təmin edək. Geniş tərkibli belə bir konsorsium bu kəmər üçün nəqliyyat xidmətləri göstərərək, təkcə Türkmənistanın, yaxud Gürcüstanın maraqlarını deyil, bütövlükdə regionun bütün ölkələrinin maraqlarını təmin edər. Onların bu konsorsiumda iştirak etməsi, pay alması kəmərin işinə çox müsbət təsir göstərər.

Təəssüf, bu gün biz Türkmənistan prezidenti cənab Niyazovun belə bir mövqeyi ilə rastlaşmışıq ki, Azərbaycanda hələ qaz yoxdur və biz Azərbaycanda çoxlu qaz ehtiyatları aşkar edilməsindən narahat olmamalıyıq. Biz onu da bilirik ki, Türkmənistan prezidenti Rusiyanın «Qazprom» şirkəti ilə danışıqlara başlayıbdır ki, ildə 50 milyard kubmetr Türkmənistan qazı Rusiya ərazisi vasitəsilə ixrac edilsin, yəni bu qaz Rusiyaya satılsın.

---

* Prezident Heydər Əliyev fevralın 26-da ABŞ-dan Londona gəlmişdir.

Biz hesab edirik ki, hər iki variant, yəni həm Türkmənistan tərəfinin belə bir fikrə düşməsi və öz mövqeyini bildirməsi, həmçinin bu sahədə addım atması Transxəzər qaz kəmərinin həyata keçirilməsinə maneçilik törədir, onun işini çətinləşdirir.

Hesab edirik ki, Transxəzər qaz kəmərinin uğursuzluğa düçar olması ilk növbədə Türkmənistanın mənafelərinə zərbədirsə, ziyandırsa, həmçinin Azərbaycanın da, Gürcüstanın da mənafelərinə xidmət etmir. Açıq-aşkar aydındır ki, bu, regionun mənafelərinə xidmət göstərmir.

Cənab prezident, icazə verin, bu kəmərin Azərbaycan üçün hansı faydalar gətirə biləcəyi barədə bir-iki kəlmə söyləyim. Boru kəmərləri çəkilərkən onun həcmi nə qədər geniş olarsa, o zaman həmin kəmərdən ixrac ediləcək - istər qaz, istərsə neft - qazın və neftin hər bir hissəsinə daha az xərc çəkilər. Ona görə də biz hesab edirik ki, əgər Azərbaycan qazı Türkmənistandan çəkiləcək Transxəzər qaz kəməri ilə ixrac olunarsa, onda qazın nəqli üçün Azərbaycanın üzərinə düşən xərclər də az olacaqdır.

Mən cənab Ələsgərov ilə apardığım danışıqlar zamanı ona bildirmişəm ki, biz Azərbaycana öz qazını Transxəzər kəməri ilə ötürmək, ixrac etmək üçün rəqabətə davamlı və çox məqsədəuyğun qiymətlər təklif etməyə hazırıq və yaxud Azərbaycanın özünü də bu kəmərdə iştirakçı paya malik tərəf kimi daxil etməyə hazırıq.

Ötən beşinci gün Aşqabadda keçirilən görüşlər zamanı Türkiyənin səfiri cənab Balkan prezident Niyazova açıq-aşkar bildirdi ki, əgər Türkmənistan qazı Türkiyə bazarına ixrac olunacaqsa, o, yalnız Transxəzər qaz kəməri vasitəsilə ixrac ediləcəkdir və türkmən qazının Türkiyə bazarlarına Rusiya vasitəsilə ixracı qəbuledilməzdir. Hesab edirik ki, Türkiyə hökuməti öz rəsmi mövqeyini açıq-aşkar bildirərək bəyan edir ki, Türkmənistan qazının Türkiyə bazarlarına ixracı yalnız Transxəzər qaz kəməri vasitəsilə olacaq və Azərbaycan da öz qaz ehtiyatlarını, qaz potensialını bu kəmər vasitəsilə realizə edə biləcəkdir. Mən bu barədə beşinci gün axşam cənab Ələsgərova da məlumat vermişəm, vəziyyətlə onu tanış etmişəm və bildirmişəm ki, biz Azərbaycan qazının bu kəmər vasitəsilə ixrac olunmasının tərəfdarıyıq. İstəyirik Azərbaycan da Transxəzər qaz kəmərini dəstəkləsin ki, biz ümumi səylərlə bu layihəni həyata keçirə bilək.

Sizin Amerika Birləşmiş Ştatlarına bu dəfəki səfəriniz zamanı həm prezident Klinton ilə, həm də enerji naziri Riçardson ilə görüşlərinizdə Transxəzər qaz kəmərinə verdiyiniz dəstəyi biz Azərbaycan tərəfindən öhdəlik kimi qəbul edirik və bu öhdəliyin də həyata keçirilməsini sürətləndirmək üçün mən gələn həftə Azərbaycanı ziyarət edəcəyəm, Ələsgərov ilə danışıqlarımızı davam etdirəcəyik- necə edək ki, bu Transxəzər qaz kəməri tezliklə tikilib başa çatsın və regionun maraqlarına xidmət etsin.

Mən belə uzun məruzəyə görə Sizdən üzr istəyirəm. Transxəzər qaz kəmərinə verdiyiniz dəstəyə görə Sizə təşəkkür edirəm və ümidvar olduğumu bildirirəm ki, biz ümumi səylərlə o layihənin gerçəkləşməsinə nail ola biləcəyik.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm. Məruzəniz o qədər də uzun olmadı. Mənə elə lazım idi ki, bu barədə, indiki durum haqqında bütün məlumatları bilim. Beləliklə, bir daha məlum olur ki, sizinlə bizim aramızda heç bir həll olunmayan məsələ yoxdur.

Türkmənistan prezidenti Niyazov bizim nümayəndə heyəti, sonra Türkiyənin nümayəndə heyəti, Gürcüstanın nümayəndə heyəti Aşqabadda olarkən – yanvar ayının 18-də idi – bunlara heç bir başqa şey deməmişdi və görüşü də çox əhəmiyyətli hesab etmişdi.

Ancaq o, niyə fikrini dəyişibdir – mən başa düşmürəm. Müəyyən qədər başa düşmək olar. Ancaq gərək bunu əvvəldən ölçüb-biçəydi. Yoxsa bir gün bir sənədi imzala, iki-üç ay ondan sonra başqa bir sənəd imzala – bu, o qədər də ciddi deyildir.

İlham Əliyev, sən neft şirkətinin birinci vitse-prezidenti kimi, bu barədə bir şey deyə bilərsənmi?

**İ l h a m Ə l i y e v:** Bizim bu barədə mövqeyimiz elə əvvəldən birmənalı olubdur və o mövqe dəyişməz olaraq qalır. Əvvəlcədən müxtəlif səviyyələrdə bəyan etmişik ki, biz Transxəzər qaz kəməri layihəsini dəstəkləyirik və Türkiyə ilə, sizin şirkətinizlə bu barədə çoxlu danışıqlar aparmışıq. Ən əsas şərtimiz ondan ibarət olub ki, Azərbaycanda gələcəkdə çıxarılacaq qazı bu kəmər vasitəsilə dünya bazarlarına çatdıraq və mən bilirəm ki, siz də bizim bu mövqeyimizi dəstəkləyirsiniz.

Beləliklə, «Pi es ci» ilə Azərbaycanın mövqeləri arasında heç bir ziddiyyət, yaxud da anlaşılmazlıq yoxdur və müxtəlif zamanlarda gəzən şayiələr ki, «Azərbaycan özü böyük qaz ölkəsi olacaqdır və ona görə də bu Transxəzər qaz layihəsini əngəlləmək istəyir», - təbii ki, bu şayiələrin heç bir əsası yoxdur. Çünki bizim atdığımız əməli addımlar onu sübut edir ki, Azərbaycan əvvəlcədən bu layihəni dəstəkləyir və əlindən gələni edir və edəcək ki, bu layihə tezliklə həyata keçirilsin.

Biz hesab edirik ki, bu sahədə biz rəqabət yox, əməkdaşlıq etməliyik. Çünki gələcəkdə Azərbaycanın çox zəngin qaz ehtiyatları dünya bazarlarına çatdırılmalıdır və bəlkə də bir gün Türkiyənin bazarı bizim üçün yetərli olmayacaqdır. Ona görə biz istəyirik bu qaz strategiyamızı çox uzunmüddətli bir strategiya kimi həyata keçirək. Artıq biz Azərbaycan qazının Avropa ölkələrinə çatdırılması üçün müəyyən araşdırmalar aparırıq və hesab edirəm ki, sizin şirkətinizlə biz bu barədə gələcəkdə əməkdaşlıq edə bilərik.

**H e y d ə r Ə l i y e v:** Mən demək istəyirəm ki, Azərbaycan prezidentinin mövqeyi dəyişməzdir. Biz bu işlərə səthi yanaşmırıq, ölçürük-biçirik və bizim Dövlət Neft Şirkətində, onun birinci vitse-prezidenti İlham Əliyevin dediyi kimi, bu barədə bu gün üçün də, gələcək üçün də çox aydın fikirlər var.

Hələ sizin şirkət olmadan prezident Niyazov başqa bir şirkətlə əməkdaşlıq edirdi. Onlar da gəlib mənimlə görüşərkən - "Enron" şirkəti gəlmişdi, biz dedik ki, etiraz etmirik. Ondan sonra İsrail şirkəti gəlmişdi, biz dedik ki, etiraz etmirik. Sonra siz bu işə başladınız, biz sizə də dedik ki, etiraz etmirik.

Yəni biz prinsip etibarilə bilirdik ki, ölkəmizdə qaz var və bilirdik ki, ölkəmizdə qaz çox çıxacaqdır. Amma buna baxmayaraq hesab edirdik ki, Türkmənistanın qazını Xəzər dənizindən Azərbaycan vasitəsilə Türkiyəyə keçirmək lazımdır. Çünki bu, birincisi, bizim ümumi strategiyamızdır; ikincisi, biz Türkmənistana maneçilik etmək istəmirik; üçüncüsü, istəyirik onların qazı Qərbə getsin; dördüncüsü də bilirdik ki, bu heç də bizim qazımızın ixracına mane olmayacaqdır. Ona görə də siz bizim tərəfimizdən arxayın ola bilərsiniz. Bizim mövqeyimiz dəyişməyəcəkdir.

İstanbulda imzaladığımız o sənədin, o müqavilənin altındakı imzamı mən çox qiymətləndirirəm və o sənədi bu gün imzalayıb iki aydan sonra onu dəyişdirə bilmərəm. Bu müqavilənin altında prezident Bill Klintonun da imzası var, prezident Süleyman Dəmirəlin, prezident Şevardnadzenin də imzası var və prezident Niyazov imza ataraq orada bu barədə çox gözəl bir nitq söylədi. Ona görə də biz bu işlərə çox ciddi yanaşırıq.

Bəli, bu gün deyə bilərik ki, bizim yaxın perspektivdə çox qaz ixrac etmək imkanımız artıq məlum olubdur. Amma bu, İlham Əliyevin dediyi kimi, bizdə rəqabət hissi doğurmur. Əksinə, əməkdaşlıq hissi doğurur. Biz bu barədə sizinlə əməkdaşlıq edəcəyik. Ancaq lazımdır ki, əsas imzalanmış o layihə həyata keçirilsin. Təbiidir ki, siz dediyiniz kimi, biz onlardan istifadə edəcəyik. Hətta məmnunam ki, siz dediniz ki, gələcəkdə o kəmərin tutumunu artırmaq olar, yaxud onun yanından bir kəmər də çəkmək olar. Düşünürəm ki, bizim buna ehtiyacımız olacaqdır. Ona görə də bunların hamısı kompleks şəkildə bizi təmin edir.

Siz işinizi Türkmənistan ilə ciddi aparın və məsələləri onlarla həll edin. Azərbaycana nə vaxt gəlirsiniz, gəlin. Dövlət Neft Şirkətində danışın, sizi həmişə qəbul edəcəklər, mənə məlumat verəcəklər. Lazım olsa, mən də sizinlə görüşə bilərəm. Biz sizə yaşıl işıq veririk.

**E d S m i t:** Cənab prezident, çox sağ olun. Ümid edirik ki, bizim Azərbaycan ilə münasibətlərimiz, əməkdaşlığımız İstanbul bəyannaməsi ilə məhdudlaşmayacaqdır, daha da genişlənəcəkdir.

**H e y d ə r Ə l i y e v:** Bəli.

**E d S m i t:** Hesab edirik ki, sizin Dövlət Neft Şirkəti ilə və ölkənizdə fəaliyyət göstərən digər iri Qərb şirkətləri ilə birgə çalışmaq üçün yaxşı imkanlarınız vardır ki, təkcə Türkmənistanın deyil, Azərbaycanın da nəql problemlərinin, kəmərlərinin çəkilməsi işində yaxından iştirak edə bilək. Sizin Dövlət Neft Şirkəti ilə biz çox yaxın təmaslarımızı inkişaf etdirəcəyik. Cənab İlham Əliyevdən də xahiş edirik cənab Ələsgərova tapşırıq versin ki, bizimlə hərdən mərhəmətli davransın.

**H e y d ə r Ə l i y e v:** O, onu edər.

**E d S m i t:** Düzdür, danışıq aparmaq hər zaman xoşagələn bir haldır, lakin tərəqqi əldə etməyimizə ehtiyac vardır.

**H e y d ə r Ə l i y e v:** Onu edərlər. Ondan narahat olmayın.

## LONDONDAN BAKIYA QAYIDARKƏN
## BİNƏ HAVA LİMANINDA
## JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*28 fevral 2000-ci il*

**S u a l: Cənab prezident, Amerika Birləşmiş Ştatlarına işgüzar səfərinizin yekunları barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Axşamınız xeyir olsun. Düşünürəm ki, səfər haqqında sizdə müfəssəl məlumat vardır. Çünki mənim orada keçirdiyim görüşlər, danışıqlar haqqında bizim televiziya, mətbuat operativ olaraq məlumat veribdir. Siz onları oxumusunuz, ola bilər, televiziya vasitəsilə dinləmisiniz, görmüsünüz. Ona görə, bilmirəm, bunu təkrar etməyə ehtiyac var, yoxsa yox.

Sadəcə, onu deyə bilərəm ki, bu səfər çox uğurlu səfərdir. Biz İstanbulda görüşmüşdük. Qısa bir fasilədən sonra Amerika prezidenti cənab Bill Klintonla yenidən görüşüb bütün məsələlər barəsində çox ətraflı söhbət etdik. Xanım Olbraytla, sonra Sendi Berger ilə, nazirlər – müdafiə naziri Kohen, enerji naziri Riçardson, kənd təsərrüfatı naziri Qlikman ilə, «Eksimbank»ın prezidenti ilə, bir çox siyasi xadimlərlə, o cümlədən Bjezinski, keçmiş müdafiə naziri Slezincer, keçmiş müdafiə nazirinin müavini Volfoviç ilə, jurnalistlərlə – mən həm «Vaşinqton post»da oldum, həm də «Nyu-York Tayms»ın jurnalistləri gəlmişdilər – çox görüşlər oldu, yaxşı da müzakirələr oldu. Mən bunların hamısından razıyam.

Bizim üçün əsas məsələlər, bilirsiniz, birinci növbədə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması, Xəzər dənizindəki enerji ehtiyatlarından istifadə edilməsi, Bakı-Ceyhan boru xətti, Transxəzər qaz xətti, Amerika-Azərbaycan ikitərəfli həm iqtisadi, həm siyasi əlaqələr – bütün bunlar bizim danışıqlarımızın əsas mövzuları olubdur. Mən bu danışıqların hamısından çox məmnunam və səfərimdən də çox məmnunam.

**S u a l: Cənab prezident, biz Sizi həmişəki kimi sağlam, gümrah görməkdən çox şadıq və Sizə Allahdan uzun ömür, cansağlığı arzulayırıq. Cənab Bill Klintonla görüş, danışıqlar zamanı 907-ci maddənin ləğvi ilə bağlı məsələyə toxunuldumu?**

**C a v a b:** Mütləq. 907-ci maddə ilə bağlı nəinki onunla, kim ilə görüşmüşük, - hətta mətbuat nümayəndələri ilə də – hamısında danışmışıq. 907-ci maddə indi bizim üçün elə bir prinsipial maddə olubdur və Amerikanın bütün ictimaiyyəti də – bu işdən uzaq adamlarla bəzən danışırsan, görürsən o da 907-ci maddəni bilir. Yəni bu illərdə 907-ci maddədən biz dünya mətbuatında, siyasət dairələrində, hətta iqtisadiyyat dairələrində o qədər güclü bəhs etmişik – o mənada ki, bu 907-ci maddənin Azərbaycan üçün ədalətsiz bir qərar olduğunu o qədər sübut edə bilmişik ki, bu barədə söhbət hər yerdə gedibdir.

Mən orada konqresmenlərlə görüşə bilmədim. Mən gələn gündən bir gün öncə bir-ikisi var idi, amma imkan olmadı. Çünki o vaxt konqresmenlər tətildə idilər, istirahətdə idilər. Ancaq, əlbəttə ki, həm Ağ evdə danışıqlarda bu barədə söhbət gedibdir, həm də bütün başqa dairələrdə. Vəziyyət belədir ki, hər dəfə 907-ci maddəni hökumət götürmək istəyir, ancaq Konqres buna getmir. Çünki erməni lobbisi güclüdür.

İndi bilirsiniz ki, Amerikada prezident seçkiləri prosesi başlayıbdır. Güman edirəm, siz orada erməni assambleyasının namizədinin Buşa məktubunu və Buşun ona cavabını oxumusunuz. Oxumusunuzmu? Yəqin oxumamısınız. Oxumusunuzsa, çox yaxşı. Ümumiyyətlə, bilirsiniz, biz aldığımız bütün o informasiyaları mətbuata vermək lazımdır. Mən orada demişdim ki, bir xülasə düzəldin. Onları mətbuata vermək lazımdır ki, camaat mətbuatda elə bir bu müsbət şeyləri görməsin. Mətbuatda insanlar görsün ki, Azərbaycanın başında nələr var, Azərbaycana qarşı hansı qüvvələr hərəkət edir. Başa düşürsünüz, ümumiyyətlə, gələcəkdə bütün bu cür məlumatları ki, biz alıb oxuyuruq – daim mətbuata vermək lazımdır. Qoy insanlar bilsinlər. Dediyim o xülasəni də mütləq bu günlərdə hazırlayın və mətbuata verin.

Erməni assambleyasına Qor da böyük bir məktub yazıbdır ki, «Mən prezident olanda ermənilərə belə yardım edəcəyəm, elə yardım edəcəyəm, nə bilim, genosid barəsində öz fikirlərimi deyəcəyəm». Sonra o, erməni assambleyası qubernator Buşa – hansı ki, indi respublikaçılardan əsas namizəddir – ona məktub yazıbdır. O da geniş bir cavab yazıb, - onların hamısını dərc edərsiniz, - geniş bir cavab yazıbdır. «Erməni xalqı dünyada ən qədim, ən dəyərli xalqdır» – bu cür qiymətlər verir və söz verir ki, prezident olsa, əməkdaşlıq edəcəkdir, genosid məsələsində yenə də çalışacaqdır. Hər halda, onlar bu «genosidi» birbaşa tanımırlar, tanıdıqlarını bildirmirlər, amma bu problemin olduğunu, «genosid» adı olmasın, ancaq guya 1915-ci ildə, 1918-ci ildə «ermənilərin Türkiyədə qırılmasını» bunlar açıq elan edirlər.

Bilirsiniz ki, Fransa parlamentində də bu məsələ qalxmışdı. Bizim parlament burada çox yaxşı hərəkət etdi. Biz danışdıq və qərar qəbul etdilər, göndərdilər. Həm də deputatların imzaları ilə məktublar göndərdilər.

Türkiyədə də çox ciddi bəyanatlar vermişdi və orada məsələ dayandırıldı. İndi 24 aprel qarşıdadır. Bu məsələ ermənilər tərəfindən, bilirsiniz, çox canlandırılır və onlar da hər dəfə deyirlər. Erməni lobbisi Amerikada çox güclüdür və ona görə də hökumət onunla hesablaşır. Onların Konqresdə gücü var.

Belədir, bilirsiniz, təəssüflər olsun ki, bizim Azərbaycanda çoxları, bəlkə də əksəriyyəti bu erməni probleminin Azərbaycan üçün nə qədər ağır bir problem olduğunu dərk edə bilmirlər. Bəziləri elə deyirlər «Niyə erməni bunu etdi, sən bunu etmədin? Siz nə etdiniz?» və s.

Məni orada Cons Hopkins Universitetinin Beynəlxalq Əlaqələr İnstitutuna dəvət etmişdilər. Çox böyük bir tədbir oldu. Orada salon ağzına qədər dolu idi. Çox böyük maraqla gəlmişdilər. Mənim çıxışımı veriblər, yəqin eşitmisiniz. Təsəvvür edin, mən ayın 14-də ora getmişəm. Vaşinqtona gələn gündən bir gün sonra ora getmişəm. Orada nə bilim, beş-altı, yeddi-səkkiz, bəlkə də on-on iki erməni şüarlarla, filanlarla durublar: «Heydər Əliyev, qayıt öz ölkənə», «Heydər Əliyev, sən niyə Dağlıq Qarabağda erməniləri qırırsan?», «Heydər Əliyev, sən niyə bunu edirsən?» – qışqırırlar, qışqırırlar. Orada mühafizə sistemi çox güclüdür, onların hamısının qarşısını almışdılar. Amma mən avtomobildən düşəndən sonra o binaya getmədim, onlara doğru getdim, onlara əl etdim. Amma onlar yenə də qışqırırlar. Biz universitetdə iki saatdan çox olduq. Çıxanda yenə də görürəm, - onlar durublar, qışqırırlar.

Mən keçən dəfə də rəsmi ziyarətə gedəndə, bilirsiniz ki, onlar hələ mən getməmişdən iki-üç ay əvvəl məktublar göndərmişdilər – 50 min məktub göndərmişdilər. Amma Ermənistan prezidenti Amerikaya getsin, Fransaya getsin, İngiltərəyə getsin, hansı bir ölkəyə getsin – üç nəfər azərbaycanlı gedib bir dənə şüarla onun əleyhinə bir şey deyəcək, yoxsa yox? Deməyəcəklər, qətiyyən deməyəcəklər.

İndi təsəvvür edin, Amerikada azərbaycanlılar çox yaşayır. Azərbaycan prezidenti gəlibdir, mən demirəm ki, onlar hamısı toplaşsın – onsuz da bu dəfə mənim vaxtım yox idi. Amma mən onları yığanda da çox adam toplaya bilmirdim. Ancaq bu ermənilər haradan bilirdilər ki, Heydər Əliyev gəlir? Bu, mətbuatda var. Demək, gör nə qədər izləyirlər. Biliblər ki, mən o universitetə gedəcəyəm, qabaqcadan hazırlaşıblar, şüarlar yazıblar, gedib orada durublar. Yenə də deyirəm, mənim o universitetin binasına girib-çıxmağım iki saatdan çox oldu. Çünki universitetin rektoru ilə bir az söhbət etdik, sonra getdim orada çıxış etdim, ondan sonra da bir az söhbət etdik, - cəmi iki saat oldu. Onlar iki saat yarım orada durmuşdular. Hələ mən ora gəlməmişdən də nə qədər öncə durmuşdular. Bilirsiniz, bax, belədir dünyada vəziyyət. Bu erməni lobbisi hər yerdə güclüdür.

Mən bununla onu demək istəmirəm ki, indi biz gördüyümüz işləri görməməliyik. Amma sadəcə, gərək xalqımız, millətimiz dərk etsin ki, bizim qarşımızda duran, bizə düşmən olan hansı gücə malikdir. Öz ölkəsində yox, başqa ölkələrdə. O ölkələrdə ki, orada dünyanın böyük siyasəti müəyyən olunur.

907-ci maddə, təbiidir, biz daim bu məsələni qoyuruq və güman edirəm ki, indi orada – prezident Klinton da dedi – o maddənin bir neçə hissəsini zəiflədiblər.

Yəqin ki, sizin xəbəriniz var ki, bu il Azərbaycana yardım bir az artıbdır, - bu, mətbuatda var, - Ermənistana da bir az azalıbdır. Ermənistanda buna görə bir hay-küy qaldırıblar ki, «niyə, nə təhər, nə üçün?» O maddələrin bir hissəsi zəifləyən zaman bu, Amerikanın bəzi dövlət təşkilatlarının müəyyən sahələrdə Azərbaycana yardım etməsinə imkan verəcəkdir. Ancaq, bilirsiniz, bu maddə bizim üçün daha çox maddi xarakter, maliyyə xarakteri daşımır, mənəvi xarakter daşıyır. Görürsünüz, tarixdə belə hallar olur – bir vaxt buraxılan səhvi neçə illərlə düzəltmək olmur.

Mən bunu demişəm, - 1992-ci ildə tamamilə ağılsız olaraq həmin hərəkəti etdilər, dəmir yolunu bağladılar. Mən onda Naxçıvanda yaşayırdım. Dəmir yolu onsuz da işləmirdi: bir dəfə qatar gedəndə üç dəfə tutub saxlayırdılar. Onu da saxlayanların əksəriyyəti bizim Xalq Cəbhəsinin silahlı dəstələri idilər. Bilirsiniz də, nə üçün saxlayırdılar? Mən bunu açmaq istəmirəm. Ona görə də dəmir yolunun işləməsi-işləməməsi Ermənistan üçün heç bir şey deyildi. Ermənistan onsuz da o müharibəni aparmaq üçün ayrı-ayrı ölkələrdən, xüsusən Rusiyadan yetərli qədər yardım alırdı. Amma yolda hərəkəti saxlamaqla Konqresdə erməni lobbisinə imkan verildi ki, həmin maddəni keçirsin. Keçirdilər və indi onu çıxartmaq mümkün deyildir.

Ümumiyyətlə, Amerikada konqresmenlər danışırlar ki, hansısa bir maddəni, ola bilər, konqresmenlərin başı qarışıq olanda, yorğun olan vaxtda keçirmək asandır. Amma o maddə yazılandan sonra onu çıxarmaq çox çətin olur. Onda ayılırlar və fikirləşirlər ki, yox, daha bunu qəbul etmişik, çıxartmaq mümkün deyil.

Beləliklə, hesab edirəm ki, biz ardıcıl, davamlı surətdə bu işlə məşğul olaraq öz istədiyimizə nail olacağıq.

**S u a l: Cənab prezident, Siz burada olmayan vaxtda çeçen mücahidlərinin Azərbaycanda müalicə edilməsi ilə əlaqədar məlumatlar yayılmışdı və bu məlumatlar Rusiyanın ORT televiziya kanalının Azərbaycanda olan müxbirindən sızmışdı. Bu barədə açıqlama verməyiniz mümkündürmü?**

**C a v a b:** Nə deyim? Azərbaycanda olan müxbir, azərbaycanlı bəzən olmayan şeyi yazır. Mən də oxumuşam. Hansısa müxbir gedib deyir ki, «mən ora müraciət etdim, dedilər yoxdur. Bura müraciət etdim, dedilər yoxdur. Amma, nə bilim, 5 nömrəli xəstəxanaya getdim, hansı xəstəxanaya getdim, orada gördüm ki, bunlar var».

Bilirsiniz, necə deyərlər, mən etiraf etmişəm və bunu Moskvada, Rusiya prezidentinin səlahiyyətlərini həyata keçirən Putinə demişəm ki, bizdə yaralı çeçenlər var. Yaralı adamı qəbul etməmək antihumanist bir şeydir.

Ancaq biz bunları kütləvi surətdə qəbul etmirik. Birinin burada qohumu var, birinin dostu var, bir vasitə ilə gəlir və bizim sərhəddə yoxlanılır. Əgər doğrudan da o, yaralı, ağır yaralıdırsa, onda, necə deyərlər, bu, insanlıq keyfiyyətindən kənardır ki, biz onu qəbul etməyək. Biz onu qəbul etmişik. Mən bunu gizlətmirəm, etiraf etmişəm və öz təşəbbüsümlə demişəm. Amma indi bir azərbaycanlı jurnalistin gedib haradasa nəyisə qurdalayıb çıxarıb, nə bilim, Moskvanın hansı qəzetində, yaxud da başqa yerdə yazması... İndi baxın da, bizim millətimizin içərisində, təəssüflər olsun, nə qədər qeyri-vətənpərvər adamlar var. Bu da bizim bəlamızdır.

**S u a l: Cənab prezident,Transxəzər qaz kəməri ilə əlaqədar Türkmənbaşının son açıqlamaları barədə nə deyə bilərsiniz?**

**C a v a b:** Siz bu açıqlamaları eşitmisiniz. Amma bir məsələ də bəlkə sizə məlumdur ki, «Britiş petroleum» şirkəti «Şahdəniz» yatağında ikinci quyunu qazandan sonra orada çox böyük qaz ehtiyatları olduğunu görübdür. Ona görə də ayın 25-də Ankarada təqdimetmə mərasimi keçiriblər və elan ediblər ki, onlar keçmişdən qalan qaz boru kəməri vasitəsilə birbaşa Türkiyə bazarına çıxacaqlar – şübhəsiz ki, bizimlə birlikdə. Onların nümayəndələri Vaşinqtonda mənim yanıma gəldilər və bəyan etdilər ki, bu, - onlar haradasa Alyaskanın yanında belə bir yataq açmışdılar – tarixdə öz tutumuna, həcminə, perspektivinə görə ikinci yerdə duran bir yataqdır. Onlar bu işə arxayın olduqlarına görə indi həmin qazı necə ixrac etmək barədə düşünürlər. Xahiş ediblər, mən iki-üç gündən sonra onları burada qəbul edəcəyəm. Onlar mənim qarşımda da bir təqdimetmə mərasimi keçirmək istəyirlər. Ona görə də biz birinci növbədə öz işimizi aparırıq.

O ki qaldı Türkmənbaşı, bu onun öz işidir. Hər halda, mən bunu anlaya bilmirəm ki, ölkənin prezidenti noyabr ayında bir sazişə böyük təntənə ilə imza atsın, amma iki ay sonra gedib başqa bir sənədi imzalasın, bundan imtina etsin. Yenə də deyirəm –hər halda bu, çox qeyri-ciddi bir məsələdir.

Ancaq Londonda həmin Transxəzər qaz kəmərini inşa etmək istəyən «Pi es ci» şirkəti var – onu Türkmənistan dəvət edibdir. Onlar əvvəllər bir neçə dəfə Bakıya da gəlmişdilər. Onların nümayəndələri Londonda yerləşirlər. Xahiş etmişdilər, mən onları dünən Londonda qəbul etdim. Bu görüş televiziya vasitəsilə bütünlüklə yazılıbdır. Mən sadəcə, geniş danışdım və imkan verdim bizim televiziya həmin görüşü çəksin, ictimaiyyətimiz onun dilindən bilsin ki, iş nə yerdədir. O, bunun nə olduğunu təsdiq edir.

Onlar bu yaxınlarda Rusiya ilə 20 milyard kubmetr qaz haqqında müqavilə imzalayıblar. Hətta istəyirlər ki, sonra 30 milyard kubmetr qaz barədə də sənəd imzalasınlar. Ona görə də bu layihəni ləğv etmirlər, ancaq bunu hərəkətə gətirmək istəmirlər. Amma həmin «Pi es ci» şirkəti və Amerika tərəfi bu işi belə buraxmır. Onlar bir neçə gündən sonra buraya gələcəklər. Mən onları qəbul edəcəyəm. Güman edirəm ki, bəlkə bunlar hamısı manevrdir, yoxsa nədir.

**S u a l: Cənab prezident, mən həmkarımın verdiyi suala qayıtmaq istəyirəm. Çeçenlərin Azərbaycan xəstəxanalarında müalicəsi barədə məlumat Rusiyanın ORT kanalının Azərbaycandakı müxbirləri tərəfindən sızdırıldıqdan sonra «Vremya» proqramının aparıcısı dünən belə bir ifadə işlədib ki, Azərbaycanın ANS televiziya kanalı həmin müxbirlərə guya hansısa təzyiqlər göstərir. Biz əminik ki, ORT kanalına müsahibə verməyə söz verən Azərbaycan prezidenti bu barədə öz fikrini, öz münasibətini bildirəcəkdir. Bu haqda nə deyə bilərsiniz?**

**C a v a b:** Mən müsahibə barədə heç kəsə söz verməmişəm. Onu da bilməlisiniz ki, müsahibə almaq üçün mənə çox müraciət edirlər, çoxundan imtina edirəm. Onlar mənə müraciət etməyiblər. Bəlkə mən burada olmayanda müraciət ediblər. Amma mən onlara söz verməmişəm. İnana bilərsiniz, bir halda ki, bizə qarşı belə ədalətsizlik ediblər, mən onlara müsahibə verməyəcəyəm.

**S u a l: Cənab prezident, burada olmadığınız müddətdə Robert Koçaryan Sizin onunla apardığınız danışıqların bəzi məqamlarını açıqlayaraq bildiribdir ki, Siz onunla ərazi mübadiləsi məsələsinə toxunmusunuz. Respublika mətbuatında bu məsələ son günlər o tərəf - bu tərəfə çox çevrilir və guya söhbətin Mehri və Laçın dəhlizlərindən getdiyi bildirilir. Bu məsələyə Sizin münasibətinizi bilmək istərdik.**

**C a v a b:** Robert Koçaryan Ermənistanın prezidentidir, nə istəyir – onu da deyir. Amma mən bilmirəm ki, o nə deyibdir. Onun dediklərinin bizim danışıqlarımıza və aramızda olan müəyyən razılığa münasibəti, hesab edirəm ki, yoxdur. Dediyinə o, cavab verir, mən ki, belə söz deməmişəm. Hamınız götürüb yazırsınız ki, «o belə getdi, bu belə getdi». Mən ki, bir şey deməmişəm.

**S u a l: Cənab prezident, Bakı–Ceyhan neft kəməri ilə bağlı nə deyə bilərsiniz?**

**C a v a b:** Bilirsiniz ki, Bakı-Ceyhan neft kəməri barədə Bakıda danışıqlar getdi. Gürcüstan real olmayan bəzi təkliflər irəli sürdü. Ona görə də bu danışıqlar kəsildi. Sonra isə mən ayın 25-də Vaşinqtondan çıxarkən bizim səfir məlumat verdi, - prezident Bill Klintonun bu işlə məşğul olan xüsusi nümayəndəsi səfir Vulf telefon edib, xahiş edibdir ki, Türkiyədə yenidən görüş keçirilsin. Amma onlara deyiblər ki, Azərbaycan nümayəndələri getmək istəmirlər. Mən Baş nazir Artur Rasizadəyə telefon etdim, ona dedim ki, doğrudur, bizim nümayəndə heyətinin belə cavab verməsinə bəlkə də əsas vardır. Çünki bir dəfə, iki dəfə, üç dəfə görüşdülər, hamısı da eyni şey idi. Amma Vulf demişdi ki, guya Amerika tərəfi onlarla danışıq aparıbdır, məsələ həll ediləcəkdir. Mən göstəriş verdim, bizim nümayəndə heyətimiz indi orada, İstanbuldadır. Abid Şərifovu da, Valeh Ələsgərovu da oraya göndərmişik. Danışıqlar davam edir.

**S u a l: Cənab prezident, məlum olduğu kimi, Siz Vaşinqtonda Türkiyənin Amerikadakı səfiri ilə görüşmüsünüz. Maraqlıdır, bu görüşdə hansı məsələləri müzakirə etmisiniz?**

**C a v a b:** O mənə «keçmiş olsun» deməyə gəlmişdi. Türkiyə prezidenti hörmətli dostum cənab Süleyman Dəmirəl, Baş nazir Bülənd Ecevit, parlamentin sədri Yıldırım Akbulut, xarici işlər naziri İsmayıl Cəm göz əməliyyatı keçirməyimlə əlaqədar mənə məktublar göndərmişdilər. Ancaq təbiidir ki, biz çox geniş söhbət etdik.

Söhbətimiz nə olacaqdı? Türkiyə ilə Azərbaycanın əlaqələrində elə bir problem yoxdur. Amma biz dostluğumuzu, qardaşlığımızı, birgə hərəkətimizi hər dəfə təsdiq edirik. Eyni zamanda, orada söhbətimizin çoxu «genosid məsələsi»nə həsr olundu. Çünki həmin günlər bu məsələ orada yenə də qalxmışdı. O, mənə erməni Lobbisinin nə qədər kəskin işlər gördüyü barədə bir çox məlumatlar verdi. Səfir orada bunu daha yaxşı hiss edir. Çünki bu «genosid məsələsi» Türkiyəyə qarşıdır. O da Türkiyənin Amerika Birləşmiş Ştatlarında səfiridir. Səfir mənə bu barədə çoxlu məlumatlar verdi. Hesab edirəm ki, bu söhbətimiz də çox dəyərli oldu.

**S u a l: Cənab prezident, martın 15-də Beynəlxalq Valyuta Fondu tərəfindən Azərbaycana kredit ayrılması nəzərdə tutulurdu. Lakin belə bir məlumat yayılır ki, Azərbaycan Dövlət Neft Şirkətində aparılan auditor yoxlamaları nəticəsində hansısa uyğunsuzluqlar ortaya çıxıbdır. Ona görə də Beynəlxalq Valyuta Fondu bu krediti verməkdən, deyəsən, imtina edibdir.**

**C a v a b:** Siz bu məsələni Artur Rasizadədən soruşun. Çünki mən bu məsələ ilə məşğul olmağı ona tapşırmışam.

Yaxşı, görürəm ki, suallarınız təkrar olunur. Amma siz bir sualı vermədiniz ki, mənim səhhətim necədir? Deyə bilərəm ki, səhhətim çox yaxşıdır. Bu barədə də məlumat verilibdir. Mənim gözümdə son vaxtlar bir az problem yaranmışdı. Türkiyədə həkimlər baxanda dedilər ki, necə deyərlər, geniş analiz aparmaq lazımdır. Amerikada olarkən həmin Cons Hopkins Universitetində – bu, çox böyük bir universitetdir, onun bir çox şaxələri vardır – məni çıxış etməyə dəvət etmişdilər. Eyni zamanda, dedilər ki, oranın çox yüksək dərəcəli göz klinikası var. Orada mənim gözlərimə baxdılar, dedilər ki, bəli, katarakt əmələ gəlir, ona görə də onu götürmək lazımdır. Götürdülər. Gözlərim də çox yaxşıdır, elə əvvəl də yaxşı görürdüm, amma indi sizin hamınızın gözünüzün içini də, çölünü də görürəm.

Orada işlərimi qurtarandan sonra ayın 25-də Klivlendə uçdum, bir neçə saat orada oldum. Məni orada müalicə edən həkimlər məni bütün müayinələrdən keçirdilər. Bilirsiniz ki, orada çox yüksək səviyyəli tibb avadanlığı, həkimlər var. Orada da məni başdan-ayağa – təkcə ürəkdə cərrahiyyə əməliyyatı ilə əlaqədar yox, bütünlüklə, necə deyərlər, hamısını – müayinədən keçirdilər. O əməliyyatdan on ay keçibdir. Onlar dedilər ki, biz bunu heç belə gözləmirdik. Sizin vəziyyətiniz bizim gözlədiyimizdən qat-qat yaxşıdır. Onlar belə şeyi çox edirlər, dedilər, nadir halda belə olur. Məsələn, əməliyyatdan altı ay, on ay, bir il sonra biz nə gözləyirik – biz gözlədiyimizdən çox-çox yaxşıdır.

Ona görə də səhhətim çox yaxşıdır. İstəyənlər sevinsinlər, istəməyənlər kor olsunlar. Sağ olun.

## AZƏRBAYCAN DÖVLƏT TELEQRAF AGENTLİYİNİN (AzərTAc-ın) KOLLEKTİVİNƏ

Azərbaycanın dövlətçilik tarixində mühüm rol oynamış Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) 80 illiyi tamam olur. 1920-ci il mart ayının 1-də Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmış Azər TAc fəaliyyətə başladığı gündən xalqımızın azadlıq arzularının carçısına çevrilmiş, onun ictimai-siyasi amallarının, milli-mənəvi dəyərlərinin və müstəqil dövlətçilik qayğılarının yorulmaz təbliğatçısı missiyasını yerinə yetirmişdir. AzərTAc Xalq Cümhuriyyətinin süqutundan sonra da öz fəaliyyətini davam etdirmiş və sovet quruluşu çərçivəsində xalqımızın SSRİ və dünya səviyyəsində tanıdılmasında, Azərbaycanda həyata keçirilən quruculuq işlərinin işıqlandırılmasında öz önəmli rolunu oynamışdır.

1991-ci ildə dövlət müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləyir. Müstəqilliyimizin daha da möhkəmləndirilməsində, ölkəmizin ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrini əhatə edən köklü islahatların, baş verən mütərəqqi dəyişikliklərin, Ermənistanın respublikamıza qarşı hərbi təcavüzü ilə yaranmış mürəkkəb sosial-iqtisadi və insani problemlərin açılmasında, beynəlxalq aləmə yayılmasında AzərTAc-ın fəaliyyəti mühüm əhəmiyyət kəsb edir.

Son illər AzərTAc-ın fəaliyyətində xüsusi dönüş yaranmış, onun maddi-texniki bazasının gücləndirilməsi, işinin təkmilləşdirilməsi və daha operativ, səmərəli təşkili üçün mühüm tədbirlər görülmüşdür. Lakin elmi-texniki tərəqqinin media üçün, xüsusən elektron informasiya vasitələrinin hüdudsuz inkişafı üçün yaratdığı bütün imkanlar hər gün yeniləşməni və dünya elminin bu sahədəki nailiyyətlərinin geniş tətbiqini tələb edir. Odur ki, AzərTAc-ın kollektivi milli jurnalistikamızın nəcib vətənpərvərlik ənənələrini ləyaqətlə davam etdirməklə bərabər, dünya informasiya məkanında layiqli yer tutmaq üçün daha əzmlə çalışmalıdır.

Bu gün Azərbaycan dövləti ölkə konstitusiyasında təsbit olunmuş fikir və söz azadlığı, siyasi plüralizm prinsiplərinə sadiq qalaraq, kütləvi informasiya vasitələrinin inkişafı üçün hərtərəfli şərait yaratmış və bu sahədəki səylər bundan sonra da dönmədən davam etdiriləcəkdir.

Əmin olduğumu bildirirəm ki, bütün imkanlardan istifadə edərək agentliyin kollektivi gənc, müstəqil dövlətimizin möhkəmlənməsi və çiçəklənməsi naminə Azərbaycan həqiqətlərinin ölkə ictimaiyyətinə və beynəlxalq aləmə çevik və dolğun şəkildə çatdırılmasında yüksək peşəkarlıq nümayiş etdirəcək, vətənimizə və xalqımıza sədaqətlə xidmət edəcəkdir.

80 illik yubileyi münasibətilə AzərTAc-ın bütün kollektivini səmimi-qəlbdən təbrik edir, öz müqəddəs və şərəfli missiyalarının yerinə yetirilməsində yeni-yeni uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *29 fevral 2000-ci il*

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ**
**ƏLAHƏZRƏT ŞEYX CABİR**
**ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt dövlətinin Milli gün bayramı münasibətilə sizi, əmir ailəsinin üzvlərini və qardaş Küveyt xalqını səmimi- qəlbdən təbrik edir, sizə cansağlığı və səadət, xalqınıza əmin-amanlıq və tərəqqi arzulayıram.

Mən Azərbaycan Respublikası ilə Küveyt dövləti arasında münasibətlərin hərtərəfli inkişafına böyük əhəmiyyət verirəm.

Əminəm ki, ölkələrimizin əlaqələri getdikcə genişlənərək xalqlarımızın rifahına, regionumuzda sülhün və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*29 fevral 2000-ci il*

## AVROPA PARLAMENTİNİN DEPUTATLARINDAN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ* İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*29 fevral 2000-ci il*

**H e y d ə r  Ə l i y e v:** Hörmətli qonaqlar, mən sizi salamlayıram. Bu, Avropa Birliyinin parlamentindən Azərbaycana gələn ilk nümayəndə heyətidir. Biz Avropa Birliyi ilə çoxdandır əməkdaşlıq edirik. Amma əməkdaşlığımız əsasən iqtisadi komissiya ilə həyata keçirilir və bu əməkdaşlıqdan çox məmnunuq. Avropa Birliyinin iqtisadi komissiyası ilə əməkdaşlığımız nəticəsində çox işlər görmüşük və onlardan yardımlar da almışıq. Gələcək üçün də yaxşı planlarımız var.

Sizinlə görüşmək isə onu göstərir ki, biz Avropa Birliyinin bütün strukturları ilə əməkdaşlığı genişləndiririk. Ona görə çox məmnunam ki, siz Azərbaycana gəlmisiniz. Ölkəmizlə, xalqımızla tanış olarsınız. Ən əsası odur ki, bizim əməkdaşlığımız başlanır. Buyurun, sizi dinləyirəm.

**P e r  Q a h r t o n:** Görüş üçün Sizə minnətdarlığımı bildirirəm. Zənnimcə, bu görüş Avropa Birliyi ilə Azərbaycan arasında əməkdaşlığın gələcəyi üçün çox vacibdir. Mən Avropa Parlamentinə Cənubi Qafqaz ölkələri haqqında raport yazıram. Sonra bu raport Avropa Parlamentində müzakirə ediləcək və çox güman ki, qəbul olunacaqdır. Qəbul olunduqdan sonra isə Avropa Parlamentinin bu ölkələr barəsində əsas xətti, strategiyası müəyyən ediləcəkdir. Ona görə də biz bu missiyamızı «fakt axtarışı missiyası» adlandırmışıq. Gördüyümüz kimi, mənimlə birlikdə nümayəndə heyətində müxtəlif parlamentləri təmsil edən şəxslər var. Bu o deməkdir ki, Azərbaycanı daha çox adam müşahidə edəcək və ölkəniz haqqında fikirlər də çox olacaqdır. Lakin, əlbəttə ki, son nəticə raport şəklində hazırlanacaq və mən onu Avropa Parlamentinə təqdim edəcəyəm.

Cənab prezident, mən bəri başdan Sizə iki sualla müraciət etmək istəyirəm. Birinci sualım Azərbaycanla Avropa Birliyi arasında olan münasibətlərə aiddir. Məlumdur ki, Avropa Birliyi ilə Azərbaycan arasında müəyyən əlaqələr, əməkdaşlıq vardır. Ümumiyyətlə, biz bilirik ki, Siz Avropa Birliyi ilə Azərbaycan arasında əlaqələri inkişaf etdirmək əzmindəsiniz. Biz Sizin bu əzminizi bəyənir və dəstəkləyirik.

O da məlumdur ki, Azərbaycan çox tezliklə Avropa Şurasının üzvü olacaqdır. Bu gün uzaqda deyildir. Avropa Birliyi də Avropanın digər bir təsisatıdır. Lakin o da məlumdur ki, buradan Strasburqa olan məsafə Brüsselə olan məsafədən bir qədər yaxındır. Ona görə də biz istərdik ki, Avropa Birliyi ilə Azərbaycan arasında olan münasibətlərlə bağlı Sizin fikrinizi eşidək, - Sizin planlarınız nə qədər uzağagedəndir? Ümumiyyətlə, bu əlaqələr barədə nə düşünürsünüz?

İkinci sualım isə Ermənistan–Azərbaycan münaqişəsinə aiddir. Bu faciəli münaqişə haqqında çox deyilib və biz də burada olduğumuz müddətdə onun barəsində çoxlu məlumat əldə etmişik. Buraya gəlməzdən əvvəl də kifayət qədər məlumat toplamışdıq. Onu da bilirdik ki, Siz bu məsələnin sülh yolu ilə həll olunması üçün addımlar atırsınız. Bilmək istərdik ki, məsələnin həlli nə qədər yaxındır və Siz onu necə görürsünüz?

**H e y d ə r  Ə l i y e v:** Əvvəla, onu bildirmək istəyirəm ki, Azərbaycan Avropa qitəsinə daxildir, yəni Avropa ölkəsidir. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra öz quruluşunu demokratik, hüquqi, dünyəvi dövlət quruluşu kimi müəyyən edibdir. Siyasi, iqtisadi islahatlar həyata keçirərək, keçmiş iqtisadi, siyasi formalardan imtina edib və bazar iqtisadiyyatı yolu ilə gedir, sona qədər də gedəcəkdir.

Qeyd etdim ki, Azərbaycan həm demokratik, həm də dünyəvi dövlətdir. Belə olan halda, təbiidir ki, Azərbaycan Avropa dəyərlərindən bəhrələnmək istəyir və Avropa dəyərlərindən istifadə edərək həm dövlət quruculuğu prosesində, həm cəmiyyətin formalaşmasında, həm də sosial-iqtisadi sahədə və bütün başqa sahələrdə Avropa standartlarına yaxınlaşmaq və nəhayət, o standartlar səviyyəsinə çatmaq istəyir.

Təbiidir, bu prosesdir. Ancaq bu prosesin sürəti həm dövlətin, hökumətin onu həyata keçirmək əzmindən asılıdır, - bu, Azərbaycanda var, - həm də Avropa strukturları ilə əməkdaşlıq edərək, Avropa strukturlarının Azərbaycanı Avropa ölkəsi kimi tanımaq və bu strukturlara qəbul etmək qərarına gəlməsindən asılıdır. Biz dərk edirik ki, bu yolu keçməliyik. Bu yolu keçmək üçün həm Konstitusiyamızla, həm də Avropa dəyərləri ilə, beynəlxalq mütərəqqi dəyərlərlə əlaqədar olaraq öz üzərimizə götürdüyümüz öhdəlikləri yerinə yetirməliyik. Biz bunu istəyirik, bunun üçün çalışırıq. Siz qeyd etdiniz ki, biz Avropa Şurası ilə üç ildən çoxdur əməkdaşlıq

---

* Nümayəndə heyətinə – Per Qahrton (İsveç), xanım Marie-Anne-İsler Beguin (Fransa), xanım Patsu Sorensen (Belçika), Qorka Knorr-Borras (İspaniya), Joot Lagenduk (Hollandiya) və xarici əlaqələr üzrə müşavir Paolo Bergamaschin (İtaliya) daxil idilər.

edirik. Belə güman etmək olar ki, biz artıq imtahan dövrünü keçmişik. Düşünürəm ki, biz bu il Avropa Şurasına qəbul olunacağıq.

Avropa Birliyi ilə isə, mən dediyim kimi, əməkdaşlığı birinci növbədə iqtisadi komissiya vasitəsilə həyata keçiririk. Bu sahədə çox işlər görmüşük. Avropa Birliyinin iqtisadi komissiyası ilə imzaladığımız sənədlər var. Bu sənədlər əsasında çox yaxşı əməkdaşlıq edirik. Avropa Birliyi iqtisadi komissiyasının TRASEKA, İNOGEYT proqramlarının həyata keçirilməsində Azərbaycan xüsusi rol oynayır.

Güman edirəm ki, siz bilirsiniz, - TRASEKA proqramının həyata keçirilməsi, qədim böyük İpək yolunun bərpası ilə əlaqədar 1998-ci ilin sentyabr ayında Azərbaycanda beynəlxalq konfrans keçirildi. Bu konfransın təşəbbüskarı Azərbaycan idi, ancaq onu Avropa Birliyinin iqtisadi komissiyası ilə birlikdə keçirdik. Bu beynəlxalq konfransda 32 dövlətin nümayəndə heyətləri, 13 beynəlxalq təşkilatın nümayəndələri iştirak edirdilər. 9 ölkənin nümayəndə heyətlərinə prezidentlər başçılıq edirdilər.

Biz çox ətraflı müzakirə apardıq və TRASEKA proqramının həyata keçirilməsini, İpək yolunun bərpa edilməsini Şərqlə Qərb arasında çox zəruri proqram kimi qiymətləndiririk. Biz lazımi sənəd imzaladıq və təşkilat komitəsi yaratdıq. Onun ofisi, yəni katibliyi də Azərbaycanda yerləşir. Bir də qeyd edirəm, bunlar Avropa Birliyinin iqtisadi komissiyası ilə əməkdaşlığımızın nəticəsidir.

Düşünürəm, indi vaxt gəlib çatıbdır ki, Avropa Birliyinin parlamenti ilə də əməkdaşlıq edək. Ona görə də siz Azərbaycana gəlmisiniz. Mən bunu bir daha məmnuniyyətlə qəbul edirəm. Keçmiş təcrübəni nəzərə alaraq, hesab edirəm ki, biz sizinlə çox səmərəli əməkdaşlıq edə bilərik. Biz dərk edirik ki, sizin parlamentin də çox sərt şərtləri var. Avropanın, demək olar, bütün ölkələri Avropa Şurasının uzvləridir. Amma Avropa Birliyində isə üzvlərin sayı məhduddur. Mən bilirəm, keçmişdə sosialist sistemində olan bir çox Şərqi Avropa ölkələri indi çalışırlar ki, Avropa Birliyinə daxil olsunlar. Amma şərtləri həyata keçirməlidirlər. Düşünürəm ki, bu şərtləri həyata keçirmək üçün o ölkələrə də vaxt lazımdır. Bunun üçün əməkdaşlıq lazımdır. Bu sahədə biz sizinlə əməkdaşlığa hazırıq.

İkinci sualınız haqqında onun deyə bilərəm ki, güman edirəm, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında məlumatınız var. Bu, ola bilər ki, keçmiş Sovetlər İttifaqı məkanında ən köhnə və ən ağır münaqişədir. O, 1988-ci ildə başlayıbdır və təşəbbüskarı Ermənistandır. Ermənistan Azərbaycanın tərkibində olan Dağlıq Qarabağ vilayətini Azərbaycandan qoparıb özünə birləşdirmək məqsədi güdərək belə bir münaqişəyə başlayıbdır. Bu münaqişə sonra böyük bir müharibəyə çevrilibdir. Çox qanlar tökülüb, insanlar tələf olubdur.

Müxtəlif səbəblərə görə, bəzi ölkələrin bilavasitə göstərdiyi yardımdan istifadə edərək Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı, sonra isə Azərbaycanın onun ətrafındakı bir neçə böyük rayonunu işğal ediblər. Bunların nəticəsində indi Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş torpaqlardan bir milyondan artıq Azərbaycan vətəndaşı, azərbaycanlı zorla öz yerlərindən-yurdlarından çıxarılmışdır və indi çadırlarda ağır vəziyyətdə yaşayırlar. İşğal edilmiş rayonlarda Azərbaycanın, demək olar, bütün varidatı dağıdılıbdır.

Bütün bunlara baxmayaraq, biz hələ 1994-cü ilin may ayında atəşin dayandırılması haqqında Ermənistanla saziş imzalamışıq və ona indiyə qədər riayət edirik. Bütün bu illər ərzində biz məsələni sülh yolu ilə həll etməyə çalışmışıq. Güman edirəm ki, bilirsiniz, - məsələnin sülh yolu ilə həll edilməsi üçün 1992-ci ildə ATƏT Minsk qrupu yaradıbdır. Minsk qrupuna üç dövlət – Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa başçılıq edir. Biz ötən illər onlarla çox görüşlər keçirmişik, çox müzakirələr aparmışıq, müxtəlif təkliflər irəli sürülübdür. Ancaq hələ ki, bir nəticəyə gələ bilməmişik.

1996-cı ilin dekabr ayında – ATƏT-in Lissabon zirvə görüşündə həm Ermənistan üçün, həm də Azərbaycan üçün məqbul olan bir qərar qəbul edildi. Hesab edirəm ki, əgər biz onu həyata keçirə bilsəydik, münaqişə çoxdan bitmiş olardı. Amma Azərbaycan bunu qəbul etdi, Ermənistan isə bundan imtina etdi.

Minsk qrupunun həmsədrləri indi yenə fəaliyyət göstərirlər. Amma bununla yanaşı, 1999-cu ildə Ermənistan prezidenti ilə Azərbaycan prezidentinin bir neçə bilavasitə görüşləri və danışıqları olmuşdur. Güman edirəm ki, Minsk qrupunun gördüyü işə əlavə olaraq bu görüşlər, danışıqlar çox əhəmiyyətlidir, məsələnin sülh yolu ilə həll olunmasına kömək edir. Əgər oktyabr ayının 27-də Ermənistanda böyük terror hadisəsi baş verməsəydi, biz bəlkə də bunu həll edə bilərdik. Güman edirəm, parlamentdə olan terror hadisəsi barədə sizin məlumatınız var.

Mən bu gün də hesab edirəm ki, iki prezident arasında danışıqlar davam etməlidir. Minsk qrupunun həmsədrləri bu işlə daha fəal məşğul olmalıdır və biz məsələnin sülh yolu ilə həllinə nail olmalıyıq. Bizim fikrimiz bundan ibarətdir. Güman edirəm ki, elə bu da Avropa dəyərlərinə, Avropa Birliyinin tələblərinə uyğundur.

**P e r Q a h r t o n:** Əlbəttə, ümid yeri varsa, hesab edirəm ki, birbaşa görüşlər çox vacibdir. Mən elə bilirəm ki, ümid yeri də var.

**M a r i e – A n n e – İ s l e r B e k u i n:** Cənab prezident, mən Sizə hər şeydər əvvəl yaxşı səhhət arzulamaq istəyirəm. Mən də Avropa Parlamentindən Azərbaycana, eləcə də digər iki Cənubi Qafqaz ölkəsinə nümayəndə kimi göndərilmişəm. Ümid edirəm ki, beş illik mandatım dövründə Azərbaycanla bizim təşkilatımız

arasında yaxşı əlaqələr yaranacaqdır. Bu gün Sizə xüsusi sual vermək istəyirəm. Mən ətraf mühit məsələləri ilə yaxından məşğul olduğuma görə bu barədə sual verirəm. Bizim parlamentdə ətraf mühit, ekologiya məsələləri həmişə ön plana çəkilir. Biz istəyirik ki, Tbilisidə üç ölkəyə aid olan regional mərkəz yaradaq. Başa düşürük ki, Azərbaycan Ermənistanla münaqişədə olduğuna görə bəlkə də bu təşəbbüsə qatılmaq istəməz. Lakin elə bilirik ki, bu cür mərkəzin yaradılması həm siyasi, həm iqtisadi, həm də ekoloji baxımdan Azərbaycan üçün yararlı olar. Bu barədə Sizin fikrinizi öyrənmək istəyirik.

**H e y d ə r Ə l i y e v:** Əvvəla, sizə təşəkkür edirəm ki, mənə yaxşı səhhət arzulayırsınız. Səhhətim yaxşıdır. Amma yəqin ki, sizin arzunuz mənim səhhətimi daha da yaxşılaşdıracaqdır.

Sizin qaldırdığınız məsələ çox mühümdür. Təbiidir ki, ekologiya, təbii mühitin çirklənməsinin qarşısının alınması nəinki başa çatdırdığımız XX əsrin, həm də XXI əsrin əsas problemlərindən biridir.

Bizim üçün – Azərbaycan üçün, Cənubi Qafqaz üçün bu, xüsusən lazımdır. Bilməlisiniz ki, bu barədə Azərbaycan daha da əlverişsiz vəziyyətdədir. Ətraf mühitin qorunması, ekologiya məsələləri, təbiidir ki, hər bir ölkədə bu işə münasibətdən, ətraf mühiti çirkləndirən amillərin qarşısının alınmasından asılıdır. Bu sahədə bizim imkanlarımız o qədər də geniş deyildir. Azərbaycan böyük sənaye ölkəsi, xüsusən Bakı iri sənaye şəhəridir. Keçmişdə bizdə kimya sənayesi, neftlə, qazla bağlı olan başqa sənaye sahələri çox inkişaf etmişdi. Təbiidir ki, bu da ətraf mühitin çirkləndirilməsi baxımından daha çox təsir göstərirdi.

Doğrudur, indi bu sənaye müəssisələrinin bir qismi işləmir. Bəlkə bu, istehsalda bizə zərər verirsə də, ətraf mühitin qorunmasında xeyir verir.

Amma ekologiya elə məsələdir ki, o, bir ölkənin çərçivəsində, onun sərhədləri daxilində məhdudlaşmır. Bu, bütün dünyaya aid problemdir. Onun dövlətlərin sərhədi kimi sərhədi yoxdur. Məsələn, Azərbaycana gələn böyük çaylar Araz çayı və Kür çayıdır. Onların ikisi də mənbəyini Türkiyədən götürür, ancaq Azərbaycana Ermənistanın və Gürcüstanın ərazisindən keçib gəlir. Biz bu çaylardan bütün məqsədlər üçün istifadə edirik, çünki Azərbaycanın əsas su mənbələridir. İçməli suyun çoxunu bu çaylardan götürürük. Sizə deyə bilərəm ki, Bakının su təchizatının təxminən 70 faizi Kür çayından götürülən suyun hesabınadır. Kür çayı Arazla birləşəndən sonra bir çay olur.

Keçmişdə, Sovetlər İttifaqı zamanı biz bir dövlət daxilində olduğumuza görə, məsələn, Ermənistandan gələn Araz çayına tökülən zəhərli tullantıların nə qədər olduğunu bilir və bunun qarşısını almağa çalışırdıq. Eləcə də Gürcüstandan gələn Kür çayında. Amma indi buna imkanımız yoxdur. Biz bilmirik ki, Ermənistanın ərazisində Araz çayına nə qədər zəhərli tullantılar atılır. Yəni harada, nə cür atılır – onu bilmirik. Amma burada suyu analiz edərkən onun tərkibində zəhərli maddələrin olduğunu müşahidə edirik.

Ona görə də Cənubi Qafqaz çərçivəsində ekologiya sahəsində əməkdaşlıq etmək bizim üçün vacibdir. Sizin təşəbbüsünüz yaxşı təşəbbüsdür. Amma iş bundadır ki, Ermənistanla Azərbaycan arasında heç bir əlaqə yoxdur. Yəni biz münaqişə şəraitindəyik. Belə bir halda hansısa formada bizim əməkdaşlıq etməyimiz mümkün deyildir. Amma buna baxmayaraq, biz o təklifi hələ diqqətlə öyrənirik. Çünki bizdə bu təklifi qəbul etməyin tərəfdarları da var, amma ona etiraz edənlər də çoxdur. Ona görə də mən hələ son fikrimi deyə bilmərəm. Amma eyni zamanda, hesab edirəm ki, sizin təşəbbüsünüz dəyərlidir. Biz də son nəticəyə gələndə bu barədə sizə məlumat verərik.

**J o o t L a g e n d u k:** Cənab prezident, yəqin Sizə məlumdur ki, biz buraya gəlməzdən əvvəl Gürcüstanda olmuşuq və burada olduğumuz müddətdə ayırd etmişik ki, iki ölkənin çox oxşar problemləri vardır. Elə problemlər vardır ki, hər iki ölkəyə bunu şamil etmək olar. Bu da korrupsiya problemidir. Bildiyiniz kimi, Avropa Birliyi də korrupsiya probleminə çox həssas yanaşır. Əgər Siz ölkənizdə iqtisadi artıma nail olmaq istəyirsinizsə, ölkənizdə həm siyasətdə, həm cəmiyyətdə demokratik təsisatları inkişaf etdirmək əzmindəsinizsə, bu, əlbəttə ki, Avropa Birliyinin ən çox fikir verdiyi sahə olacaqdır. Avropa Birliyində bu, üstün sahələrdən sayılır. Biz Gürcüstanda olarkən sizin prezident həmkarınız cənab Şevardnadze ilə bu məsələni müzakirə etmişik və istərdik Sizin də fikrinizi öyrənək ki, korrupsiya ilə mübarizə aparmaqda hansı şərtləri əsas götürəcəksiniz?

**H e y d ə r Ə l i y e v:** Siz düşünürsünüz ki, bu problem bir Gürcüstandadır, bir də Azərbaycandadır? Siz belə düşünürsünüz?

**J o o t L a g e n d u k:** Xeyr, belə düşünmürəm. Amma bilirəm ki, bu problem Sizin ölkələrdə var.

**H e y d ə r Ə l i y e v:** Bu problem bizim ölkələrdə var. Amma sizin ölkələrdə də var.

**J o o t L a g e n d u k:** Mən Hollandiyadanam, o isə İtaliyadan. Xahiş edirəm, ona aid edin.

**H e y d ə r Ə l i y e v:** İtaliyada, Hollandiyada yoxdur?

**J o o t L a g e n d u k:** Bizdə var. Çalışırıq ona qarşı mübarizə aparaq.

**H e y d ə r Ə l i y e v:** Mən sizə deyim, Hollandiyada da var. Avropa Birliyinin İqtisadi Komissiyasında korrupsiya meydana çıxdı. Bundan xəbəriniz var? Onların hamısı istefaya getdilər. Bundar xəbəriniz var? Jak Santer, Van Den Bruk və başqaları.

**J o o t L a g e n d u k:** Cənab prezident, Sizi onu da deyim ki, bizim qrupumuz əsas təşəbbüskar oldu ki, onlar istefaya getsinlər. Biz onlardan da soruşduq və Sizə də bu sualla müraciət edirik.

**H e y d ə r Ə l i y e v:** Onda sizə alqış. Mən sizi tərifləyirəm. Onda siz verdiyiniz sualı gərək düzgün qoyaydınız. Gürcüstanda, Azərbaycanda korrupsiya var. Korrupsiya hər yerdə var. Əgər Avropa Birliyinin İqtisadi Komissiyasının əksəriyyəti korrupsiyaya bulaşmış oldularsa və deyirsiniz, sizin təşəbbüsünüzlə onlar cəzalandılar, istefa verdilərsə, demək, bu bəla təkcə Azərbaycana, Gürcüstana və başqa ölkələrə aid deyil, bütün ölkələrə aiddir.

Mən bunu niyə deyirəm? Çünki bəzi ölkələrdə öz ölkələrində olan vəziyyəti, nöqsanları görmürlər, ancaq yeni müstəqillik əldə etmiş ölkələrdə – Azərbaycanda, Gürcüstanda, yaxud başqa ölkələrdə – bunu görürlər və bunu da şişirdirlər. Ona görə xahiş edirəm, gələcəkdə bunu nəzərə alasınız, öz nöqsanlarınızı da görəsiniz.

Amma indi mən sizin sualınıza cavab verirəm, Korrupsiya Azərbaycanda var və bu korrupsiya bir indi deyil, 30 il bundan öncə də var idi, 40 il bundan öncə də var idi. Məsələn, mən vaxtilə bu məsələni çox dərindən öyrənmişəm. İnsan cəmiyyəti, dövlət yaranandan korrupsiya olubdur. Ancaq onunla mübarizə də olubdur. Bu mübarizə, əlbəttə ki, korrupsiyanı müəyyən qədər azaldıb, amma təəssüf ki, onun tamamilə kökünü kəsə bilmir.

Mən 30 il bundan öncə Azərbaycana başçı seçilmişdim. Məndən üç il sonra dostum Şevardnadze Gürcüstana başçı seçildi. SSRİ-yə daxil olan 15 müttəfiq respublikadan iki ölkədə – öncə Azərbaycanda, ondan sonra Gürcüstanda Heydər Əliyev və Şevardnadzenin təşəbbüsü ilə korrupsiyaya qarşı güclü mübarizə başlandı. Biz Şevardnadze ilə həm dostluq, həm də bu barədə eyni əqidəyə malik insanlarıq. Azərbaycanda mən korrupsiya ilə apardığım mübarizəyə görə özümə çox düşmənlər qazandım. Amma bu məni narahat etmir.

Doğrudur, biz yeni iqtisadi sistem qururuq. Belçika səviyyəsinə, İtaliya səviyyəsinə, Fransa səviyyəsinə bizim gəlib çatmağımız üçün hələ illər, bəlkə də on illər var. Ancaq biz bu yol ilə gedirik.

Keçid dövründə, bəzi strukturların dəyişilməsi prosesində, təbii ki, korrupsiya üçün daha da əlverişli şərait yaranır.

Siz bunu bilməlisiniz ki, bəlkə korrupsiyadan mənim qədər narahat olan ikinci adam Azərbaycanda tapa bilməzsiniz. Çünki mən həyatım boyu bununla mübarizə aparmışam. Bu gün də aparıram, gələcəkdə də aparacağam. Bunun müxtəlif formaları var. Bilirsiniz, bəziləri illüziyaya qapılırlar ki, bazar iqtisadiyyatı olandan sonra korrupsiya olmayacaqdır. Yaponiyada bazar iqtisadiyyatı var. Nə üçün korrupsiya var? Orada neçə Baş nazir korrupsiyaya görə istefa verdi. İtaliyada baş nazirlər korrupsiyaya görə istefa verdilər. Başqa ölkələrdə də. Elədir?

**J o o t L a g e n d u k:** Çox doğru deyirsiniz.

**H e y d ə r Ə l i y e v:** Doğru deyirəm. Demək ki, guya biz bazar iqtisadiyyatına keçəndən sonra, bütün iqtisadiyyat özəlləşdiriləndən sonra korrupsiya olmayacaq – bu, xülyadır.

Hər məsələnin bir nəzəri cəhəti var, bir də praktiki cəhəti var. Bəziləri bu işə ancaq nəzəri cəhətdən yanaşırlar. Onlar ya həyatı bilmirlər, ya da çox zəif bilirlər. Amma həyatı, onun dərinliklərini bilən adam yaxşı dərk edir ki, bu, ağır problemdir, çətin problemdir, xalq üçün, cəmiyyət üçün, dövlət üçün böyük zərbələr gətirən problemdir. Bununla mübarizə aparmaq lazımdır. Amma illüziyaya da qapılmaq lazım deyil ki, guya haradasa hər şey düzəlibdir, korrupsiya yoxdur.

Bəzən ayrı-ayrı ölkələrdə, Avropada, yaxud dünyada ictimai təşkilatlar götürüb siyahı düzəldirlər ki, korrupsiya üzrə hansı ölkə neçənci yerdədir – birinci yerdədir, üçüncü yerdədir, beşinci yerdədir. Hansı qanunun əsasında, hansı prinsip əsasında? Bunlar hamısı subyektiv fikirlər əsasındadır. Biri hesab edir ki, onun ölkəsində korrupsiya yoxdur, amma korrupsiya həqiqətən var. Bu birisi hesab edir ki, onun ölkəsində korrupsiya var. Ona görə o məlumatlar da hamısı qeyri-obyektiv, subyektiv xarakter daşıyır.

Mən sizə bildirirəm ki, biz Azərbaycanda korrupsiyanın mövcud olmasını bilirik və bunu bizə deyəndə heç kəs «Amerika açmır». Bu, bizim üçün məlum şeydir. Mübarizə də aparırıq, ancaq mübarizəmiz hələ istədiyimiz nəticəni vermir. Amma bu, bizi ruhdan salmır. Biz mübarizəmizi bundan sonra da aparacağıq.

Bəlkə də biz bu islahatları tamamilə həyata keçirəndən sonra həqiqətən də korrupsiya azalacaqdır. Amma güman edəsiniz ki, tamam yox olacaqdır, - bilmirəm, bəlkə sizin ölkənizdə olsun. Mən istərdim ki, hələ ki sağam, öz həyatımda onu görüm.

**J o o t L a g e n d u k:** Cənab prezident, Sizi ölkəmizə dəvət edirəm.

**H e y d ə r Ə l i y e v:** Gəlim sizə nə deyim? Gəlim sizə korrupsiyanı göstərim? Yaxşı, gələrəm. Amma faktları da gətirib göstərərəm ki, sizdə də korrupsiya var. Məni düzgün başa düşün. Mən sizinlə çox səmimi danışıram. Amma ciddi olaraq sizin sualınıza cavab verirəm ki, bəli, Azərbaycanda korrupsiya var və biz onunla mübarizə aparırıq. Əgər bizim imkanımız olsaydı, onun kökünü bir ayda, bir ildə, iki ildə kəsərdik. Xalqımız da rahat olardı, prezident də rahat olardı.

**P a t s u S o r e n s e n:** Cənab prezident, mən həqiqətən Sizi anlayıram. Hər ölkənin, hər bir dövlət başçısının, hökumətin, dövlətin borcudur ki, korrupsiyaya qarşı, «Çirkli pulların yuyulmasına» qarşı, mütəşəkkil cinayətkarlığa qarşı, ümumiyyətlə, cinayətin hər bir növünə qarşı və insan hüquqlarının pozulmasına qarşı mübarizə aparsın. Biz Sizi çox güclü bir diplomat kimi tanıyırıq. Siz çox diplomatik bir prezidentsiniz və ölkənizdə yaxşı tarazlığa nail olmusunuz.

Burada olduğumuz müddətdə isə mən yekun olaraq onu demək istəyirəm ki, Sizin çox güclü xalqınız vardır. Çünki bu güclü xalqınız ölkənizin son dövrlərdəki əziyyətlərinə baxmayaraq tab gətirir, dözür, bu çətinliklərə sinə gərir. Eyni zamanda müşahidə etmişəm ki, Sizin ölkənizin çox qədim mədəniyyəti, gözəl incəsənət xadimləri, əlbəttə, dadlı yeməkləri vardır. Burada olduğumuz müddətdə bizə çox yaxşı dostluq münasibəti göstərilibdir. Amma eyni zamanda bizə qaçqınları da göstəriblər, biz onların həyatının ağırlığını da görmüşük.

Cənab prezident, bir diplomat kimi Sizə müraciət edərək xahiş etmək istəyirəm ki, bəlkə Siz digər ölkələrin prezidentləri, kralları ilə işinizi daha yaxından qurasınız, onlarla daha çox söhbət edəsiniz, onları bu problemə daha çox yönəldəsiniz. Çünki qaçqınların bu cür əziyyət çəkməyini görmək, qaçqın uşaqların bu cür problemin içərisində olduğunu görmək çox çətindir və bizim borcumuzdur ki, onların yaxşı gələcəyini təmin edək. Bəlkə bu haqda biz sizinlə birlikdə düşünək?

**H e y d ə r Ə l i y e v**: Çox sağ olun. Azərbaycan haqqında, bizim xalqımız haqqında, o cümlədən mənim haqqımda dediyiniz xoş sözlərə görə təşəkkür edirəm.

Bizi narahat edən nədir? Səkkiz ildən artıqdır ki, yerindən-yurdundan çıxarılmış insanlar çadırlarda yaşayırlar. Dünyada bəlkə ikinci bir ölkə tapa bilməzsiniz ki, səkkiz milyonluq əhalisindən bir milyonu çadırlarda yaşasın. Bilmirəm, siz çadır şəhərciklərində oldunuz, gördünüz, yoxsa yox? Ya buradakı qaçqınları görmüsünüz? Siz şəhərdə görmüsünüz, amma o çadır düşərgələrinə getsəniz, oradan gözləriniz yaşarmadan çıxa bilməzsiniz.

Bəzən bizim qonaqlar o çadır şəhərciklərinə gedirlər. Qayıdıb gələndən sonra mən onlarla görüşəndə görürəm ki, nə qədər həyəcanlıdırlar, onlara nə qədər təsir edibdir.

Mənim bir böyük musiqiçi dostum var. Yəqin ki, siz Avropada onu tanıyırsınız – Mstislav Rostropoviç. Eyni zamanda prezident Jak Şirakın dostudur. Jak Şirak ona Slava deyir. Mstislav demir, Slava deyir. Mən də ona Slava deyirəm. O, buraya gəlmişdi və arzu etdi ki, getsin qaçqınları görsün. Biz vertolyotla onu bir düşərgəyə göndərdik.Geri qayıdandan sonra mən onunla axşam görüşdüm. Göz yaşı tökürdü, deyirdi insan belə vəziyyətdə yaşaya bilərmi? O, mədəniyyət xadimidir.

İkinci misal deyil. Zbiqnev Bjezinskini tanıyırsınız? Yox? Amerikanın keçmiş prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri, köməkçisi odubdur. Çox böyük siyasət xadimidir. O, vəzifədə olduğu zaman Amerika prezidentinin göstərişi ilə Əfqanıstanda olubdur, Afrikada olubdur, Hindistanda olubdur, qaçqınların düşərgələrində olubdur. O da bura ziyarətə gəlmişdi. Arzu etdi, biz də onu yenə vertolyotla həmin şəhərciklərə göndərdik. Geri gələndə mən onunla axşam görüşdüm. Hissiyyatları o qədər idi ki, özünə gələ bilmirdi. O deyirdi ki, mən indiyə qədər bir çox qaçqın düşərgələrində olmuşam. Bir də deyirəm, - Əfqanıstanda, Hindistanda, Afrikada deyir, beləsini mən görməmişdim. Həqiqətən, beləsi yoxdur.

Siz çox düzgün deyirsiniz ki, mən başqa ölkələrin başçıları ilə bu barədə danışsam bəlkə onlar bizə kömək etdilər. Hamısı ilə danışmışam, özü də bir dəfə yox.

Bir neçə gün bundan öncə, ayın 15-də mən Ağ evdə prezident Bill Klinton ilə görüşdüm. Bəlkə son 5-6 il içərisində bu, mənim prezident Klintonla 10-cu görüşümdür. Bu problemi hər dəfə ona deyirəm.

Prezident cənab Şirak ilə mən tez-tez görüşürəm. Onu dəvət etmişdim, bura gəlməliydi. Sonra gələ bilmədi. Amma planlaşdırır, gələcəkdir. Real vəziyyəti – kitablardır, fotoşəkillərdir, kasetlərdir – bunların hamısını biz onlara veririk, göstəririk. İsveçrənin prezidentlərindən neçəsi ilə görüşmüşəm, onlara da danışıram.

1997-ci ildə prezident Skalfaronun dəvəti ilə İtaliyada rəsmi səfərdə idim. Bir neçə gün orada oldum. Ona da, o vaxt Baş nazir Prodi idi, - ona da bu barədə hamısını bildirdim.

Mən sizə bu prezidentlər, krallar, - hansılarla ki, danışıqlar aparmışam, - həddindən çox deyə bilərəm: Almaniyanın keçmiş prezidenti ilə, Kansler Kol ilə, başqaları ilə, Böyük Britaniyanın keçmiş Baş naziri və indiki Baş naziri ilə, xarici işlər nazirləri ilə. Sonra bu ölkələrin bizdə səfirlikləri var – Fransanın səfiri var, İtaliyanın səfiri var, Almaniyanın, İngiltərənin, Amerikanın və başqa ölkələrin burada səfirləri çoxdur. Səfirlər gedib qaçqınları görürlər. Yəni demək istəyirəm ki, biz bu barədə dövlət başçılarına, dünyanın siyasi xadimlərinə, beynəlxalq təşkilatlarda olan insanlara ətraflı məlumatlar veririk, xahiş edirik. Onlar məsələni anlayırlar, ancaq həll olunması üçün bir təsirli tədbirlər görmürlər. Problem bundadır.

**P e r Q a h r t o n:** Cənab prezident, bu görüşə görə Sizə minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun, bizə imkan verdiniz ki, Sizə sual verək. Görürəm ki, Avropa Birliyi haqqında, onun komissarları haqqında Sizin çox yaxşı məlumatınız var. Bilirsiniz ki, onlar vəzifələrini nəyə görə və hansı səhvlərə görə tərk ediblər. İstərdik, biz də Azərbaycan haqqında bu qədər məlumatlı olaq.

Beləliklə, Azərbaycana bizim səfərimiz Sizinlə keçirdiyimiz bu görüşlə yekunlaşır. Elə bilirəm ki, yığdığımız faktlara Sizin bizə verdiyiniz faktlar da əlavə olunacaqdır və bundan sonra biz Sizinlə çox faydalı əməkdaşlıq edəcəyik.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm. Mən sizinlə görüşümdən məmnun olduğumu bir daha bildirirəm. Sizin Azərbaycana səfərinizi, demək, ölkəmizə, xalqımıza göstərdiyiniz diqqəti qiymətləndirirəm. Hörmətli xanımın Azərbaycan xalqı haqqında, bizim mədəniyyətimiz haqqında, hətta yeməklərimiz haqqında dediyi xoş sözlərə görə təşəkkür edirəm. Ümid edirəm ki, biz Avropa Birliyi ilə bundan sonra daha da sıx əməkdaşlıq

edəcəyik. Biz bu əməkdaşlığa hazırıq. Amma bilirik ki, bu, asan məsələ deyildir. Sizin dediyiniz çox çətindir. Şərtləriniz də çətindir. Amma mən həmişə belə düşünmüşəm ki, insan gərək ən ağır şərtləri götürsün, ən ağır şəraitdə çalışsın ki, nailiyyət əldə etsin. Sizə uğurlar arzulayıram. Sağ olun.

**BOSNİYA VƏ HERSEQOVİNANIN**
**RƏYASƏT HEYƏTİNİN SƏDRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ALİYA İZZETBEQOVİÇƏ**

Hörmətli cənab sədr!

Bosniya və Herseqovinanın Müstəqillik günü bayramı münasibətilə sizi və ölkənizin dost xalqını səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasında dostluq və əməkdaşlıq münasibətləri inkişaf edərək xalqlarımızın mənafeyinə xidmət edəcəkdir.

Cənab sədr, sizə möhkəm cansağlığı, səadət və uğurlar, ölkənizə sülh, tərəqqi və əmin-amanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 mart 2000-ci il*

**AVSTRİYA RESPUBLİKASININ
FEDERAL KANSLERİ
ZATİ-ALİLƏRİ
CƏNAB VOLFQANQ ŞÜSSELƏ**

Hörmətli cənab kansler!

Avstriya Respublikasının federal kansleri təyin edilməyiniz münasibətilə sizi ürəkdən təbrik edirəm.

Azərbaycan Respublikası ilə Avstriya Respublikası arasında təşəkkül tapmış münasibətlərə böyük əhəmiyyət verirəm. Ümidvaram ki, ölkələrimiz arasındakı əlaqələr xalqlarımızın rifahı naminə daim genişlənəcək və inkişaf edəcəkdir.

Sizə cansağlığı, işlərinizdə uğurlar, xalqınıza sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 mart 2000-ci il*

## ESTONİYANIN XARİCİ İŞLƏR NAZİRİ TOMAS HENDRİK İLVES VƏ ONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*2 mart 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab nazir! Hörmətli qonaqlar! Mən sizi, dost Estoniyanın nümayəndə heyətini səmimi-qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Estoniya və Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bizim ölkələrimiz arasındakı əlaqələr intensiv inkişaf edir. Xarici işlər nazirləri səviyyəsində həm Estoniyada, həm Azərbaycanda görüşlər keçirilmişdir, bir neçə dövlətlərarası sənədlər imzalanmışdır. Bu, həm Estoniya dövlətinin, həm də Azərbaycan dövlətinin bir-birinə olan münasibətini və hər iki tərəfdən ölkələrimiz arasındakı əlaqələrin inkişaf etməsinə qoyulan səyləri göstərir.

Mən beynəlxalq təşkilatlarda Estoniyanın prezidenti cənab Meri ilə dəfələrlə görüşlər keçirmişəm, danışıqlar aparmışam. Bizim əlaqələrimiz çox səmimi dostluq xarakteri daşıyır. Cənab nazir, indi sizin Azərbaycana rəsmi səfəriniz və burada Xarici İşlər Nazirliyində apardığınız danışıqlar və güman edirəm, bu gün, sabah birgə keçirəcəyiniz işlər ölkələrimiz arasında olan əlaqələri, şübhəsiz ki, daha da inkişaf etdirəcəkdir.Biz bunu istəyirik. Çünki mən müşahidə edirəm ki, Estoniya ilə Azərbaycanın beynəlxalq aləmdə, beynəlxalq təşkilatlarda mövqeləri hər dəfə üst-üstə düşür. Mən sizi bir də salamlayıram. Buyurun.

**T o m a s H e n d r i k İ l v e s:** Çox sağ olun, cənab prezident. Mən şəxsən Sizi salamlayıram və söhbətimi Estoniyanın prezidenti cənab Merinin Sizə şəxsi salamları ilə başlamaq istəyirəm. O da Sizinlə olan görüşlərini çox yaxşı xatırlayır, daim yadına salır və məndən çox xahiş etdi ki, onun hərarətli salamlarını sizə yetirim.

Cənab prezident, Siz çox doğru vurğuladınız ki, beynəlxalq forumlarda və beynəlxalq təşkilatların işində Estoniyanın və Azərbaycanın bir çox sahədə mövqeləri üst-üstə düşür. Onlar müxtəlif səpgidə olan bir çox məsələləri eyni cür görürlər. Bu da ondan irəli gəlir ki, biz bir-birimizə yaxşı münasibət bəsləyirik və ümumiyyətlə, bir-birimizlə əlaqədə olmaq istəyirik.

**H e y d ə r Ə l i y e v:** Eyni zamanda ona görə ki, bizim siyasətlərimiz bir-birinə uyğundur.

**T o m a s H e n d r i k İ l v e s:** Bəli və bizim eyni qonşumuz vardır. Eyni zamanda Estoniya Azərbaycanla konkret məsələlər üzrə, spesifik məsələlər üzrə də əməkdaşlıq etmək istəyir və Sizə də məlumdur ki, Avropa Şurasına daxil olmaqda Azərbaycanı Estoniya çox dəstəkləyir. Ona görə də mən Sizi əmin etmək istəyirəm ki, indiyə qədər olduğu kimi, bundan sonra da Estoniya əlindən gələni edəcəkdir ki, Azərbaycan Avropa Şurasının üzvü olsun.

Bu gün səhər biz sizin xarici işlər naziri ilə müzakirələr apararkən konkret hansı məsələlərdə Azərbaycana daha çox yardım edə biləcəyimizi müzakirə etdik.

Digər bir sahədə – iqtisadi sahə üzrə biz istərdik ki, daha sıx əlaqədə olaq və Azərbaycanla iqtisadi əlaqələrimizi Azərbaycanda daha da yüksək səviyyəyə qaldıraq. Elə bu münasibətlə, cənab prezident, mən özümlə böyük nümayəndə heyəti gətirmişəm. Şəxsi sektoru təmsil edən çoxlu nümayəndələr mənimlə birlikdə Azərbaycana gəliblər və onlar çox istəyirlər ki, Azərbaycanla ticarət və kommersiya sahəsində işlər görsünlər.

Cənab prezident, mən həm də çox məmnunam ki, bu gün biz ölkələrimiz arasında iki sazişə imza atacağıq. Elə bilirəm ki, bu sazişlər istəklərimizə, arzularımıza əlavə olaraq hüquqi sənədlərdir və biz onlara əsaslanaraq gələcəkdə biznes əlaqələrimizi quracağıq. Ona görə də söhbətin bu yerində demək istəyirəm ki, Azərbaycan əmin ola bilər ki, Estoniyanın simasında onun yaxşı bir dostu vardır və Estoniya istəyir ki, Azərbaycanla münasibətləri daha yüksək səviyyəyə qaldırsın.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl. Bir daha təsdiq edirik ki, bizim münasibətlərimiz dostluq xarakteri daşıyır, bu münasibətlər ölkələrimiz arasındakı əməkdaşlığın inkişaf etməsinə çox yaxşı əsas yaradır və təbiidir ki, hər iki tərəfdən lazımi tədbirlər görülməlidir.

Bizim iqtisadi əlaqələrimiz, təbiidir ki, genişlənə bilər və bu, çox sevindirici haldır ki, siz özünüzlə bir qrup biznesmen də gətirmisiniz. Güman edirəm, onlar Azərbaycanda müəyyən iqtisadi strukturlarla və özəl sektorun nümayəndələri ilə görüşüb lazımi əlaqələr yarada bilərlər.

Avropa Şurasına daxil olmağımızla əlaqədar indiyə qədər sizin göstərdiyiniz dəstəyə görə təşəkkür edirəm. Güman edirəm, bilirsiniz ki, bu yaxın aylarda bu məsələ həll olunacaqdır və şübhə etmirəm ki, indiyə qədər olduğu kimi, bundan sonra da siz öz səylərinizi göstərəcəksiniz.

Təqdim olunmuş sənədlər, təbiidir ki, imzalanacaqdır. Ancaq güman edirəm ki, biz gələcəkdə əlaqələrimizi inkişaf etdirmək üçün daha da çox dövlətlərarası, hökumətlərarası sənədlər hazırlayıb imzalaya bilərik.

Bizim üçün bir şey də maraqlıdır ki, Estoniyada müəyyən qədər azərbaycanlı yaşayır. Bilmirəm, onlar sizin ölkənin vətəndaşıdır, yoxsa yox? Vətəndaşıdır. Çox gözəl! Çünki, bilirəm ki, Estoniya vətəndaşlığa qəbul etməkdə çox ciddi qanunlar yaradıbdır. Əgər bizim soydaşlarımız Estoniyanın vətəndaşıdırsa, bu, çox yaxşı haldır. Mən güman edirəm ki, siz azərbaycanlılardan öz cəmiyyətinizdə gedən proseslərə görə razı ola bilərsiniz. Bizim xalqımız çox işgüzar xalqdır, çox mehriban, dostluq əlaqələrini sevən xalqdır və başqa ölkələrdə olduğu zaman o ölkələrin qanun-qaydalarına, milli ənənələrinə çox böyük hörmət göstərən xalqdır.

**Tomas Hendrik İlves:** Cənab prezident, bizim nümayəndə heyətinin tərkibində Estoniya vətəndaşı olan etnik azərbaycanlı da vardır.

**Heydər Əliyev:** O buradadır?

**Vilayət Quliyev (Azərbaycanın xarici işlər naziri):** Cənab prezident, biznesmenlərin içərisindədir.

**Tomas Hendrik İlves:** Keçən gecə o, söhbətlərimizdə tərcüməçi rolunu ifa edirdi. Ümumiyyətlə, biz Estoniyada yaşayan azərbaycanlılarla fəxr edirik. Onlar Estoniyanın inkişafına müəyyən səylər qoymuş və töhfələr vermişlər. Bu səhər Azərbaycanın xarici işlər naziri ilə danışarkən onu da qeyd etdim ki, Tallin şəhərində Azərbaycan restoranları vardır və onlar bir çox eston restoranlarından daha zəngindir, daha yaxşıdır.

**Heydər Əliyev:** Çox gözəl. Demək, Tallinə gələndə Azərbaycan restoranına getmək mümkün olacaqdır.

**Tomas Hendrik İlves:** Tamamilə doğrudur. Cənab prezident, nəzərinizə bir də onu çatdırmaq istəyirəm ki, Siz dediniz, Estoniyada vətəndaşlıq almaq bir qədər çətindir, Əslində bizim ölkədə vətəndaşlıq qazanmaq bir o qədər də çətin deyildir. Sadəcə, dili öyrənmək lazımdır və mən müşahidə etmişəm ki, Estoniyada yaşayan azərbaycanlılar eston dilini öyrənməkdə heç bir çətinlik çəkmirlər, - düzdür, digərləri çətinlik çəkirlər, - amma bilmirəm nəyə görə. Bəlkə bizim dillərimizin strukturları bir qədər uyğundur, ona görə?

**Heydər Əliyev:** Mən bunu deyəndə onu nəzərə almırdım ki, azərbaycanlılar üçün orada vətəndaşlıq almaq çətindir. Siz bilirsiniz mən nəyi deyirəm. Bunu izah etmək istəmirəm. O da təbiidir. Mən hesab edirəm ki, siz düzgün edirsiniz.

Çox gözəl. Mən sizin ölkənizi görmüşəm. Çox gözəl ölkəniz var. Tallin, Tartu şəhərlərində olmuşam və vaxtilə, Sovetlər İttifaqı mövcud olan zaman ümumiyyətlə, Qafqazdan, Azərbaycandan çoxları Baltikyanı ölkələrə, o cümlədən Estoniyaya istirahətə, bir də, daha çox özləri üçün Bakıda, ya başqa yerdə qıt olan mallar almağa gedirdilər.

Çünki o vaxtlar həm Estoniya, həm Litva, həm də Latviya Sovetlər İttifaqının başqa müttəfiq respublikalarından seçilirdilər – həm orada olan şəraitə görə, həm orada olan istehlak mallarının keyfiyyətinə görə, oteldə, başqa yerlərdə göstərilən xidmətlərə görə. Ona görə də o vaxt Baltikyanı ölkələrə gedən adamlar bəzən hesab edirdilər ki, xarici ölkəyə gedirdilər. Amma indi, güman edirəm ki, siz bu məsələlərdə daha da çox irəliyə getmisiniz.

Dillərimizi, bir-birimizin dillərini tez öyrənə biliriksə, yəqin ki, bunun da kökü var. Hər halda, sizin diliniz təbiidir ki, fin dili ilə çox yaxındır. Norveç səyyahı və böyük tədqiqatçı alimi Tur Heyerdal bir neçə dəfə Azərbaycanda olubdur və o, isbat edir ki, vaxtilə norveçlilər Azərbaycandan oraya, indi yaşadıqları ölkəyə gediblər. Düşünmürəm ki, hər bir dili öyrənmək asandır, ancaq tez öyrənə bilirlərsə, demək, çalışırlar və bu dili sevirlər.

**Vilayət Quliyev:** Cənab prezident, həm də dillərimizin qrammatik quruluşları yaxındır. Hər iki dil – türk dili də, eston dili də fin-uqor dil ailəsinə daxildir.

**Heydər Əliyev:** Bu da bizi yaxınlaşdırır.

**Tomas Hendrik İlves:** Cənab prezident, bəlkə bu sualı bir qədər sonra verməliydim. Amma Sizdən soruşmaq istərdim ki, biz Estoniyada Sizi bu regionun bir lideri kimi görürdük və regionda gedən hadisələr haqqında Sizin fikrinizi öyrənmək istərdik. Ümumiyyətlə, regionda gedən inkişaf haqqında və Çeçenistanda baş verən hadisələrlə bağlı Sizin fikrinizi öyrənmək bizim üçün maraqlıdır.

**Heydər Əliyev:** Bu, çox vaxt aparacaqdır. Çünki bizim region çox mürəkkəb regiondur. Güman edirəm, sizin bu barədə məlumatınız var. Regionun ən ağır, çətin problemi Ermənistan–Azərbaycan münaqişəsidir. Ermənistanın Azərbaycana təcavüzü, Azərbaycanın torpağı olan Dağlıq Qarabağı öz əlinə keçirməsi və müharibə, bunun nəticəsində Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal olunması, işğal edilmiş torpaqlardan bir milyon azərbaycanlıların çıxarılması – bunlar hamısı son illərin reallığıdır.

Güman edirəm, artıq sizə bu barədə məlumat veriblər ki, beş ildən çoxdur atəş dayandırılıb, sülh danışıqları aparırıq. Məsələni sülh yolu ilə həll etmək istəyirik və təbiidir ki, bunun həll olunması da bir şərtlə ola bilər ki, Azərbaycanın işğal edilmiş torpaqlarından Ermənistan silahlı qüvvələri çıxsın, Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun, yerindən-yurdundan didərgin düşmüş azərbaycanlılar öz evlərinə qayıtsınlar. Belə olan halda Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək dərəcəli özünüidarəetmə hüququ vermək olar.

Bu prinsiplər 1996-cı ildə ATƏT-in Lissabon zirvə görüşündə qəbul olunmuşdur. Onu da deməliyəm ki, Estoniya da buna səs vermişdir. Xatirimdədir, prezident Lennart Meri ilə mənim orada bu barədə görüşüm olmuşdu. Amma Ermənistan tərəfi məsələni bu prinsiplər əsasında həll etməyə indiyə qədər razılıq vermir. Onlar bu işə çox böyük ambisiyaları ilə münasibət göstərirlər. Biz isə bunlarla razı ola bilmərik.

Bilirsiniz ki, 1999-cu ildə bu sülh prosesini daha da sürətləndirmək üçün Ermənistan və Azərbaycan prezidentlərinin bir neçə bilavasitə görüşləri də olmuşdur. Mən bu görüşləri faydalı hesab edirəm. Çünki biz təsəvvür edirik, vəziyyət çox mürəkkəbdir. Ona görə hər bir vasitədən istifadə etmək lazımdır. Prezidentlərin birbaşa, bilavasitə görüşlərində məsələlər daha da dərindən təhlil oluna bilir və sülh yollarını tapmaq bəlkə daha da mümkün olur. Təəssüflər olsun ki, oktyabr ayında Ermənistanda baş vermiş terror hadisələri bizim bu danışıqlarımızı müəyyən qədər dayandırıbdır. Amma güman edirəm ki, bu danışıqlar davam edəcəkdir. Eyni zamanda ATƏT-in Minsk qrupunun fəaliyyəti bundan sonra da güclənəcəkdir. Bu barədə mən Moskvada olarkən Rusiya prezidentinin səlahiyyətlərini həyata keçirən cənab Putinlə çox geniş danışıqlar aparmışam. Bir neçə gün bundan öncə Amerikada olarkən Vaşinqtonda, Ağ evdə prezident Bill Klinton ilə, xarici işlər naziri xanım Olbraytla, prezidentin təhlükəsizlik üzrə müşaviri Sendi Berger ilə və başqa şəxslərlə də çox ətraflı danışıqlar aparmışam. Noyabr ayında İstanbulda ATƏT-in zirvə toplantısında da biz bu barədə çox görüşlər keçirdik, danışıqlar apardıq. Güman edirəm ki, bunlar hamısı bu sülh danışıqlarını sürətləndirməyə imkan yaradır.

Bilirsiniz ki, bizim qonşumuz Gürcüstanda da Abxaziya münaqişəsi var. Təbii, o, bizimkindən fərqlidir. Çünki orada münaqişə daxili xarakter daşıyır Abxaziya ilə Gürcüstan hökuməti arasında. Amma bizim münaqişənin xüsusiyyəti ondan ibarətdir ki, Ermənistan ilə Azərbaycan arasında münaqişə gedir. Əgər Ermənistan bu işə qarışmasaydı və beynəlxalq təşkilatlarda öz imkanlarından istifadə edib lazımi qərarların həyata keçirilməsinə mane olmasaydı, təbiidir ki, Dağlıq Qarabağla Azərbaycan hökuməti arasındakı münaqişəni daha da tez həll etmək olardı.

Bu münaqişə elə başlanandan daxili münaqişə olmayıbdır. Münaqişə Ermənistanın təşəbbüsü ilə başlayıbdır. Gürcüstanda da münaqişəyə son qoyulsun. Gürcüstanla bizim çox yaxın, dost əlaqələrimiz var. Təbiidir ki, hamımızın arzusu Cənubi Qafqazda sülhün, təhlükəsizliyin, əməkdaşlığın yaranmasıdır.

Son illərdə Qafqaza, xüsusən Cənubi Qafqaza dünyanın bir çox ölkələrinin diqqəti, marağı artıbdır. Təkcə münaqişələrə görə yox, bu ölkələrlə əməkdaşlıq etmək məqsədi ilə. Ancaq bunun üçün Cənubi Qafqazda sülh lazımdır. Təbiidir ki, sülhə də birinci növbədə Ermənistanla Azərbaycan arasında münaqişəyə son qoymaqla nail olmaq lazımdır.

Şimali Qafqaz da çox mürəkkəb regiondur, orada da müxtəlif proseslər gedir. Təbiidir, ora Rusiyanın ərazisidir. Ancaq orada çox millətlər yaşayır, hər millətin öz respublikası var. Bunlardan biri də Çeçenistandır. Çeçenistan münaqişəsinin tarixi böyükdür – təxminən yeddi-səkkiz ildir ki, davam edir.

Təbiidir ki, biz heç yerdə müharibənin olmasını istəmirik. Məhz ona görə də 1994-cü ildə, - baxmayaraq ki, Azərbaycan çox böyük itkilər vermiş, böyük zərbələr almışdır, - biz atəşin dayandırılması haqqında saziş imzaladıq və o vaxtdan indiyə qədər atəşkəs şəraitində yaşayırıq.

Çeçenistanda da müharibə başlandı, nəticə vermədi, müəyyən qədər sülh yarandı. Rusiya ilə Çeçenistan arasında müqavilə imzalandı ki, 2000-ci ilə qədər sülh olacaqdır. Amma 2000-ci il çatmamış yenidən müharibə başlandı.

Biz müharibəni heç vaxt dəstəkləmirik. Eyni zamanda hər bir ölkənin ərazi bütövlüyünü dəstəkləyirik, ekstremizmin, separatizmin, terrorizmin əleyhinəyik. Çünki bizim ölkəmiz 1988-ci ildən indiyə qədər dediyim bu hallarla rastlaşıb və çox böyük itkilər veribdir.

İndi görünür ki, Rusiya Çeçenistanda hakimiyyəti artıq ələ ala bilibdir. Ancaq təbiidir, qarşıda hələ çox işlər var. Bu isə vaxt tələb edəcəkdir. Görək, nə olacaqdır? Hər halda, mən belə başa düşürəm – Rusiyanın məqsədi ondan ibarətdir ki, orada vəziyyəti normallaşdırsın və insanlar rahat yaşaya bilsinlər. Əgər belə olsa, yaxşı olar.

Şimali Qafqazın başqa respublikalarında münaqişə, müharibə yoxdur, amma ayrı-ayrı proseslər var. Məsələn, Şimali Osetiya ilə İnquşetiya arasında. Bilirsiniz ki, Dağıstanla Çeçenistan arasında böyük müharibə getdi. Ona görə ümumiyyətlə, Şimali Qafqazda sülhün, əmin-amanlığın yaranması bizim üçün çox əhəmiyyətlidir. Bu, Cənubi Qafqazda sülhün, təhlükəsizliyin yaranmasına çox kömək edə bilərdi.

Siz xoşbəxt adamlarsınız ki, belə hadisələrdən uzaqsınız. Amma biz, ümumiyyətlə, bu bölgədə yaşayan xalqlar, təəssüf ki, indi belə bir vəziyyətdəyik və bu hallar onları çox incidir, narahat edir.

Mənim fikrim belədir ki, bunların hamısı keçib gedəcəkdir, nəhayət, sülh yaranacaqdır. Bunu elə Avropanın timsalında da görmək olar. Ölkələr, xalqlar bir-biri ilə nə qədər – on illərlə, yüz illərlə müharibələr apardılar.

Amma indi çox gözəl dostluq əlaqələri yaranıbdır. Görünür ki, biz də bu mərhələni keçməliyik. Doğrudur, belə olmasaydı daha yaxşı olardı. Amma bu, bizdən asılı deyildir. Ancaq mən nikbinəm, güman edirəm ki, vəziyyət get-gedə normallaşacaqdır.

**T o m a s H e n d r i k İ l v e s:** Cənab prezident, Siz digər regional əməkdaşlıq çərçivəsində – GUÖAM çərçivəsində də lider rolunu oynayırsınız. Siz GUÖAM-ın inkişaf etdiyini, gücləndiyini görürsünüzmü?

**H e y d ə r Ə l i y e v:** Bilirsiniz, GUÖAM-ın yaranması özlüyündə böyük bir hadisədir. Biz bunu yaradanda düşünürdük ki, bu, bəzilərinin xoşuna gəlməyəcəkdir. Amma biz iradə göstərdik, yaratdıq. Bunu dörd ölkə yaratdı, sonra Özbəkistan da daxil oldu. Təbiidir ki, kiçik ölkələrin belə təşkilatlar yaratması asan deyildir. Eyni zamanda, onun möhkəmlənməsi və inkişafı zaman tələb edir. Güman edirəm ki, GUÖAM tədricən inkişaf edəcək və bu ölkələr xeyir gətirəcəkdir. Bu təşkilatın heç bir aqressiv məqsədi yoxdur. sadəcə, bir-birinə bənzər siyasət həyata keçirən ölkələr bir-biri ilə daha sıx əlaqələr yaratmaq və sıx əməkdaşlıq etmək istəyirlər. Bunun əsası, birinci, ondan ibarətdir ki, biz öz dövlət müstəqilliyimizin üzərində çox möhkəm dururuq. Mən hesab edirəm ki, kimsə buna etiraz etməməli, yaxud qısqanmamalıdır. Məsələn, Rusiya–Belarus İttifaqı yaranıbdır. Biz ki, buna etiraz etmirik. İndi Ermənistan da ona daxil olmaq istəyir. Biz buna da etiraz etmirik. Ancaq presedent yaranır. Bunların da gələcək üçün nə qədər faydalı olmasını gərək hamı düşünsün.

**T o m a s H e n d r i k İ l v e s:** Əlbəttə, biz GUÖAM təşkilatı çərçivəsində əməkdaşlığın inkişaf etməsinin tərəfdarıyıq. İstəyirik ki, belə təşkilatlar inkişaf etsin. Biz hesab edirik ki, bu, həm təşkilatın özü üçün, həm də üzv ölkələr üçün çox vacibdir. Əminəm ki, GÜÖAM təşkilatı, bu cür təşkilatlar ölkələrə yaxşı imkanlar açır.

Biz çox maraqlıyıq ki, GUÖAM-a daxil olan ölkələrin – Gürcüstanın, Ukraynanın, Özbəkistanın, Azərbaycanın, Moldovanın dövlət müstəqilliyini dəstəkləmək üçün əlimizdən gələni edək.

Bu gün səhər sizin xarici işlər naziri ilə söhbət edərkən bu məsələyə də toxundum ki, müəyyən əməkdaşlıq sahələri var və biz bu sahələrdə əlaqələrin inkişaf etdirilməsinə həvəs göstəririk. Məsələn, Qərb ölkələri Avropaya inteqrasiya olunmaq üçün Gürcüstana məsləhət görürlər ki, Estoniya cangüdənlərinin praktikasını tətbiq etsinlər, yaxud Estoniyada həyata keçirilən özəlləşdirmə ilə yaxından tanış olsunlar.

Əlbəttə, demək istəmirəm ki, biz bu işdə professoruq, hər şeyə nail olmuşuq. Bizim Amerikada olan professorlarınkı kimi hazır modellərimiz yoxdur. Lakin biz müəyyən tərəqqiyə nail olmuşuq. Əgər Siz bizim təcrübəmizlə maraqlansanız, bunu böyük məmnuniyyətlə Sizinlə bölüşərik.

Biz Estoniyada 7 ildir ki, öz qanunlarımızı, bütün tənzimləmələrimizi Avropa Birliyində mövcud olan qanunlara və tənzimləmələrə uyğunlaşdırmağa çalışırıq. Qərb ölkələri Ukraynaya məsləhət görmüşdülər ki, Estoniya ilə bu model üzərində işləsin. Artıq biz Ukrayna ilə bu işə başlamışıq. Ümumiyyətlə, qonşularla, dostlarla bu sahədə əməkdaşlıq etmək Estoniyanın xarici siyasətinin bir hissəsidir.

**H e y d ə r Ə l i y e v:** Təbiidir ki, sizin təcrübəniz bizim üçün çox faydalı ola bilər. Çünki siz və digər Baltikyanı ölkələr keçmiş sistemdən bizdən daha öncə imtina etmisiniz və islahatların, xüsusən özəlləşdirmənin həyata keçirilməsində və qanunların Avropa standartlarına uyğunlaşdırılmasında çox iş görmüsünüz. Məlumatlardan da görünür ki, çox səhvlərə yol verməmisiniz. Ona görə də biz sizin təcrübədən istifadə etməyə çox maraqlıyıq. Əgər imkan olsa, Baş nazirlə görüşən zaman bu barədə məlumat verin. Mən də ona tapşırıq verəcəyəm sizinlə razılaşdırsın ki, biz bu təcrübədən əməli surətdə nə cür istifadə edə bilərik.

**T o m a s H e n d r i k İ l v e s:** Çox sağ olun, biz böyük məmnuniyyətlə bu işi görərik.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl. İndi sənədləri imzalamaq lazımdır.

Xahiş edirəm ki, prezident cənab Meriyə mənim səmimi salamlarımı çatdırasınız. Ona deyəsiniz ki, mənim dəvətim indiyə qədər qüvvədədir. Mən onu Azərbaycana rəsmi səfərə dəvət etmişdim. Onun üçün münasib olan bir zamanda Azərbaycana rəsmi səfərə gələ bilər. Güman edirəm, xarici işlər nazirinin səfərindən sonra bu, daha da real olacaqdır.

## ESTONİYA XARİCİ İŞLƏR NAZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİNİN TƏRKİBİNDƏ RESPUBLİKAMIZA GƏLMİŞ, ESTONİYADA YAŞAYAN BİR QRUP SOYDAŞIMIZLA GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*2 mart 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Salam, xoş gördük sizi. Estoniyada işiniz, vəziyyətiniz necədir? Siz çoxdandır orada yaşayırsınız?

**H ə b i b Q u l i y e v** (*Baltikyanı və Skandinaviya dövlətlərində yaşayan Azərbaycanlıların Beynəlxalq Cəmiyyətinin sədri*): Cənab prezident, bəli. 20 ildən çoxdur orada yaşayırıq. İlk öncə orada «Ocaq» cəmiyyəti yarandı və tədricən inkişaf etməyə başladı.

**H e y d ə r Ə l i y e v:** Estoniyada nə qədər azərbaycanlı yaşayır?

**H ə b i b Q u l i y e v:** Cənab prezident, 2 minə yaxın azərbaycanlı yaşayır. Hamısının da vəziyyəti yaxşıdır.

**H e y d ə r Ə l i y e v:** Gərək ki, Baltikyanı ölkələr – Latviyada da, Litvada da azərbaycanlılar çoxdur.

**H ə b i b Q u l i y e v:** Bəli, orada da «Azəri» cəmiyyəti fəaliyyət göstərir. Bizim digər Baltikyanı, Skandinaviya ölkələri ilə də əlaqələrimiz vardır.

**H e y d ə r Ə l i y e v:** Ailəlisiniz?

**H ə b i b Q u l i y e v:** Hamımız ailəliyik. İki oğlum, iki qızım var.

**H e y d ə r Ə l i y e v:** Sənin arvadın estondur?

**H ə b i b Q u l i y e v:** Cənab prezident, xeyr. Xanımım azərbaycanlıdır, özü də Naxçıvandandır.

**N i y a z i H a c ı y e v:** Cənab prezident, mənim arvadım rusdur. İki uşağım – bir qızım, bir oğlum var.

**X a n l a r A ğ a s ı y e v:** Mənimki azərbaycanlıdır. Üç uşağım var.

**H e y d ə r Ə l i y e v:** Bəs sən?

**H ə b i b Q u l i y e v:** Cənab prezident, mən Estoniyada doğulmuşam. Anam eston qızıdır, atam isə azərbaycanlıdır. Mən eston məktəbində oxumuşam. Təəssüf ki, atamla anam ailədə rus dilində danışırlar. İndi mən bazar günü məktəbinlə türk dilini öyrənirəm.

**H e y d ə r Ə l i y e v:** İndi nazir dedi ki, azərbaycanlılar eston dilini yaxşı öyrənirlər, nəinki başqaları.

**H ə b i b Q u l i y e v:** Mənim oğlum eston məktəbində 9-cu sinifdə oxuyur və Azərbaycan dilini də yaxşı bilir.

**H e y d ə r Ə l i y e v:** Çox gözəl. Bilirsiniz, mən həmişə istəmişəm ki, azərbaycanlılar təkcə Azərbaycanda yaşamasınlar. Çünki Azərbaycanda onsuz da azərbaycanlı çoxdur. Siz yəqin bilirsiniz ki, mən keçmişdə – Azərbaycan Kommunist Partiyasının başçısı olduğum zaman çalışırdım ki, Azərbaycan gənclərini Azərbaycandan çıxarım. O mənada ki, Moskvaya, Leninqrada, Kiyevə, Tallinə, Riqaya göndərim.

**H ə b i b Q u l i y e v:** Cənab prezident, məhz biz Sizin bəhrənizik.

**H e y d ə r Ə l i y e v:** O ölkələrə getsinlər, orada təhsil alsınlar. Kim istəyər – orada məskunlaşar, kim istəyər – geri qayıdar. Çünki, bilirsiniz, milli məhdudiyyət şəraitində yaşamaq hər millət üçün zərərlidir. Gərək millətlər, xalqlar başqa xalqlarla daha da geniş təmasda olsunlar və bir-biri ilə əlaqədə olsunlar. Bu, insanları daha da inkişaf etdirir. Bəli, mən bunu həmişə istəmişəm. Amma indi görürəm ki, mənim bu istəklərimin hamısı həyata keçibdir. Mən o vaxtlar ildə 800–900 gənci Azərbaycandan xaricdəki universitetlərə – Moskvaya, Leninqrada, Kiyevə göndərirdim.

**H ə b i b Q u l i y e v:** Fərqlənmə ilə qurtaranları xaricə göndərirdiniz.

**H e y d ə r Ə l i y e v:** Çoxlarını göndərirdim. Hətta mən danışmışdım – o universitetlərdə imtahan vermək çətin idi – bizim üçün güzəşt edirdilər, bizim gənclər burada imtahan verirdilər. Ondan sonra qəbul olunur, gedib Moskva universitetində, Leninqrad universitetində, Kiyev universitetində, yaxud başqa universitetlərdə oxuyurdular.

**H ə b i b Q u l i y e v:** Cənab prezident, biz bunların şahidiyik.

**H e y d ə r Ə l i y e v:** Mən bunları nəyə görə edirdim? İstəyirdim ki, azərbaycanlıları Azərbaycandan bir az çıxarım. Çünki adam həmişə öz evində yaşasa, dünyanı görməsə, inkişaf edə bilməz. Adam gərək öz evindən də bir az kənara çıxsın, öz kəndindən də kənara çıxsın, öz şəhərlərindən də kənara çıxsın, öz ölkəsindən kənara çıxsın. Onda adamın dünyagörüşü daha da genişlənir, artır.

Mən çox məmnunam. Hesab edirəm ki, siz orada həm özünüz üçün, həm də Azərbaycan üçün çox yaxşı işlər görürsünüz. Məsələn, siz Azərbaycanı Estoniyada tanıdırsınız. Bir nümayəndə gəldi, iki nümayəndə gəldi, bir gün, iki gün söhbət etdi, Azərbaycan haqqında məlumat aldı. Amma bir də var ki, orada, Estoniyada bilirlər ki,

dünyada Azərbaycan milləti də vardır. Kimdir? Filankəsdir, filankəsdir, filankəsdir. Sizə baxaraq azərbaycanlı haqqında fikir yaranır: azərbaycanlı nə təhər olur, onun gözü nə təhərdir, qaşı nə təhərdir, onun əxlaqı nə təhərdir, istedadı nə cürdür, iş bacarığı nə cürdür. Mən görürəm ki, siz bu barədə Azərbaycan xalqını yaxşı təmsil edirsiniz. Çox yaxşı.

**H ə b i b Q u l i y e v:** Çox istərdik ora gələsiniz, görəsiniz.

**H e y d ə r Ə l i y e v:** İnşallah, gələcəyəm. Siz orada Azərbaycan dilində bir məktəb düzəldin. Uşaqlarınızı eston dilində öyrədirsiniz – bu, çox yaxşı.

**H ə b i b Q u l i y e v:** Mənim uşaqlarım dörd dil bilirlər.

**H e y d ə r Ə l i y e v:** Lap yaxşı, amma Azərbaycan dilini də öyrənsinlər. Azərbaycan dilini bu oğlana da öyrədin. Uşaqlarınızı da öyrədin. Qoy eston dilini də bilsin, ingilis dilini də bilsin, fransız dilini də bilsin, rus dilini də bilsin. Amma Azərbaycan dilini də bilsin, Azərbaycan dilinə diqqəti artırsın.

**H ə b i b Q u l i y e v:** İnşallah, qismət olsun, orada özünüz danışarsınız, məktəb açılar, övladlarımız da öyrənərlər.

**H e y d ə r Ə l i y e v:** İnşallah, gələcəyəm. Siz çoxdan burada, Bakıda, Azərbaycanda olmursunuz?

**H ə b i b Q u l i y e v:** Sonuncu dəfə bir il bundan qabaq Bakıda müsəlmanların qurultayında iştirak etmişəm.

**H e y d ə r Ə l i y e v:** Yaxşı. Gəzin, baxın, görün Azərbaycanı.

**H ə b i b Q u l i y e v:** İndi məscid məsələsi ilə məşğuluq. Şeyximiz məktub veribdir. İlk addımları atmışıq.

**H e y d ə r Ə l i y e v:** Həll edin. Məscid də düzəltsəniz yaxşı olar. Amma əsas məktəbdir. Sonra, ikinci məsciddir. Namazı evdə də qıla bilərsiniz. Uşaqlar gərək dil öyrənsinlər, bizim milli ədəbiyyatımızı, milli tariximizi – bunları gərək öyrənsinlər. Yaxşı, çox sağ olun. Burada elə bir probleminiz yoxdur?

**H ə b i b Q u l i y e v:** Cənab prezident, bir az əlyazmalarım vardır, onu üzə çıxarmağa ehtiyac vardır. Çox sevindirici yazılarım vardır.

**H e y d ə r Ə l i y e v:** Dilarə xanım Seyidzadə mənim köməkçimdir. Onları verin, əlaqə yaradın, nə lazımdır – həll edin.

**H ə b i b Q u l i y e v:** Çox sağ olun, cənab prezident. Doğulduğumuz elin, obanın adını ömür boyu qoruyub saxlamışıq. Heç vaxt istifadə etməmişəm. Mən Zəngəzur mahalındanam. Həmişə qıraqda tanınmışıq. Biz tək deyilik.

**H e y d ə r Ə l i y e v:** Hərə öz yerini sevməlidir.

**H ə b i b Q u l i y e v:** Biz Sizinlə fəxr edirik. Sizə ürəkdən deyiləsi çox sözlərimiz var. Sizin adınızla yaşayırıq. Heç nəyə ehtiyacımız yoxdur. 22 ildə heç bir qapı döyməmişik. Milli qürur hər şeydən üstündür.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun.

## AZƏRBAYCAN SAHİBKARLAR ASSOSİASİYASI KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli konfrans iştirakçıları!
Hörmətli sahibkarlar və iş adamları!
Sizi illik hesabat konfransının açılması münasibətilə təbrik edirəm.

Azərbaycan Respublikasında iqtisadi islahatların həyata keçirilməsində və yeni təsərrüfat sisteminin formalaşmasında azad sahibkarlığın, şəxsi təşəbbüskarlığın inkişaf etdirilməsi mərkəzi yer tutur. Ölkədə sağlam sahibkarlığın inkişafı üçün əlverişli mühitin yaradılması dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir.

Sahibkarlığın inkişafı yeni iş yerləri yaradır, istehlak bazarına yeni məhsul növü çıxarır, vergi ödəyicilərinin sayını artırır, iqtisadi islahatların sosial bazası kimi əhalinin orta təbəqəsini formalaşdırır. Digər tərəfdən sahibkarlığın inkişafı xarici investisiya axınını gücləndirir və ölkənin dünya iqtisadiyyatına inteqrasiya olunmasını sürətləndirir. Azərbaycan dövləti sahibkarlığın sürətlə inkişaf etdirilməsini ölkədə iqtisadi və sosial problemlərin həllinin, cəmiyyətdə sabitliyin möhkəmləndirilməsinin mühüm amili hesab edir.

Ötən illər ərzində Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi sahəsində xeyli işlər görülmüşdür. Ölkə vətəndaşlarının azad sahibkarlıq hüququ Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunmuşdur. Sahibkarlıq mühitinin formalaşması üçün vacib olan qanunvericilik bazası yaradılmış, sahibkarların hüquq və qanuni mənafelərinin müdafiəsini, sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsini, dövlət orqanları ilə sahibkarlıq strukturları arasında şəffaf əlaqə mexanizmlərinin qurulmasını, sahibkarlıq mühitinin sağlamlaşdırılmasını təmin edən normativ hüquqi aktlar qəbul edilmişdir. Ölkədə sahibkarlığın zəruri bazar infrastrukturları formalaşmağa başlamışdır.

Azərbaycan iqtisadiyyatında müsbət meyllərin əldə olunması və dünyanın tanınmış neft şirkətləri ilə ölkədə neft hasilatına dair bağlanmış müqavilələrin işə düşməsi sahibkarlığın inkişafına əlverişli imkanlar açmışdır.

Bu gün ölkədə sahibkarlığın inkişafı üçün zəruri mühitin yaradılması, özəlləşdirmənin və torpaq islahatının həyata keçirilməsi nəticəsində özəl bölmə iqtisadiyyatda 62 faizə çatmış və ölkənin sosial-iqtisadi həyatına ciddi təsir göstərə bilən sanballı qüvvəyə çevrilmişdir.

Ona görə də ölkədə dövlət strukturları və sahibkarlar arasında etibarlı və səmərəli fəaliyyət göstərən işbirliyi mexanizmi formalaşdırılması zəruridir. Bu sahədə bütün dünyada sahibkarların ictimai birliklərinin rolu böyükdür.

Azərbaycan Sahibkarlar Assosiasiyası ictimai təşkilat kimi ölkədə sahibkarlığın inkişafına kömək sahəsində güclü dövlət siyasətinin gerçəkləşdirilməsində, iqtisadi islahatların hüquqi bazasının təkmilləşdirilməsində, sahibkarların və iş adamlarının hüquq və qanuni mənafelərinin qorunmasında, ölkədə əhalinin hüquq mədəniyyətinin formalaşdırılmasında və işgüzar fəaliyyətinin gücləndirilməsində fəal rol oynamalıdır. İnanıram ki, bu sahədə konfransda dəyərli fikirlər söyləniləcək və sanballı təkliflər veriləcəkdir.

Sizi qarşılıqlı əməkdaşlığa dəvət edirəm və sizə işinizdə uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 mart 2000-ci il*

**MOZAMBİK RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB**
**JOAKİM ALBERTU ÇİSSANOYA**

Hörmətli cənab prezident!

Mozambik Respublikasında baş vermiş təbii fəlakət üzündən çoxsaylı insan tələfatı və dağıntı barədə xəbər məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verir, fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzu edirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 mart 2000-ci il*

**MƏRAKEŞ KRALI ƏLAHƏZRƏT**
**VI MƏHƏMMƏDƏ**

Əlahəzrət!

Ksar Elkbir şəhəri yaxınlığında qatar qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni ürəkdən kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 mart 2000-ci il*

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI TİCARƏT NAZİRLİYİNİN YENİ MÜSTƏQİL DÖVLƏTLƏR ÜZRƏ MÜŞAVİRİ, ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ SƏLAHİYYƏTLİ ŞƏXS YAN KALİTSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*3 mart 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli cənab Kalitski, hörmətli qonaqlar, mən sizi salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Cənab Kalitski, biz sizinlə cəmi 15 gün bundan öncə Vaşinqtonda görüşmüşdük. İndi isə siz Azərbaycandasınız, çox məmnunam. Mən hər dəfə sizinlə görüşməkdən çox məmnun oluram. Çünki artıq bir neçə ildir ki, bizim aramızda çox səmimi əlaqələr yaranıbdır. Bu əlaqələr də Amerika-Azərbaycan münasibətlərinin, xüsusən iqtisadi əlaqələrinin inkişafına kömək edir. Bir sözlə, sizin hər səfəriniz faydalı olur.

Bilirəm ki, siz artıq burada bir sıra görüşlər keçirmisiniz. Güman edirəm, bunlar yaxşı keçibdir. Mən bu görüşümüzdən məmnunam. Buyurun.

**Y a n K a l i t s k i:** Çox sağ olun, cənab prezident. Vaşinqtondakı görüşümüzdən sonra Sizi yenidən Bakıda görmək necə də xoşdur. İstərdim ki, prezident Klintonla çox məhsuldar, əla görüşünüz münasibətilə Sizi təbrik edim. Deməliyəm ki, o özünü həm Sizə, həm də Azərbaycana çox yaxın hesab edir. İş belə gətirdi ki, biz Sizinlə Vaşinqtonda görüşdükdən dərhal sonra Bakıda görüşürük.

Cənab prezident, biz Sizinlə xeyli müddətdir əməkdaşlıq edirik. Sizin buyurduğunuz kimi, bu şəxsi əməkdaşlıq həqiqətən ölkələrimiz arasında əməkdaşlıqdır. Bu əməkdaşlıq şəxsən mənim özümə çox ləzzət verir, mən bundan həzz alıram. Onu da bildirməliyəm ki, hər dəfə Bakıya gələndə burada yeni bir tərəqqi ilə rastlaşıram. Sizin rəhbərliyiniz altında burada iqtisadiyyat inkişaf edir, sabitlik daha da güclənir, təhlükəsizlik daha da təmin olunur. Ən başlıcası isə odur ki, Amerika Birləşmiş Ştatları ilə əlaqələr daha sıx olur, daha da inkişaf edir.

Hörmətli prezident Əliyev! Sizin uzaqgörənliyinizin nəticəsidir ki, Azərbaycanda iqtisadiyyat bu cür inkişaf edir, bizim əlaqələrimiz bu cür inkişafdadır. Lakin təkcə iqtisadiyyatda deyil, ümumiyyətlə, həyatın bütün sahələrində bu inkişafı, tərəqqini görmək mümkündür. Elə hava limanına gəldikdə, yeni terminalı görəndə də biz bu dəyişikliyi hiss etdik. Onu da deyim ki, Sizin ofisinizə gələndə gördük ki, qəbul otağı da tamamilə dəyişmiş, gözəlləşmişdir. Bu gün bizimlə görüşdüyünüzə görə Sizə bir daha minnətdaram.

**H e y d ə r Ə l i y e v:** Çox sağ olun, çox sağ olun. Mən Amerika Birləşmiş Ştatlarına səfərimdən çox razıyam. Təbiidir ki, cənab Bill Klintonla Ağ evdə görüşüm xüsusi əhəmiyyət kəsb edir. Biz, demək olar ki, həm Amerika üçün, həm də xüsusən Azərbaycan üçün vacib olan məsələlərin hamısını yenidən, bir daha müzakirə etdik, bu sahədə dostluğumuzu, əməkdaşlığımızı bir daha bəyan etdik.

Bilirsiniz ki, bu danışıqlarda xanım Olbrayt da, cənab Sendi Berger də iştirak edirdilər. Mən bundan çox məmnunam. Digər görüşlərim – enerji naziri Riçardsonla, müdafiə naziri Kohenlə, kənd təsərrüfatı naziri Qlikman ilə görüşlərim, Eksimbankda görüşüm də çox faydalı olmuşdur.

Bir özəl görüşüm də oldu, mənim üçün o da çox əhəmiyyətli idi. Bazar günü məşhur siyasətçi, bizim dostumuz cənab Bjezinskinin evində, ailəsində oldum. O, çox arzu etmişdi ki, onun ailəsi ilə – xanımı, oğlu ilə tanış olum. Vaxtilə Amerika Birləşmiş Ştatlarının müdafiə naziri olmuş cənab Selnncer, keçmişdə müdafiə nazirinin müavini olmuş səfir Vulfoviç də orada idilər.

Doğrudur, mən dəvət almışdım ki, biz sadəcə, ailəvi görüş keçirəcəyik. Amma bizim görüşümüz yenə də siyasi xarakter daşıyırdı. Çox maraqlı söhbətimiz oldu. Məsələ də bundadır ki, sizdə insanlar çox səmimi münasibətdədirlər,baxmayaraq ki, biri respublikaçı, biri demokratdır.

**Y a n K a l i t s k i:** Cənab prezident, çox doğru deyirsiniz. Mənim özümün də hər iki partiyadan – həm respublikaçılar, həm də demokratlar arasından olan dostlarım vardır. Bu, çox doğru müşahidədir. Vaxtilə hökumət işinə başlayarkən mənə belə bir xoşbəxtlik nəsib oldu ki, Henri Kissincerin rəhbərliyi altında işlədim. Elə bilirəm, bu işdən çoxlu təcrübə qazanmışam.

**H e y d ə r Ə l i y e v:** Təbiidir, bu, çox gözəl haldır ki, cəmiyyətdə müxtəlif partiyalara mənsub olan adamlar bir-biri ilə xoş münasibətdədirlər. Hesab edirəm ki, bu, demokratiyanın ən yüksək səviyyəsidir. Mən çox arzu edirəm ki, bizdə də belə olsun. Biz oturmuşduq, yemək yeyirdik. Biri bir partiyadan, o birisi digər partiyadan idi. Amma çox səmimi, dostluq münasibətləri vardı.

**Y a n K a l i t s k i:** Cənab prezident, çox doğru deyirsiniz. Biz Amerika Birləşmiş Ştatlarında ümid edirik ki, Azərbaycanda da yeni seçkilər olacaq, bu seçkilərdən sonra müxtəlif partiyalardan olan insanlar arasında yaxşı, sağlam münasibətlər yaranacaqdır. Müxtəlif məsələlərdə fikir ayrılığına baxmayaraq, onlar milli məsələlərdə daim bir-birinə dəstək verəcəklər.

**H e y d ə r Ə l i y e v:** Bu, bizə çox lazımdır, həddindən artıq lazımdır. Təəssüf ki, biz bu barədə geridəyik. Doğrudur, demokratiya yolu ilə gedən yeni müstəqil ölkələrin heç biri bu səviyyəyə gəlib çatmayıbdır. Buna müəyyən qədər zaman lazımdır, təcrübə lazımdır. İnsanlar bu mədəniyyəti – demokratiya mədəniyyətini, müxalifət mədəniyyətini mənimsəməlidirlər. Bunun üçün zaman və bir də istək lazımdır ki, bu mənimsənilsin.

**Y a n K a l i t s k i:** Cənab prezident, bizə 200 ildən də artıq vaxt lazım olmuşdur ki, demokratik təsisatların hamısı var qüvvəsi ilə işləsin. Lakin indinin özündə də qarşımızda çətinliklər çoxdur və biz onları hələ dəf etməkdəyik. Bizə həqiqətən uzun müddət lazım oldu ki, elə cəmiyyət yaradaq ki, orada hər bir kəs özünü siyasi sistemin bərabər hüquqlu üzvü hesab edə bilsin.

Digər tərəfdən, cənab prezident, mən Azərbaycanda siyasi liderliyin keyfiyyətinə valeh olmuşam. Ona görə də belə fikirdəyəm ki, Azərbaycana bütün bunları həyata keçirmək üçün Birləşmiş Ştatlar kimi 200 il lazım olmayacaqdır.

**H e y d ə r Ə l i y e v:** Yox, əlbəttə ki, biz 200 il gözləyə bilmərik. Bir də ki, axı mən 200 il yaşaya bilmərəm.

**Y a n K a l i t s k i:** Heç olmasa, 50 il.

**H e y d ə r Ə l i y e v:** 50 il. Bəli, bir 25 il də yaşasam, 25 ilə gəlib çata bilərik.

**Y a n K a l i t s k i:** Xeyr, cənab prezident. Mən elə bilirəm ki, 50 ildən az yaşamayacaqsınız. Cənab prezident, ona görə hesab edirəm ki, heç 50 il də lazım olmayacaqdır. Belə məhsuldar iş gedəndən sonra burada demokratiya tam bərqərar olacaqdır.

**H e y d ə r Ə l i y e v:** Təşəkkür edirəm. Buyurun, sizi dinləyirəm.

**Y a n K a l i t s k i:** Cənab prezident, Sizinlə üç mövzu ətrafında müzakirə aparmağı təklif edirəm. Birincisi – iqtisadiyyat mövzusudur. Mən istərdim ki, hazırda ölkələrimiz arasında mövcud olan iqtisadi münasibətləri və gələcək əməkdaşlığımızın konturlarını müzakirə edək. İkinci mövzu neft və qazın nəqli məsələsidir. Bu məsələni də Sizinlə müzakirə etmək istəyirəm. Üçüncüsü isə Qafqazda iqtisadi və siyasi vəziyyət və perspektivlər barədədir.

Cənab prezident, Sizə məlum olduğu kimi, Bakıya gəlməzdən əvvəl mən Türkiyədə oldum, ondan sonra Ermənistanda görüşlər keçirdim. Gürcüstanda da prezident Şevardnadze ilə görüşdüm. Prezident Şevardnadze mənim vasitəmlə Sizə səmimi salamlarını göndərərək dedi ki, Sizinlə tezliklə görüşünü çox böyük səbirsizliklə gözləyir.

Cənab prezident, nə qədər ki, mətbuat nümayəndələri buradadır, son sözümü demək istəyirəm. Mən Sizi təbrik etmək istəyirəm – bu həftə Gürcüstan nümayəndələri ilə birlikdə İstanbulda çox böyük tərəqqi əldə etmisiniz. Mən bunu deyərkən əsas ixrac boru kəmərini nəzərdə tuturam. Cənab prezident, bu münasibətlə mən ilk növbədə Sizi və prezident Şevardnadzeni təbrik etmək istəyirəm. Bu əməkdaşlığı Siz başlamısınız, onun təşəbbüskarı Siz olmusunuz. Məhz Sizin sayənizdə bu regiondan Türkiyəyə və sonra Qərbə uzanacaq boru kəməri reallığa çevrilmişdir. Elə bilirəm ki, Sizin sayənizdə, prezident Şevardnadzenin, prezident Dəmirəlin sayəsində biz Bakıdan Tbilisiyə, daha sonra Ceyhana uzanacaq boru kəmərini inşa edəcəyik və Azərbaycanın enerji ehtiyatları müvəffəqiyyətlə Türkiyəyə, oradan da Qərb bazarlarına çatdırılacaqdır.

**H e y d ə r Ə l i y e v:** Bəli, beş ildir ki, biz bunun üçün çalışmışıq. Noyabr ayında İstanbulda prezident Bill Klintonun iştirakı ilə müqaviləni imzaladıq. Ondan sonra məsələ bir az gecikdi. Amma bilirsiniz, bu, bizə görə, bizdən asılı deyildi. Gürcüstanlı dostlarımız bəzi şərtlər qoydular. Biz onlara izahatlar verdik. Amma bilirəm ki, məsələnin həll edilməsində Sizin – Amerika Birləşmiş Ştatlarının xüsusi rolu oldu. Səfir Vulf bu barədə həm Bakıda, həm Ankarada, həm də İstanbulda çox çalışmışdır. Məsələ həll edilibdir. Amma bilirsiniz, bir məsələ qalıbdır – tarif məsələsi.

**Y a n K a l i t s k i:** Cənab prezident, bu, kiçik məsələdir.

**H e y d ə r Ə l i y e v:** Yox, kiçik məsələ deyil, böyük məsələdir. Bu, bizim üzərimizdədir. Bəlkə Gürcüstan hesab edir ki, bu, kiçik məsələdir, çünki onlar daha yüksək tarif istəyirlər. Ancaq bunu da həll edəcəyik. Mən göstəriş vermişəm, bizim nümayəndə heyəti bu gün Baş nazirin yanında bu məsələni müzakirə edir, mənə məruzə edəcəklər. Güman edirəm, mən Gürcüstana gedənə qədər bu məsələni həll edəcəyik.

Bu yaxın vaxtlarda Gürcüstana gedəcəyəm. Sadəcə, işlər çoxdur, 15 gün ölkədə olmamışdım. Mən prezident Şevardnadzeni Azərbaycanın ən yüksək ordeni ilə təltif etmişəm.

**Y a n K a l i t s k i:** Çox gözəl.

**H e y d ə r Ə l i y e v:** Bəli, dünən mətbuatda dərc olunubdur.

**Y a n K a l i t s k i:** Cənab prezident, mən tam əminəm ki, həm Gürcüstan tərəfindən, həm də Azərbaycan tərəfindən danışıq aparan şəxslər məsələni o qədər daraldacaqlar ki, Sizinlə prezident Şevardnadzenin görüşü çox uğurlu olacaqdır.

**H e y d ə r Ə l i y e v:** Yox, bu məsələ görüşə qədər həll ediləcəkdir.
**Y a n K a l i t s k i:** Cənab prezident, mətbuata sözünüz yoxdursa, bəlkə biz müzakirəyə keçək?
**H e y d ə r Ə l i y e v:** Sözüm yoxdur. Təşəkkür edirəm.

## RUSİYA JURNALİSTLƏRİNİN BÖYÜK BİR QRUPU İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 mart 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Bu gün mən bütün günü müxtəlif nümayəndə heyətləri ilə görüşmüşəm. Sizdən sonra daha bir görüşüm var. Tez-tez belə olur. Bizə çoxlu adam gəlir və təbii ki, hamı da prezidentlə görüşmək istəyir. Mən imtina etmirəm, ancaq bu, olduqca çox vaxt aparır. Əlbəttə, bu, sizə aid deyil, sadəcə olaraq, mən iş günümün necə keçdiyi barədə məlumat verirəm.

Mən sizi salamlayıram. Şadam ki, Rusiyanın bir çox mətbu orqanlarını təmsil edərək, ölkəmizin həyatı ilə tanış olmaq üçün belə böyük heyətlə Azərbaycana gəlməyə təşəbbüs göstərmisiniz. Prinsipcə biz buna çox maraq göstəririk, çünki istəyirik ki, Rusiya ictimaiyyətində Azərbaycan haqqında təsəvvür obyektiv olsun. Bundan ötrü isə hər şeyi gərək özün görəsən, eşidəsən, hiss edəsən. Amma təəssüf ki, heç də həmişə belə olmur. Rusiyanın bəzi qəzetləri bilmirsən haradan götürülmüş və nə üçün götürülmüş materiallar dərc edirlər. Son bir neçə ayda Rusiyanın kütləvi informasiya vasitələrində Çeçenistan hadisələri ilə və ümumən digər hadisələrlə bağlı Azərbaycan haqqında dezinformasiya, mənfi xarakterli materiallar xüsusilə tez-tez dərc olunmağa başlanmışdır.

Təkrar edirəm, biz sizin köməyinizi istəyirik, təşəbbüsünüzü alqışlayaraq böyük məmnuniyyətlə görüşə gəldim. Əgər bu görüş bir qədər əvvəl başlasaydı, onda, əlbəttə, biz sizinlə daha çox ünsiyyətdə olardıq. Buna baxmayaraq, nə qədər lazımdırsa, o qədər də ünsiyyətdə olacağıq.

Mən sizin haraya getməyinizdən və nə kimi işlər görməyinizdən xəbərdaram. Doğrudur, bu, həm çoxdur, həm də azdır. Gördüklərinizin, keçirdiyiniz görüşlərin çox və ya az olmasının hər halda, fərqi yoxdur, siz yəqin şəhərə də baxmısınız, Naxçıvana gedib-gəlməyə də macal tapmısınız.Bu da çox maraqlı və vacibdir, çünki bizim bu muxtar respublikamız Azərbaycanın əsas hissəsindən ayrı düşmüşdür və onunla yalnız hava nəqliyyatı ilə əlaqə saxlanılır. Başqa heç nə yoxdur. Naxçıvana maraq göstərməyiniz çox yaxşıdır.

İndi deyin görək, söhbəti necə aparacağıq? Siz məndən soruşacaqsınız, yoxsa? Buyurun.

**V s e v o l o d B o q d a n o v** (*Rusiya Jurnalistlər İttifaqının sədri*): Hörmətli Heydər Əliyeviç, əvvəla, əlbəttə, bu nümayəndə heyəti çox məşhur nəşrlərin jurnalistlərindən ibarət çox geniş heyətdir. Düşündüm ki, bizi nümayəndə heyəti adlandırmaqda Siz bəlkə də tam haqlı deyilsiniz. Axı biz buraya öz adamımızın yanına gələn kimi gəlmişik. Biz Sizi gözəl tanıyırıq, Sizə hörmət edirik, Sovet İttifaqı dövründə Moskvadakı fəaliyyətinizi xatırlayırıq.

Jurnalistlərin Sizə münasibəti həmişə çox hörmətcil olubdur. Buna görə də istərdik ki, Siz bizi rəsmi nümayəndə heyəti kimi deyil, hər şeydən əvvəl dostlar, həmkarlar kimi qəbul edəsiniz. Moskvada kitab sərgi-yarmarkasını necə açdığımızı xatırlayıram. Sizin adınızla bağlı daha bir çox işləri də yada salmaq olar. Sizi görmək bizə çox xoşdur, bir də ona görə ki, Siz Moskvadakına nisbətən indi, hətta deyərdim, bir qədər cavan və enerjili görünürsünüz. Adam istər-istəməz belə qənaətə gəlir ki, yəqin yaşa dolduqca daha güclü və daha cavan olmağa imkan verən həyat yolu tapmaq olar.

Sizə olan münasibətimizi təsdiqləmək üçün, əvvəla, bizim müharibə iştirakçılarından marşal Jukov adına «Cəsurluğa və vətənə məhəbbətə görə» medalını Sizə təqdim etmək istərdim, çünki Moskvada Sizinlə işlədikləri günləri onlar da xatırlayırlar. Qələbənin qarşıdakı 55 illiyi ilə əlaqədar bunun xüsusi əhəmiyyəti var.

İkincisi, bizim Jurnalistlər İttifaqının bu yaxınlarda 80 illiyi tamam oldu və biz yubiley medalı buraxdıq. Mən onu Sizə bütün jurnalistlər adından təqdim edirəm. İcazə verin, kiçik bir suveniri – bizim gümüş jurnalist qələmini də yadigar olaraq Sizə təqdim edim. Bu qələm Moskvadakı jurnalist həmkarlarınızı Sizə xatırladacaqdır.

Burada təklif etmək istədiyimiz iki layihə barədə də bir neçə kəlmə demək istərdim. Birinci layihə jurnalistlərin Xəzər boyunca beynəlxalq avtoekspedisiyasına aiddir. Biz istərdik ki, Siz bu layihəni dəstəkləyəsiniz.

Avtoyürüş YUNESKO-nun və BMT-nin himayəsi ilə may ayında keçiriləcək, biz Qazaxıstanda və İranda, buna böyük maraq göstərən Türkiyədə, Çeçenistanın döyüş əməliyyatları gedən rayonunda, habelə Dağıstanda olmaq fikrindəyik. Ekspedisiyadan məqsəd hər bir xalqda, hər bir ölkədə xeyirxah qəlbli insanlar tapmaqdır. Beləsi özgə uşaqlarını saxlayan qadın da ola bilər, Xəzər ətrafında sülh problemi sarıdan narahatlıq keçirən hər hansı bir siyasi xadim də ola bilər. Ekspedisiyada iştirak etmək üçün çoxlu müraciət, o cümlədən Yaponiya və

Koreyadan da müraciətlər almışıq. Biz onu Kazanda böyük «Dəyirmi masa» arxasında görüşlə başa çatdırmaq istərdik. Şaymiyev orada toplaşmağa dəvət edir. Beləliklə, ekspedisiya bütün Xəzər ölkələrindən keçəcək və buna görə də Sizin dəstəyiniz bizim üçün çox vacibdir. Biz Sizə ətraflı məktub yazıb verəcəyik. Biz artıq yazmışıq, lakin hələlik cavab almamışıq, buna görə də daha ətraflı məktub yazıb Sizə göndərəcəyik.

İndi də ikinci layihə haqqında. Biz Bakıda sizin bir çox nazirliklərin, baş idarələrin rəhbərləri ilə görüşdük və onlar deyirlər çox pis haldır ki, Azərbaycanla Rusiya arasında nə isə bir ayrılıq düşübdür, biz əməkdaşlıq edə və bir-birimizə daha yaxın ola bilərdik. Məsələn, burada istehsal edilən mallardan söhbət getdi. Söhbət ən əvvəl kənd təsərrüfatı məhsullarından və başqa məhsullardan gedir. Azərbaycanda istehsal olunan və Moskvada, Rusiyada satıla biləcək bütün məhsulların Moskva Sənaye-Ticarət Palatasının, Bələdiyyə İdarəsinin Jurnalistlər Birliyinin himayəsi ilə Moskvada təxminən iki həftəlik böyük bir sərgisini təşkil etmək və keçirmək ideyası da məhz buradan yaranmışdır. Mənə elə gəlir ki, indiki halda bu, nəinki iqtisadiyyat üçün, həm də hansısa digər baxımdan da faydalı olardı. Çünki indi sizin ölkənizdən olan bir çox adamlar Moskvada işləyir, bazarlarda Afrika və Cənubi Amerika tərəvəzi və meyvələri satırlar. Bütün bunlarda bir mənasızlıq var. Zənnimcə, bütün bunları qarşılıqlı münasibətlərin, əməkdaşlığın, dostluğun və qarşılıqlı anlaşmanın normal məcralarına keçirmək lazımdır. Bu gün təklif etmək istədiklərimiz bax, bunlardır.

**H e y d ə r Ə l i y e v:** Əvvəla, respublikamıza gəlişinizdən məmnun qaldığımı bir daha bildirirəm. Dediyim kimi, biz bunu çox istəyirik, xüsusilə də şəxsən mən çox istəyirəm. İkincisi, bu medallarla, xüsusən Jukov medalı ilə – bu, mənim üçün çox əziz, çox xoşdur, - təltif etməklə mənə göstərdiyiniz diqqətə görə sizə təşəkkür edirəm. Əlbəttə, Jurnalistlər İttifaqının medalına görə də. Mən jurnalistləri həmişə sevmişəm, onlarla həmişə dost olmuşam. Amma jurnalistlərin medalını alıb-almadığım yadımda deyildir. Yəqin ki, almamışam və bu, ilk medaldır. Bütün bunlara görə sağ olun.

O ki qaldı təkliflərinizə, onlar tamamilə məqbuldur. Hesab edirəm ki, Xəzər boyunca avtosəyahət ideyası yaxşı ideyadır. Bizdən, Azərbaycandan nə asılıdırsa, biz hamısını etməyə hazırıq. Əgər daha ətraflı məktub göndərmək istəyirsinizsə, göndərin, mən sərəncam verərəm və öz hissəmizi tamamilə yerinə yetirmək üçün Azərbaycanda hər şeyi edərlər.

Kənd təsərrüfatı məhsullarının sərgisi haqqında təklifinizə gəldikdə isə, bu, yaxşı təklifdir. Azərbaycanda müxtəlif meyvələr, tərəvəzlər çoxdur və yeri gəlmişkən, onlar çox dadlıdır. Vaxtilə, Sovetlər İttifaqının tərkibində olduğumuz dövrdə Azərbaycan xüsusən mərkəzi Rusiyaya, Moskvaya, Leninqrada və başqa şəhərlərə bu cür məhsul göndərənlərdən biri idi. Xatirimdədir, o vaxtlar Azərbaycanı, xüsusən onun cənub, Lənkəran zonasını Ümumittifaq bostanı adlandırırdılar, çünki onda biz martda yetişən faraş kələm hasil edir və onu Moskvaya, Leninqrada, digər mərkəzi şəhərlərə göndərirdik. Doğrudur, bu, bizi çox zəhmətə salırdı, çünki bu məhsul tez xarab olur, vaqonlar, refrijeratorlar lazım idi. Biz onları alır, məhsulu yükləyib yola salırdıq. Haradasa, nəsə lazımınca olmurdu. Buna baxmayaraq, Azərbaycanda işlədiyim o illərdə biz Moskvaya, Leninqrada, Rusiyanın digər mərkəzi şəhərlərinə ildə 200, 250, bəzən isə 300 min ton faraş tərəvəz – əvvəlcə kələm, sonra xiyar, pomidor, badımcan göndərirdik.

Bu, yaxşı idi. Əvvəla, biz bu şəhərlərdə adamların tələbatını ödəyirdik, ikincisi, adamlar bu məhsulu əkib-becərir və pul qazanırdılar. Yadımdadır, təkcə Lənkəran rayonunun təxminən 200 min ton faraş kələm yetişdirdiyi həmin zonada indi 15–20, bəlkə də uzağı 30 min ton faraş kələm istehsal edilir, çünki bu, Azərbaycanın tələbatını ödəyir. Doğrudur, son vaxtlar onlar birbaşa əlaqələr yaratmışlar və öz məhsulunu göndərirlər. Ona görə də bu sərgini keçirmək təbii ki, yaxşı olardı.

Bax, siz dediniz ki, Cənubi Amerikadan gətirilmiş meyvə satılır. Bəli, bu isti ölkələrdə elə meyvələr var ki, onlar Azərbaycanda, digər Qafqaz, Orta Asiya ölkələrində yetişmir və təbii ki, onları gətirmək lazımdır. Bununla yanaşı, başa düşmək olmur ki, özümüzdə daha yaxşı meyvə və tərəvəz olduğu halda, onları haradansa uzaqlardan gətirməyə nə ehtiyac var. Mən bu işlərə belə baxıram: bu, hər şeyin təşəkkül tapmağa başladığı, bir növ, çalxalanma gedən dövrdür. Bu, keçib gedəcəkdir. Məsələn, bir vaxtlar Azərbaycan Rusiyaya şərab və şərab məhsulları göndərirdi. Hətta Sovet hökumətinin xüsusi təkidi ilə biz, əlbəttə, şərab üzümü yetişdirmək üçün burada çox geniş sahələrdə üzüm bağları salmışdıq.

Mən burada işləyərkən Aleksey Nikolayeviç Kosıginlə olmuş söhbətlərimizi xatırlayıram. O, mənə dəfələrlə demişdi: bu necə işdir, bizim şərab məhsullarına, təbii olaraq, üzümə tələbatımız 8-10 milyon tondur. Fransa 50 milyon ton üzüm istehsal edir, İtaliya da təxminən bir o qədər istehsal edir, biz isə cəmi 4-5 milyon ton. Buna görə də məsələ qaldırdılar, qərar qəbul etdilər, tapşırıq verdilər, təbii ki, bütün lazımi vasitələrlə təmin etdilər və biz qısa müddətdə, beş ildə burada üzüm plantasiyaları salınması işini genişləndirdik. Özü də, bunun məhz burada edilməsi təsadüfi deyildi. Alimlər, mütəxəssislər Sovetlər İttifaqının digər regionlarını öyrənərək belə bir qənaətə gəldilər ki, ən əlverişli torpaq–iqlim şəraiti Azərbaycandadır. Bir sözlə, bu, bizim icadımız deyildi.

Biz bu işi yaxşı həyata keçirdik. Xatirimdədir, 1981-1982-ci ildə bütün Sovetlər İttifaqında istehsal olunan 6 milyon ton üzümün 2 milyon tonunu biz verdik. Çoxlu şərab zavodları, ilkin şərab emalı zavodları tikdik. Əlbəttə, adamlar bunun hesabına yaxşı qazanır və təbii ki, şərab məhsulları ilə təmin edirdilər. O vaxtlar biz

hətta Sibirdə, İrkutskda, Altayda, Rostov vilayətində, digər yerlərdə çoxlu şərab zavodu tikdik. Biz oraya sisternlərlə şərab məhsulu göndərirdik, orada isə onları şüşələrə doldurub satırdılar.

Əlbəttə, Qorbaçov, Liqaçov və onun dəstəsi antialkoqol siyasətinə başlayaraq bu işə böyük zərbə vurdular. Burada bütün üzümlükləri kəsib doğradılar. Halbuki onlar çox böyük zəhmət bahasına və olduqca böyük vəsait hesabına yaradılmışdı. Yaxşı, əgər söhbət arağa qarşı mübarizədən gedirsə, bunun üzümə nə dəxli vardı. Yeri gəlmişkən, yenə də mərhum Aleksey Nikalayeviç Kosıgini xatırlayıram. O deyirdi, bilirsinizmi, əgər biz böyük miqdarda keyfiyyətli şərablar istehsal edib, ölkəmizin əhalisini onunla təmin etsək, onda əhaliyə araq içməyi tərgidərik. Zənnimcə, o, düzgün mühakimə yürüdürdü. Çünki şərab, hər halda, araq deyildir.

1985-ci ildə antialkoqol mübarizəsi deyilən mübarizə başlanan vaxtlarda mən Moskvada işləyirdim, Siyasi Büronun üzvü idim və hətta bu məsələ üzrə komissiyanın üzvü idim. Ona Rıjkov başçılıq edirdi. Bununla yanaşı, partiyanın Mərkəzi Komitəsində Liqaçovun rəhbərliyi ilə qrup fəaliyyət göstərirdi, bu qrupu alkoqolizmə qarşı mübarizənin necə həyata keçirildiyini yoxlamaq üçün hər 15 gündən bir respublikalara göndərirdilər. Onlar gəlib soruşurdular – nə üçün sizdə üzümlüklər qalır? Onları kəsib doğrayın.

Onda mən Qorbaçova da, Liqaçova da deyirdim – bilirsinizmi, siz heç də lazımi istiqamətdə hərəkət etmirsiniz. Azərbaycanlılar dini əqidəyə görə, prinsipcə, alkoqollu içkilər içmirlər. Bir vaxtlar içmək qadağan olunmuşdu. Doğrudur, indi içirlər, lakin, hər halda, o qədər də yox. Siz isə hey oraya gedir, üzümlükləri məhv etdirirsiniz. Bu, birincisi. İkincisi isə, o vaxtlar mən bu ideyanı ümumən dəstəkləmirdim, hərçənd, onlara deyirdim ki, mənim üçün fərqi yoxdur – mən içki içən deyiləm, Azərbaycan xalqı da içki içməyən xalqdır və indiki halda onun üçün problem yoxdur. Buna baxmayaraq, siz inzibati metodlarla Rusiyanı araq içməkdən necə tərgitdirə bilərsiniz? Amma nə olsun, istədiklərini etdilər. İş hətta cəfəngiyata gəlib çıxırdı. O vaxtlar Nazirlər Soveti sədrinin birinci müavini kimi, mən ticarətə də kuratorluq edirdim, bu komissiyanın üzvü idim. Mənə müxtəlif yerlərdən materiallar gəlirdi, hətta bir növ konyunktura var idi – bir halda ki, alkoqolizmə qarşı mübarizə gedir, deməli, hər kəs özünü göstərmək istəyirdi, amma hamı yox. Bir dəfə Siyasi Büroda dedilər ki, pivə zavodlarını bağlamaq lazımdır, çünki pivədə alkoqol var. Həmin vaxt isə keyfiyyətli pivə istehsalı üçün xaricdən bir neçə pivə zavodu alınmışdı. Onları bağladılar.

Sonra Leninqraddan hansısa alimlər qrupu məktub yazmışdı ki, uşaq kefirində alkoloq var. Xatirimdədir, o vaxtlar Partiya Nəzarəti Komitəsinə başçılıq edən Solomentsev bu məktubu mənə göndərmişdi. Deyirəm – bilirsinizmi, axı mən mütəxəssis deyiləm, bununla belə, necə yəni uşaq kefirində də alkoqol var? Onu da qadağan etmək lazımdır? Yeri gəlmişkən, mən səhiyyənin də kuratoru idim və bu məktubu səhiyyə nazirinə, Tibb Elmləri Akademiyasının prezidenti Nikolay Nikolayeviç Bloxinə göndərdim. Əlbəttə, onlar güldülər. Bununla belə, nə etmək olar? Axı bu, MK-nın tapşırığı idi və məsələni aydınlaşdırmaq lazım idi. Onlar yığışıb müzakirə etdilər və yazdılar ki, bu, doğru deyildir. Mən məktub göndərdim ki, mütəxəssislər deyirlər, bu, həqiqətə uyğun deyildir. Amma yox ki, yox, dedilər ki, «alkoqol var, kefiri qadağan etmək lazımdır». Görün, necə cəfəngi bir zəmanə yaşamışıq.

Mən əsas mövzudan bir qədər yayındım, o mənada ki, bəli, indi biz bu imkandan məhrum olmuşuq. İndi Rusiyaya şərabı daha haralardan gətirmirlər, hətta, doğru dediniz ki, Cənubi Amerikadan da gətirirlər. Özü də, təkcə Rusiyaya yox. Bizə də şərab gətirirlər. Azərbaycana şərabı müxtəlif ölkələrdən gətirirlər. Halbuki özümüzün əla şərablarımız var. Bizim əla şampan şərabı istehsal edən şampan şərabları zavodumuz var. Amma kənardan gətirirlər. Azad ticarətdir, necə deyərlər, bazar iqtisadiyyatıdır. Bununla belə, hesab edirəm ki, hər halda, Azərbaycanda bu sahədə qayda-qanun yaratmaq lazımdır. Çünki əgər azərbaycanlılar Azərbaycan şərabı içsələr, elə bunun özü kifayətdir. Onların Fransa, Avstraliya və ya Kaliforniya şərabı içmələri vacib deyil. Yəni, sizin bu fikrinizi dəstəkləyirəm ki, bunu etmək olar. Sadəcə, bunu praktik olaraq necə təşkil etmək barədə düşünmək lazımdır. Əgər bu məsələ barədə də təkliflər varsa, mən bizim Nazirlər Kabinetinə tapşıraram, onlar bu işlə məşğul olarlar.

**V l a d i m i r  K u z n i ç e v s k i** *(«Rossiyskaya qazeta»)*: Cənab prezident, bu gün səhər biz Baş nazirin müavini Əli Həsənovun müşayiəti ilə qaçqınlar yaşayan rayona getdik. Təəssüratımız dəhşətlidir. Bu adamlar səkkiz ildir əsl ekstremal şəraitdə yaşayırlar. Biz özümüz gördük, bəziləri, obrazlı desək, bağlamalarını açmırlar, səkkiz ildir geriyə qayıdacaqları günü gözləyirlər. Bizə dedilər ki, qaçqınların ümumi sayı təqribən 950 min nəfərdir. Onların 50 mini Dağlıq Qarabağdan, 900 mini hazırda Ermənistan silahlı qüvvələrinin nəzarət etdikləri yeddi rayondandır. Bütün bunlara baxmaq ağırdır. Odur ki, belə bir sualım var: xahiş edirəm deyəsiniz, indi bu müşkül düyünü açmaq daha ağıllı bir iş olmazdımı? Yəni, Dağlıq Qarabağı Ermənistana vermədən, ona müstəqillik vermək və qaçqınların Ermənistan silahlı qüvvələrinin nəzarət etdiyi yeddi rayona qayıtmasından ötrü bu rayonların qaytarılması üçün erməni tərəfi ilə kompromisə getmək, sonra isə söhbəti Dağlıq Qarabağın statusuna dair siyasi danışıqlar müstəvisinə keçirmək daha ağıllı bir iş olmazdımı? Məsələn, Kuril adalarından dördü barədə Rusiyanın Yaponiya ilə apardığı danışıqlar kimi, bu söhbəti də illərlə aparmaq olar. Gördüklərimizdən və azərbaycanlılarla söhbətlərimizdən məndə belə bir təəssürat yarandı ki, Siz ölkədə xalq arasında olduqca böyük nüfuza maliksiniz. Təşəkkür edirəm, çox sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Hər şeydən öncə, qaçqınlarımızın yaşadıqları yerlərə getdiyinizə görə sizə təşəkkür edirəm. Qaçqınlarımız burada, Bakıda çoxdur. Amma nəzərə alın ki, buradakı şərait daha yaxşıdır. Onlar ağır şəraitdə də olsa, hər halda, binalarda yaşayırlar. Sizdən çox xahiş edərdim ki, gələn dəfə qaçqınların çadır düşərgələrinə də gedəsiniz. Jurnalistlərin hamısına olmasa da, müəyyən qrupuna vertolyot verərəm, oraya maşınla da getmək olar. Onlar 8 ildir çadırlarda yaşayırlar. Axı çadır da tab gətirmir – gah qar, gah yağış yağır, gah da qızmar yay olur. Onların bu çadırlarda necə yaşadıqlarını təsəvvürə gətirmək çətindir. Mən vaxtaşırı bu düşərgələrə gedirəm və hər dəfə də oradan, demək olar, xəstə halda qayıdıram.

Ölkəmizə gələn əcnəbilər bəzən oralarda olublar. Çoxlarından danışmayacağam. Bir dostum var – Rostropoviç, siz onu tanıyırsınız, onun özü bakılıdır, buraya gəlib-gedir. İki il əvvəl buraya gəldikdə məhz çadırlarda yaşayan qaçqınların yanına getmək istədiyini bildirdi. Təbii ki, biz ona kömək etdik, vertolyot verdik. O, oraya gedib qayıtdı, axşam isə mən onunla görüşdüm və gördüm ki, ağlayır, göz yaşları dayanmır. O deyirdi: mən heç təsəvvür etməzdim ki, adamlar bu cür şəraitdə yaşaya bilərlər, özü də illərlə.

Bilirsiniz, bu çadırlarda uşaqlar doğulur, insanlar həyatdan köçür, nikahlar bağlanılır. Bir dəfə orada olarkən gördüm ki, bir neçə qadın sacda çörək bişirir. Görürəm ki, çoxlu çörək bişiriblər. Soruşuram: bu qədər çörək nəyə lazımdır? Deyirlər: biz toya hazırlaşırıq. Soruşuram: bəs bəy kimdir, gəlin kimdir? Bir cavan oğlan yaxınlaşdı, yəqin 18-19 yaşında olardı, arıq idi. Deyirlər: bax, bəy bu oğlandır, bizim oğlumuzdur. Soruşuram: bəs gəlin hanı? Cavab verirlər ki, gəlin başqa rayondadır. O da çadırda yaşayır. Deyirəm: toy olacaq? O, cavab verir: biz bax burada hazırlaşırıq, sonra gedib gəlini gətirəcəyik və burada toy edəcəyik. Siz təsəvvür edirsinizmi, 3-4 adam üçün nəzərdə tutulan bir çadırda, bir damın altında on nəfər yaşayır. İndi görün təzə ailə quranlar nə etsinlər? Axı bir ailə çadırdan çıxmalıdır, onu, heç olmasa, ilk günlərdə cavanlara verməlidirlər ki, onlar normal yaşaya bilsinlər. Xahiş etdim ki, toy olanda məni də çağırsınlar. Axı toylar tez-tez olmur. Mən oraya getdim. Doğrudur, həmin vaxtadək burada bir neft şirkətindən xahiş etdim, bu şirkət çadır şəhərciyinin mərkəzində toy etmək, müxtəlif tədbirlər keçirmək mümkün olan ev tikdirdi.

Mən oraya getdim. Bu ev təxminən yüz adam tuturdu, daha bir neçə yüz adam isə evin ətrafına, bu toya toplaşmışdı. Son 20 ildə və ya hətta 30 ildə toya getdiyim yadımda deyildir. Bu toyda isə oldum. Orada iki cüt gənc ailə qururdu. Belə ağır şəraitdə yaşamalarına baxmayaraq, qızlar da, oğlanlar da, valideynləri də xoşbəxt idilər. Mən onlarla birlikdə oldum, oxuduq, oynadıq. Yəni, başa düşürsünüzmü, insan ən ağır şəraitə alışır. Təsəvvürə belə gətirmək çətin idi ki, insan bu cür şəraitdə yaşaya bilər, amma yaşayır. Lakin bu o demək deyil ki, onların bundan sonra da belə yaşaması ilə razılaşmalıyıq. Biz onları xilas etməli, bu vəziyyətdən çıxarmalıyıq. Biz məhz bu istiqamətdə işləyirik. Axı siz bilirsiniz ki, Ermənistanla Azərbaycan arasında Dağlıq Qarabağla əlaqədar münaqişə hələ 1988-ci ildə yaranmışdı. O vaxt Sovetlər İttifaqı var idi, yeri gəlmişkən, onda bu münaqişəni dayandırmaq, onun böyüyüb müharibəyə çevrilməsinə yol verməmək tamamilə mümkün idi. Lakin o vaxt bunu etmədilər. Niyə? Başa düşmürəm. Bilmirəm, bəlkə də o vaxtlar bunu sovet rəhbərliyindən kimlərsə istəyirdi. Bilmirəm.

Hər halda, Sovet dövləti, - sizli-bizli hamımızın tanıdığı, xüsusən mənim tanıdığım, çünki mən bu dövlətin dövründə daha çox yaşamışam və onun ali orqanlarında işləmişəm, o, güclü dövlət idi, - bu cür halların qarşısını çox uğurla ala bilərdi.

Yeri gəlmişkən, bu, ermənilərin Dağlıq Qarabağ barəsində heç də ilk iddiası deyildir. Keçmiş vaxtlarda Ermənistanın, əsasən, ədəbiyyat, mədəniyyət xadimləri arasından ayrı-ayrı qruplar Moskvaya məktub göndərirdilər ki, Dağlıq Qarabağı Ermənistana birləşdirmək lazımdır. Həmin məktublara baxılırdı, ermənilərə izah edirdilər ki, bu qeyri-mümkündür, onlar bu məsələni əbəs yerə qaldırırlar, biz hamımız bir dövlətdə – Sovetlər İttifaqında yaşayırıq. Amma 1988-ci ildə bu məsələ ortaya çıxanda, ona başqa cür yanaşıldı. Bəziləri bu işi hətta təşviq edirdilər. Budur, indi Azərbaycan üçün də, Ermənistan üçün də belə bir müsibət var. Doğrudur, Azərbaycan daha çox zərər çəkmişdir, çünki onun ərazisinin 20 faizi işğal altındadır və sizin dediyiniz kimi, işğal edilmiş bu rayonlardan təxminən bir milyon adam qovulmuşdur.

Biz neçə illərdir danışıqlar aparırıq. Mən Azərbaycana rəhbərliyə qayıtdıqdan sonra ilk öncə müharibəni dayandırmağa çalışdım. 1994-cü ilin mayında biz müharibəni dayandırdıq, baxmayaraq ki, ərazimiz işğal edilib, bir milyon adam yaşayış yerlərindən qovulub, çoxlu insan həlak olmuşdur. Lakin o vaxt da düşünürdüm, indi də belə düşünürəm ki, müharibə bütün hallarda hamı üçün zərərlidir. Buna görə də biz müharibəni dayandırdıq, danışıqlar apardıq. Dağlıq Qarabağın statusuna, sizin dediyiniz məsələyə gəldikdə isə, biz artıq bir çox variantları müzakirə etmişik. Doğrudanmı siz düşünürsünüz ki, biz bu məsələnin həllini istəmirik? Amma Ermənistan tərəfi qeyri-konstruktiv mövqe tutur.

Bilirsiniz ki, ATƏT-in tərkibində Minsk qrupu var və o, həmin məsələ ilə məşğul olur. Minsk qrupuna Rusiya, Amerika Birləşmiş Ştatları və Fransa başçılıq edirlər. Bu ölkələr məsələnin həllinə, necə deyərlər, təsir etmək imkanına malikdirlər. Lakin bu, baş vermir. Yeri gəlmişkən, siz Rusiyadansınız. Ona görə də demək istəyirəm ki, ATƏT-ə və ya Minsk qrupuna daxil olan hər hansı digər ölkəyə nisbətən Rusiya bu məsələnin həlli üçün daha üstün mövqeyə malikdir. Ancaq bu iş görülmür.

Biz bəyan etmişik və bəyan edirik ki, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarə statusu verilə bilər. Amma Ermənistan tərəfi Dağlıq Qarabağa müstəqillik statusu verilməsini tələb edir. Əvvəla, Dağlıq Qarabağ kiçik bir yerdir, indi orada təxminən 60 min adam yaşayır. Ən yaxşı dövrlərdə orada 170 min adam yaşayırdı, onların 30 faizi azərbaycanlılar, 70 faizi ermənilər idi. Azərbaycanlıları oradan qovub çıxartmışlar, ermənilərin bir qismi oradan köçüb getmişdir. Orada ağır şəraitdə yaşayırlar, lakin buna baxmayaraq, müstəqil dövlət, beynəlxalq hüququn subyekti olmaq istəyirlər. Biz bunu edə bilmərik. Əgər indi biz bu statusla razılaşsaq, onda bu, məsələnin artıq qəti həlli olar və bundan sonra heç bir danışıq gedə bilməz. Bax, Rusiya Çeçenistanda müharibə, özü də ağır, çox ağır müharibə aparır. Nəyin naminə? Öz ərazi bütövlüyünü qoruyub saxlamaq naminə. Bu prinsipi biz də dəstəkləyirik. Çünki beynəlxalq hüquq, xüsusən 1975-ci ildə qəbul olunmuş Helsinki aktı hər bir dövlətin ərazi bütövlüyünün toxunulmazlığını əsas prinsip hesab edir.

Dağlıq Qarabağa müstəqillik statusu verilsə, bu o deməkdir ki, Azərbaycan öz ərazisinin bir hissəsini itirir. Lakin ona yüksək özünüidarə statusu verilməsi o deməkdir ki, həm onlar özünüidarə hüququ alırlar, həm də Azərbaycanın ərazi bütövlüyü pozulmur. Özü də, biz onlara dünya praktikasında mövcud olan hər hansı ən yüksək statusu təklif etmişik. Məsələn, Rusiyanın tərkibində Tatarıstan var. Bir baxın, o, nə kimi böyük hüquqlara malikdir. Bununla belə, o, Rusiyanın tərkibindədir. Bir sözlə, biz bunu etmək istəyirik, amma Azərbaycan ərazisinin bir hissəsini müxtəlif səbəblərə görə ələ keçirmiş Ermənistan tərəfi, təəssüflər olsun, indi bundan öz məqsədinə nail olmaq üçün təzyiq vasitəsi kimi istifadə edir.Biz isə bununla razılaşa bilmərik. Düşünürəm ki, bu ağır şəraitdə yaşayaraq artıq səkkiz ildən bəri dözən qaçqınlarımız yenə də dözərlər ki, Azərbaycan özünün ərazi bütövlüyünün toxunulmazlığı barədə hüququnu, hər halda, qoruya bilsin.

**N i k o l a y T a r a s e n k o** *(«Ekonomiçeskaya qazeta»)*: Hörmətli cənab prezident, biz bu siyasi problemləri əyani şəkildə görmüşük. Bilirik ki, Sovet hakimiyyətinin bütün illəri ərzində iqtisadiyyat, təəssüflər olsun, siyasətin girovu olmuşdur. Sizə elə gəlmirmi ki, iqtisadi problemləri həll etməklə siyasi problemləri də həll etmək mümkündür? Əgər belədirsə, onda xahiş edirəm, Azərbaycan iqtisadiyyatında islahatın öncül istiqamətlərindən, heç olmasa, tezis halında danışasınız. İqtisadiyyat nəyin hesabına dirçələ bilər, hansı sahələr öz sözünü deyə bilər?

**H e y d ə r Ə l i y e v:** Bilirsiniz ki, zənnimcə, bizim hamımızın, - mən Sovetlər İttifaqı dağıldıqdan sonra dövlət müstəqilliyi qazanmış ölkələri nəzərdə tuturam, - eyni problemlərimiz, eyni bir yolumuz var. Yəni, biz sosialist iqtisadi sistemindən imtina etdik, demokratiya, bazar iqtisadiyyatının inkişafı, özəlləşdirmə, sahibkarlar, mülkiyyətçilər yaranması yoluna qədəm qoyduq. Artıq başqa yol yoxdur.

Doğrudur, bu, xalqa ağır başa gəlir, çünki Oktyabr inqilabından, Sovetlər İttifaqının təşkilindən sonra qolçomaqlığın ləğv edilməsi, yəni, kəndlilərin əlindən bütün mülkiyyətin- torpağın da, mal-qaranın da alınması, bunların ictimailəşdirilməsi, dövlətə verilməsi üçün, hər halda, Azərbaycan şəraitində 10 ildən çox vaxt lazım olmuşdur.

Azərbaycanda bütün bunlar çox ağır getmişdir. Bir çox adamlar bunun əleyhinə çıxış etdiklərinə görə repressiyaya məruz qalmışlar. Bir çox adamlar kolxoz quruluşu ilə razı olmadığına, öz torpağını, mal-qarasını vermək istəmədiyinə görə Azərbaycandan uzaq diyarlara – Qazaxıstana, Mərkəzi Asiyanın müxtəlif rayonlarına sürgün edilmişlər.

Lakin repressiya tədbirləri, necə deyərlər, inqilabi yol, kənd təsərrüfatının kollektivləşdirilməsi istədiyinə nail oldu. İnsanlar kollektiv təsərrüfata – kolxozlara, sovxozlara alışdılar. Ədalət naminə demək lazımdır, elə bir vaxt gəlib çatdı ki, insanlar xeyir görməyə, yaxşı yaşamağa başladılar. Mən keçmişdəki hər şeyin pislənməsi mövqeyini heç zaman dəstəkləmirəm. Hərçənd, keçmiş həm də faciəli hadisələrlə, ağır proseslərlə bağlıdır. Buna baxmayaraq, nəhayət, 1935-1936-cı illərdə bərqərar olmuş sistem öz nəticələrini verdi, insanlar ona, kollektiv təsərrüfata, özlərinin heç nələrinin olmamasına, hər bir kəsin işləyib əmək haqqı aldığı dövlət zavodları və fabriklərinin, ticarət müəssisələrinin, nəqliyyatının olmasına alışdılar.

İndi əks proses gedir. Ola bilsin, bu, elə bir proses deyil ki, burada hər hansı inzibati tədbirlər və ya repressiya tədbirləri tətbiq edilsin. Lakin bu, o qədər də asan deyildir. Sizə, məsələn, kənd təsərrüfatı barəsində deyə bilərəm. Biz torpaq islahatına, yəni kolxoz və sovxozların ləğv edilməsinə, mal-qaranın və torpağın kəndlilərə paylanmasına çox cəsarətlə getdik. Deməliyəm ki, bu, çox yaxşı nəticələr verir. Məsələn, ötən il bizdə kənd təsərrüfatı istehsalı 7 faiz artmışdır. Nəzərə alın ki, kənd təsərrüfatı istehsalının 98 faizi özəl sektorun, cəmi 2 faizi isə dövlət sektorunun payına düşür.

Xatirimdədir, 1981–1985-ci illərdə təkcə burada yox, Moskvada da ət, yağ çox qıt idi. Mən burada 1982-ci ilədək işləmişəm, biz hər adama talonla ayda yarım kiloqram yağ satırdıq. O vaxtlar mən birinci katib, respublikanın rəhbəri idim, bu işlə çoxlu məşğul olurdum ki, talonlar vaxtında verilsin, adamlar onlarla ərzaq ala bilsinlər. Bayramqabağı kolbasa və ət daha çox buraxılırdı, üstəlik, bu məhsulları oğurlayırdılar. Yadımdadır, bayramlar ərəfəsində mən mağazalara gedir və aydınlaşdırırdım ki, hamısını açıq satırlarmı, gizlətmirlər ki. Bu da olubdur.

İndi isə Azərbaycanda ət, yağ, çörək sarıdan problem yoxdur. Bunların hamısı var. Doğrudur, deməliyəm ki, 1993-cü ildə mən buraya gəldikdə vəziyyət ağır idi. 1994-cü, 1995-ci illərdə adamları çörəklə təmin etmək bizim üçün ağır idi. Dövlət vəsaiti az idi. Biz taxıl satın alıb gətirir, satırdıq, növbələr yaranırdı. Sonra biz bütün bunların hamısını sərbəst buraxdıq, taxıl istehsalı ilə bağlı bütün təsərrüfatı özəlləşdirdik və təxminən yarım ildən sonra bizdə bu sahədə problem olmadı. İndi bizdə nə qədər istəyirsən ət, eləcə də başqa məhsullar var. Doğrudur, qiymətlər bəlkə də hamı üçün münasib deyildir, hər halda, onlar Rusiyada olduğundan aşağıdır.

Bax, siz deyirsiniz ki, iqtisadi problemlərin həlli siyasi problemlərin də həllinə kömək edər. Bu düzdür. İqtisadi problemləri həll etmək lazımdır və biz onları bax, belə həll edirik. Bizdə ticarət tamamilə özəlləşdirilibdir. Bizdə nə kimi mağazaların meydana gəldiyini yəqin ki, gördünüz. Məgər o vaxtlar belə mağazalar vardı? Bu, təkcə bizdə deyil, Moskvada da, keçmiş Sovetlər İttifaqının bir çox regionlarında da belədir. Yadınızdadırmı, keçmiş vaxtlarda biz xaricə gedərkən oradan sovet mağazalarında olmayan şeylər almağa çalışırdıq. Yaxud mərhum Arkadi Raykinin çox gözəl dediyi qıtlıq məsələsini götürək: ən nüfuzlu adam kimdir? Əlbəttə, əmtəəşünas. Hə, yadınızdadırmı? Bəs nə üçün belə idi? Ona görə ki, mağazada əmtəəşünasın hər şeyi var idi və hər bir kəs qıt mal almaq istəyirdi. İndi isə qıtlıq yoxdur.

İri sənaye müəssisələrinin özəlləşdirilməsi daha çətindir. Nəyə görə? Ona görə ki, əvvəla, onlar iridir. Sanballı sərmayədarlar gərəkdir. İkincisi isə, o vaxt istehsal etdiklərimizin heç də hamısını bu gün istehsal etmək mümkün deyildir, çünki bazar yoxdur. Yuri Mixayloviç Lujkov mənə söylədi ki, onlar ZİL zavodunu, daha hansısa zavodu alıblar. Bilmirəm, onlar nə qədər istehsal edirlər, hər halda, çox deyildir, sovet dövründəkinə nisbətən qat-qat azdır. Bizdə boruyayma zavodu var, orada 10 min adam işləyirdi. Bu zavod boru istehsal edir və onu Sovetlər İttifaqının hər yerinə göndərirdi. İndi isə, əvvəla, hətta neft çıxarılan Rusiyanı və başqa ölkələri də götürsək, bazar ümumən məhdudlaşıbdır, ikincisi isə avadanlıq köhnəlib və böyük sərmayə lazımdır. Yəni satış bazarı olmalıdır.

Bizdə, məsələn, böyük kimya var. Biz yarımfabrikatlar istehsal edir və son məhsul hazırlanması üçün Rusiyanın müxtəlif vilayətlərinə göndərirdik. Məsələn, biz apatiti Murmanskdan alırdıq. Bəs indi onu almaq sərfəlidirmi? Təkcə yol xərcləri neçəyə başa gələr? İstehsal etdiyimiz məhsuldan nə qazanacağıq? Doğrudur, kimya sənayemiz polietilen istehsalı üçün bir yapon şirkəti ilə müqavilə bağlamışdır. Bu şirkət 90 milyon dollar ayırmışdır. Nəzərdə tutulduğuna görə, bu, tamam yeni texnologiya olacaq, yüksək keyfiyyətli polietilen buraxılacaq, ondan yaponların özləri istifadə edəcək və ya onu satacaqlar. Bu var. Lakin malik olduğumuz nə varsa, onlar, - Azərbaycan isə böyük sənaye ölkəsidir, - indi bizə çətinliklər yaradır.

Rusiyada müdafiə sənayesinin nə qədər zavodları vardı. Misal üçün, götürək Zelenoqrad şəhərini, o vaxtlar bu şəhər möcüzə idi. Mən burada işləyərkən biz Zelenoqrada getmişdik və oradakı müəssisələrə, evlərə, necə yaxşı insanlar işlədiyinə heyran qalmışdıq. Bəs Zelenoqrad indi nə vəziyyətdədir. Hamısı ona görədir ki, tələbat yoxdur. O vaxt biz də burada elektron sənayesini inkişaf etdirməyə başladıq və yaxşı məhsul istehsal edir, onları yığmaq üçün digər zavodlara göndərirdik. İndi isə buna tələbat yoxdur.

Buna baxmayaraq, bizdə iqtisadiyyatda da böyük nəticələr var. Əvvəla, neft sənayesini götürək. Biz xarici sərmayədarları cəlb edə bildik və artıq onlarla birlikdə neft çıxarırıq, onu gələcəkdə də çıxaracağıq. Yeri gəlmişkən, bu gün mən burada gündüz saat 1-dən düz üç saat oturaraq, şirkətlərimizin rəhbərlərinin Bak–Ceyhan boru kəmərinin tikintisi, habelə qaz məsələsi barədə məlumatını dinlədim.

Bizdə böyük həcmdə neft və qaz ehtiyatları olan başqa yataqlar da var. Haqqında müqavilə imzaladığımız təkcə «Azəri», «Çıraq» və «Günəşli» yataqlarından təxminən 2008-ci ilədək 60 milyon ton neft çıxaracağıq. Lakin xarici sərmayələri cəlb etməyimiz sayəsində digər firmalar da Azərbaycana gəlir. Məsələn, imzaladığımız müqaviləyə 11 neft şirkəti daxildir və onlar işləməyə başlamışlar. İşləmək üçün onlar bir çox digər firmaları cəlb etməlidirlər. Bu firmalar buraya gəlir, işləyirlər. Azərbaycana isə əlavə sərmayələr yönəldilir. Məsələn, dərin qazma işləri aparılması üçün onlar bizim bir qazma qurğusunu yenidən qurmuş və buna 200 milyon dollar sərf etmişlər. Bizdə belə qurğular vardı. Sovet dövründə, mən burada işləyən vaxtlarda biz bu işlə məşğul olur. «Şelf» üzən qazma qurğuları yaradırdıq, bizdə beş belə qurğu var. Lakin onlar köhnəlib, tələb edilən standartlara cavab vermir. Onların modernləşdirdiyi qurğular isə dənizin 600-700 metr dərinliyində quyular qazır və özü də çox yaxşı qazır.

Təbii ki, bu, olduqca çox adama iş yeri açmışdır. Bütün bu şirkətlərdə işləyənlərin 90 faizi bizim adamlardır, bizim neftçilərdir, onlar isə çox təcrübəlidirlər. Onlar yaxşı əmək haqqı alırlar – ayda orta hesabla 700–800 dollar. Bizdə bu iş yaxşı gedir və hesab edirəm ki, yaxşı perspektivə malikdir.

Lakin biz bu fikirdəyik ki, iqtisadiyyatımız yalnız neft-qaz sənayesi vasitəsilə inkişaf etməməlidir. Bizim digər imkanlarımız da çoxdur, biz onları inkişaf etdirəcəyik. Başlıcası, müharibəyə, münaqişəyə son qoymaqdır, qalan hər şey isə bir vəziyyətdədir ki, biz yaxşı iqtisadi nəticələrə malik ola bilərik və təbii ki, siyasi məsələləri həll edə bilərik.

Əslində, münaqişəni aradan qaldıra bilsək, elə ciddi siyasi məsələlər də qalmır. Münaqişənin aradan qaldırılması isə təkcə bizə deyil, Ermənistana da lazımdır. Ermənistan olduqca çətin iqtisadi vəziyyətdədir, hərçənd, ona Rusiya, Amerika və başqaları çox kömək edirlər. Bundan əlavə, Ermənistan Cənubi Qafqazda

ticarət prosesinə qoşulmaq imkanından məhrumdur. Əgər münaqişə aradan qaldırılarsa və Ermənistanla Azərbaycan arasında sülh bərqərar edilərsə, onda əlbəttə, Cənubi Qafqaz respublikalarının ticarəti xeyli canlana bilər və bu, şübhəsiz, Azərbaycan üçün də, Ermənistan üçün də, Gürcüstan üçün də faydalı olar. Mən Sizə qənaətbəxş cavab verdimmi?

**Qadilbek Şaləhmədov** *(«Mir» DTRŞ)*: Heydər Əliyeviç, mən «Mir» Dövlətlərarası Teleradio Şirkətinin sədriyəm. Bildiyiniz kimi, iqamətgahımız Moskvada yerləşir. Moskvada həmkarlarımız bəlkə də bilirlər ki, Sizin fəal köməyinizlə 1997-ci ildə Bakıda «Mir»in milli müdiriyyəti və filialı açılmışdı.

**Heydər Əliyev:** Yeri gəlmişkən, yaxşı filialdır.

**Qadilbek Şaləhmədov:** Bu gün artıq biz həmin vaxt ərzində görülmüş işi araşdırırıq. Siz onda demişdiniz ki, bu filial, onun binası və peyk antennası Azərbaycan üçün dünyaya informasiya pəncərəsi olmalıdır. Əslində belə də olur. Azərbaycanda baş verən ən mühüm hadisələr, demək olar, hər gün Rusiya ictimai televiziyasının birinci kanalında görünür, Avropaya gedir, Amerikaya gedib çıxır. Əgər Amerikadan danışsaq, filial Si-En-En üçün xüsusi süjetlər hazırlayır. Yəni bu cür iş gedir.

Doğrudur, biz hesab edirik ki, bu azdır. Biz artıq qüvvə toplamışıq və daha çox işləməyə hazırıq. Biz Rusiya prezidentinin vəzifəsini icra edən Vladimir Putinə məktub hazırlamışıq, - düşünürəm ki, onu müvafiq xidmətlərə verəcəyik, - və ondan xahiş edirik ki, «Mir»in yayımlanma həcmləri digər MDB ölkələrində genişləndirildiyi kimi, Rusiya telekanallarında da genişləndirilməsinə imkan verilsin. Təbii ki, bizim hamımızı yaxınlaşdıran rus dilində. Zənnimcə, Siz bunu dəstəkləyəcəksiniz.

**Heydər Əliyev:** Bunun üçün siz Vladimir Vladimiroviç Putinə…

**Qadilbek Şaləhmədov:** Sizin adınızdan məktub göndərmək lazımdır.

**Heydər Əliyev:** Mən ona yazmalıyam?

**Qadilbek Şaləhmədov:** Bəli.

**Heydər Əliyev:** Nə üçün mən yazmalıyam?

**Qadilbek Şaləhmədov:** Bütün prezidentlər «Mir» teleradio şirkətinin təsisçiləridir və onlar bir-birlərinə xahişlə müraciət edirlər. Zənnimcə, məktubda hər şey səliqə ilə dəqiq yazılıbdır.

**Heydər Əliyev:** Yaxşı, mən baxaram.

**Qadilbek Şaləhmədov:** Mən bir məsələ barəsində soruşmaq istərdim. Siz təcrübəli siyasətçisiniz. MDB-nin müqəddəratı əslində bütün birlik ölkələrinin sakinlərini narahat edir. Çünki iqtisadi, siyasi proseslər gah kəskinləşir, gah da zəifləyir. Bilmək istərdim Siz Rusiyada qarşıdakı seçkilərlə, yaxınlıqda gedən müharibə ilə, İpək yolu layihəsinə dair meydana çıxan bir çox problemlərlə əlaqədar MDB-nin taleyi barədə nə düşünürsünüz?

**Heydər Əliyev:** Deməliyəm ki, Müstəqil Dövlətlər Birliyi yaradılarkən, bildiyiniz kimi, Azərbaycan oraya daxil olmadı. Burada başqa hakimiyyət vardı, onlar MDB-yə daxil olmaqdan imtina etdilər.

Mən Azərbaycanın rəhbəri olduqda, - bundan əvvəl parlamentin sədri idim və prezident vəzifəsini icra edirdim, - Azərbaycanda böyük təbliğat işi nəticəsində parlament vasitəsilə nail oldum ki, ölkəmiz MDB-nin üzvü olsun. 1993-cü ilin payızında Azərbaycan MDB-nin üzvü oldu. Yəni mən bunu istəyirdim və bundan çox şey gözləyirdim. Lakin deyə bilmərəm ki, MDB-nin fəaliyyətindən çox razıyam. Ona görə yox ki, Azərbaycan MDB-nin üzvü olmuşdur. Mən bu gün də belə bir fikirdəyəm ki, biz düzgün hərəkət etmişdik. Lakin mən MDB-dən narazıyam. Özü də təkcə mən yox, demək olar, hamı narazıdır. Birliyin üzvü olan ölkələrin prezidentləri arasında razı olanları tapmaq çətindir. Bu da əsaslıdır, çünki bütün bu illər ərzində MDB-nin işi heç cür qaydaya düşməmişdir.

Bilirsiniz ki, hamı kimi, biz də MDB-nin işlərində Rusiyaya, daha doğrusu, Rusiya hökumətinə üstünlük vermişik. Deməli, bu öhdəlikləri, məsuliyyəti öz üzərinə götürərək onları lazımi qaydada icra etmək gərəkdir. Amma, təəssüflər olsun ki, biz indiyədək bunu görmürük. Ona görə MDB hələ də bizim görmək istədiyimiz orqana çevrilməyibdir. Rusiyada seçkilərin nəticələrini gözləyək.

Hesab edirəm ki, MDB-nin həyatında yeni mərhələ başlanacaqdır. Biz axırıncı dəfə toplaşarkən əslində bütün prezidentlər belə bir nikbin əhval-ruhiyyədə idilər ki, seçkilərdən sonra, yəni Vladimir Vladimiroviç Putin prezident seçildiyi təqdirdə, biz MDB-nin fəaliyyətində yəqin ki, yeni mərhələyə başlaya biləcəyik.

**Yulian Lukasik** *(«Meqapolis-kontinent»)*: Rusiya prezidentinin vəzifəsini icra edən Vladimir Putinlə görüşünüzdən sonra Rusiya-Azərbaycan münasibətlərinin perspektivləri barədə fikrinizi eşitmək istərdim.

**Heydər Əliyev:** Bilirsiniz, Rusiya–Azərbaycan münasibətləri normaldır. Əgər siyasi perspektivlərdən danışsaq, biz MDB-yə daxilik, əlaqələr saxlayırıq.

Başa düşürsünüzmü, MDB-də doğmalar və ögeylər olmamalıdır. Bir halda ki, Rusiya MDB-nin aparıcı ölkəsidir, onda bütün ölkələrə münasibət eyni cür olmalıdır. Əlbəttə ki, bu münasibətlər qarşılıqlı olmalıdır. Lakin bu, həmişə böyükdən çox asılıdır – o mənada böyük ki, biz Rusiya prezidentini artıq neçənci dəfədir birlik ölkələri dövlət başçıları şurasının sədri seçirik. Odur ki, MDB-nin bütün orqanları Rusiyanın ixtiyarındadır. Buna görə də bu işdə Rusiyanın siyasəti çox çevik və çox tarazlı olmalıdır. Bu və ya digər ölkəni

özündən uzaqlaşdırmaq çətin deyil, amma bu boşluğu doldurmaq daha mürəkkəbdir. Bunu tarixi təcrübə sübut edir.

Azərbaycan həmişə istəmişdir və bu gün də, hər halda, mənim prezidentliyim dövründə istəyir ki, Rusiya ilə ən səmimi münasibətləri – həm siyasi, həm iqtisadi, həm də digər münasibətləri olsun. Çünki biz Rusiya ilə heç də bir il deyil, bir onillik deyil ki, bağlıyıq. Bizi Rusiya ilə iki yüz il bağlayır. XX əsrdə Azərbaycanda mədəniyyətin, elmin, iqtisadiyyatın və bütün həyatın inkişafı 20-ci ildən başlayaraq Sovet İttifaqının tərkibində birgə olmağımızla bağlıdır. Təbii ki, orada da əsas rol Rusiyaya mənsub idi. Biz bunu heç vaxt unuda və inkar edə bilmərik.

1919-cu ildə Azərbaycanda ilk universitet yaradıldı. O, cəmi 23 ay mövcud olmuş müstəqil hökumətin dövründə yaradılmışdı. O zaman rus alimlərini, professorlarını dəvət etmişdilər, çünki özümüzünkülər yox idi. Doğrudur, deyilənlərə görə, o vaxtlar mübahisələr gedirdi – necə yəni, biz müstəqil dövlət olmuşuq, odur ki, bütün müəllimlər azərbaycanlılar olmalıdır. Lakin baxıb gördülər ki, azərbaycanlı müəllimlər yoxdur, bir neçə adam var, amma universitet təhsilini təmin etmək üçün isə yoxdur. Azərbaycan universitetinin ilk prezidentini – Razumovskini və bir çox başqalarını bizdə indiyədək xatırlayırlar. Sonralar bu universitetin əsasında bizdə başqa ali məktəblər də meydana gəldi, indi onların sayı çoxdur.

Elmdə də belə olmuşdur. Əlbəttə, Azərbaycan xalqı bəşəriyyət tarixində çox görkəmli elm xadimlərinə malikdir. YUNESKO gələn ili Nəsirəddin Tusi ili elan edir – o, böyük riyaziyyatçı idi, rəsədxanası vardı. Bu rəsədxana indi İran ərazisindədir. O, dünya şöhrətli riyaziyyatçıdır.

Lakin bunlar Şərqdə, o cümlədən Azərbaycanda tək-tək şəxsiyyətlər idi. Bu, orta əsrlər və sonrakı dövrlərdir. Əgər XIX,XX əsrləri götürsək, onda görərik ki, Azərbaycanda mədəniyyət, elm, təhsil Rusiyanın təsiri ilə, Rusiya alimlərinin, mədəniyyət xadimlərinin və başqalarının iştirakı ilə inkişaf etmişdir. Təsəvvür edirsinizmi, Azərbaycanda – islam dininə etiqad olunan ölkədə 125 il əvvəl dünyəvi teatr yaradılmışdır. Heç bir müsəlman dövlətində belə bir şey yox idi. Elə bu gün də yoxdur. O, dünyəvi teatr idi, Avropa və Rusiya yazıçılarının, dramaturqlarının əsərlərini səhnəyə qoyurdu. 1908-ci ildə Azərbaycanda milli opera yaradıldı. Ona görə ki, görkəmli bəstəkarımız Üzeyir Hacıbəyov Sankt-Peterburqda çox yüksək musiqi təhsili almışdı və operalar yazırdı. Sonralar bizim opera sənətimiz inkişaf etdi, simfoniya sənəti də, qalan digər sənətlər də inkişaf tapdı.

Bütün bunlar Azərbaycana Rusiya vasitəsilə gəlmişdir. Başa düşürsünüzmü, buna görə də indi Rusiyadan üz döndərməyimiz, ondan uzaqlaşmağımız heç cür mümkün deyildir, olmaz. Həm də ona görə mümkün deyil ki, bu, insanların qəlbində dərin kök atmışdır. Nəhayət, Azərbaycanda əvvəllər çoxlu rus yaşayırdı, indi bəlkə o qədər deyildir. Bu gün isə rusdilli əhali Azərbaycanda gözəl yaşayır. Heç bir problem yoxdur. Amma başqa respublikalarda problemlər var. Bizdə rus dilində təhsil verən nə qədər orta məktəb vardısa, o qədər də qalmışdır, biz heç nəyi azaltmamışıq. Universitetlərimizdə rus və Azərbaycan sektorları var. Rusiyanın qalan bütün MDB ölkələri ilə müqayisədə özünə daha yaxın saydığı Ermənistanda orta və ali məktəblərdə rus dilində tədris qadağan edilmişdir. Bax, belə.

Buna görə də bu sahədə siyasətimiz birmənalıdır – biz Rusiya ilə dostluq münasibətləri, mədəniyyət, iqtisadiyyat, incəsənət xətti üzrə geniş əməkdaşlıq, hər cür əlaqələr olmasını istəyirik. Məsələn, apreldə biz «Dədə Qorqud» eposumuzun 1300 illiyini qeyd edəcəyik. Dünən mənə bildirdilər ki, bu yubiley münasibətilə martın 15-də İttifaqlar Evinin sütunlu salonunda yubiley şənlikləri keçirmək nəzərdə tutulmuşdur. Məgər bu, fakt deyilmi? Bu, bizim arzumuzdur? Təbii ki, bu, Rusiyanın mədəniyyət, ədəbiyyat xadimlərinin arzusudur.

Hərçənd, deməliyəm ki, son illər Rusiya–Azərbaycan münasibətlərinə çox böyük ziyan vurmuş faktlar olmuşdur. Zənnimcə, siz Şəhidlər xiyabanında olmusunuz və bir gecədə – 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə həlak olmuş gənclərin, günahsız insanların məzarlarını görmüsünüz. Bu vəhşilikdir və onu Azərbaycan xalqına qarşı, öz xalqına qarşı sovet rəhbərliyi törətmişdir. Xalqımız bunu sovet rəhbərliyinə, Qorbaçova bağışlaya bilməz. Mən bağışlaya bilmərəm.

Lakin biz bunu Rusiyanın Azərbaycana münasibəti ilə eyniləşdirmirik. Bizdə bir çox qüvvələr var ki, onlar belə hesab edir və ya sübut etmək istəyirlər ki, Bakıda bir gecədə bu qədər günahsız insanı rus əsgəri, Rusiya, rus ordusu qırmışdır. Bəli, buraya çox böyük qoşun kontingenti yeritdilər və ona müdafiə naziri Yazov, daxili işlər naziri Bakatin, Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin birinci müavini Bobkov və çox böyük sayda generallar başçılıq edirdilər.

Bu mənzərəni xatırladıqda dəhşətə gəlirsən. Doğrudur, o vaxt mən Moskvada idim, orada yaşayırdım, lakin bunu bilirəm və bu mənzərəni təsəvvür edirəm. Bəs burada nə olmuşdu ki, buraya müdafiə nazirinin başçılığı ilə sovet ordusunun bu qədər tanklarını, toplarını, silahını, bu qədər silahlı qüvvəsini yeritmək lazım idi? Heç nə olmamışdı. Əlbəttə, bu, vəhşilik idi.

Tarixdən bilirik ki, son dövrdə sovet hökuməti tərəfindən öz xalqına qarşı heç yerdə belə təcavüz edilməmişdi. 1956-cı ildə Macarıstana qoşun yeridilməsini xatırlayıram, o vaxt çoxlu adam həlak olmuşdu. Lakin orada məsələ başqa cür idi, o zaman Macarıstana sosialist sistemindən ayrılmağa imkan vermək istəmirdilər. Çexoslovakiyaya qoşunların necə yeridildiyini xatırlayıram. Doğrudur, o vaxt daha ağıllı hərəkət etdilər, əslində qan tökülmədi və elə bir qırılan da olmadı, işi daha yaxşı təşkil etmişdilər. Başqa bir şey yadıma

gəlmir. Həm də onlar özgələri idi, öz ölkələrimiz deyildi. Burada isə öz ölkəmiz, öz xalqımız idi, amma bir görün, necə bir vəhşilik törədildi.

Əlbəttə, bütün bunlar insanların qəlbində qövr edir. Yeri gəlmişkən, bunda Azərbaycanın o vaxtkı rəhbərləri də təqsirkardır. Mən nəinki keçmiş Sovetlər İttifaqının o vaxtkı rəhbərlərini, həm də Azərbaycanın rəhbərlərini təqsirləndirirəm. Onlar özlərini müdafiə etmək, qoruyub saxlamaq üçün Azərbaycanda vəziyyət barədə məlumat verərək bu məsələni qaldırdılar, ola bilsin, hətta şişirtdilər. Lakin bu hadisə baş verdi.

Mən bunu fürsətdən istifadə edərək sizə deyirəm ki, mənim mövqeyimi biləsiniz. Yəqin ki, hadisələr barədə bilirsiniz. Digər tərəfdən, hətta bu cür faciəli hadisələr də indi Rusiya ilə Azərbaycan arasında dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə heç cür maneə ola bilməz.

Bu gün söhbətimin əvvəlində dedim ki, kimisə özündən uzaqlaşdırmaq asan, özünə yaxınlaşdırmaq isə çətindir. Təxminən son beş-altı ay ərzində Çeçenistan hadisələri ilə bağlı olaraq qəzetlərdə, radio və televiziya ilə Azərbaycanın Çeçenistanla əlaqələri haqqında tam yalan informasiya verilir. Mən Kiyevdə, sonra da Moskvada Vladimir Vladimiroviç Putinlə görüşdüm, ona dedim: hanı faktlar? Bunları haradan götürmüsünüz? Bütün bunlar nəyə gərəkdir? Özünüz deyin, gah bir, gah da digər qəzetin guya Azərbaycanın antirusiya siyasəti apardığı, bununla da terrorçulara, digərlərinə və ya üçüncülərə kömək etdiyi barədə yazması ilə vəziyyət daha yaxşı olacaq? Əksinə, bu yazılarla siz buna müəyyən əks-təsir əhval-ruhiyyəsi yaradırsınız. Bu əks-təsir isə mənfi münasibətdə öz ifadəsini tapır. Bu, nəyə gərəkdir? Əvvəla, bu, gerçəkliyə uyğun deyildir. İkincisi, hətta nəsə varsa, məgər onu şişirtmək lazımdırmı?

Yeri gəlmişkən, əvvəlki müharibə dövründə də belə olmuşdur. Biz onda etiraz etmişdik. Nə üçün belə olur? Məhz ona görə ki, öz vəzifələrinə görə Çeçenistanda qayda-qanun yaratmalı olanlar bu işin öhdəsindən gəlməmişlər. Bax, buna görə də onlar uydurmuşlar ki, «Pakistandan, İrandan, Türkiyədən, Səudiyyə Ərəbistanından gələn yaraqlılar Azərbaycan vasitəsilə keçirlər». Xatırimdədir, o vaxt mən məsələ qaldırdım və Rusiya sərhəd xidmətinin nümayəndə heyətini buraya dəvət edib dedim ki, buyurun, sərhədə gedin və yoxlayın. Əvvəla, Azərbaycanın Çeçenistanla bilavasitə sərhədi yoxdur. Azərbaycanla Çeçenistan arasında Dağıstan yerləşir. Rusiya ilə sərhədimiz Dağıstanda olan sərhəddir. Yeri gəlmişkən, bu sərhəddə çox böyük miqdarda Rusiya sərhədçiləri var. Əgər Azərbaycan sərhədçilərinin təqsiri üzündən kimsə buradan keçirsə, nə üçün Rusiya sərhədçiləri onları buraxırlar? Nə üçün?

Bunlar uydurmadır. Əlbəttə, mən ayrı-ayrı halları istisna etmirəm, buna heç kim təminat verə bilməz. Lakin bunu şişirtmək, belə təsəvvür yaratmaq heç kimin xeyrinə deyildir. Buna görə də, bir halda ki, siz sual vermisiniz və mən bu suala, gördüyünüz kimi, çox geniş cavab verirəm, istərdim ki, Rusiyada, onun kütləvi informasiya vasitələrində, onun dövlət fəaliyyəti dairələrində MDB ölkələrinə, o cümlədən Azərbaycana həssas münasibət göstərsinlər. Biz isə dostluğu daha da inkişaf etdirmək və möhkəmlətmək mövqeyində möhkəm dayanmışıq.

**N a t a l y a  J e l n o r o v i ç** *(«Arqumentı i faktı»):* Hörmətli cənab prezident, Sizin xalqınızda məmurlarla aşağı təbəqələrin həyat səviyyəsi arasında nəzərə çarpan olduqca böyük fərq məni çox təəccübləndirdi. Düşünürəm, Siz çox təcrübəli siyasətçisiniz, siyasi kəhkəşanımızda, siyasi olimpimizdə əslində patriarxsınız. Doğrudanmı, Siz bunu ya görmürsünüz, yaxud nədənsə buna yol verirsiniz?

Siz elə ürək ağrısı ilə deyirsiniz ki, qaçqınlar yazıqdır, yoxsullar yazıqdır, iqtisadiyyatı dirçəltmək lazımdır, ilk nəticələr var, Allah eləsin ki, bunlar axırıncı nəticələr olmasın. Əgər Sizdə bu cür təbəqələşmə gedərsə, onda nə edirsinizsə edin, fərqi yoxdur, məmurların acgözlüyü hər şeyi məhv edəcək, nüfuzunuza xələl gətirəcək, bütün bu islahatları puça çıxaracaq, adamlar narazı qalacaqlar, buraya gələnlər bunların hamısını görəcəklər. Sizin təkcə elə bu binanızın özü nəyə desən dəyər, heyrətamiz təsir bağışlayır. Hərçənd bilirəm ki, o, çoxdan tikilmişdir. Digər binalar, məmurlarınızın evləri, çox qəşəng avtomobillər – bax, bütün bunlar, bunların hətta bir qismi heç olmasa, indiki dövrdə yoxsullara da nəsə vermək, sonra isə onları işləməyə məcbur etmək üçün tamamilə kifayət edərdi. Elə götürək qaçqınların bu gün gördüyümüz evini. Bir tərəfdən, bəli, dəhşət doğuran vəziyyətdir. Amma, digər tərəfdən adi həyat məntiqi deyir: bu yeddi ildə cavanların güclü əlləri, gənc adamlar, gənc qadınlar hətta bu evi normal mənzilə çevirə bilərdilər. Əgər səkkiz ildir bu çadır düşərgələri qalırsa, doğrudanmı insanlar, - onlar isə yer üzündə ən qiymətli varlıqdır, - özlərinə heç olmasa ucuz, amma münasib mənzil tikə bilmir? Məsələn, mən bunu başa düşmürəm, ona görə də bunu aydınlaşdırmağınızı xahiş edərdim. Sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Əvvəla, Azərbaycan cəmiyyətində təbəqələşmə istisna hal deyildir.

**N a t a l y a  J e l n o r o v i ç:** Bəli, şübhəsiz ki, belədir. Ancaq axı Siz təcrübəli adamsınız.

**H e y d ə r  Ə l i y e v:** Bəli, mən təcrübəliyəm. Lakin iqtisadiyyatın obyektiv qanunları var. Siz hansısa tikilmiş binalardan danışırsınız. Bəli, keçmiş illərdə, Azərbaycana rəhbərlik etdiyim illərdə biz çox tikmişik – gördüyünüz yaşayış evlərini, ictimai istifadə üçün müxtəlif sarayları, bu binanı. Niyə də tikməyəydik? Niyə? Biz olduqca çox mənzil tikirdik. Siz ətrafda çoxlu evlər, yeni mikrorayonlar görürsünüz – bunları biz tikmişik. Çünki o vaxtlar imkan vardı, pul, vəsait vardı. Yaxşı, o vaxtlar Azərbaycana rəhbərlik edən Əliyev bunları tikdirə bilirdi, indi isə yox? Siz özünüzə belə sual vermirsinizmi? Ona görə yox ki, o istəmir, ona görə yox ki, o görmür, məhz ona görə ki, indi bunun üçün, sadəcə olaraq, şərait yoxdur, imkan yoxdur.

Bəli, cəmiyyətdə təbəqələşmə var. Bu, məgər təkcə bizdədirmi? Mənə deyirlər ki, Moskvanın Rublyovsk şosesində necə böyük malikanələr tikdirirlər. Vaxtilə mən Siyasi Büronun üzvü olarkən bağ evinə bu şose ilə gedib-gəlirdim, lakin o vaxtlar orada bir dəfə də olsun belə ev görməmişdim. İndi isə tikdirirlər. Halbuki Moskvada nə qədər yoxsul adam var. Yəni istərdim elə düşünməyəsiniz ki, bu, yalnız Azərbaycanda belədir. Postsovet məkanında, demək olar hər yerdə belədir. Bu onunla bağlıdır ki, biz bazar iqtisadiyyatı yaratmaq istəyirik. Bazar iqtisadiyyatının yaradılması isə, bir tərəfdən, mülkiyyətçilər, sahibkarlar təbəqəsinin, digər tərəfdən isə, təbii olaraq, maddi çətinliklər çəkən adamlar kateqoriyasının əmələ gəlməsi ilə şərtlənir.

Ancaq nəzərə alın ki, biz əmək haqqını vaxtında veririk. Son iki ildə mən müəllimlərin, həkimlərin, bütün başqalarının əmək haqqını üç dəfə artırmışam. Biz fevral ayının pensiyasını demək olar ki, ödəmişik. Bir sözlə, biz bunları edirik. Mən artıq sizə boruyaymaq zavodu haqqında dedim. Əvvəllər orada 10 min adam işləyirdi, indi isə orada min nəfər işləyir. Qalanları harada iş tapsın? Axı bu zavodu biz tikmişik, onu biz işlətmişik, biz boru istehsal etmişik. Bizdə çoxlu sayda neft maşınqayırması zavodu var. Biz Sovetlər İttifaqının neft-mədən avadanlığına tələbatının təxminən 70 faizini təmin edir, bu avadanlığı Sovetlər İttifaqının hər tərəfinə göndərirdik. Bu gün isə həmin regionlarda öz istehsalatlarını yaratmışlar, bəziləri konversiya yolu ilə hərbi zavodları neft-mədən avadanlığı istehsal edən zavodlara çeviriblər və indi bizim məhsulları almırlar. Bizdə isə ona o qədər də böyük ehtiyac yoxdur. Zavodlarımız isə çox böyükdür, hərəsində 4–5–6 minə qədər adam işləyirdi. Nə etməli? Bu, təbii prosesdir. Əbəs yerə belə hesab edirsiniz ki, biz bunu görmürük.

Qaçqınlara gəldikdə isə, bilirsiniz, biz onların öz doğma yerlərinə qayıtmalarına çalışırıq. Yeri gəlmişkən, onların hər biri ilə söhbət edəndə deyirlər ki, bizə öz doğma torpağımıza qayıtmaq lazımdır, baxmayaraq ki, orada hər şey dağıdılıb, qarət olunub, evlərimiz yerlə-yeksan edilib, heç nə qalmayıbdır. Hər şeyi yenidən tikmək lazım gələcəkdir. Lakin bu adamlar dədə-babalarının məzarları olan yerlərə, nəsillikcə yaşadıqları yerlərə qayıtmaq istəyirlər. Bu çadır şəhərciklərində onlar üçün hansısa müvəqqəti mənzillər yaratmağımız nə verər? Bəli, biz dəniz, dəmir yolu nəqliyyatında istifadə olunan konteynerlər qoya bilmişik, digərləri oraya kiçik evlər gətiriblər. Lakin hamı üçün bunu edə bilməmişik. Odur ki, sizin narahatçılığınız aydındır. Səbəblərə gəldikdə isə – nə üçün mümkün olmur – bunlar əsassızdır.

İndi isə hazırda gedən tikintilər haqqında. Biz aerovağzal kompleksi tikmişik. Siz onu gördünüz? Yaxşıdır? Lazımlıdır? Biz onu 1981-ci ildə, mən burada işləyəndə tikməyə başlamışdıq. Son illər ötdü, onun tikintisini başa çatdırmadılar. İndi Azərbaycan müstəqil dövlətdir. Mən artıq yeddi ildir ki, burada işləyirəm. Gördüm ki, kompleksdə iş dayanıb və dağılır. Nə etməli? Xarici banklara müraciət etdik, - milyon dollar məbləğində kredit götürdük və tikdik. Əvvəl ora yaraşıqlı oldu, ikincisi də şərait yaratdıq. Bizə müxtəlif ölkələrdən çoxlu adamlar gəlir, biz müstəqil dövlətik. Əgər biz hələlik hər şeyi təmin edə bilmiriksə, heç olmasa, bizi ölkələrlə bağlayan əsas yerləri təmin etməliyik. Bəli, biz onu tikmişik, - milyon dollar sərf etmişik, hava limanımızın fəaliyyətindən əldə olunan gəlir borcumuzu ödəyəcəyik.

Zənnimcə, bu proseslər obyektiv xarakter daşıyır. Biz Azərbaycanda aztəminatlı adamlara kömək etmək, iş yerləri yaratmaq üçün çalışırıq. Yeri gəlmişkən, xarici sərmayədarların neft-qaz sənayesinə cəlb edilməsi ilə əlaqədar çoxlu iş yerləri yaradılmışdır. Düşünürəm ki, vaxt gələcək və həyatımızdan bu ciddi çatışmazlıqlar azalacaqdır.

Kifayətdir?

**N a t a l y a  J e l n o r o v i ç:** Siz bizə öz aforizmlər kitabınızı hədiyyə etdiniz. Mən isə Sizə gözəl rəssamımızın kollajlar albomunu hədiyyə etmək istərdim. Onlar həmişə qəzetin birinci səhifəsinə çıxarılır. Xahiş edirəm kollajlara baxasınız və Rusiya siyasətçilərinin, Rusiya hökumətinin halından xəbərdar olasınız. Sizə cansağlığı arzulayıram.

**H e y d ə r  Ə l i y e v** (*ona hədiyyə edilən «AİF» albomu nəzərdən keçirərək*): Bizdə hələ bu dərəcəyə gəlib çatmayıblar, lakin çatırlar. Hər halda, qəzetlərdə Rusiyanı artıq ötüb keçiblər. Yəqin ki, belə şeylər yaratmaq üçün mütəxəssislər çatışmır.

**N a t a l y a  J e l n o r o v i ç:** Siz qəzetlərdən inciməyin.

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz, hərdən səhərlər qəzetləri nəzərdən keçirirəm. Bir qəzetdə mənim barəmdə 5-6 mənada məqalə olur. Ancaq bir qəzetdə, bizdə isə Rusiyada olduğundah daha çox qəzet çap edilir. İndi bizdə qəzet xəstəliyi yayılıbdır. Kimin pulu var, qəzet yaradır, bir qrup jurnalisti toplayır, pul verir və onlar yazırlar. Lakin həmişə elə yazırlar ki, özlərinin dediyi kimi, onları oxusunlar. Oxunaqlı olmaq üçün də mutləq rəhbərliyi tənqid etmək lazımdır. Tənqid etmək ifadəsi hələ yumşaq səslənir. Müxtəlif uydurmalar, yalan informasiya, əfsanələr və sair yazırlar.

Görürəm ki, albom yaxşı hazırlanıbdır. Məgər pisdir? Baxın. Məsələn, Çernomırdin çox gözəl görünür. Burada heç bir pis şey yoxdur. Bunu sizin qəzet buraxır?

**N a t a l y a  J e l n o r o v i ç:** Bizdə birinci səhifədə həmişə belə kollaj çıxır.

**H e y d ə r  Ə l i y e v:** Buyurun, burada Klinton da olduğu kimidir.

Yaxşı. Sağ olun. Xudahafiz.

## DÜNYA BANKININ AZƏRBAYCAN, ERMƏNİSTAN VƏ GÜRCÜSTAN ÜZRƏ DİREKTORU XANIM CUDİ OKONNOR VƏ DÜNYA BANKININ ÖLKƏMİZDƏKİ DAİMİ NÜMAYƏNDƏSİ TEVFİK YAPRAQ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 mart 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Hörmətli xanım Okonnor!

Hörmətli Tevfik Yapraq!

Dünya Bankının nümayəndələrini səmimi-qəlbdən salamlayıram.

**C u d i O k o n n o r:** Çox sağ olun, cənab prezident. Həm öz adımdan, həm də həmkarım Tevfik Yaprağın adından və eləcə də Dünya Bankında olan bütün həmkarlarım adından Sizə minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycana birinci dəfədir gəlirəm. Biz Azərbaycanla böyük məmnuniyyətlə işləyirik.

**H e y d ə r Ə l i y e v:** Biz də Dünya Bankı ilə əməkdaşlığımızdan çox məmnunuq və bunu çox əhəmiyyətli hesab edirik. Ölkəmizin iqtisadiyyatında əldə olunan nailiyyətlərin, təbiidir ki, Dünya Bankının məsləhətləri və köməyi ilə həyata keçirilməsini biz çox əhəmiyyətli hesab edirik. Sizin çox ciddi proqramlarınız var. Bəzən onları yerinə yetirmək çətin olur, amma eyni zamanda biz çalışırıq ki, hamısını yerinə yetirək. Təbiidir, bunu məcburən yox, amma dərk edərək, bilərək ki, bunlar bizim iqtisadiyyatın inkişaf etdirilməsi üçün çox lazımdır.

Mənə Baş nazir məruzə etdi ki, siz bütün məsələləri ətraflı müzakirə etmisiniz. Güman edirəm, mənə də nəsə demək istəyirsiniz.

**C u d i O k o n n o r:** Cənab prezident, deməyə elə də çox sözüm yoxdur. Üç mövzuya toxunmaq istəyirəm. Hər şeydən əvvəl, demək istəyirəm ki, biz valeh olmuşuq və doğrudan da çox xoşumuza gəlir ki, Siz bu qədər böyük səylər göstərirsiniz, çoxlu cəhdlər edirsiniz ki, Dağlıq Qarabağda sülh prosesinə nail olasınız.

Sizə məlum olduğu kimi, -bilmirəm, bu xoşbəxtlikdəndir, yoxsa bədbəxtlikdən, - Dünya Bankının belə bir təcrübəsi vardır. Biz Şərqi Avropada, eləcə də Cənubi Avropada müharibədən sonrakı vəziyyəti düzəltmək işinə qarışmışıq və müvafiq vaxt gələr ki, biz burada da eyni əməkdaşlığımızı, səylərimizi qoymağa hazırıq.

İkinci məsələ. Elə bilirəm ki, bu, bir qədər xoş xəbərdir və burada potensialdan danışmaq istəyirəm. Bu, o potensialdır ki, Sizə məlum olduğu kimi, dünya bazarında neftin qiymətləri qalxmışdır. Bu da, gözlənildiyi kimi, Azərbaycana daha çox imkanlar verəcək ki, neftdən daha artıq gəlir əldə etsin. Yəni Azərbaycan gözlənildiyindən daha çox gəlir əldə edə bilər. Neftdən gələcəkdə alınacaq gəlirlərin hansı sahələrə xərclənməsi üçün, əsas üstün sahələrin müəyyən edilməsi üçün Sizin hökumətinizlə birgə işləməyə, əməkdaşlıq etməyə hazır olduğumuzu bildiririk.

Cənab prezident, üçüncü məsələ isə budur ki, Dünya Bankı sizin ölkədə gedən islahatlardan çox məmnundur. Elə bilirəm ki, bunların hamısı Sizin ölkəniz üçün çox vacib islahatlardır. Biz çox şadıq ki, islahatlar yaxşı, hamar gedir və ona görə də Dünya Bankına bu sahədə yalnız texniki və maliyyə baxımından Sizə yardım etmək qalır.

Bu proqram çərçivəsində yalnız bir məsələ vardır ki, o, bizim ümid etdiyimizdən bir qədər yavaş gedir. Hesab edirəm ki, bir il bundan əvvəl Siz də bu məsələni təsdiq etmişdiniz ki, ölkənizdə dövlət strukturlarında islahatlar gedəcəkdir. Bu sahədə biz də müvafiq məsləhətlərlə Sizə müraciət etdik və Azərbaycanda, eləcə də Nazirlər Kabinetində, auditorluq sahəsində və xərclərə nəzarət sahəsində müəyyən tərəqqi əldə olundu. Xərclərə nəzarət sahəsində bir qədər tərəqqi əldə olunsa da, elə bilirəm ki, digər sahələrdə işlər bizim istədiyimiz kimi sürətlə getmir. Biz bu məsələləri həmkarlarımızla, Baş nazirlə müzakirə etmişik və hesab edirik, əsas odur ki, bu dəyişikliklər getməkdədir. Sizdən xahiş etmək istəyirik ki, öz dəstəyinizi gələcəkdə də əsirgəməyəsiniz.

Əlbəttə ki, biz istərdik gələcəkdə Azərbaycana daha çox yardımçı olaq, Azərbaycana keçmişdəkindən daha çox kömək edək. Çox sağ olun, cənab prezident.

**H e y d ə r Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Birinci – Dağlıq Qarabağ haqqında. Bəli, biz çalışırıq ki, məsələni tezliklə sülh yolu ilə həll edək. Məlumdur, bu sahədə son dövrdə müəyyən cəhdlər göstərilibdir və təbiidir ki, orada çox böyük bərpa işləri getməlidir.

Mən bu yaxınlarda Vaşinqtonda idim. Mənə Dövlət Departamentində bildirdilər ki, Dünya Bankının, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar Üzrə Ali Komissarlığının və bir çox belə maliyyə mərkəzlərinin böyük bir nümayəndə heyəti Azərbaycanın işğal olunmuş torpaqlarının hamısını gəlib yoxlayacaqdır. Çünki onların bərpa olunması üçün nə etmək lazımdır və hansı müddətə etmək lazımdır – onu siz qiymətləndirməlisiniz. Oradan çıxmış insanlar – bir milyona yaxın insandır – öz yerlərinə qayıtmalıdır. Ona görə siz keçmiş təcrübədən gərək səmərəli istifadə edəsiniz və bizə bu barədə yardım edəsiniz.

İqtisadi islahatların həyata keçirilməsi haqqında sizin fikirləriniz məni sevindirir. Biz çalışacağıq ki, bundan sonra bunu daha da sürətlə edək. Mən də razıyam ki, hökumət strukturlarının islahatlarında bəzi gecikmələr vardır. Mənə Baş nazir dedi ki, siz bu barədə ətraflı danışmısınız. Əmin ola bilərsiniz ki, mən nəinki dəstəkləmək, hətta bu məsələnin tezliklə həyata keçirilməsi üçün çox ciddi tədbirlər görəcəyəm.

Təbiidir ki, bizim daim sizin köməyinizə ehtiyacımız vardır və hesab edirəm ki, biz bundan sonra bu sahədə daha da sıx əməkdaşlıq edəcəyik. Mən bizə göstərilən diqqətə, qayğıya və yardıma görə Dünya Bankına bir daha təşəkkür edirəm.

## «Bİ-Pİ/AMOKO» ŞİRKƏTİNİN HASİLAT BÖLÜMÜNÜN PREZİDENTİ DEVİD VUDVORD VƏ ŞİRKƏTİN GEOLOJİ KƏŞFİYYAT BÖLÜMÜNÜN PREZİDENTİ ENDİ HOPVUD İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*4 mart 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Mən sizin hamınızı səmimi-qəlbdən salamlayıram. Sizinlə yenidən görüşməyimdən çox məmnunam. Təbiidir ki, sizin gördüyünüz işlər daim mənim şəxsi nəzarətim altındadır. Mənə həmişə məlumat verilir. Deyə bilərəm ki, işlər yaxşı gedir. Bəzən nəticələr gözlədiyimizdən də yaxşı olur. Ona görə də güman edirəm ki, siz də sevinirsiniz, biz də sevinirik və bizim ölkənin insanları da sevinirlər.

Azərbaycanda Xəzər dənizinin Azərbaycan sektorunun neft və qaz ehtiyatlarından istifadə olunması barəsində son beş ildə aparılan işlər dünya mətbuatının, ümumiyyətlə, dünya ictimaiyyətinin daim diqqətindədir. Müxtəlif fikirlər söylənir, ancaq əksər fikirlər həqiqəti əks etdirir. Doğrudur, mənfi xarakterli məqalələr də dərc olunur. Bu da təbiidir. Çünki dünyada yeni, çox zəngin imkanlara malik və böyük gələcəyə malik Xəzər dənizi hövzəsi kimi neft və qaz yataqları olan bir yer aşkar edilibdir. Daha dəqiq desək, bu yer çoxdan aşkar olunubdur, amma indi bunun həyatının ikinci mərhələsi başlayır.

Məlumdur, mən bunu dəfələrlə qeyd etmişəm ki, Azərbaycan qədim neft və qaz ölkəsi olaraq, o cümlədən dünyada ilk dəfə dənizin dərinliklərindən neftin hasil olunması işinə başlamışdır. Bu, bizim əfsanəvi Neft Daşlarımızdır və ondan sonra Azərbaycan alimlərinin, mütəxəssislərinin, neftçilərinin Xəzər dənizinin Azərbaycan sektorunda, - təkcə Azərbaycan sektorunda yox, Xəzər dənizinin bütün akvatoriyasında, - neft və qaz yataqlarının aşkar edilməsi sahəsində apardıqları çox böyük işdir. Bu, bizim gördüyümüz işlərin birinci mərhələsi olubdur.

İkinci mərhələsi isə, bilirsiniz ki, 1994-cü ildə sizinlə birlikdə imzaladığımız «Əsrin müqaviləsi»dir. Bu gün bir daha böyük məmnuniyyət hissi ilə və hətta deyə bilərəm ki, iftixar hissi ilə bəyan edirəm ki, bizim 1994-cü ildə başladığımız işlər gözəl nəticələr veribdir.

Qeyd etdiyim kimi, dünyaya Xəzər dənizi kimi böyük bir neft regionu açılıbdır. Ondan sonra imzaladığımız müqavilələr də tədricən öz nəticələrini verir. Bunların sırasında «Şahdəniz» yatağı da vardır. Biz müqaviləni bağlayanda buna neft yatağı kimi baxırdıq. Ancaq bilirdik ki, orada çox qaz ehtiyatları vardır. İndi sizin apardığınız işlər, aldığınız nəticələr onu göstərir ki, bizim proqnozlarımız artıqlaması ilə təmin olunur.

«Şahdəniz» qaz yatağında «Şahdəniz» konsorsiumunun əldə etdiyi nailiyyətlər barəsində siz artıq dünyaya geniş bəyanatlar vermisiniz. Londonda, Ankarada təqdimatlar keçirmisiniz. Bu yaxın zamanlarda Davosda olarkən mən «Bi-Pi» şirkətinin prezidenti hörmətli Con Braun ilə görüşdüm. O, əldə olunan nailiyyətlər haqqında mənə böyük sevinc hissi ilə danışırdı və öz planlarını izah edirdi. Vaşinqtonda olarkən «Bi-Pi»nin nümayəndəsi mənimlə görüşdü. Gördüm, bu barədə o qədər sevinclə danışır ki! Təbii ki, mən də sevindim.

İndi mən belə başa düşürəm ki, siz də, biz də eyni istiqamətdə hərəkət edirik ki, bu işləri əməli surətdə həyata keçirək. Mən bilirəm, sizin də təcrübəniz var, bizim də fikirlərimiz vardır. Ona görə də mən bu gün sizinlə görüşmək haqqında qərar qəbul etdim. Sizi dinləmək istəyirəm. Təbiidir ki, biz bəzi məsələləri mətbuatın iştirakı ilə dinləyə bilərik, bəzi məsələləri isə sonra danışarıq. Ancaq mən öncə istəyirəm ki, cənab Vudvord görülən işlər haqqında bir məlumat versin. Ondan sonra «Şahdəniz» haqqında məlumat verilsin. Buyurun.

**D e v i d V u d v o r d:** Cənab prezident, çox təəssüflər olsun ki, biz uzun müddət Sizinlə görüşə nail ola bilməmişik. Lakin bu gün belə bir imkanı bizə verdiyinizə görə Sizə böyük minnətdarlığımızı bildiririk və fürsətdən istifadə edərək «Bi-Pi/Amoko»nun Azərbaycandakı fəaliyyəti haqqında ətraflı məlumat vermək istəyirik.

**H e y d ə r Ə l i y e v:** Buyurun.

**D e v i d V u d v o r d:** Cənab prezident, bizim xəbərimiz var ki, Amerika Birləşmiş Ştatlarına son səfəriniz zamanı Siz həm prezident Bill Klinton, həm də Amerikanın digər rəsmi şəxsləri ilə görüşləriniz zamanı neft və qaz hasilatı, onların ixracı məsələləri haqqında ətraflı söhbətlər, danışıqlar aparmısınız və bununla əlaqədar bilirik ki, bu yaxınlarda Sizin Gürcüstana səfəriniz gözlənilir. Orada olduğunuz müddətdə Siz neft və qazın ixracı barədə prezident Şevardnadze ilə danışıqlar aparacaqsınız. Bütün bunların hamısı bir daha təsdiq edir ki, Siz Azərbaycanın xarici neft şirkətləri ilə hasilatın pay bölgüsü haqqında imzalanmış sazişlərə necə böyük əhəmiyyət verirsiniz və bu məsələdə şəxsi dəstəyinizə görə Sizə bir daha minnətdaram.

«Azəri», «Çıraq», «Cünəşli» və «Şahdəniz» «Bi-Pi/Amoko»nun dünya üzrə iş gördüyü ən böyük strukturlardır və buna görə də şirkətimizin rəhbəri cənab Braun Azərbaycanı Meksika körfəzi, Anqola və

Trinidad ilə birlikdə «Bi-Pi/Amoko»nun beş-on il ərzində böyük sərmayələr qoyacağı dörd ən vacib bölgə adlandırmışdır. Buna görə də Azərbaycan şirkətimiz üçün olduqca böyük əhəmiyyətə malikdir və bu barədə də Sizin dəstəyiniz danılmazdır.

ABƏŞ-ə gəldikdə isə Sizə bildirməyi özümə borc bilirəm ki, hazırkı fəaliyyətimizdə böyük tərəqqi əldə olunur. Eyni zamanda Dövlət Neft Şirkəti ilə böyük işlər görülür. Bu əməliyyatlar da həm Azərbaycanın, həm də xarici neft şirkətlərinin mənafeyinə xidmət edir və burada da böyük işlər görməyimizdən hədsiz şərəf duyuruq.

İcazənizlə, bugünkü təqdimatımızın davamı olaraq biz «Şahdəniz»dən başlamaq istərdik. «Şahdəniz»in hazırkı durumu, oradakı ehtiyatlar və «Şahdəniz» barədə gələcək planlarımızı sizin diqqətinizə çatdırmaq istərdik. «Şahdəniz»ə dair məlumatı cənab Hopvud təqdim edəcəkdir.

**H e y d ə r Ə l i y e v:** Buyurun.

**E n d i H o p v u d:** Cənab prezident, hər şeydən əvvəl üzr istəyirəm ki, bu cür gözəl bir xəbəri Sizə birinci çatdırmaqdan öncə bu xəbəri biz həm Ankarada, həm də Vaşinqtonda bildirmişik.

**H e y d ə r Ə l i y e v:** Onsuz da bizə çatıbdır, narahat olmayın. Biz bilirdik, amma Siz onu rəsmi olaraq oralarda elan etdiniz. Mən hesab edirəm ki, bu da pis deyil.

**E n d i H o p v u d:** Cənab prezident, ona görə də bizim bu gün «Şahdəniz» barədə Sizə qısa bir təqdimatımız var və istərdim ki, elə birinci slayddan başlayaq. «Şahdəniz» barədə yəqin ki, əksəriyyətin xəbəri var. Lakin üç məsələ var ki, mən bugünkü təqdimatı bu məsələlərdən başlamaq istəyirəm.

İlk növbədə, mən 1996-cı ilin iyun ayında Sizin də imza atdığınız «Şahdəniz» yatağında hasilatın pay bölgüsü haqqında sazişi qeyd etmək istərdim. İkinci növbədə, konsorsiumun artıq Xəzər hövzəsində 400 milyon dollar xərcləməsindən bəhs etmək istərdim. Qeyd etdiyim 400 milyon dolların yarısından çoxu konsorsium tərəfindən «İstiqlal» qazma qurğusunun bərpasına sərf edilmişdir.

**H e y d ə r Ə l i y e v:** 400 milyon «Şahdəniz»ə həsr olunubdur.

**E n d i H o p v u d:** Bəli. Üçüncü şəkil onu göstərir ki, Şahdəniz» Xəzərin cənubunda olan ilk ən böyük yataqdır ki, ən böyük ehtiyatlar aşkar edilmişdir. Ümid etmək istərdim ki, «Şahdəniz»dən sonra Xəzərin bu ərazisində qazılacaq quyularda da «Şahdəniz»dən geri qalmayan ehtiyatlar aşkar olunacaqdır.

Cənab prezident, ikinci slayda gəldikdə isə burada, gördüyünüz kimi, tərəfdaşlıq əks olunubdur. Biz yalnız xarici neft şirkətləri arasında olan tərəfdaşlığı nəzərdə tutmuruq. Eyni zamanda burada Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və hökuməti ilə əldə olunmuş və davam etdirilən əməkdaşlıq xüsusi qeyd olunmalıdır. Bu əməkdaşlığın nəticəsidir ki, bugünkü təqdimatımızda «Şahdəniz»ə dair planlarımızın birinci mərhələsində hansı işləri görəcəyimizi Sizə deməyə imkan yaranır. Bu, elə bir tərəfdaşlıqdır ki, burada şirkətlərin fəaliyyəti də, təcrübə mübadiləsi də özünü büruzə verir.

Planlarımızın vaxtından əvvəl aydın olmasına gətirib çıxaran səbəblərdən biri də şəxsən Sizin keçən il verdiyiniz qədər idi ki, «Şahdəniz»ə dair işçi qrupu yaradılsın və bu qrup «Şahdəniz»in planlarını işləyib hazırlasın. Keçən ilin noyabr ayında İstanbulda Azərbaycan, Gürcüstan və Türkiyə dövlət başçılarının imzaladığı çərçivə sənədi imkan verdi ki, Azərbaycan qazının, «Şahdəniz» qazının Türkiyəyə satılmasına dair planlar işlənib hazırlansın.

Digər tərəfdən, bizim «Şahdəniz»ə dair planlarımızı açıq şəkildə dünyaya bəyan etməyimiz iki məsələ üzərində qurulmuşdur. Onlardan biri «Şahdəniz» tərəfdaşlığına olan əminliyimiz, digəri isə ötən il imzalanan çərçivə sənədidir.

Cənab prezident, üçüncü slaydda quyunun ehtiyatlarından bəhs olunur və mən bu barədə danışmaq istərdim. Burada ehtiyatların keyfiyyətindən də söz açmaq yerinə düşərdi. Gördüyünüz bu şəkildə ötən ay keçirilən testlər təsvir olunmuşdur. Özünüz gördüyünüz kimi, «İstiqlal» qazma qurğusunun qazdığı bu quyudan qazın hansı təzyiqlə çıxması açıq şəkildə göstərilmişdir və bu barədə rəqəmləri bir daha demək istərdim.

**H e y d ə r Ə l i y e v:** Budur?

**E n d i H o p v u d:** Bəli, cənab prezident. Gündə 1,8 milyon kubmetr qaz və eyni zamanda ikinci quyudan 400 ton kondensat hasil olunur.

**H e y d ə r Ə l i y e v:** Qaz havaya gedir?

**E n d i H o p v u d:** Hazırda havaya gedir.

**H e y d ə r Ə l i y e v:** Gözəl mənzərədir.

**E n d i H o p v u d:** Hazırda gördüyünüz bu qaz 425 atmosfer təzyiq altında çıxır və bu rəqəmə qazma qurğusunda olan avadanlığın gücündən tam istifadə edilməklə nail olunmuşdur. Başqa sözlə, avadanlığın gücü çatsaydı, qazı daha böyük təzyiqlə çıxarmaq mümkündür.

**H e y d ə r Ə l i y e v:** Yəni avadanlıq imkan versəydi, daha da çox güc ilə çıxa bilərdi, hasilat daha da çox olardı. Onda bunlar elə əvvəlki kimi səhv ediblər, avadanlığı zəif qoyublar.

**N a t i q Ə l i y e v** (*Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti)***:** Cənab prezident, yataqlarımız çox güclüdür.

**H e y d ə r Ə l i y e v:** Bunlar indiyə qədər bizim yataqlarımızı tanımayıblar.

**E n d i H o p v u d:** Üzr istəyirik, yalnız belədir.

**H e y d ə r Ə l i y e v:** «Çıraq» yatağından dəm qazının nəqli üçün sizin çəkdiyiniz boru indi oradan çıxan qazı sahilə gətirə bilmir. Siz çəkdiyiniz borunun diametri nə qədərdir – 16 düymdür?

**N a t i q Ə l i y e v:** Bəli, cənab prezident. Onlar orada gündə cəmi 3 milyon kubmetr qaz çıxarırlar. Onu da sahilə tam gətirə bilmirlər. Sahilə bir milyonu gəlmir.

**H e y d ə r Ə l i y e v:** Amma orada nə qədər qaz havaya gedir?

**N a t i q Ə l i y e v:** Gündə bir milyon kubmetrə kimi.

**H e y d ə r Ə l i y e v:** Gündə bir milyon kubmetr qaz havaya gedir. Ona görə ki, bunlar düz hesablamayıblar.

**N a t i q Ə l i y e v:** Cənab prezident, yadınızdadırsa, neft də belə oldu.

**H e y d ə r Ə l i y e v:** Onu bilirəm. Sən məsələni qarışdırma. Mən qaz haqqında danışmaq istəyirəm.

Gərək siz ondan nəticə çıxaraydınız.

**E n d i H o p v u d:** Bəli, cənab prezident. Bu məsələyə bu cür də baxmaq mümkündür.

**H e y d ə r Ə l i y e v:** Yox, ancaq mən sizi günahlandırmıram. Mən bundan bir nəticə çıxarıram. O da ondan ibarətdir ki, siz nə qədər böyük təcrübəli olsanız da, Azərbaycanın o qaz, neft yataqlarının imkanlarını düzgün müəyyən edə bilmirsiniz. Yəni nəticə gözlənildiyindən çox-çox artıq olur. Buna sevinmək lazımdır, təbiidir. Ancaq yaxşı olardı ehtiyat avadanlıq qoyaydınız ki, nəticə çox olanda hamısını götürə biləydik.

**E n d i H o p v u d:** Cənab prezident, onu da qeyd etmək istərdim ki, indi dediyim rəqəmlər sadəcə olaraq, üç məhsuldar qatın birindən əldə edilən hasilatdır.

**H e y d ə r Ə l i y e v:** Bəs sonra nə olacaq? O birinci məhsuldar qatlardan yanacaq çıxanda nə olacaq?

**E n d i H o p v u d:** Cənab prezident, dediyiniz məsələyə qayıdarkən onu qeyd etmək istərdim ki, hər quyunun potensial imkanı var ki, inkişaf, istehsal zamanı və sistemə qoşulduqdan sonra orta hesabla ildə bir milyard kubmetr qaz çıxarılsın. Yəni hər quyudan bir milyard kubmetr qaz çıxarılsın. Amma ayrı-ayrılıqda götürdükdə bunların hətta üç milyarda çatacağı da gözlənilir.

**H e y d ə r Ə l i y e v:** Hər bir quyunun?

**E n d i H o p v u d:** Bəli. Bunu deməklə onu da nəzərinizə çatdırmaq istərdim ki, qazın çıxması və onun sürəti olduqca böyükdür. Ona görə də quyunun sistemə qoşulması üçün və yatağın tam işlənilməsi üçün biz gərək ekspertlərimizdən istifadə edək. Eyni zamanda çox doğrudur ki, bu quyu bizim gözlədiyimizdən daha artıq nəticələr vermişdir. İstanbulda imzalanmış sazişlə bərabər, quyudan əldə olunan nəticələr bizim bu gün gəlib Sizə təqdimat verməyimizə və planlarımızı açıqlamağa imkan yaratmışdır.

Yatağın, strukturun ehtiyatlarının tam həcminə gəldikdə, bəli, belə bir ehtimal var və ola bilər ki, oradakı ehtiyaclar bir trilyon kubmetrə gəlib çatsın. Hazırda mən yenə də nisbətən bir balaca az rəqəm işlətmək istərdim. Amma bir trilyon olması ehtimalı böyükdür.

**H e y d ə r Ə l i y e v:** Mən bilirəm, o, niyə az rəqəm deyir.

**E n d i H o p v u d:** Aydın məsələdir ki, strukturun tam ölçüsü çox vacibdir. Lakin qeyd etmək istərdim ki, burada əsas məsələ sürət məsələsidir. Mən «sürət məsələsi» deyəndə «Şahdəniz» qazının ilk molekullarının rəqabət aparan digər amillərdən əvvəl bazara çıxmasını nəzərdə tuturam. Eyni zamanda qazın işlədilməsi üçün, bazar məsələlərinin qeyd olunması üçün hazırda bizim tam əminliklə 150 milyard kubmetr deməyə imkanımız var və bu qaz da bazar planlarımızın həyata keçirilməsi üçün maliyyənin cəlb olunmasına yetərlidir.

**H e y d ə r Ə l i y e v:** O molekul dedin, o nə deməkdir?

**E n d i H o p v u d:** Yəni çıxarılan qazın ilk hissəsi.

**H e y d ə r Ə l i y e v:** Axı bu, molekul olmadı? Molekul deyəndə mən bir az şübhəyə düşdüm. Mən başa düşdüm. Amma istədim molekulu aydınlaşdırım. Buyurun, buyurun.

**E n d i H o p v u d:** Cənab prezident, ümidvaram ki, bundan sonrakı təqdimatınızı nisbətən dar çərçivədə apara bilərik. Lakin son olaraq onu demək istərdim ki, biz əminik ki, «Şahdəniz» yatağı dünya səviyyəli bir yataqdır. «Şahdəniz» yatağından indiyə qədər əldə olunmuş nəticələr gözlənildiyindən artıqdır və biz tərəfdaş kimi «Şahdəniz» layihəsinin böyük müvəffəqiyyətlər gətirəcəyinə tam əminik. Eyni zamanda «Şahdəniz» qazının tez bir zamanda Türkiyə bazarına çıxarılacağına əminik.

**H e y d ə r Ə l i y e v:** Bitdi?

**E n d i H o p v u d:** Bəli, amma indi də başqa məsələlərə keçəcəyik.

**H e y d ə r Ə l i y e v:** Biz qalan məsələlər barədə sonra danışacağıq. «Şahdəniz» yatağında birinci quyunun verdiyi nəticələrlə əlaqədar biz bir dəfə görüşmüşük. O vaxt siz ilkin təqdimatı verdiniz. Ondan sonra dediniz ki, işləri davam etdirib ikinci quyunu da qazacağıq. İndi daha da gözəl nəticələr əldə etmisiniz. Mən bu münasibətlə sizi, Azərbaycan Dövlət Neft Şirkətini və Azərbaycan neftçilərini, xalqımızı təbrik edirik. Mən bunu Azərbaycan dövlətinin neft strategiyasının nə qədər əhəmiyyətli olduğunu və nə qədər konkret nəticələr verdiyini bir daha nümayiş etdirən bir hadisə hesab edirəm.

Bizim neft strategiyamızı anlamayanlar, yaxud anlamaq istəməyənlər, onun əleyhinə olanlar – hamısı indi görsünlər ki, biz nə qədər düz yolda olmuşuq. Mən hesab edirəm ki, həm Azərbaycan dövləti, həm də dünyanın bizimlə əməkdaşlıq edən böyük neft şirkətləri bu yolu kor-koranə getməmişlər.

Biz Xəzər dənizindəki neft və qaz yataqlarının nə qədər böyük potensialı olduğunu bilirdik. Bir daha deyirəm, mən iftixar hissi ilə qeyd edirəm ki, bizim alimlər, neftçilər, mütəxəssislər bu sahədə dünya səviyyəsindədirlər. Siz – yəni xarici dövlətlərin neft şirkətləri, o cümlədən birinci növbədə «Bi-Pi/Amoko» gəlib Azərbaycanda müəyyən işlər aparandan sonra burada nə olduğunu bildiniz. Amma bu işlərə başlamaq üçün həm siz, həm də biz tərəfdən cəsarət lazım idi. Siz tərəfdən ona görə ki, birinci, siz sərmayə qoyursunuz. Əgər qoyduğunuz sərmayə nəticə verməsə, sizin işiniz pozular. İkincisi, sərmayə qoyduğunuz yerdə sizin üçün ictimai-siyasi sabitlik, qayda-qanun lazımdır. Güman edirəm ki, siz sərmayə qoyarkən bizə inandınız.

Biz 1994-cü ildə «Əsrin müqaviləsi»ni, 1996-cı ildə «Şahdəniz» yatağının birgə işlənilməsi barədə müqaviləni imzalayarkən siz artıq inanırdınız ki, Azərbaycanda ondan əvvəlki illərdə yaranmış xaos, hərc-mərclik, özbaşınalıq aradan götürüləcək və ölkəmizdə ictimai-siyasi sabitlik bərpa olunacaq, qanuni hökumət daha da möhkəmlənəcəkdir. Biz bu ümidlərlə sizinlə əməkdaşlığa başlamışıq.

Mən bugünkü görüşümüzdə söhbətə başlayarkən dedim ki, buna mane olmaq istəyənlər çox idi. Bu gün də mane olmaq istəyənlər var. Çünki Azərbaycan gördüyü bu işlərlə böyük bir potensiala malik olduğunu dünyaya nümayiş etdirmək perspektivi qazanıbdır.

Təəssüf ki, təkcə xaricdə yox, ölkəmizin daxilində də buna mane olmaq istəyənlər var. Soruşuram, nə üçün? Təəssüf ki, bizim cəmiyyətimizdə elə insanlar, hətta elə qurumlar, qüvvələr var ki, Azərbaycanda işlər nə qədər pis olsa, onlar üçün bir o qədər yaxşıdır. Çünki ölkədə, cəmiyyətdə vəziyyət pis olanda onlar öz fəaliyyətlərini həyata keçirər və öz məqsədlərinə nail ola bilərlər. Yəni onlar öz şəxsi məqsədlərini güdürlər, ümumi milli mənafedən çox uzaqdırlar. Bizim içimizdə belələri bu gün də vardır.

Mən bu gün bir daha xatırlamaq istəyirəm ki, 1996-cı ildə həmin bu masanın arxasında – müqavilənin imzalanmasına bir həftə qalmış – müqavilənin pozulmasına cəhd göstərənlər var idi. O vaxt Azərbaycanın Milli Məclisinin sədri işləyən Rəsul Quliyev müqavilənin imzalanmasına bir həftə qalmış gəlib mənə bəyan etdi ki, «bu müqaviləni imzalamaq olmaz. Bu, Azərbaycan üçün zərərlidir. Ümumiyyətlə, bu müqavilədə Azərbaycan üçün böyük zərərli müddəalar vardır». Təbiidir ki, biz bu məsələni müzakirə etdik və onun arqumentlərinin əsassız olduğunu ona bildirdik.

Gərək bu gün Xoşbəxt Yusifzadəni də buraya çağıraydınız. Bu, sizin səhvinizdir. O, bu gün burada olmalı idi. Çünki Dövlət Neft Şirkətində hamı bu işlə məşğul idi. Amma baş geoloq kimi Xoşbəxt Yusifzadə bu yatağın nə qədər böyük imkanlara malik olduğunu hamıdan çox bilirdi və hamıdan da yaxşı sübut edirdi.

Təbiidir ki, Rəsul Quliyevin belə avantürist, təxribat xarakterli hərəkəti bizim işimizə mane ola bilməzdi. Mən onu da və Dövlət Neft Şirkətinin bütun rəhbərlərini də dinlədim. Dövlət Neft Şirkətinin bütün rəhbərləri, mütəxəssislərimiz onun dediyi sözlərin əsassız olduğunu sübut etdilər. Təbiidir ki, mən qəbul etdiyim qərarı dəyişmək fikrində deyildim. 1996-cı il iyunun 4-də müqavilə imzalandı. O vaxtdan üç il keçibdir. Görün nə qədər gözəl nəticələr əldə etmişik.

Bəlkə də bu adam adının burada çəkilməsinə də heç layiq deyildir. Amma bu faktdır, həqiqətdir. Bu mənada ki, Azərbaycan xalqına qarşı təxribat həyata keçirməyə cəhd göstərmişdi. Nə üçün? Əgər o bunu anlamırdısa, yəni başa düşmürdüsə, ağlı bu səviyyəyə çatmırdısa, onda otursun yerində və heç vaxt deməsin ki, neft sahəsində hansısa mütəxəssisdir. Əgər bunu anlayaraq edirdisə, demək, xalqına xəyanət edirdi.

Bizim içimizdə belələri də vardır. Ancaq qoy onlar hamısı – o vaxtkılar da, bugünkülər də bilsinlər: biz Azərbaycanın neft siyasətini hazırlayıb həyata keçirərkən ölkəmizin elmini, neft sənayesindəki təcrübəni və hər birimizin, o cümlədən mənim şəxsi təcrübəmi – hamısını üst-üstə qoyaraq belə bir stretegiya hazırlamışıq. Bu da öz gözəl nəticələrini verir.

Hörmətli dostlar, mən sizin sevincinizi anlayıram. Siz böyük dövlətlərin neft şirkətlərisiniz. Dünyanın bir çox yerlərində böyük sərmayələr qoyursunuz, gəlir əldə etmək istəyirsiniz. Güman edirəm, siz də bizim sevincimizi anlayırsınız. Biz yenicə müstəqillik əldə etmiş dövlətik, böyük təbii sərvətlərə – neft və qaz yataqlarına malikik. Onlardan xalqımızın, millətimizin rifahı, Azərbaycanın iqtisadiyyatının inkişafı naminə istifadə etməyə çalışırıq. Buna görə də biz qarşımıza çıxan bütün maneçiliklərin, təxribatların, müxtəlif çirkin hərəkətlərin qarşısını alırıq, bundan sonra da alacağıq.

«Şahdəniz» yatağının verdiyi nəticələr müxtəlif xarici ölkələrin mətbuatında Xəzər dənizində ehtiyatların guya az olmasına, Azərbaycan tərəfindən guya bunun şişirdilməsinə dair verilmiş məqalələrə çox tutarlı cavabdır.

Siz çox gözəl dediniz ki, biz hələ Azərbaycanın başqa yataqlarında bundan da çox ehtiyatlar aşkar edəcəyik. Mən buna əminəm. Mən çox sevinirəm ki, artıq siz də buna əminsiniz. Ona görə də sizə təşəkkür edirəm. Gördüyünüz işlər çox yüksək qiymətə malikdir. Çox məmnunam ki, ötən beş il müddətində Azərbaycana gəlmiş xarici dövlətlərin şirkətləri ilə Azərbaycan Dövlət Neft Şirkəti, Azərbaycan hökuməti, prezidenti arasında çox

gözəl işgüzar əlaqələr yaranıbdır. Əmin ola bilərsiniz ki, bu əlaqələr get-gedə daha da təkmilləşəcək, artacaqdır. Əmin ola bilərsiniz ki, siz həmişə mənim dəstəyimi alacaqsınız.

Azərbaycanın prezidenti kimi, mən dövlətimizin yeni neft strategiyasını irəliyə sürən şəxsəm. Bu strategiyanı sizinlə birlikdə ardıcıl surətdə həyata keçirəcəyik. Biz Azərbaycan xalqının, millətinin bu günü və gələcəyi üçün çox gözəl işlər görürük və gözəl də nəticələr alacağıq.

Mən Dövlət Neft Şirkətinə təşəkkür edirəm. Siz çox səmərəli əməkdaşlıq edirsiniz, belə də davam etmək lazımdır.

Demək, görüşümüzün birinci hissəsi bununla başa çatır.

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI HƏRBİ KOLLECİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**

*Prezident sarayı*

*4 mart 2000-ci il*

**E l i z a b e t  Ş e l t o n** (*ABŞ-ın Azərbaycandakı səfirliyinin müşaviri*): Cənab prezident, çox böyük nəvaziş göstərib, vaxt ayırıb bu gün bizim qrupumuzla görüşürsünüz. Mən elə bilirəm ki, bu qrupla görüş Sizin üçün çox maraqlı olacaqdır.

Cənab prezident, bu qrupun üzvləri zabitlərdir və onlar Amerika Birləşmiş Ştatlarının Hərbi Donanmasını və Hərbi Hava Qüvvələrini təmsil edirlər. İcazə verin, bizim hərbi kolleclərimizin iş sistemini bir dəqiqə ərzində Sizə izah edim.

Cənab prezident, ABŞ-da belə bir qayda var: orduda fərqlənən zabitlərə bir il müddətində imkan verilir ki, onlar, bizim dediyimiz kimi, bayraq səviyyəsində zabit kimi yetişsinlər, o rütbəyə çatsınlar. Yəni polkovnik, general, admiral rütbəsi alsınlar. Gözlədiyimizə görə, bu zabitlər gələcəkdə Amerika Birləşmiş Ştatlarının hərbi qüvvələrində çox yüksək rütbələr alacaqlar.

Ona görə də bu gün Sizinlə görüşə gələnlər qeyri-adi zabitlərdir. Onlara bir il vaxt ayrılmışdır ki, milli təhlükəsizlik və müdafiə strategiyasını öyrənsinlər. Onlar tədris proqramının praktiki hissəsi kimi müxtəlif ölkələrə səyahətə gedir və həmin ölkələrin liderləri ilə görüşürlər ki, Amerika Birləşmiş Ştatlarının maraq bəslədiyi bu ölkələrdə təhlükəsizlik və müdafiə məsələlərini müzakirə etsinlər.

Onlar çox şaddırlar ki, bu gün Sizinlə görüşə gəliblər. Mən də səfirlik adından Sizə minnətdaram ki, onlara bu imkanı vermisiniz ki, gələcək strategiyasını müəyyən etsinlər. Onlar müxtəlif ölkələrə gedərkən bu səviyyədə görüşməyə heç də həmişə imkanları olmur. Ona görə də Sizə xüsusi minnətdarıq.

Cənab prezident, biz istərdik Sizi söhbətə dəvət edək ki, bu zabitlərə Azərbaycanın bu regiondakı strateji əhəmiyyəti haqqında məlumat verəsiniz. İcazənizlə, Siz söhbəti bitirdikdən sonra onlar Sizə bir neçə sualla müraciət etmək istəyirlər. Bu görüşə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Səfir Eskudero hazırda Birləşmiş Ştatlardadır, Sizə ən xoş arzularını yetirir və bir həftəyə Azərbaycana dönəcəkdir.

Siz Amerika Birləşmiş Ştatlarında olarkən, orada görüşlər keçirərkən hiss etdiniz ki, ABŞ-ın strateji maraqları baxımından Azərbaycan nə dərəcədə vacib ölkədir. Onu da deyim ki, mən qrupun üzvlərinə məsləhət görmüşəm ki, Zbiqnev Bjezinskinin «Böyük şahmat taxtası» kitabını oxusunlar. Cənab prezident, çox sağ olun.

**H e y d ə r  Ə l i y e v:** Mən sizin hamınızı salamlayır və «Azərbaycana xoş gəlmisiniz!» deyirəm. Güman edirəm ki, burada olduğunuz müddətdə bizim ölkə ilə tanış ola bilmisiniz. Mənim bildiyimə görə, siz bizim müdafiə naziri, xarici işlər naziri ilə görüşmüsünüz. Başqa görüşlər də olubdur?

**E l i z a b e t  Ş e l t o n:** Bəli, olubdur.

**H e y d ə r  Ə l i y e v:** Deməli, Azərbaycanı tanıyırsınız və mənim sizə geniş məlumat verməyimə ehtiyac yoxdur. Bu, mənim vəziyyətimi yüngülləşdirir.

Mən məmnunam ki, Amerika Birləşmiş Ştatlarında, onun dövlətində və Müdafiə Nazirliyində, hərbi hissələrində Azərbaycana diqqət çox artıbdır. Ola bilər, burada oturanların çoxu beş-altı il bundan öncə Azərbaycan kimi bir ölkənin olmasını heç bilmirdilər.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra, təbiidir ki, dünyada günü-gündən çox tanınmağa başlayıbdır. Hər bir müstəqil dövlət, Birləşmiş Millətlər Təşkilatının üzvü, təbiidir ki, dünya ölkələrində az da olsa, çox da olsa tanınır. Amma çox böyük maraq mövzusu olan ölkələr var ki, onu sadəcə, tanıyırsan və xəritədə göstərə bilirsən ki, bu ölkə nədir. Bundan artıq məlumat almağa ehtiyac olmur.

Bir daha bildirirəm, son illər – Sovetlər İttifaqı dağılandan sonra, Sovetlər İttifaqına mənsub olan ruspublikalar dövlət müstəqilliyi əldə edəndən sonra dünyanın bir çox ölkələrində bizlərə, o cümlədən Azərbaycana maraq çox artıbdır. Bu baxımdan, hesab edirəm, indi Qafqaz daha çox böyük maraq doğurur. Zahirən ona görə ki, Qafqazda münaqişələr var, müharibələr gedir, qan tökülür. Amma Qafqazla dərindən tanış olanlar, güman edirəm, hiss edirlər ki, Qafqaz dünyanın maraqlı regionudur. Burada, dünya miqyasında kiçik bir ərazidə çox millətlər yaşayır. Bu millətlərdən hər birinin çox qədim tarixi var. Vaxtilə bu millətlərin arasında dostluq da, ziddiyyətlər də olubdur. Ancaq XX əsrin sonunda ziddiyyətlər, münaqişələr də var.

Azərbaycan Qafqazda, Cənubi Qafqazda yerləşən, çox mühüm coğrafi-strateji əhəmiyyətə malik olan bir ölkədir. Birincisi, Azərbaycanı əhatə edən ölkələrə, qonşulara görə. İkincisi, Azərbaycan Avropa ilə Asiya, Şərqlə Qərb arasında, onların qovuşduğu yerdə yerləşdiyinə görə. Üçüncüsü, Azərbaycan Xəzər dənizində

böyük mövqe tutur. Xəzər dənizi sahilində ən böyük şəhər, ən böyük liman Bakı şəhəridir və o, Azərbaycanın paytaxtıdır.

Azərbaycanın keçmişini tanıyanlar Azərbaycanı bir neft ölkəsi kimi tanıyırlar. Bu da təbiidir. Çünki neft dünyada həmişə maraqlı bir material olubdur. Bu gün də Azərbaycan dünyanın çox böyük neft ölkələrindən biridir. Amma Azərbaycanın çox maraqlı təbiəti var. Burada hər şey görmək olur: həm çox hündür dağları – Qafqaz dağlarını, həm də səhraları, həm böyük çayları, gölləri, həm də subtropik zonanı. Azərbaycanlılar öz ölkələrini çox sevirlər. Mən onların içərisində, hesab edirəm, birinci yerlərdə duran adamam. Son illərdə dünyada gedən proseslər Azərbaycanın coğrafi-strateji əhəmiyyətini daha da artırıbdır.

Bilirsiniz ki, Azərbaycanın indi çox böyük problemləri vardır. Əsas problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. 12 ildən artıqdır ki, bu münaqişə başlayıbdır. Bəzi səbəblərdən Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edibdir. İşğal olunmuş torpaqlardan bir milyondan artıq azərbaycanlı zorla çıxarılıbdır. Onların əksəriyyəti uzun müddətdir çadırlarda yaşayır. Ermənistanla Azərbaycan arasında müharibə gedib. Biz indi də müharibə şəraitindəyik, ancaq döyüşlər yoxdur. Çünki 1994-cü ildə biz atəşin dayandırılması haqqında saziş imzalamışıq və məsələnin sülh yolu ilə həll olunmasına çalışırıq. Bunun da əsas prinsipləri ondar ibarətdir ki, erməni silahlı qüvvələri tərəfindən işğal edilmiş torpaqlar azad olunmalıdır, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, yerindən-yurdundan didərgin düşmüş insanlar öz yerlərinə qayıtmalıdır. Kiçik bir vilayət olan Dağlıq Qarabağ – hansına görə ki, münaqişə başlayıbdır – bu da Azərbaycanın torpağıdır, Azərbaycanın tərkibində özünüidarəetmə statusuna malik ola bilər.

Bu məsələlərlə indi ATƏT məşğul olur, onun Minsk qrupu məşğul olur və Minsk qrupunun həmsədrləri Rusiyadır, Amerika Birləşmiş Ştatlarıdır, Fransadır. Biz məsələnin həll olunması üçün Amerika Birləşmiş Ştatları ilə çox sıx əməkdaşlıq edirik. Mən prezident Bill Klinton ilə bu barədə dəfələrlə görüşüb danışıqlar aparmışam və ABŞ hökumətinin başqa üzvləri ilə də görüşlərim, danışıqlarım olubdur. 15 gün öncə mən sizin ölkədə idim, Vaşinqtonda idim.Prezident Bill Klinton ilə də görüşdüm, xarici işlər naziri xanım Olbrayt ilə də, sizin müdafiə naziri cənab Kohen ilə də görüşdüm, Pentaqonda oldum. Enerji naziri, kənd təsərrüfatı naziri, başqa nazirlər ilə bizim görüşlərimiz, təbiidir ki, Amerika – Azərbaycan əlaqələrinin bütün sahələrini əhatə edirdi. Ancaq Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması məsələsi bizim müzakirələrimizin əsas mövzusu idi.

Azərbaycan müstəqil dövlət kimi gəncdir, onun ordusu da gəncdir. Ancaq ordu möhkəmlənir, inkişaf edir. Hər bir ölkənin ordusu olduğu kimi, bizimki də olmalıdır. Təbiidir ki, buna hələ çox zaman lazımdır. Biz Amerika Birləşmiş Ştatları ilə bu sahədə bir çox əməkdaşlıq əlaqələri yaratmışıq. Güman edirəm ki, müdafiə naziri bu barədə sizə məlumatlar verdi.

Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramında iştirak edir, Şimali Atlantika Assambleyasının işində iştirak edir və başqa proqramlarda da iştirak edirik. NATO-nun 50 illik yubileyində Azərbaycan da təmsil olunmuşdu. Mən orada Azərbaycanın adından nitq söylədim. Bizim ölkəmiz ümumiyyətlə, Amerika Birləşmiş Ştatları ilə çox sıx əməkdaşlıq etdiyinə görə dövlətimizin müxtəlif orqanları, strukturları da bu əməkdaşlığın iştirakçısıdırlar.

Mən 1999-cu ilin aprel ayında Vaşinqtonda olarkən sizin Hərbi Dəniz Donanmanızı ziyarət etdim. O, Vaşinqtonun yaxınlığında yerləşir. O akademiya ilə çox ətraflı tanış oldum. Mənə çox gözəl təəssüratlar bağışladı. Hətta orada gənc dənizçilərlə birlikdə yemək də yedim. Qəribə şeydir, orada bir yerdə 4 min adam yemək yeyir. Mən yeməkdən qabaq onların qarşısında çıxış etdim və onların xoşuna gələn bir ifadə işlətdim: «Bit arm». Bunu çox alqışladılar. Mənim üçün çox maraqlı idi. Mən gördüm ki, sizin orduda və o cümlədən Hərbi Dəniz Donanmasında nə qədər təcrübəli və nə qədər yüksək səviyyəli məktəblər var, akademiyalar var və nə qədər yüksək səviyyəli kadrlar hazırlanır.

Təbiidir ki, sizin ordunuz çox güclü ordudur. O, son vaxtlar, İkinci dünya müharibəsindən sonra bir neçə yerdə öz gücünü göstəribdir. Körfəz müharibəsi, sonra Yuqoslaviyada NATO-nun tədbirləri – bunlar hamısı Amerika Birləşmiş Ştatlarının ordusunun və NATO-nun doğrudan da böyük qüdrətə malik olduğunu göstərir. Bu, bizi sevindirir. Çünki biz Amerika Birləşmiş Ştatları ilə yaxın dostluq, strateji əməkdaşlıq münasibətləri həyata keçiririk və dostumuzun belə güclü ordusunun olması, təbiidir, bizi sevindirir.

İndi ordu müharibə etmək üçün lazım deyil. İndi ordu, sadəcə, dünyada sülhün, təhlükəsizliyin təmin olunması üçün lazımdır. Amerika Birləşmiş Ştatlarının Silahlı Qüvvələri də məhz bu məqsədi daşıyır. Mənim fikrim budur ki, İkinci dünya müharibəsindən sonra dünyada daha böyük müharibə olmamalıdır. Kiçik müharibələrin də qarşısı alınmalıdır. Buna imkan var. Amerika Birləşmiş Ştatları böyük, qüdrətli dövlət olaraq bu sahədə öz xidmətini göstərməlidir. O cümlədən Qafqazda da, Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasında da Amerika Birləşmiş Ştatları gərək öz səylərini artırsın.

Siz ki, belə təcrübədən istifadə edirsiniz, yəni öz təhsilinizi tamamlayarkən ayrı-ayrı ölkələrlə tanış olursunuz və diplomatın dediyi kimi, xüsusi əhəmiyyət daşıyan regionlara gedirsiniz, - bu, çox yaxşıdır. Çünki dünyanı yaxşı bilmək lazımdır və hər bir ölkənin xüsusiyyətini bilmək lazımdır, onun tarixini, mədəniyyətini bilmək

lazımdır. Biz çalışırıq özümüz üçün bunu edək. Məsələn, mən hesab etmirəm ki, biz Amerikanı çox yaxşı tanıyırıq. Amerika o qədər qəribə bir ölkədir ki, onu tanımaq üçün çox vaxt lazımdır.

Mən, məsələn, Vaşinqton, Nyu-York, Hyüston, Çikaqo şəhərlərində olmuşam. Amma bütün ştatları gəzmək üçün nə qədər vaxt lazımdır. Doğrudur, Klivlenddə də olmuşam – Ohayo ştatıdır. Mən çox arzu edərdim ki, hamısını görüm. Ancaq mümkün deyil. Amma siz gəncsiniz, çalışın daha da çox görün və sizin nazirliyin, yaxud hökumətinizin bu cür təşəbbüsü, hesab edirəm ki, çox dəyərlidir. Əgər siz bu günlər Azərbaycan haqqında müəyyən təəssüratlar əldə etmisinizsə, bu, bizim üçün də əhəmiyyətlidir.

Biz istəyirik dünyanın hər yerində Azərbaycanı olduğu kimi tanısınlar. Nə üçün? Çünki bəzi hallarda ayrı-ayrı ölkələr haqqında və eləcə də bizim Azərbaycan haqqında müxtəlif ölkələrdə, o cümlədən Amerikada qeyri-obyektiv məlumatlar verirlər, dezinformasiya verirlər. Biz çalışırıq onların qarşısını alaq. Biz çalışırıq inandıraq ki, Azərbaycan haqqında yazılan yalanlar həqiqətən yalandır. Amma bizim ölkəyə gələn adamlar Azərbaycanı öz gözləri ilə görürlər. Doğrudur, deyə bilmərəm ki, gələn adamların hamısı Azərbaycandan yaxşı təəssüratla gedir. Burada da səbəb var. Bəziləri, sadəcə, sizin kimi tanış olmaq, bilmək və təəssüratlar toplamaq üçün gəlirlər. Bəziləri – bu, xüsusən jurnalistlər olur – burada neqativ halları araşdırıb öz qəzetlərində yazmaq üçün gəlirlər. Hər bir ölkədə neqativ hallar var. Dünyada hələ ideal yer yoxdur. O cümlədən siz də öz ölkənizi hər yerdə ideal hesab edə bilməzsiniz. Mən bununla demək istəmirəm ki, bizim həyatımızda olan neqativ halları gizlətmək lazımdır, yaxud da onları bilmək lazım deyil. Amma yaxşını da bilmək lazımdır, pisi də bilmək lazımdır. Hər halda, obyektiv olmaq lazımdır. Hər bir insanın obyektiv olması çox əhəmiyyətlidir. Ola bilər, məsələn, Azərbaycanın bəzi yeməkləri sizin xoşunuza gəlməsin. Amma ola bilər ki, çox xoşunuza gəlsin. Mən hesab edirəm ki, çoxları xoşunuza gəlibdir. Elədir, yoxsa yox? Görürəm, təsdiq edən çoxdur.

Hesab edirəm ki, elə buradakı insanlar da zahirən yaxşı insanlardır. Burada oturanların əksəriyyəti kişidir. Yəqin onlar görüblər ki, burada qadınlar da gözəldir. Elədir, yoxsa yox?

**Y e r d ə n  s ə s:** Bu da doğrudur.

**H e y d ə r  Ə l i y e v:** Amma sizin içərinizdə də görürəm, bir gözəl qadın var. Hər şeyi bilmək lazımdır. Bizim yaxşı, gözəl, zəngin mədəniyyətimiz var, müsiqimiz var, gözəl teatrlarımız var. Hər halda, bizim öz ənənələrimizə məxsus olan mədəniyyət ocaqlarımız var. Bunların hamısını insan nə qədər çox bilsə, o qədər yaxşı olur. Mən bu barədə sizə çox danışa bilərəm. Amma hesab edirəm ki, siz məndən nəsə soruşmaq istəyirsiniz.

Təbiidir ki, bu görüş yoldaşlıq xarakteri daşıyır. Mən sizinlə rəsmi dövlət məsələlərini müzakirə etmirəm, sadə söhbət aparıram. Ona görə nə sözünüz, sualınız var, buyurun.

**T e o d o r  H e y l s** (*mülki vətəndaş*): Cənab prezident, biz Rusiyanın Cənubi Qafqazda öz rolunu davam etdirmək arzusu haqqında Sizin fikrinizi öyrənmək istəyirik.

**H e y d ə r  Ə l i y e v:** Görürsən, mən görüşü sadə aparıram, bu isə məni siyasətə çəkir.

Bilirsiniz, Cənubi Qafqaz bir neçə əsr Rusiya imperiyasının tərkibində olub. Məsələn, Azərbaycanı götürsəniz, XIX əsrin əvvəlində iki dəfə Rusiya – İran müharibəsi olubdur, bu müharibələr nəticəsində Azərbaycan parçalanıbdır. Azərbaycanın şimal hissəsi, yəni bizim yaşadığımız Azərbaycan rus imperatorluğunun tərkibinə keçibdir, Azərbaycanın cənub hissəsi İranın tərkibində qalıbdır. Gülüstan müqaviləsi, Türkmənçay müqaviləsi ilə – bu iki müqavilə ilə Azərbaycan iki yerə bölünübdür: yüz il rus imperatorluğunun, 70 il də Sovet imperiyasının tərkibində qalıbdır. Amma fərqi yoxdur, bu da yenə də Rusiyanın hakimiyyəti idi.

Təbiidir ki, Rusiya əgər 200 il Azərbaycanda hakim olubsa, Azərbaycan onun tərkibində olubsa, o cümlədən Cənubi Qafqazın digər ökələri – Gürcüstan da, Ermənistan da, - bu barədə müəyyən vaxt fərqi var, - indi Rusiya bu regiondan əl çəkmək istəməz ki. Burada özünün təsir dairəsini saxlamaq istəyir. Amma indi vəziyyət dəyişilibdir. Bu da ondan ibarətdir ki, bizim ölkələr – Cənubi Qafqaz ölkələri, o cümlədən Azərbaycan müstəqil dövlətdir. Biz səkkiz ildir ki, müstəqilliyimizi saxlayırıq və əsas məqsədimiz – mən hesab edirəm ki, bu barədə biz daim dönməz olacağıq – Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirməkdən, inkişaf etdirməkdən ibarətdir.

Təbiidir, biz dünyanın bütün dövlətləri ilə mehriban dostluq, əməkdaşlıq əlaqəsi saxlamaq istəyirik. Azərbaycan kiçik bir ölkədir. Bizim heç bir başqa iddiamız yoxdur. Ermənistanın bizim torpaqlarımıza iddiası var. Biz də buna razı ola bilmərik. Hesab edirik ki, biz bunu da ləğv edəcəyik. Ona görə bizim siyasətimiz bundan ibarətdir ki, dünyanın bütün ölkələri ilə qarşılıqlı anlaşma və qarşılıqlı mehribanlıq münasibətləri yaradaq və əməkdaşlığı inkişaf etdirək. Biz Rusiya ilə də belə münasibətlər həyata keçiririk və bundan sonra da keçirəcəyik. Hər halda, Rusiyanın Azərbaycanda kökləri dərindir. Çünki əgər 200 ilə yaxın Azərbaycan Rusiyanın tərkibində olubsa, demək, burada tarixi əlaqələr böyükdür. Biz bunları itirmək istəmirik. Ancaq öz dövlət müstəqilliyimizi də heç vaxt əlimizdən verməərik.

Cənubda bizim qonşumuz İrandır. Güman edirəm, bu sualı da yəqin verəcəksiniz. Orada 30 milyon azərbaycanlı yaşayır. Səkkiz milyonu buradadır, otuz milyonu İrandadır və bizim Azərbaycanda yaşayanlarla İran Azərbaycanında yaşayanlar arasında çox qohumluq əlaqələri vardır. İran ilə Azərbaycan arasında dövlət

quruluşu sistemində çox ciddi fərqlər vardır. İran islam dövlətidir. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətdir. Ona görə orada olan azərbaycanlılarla burada olan azərbaycanlıların arasında fərq var. Fərq də, sadəcə, hər ölkənin cəmiyyətində olan vəziyyətlə əlaqədardır. Amma biz İran ilə də eyni əlaqələri saxlayırıq və saxlamaq istəyirik. Buyurun.

**D e v i d  S v i ə t** (*polkovnik*): Cənab prezident, bizim ölkəmiz də gəncdir. Ölkəmizin 200-dən bir qədər çox yaşı vardır. Məlum olduğu kimi, bizim hərbi sistemimiz, silahlı qüvvələrimiz çox inkişaf edibdir. Orduda olanlar, biz zabitlər cəmiyyət tərəfindən bəzən dəstək hiss edirik, bəzən də bu dəstəyi hiss etmirik. Siz Azərbaycanda orduya cəmiyyət tərəfindən dəstəyi necə qiymətləndirirsiniz?

**H e y d ə r  Ə l i y e v:** Bilirsiniz, siz 200 ildir ki, dövlətsiniz və ordunuzun da 200 illik tarixi vardır. Amma bizim ölkənin ordusunun cəmi, - əgər 8 ildir müstəqil dövlətiksə, - ordunun da, tutaq ki, 8 illik tarixi vardır. Keçmişdə Azərbaycan Rusiya imperiyasının tərkibində olanda azərbaycanlılar orduya cəlb edilmirdilər. Çünki onlara etibar etmirdilər, bir də ki, din fərqi var idi. Ancaq tarixdə bəzi azərbaycanlılardan, Azərbaycanın dövlətli adamlarının övladlarından Rusiyanın ali hərbi məktəblərində çox yüksək rütbələrə, general rütbəsinə çatmış adamlar olubdur.

Məsələn, XX əsrin əvvəlində rus-yapon müharibəsində Rusiya ordusunun tərkibində azərbaycanlı general Əliağa Şıxlinski çox şücaətlə iştirak edibdir. Yaxud, Birinci dünya müharibəsində yenə də Rusiya ordusunun tərkibində Azərbaycan millətinə mənsub olan bir neçə general iştirak edibdir.

Bunlar ayrı-ayrı faktlardır. Rusiya imperiyasının ordusunda gənclərimiz kütləvi surətdə olmayıblar. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra isə sovet ölkəsində bütün vətəndaşlar eyni hüquqa malik olduqlarına görə, azərbaycanlılar da orduya cəlb ediliblər. Ancaq az-az adamlar zabit səviyyəsinə gəlib çatırdı. Onların əksər hissəsi, sadəcə, əsgərlik vaxtını keçirəndən sonra ordudan tərxis olunurdular.

İkinci dünya müharibəsində, faşist Almaniyasına qarşı müharibədə azərbaycanlılar çox fəal iştirak etmişlər. O vaxtlar yüksək rütbəli çoxsaylı zabitlər – polkovniklər, generallar meydana gəlmişdi. O zaman sovet hökuməti ordunu daha da gücləndirmək üçün hətta milli diviziyalar da yaratdı. O vaxt bir neçə milli Azərbaycan diviziyası var idi. Onlar çox böyük şücaətlə döyüşmüşdülər və qələbələrin əldə olunmasında fəal iştirak etmişdilər. Amma təəssüflər olsun ki, İkinci dünya müharibəsi başa çatandan sonra bu milli diviziyaları dağıtdılar. Sovet ordusunda əsasən rus, Ukrayna millətlərinə mənsub olan adamlar rəhbər vəzifələrə, yüksək rütbələrə malik idilər. Ona görə də o dövrdə biz özümüz üçün istənilən qədər milli zabit kadrları hazırlaya bilməmişdik. Baxmayaraq ki, bir çox ali hərbi məktəblərdə azərbaycanlılar da təhsil almış, yüksək rütbələr qazanmış və sovet ordusunda xidmət etmişlər. İndi onlar bizim milli ordumuzun zabit heyətinin əsasını təşkil elirlər. Çünki hərbi ixtisas da göydən düşmür. Gərək insan təhsil alsın, təcrübə qazansın.

İndi bizim burada ali hərbi məktəblərimiz vardır. Ola bilər ki, siz onlarla tanış olmusunuz. O illər biz bir ölkənin tərkibində olarkən, ümumiyyətlə, cəmiyyətdə orduya çox müsbət münasibət var idi. İndi, müstəqillik dövründə isə bizim cəmiyyətimizdə, Azərbaycanda orduya çox yaxşı münasibət var. Xalqımız istəyir ki, ordu daha da güclü, yüksək səviyyəli olsun. Yəni cəmiyyətdə orduya mənfi bir münasibət heç vaxt hiss edilməyibdir.

**C o n  R u d o l f** (*polkovnik-leytenant*): Cənab prezident, Siz tərəqqi yolunu tutmusunuz. Gənc ölkəniz üçün əsas problemi, çətinliyi, maneəni nədə görürsünüz?

**H e y d ə r  Ə l i y e v:** Çətinliklər çoxdur. Mən sizə dedim, əsas problem Ermənistan–Azərbaycan münaqişəsinin həll olunması, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsidir. Bununla bərabər, keçid dövrünün də poblemləri vardır. Çünki biz 70 il yaşadığımız cəmiyyətdən, kommunist ideologiyasından, kommunist, sosialist siyasi-iqtisadi, sosial sistemindən imtina etdik. Biz demokratiya yolu ilə, siyasi plüralizm, qanunun aliliyi yolu ilə gedirik.

Ən çox çətinlik iqtisadiyyatdadır. Çünki keçmişdə bütün mülkiyyət dövlətə məxsus idi, insanların şəxsi mülkiyyəti yox idi. Amma indi biz bazar iqtisadiyyatı yolu ilə gedirik, insanlara şəxsi mülkiyyət əldə etmək imkanı vermişik və bunu təmin edirik. Məsələn, keçmişdə Azərbaycanın bütün torpaqları dövlətə məxsus idi. Yəni mən kənd təsərrüfatı məhsulları istehsal etmək üçün yararlı olan torpaqları deyirəm. Amma indi biz bunları kəndlilərə paylamışıq. Hərənin öz şəxsi mülkiyyəti vardır. Bu, öz müsbət nəticələrini verir. Ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı artır.

Sovet hakimiyyəti illərində Azərbaycanda çox böyük sənaye müəssisələri, infrastruktur, ticarət müəssisələri yaranmışdı. Biz bunları özəlləşdiririk. Onların bir qismini özəlləşdirmişik. Amma bu da asan deyildir. Məsələn, bizdə boru-prokat zavodu vardır. O, poladdan neft boruları istehsal edən bir zavoddur. Orada on min adam işləyirdi, istehsal edilən borular da təkcə Azərbaycanda qalmır, Sovetlər İttifaqının bütün regionlarına göndərilirdi. İnsanlar yaxşı maaş alırdılar. İndi bu zavod işləmir. Ola bilər, 15–20 faiz çalışır. Biz həmin zavodun istehsal etdiyi məhsulları başqa ölkələrə ixrac edə bilmirik. O zavodu yüksək səviyyədə saxlamaq üçün hər il ona kapital qoyulmalıdır. Bu kapital yoxdur. Ona görə də insanların çoxu həmin zavodda işdən azad olunub, işləmir.

Biz həmin zavodu özəlləşdirmək istəyirik. Amma onu özəlləşdirmək istəyən bir şirkət, fiziki şəxs tapa bilmirik. Biz bir neçə xarici sərmayəçiyə bunu təklif etmişik. Onlar gəliblər, baxıblar. Amma hər bir investor

ölçüb-biçir ki, buraya nə qədər sərmayə qoyacaq, nə qədər gəlir götürəcəkdir. O görür ki, bu qədər gəliri götürə bilməyəcək, başqa yerə – harada çox gəlir götürəcəksə, oraya gedir. Bu, bazar iqtisadiyyatının prinsipləridir. Ona görə də keçmiş sosialist iqtisadi sistemindən bazar iqtisadiyyatına keçid çox ağırdır. O, işsizlik, başqa problemlər yaradır. Bunlar bizim problemlərimizdir.

Ancaq hesab edirik ki, biz bu yolla getməliyik, çətinliklər müvəqqəti xarakter daşıyır. Düşünürük ki, bazar iqtisadiyyatı prinsipləri tamamilə bərqərar olunandan sonra iqtisadiyyat daha da inkişaf edəcəkdir.

Daha sualınız yoxdur?

**T o m a s  T o m s o n** (*leytenant-polkovnik*): Cənab prezident, Ermənistan –Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Amerika Birləşmiş Ştatlarının diplomatik missiyasını necə görürsünüz?

**H e y d ə r  Ə l i y e v:** İstəyirəm ki, onlar bu işdə daha da fəal iştirak etsinlər. Amerika Birləşmiş Ştatlarının bu sahədə imkanları çoxdur və bu imkanlardan istifadə etsələr, münaqişənin həllinə tezliklə nail olmaq mümkündür. Siz bir məsələni də bilməlisiniz ki, Amerika Birləşmiş Ştatlarının Konqresi hələ 7–8 il bundan öncə Azərbaycana qarşı ədalətsiz bir maddə qəbul edibdir. 1992-ci ildə Ermənistan–Azərbaycan muharibəsi zamanı Azərbaycan Ermənistanı guya «blokadaya aldığına görə» Konqres «Azadlığı müdafiə aktı»na düzəliş qəbul edibdir və ona görə də Amerika Birləşmiş Ştatlarının dövlət orqanları Azərbaycana birbaşa yardım etməkdən məhrum olublar.

Beləliklə, bizə qarşı ayrı-seçkilik vardır. Əslində Azərbaycan Ermənistanı blokadaya almayıbdır. Bugünkü reallıq ondan ibarətdir ki, Ermənistan Azərbaycanın torpaqlarının 20 faizini işğal edibdir, bir milyondan çox azərbaycanlını yerindən-yurdundan zorla çıxarıbdır, onlar çadırlarda yaşayırlar. Bu həqiqəti görən Amerika konqresmenləri və Amerika hökuməti bu ədalətsiz maddəni aradan qaldırmır. Nə üçün? Hər dəfə deyirlər ki, Amerikada erməni lobbisi çox güclüdür. Bu məsələ hər dəfə Amerika Konqresində qaldırılanda erməni lobbisi konqresmenlərə təsir göstərir və qərar qəbul etmək mümkün olmur. Görürsünüz, sizin kimi demokratik, ədalətli ölkədə nə qədər ədalətsizlik vardır.

Prezident Bill Klinton da etiraf edir ki, bu, ədalətsiz bir qərardır, onu aradan götürmək lazımdır. Dövlət katibi xanım Olbrayt da dəfələrlə, bu yaxınlarda Konqresdə çıxış edərkən yenə də 907-ci maddənin ləğv olunmasını tələb edibdir. Amma bunlar nəticə vermir. Ölkəniz ədalətli, demokratik ölkədir, amma ədalətsiz qanunlar qəbul edirsiniz. Belə çıxır ki, bir milyonluq erməni lobbisi – Amerikada bir milyon erməni yaşayır, Amerikanın əhalisi təxminən 300 milyondur – Amerika Birləşmiş Ştatlarının qanunlarını belə də, elə də edə bilər.

Mən sizin ölkəni çox təriflədim. Amma sizin sualınız məni məcbur etdi ki, tənqid də edim.

Yaxşı, sağ olun, hamınıza gələcək hərbi xidmətlərinizdə uğurlar arzulayıram. Yenidən Azərbaycana gəlin. Azərbaycana nə qədər çox gəlsəniz, bizim ölkəni bir o qədər yaxşı tanıyacaqsınız. Gələn görüşlərədək.

**E l i z a b e t  Ş e l t o n:** Cənab prezident, bunların Sizə bir hədiyyəsi vardır.

**D e v i d  S v i ə t:** Cənab prezident, bu, bizim hərbi kollecin baş komandanının Sizə göndərdiyi hədiyyədir. Bu hədiyyəni Sizə təqdim edirik. Çox sağ olun ki, Azərbaycanı daha yaxşı tanımağımız üçün vaxt ayırıb bizə yardımçı oldunuz.

**H e y d ə r  Ə l i y e v:** Çox sağ olun. Təşəkkür edirəm. Bu qartaldır, çox gözəl hədiyyədir. Sağ olun.

**QANA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB CERRİ CON ROULİNQCƏ**

Hörmətli cənab prezident!

Qana Respublikasının Müstəqillik günü bayramı münasibətilə Sizi və dost Qana xalqını ürəkdən təbrik edir, Sizə cansağlığı və səadət arzulayıram.

Ümidvaram ki, Azərbaycan Respublikası ilə Qana Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələri xalqlarımızın rifahı naminə genişlənəcək və inkişaf edəcəkdir.

*Hörmətlə,*

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *5 mart 2000-ci il*

## AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT QADIN SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ HAQQINDA

Azərbaycan qadını öz iradəsi və mərdliyi, saflığı və sədaqəti ilə cəmiyyətimizin həyatında, xalqımızın milli-mənəvi dəyərlər sisteminin formalaşmasında müstəsna rol oynamışdır. Xalq yaradıcılığı nümunələrində, qədim rəvayət və dastanlarımızda yüksək mənəvi sifətlərlə səciyyələnən gözəl qadın obrazlarının bədii təsviri verilmişdir. Mənəviyyatımızın təməl kitabı olan «Kitabi-Dədə Qorqud»un qadın surətləri bu gün də öz məziyyətləri ilə bəşəri idealların təntənəsinə xidmət edir.

Azərbaycan gerçəkliyi şair və mütəfəkkirlərə qadınları həyat mənbəyi və müdriklik mücəssəməsi kimi vəsf etmək üçün zəngin tarixi material vermişdir. Dahi Nizami öz əsərlərində Məhinbanu və Nüşabə kimi qadın hökmdar, əfsanəvi Fitnə və yeddi gözəl obrazlarını yaratmışdır. Görkəmli memar Əcəmi Naxçıvani tərəfindən ucaldılmış Möminə-xatun türbəsi əzəmətli memarlıq abidəsi olmaqla yanaşı, xalqımızın qadına göstərdiyi ehtiramın parlaq təcəssümüdür. Azərbaycan mədəniyyətinin və elminin inkişafında mühüm mərhələ olan orta əsrlər dövründə Azərbaycan qadınının fəaliyyəti xalqımızın milli-mədəni ənənələrinin qorunub saxlanılması və zənginləşdirilməsinə xidmət etmişdir. XII əsr poeziyasının görkəmli nümayəndələrindən olan Məhsəti Gəncəvinin şeir məclisləri Azərbaycan qadınının adını uzaq ellərdə tanıtdı.

Orta əsrlər tariximizdə Azərbaycan hökmdarından Qızıl Arslanın arvadı Qətibə xanım, Özbək xanın arvadı Mehrcan xanım, Uzun Həsənin anası Sara Xatun, Şah İsmayıl Xətainin qızı Məhinbanu, Şirvanşah Xəlilullahın arvadı Pəri xanım, Şah Abbasın anası Xeyransa Bəyim, əfsanəvi Tuti Bikə və başqaları kimi görkəmli siyasi və dövlət xadimlərinin adları hörmətlə yad edilir.

XIX əsr Azərbaycanın həyatında qadınların fəallığı və böyük yaradıcılıq uğurları ilə səciyyələnir. Bu mənada Xurşud Banu Nətavanın, Ağa Bəyim Ağa Ağabacının, Qönçəbəyimin, Fatma xanım Kəminənin, Şahnigar xanımın, Qəmərbəyim Şeyda Qarabağinin və başqalarının yaradıcılığı diqqəti cəlb edir. Həmin əsrdən Azərbaycanda baş verən siyasi, iqtisadi və mədəni proseslər qadınların maariflənməsi və ictimai həyatda daha fəal iştirak etməsinə güclü təkan verdi. Dünyəvi teatrın, demokratik mətbuatın, ana dilli məktəbin, qız məktəblərinin və qadın gimnaziyalarının yaradılması Azərbaycan qadınlarının hərtərəfli inkişafı üçün yeni üfüqlər açdı. Bu dövrdə cəmiyyətdə maarifçiliklə yanaşı, xeyriyyəçilik də mühüm yer tuturdu. Gövhər xanım Qacar, Həmidə xanım Cavanşir, Nigar xanım Şıxlinskaya, Məsmə xanım Talışinskaya, Səltənət xanım Əhmədova və digərlərinin yaratdıqları qadın xeyriyyə cəmiyyətləri böyük iş aparırdı. O dövrün möhtəşəm abidəsi olan Təzəpir məscidi də həmin xeyriyyə tədbirlərindən biri kimi Nabat xanım Aşurbəyli Rzayeva tərəfindən tikdirilmişdir. Bütün bu işlərin məntiqi nəticəsi olaraq tariximizdə ilk dəfə qadınlara sevib-seçilmək hüququ verildi.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması Azərbaycan qadınının demokratik cəmiyyətin fəal üzvünə çevrilməsi üçün geniş imkanlar yaratdı. Sovet hakimiyyəti illərində də Azərbaycan qadını çox mürəkkəb və şərəfli yol keçmişdir, qadın gimnaziyaları qısa bir müddətdə müəllim, həkim, mühəndis və şair peşələrinə yiyələnərək cəmiyyətdə kişilərlə bərabər hüquqlara malik olması, öz istedad və bacarıqlarını gerçəkləşdirə bilməsi həmin dövrün başlıca nailiyyətləridir.

1921-ci il Azərbaycan tarixinə qadınların ilk qurultayı ili kimi daxil olmuşdur. Nəriman Nərimanovun məruzə ilə çıxış etdiyi bu qurultayın əsas qayəsini qadın azadlığı ideyaları təşkil etdi. Qurultaydan keçən qısa bir müddət ərzində Azərbaycan qadınlarının maariflənməsi, ictimai fəallığının artırılması sahəsində böyük işlər həyata keçirildi. 1921-ci ildə qızlar üçün təşkil olunmuş məktəbəqədər tərbiyə institutu bir il sonra ali qadın pedaqoji institutuna çevrildi. Ceyran Bayramovanın təşəbbüsü ilə yaradılmış ilk qadın klubu bu dövrdə qadın hərəkatının inkişafında mühüm rol oynadı. 1923-cü ildə «Şərq qadını» jurnalının nəşrə başlaması Azərbaycanda qadın hərəkatı tarixində əlamətdar hadisə oldu.

İkinci dünya müharibəsi qadınların əməyə daha geniş surətdə cəlb edilməsinə təkan verdi. Bir çox sahələrdə cəbhəyə gedən kişiləri qadınlar əvəz etdi. Həmin dövrdə Leyla Məmmədbəyova, Züleyxa Seyidməmmədova, Sona Nuriyeva kimi təyyarəçi, Şövkət Səlimova kimi qadın gəmi kapitanı yetişmişdi. Müharibə dövründə qadınlarımız ön cəbhədə mərdliklə döyüşmüş, arxa cəbhədə əmək rəşadəti, fədakarlıq nümayiş etdirmişlər. Bütün bunlar Azərbaycanda qadın hərəkatı tarixinin unudulmaz səhifələridir.

Azərbaycan qadınlarının sovet hakimiyyəti illərində elm və mədəniyyət sahələrində əldə etdikləri nailiyyətlər onların böyük istedad və əməksevərliyinə dəlalət edən tutarlı sübutdur. Teatr səhnəsinin mahir ustaları Mərziyə Davudova, Fatma Qədri, Hökumə Qurbanova, Münəvvər Kələntərli, Barat Şəkinskaya, Leyla Bədirbəyli, Nəsibə Zeynalova, Şəfiqə Məmmədova, Amalya Pənahova, Azərbaycan baletinin ulduzları Qəmər Almaszadə, Leyla Vəkilova, Rəfiqə Axundova, sevimli müğənnilərimiz Şövkət Məmmədova, Həqiqət Rzayeva, Şövkət Ələkbərova, Sara Qədimova, Rübabə Muradova, Fatma Mehrəliyeva, Tükəzban İsmayılova, Zeynəb Xanlarova,

görkəmli bəstəkarlarımız Ağabacı Rzayeva, Şəfiqə Axundova, Firəngiz Əlizadə, böyük qadın rəssamlarımız Vəcihə Səmədova, Reyhan Topçubaşova, Güllü Mustafayeva, Elmira Şahtaxtinskaya, Maral Rəhmanzadə milli mədəniyyətimizin inkişafına öz layiqli töhfələrini vermişlər. Azərbaycanın qadın şair və yazıçıları Nigar Rəfibəyli, Mirvarid Dilbazi, Mədinə Gülcün, Hökumə Billuri, Əzizə Cəfərzadə, Xanımana Əlibəyli də Azərbaycan ədəbiyyatının inkişafı tarixində silinməz izlər qoymuşlar.

Sovet hakimiyyəti dövründə Azərbaycan qadınlarının 1957, 1967 və 1972-ci illərdə keçirilmiş qurultayları da Azərbaycan qadın hərəkatının inkişafında, onun daha mütəşəkkil forma almasında mühüm rol oynadı.

Azərbaycan qadınları XX əsrdə qısa müddət ərzində yüzilliklərə bərabər inkişaf yolu keçmişlər. Onların cəmiyyətdə, ictimai həyatda, ailədəki mövqeyində köklü dəyişikliklər baş vermişdir.

Əldə edilmiş nailiyyətlərlə yanaşı, sovet dövründə formalaşan stereotiplər milli və ənənəvi xüsusiyyətləri sırf qadına məxsus cəhətləri bəzən nəzərə almırdı. Qadın mövqelərinin həddi və qadın inkişafı haqqında sovet konsepsiyasında bir çox amillər diqqətdən kənarda qalırdı. Məşğulluğun forması, göstəriciləri qabardılır, əməyin keyfiyyəti, qadının daxili tələbatı ilə bu əməyin uyğunluğu və qadının əməkdə öz potensialını ifadə etmək imkanları unudulurdu.

Azərbaycan qadınları müstəqillik yollarında gedən mübarizələrin ön sıralarında idilər. 1988-ci ildən respublikada cərəyan edən mürəkkəb proseslərdə də qadınlar kişilərlə bərabər iştirak edirdilər. 1990-cı il yanvarın 19–20-də sovet qoşunlarının Bakıda və respublikanın digər şəhər və rayonlarında törətdikləri qanlı faciənin qurbanları arasında qadınlar da var idi. Azərbaycanın milli qəhrəmanları – Qarabağ cəbhəsində həlak olmuş jurnalist Salatın Əsgərova və həkim Gültəkin Əsgərova yeni dövrün fədakarlıq rəmzi oldular. Erməni qəsbkarlarının Azərbaycan ərazisinin 20 faizini işğal etməsi nəticəsində öz doğma ev-eşiyindən didərgin düşmüş bir milyona qədər Azərbaycan vətəndaşı arasında qadınların sayı çoxdur. Qarabağ müharibəsinin nəticələrindən doğan əsas problemlərin, o cümlədən qaçqınlıq və köçkünlük həyatının ağırlığı başlıca olaraq qadınların – anaların, bacıların, qız-gəlinlərin üzərinə düşdü. Həmişə sülhün, əmin-amanlığın carçısı olmuş Azərbaycan qadınları respublikada baş verən mürəkkəb ictimai-siyasi proseslərin gedişində daim milli dövlətçilik mövqeyindən çıxış etmişlər.

Müstəqil Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş ilk Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiq etdi və demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratdı.

Qadınlar cəmiyyətimizdə gedən demokratikləşmə proseslərindən istifadə edərək qısa bir müddətdə yeni dövrün tələblərinə uyğun qadın təşkilatları yaratdılar. Ümummilli miqyasda fəaliyyət göstərən qadın təşkilatları öz əsas məqsədi kimi Azərbaycanda qadının vəziyyətinin yaxşılaşdırılmasını, onun sosial-iqtisadi problemlərinin həllini və sair məsələləri qeyd edirlər. Bu gün də yeni-yeni qadın təşkilatları formalaşır, mövcud təşkilatlar isə öz şəbəkəsini, fəaliyyət dairəsini genişləndirir.

1995-ci ildə Pekində keçirilən VI Ümumdünya Qadınlar Konfransına hazırlıq dövründə Azərbaycanda fəaliyyət göstərən Qadınların Milli Komitəsi Pekin konfransına ümummilli məruzəni hazırlayıb təqdim etmişdir. Konfransdan sonra ümummilli fəaliyyət platformasına aid müzakirələr və konfranslar keçirilmişdir. Azərbaycan Respublikası 1995-ci il iyunun 30-da Birləşmiş Millətlər Təşkilatının «Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında» konvensiyasına qoşularaq öz üzərinə müvafiq öhdəliklər götürmüşdür.

Pekin konfransından keçən beş il ərzində onun sənədlərində qeyd olunmuş prinsip və tövsiyələrin həyata keçirilməsi istiqamətində çox işlər görülmüş və Birləşmiş Millətlər Təşkilatının müvafiq qurumlarına bu barədə hesabatlar təqdim edilmişdir.

Respublikada qadınlara dair dövlət siyasətinin daha mütəşəkkil şəkildə həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikası prezidentinin 14 yanvar 1998-ci il tarixli fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradıldı və Nazirlər Kabinetinə ölkənin siyasi, sosial, iqtisadi, mədəni həyatında qadınların rolunu artırmaq məqsədi ilə müvafiq təkliflər işləyib hazırlamaq tapşırıldı.

Fərmanın yerinə yetirilməsi ilə əlaqədar respublika həyatının müxtəlif sahələrində, ayrı-ayrı nazirlik, idarə və şirkətlərdə, ümumiyyətlə, dövlət idarəçilik sistemində qadınların təmsil olunmasına dair əldə edilmiş statistik məlumat göstərdi ki, respublikanın 80-dən çox şəhər və rayon icra başçısından yalnız 5-i qadındır və hətta əksər işçiləri qadınlardan ibarət olan dövlət qurumlarında və müxtəlif peşə sahələrində qərar qəbuletmə mövqelərində qadınlar çox zəif təmsil olunurlar. Şəhər və rayonlarda işçilərinin böyük əksəriyyətini qadınların təşkil etdiyi təhsil şöbələrinin 5-nə, səhiyyə şöbələrinin isə 8-nə qadınlar rəhbərlik edir.

Respublikada müxtəlif səviyyələrdə qəbul olunan qanunvericilik aktları, qərar və qətnamələr, xüsusilə Nazirlər Kabineti, ayrı-ayrı nazirlik və idarələrdə qəbul olunan qərarlar çox vaxt Gender siyasətinin tələbləri baxımından ekspertiza olunmur.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonrakı dövr qadınların qarşısında yeni məqsəd və vəzifələr qoydu. Bazar iqtisadiyyatının təşəkkül tapması, ölkəmizin müxtəlif sahələrdə aparılan islahatlar, vətəndaş cəmiyyətinin formalaşmasında vətəndaşların fəaliyyətinin artırılması yolunda görülən işlər qadınların

cəmiyyətdəki rolunun artırılmasını tələb edir. Bu baxımdan qeyd edilməlidir ki, qadınlar üçün bəyan edilən bərabər hüquqlar real bərabər imkanların olmaması üzündən çox vaxt gerçəkləşə bilmir.

Qadın problemlərinin həlli zərurəti Azərbaycan qadınlarının 1998-ci il sentyabrın 25-də keçirilmiş ilk qurultayında qeyd olundu. Respublikada cərəyan edən mürəkkəb ictimai-siyasi proseslərin gedişində Azərbaycan qadınlarının daim milli dövlətçilik mövqeyindən çıxış etdiklərini nümayiş etdirən qurultay göstərdi ki, cəmiyyətdə qadınların rolunun artırılması yolunda hələ çox iş görülməlidir.

Qadınların kişilərlə hüquq bərabərliyini, xüsusilə onların dövlət idarəçiliyi sistemində lazımi səviyyədə təmsil olunmasını əməli surətdə təmin etmək məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunması təmin edilsin.

2. Dövlət Statistika Komitəsi Qadın Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə respublikada qadınların vəziyyətinə dair beynəlxalq standartlara cavab verən statistik məlumat hazırlasın.

3. Nazirlər Kabinetinə tapşırılsın ki:

- Ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə Gender siyasəti tələblərini rəhbər tutmaqla qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılmasını təmin etsin;
- Qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədi ilə onların münasib işlə təmin edilməsi proqramı hazırlayıb həyata keçirsin;
- Qadınların hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədi ilə Azərbaycan Respublikasının qanunlarında müvafiq dəyişikliklər və əlavələr edilməsi məqsədi ilə mövcud qanunvericiliyi təhlil edib təkliflər versin;
- Hər il martın 1-nə qədər bu fərmanın yerinə yetirilməsinin gedişi haqqında Azərbaycan Respublikasının prezidentinə məruzə təqdim etsin;
- Bu fərmandan irəli gələn məsələləri həll etsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *6 mart 2000-ci il*

## 8 MART – BEYNƏLXALQ QADINLAR BAYRAMINA HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİMDƏ NİTQ

*«Gülüstan» sarayı*

*7 mart 2000-ci il*

Hörmətli xanımlar, analar, bacılar!

Sevimli qadınlar!

Sizi 8 Mart – Beynəlxalq qadınlar günü, qadın bayramı münasibətilə ürəkdən təbrik edirəm.

Bu gün bu salon həmişəkindən daha da gözəldir. Çünki salonun əksəriyyətini təşkil edən qadınlardır. Qadın gözəlliyi bu salona daha da çox işıq verir və salondakı kişilərə, o cümlədən mənə də ilham verir.

Zəhra xanım dedi ki, siz bu bayramı həmişə səbirsizliklə gözləyirsiniz. Amma bilin ki, biz kişilər də bu bayramı səbirsizliklə gözləyirik. Ona görə ki, bu bayramda kişilər qadınlara həmişə xüsusi diqqət göstərirlər, öz kişiliyini, yəni qadına olan hörmətli münasibətini daha da nümayiş etdirmək istəyirlər. Qadınlara mütləq hədiyyə bəxş edirlər, güllər verirlər. Onları bəlkə də əvvəlki vaxtlardan çox öpürlər.

Amma təkcə buna görə yox. Bu bayram doğrudan da bizim bütün bayramlar içərisində ən gözəl bayramdır. Bu, qadınlara həsr olunubdur. İnsan cəmiyyətində qadınların rolu, əhəmiyyəti məlumdur. Qısaca onu demək olar ki, qadınsız insan yoxdur. Qadınsız həyat yoxdur. Bu, həmişə belə olub, bu gün də belədir, gələcəkdə də belə olacaqdır.

Azərbaycan qadını öz ağlı, zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası, yüksək analıq keyfiyyəti ilə bizim xalqımızı, millətimizi daim ucaldıbdır.

XX əsr dünyada qadınların emansipasiyası əsri olmuşdur. Bu gün böyük iftixar hissi ilə qeyd etmək olar ki, Azərbaycan qadınları bu imkanlardan çox səmərəli istifadə edib, dərhal cəmiyyətdə öz hüquqlarının bərpa olunmasına çalışıb və onlar üçün yaranmış imkanlardan çox yaxşı bəhrələniblər. Beləliklə, demək olar ki, XX əsrin əvvəllərindən və xüsusən 20-ci ildən sonra Azərbaycanda qadınların azadlığa çıxması, tam müstəqil olması, qadınlarla kişilərin hüquqlarının bərabərləşməsi üçün və qadınlara cəmiyyətdə öz istedadlarını nümayiş etdirmək üçün, həyatın müxtəlif sahələrində çalışmaq, zəhmət çəkmək üçün və beləliklə də qadının nəyə qadir olduğunu bir daha nümayiş etdirmək üçün imkanlar yaranıbdır.

Bu gün Azərbaycanda bu problem artıq yoxdur. Çünki Azərbaycan qadını hələ 30-cu illərin əvvəllərində çadranı atdı, öz azadlığını elan etdi, öz hüquqlarının sahibi olduğunu bəyan etdi və tarixi nöqteyi-nəzərdən qısa bir zamanda Azərbaycanda qadınlar cəmiyyətdə, həyatın bütün sahələrində özlərinə məxsus olan yeri tutdular. Biz fəxr edirik ki, Azərbaycan qadınları həm elmdə, mədəniyyətdə, təhsildə, səhiyyədə, həm də iqtisadiyyatın bütün sahələrində – sənayedə, kənd təsərrüfatında, ticarətdə, hər sahədə özlərini göstərdilər və ölkəmizin, millətimizin inkişafına öz töhfələrini verdilər.

Məhz qadınların bu cür geniş fəaliyyəti nəticəsində Azərbaycanda qısa müddətdə təhsil inkişaf etdi, insanlar savadlandı və Azərbaycan təhsili belə yüksək səviyyəyə qalxdı. Qadınların fədakar zəhməti nəticəsində Azərbaycanın səhiyyəsi belə yüksəklərə qalxdı. Mən bu sahələri ona görə xüsusi qeyd edirəm ki, bildiyiniz kimi, Azərbaycanda qadınlar bu sahələrdə işləyənlərin 60 faizini, bəlkə də çoxunu təşkil edir.

Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, ona görə ən yüksək qiymətə layiqdirlər ki, onlar anadırlar, onlar bizim nəslimizi artırırlar. Qadınlarla kişilərin bərabərliyinə gəldikdə, açıq demək lazımdır ki, qadınlar həmişə kişilərdən çox zəhmət çəkiblər.

Qədim zamanlardan belə təsəvvür var ki, kişi işləyir, pul qazanır, ailəni saxlayır, qadın isə ev işi görür. Bu, belə olubdur. Amma indi belə deyildir. İndi kişi də işləyir, qadın da işləyir, kişi də qazanır, qadın da qazanır. Demək olar ki, ailəni ikisi birlikdə saxlayırlar, uşaqlarını böyüdürlər. Amma onların arasında böyük fərq var. Qadın uşaq doğur, körpə böyüdür. Qadının bu zəhməti əvəzsizdir və heç bir kişi belə zəhməti çəkə bilməz.

Biz qadınları ilbəil daha da çox qiymətləndiririk. Bu da müəyyən qədər təbiidir. Çünki keçmişdə qadınlara olan münasibət dərin köklər salmışdı və bu dəyişiklikləri təmin etmək üçün zaman lazım idi. Bu zaman da, təbiidir ki, artıq gəldi, çatdı. İndi Azərbaycan müstəqil dövlətdir. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət qurulur. Azərbaycan bazar iqtisadiyyatı yolu ilə gedir. Azərbaycan dünya mədəniyyətinə sıx qoşulur. Bütün bu sahələrdə qadının rolu həmişə böyük olub və böyükdür. Biz «dünyəvi dövlət» məfhumunu işlədəndə, təbiidir ki, bunun çox anlayışını bilirik. Amma onlardan biri də odur ki, dünyəvi dövlətdə qadın azaddır, müstəqildir, qadına onun qadın olmasına görə heç bir məhdudiyyət qoyulmur.

Şəxsən mən sevinirəm ki, bizim Azərbaycan qadınları çox qısa bir zamanda bu azadlığı əllərinə alıblar və bu azadlıqdan istifadə edirlər. Beləliklə də həm cəmiyyətə öz xidmətlərini göstərirlər, həm də xalqımızı yüksəldir, xalqımızı gözəlləşdirirlər.

Hər bir qadının üzərinə çox ağır vəzifələr düşür. Ancaq bizim həyatımızın son illərinin xüsusiyyəti ondan ibarətdir ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmizə çox zərbələr vuraraq, ən böyük zərbəni də qadınlara vurdu. Çünki qadınlar övladlarını itirdilər, qadınlar ərlərini, qardaşlarını itirdilər. Adətən, faciələri qadınlar kişilərdən daha çox hissiyyatlarla keçirirlər. Ona görə də bu itkilər, bu məhrumiyyətlər də Azərbaycan qadınına çox zərbələr vurubdur. Təkcə ona görə yox ki, onlar şəhid anası, yaxud şəhid ailəsidir, ya şəhid bacısıdır. Bütün başqa qadınlar da. Çünki qadınlar arasında həmrəylik, mənəvi birlik daha da möhkəm olur.

Azərbaycan torpaqlarının bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bir milyondan artıq soydaşımız yerindən-yurdundan didərgin düşüb, ağır vəziyyətdə yaşayır, çoxları çadırlarda yaşayırlar. Onların da belə bir həyatının ən çox ağırlığı yenə də qadınların üzərinə düşür.

Mən bu əziz bayram günü Azərbaycanın şəhid analarını, qaçqın-köçkün vəziyyətində yaşayan, çadırlarda yaşayan qadınları böyük hörmət-ehtiramla yad edir və onlara bu salondan bütün Azərbaycan qadınlarının adından, bizim hamımızın adından bayram salamı göndərirəm.

Azərbaycan qadını bir xüsusiyyəti ilə də fərqlənir. O da onun gözəlliyidir. Kişilər gedib başqa ölkələrdə, başqa millətlər içərisində gözəl qadınlar axtarmasınlar. Dünyanın ən gözəl qadınları Azərbaycandadır.

Qadınlar bir belə əziyyət, zəhmət çəkərkən nə istəyirlər? Sadəcə, onlara diqqət, qayğı, hörmət, ehtiram! Bu anlayışlar çox genişdir. Diqqət də, qayğı da müxtəlif formalarda ola bilər. Ancaq kişilər gərək qadınları həmişə yüksəkdə görsünlər, qadınlara gərək xüsusi hörmət etsinlər, qadınlara diqqətli yanaşsınlar.

İnsan mədəniyyətinin ən mühüm cəhətlərindən biri cəmiyyətdə qadına hörmət etmək və hörmət etməyi, diqqət göstərməyi bacarmaqdır. Mən arzu edirəm ki, xalqımızın mədəni səviyyəsinin bu qədər yüksəldiyi bir zamanda müstəqil Azərbaycanın kişiləri qadınlara diqqət, xoş münasibət göstərməyi, onlara hörmət bəsləməyi heç vaxt unutmasınlar.

Azərbaycanda qadınlar çox sahələrdə öz yerlərini tutublar. Ancaq biz hələ ki, istədiyimizə nail ola bilməmişik. Məhz buna görə də mən dünən «Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında» xüsusi fərman imzaladım. Məmnunam ki, bu fərman qadınlar tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıbdır. Sizi əmin edirəm ki, biz bu fərmanı ardıcıl surətdə həyata keçirəcəyik.

Hesab edirəm ki, qadınlar Azərbaycanın dövlət strukturlarında, icra orqanlarında, müxtəlif iqtisadi strukturlarda daha da çox təmsil olunmalıdır. Bu fərmanın həyata keçirilməsi üçün artıq mən belə qərar qəbul etmişəm ki, bütün icra orqanlarında, xüsusən şəhər, rayon icra hakimiyyəti orqanlarında qadınlarla iş üzrə ya xüsusi şöbə yaranmalıdır, yaxud icra orqanlarının rəhbərlərindən biri mütləq qadın olmalı və qadın problemləri ilə məşğul olmalıdır.

Biz Qadın Problemləri üzrə Dövlət Komitəsi yaratmışıq. Bu komitənin nə qədər vacib olduğunu və ölkəmiz üçün lazımlı olduğunu artıq bu gün görürük. Ancaq bu komitənin daha da geniş fəaliyyət göstərməsi üçün biz gərək bütün rayonlarda, şəhərlərdə onun strukturlarını yaradaq və bu vasitə ilə də qadınların bütün sahələrdə işə daha fəal cəlb olunmasını təmin edək. Qadınlar bunu istəyirlər. İndi qadınlar var ki, kişidən də çox işləmək istəyirlər və çox hallarda kişidən də yaxşı işləyirlər. Bunlar məlumdur. Ancaq biz onlar üçün şərait yaratmalıyıq, bunu etməliyik. Əmin ola bilərsiniz ki, edəcəyik.

Mənim sizə, Azərbaycanın bütün qadınlarına münasibətim məlumdur. Bu da ondan ibarətdir ki, birincisi, mən hamınızı çox sevirəm. Eyni zamanda həm dövlət başçısı kimi, həm də sadə bir insan kimi, yəni kişi kimi hər birinizə diqqət göstərməyə hazıram.

Bu gün, bu bayram günü mən sizə, Azərbaycanın bütün qadınlarına səadət arzulayıram. Səadət anlayışı qadın üçün çox böyük, geniş anlayışdır. Hər bir qadın istəyir ki, xoşbəxt olsun, o, səadətə nail olsun. Mən bunu arzulayıram. Azərbaycanın bütün qadınlarına cansağlığı, bütün işlərində uğurlar arzulayıram. Sizə, Azərbaycanın bütün qadınlarına günü-gündən gözəl olmağınızı arzu edirəm.

Bayramınız mübarək olsun, əziz qadınlar! Sağ olun.

**XALQ ARTİSTİ QƏMƏR XANIM ALMASZADƏYƏ**

Hörmətli Qəmər xanım!

Sizi – müsəlman Şərqinin ilk peşəkar balerinasını, Azərbaycanın görkəmli balet ustasını 85 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Siz klassik rəqslərin və folklorun gözəl bilicisi kimi, Azərbaycanın milli xoreoqrafiya məktəbinin yaranmasında və inkişafında əvəzsiz rol oynamış böyük sənətkarlardansınız. Hələ gənc yaşlarınızda rəqs sənətinin sirlərinə yiyələnməyiniz və səhnəyə qədəm qoymağınız cəmiyyətdəki bir sıra stereotipləri alt-üst edərək, Azərbaycan qadınlarının XX əsrdə incəsənət sahəsindəki uğurlarının təməlini qoydu, milli musiqi mədəniyyətimizin yeni bir janrının meydana çıxmasına güclü təkan verdi.

Avropa və rus klassiklərinin şah əsərlərində yaratdığınız dolğun, rəngarəng səhnə obrazları öz təkrarolunmaz ifa tərzi və yüksək peşəkarlıq səviyyəsinə görə həmişə balet mütəxəssisləri tərəfindən əsl sənət inciləri kimi qiymətləndirilib. Sizin milli baletlərimizdə ifa etdiyiniz partiyalar Azərbaycan xoreoqrafiya sənətinin misilsiz nailiyyətləri hesab olunur. Azərbaycan baletinin parlaq ulduzu kimi yaratdığınız surətlər milli incəsənət xəzinəmizin qızıl fonduna həmişəlik daxil olmuşdur.

Dövlət Opera və Balet Teatrının səhnəsində nümayiş etdirilən bir çox balet əsərinin müvəffəqiyyətləri ilk növbədə sizin onlara verdiyiniz quruluşla bağlıdır. Siz öz yüksək ifaçılıq sənətinizlə və balet tamaşalarına verdiyiniz quruluşlarla klassik xoreoqrafiya ənənələri ilə Azərbaycan xalq rəqs yaradıcılığı nailiyyətlərinin uğurlu sintezini yarada bilmisiniz.

Məhz bu baxımdan sizi mübaliğəsiz olaraq Azərbaycan baletinin təşəkkül tapmasında başlıca rol oynamış sənətkar adlandırmaq olar.

Özünəməxsus ənənələri olan Azərbaycan balet sənətinin sirlərini gənc nəslə öyrətmək sahəsindəki pedaqoji fəaliyyətiniz də yüksək qiymətə layiqdir. Uzun illər Bakı Xoreoqrafiya Məktəbində Azərbaycanın milli balet kadrlarının hazırlanması üçün siz böyük əmək sərf etmisiniz. Yetişdirmələrinizin bir çoxu sənət aləminin yüksək pillələrinə qalxaraq Azərbaycan baletinin inkişafı işinə xidmətlər göstərmişdir.

Keçdiyiniz şərəfli sənət yolu həmişə yüksək qiymətləndirilmiş, sizin yaradıcılığınız mükafatlara, orden və medallara layiq görülmüşdür. Ən böyük mükafatınız isə ölkəmizdə balet həvəskarlarının, bütün qədirbilən xalqımızın sizə və sənətinizə bəslədiyi hədsiz məhəbbət, dərin ehtiram olmuşdur.

İnanıram ki, sizin səhnə həyatınız hələ neçə nəsillər üçün əsl vətənpərvərlik, sənətə sədaqət və fədakarlıq nümunəsi olacaqdır.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 mart 2000-ci il*

## XALQ ARTİSTİ CANƏLİ ƏKBƏROVA

Hörmətli Canəli Əkbərov!

Sizi – Azərbaycan musiqi ifaçılığı məktəbinin görkəmli nümayəndəsini 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz müasir musiqi sənətimizdə öz dəst-xətti ilə seçilən, xanəndəlik məharəti və səhnə mədəniyyəti ilə musiqisevərlərin dərin hörmət və məhəbbətini qazanmış sənətkarlardansınız. Klassik muğam ifaçılığının zəngin ənənələrini qoruyub saxlamaq, onlara yaradıcı münasibət bəsləmək, bütün imkanları muğamın bütöv şəkildə ifasına yönəltmək yaradıcılığınızın əsas xüsusiyyətlərindəndir. Yüksək diapazonlu ecazkar səsiniz, mətn ilə musiqinin sıx əlaqəsi zəminində güclü emosional çalar yaratmaq bacarığınız, ifa tərzinizə xas olan məziyyətlər muğam və xalq mahnılarımızın mahir ifaçısı kimi sizə şöhrət gətirmişdir.

Fitri istedadınız və zəhmətsevərliyiniz sayəsində ən mürəkkəb muğamların texnikasını dərindən mənimsəyə bilməyiniz milli operalarımızda uğurla çıxış etməyinizə imkan vermişdir. Uzun illərdən bəri solisti olduğunuz Dövlət Akademik Opera və Balet Teatrının səhnəsində yaratdığınız yaddaqalan obrazlar milli opera tarixinin parlaq səhifələridir. Opera səhnəsindəki fəaliyyətinizlə xanəndəlik sənətiniz arasındakı əlaqə yaradıcılığınızı daha da zənginləşdirərək ona çoxşaxəli xarakter vermişdir.

Siz muğam və xalq mahnılarımızı dünyanın müxtəlif ölkələrində yüksək məharətlə ifa etməklə onları ayrı-ayrı xalqların nümayəndələrinə sevdirə bilmiş, musiqimizin təbliğində böyük xidmətlər göstərmisiniz.

Sənət yollarında qazandığınız təcrübə və biliyinizi, muğam ifaçılığının bütün sirr və incəliklərini siz həvəslə gənclərə öyrədirsiniz. Bir çox gənc ifaçılar məhz sizin köməyiniz ilə ilk yaradıcılıq addımlarını atmış, böyük səhnədə öz istedadlarını nümayiş etdirmişlər.

Əminəm ki, müstəqil Azərbaycanımızın musiqi mədəniyyətinin inkişaf etdirilməsi yolunda bundan sonra da var qüvvənizi sərf edəcək və sənətinizin pərəstişkarlarını sevindirəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 mart 2000-ci il*

## «KİTABİ –DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA NİTQ

*Prezident sarayı*

*11 mart 2000-ci il*

Hörmətli komissiya üzvləri!
Xanımlar və cənablar!

Biz 1997-ci ildə Azərbaycan xalqının, Oğuz türklərinin milli-mənəvi dəyərlərinin, tarixi köklərinin böyük abidəsi olan «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul etdik. 1997-ci il aprel ayının 20-də mən xüsusi fərman imzaladım, dövlət komissiyası yaratdıq.

Üç il keçibdir və bu üç il müddətində, demək olar ki, böyük işlər görülübdür. Son günlər mən aparılan işlərin müəyyən qədər nəticələri ilə- yəni biz nə etmişik, nəyə nail olmuşuq- tanış olandan sonra bu sözləri tam qətiyyətlə deyirəm. Çox iş görülübdür.

Bilirsiniz ki, biz yubileyin keçən ilin iyun ayında keçirilməsi haqqında qərar qəbul etmişdik. Ancaq məlum səbəblərdən bunu edə bilmədik. Bəlkə də bu, elə lazım imiş ki, bir il də vaxt uzansın, daha da çox iş görmək mümkün olsun. Hər halda, üç il müddətində görülən işlər indi «Kitabi-Dədə Qorqud»un 1300 illik yubileyinin layiqincə keçirilməsinə çox gözəl əsas yaradıbdır.

Mən türkdilli dövlətlərin başçıları ilə danışıqlar aparmışam. Türkdilli dövlətlərin başçılarının növbəti - altıncı zirvə görüşü Azərbaycanda olmalıdır və bizim hamımızın razılığı ilə bu zirvə görüşünün aprel ayının 8-də keçirilməsi haqqında qərar qəbul etmişik. Aprel ayının 9-na isə «Kitabi-Dədə Qorqud»un yubileyini təyin etmişəm.

Keçən dəfə də biz belə fikirdə idik. İndi biz bunu həyata keçiririk. Ona görə də bu yubileyi təkcə biz yox, bütün qardaş türkdilli, türkköklü ölkələrin dövlət başçılarının – prezidentlərinin iştirakı ilə keçirəcəyik. Artıq az vaxt qalıbdır. Ona görə də biz yubiley mərasimlərinə hazırlığın son mərhələsində daha da intensiv işləməli və lazım olan işləri görməliyik.

Bu məqsədlə mən bu gün dövlət komissiyasının iclasını toplamışam və komissiyanın üzvlərindən əlavə, bir çox dədəqorqudşünaslar, bu sahənin mütəxəssisləri də dəvət olunublar. Güman edirəm ki, biz komissiya sədrinin müavinlərini dinləsək, onlar indiyədək görülmüş işlər haqqında lazımi məlumatlar verəcəklər. Eyni zamanda aprel ayının 8-9-na qədər də nə iş görmək lazımdırsa, təkliflərini verə biləcəklər. *

* * *

**H e y d ə r Ə l i y e v:** Bilirəm ki, burada-bizim bu müşavirədə, komissiyanın iclasında iştirak edənlərin hər birinin qəlbində deyiləsi sözlər var. Ancaq bilmirəm, indi bu barədə çıxışlara, yaxud da ki, fikirlərə ehtiyac varmı? Çünki üç ildir ki, bu iş gedir. Komissiyanın iclası bir neçə dəfə mənim sədrliyim altında keçirilibdir. Amma bir çox dəfə də müavinlərin rəhbərliyi altında keçirilibdir və bu zirvə, yubiley tədbirinə də bir aydan az vaxt qalır. Ona görə mən istərdim biləm, belə geniş danışıq aparmaq, müzakirə aparmaq lazımdırmı? Bəlkə kiminsə dəyərli sözü var? Mən onu eşitməyə etiraz etmirəm.

**Ş a m i l C ə m ş i d o v** (*Filologiya elmləri doktoru*): Möhtərəm prezident, bu «Kitabi-Dədə Qorqud» kitabı 1995-ci ildə Türkmənistanda türkmən dilində çap olunubdur. Onun müqəddiməsində də, girişində də akademik Ordalov göstərir ki, «Kitabi-Dədə Qorqud» ilk dəfə Azərbaycanda yaradılıbdır. İcazə verin, mən o kitabı Sizə təqdim edim.

**H e y d ə r Ə l i y e v:** Yəni bizim buna şübhəmiz var idi ki?

**Ş a m i l C ə m ş i d o v:** Onların prezidenti bunun 1500 illiyinin keçirilməsi barədə fərman veribdir. Allah Sizə cansağlığı versin. Bunun müqəddiməsinə baxarsınız. Bu da mənim kitabımdır. Bu barədə Drezdendə məruzə etmişəm. Bu da onun şəkilləridir. Mən «Kitabi-Dədə Qorqud»u öpdüm, öz kitabımı da Drezdenə göndərmişəm.

**H e y d ə r Ə l i y e v:** Hara göndərmisən?

---

* Komissiyanın iclasında Elçin Əfəndiyev, Fəraməz Maqsudov, Anar, Polad Bülbüloğlu mürüzələrlə çıxış etdilər.

**Ş a m i l  C ə m ş i d o v:** Drezdenə göndərmişəm.
**H e y d ə r  Ə l i y e v:** Göndər, orada qalsın.
**Ş a m i l  C ə m ş i d o v:** Yaxşı. Cənab prezident, YUNESKO-da keçirilən tədbirdə çıxış etdim, onlara da kitab göndərmişəm.
**H e y d ə r  Ə l i y e v:** Çox gözəl. Amma bu, sizdə var, yoxsa yox?
**Ş a m i l  C ə m ş i d o v:** Cənab prezident, mən onu Sizə verirəm. Özümə surətini çıxartmışam. Çünki bunlar bir sənəddir. Onların prezidenti deyir ki, «Kitabi-Dədə Qorqud»un 1500 illiyidir. Amma müəllif kitabın müqəddiməsində yazır ki, o, yeddinci əsr abidəsidir və ilk dəfə Azərbaycanda yaradılıbdır. Kitabın girişində yenə də yazır ki, «Kitabi-Dədə Qorqud» dastanı yeddinci əsrdə Azərbaycanda yaranıbdır. Mən bunları maraqlı olduğuna görə danışdım. Sağ olun.
**H e y d ə r  Ə l i y e v:** Sağ olun. Başqa sözü olan yoxdur?

## YEKUN NİTQİ

Dinlədiyimiz məruzələrə əsasən və bu ötən üç il ərzində respublikada aparılan işləri özümüz müşahidə edərək yeganə bir fikir demək olar ki, həqiqətən böyük iş görülübdür. Bəlkə də biz 1997-ci ildə «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyini qeyd etmək üçün qərar qəbul edərkən o qədər böyük işlərin görülə biləcəyini və xüsusən bizim xalqımız, millətimiz üçün «Dədə Qorqud»un tamamilə açılıb cəmiyyətə bu cür təqdim olunacağını təsəvvür edə bilməzdik.

Son illərdə biz bir çox yubileylər keçirmişik. Bunların da hamısının əhəmiyyəti vardır. Çünki hər bir yubiley tədbiri hansısa tarixi şəxsiyyətin yaradıcılığını, onun əsərlərini canlandırır, yenidən ictimaiyyətə göstərir.

Bizim tariximiz - ümumi tariximiz, o cümlədən mədəniyyətimizin və ədəbiyyatımızın zəngin tarixi indiyədək lazımi qədər tədqiq olunmadığına görə bu yubiley tədbirləri bizə məlum olmayan məsələləri açır, aşkar edir. Beləliklə, biz zənginləşirik, yəni tariximizin zənginliyini hiss edirik və onun nə qədər zəngin olduğunu ictimaiyyətə çatdıra bilirik. Məsələn, Füzulinin 500 illik yubileyinin hazırlanması və keçirilməsi xalqımıza Füzulini demək olar ki, yenidən tanıtdı, bəxş etdi.

Tarixi şəxsiyyətlər və xüsusən qədim dövrdə Azərbaycan xalqının tarixi şəxsiyyətləri ümumiyyətlə, az öyrənilib, tədqiq olunub və müasir nəsillərə çox az məlumdur. Buna görə də belə tədbirlərin keçirilməsi o demək deyildir ki, yubiley keçirib hansısa konsert dinləyəsən, yaxud hansısa bir şənliyin iştirakçısı olasan. Bunların əsas mənası və məqsədi zəngin tariximizin hər bir səhifəsini açmaq, geniş tədqiq etmək, onu xalqımıza və dünyaya təqdim etmək və beləliklə də əsrlər boyu tarixşünaslıq nöqteyi-nəzərindən itirdiyimiz şeyləri bərpa etməkdir.

Biz komissiyanın ötən iclaslarında da qeyd etmişdik, amma mən bu gün bunu bir daha demək istəyirəm ki, «Kitabi-Dədə Qorqud» dastanı indiyə qədər Azərbaycanda az bir təbəqəyə məlum olan abidədir, əsərdir. Bunu bilənlər bizim tarixçilərimizdir, - onların da hamısı yox, - o adamlardır ki, «Dədə Qorqud»un tədqiqi ilə məşğul olublar. Bunu bilənlər bizim ədəbiyyatçılarımız, yazıçılarımızdır. Cəsarətlə demək olar ki, onların bəlkə də hamısı yox. Geniş kütləyə, xalqımıza, millətimizə gəldikdə isə, onu demək olar ki, ötən üç il müddətində gördüyümüz işlər, apardığımız təhlillər və bu müzakirələrdə dinlədiyimiz fikirlər təsdiq edir ki, bizim geniş kütləmiz «Dədə Qorqud» haqqında çox az təsəvvürə malik idi, az şey bilirdi.

Biz indi bu üç il müddətində – buradakı məruzələr, çıxışlar bunu göstərdi – birincisi, «Kitabi-Dədə Qorqud» dastanını xalqımıza yaxşı tanıtdıq, ikincisi, dünyaya tanıtdıq, üçüncüsü, tam təsdiq etdik ki, bu, Azərbaycana məxsusdur. Bəli, bu turk xalqlarına məxsusdur, ancaq Azərbaycana məxsusdur. Onun vətəni Azərbaycandadır və varisi, sahibi Azərbaycandır, yəni Azərbaycan xalqıdır. Biz gələcək işlər üçün böyük yol açdıq. Təsəvvür edin, bax, qısa müddətdə burada nə qədər kitablar nəşr olunubdur. Amma bizim komissiyanın birinci iclasını yadınıza salın. Nə var ki? Bunlar yox idi.

O vaxt siz də deyirdiniz , indi burada çıxış edənlər də deyirlər ki, Həmid Araslı, Bartold bir şey yazıblar, nəşr etdiriblər, amma o da itib gedibdir. Dəmirçizadə də bir şey yazıbdır, o da yoxdur. Bizim bir neçə alimimiz – bəziləri burada iştirak edirlər – çox şey yazıblar, amma bunları nəşr etdirə bilməyiblər, yazdıqları da özlərində qalıbdır. Ancaq görün indi qısa bir müddətdə nə qədər əsərlər yaranıbdır. Həqiqətən, bu, doğru sözdür ki, bütün bu tədbirlərin hər bir cəhəti əhəmiyyətlidir. Amma ən əhəmiyyətlisi odur ki, əsərlər yaranır və bu əsərlər gələcək üçün, bizim tariximizin daha da geniş, dərin təhlil olunması üçün, gələcək nəsillər üçün böyük töhfədir.

Mən hesab etmirəm ki, bununla iş bitir. Çünki mən özüm də etiraf etməliyəm ki, «Dədə-Qorqud»un bu qədər dərin dərya olduğunu təsəvvür edə bilmirdim. İndi kimsə desə ki, yox, o bilirmiş, - güman edirəm, xəta edir, mən bilmirdim. Məsələn, mənim bu barədə biliklərim bu kitablardan – təkcə onların sayına görə yox, hər birinin məzmunu və mənasına görə – nə qədər artıbdır. Hesab edirəm, eləcə də hər bir Azərbaycan vətəndaşının biliyi artıbdır.

Kütləvi surətdə həyata keçirilən tədbirlər «Dədə-Qorqud»u geniş kütlələrə tanıdır. Bu kitabların yazılması və keçmişdə yazılmış kitabların belə nəfis şəkildə yenidən nəşr olunması çox qiymətlidir. Mən dünən soruşdum ki, bunların tirajı nə qədərdir – 1000, 2000 nüsxədir? Bir il keçəndən sonra bu kitabları yenə də tapmaq mümkün olmayacaqdır.

Təbiidir ki, indi biz hər bir kitabı bir neçə min nüsxədə nəfis şəkildə nəşr edə bilmərik. Biz bunları yubiley üçün yaratmışıq. Ancaq fikrim bundan ibarətdir ki, bu kitabların çoxunu, bəlkə də hamısını, yaxud bir qismini geniş kütlələr üçün böyük tirajla sadə şəkildə nəşr edək. Onları geniş kütlələrə çatdırmaq üçün satışa buraxaq, kitabxanalara verək. İndi nəşr etdirdiyimiz bu əsərləri kitabxanalara versək, yerdə bir şey qalmayacaqdır. Çünki bunlar 1000–2000 nüsxədir, bundan artıq deyildir, elədirmi?

**E l ç i n Ə f ə n d i y e v:** Cənab prezident, heç 2000 nüsxə deyildir.

**H e y d ə r Ə l i y e v:** Deyirsən ki, heç 2000 nüsxə yoxdur. Ona görə gəlin açıq danışaq ki, bizim bu işimiz yubileydə, sadəcə, yaxşı kitablar göstərməklə məhdudlaşmasın. Bu, başlanğıc olsun.

Ancaq geniş kütlənin «Kitabi-Dədə Qorqud» dastanı, abidəsi ilə bu gün və gələcəkdə dərindən tanış olması və onu dərindən bilməsi üçün – bunun əsas mənası ondan ibarətdir ki, öz kökünü, keçmişini, millətinin tarixini dərindən bilsin- biz bugünkü və gələcək nəsillərin bu kitablardan lazımi qədər istifadə etməsi imkanına malik olmalıyıq. Mən bu fikri dünən söyləmişəm, indi bir daha deyirəm. Mən görülən işləri çox yüksək qiymətləndirirəm. Ancaq bu, işin başlanğıcı olmalıdır. Bunun üçün biz vəsait də tapa bilərik. Doğrudur, indi bizim vəsaitimiz o qədər də çox deyildir. Amma biz buna qənaət etməməliyik, bunları etməliyik. Çünki bunlar xalqımız, gələcək üçün lazımdır.

Alimlərimiz, yazıçılarımız bu qısa müddətdə keçmiş kitablardan əlavə yeni əsərlər yazıblar. Bu, çox gözəl hadisədir. Düşünürəm ki, əgər bu yubiley haqqında fərman imzalanmasaydı, bu işlər görülməsəydi, bəlkə də müəlliflərdən 5 faizi öz vaxtını sərf edib belə kitablar yazardılar. Ancaq bu yubileyin keçirilməsi haqqında qəbul etdiyimiz qərar və Azərbaycanda bu məsələnin ötən üç il müddətində geniş təbliğ olunması, bu işə dövlətin böyük əhəmiyyət verməsi bizim bir çox alimlərimizi, yazıçılarımızı həvəsə gətiribdir. Onların hər biri yeni bir kitab yazıbdır. Beləliklə də «Dədə Qorqud» haqqında bizim həm tarixi kitablarımız, həm də ədəbi-publisist kitablarımız artıbdır. Bu da çox gözəl hadisədir.

Mən bütün bunları çox yüksək qiymətləndirirəm. Bu sahədə zəhmət çəkmiş komissiya üzvlərinə və həmin məsələlərlə məşğul olanların hamısına təşəkkür edirəm. Hesab edirəm ki, bu iş davam etdirilməlidir. Mənim bu fikirlərimi həyata keçirmək üçün bəlkə də biz yubileydən sonra yeni bir tədbirlər planı qəbul edə bilərik. Ola bilər, bu tədbirlər planı 1, 2, 5 ili, bəlkə də ondan artıq bir dövrü əhatə etsin ki, biz qarşıdakı illərdə nə etməliyik.

İndi hamı bu fikirdədir, kitablar da onu göstərir, Drezden kitabxanasından gələn nüsxə də bunu deyir ki, «Kitabi-Dədə Qorqud» dastanı Azərbaycan xalqının ən qədim mədəniyyət, ədəbiyyat, mənəviyyat abidəsidir. Ona görə də, demək, bu, bizim ana kitabımızdır. Bu kitabın məzmununu, mənasını, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. İnsanlar bütün bunları nə qədər çox bilsələr, millətini, xalqını, vətənini və müstəqil Azərbaycanı da bir o qədər çox sevəcəklər. Bu, bizim xalqımızın çoxəsrlik tarixində yeni bir mərhələdir.

Azərbaycan 8 ildir ki, müstəqil dövlətdir. Bu illərin çətinliklərinə, ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa bir müddətdə açmışıq, xalqımıza göstərmişik. Beləliklə də xalqımız öz tarixini, keç-mişini daha dəqiq bilərək daha da məğrur insan, azərbaycanlı, vətəndaş olur. Bu, çox mühüm məsələdir. Çünki dövlət müstəqilliyini əldə etmək, dövlət quruculuğunda dəyişikliklər yaratmaq və hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə getmək böyük bir prosesdir. Amma onu elan etmək, bu barədə dövlət tədbirləri həyata keçirmək azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil azərbaycançılığın, Azərbaycanın, mənsub olduğu xalqın mədəniyyətinin, ədəbiyyatının, incəsənətinin, elminin nə olduğunu dərindən dərk etsin. Biz buna nə qədər çox nail olsaq, bizim millətimizdə millilik, vətənpərvərlik əhval-ruhiyyəsi, öz torpağına, xalqına məhəbbət hissi bir o qədər çox artacaqdır.

Görülən işlər bax, bu baxımdan çox böyük əhəmiyyətə ma-likdir. Bəlkə də XX əsrdə, elə əsrin əvvəlindən indiyə qədər - əlbəttə, ondan əvvəl belə işlər görülməyibdir – görülən bütün işlərin içərisində bunun qədər əhəmiyyətli, dəyərli iş yoxdur.

Biz indi bu yubiley tədbirlərinin son mərhələsinə gəlib çatmışıq. Burada məlumat verildi ki, yubileyin zirvə tədbirinin planları artıq hazırdır. Ancaq mən istəyirəm biləsiniz ki, onları da çox mütəşəkkil qaydada təşkil etmək lazımdır.

Burada deyildi ki, qonaqlar çox olacaqdır. Onların bir qismi dəvət olunan mütəxəssislər, alimlərdir. Amma bir qismi də türkdilli ölkələrin dövlət başçıları və onların nümayəndə heyətlərində gələn şəxslər olacaqdır. Yəqin ki, məhz yubileyə gələn qonaqlar üçün xüsusi bir proqram yaradılmalıdır. Yubileyə gələn alimlər, yazıçılar, mütəxəssislər bu fürsətdən isti-fadə edib, həmin proqram əsasında Azərbaycanla daha da yaxından tanış olacaqlar.

Biz türkdilli ölkələrin dövlət başçılarının proqramını ayrıca təşkil edirik. Yəni onlar aprelin 8-də Bakıya gələcəklər. Biz günün ikinci yarısında görüşlər keçirəcəyik, məsələlərimizi müzakirə edəcəyik. Bununla da dövlət başçıları səviyyəsində işimiz bitəcəkdir. Amma ayın 9-da həm dövlət başçıları, həm onlarla gələn

nümayəndə heyətlərinin üzvləri, həm də bütün başqa qonaqlar – hamısı birlikdə bir tədbirdə iştirak edəcəklər. Ona görə də, bir daha qeyd edirəm, iki proqram olmalıdır. Bizim komissiyanın üzvləri, sədrin müavinləri bunları hazırlasınlar və mənə təqdim etsinlər.

Respublika sarayında keçiriləcək tədbir gərək çox yığcam olsun. Mən bunu əvvəlcədən bildirmək istəyirəm. Çünki çoxlu qonaqlar gələcəkdir. Yəqin, onların da çoxu söz demək arzusunda olacaqdır. Ancaq buna sadəcə, vaxt imkan vermir. Çünki təbiidir ki, türkdilli ölkələrin dövlət başçılarının hər biri çıxış edəcəkdir, söz deyəcəkdir. Biz indi müəyyən edəcəyik ki, Azərbaycandan bir, yaxud iki nəfər adam bu barədə söz desin. Əgər biz orada çıxışlara geniş imkan açsaq, buna iki gün vaxt lazım olacaqdır. Ona görə də bu barədə düşünməlisiniz. Mən komissiya sədrinin müavinlərinə tapşırıram ki, bu barədə düşünsünlər, Abdullazadə mənə məruzə etsin. Mən bu məsələyə baxaram, öz fikrimi deyərəm.

Rəsmi hissədən sonra keçiriləcək konsert də çox yığcam olmalıdır. Biz son illər Qazaxıstanda, Qırğızıstanda, Özbəkistanda belə tədbirlərdə iştirak etmişik. Burada oturanlardan gərək ki, kimlərsə həmin tədbirlərdə mənimlə birgə olubdur. Mən nəyi müşahidə etmişəm? Tədbir uzananda öz keyfiyyətini itirir, yorucu olur. Bunu niyə deyirəm? Olduğumuz ölkələrdə mən bunu hiss etmişəm. Məqsəd ondan ibarət deyildir ki, iki saatlıq konsert göstərəsən, daha da çox çıxışlar olsun. Məqsəd bundan ibarət deyildir.

Biz öz işimizi, demək olar ki, görmüşük. İşimiz də ondan ibarətdir ki, «Kitabi-Dədə Qorqud» ötən üç il müddətində həm təhlil, həm tədqiq edilibdir, həm də təbliğ olunubdur. Zirvə tədbiri buna sadəcə, yekun vurmaq deməkdir, onu uzatmaq olmaz, - bu barədə fikirləşin, mənim bu sözlərimi əsas götürün, - o, çox yığcam olmalıdır.

Fəraməz Maqsudov burada dedi ki, elmi konfrans keçirəcəklər. Yəqin ki, həmin tədbir bu ərəfədə olacaqdır.

**F ə r a m ə z  M a q s u d o v:** Bəli, cənab prezident.

**H e y d ə r  Ə l i y e v:** Demək, həmin tədbir aprelin 7-də keçiriləcəkdir. Gələn qonaqların ola bilər ki, hamısı, kim istəsə həmin elmi konfransda çıxış etsin. Ola bilər, onlar başqa bir tədbirdə çıxış etsinlər. Yəni mən belə fikirdəyəm ki, yubiley gecəsində – həmin tədbir gecə olmayacaq, biz onu gündüz, təxminən saat 11-də başlayacağıq, bu tədbiri gecə keçirmək olmaz, - türkdilli ölkələrin dövlət başçılarından və Azərbaycanın bir-iki nümayəndəsindən başqa adamlara çıxış etməyə imkan verilməyəcəkdir. Mən sizə açıq deyirəm ki, yəni buna imkan olmayacaqdır.

Siz onu da bilməlisiniz ki, aprelin 7-də Qazaxıstan prezidenti Nursultan Nazarbayev Azərbaycana rəsmi səfərə gələcəkdir. Demək, biz bütün günü onunla məşğul olacağıq. Yəqin ki, mədəniyyət xadimlərindən bir neçəsi bu tədbirlərdə iştirak etməlidir. Aprelin 8-də türkdilli ölkələrin dövlət başçıları Bakıya gələcək, zirvə görüşü keçiriləcək və onlarla danışıqlar aparılacaqdır. Aprelin 9-da «Kitabi- Dədə Qorqud» dastanının yubiley tədbiri keçiriləcəkdir. Ona görə də siz bunları nəzərə almalısınız. Bəlkə də hansısa əlavə tədbirlər müəyyən etməlisiniz.

Bir halda ki, çoxsaylı qonaqlar gəlir, təbiidir, onların Azərbaycanda təkcə hansısa bir tədbirdə iştirak etməsi yox, çıxış etməsi, söz deməsi də bizim üçün çox vacibdir. Amma yubiley mərasimində bu, mümkün olmayacaqdır. Yubiley mərasimində ancaq dövlət başçıları çıxış edəcəklər. Başqalarının çıxış etməsi mümkün olmayacaqdır. Ona görə də bunun üçün xüsusi tədbirlər hazırlamalısınız. Həmin tədbirləri ayın 7-də də, 8-də də keçirmək olar. 9-da isə biz hamımız ümumi tədbirdə birgə olacağıq.

Təbiidir ki, aprelin 7, 8, 9-da keçirilən tədbirləri sonra yekunlaşdırıb kitab, toplu şəklində nəşr etmək lazım olacaqdır. Bu da çox əhəmiyyətlidir. Çünki bu, üç ildə bizim keçirdiyimiz yubiley tədbirlərinin yekunu kimi, yeni bir kitab, yaxud da bir neçə kitab olacaqdır. Bunu da düşünmək lazımdır.

Nəhayət, mən bildirmək istəyirəm ki, indiyədək görülən işləri yüksək qiymətləndirmək lazımdır. Şübhə yoxdur ki, aprelin 9-na qədər görüləcək tədbirlər, aparılacaq işlər də belə yüksək səviyyədə keçəcəkdir. Beləliklə, biz müstəqil Azərbaycanın tarixinə böyük bir qızıl səhifə yazmış olacağıq.

Sizin hamınıza bir daha təşəkkür edirəm.

**E l ç i n  Ə f ə n d i y e v:** Cənab prezident, abidə məsələsi barədə fikrinizi bildirəsiniz.

**H e y d ə r  Ə l i y e v:** Abidə məsələsi. Təəssüflər olsun ki, bu məsələ çox gecikibdir. Həmin məsələni biz 1999-cu ilin əvvəlində müzakirə etmişdik.

Mən sizi dinlədim, belə fikirdəyəm ki, haqqında danışdığınız, uşaq dəmir yolu yerləşən bağ həqiqətən çox gözəl bir bağdır. Gərək ki, onun bir tərəfi də keçmiş Dzerjinski parkıdır. Elədir, yoxsa yox? Həmin bağla park birləşir?

**R ə f a e l  A l l a h v e r d i y e v** (*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*): Bəli, cənab prezident.

**H e y d ə r  Ə l i y e v:** Eşitmişəm ki, o parkda bəzi şəxsi evlər və sairə tikilir. Belədir?

**R ə f a e l  A l l a h v e r d i y e v:** Cənab prezident, Sizin tapşırığınızdan sonra gedib yoxladıq, orada heç bir şəxsi ev tikilməyibdir. Parkın ətrafında 10–15 il bundan əvvəl özbaşına tikilmiş evlər var.

**H e y d ə r  Ə l i y e v:** Hesab edirəm ki, orada gələcəkdə böyük bir park, «Dədə Qorqud» meydanı ola bilər. Mən sizə tapşırıram, Baş nazir də, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı da, komissiya sədrinin müavinləri də bununla məşğul olsunlar. Tapşırıram ki, uşaq dəmir yolu yerləşən bağı, bir də keçmiş Dzerjinski parkını - hamısını birlikdə götürün, onun böyük baş planını yaradın. Həmin planı təqdim edin, baxaq. Mən bu plana

baxmağı o nöqteyi-nəzərdən deyirəm ki, orada hər şey istənilən kimi olsun. Fikrim budur ki, o, «Dədə Qorqud» meydanı, parkı üçün və gələcəkdə qoyulacaq «Dədə Qorqud» abidəsi üçün çox dəyərli yerdir, Azərbaycanın ən gözəl yerlərindən biridir.

Bilirsiniz ki, son illər böyük narahatlıq keçirirəm. İndi sərbəstlik verilib, şəxsi evlər tikilir. Təəssüflər olsun ki, bizim bəzi yerli icra orqanlarımız şəhərin gözəlliyini, yaxud memarlıq üslubunu pozaraq elə tikintilərə yol verirlər ki, onlar Bakını əvvəlki simadan salır. Elə buna görə də mən çox narahatam. Bir dəfə eşitdim ki, keçmiş Dzerjinski parkında evlər tikirlər və bu barədə Rəfael Allahverdiyevə dedim. Mən çox narahatam ki, belə yerləri götürüb sonra ondan yenə də şəxsi məqsədlər üçün istifadə edəcəklər. Yaxşı olar ki, biz həmin yerdə «Dədə Qorqud» parkı yaradaq. Təbiidir ki, yaxşı planlaşdırsanız, həmin ərazi Bakı vətəndaşlarının gözəl istirahət yeri olacaqdır.

Şıx yamacı tərəfdə hansısa bir abidənin qoyulması bir az mübahisəli məsələdir. Şıx deyilən yerdə vaxtilə salınmış «Xalqlar dostluğu» parkının təməlini 1971-ci ildə mən qoymuşam. Ora tamamilə boş bir yer idi. Məqsəd də oranı yaşıllaşdırmaqdan ibarət idi. O vaxt biz yaşıllaşdırma proqramını həyata keçirirdik. Mən bəlkə də 10–15 dəfə gedib orada ağac əkmişəm. İldə bir dəfə iməcilik keçirirdik, hamımız oraya gedirdik, ağac əkirdik. Həmin parka bir müddət yaxşı baxdılar, oradakı ağaclar böyüdü. Amma sonra ümumiyyətlə, ölkədə olan vəziyyət yəqin ki, həmin parka da çox təsir edibdir. İndi ora pis haldadır. Elədir, yoxsa yox?

**R ə f a e l  A l l a h v e r d i y e v:** Cənab prezident, bəli, pis haldadır.

**H e y d ə r  Ə l i y e v:** Güman edirəm, indi oranı elə pis halda qoymaq olmaz. Onu bərpa etmək barədə fikirləşmək lazımdır. Çünki həmin ərazi yaşıllaşdırılmalıdır və Bakının gözəl bir yeri olmalıdır. Şıx yamacının yaxınlığında insanların istirahət etməsi üçün çimərlik də, başqa yerlər də vardır. Amma bu, gələcəyin işidir. Gəlin, bir işi görək, «Dədə Qorqud parkı»nı yaradaq, orada heykəl də qoyaq. Amma gələcəkdə imkan yaransa ikinci təklifə də baxmaq olar. Bu təkliflərin ikisini də birdən həyata keçirmək mümkün deyildir.

Elçin, sən bir məsələni də mənim yadıma saldın: siz indiyə qədər Dədə Qorqudun surətini yarada bilməmisiniz. Heç kəs də bu barədə danışmır.

**E l ç i n  Ə f ə n d i y e v**: Cənab prezident, biz Sizin tapşırığınızdan sonra Rəssamlar İttifaqında böyük bir müsabiqə elan etdik. Bu barədə mətbuatda da məlumat verdik.

Sizin fərmanınıza əsasən bu yubileyi biz keçən il keçirməliydik, müsabiqəyə də o vaxt yekun vurulmalı idi. Biz, komissiyanın üzvləri gedib bu sahədə görülən işlərə baxdıq. Orada həqiqətən müəyyən iş aparılmışdı. Buna baxmayaraq, komissiya üzvləri istənilən obrazı görmədilər və biz belə qərara gəldik ki, müsabiqənin vaxtını uzadaq. Bu yaxınlarda biz yenə də gedib bu sahədə görülən işlərlə tanış olduq. Sizin bayaq dediyiniz istiqamətdə, «Kitabi-Dədə Qorqud»la əlaqədar müxtəlif mövzularda əsərlər işlənib hazırlanıbdır. Dədə Qorqudun çox müxtəlif obrazları yaradılıbdır. Gənc rəssamlarımız da bu işə qoşulubdur. Lakin komissiya üzvlərinin fikri yenə də belə oldu ki, biz müsabiqənin vaxtını bu ilin axırınadək uzadaq. Çünki Dədə Qorqudun obrazı hələ istənilən səviyyədə yaradılmayıbdır. Doğrudur, bir-iki əsər var. Lakin müsabiqənin birinci, ikinci, üçüncü və həvəsləndirici mükafatlarını təqdim etməyə layiq əsərlərin yaradılması üçün müsabiqənin vaxtını uzatmalıyıq.

**H e y d ə r  Ə l i y e v:** Respublikamızda böyük bir rəssamlar dəstəsi vardır.

**E l ç i n  Ə f ə n d i y e v:** Cənab prezident, onların hamısı bu işdə iştirak ediblər.

**H e y d ə r  Ə l i y e v:** Alimlərimiz, yazıçılarımız bu qədər kitablar yazıblar. Bəs rəssamlar nə ediblər?

**E l ç i n  Ə f ə n d i y e v:** Rəssamlar da çox iş görüblər. Amma daha da çox iş görə bilərlər.

**H e y d ə r  Ə l i y e v:** Mən burada bu rəsmləri görürəm. Bu da yəqin ki, bizim rəssamların işləridir.

**E l ç i n  Ə f ə n d i y e v:** Cənab prezident, onlar «Kitabi-Dədə Qorqud» dastanının motivləri əsasında çəkilmiş illüstrasiyalardır. Əlamətdar cəhət ondan ibarətdir ki, onu birləşmiş millətlər təşkilatı buraxıbdır.

**H e y d ə r  Ə l i y e v:** Mən onu bilirəm. Bunların müəllifi kimdir?

**E l ç i n  Ə f ə n d i y e v:** Cənab prezident, müəllifi Azərbaycan rəssamlarıdır.

**H e y d ə r  Ə l i y e v:** Hər halda, mən bunlara diqqətlə baxmamışam. Amma çox yaxşı təsir bağışlayır.

**E l ç i n  Ə f ə n d i y e v**: Cənab prezident, bəli, çox yaxşı işlərdir. Amma onlar kitab illüstrasiyalarıdır.

**H e y d ə r  Ə l i y e v:** Mən başa düşürəm ki, bu, kitab illüstrasiyasıdır. Bəs onun öz obrazını biz yaratmasaq, kim yaradacaqdır?

**E l ç i n  Ə f ə n d i y e v**: Cənab prezident, biz qərara gəldik ki, vaxtı bir qədər uzadaq.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, üç ildir vaxt gedir.

**E l ç i n  Ə f ə n d i y e v:** Cənab prezident, bu sahədə iş bir ildir ki, gedir.

**H e y d ə r  Ə l i y e v:** Bəs ondan əvvəl bu barədə fikirləşməmişdiniz?

**E l ç i n  Ə f ə n d i y e v:** Cənab prezident, bu məsələ sizin yanınızda keçirilmiş iclasda qaldırılmışdı.

**H e y d ə r  Ə l i y e v:** Axı bu obrazı yaratmaq lazımdır.

**E l ç i n  Ə f ə n d i y e v:** Cənab prezident, doğru deyirsiniz, lazımdır. Güman edirik ki, rəssamlara ilin sonunadək vaxt versək bu işi başa çatdıra bilərlər.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, siz müəyyən etmisiniz - nə qədər mükafat veriləcəkdir?

**E l ç i n  Ə f ə n d i y e v:** Cənab prezident, müsabiqənin şərtləri var, onlar mətbuatda da dərc olunubdur.

**H e y d ə r  Ə l i y e v:** Məsələn, bu şərtlər nədən ibarətdir? Nə qədər mükafat veriləcəkdir?

**E l ç i n  Ə f ə n d i y e v:** Cənab prezident, qiymət dəqiq yadımda deyildir.

**H e y d ə r  Ə l i y e v:** Demək istəyirəm, bəlkə maddi cəhətdən bir az maraqlandırasınız ki, bu insanlar daha da həvəslə işləsinlər. Baxın, görün nə etmək olar.

**E l ç i n  Ə f ə n d i y e v:** Cənab prezident, biz bir daha müzakirə edib, sizə məlumat verərik.

**F ə r h a d  X ə l i l o v** (*Respublika Rəssamlar İttifaqının sədri*): Cənab prezident, rəssamlarımız bu işdə çox fəal iştirak edirlər. Biz bunun üçün bir simpozium da keçirmişik. Həmin simpoziumda Azərbaycan, Türkiyə, Özbəkistan, Türkmənistan, Qazaxıstan və digər ölkələrin rəssamları iştirak ediblər. Bundan əlavə, biz çox maraqlı bir görüş də keçirmişik.

**H e y d ə r  Ə l i y e v:** Bunlar hamısı yaxşıdır. Amma vaxtımı alma.

**F ə r h a d  X ə l i l o v:** Cənab prezident, biz bu müsabiqəni elan etmişik. Onun şərtləri bundan ibarət idi ki, birinci mükafat 1500, ikinci mükafat 1000, üçüncü mükafat 750 ABŞ dolları məbləğində olsun.

**H e y d ə r  Ə l i y e v:** Elə bu qiymətə görə siz onu yarada bilməmisiniz?

**F ə r h a d  X ə l i l o v:** Cənab prezident, siz soruşdunuz ki, qiymət nə qədərdir?

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, biz qiyməti artırsaq, bu obrazı yarada biləcəksinizmi?

**F ə r h a d  X ə l i l o v:** Cənab prezident, biz yaradılmış əsərlərin fotosurətini sizə göstərməliyik.

**H e y d ə r  Ə l i y e v:** Mənə göstərməliydiniz, axı ona mütəxəssislər baxmalıdır.

**F ə r h a d  X ə l i l o v:** Cənab prezident, mütəxəssislər baxıb, 40-dan çox əsər yaranıb. Amma belə qərara gəldilər ki, vaxt bir qədər də uzadılsa yaxşı olar.

**H e y d ə r  Ə l i y e v:** Yaxşı, mən bu gün təyin edirəm: birinci mükafat 10 min dollar, ikinci mükafat 7000 dollar, üçüncü mükafat 5000 dollar.

**A n a r:** Cənab prezident, istəyirəm mən də şəkil çəkməyə başlayım.

**H e y d ə r  Ə l i y e v:** Siz də şəkil çəkməyə başlayacaqsınız? İndi bildin? İş burasındadırsa, get hamıya məlumat ver: rəssamsan, həm əsər yaradacaqsan, həm də 10 min dollar qazanacaqsan. Mən elan etdim, siz də icra edin.

Sağ olun. Gələn görüşədək.

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi dünya müsəlmanlarının həmrəylik və qardaşlıq günü olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, xalqımıza ən səmimi arzularımı yetirirəm.

Azərbaycan xalqı uzun illər yad ideologiya və rejimlərin qadağaları şəraitində yaşamalı olsa da, tarixi köklərindən ayrı düşməmiş, milli-mənəvi dəyərlərini, adət-ənənələrini, dini bayram və mərasimlərini qoruyub saxlamışdır. Uca Tanrının islamı bir din kimi tamamlayıb insanlar üçün hidayət yolu seçdiyi əziz gün- mübarək Qurban bayramının keçirilməsi də daim yaşatdığımız belə milli-dini adətlərimizdəndir.

Demokratik prinsiplərin, dini etiqad və vicdan azadlığının bərqərar edildiyi müstəqil Azərbaycan Respublikasında Qurban mərasimləri hər il dövlət səviyyəsində ümumxalq bayramı kimi qeyd olunur.

Əziz bacı və qardaşlar!

Bu müqəddəs bayram günlərində xalqımızın rifahı və əmin-amanlığı üçün etdiyiniz dua və niyyətlərə, arzu və diləklərə şərik olduğumu bildirir və sizi əmin etmək istəyirəm ki, torpaqlarımızın düşmən tapdağından azad olunacağı, qaçqınlarımızın doğma yurdlarına qayıdacağı, xalqımızın ədalətli sülhə və layiq olduğu əsl firavan həyata qovuşacağı gün uzaqda deyildir.

Ulu Tanrıdan hər birinizə cansağlığı, ailələrinizə xoşbəxtlik, evlərinizə xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 mart 2000-ci il*

## BEYNƏLXALQ HÜQUQŞÜNASLAR İTTİFAQININ, RUSİYA HÜQUQŞÜNASLAR İTTİFAQININ SƏDRİ ANDREY TREBKOV İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*14 mart 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Şadam ki, siz respublikamıza, ölkəmizə diqqət göstərmisiniz və buraya gəlmisiniz.

Mənə artıq məlumat veriblər ki, sizin burada bir çox maraqlı və faydalı görüşləriniz olubdur. Şübhəsiz ki, bütün bunların bizim üçün böyük əhəmiyyəti var, ona görə ki, gənc müstəqil dövlət hər cür köməyə, ən çox da qanunla, hüquqla, yurisprudensiya ilə bağlı hər şeydə köməyə ehtiyac duyur. Odur ki, ümidvaram, kollektivlərdə görüşləriniz, ünsiyyətiniz, çıxışlarınız bizə böyük fayda gətirəcəkdir. Sizi salamlayıram.

**A n d r e y T r e b k o v:** İş cədvəlinizin gərgin və mürəkkəb olmasına baxmayaraq, ictimai hüquq təşkilatının rəhbərləri ilə görüşməyə hər halda, vaxt tapdığınıza görə Sizə ürəkdən təşəkkür etmək istərdim. Mən bunu xüsusilə qiymətləndirirəm, çünki Sizin tərəfinizdən ictimai hüquq təşkilatına göstərilən münasibət çox şeyə – ilk növbədə bizim hüquqşünas peşəmizə ehtirama dəlalət edir. Heç də hər yerdə belə olmur. Sizi buna əmin edə bilərəm, çünki biz bütün MDB ölkələri ilə, eləcə də başqa ölkələrlə əməkdaşlıq edirik.

Sizinlə görüş ərəfəsində çox şey, xüsusən, 70-ci illərin əvvəllərində partiya işində çalışdığım dövr yadıma düşdü. O vaxtlar mən Tümendə işləyirdim və biz Azərbaycanın neftçi mütəxəssisləri ilə sıx əməkdaşlıq edirdik. Əslinə qalsa, Qərbi Sibirin neft-qaz yataqlarının işlənilməsində mütəxəssislərin, eləcə də, məsələn, Fərman Salmanov səviyyəli rəhbərlərin əksəriyyətini qardaş Azərbaycandan olanlar təşkil edirdilər. Buna görə də biz hələ o vaxtdan bəri çox səmimi dostluq edirdik.

Əgər yurisprudensiyaya müraciət etsək, onda görərik ki, o vaxtlar, 70-ci illərin əvvəllərində, Siz Sovet İttifaqında əslində birinci olaraq korrupsiyaya, cinayətkarlığa qarşı, xüsusən, iqtisadiyyat sahəsində cinayətkarlığa qəti mübarizəyə başladığınız vaxtlarda, nə gizlədim, Sizdən səbirsizliklə materiallar gözləyirdik. O vaxtlar mən Vilayət Partiya Komitəsində işlə-yirdim və Azərbaycandan gələn yoldaşlardan hər dəfə xahiş edirdim ki, özləri ilə respublika qəzetlərini də gətirsinlər. Hələ onda biz Sizin materiallardan, məruzələrdən istifadə edərək Sizdə bu işin necə qoyulduğunu, Sizin necə nümunə göstərdiyinizi öyrənirdik.

Sizin Moskvada yüksək vəzifədə – Siyasi Büronun üzvü, hökumət başçısının birinci müavini vəzifəsində işlədiyiniz, yeni ədliyyə nazirini təqdim etdiyiniz dövrlə bağlı bir epizodu da Sizə xatırlatmaq istəyirəm. O vaxtlar mən SSRİ Ədliyyə Nazirliyi kollegiyasının üzvü idim. Nazirliyin necə olması, bu vəziyyətdə, - onda isə dönüş vəziyyəti idi, - nazirin, bizim hamımızın, yəni kollegiya üzvlərinin, nazirliyin aparatının özünü necə aparmalı, ölkədə öz işini necə qurmalı olduğu barədə Sizin gözəl, qısa, lakin çox məzmunlu nitqinizi xatırlayıram. O vaxtlar İttifaq nazirliyi qarşısında qoyduğunuz vəzifələrin bir çoxu indi Rusiya Ədliyyə Nazirliyində, onun funksiyalarında öz təcəssümünü tapmışdır.

Bu, keçmişə ötəri bir nəzərdir. Bir çox başqa şeyləri də xatırlamaq olar, lakin vaxtınızı almamak üçün onu deyib, Beynəlxalq Hüquqşünaslar İttifaqı barədə söhbətə keçmək istərdim.

Siz yəqin xatırlayırsınız ki, 1989-cu ildə SSRİ Hüquqşünaslar İttifaqı yaradılmışdır. Bu, əslində hüquqşünasların güclü ictimai təşkilatının ilk qurultayı idi. Ümumiyyətlə, bu, ictimai təşkilatın demokratik əsasda keçirilmiş ilk qurultayı olmuşdur. Orada Azərbaycanın çox mötəbər nümayəndə heyəti vardı. O vaxtdan bəri bir çox ittifaq təşkilatları fəaliyyətini dayandırmışdır, bizim ittifaq isə mövcuddur, saxlanılmış və beynəlxalq ittifaqa çevrilmişdir. Buraya keçmiş sovet respublikalarının, indi isə suveren dövlətlərin hüquqşünaslar ittifaqları daxildir. Onlar heç yana getməmişlər, biz hüquqşünasların bir ittifaqındayıq, böyük xoşbəxtlikdir ki, buraya Azərbaycan Hüquqşünaslar İttifaqı da daxildir.

Yaxşı tanıdığınız adamları Sizə xatırladım – bunlar ittifaqımızın rəhbərliyinin tərkibinə daxil olan Aleksandr Yakovleviç Suxarev, habelə Vyaçeslav Nikolayeviç Lebedevdir. O, mənə dedi ki, bu yaxınlarda Sizinlə görü-şübdür.

**H e y d ə r Ə l i y e v:** Bəli. O da mənə maraqlı bir epizodu xatırlatdı. Həyatımda belə epizodlar çox olubdur. Əlbəttə, onların hamısı yadımda deyildir. Lakin belə görüşlərdə adamlar xatırladırlar. Mən bunu sonra deyəcəyəm.

**A n d r e y T r e b k o v:** İttifaqımızın rəhbərliyinin tərkibinə Sizin tanıdığınız bir çox digər rusiyalılar da daxildirlər. Əslində, rəhbərliyin tərkibinə bütün MDB ölkələrindən olan Ali Məhkəmələrin, Konstitusiya Məhkəmələrinin sədrləri, baş prokurorlar daxildirlər. Biz çox şadıq ki, Azərbaycan Respublikasının baş

prokuroru Eldar Həsənov da bizim rəhbərliyin tərkibindədir. O, nəinki Əlaqələndirmə Şurasına daxildir, həm də sədrin müavinidir.

Beynəlxalq Hüquqşünaslar İttifaqının rəhbərləri arasında Xanlar Hacıyev də var, çünki Azərbaycan Hüquqşünaslar İttifaqının sədri vəzifəsinə görə Beynəlxalq İttifaqın rəhbərliyinin tərkibinə daxildir.

Natiq İsmayıloviç Ağamirov da ittifaqımızın rəhbərliyinin tərkibinə daxildir. SSRİ Hüquqşünaslar İttifaqı yaradıldıqdan sonra Rusiya notariusları onu Rusiya Notariuslar Assosiasiyasının prezidenti seçmişlər və həmin vaxtdan bəri o, ittifaqımızın rəhbərliyinin tərkibinə daxildir.

Cənab prezident, ittifaqımızın nə ilə məşğul olduğundan danışmaq lazım gəlsə, deməliyəm ki, ən öncül istiqamətlərimizdən biri məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi sahəsində MDB ölkələrində görülən işləri təhlil etməkdən ibarətdir.

Bu, məlum səbəblərə görə, ümdə məsələdir. Biz cinayətkarlıqla, ən əvvəl mütəşəkkil cinayətkarlıqla mübarizə məsələlərinə də az diqqət yetirmirik.

Son aylar biz Azərbaycan Respublikasında görülən işləri araşdırmışıq. Burada çox böyük iş aparıldığı barədə bizə diqqətəlayiq informasiya gəlmişdi. Ona görə də biz beynəlxalq səviyyəli görkəmli ekspertlərimizə müraciət etdik və onlar bir neçə ay işləyərək, Sizin təşəbbüsünüzlə ölkə parlamenti tərəfindən qəbul olunmuş qanunvericilik aktlarını, habelə cinayətkarlığa qarşı mübarizə məsələləri üzrə əməli işə aid materialları təhlil etdilər. Təhlil ilə məşğul olmuş nəinki Rusiya, həm də başqa ölkələrin mütəxəssislərindən bir neçəsinin familiyasını xatırladım. Rusiya tərəfindən işləyən qrupa keçmiş Sovet İttifaqının baş prokuroru, indi isə Rusiya Prokurorluğunun Elmi-Tədqiqat Mərkəzi direktorunun birinci müavini Aleksandr Yakovleviç Suxarev başçılıq edirdi. Onun qrupuna Avropa Şurasının ekspertləri də daxil idi.

Bu, çox ixtisaslı tərkib idi, təhlil çox əsaslı şəkildə aparılmışdır. Biz onlardan respublikada mütəşəkkil cinayətkarlığa qarşı mübarizə baxımından görülən bütün işləri obyektiv araşdırmağı xahiş etmişdik.

Bundan əlavə, bildiyiniz kimi, Yevgeni Vsevolodoviç Yakovlevin başçılıq etdiyi Ali Arbitraj Məhkəməsindən məhkəmə-hüquq islahatının, Sizdə qəbul olunmuş qanunvericilik aktlarının təhlilini keçirməyi xahiş etmişdik. Bu iş bizdə professor Kolodkinin başçılıq etdiyi Beynəlxalq Hüquq Assosiasiyası tərəfindən də araşdırıldı. Kolodkin həm də Beynəlxalq Dəniz Hüququ üzrə hakimdir. Biz ittifaqımızın tərkibinə daxil olan, London Universitetinin professoru Uilyam Batlerə də müraciət etmişdik. O, Böyük Britaniyada və vaxtilə işlədiyi Amerika Birləşmiş Ştatlarında çox məşhur hüquqşünasdır, artıq neçə illərdir ki, ittifaqımızın rəhbərlərindən biri kimi onun tərkibinə daxildir. Biz Ukraynadakı dostlarımızdan da təhlil aparmağı xahiş etmişdik. Ukrayna qrupuna Ukrayna Ali Ədliyyə Şurasının sədri və bu ölkənin Hüquqşünaslar İttifaqının sədri, Ümumdünya Hüquqşünaslar Assosiasiyasının vitse-prezidenti başçılıq edirdi. Ali Arbitraj Məhkəməsində professor Neşatayeva işləyirdi. O, həmin məhkəmənin hakimidir, beynəlxalq hüquq sektoruna başçılıq edir. Mən Natiq İsmayıloviçdən xahiş etdim ki, notariusa aid hər şeyi nəzərdən keçirsin. Beləliklə, bir neçə aylıq işdən sonra biz rəy hazırladıq və onu Sizə gətirdik. Sizin yüksək müsaidənizlə onu Sizə təqdim edəcəyik.

Ekspertlərimizin gəldikləri başlıca qənaətdən danışmalı olsaq, bu, ondan ibarətdir ki, zamanca qısa, lakin işin məzmunu baxımından məhsuldar dövrdə, əslində son 8–9 ildə məhkəmə-hüquq islahatına dair normativ aktlar və cinayətkarlığa qarşı mübarizə məsələləri üzrə əməli iş əsas parametrlərdə Avropa Şurasının və ümumiyyətlə, Dünya Birliyinin yüksək tələblərinə cavab verir.

O ki qaldı bəlkə də başlıca məsələ olan insan hüquqlarının müdafiəsi məsələsinə, - onun təhlili normativ aktların və görülmüş işin 1950-ci il tarixli Avropa Konvensiyasına və ona əlavə edilən protokola nə dərəcədə cavab verdiyi baxımdan aparılmışdır, - bu halda da təhlil təsdiq etmişdir ki, burada hər şey Avropa Şurasının irəli sürdüyü tələblərə uyğundur. Ekspertlər ölüm hökmünün ləğvinə dair məsələni xüsusi nəzərə çarpdırmışlar. Bilirsiniz, bu addım nə dərəcədə müsbətdirsə, bir o qədər də cəsarətli bir addımdır.

**Heydər Əliyev:** Xüsusən də bizim respublika kimi respublikada. Bildiyiniz kimi, burada xüsusi təhlükəli cinayətkarlar çox idi.

**Andrey Trebkov:** Bəli. Ekspertlər məruzə etdikdə, indi də mövcud olan vəziyyətdən yayınmaq olmazdı. Bu, əslində, həm də müharibə vəziyyətinin davam etməsidir, çox böyük sayda qaçqınların olmasıdır, torpaqların hələ də azad edilməməsidir, buradan irəli gələn külli miqdarda digər problemlərdir.

Öz şəxsi təəssüratımdan danışmaq istəyirəm. Mən 10 ildir Azərbaycanda olmamışam. SSRİ Ədliyyə Nazirliyində işlədiyim vaxtlarda respublikanızda tez-tez olurdum, o vaxtlar biz çoxlu yaxşı işlər görürdük. İndi, başqa ölkəyə gəlmiş bir vətəndaş kimi, belə bir hal mənə xoş təsir bağışladı ki, burada kimsə mənim kimi gecə mehmanxanadan çıxaraq istədiyi yerə gedə bilər. Bu, hər şeyə sübutdur.

Necə deyərlər, hər şey məişət səviyyəsində dərk edilir. Əgər sən gündüz uşağı məktəbə göndərib və işdən ayrılaraq onu oradan özün götürüb aparmırsansa, əgər qarət olunacağından qorxmayaraq gecə küçə ilə gedə bilirsənsə, bu o deməkdir ki, dövlətdə sabitlik var, qəbul olunmuş qanunlar işləyir. Ona görə də buradan qayıtdıqdan sonra mən Azərbaycanda olmamış ekspertlərimə deyəcəyəm ki, onların gəldikləri qənaətləri bir şahid kimi təsdiqləyə bilərəm.

Cənab prezident, biz çox ümid edirik ki, Siz bu sənədə lazım bildiyiniz kimi baxacaqsınız. Çox istərdik ki, bu sənəd gənc müstəqil dövlətinizə, hamıya məlum olan çox böyük səylərinizdə şəxsən Sizə, möhkəm hüquqi zəmində işləyərək sivilizasiyalı dünyaya daxil olmaq üçün apardığınız işə bizim cüzi töhfəmiz, cüzi köməyimiz olsun.

**H e y d ə r Ə l i y e v**: Əvvəla, bir çox beynəlxalq ekspertlərin təhlili əsasında respublikamızdakı vəziyyətə, xüsusən, hüquqi islahatların aparılması və cinayətkarlıqla mübarizə, qayda-qanunun möhkəmlənməsi və sabitliyin bərqərar edilməsi ilə bağlı bir çox məsələlərin həlli sahəsində vəziyyətə verdiyiniz qiymətə görə sizə təşəkkürümü bildirirəm.

Bəli, keçmişdə Sovetlər İttifaqına daxil olmuş bir çox digər respublikalarla müqayisədə respublikamız həqiqətən çox mürəkkəb yol keçmişdir. Onların bir çoxunda, sadəcə, necə deyərlər, dövlət quruluşu sistemi, ideologiya dəyişmişdir, lakin müharibə, qaçqınlar, onların ərazisinin işğalı, qurbanlar, habelə Azərbaycandakı qədər dövlət çevrilişi cəhdləri, terror aktları törətmək cəhdləri olmamışdır. Azərbaycan keçmişdə Sovetlər İttifaqına daxil olmuş bütün respublikalardan məhz bununla fərqlənir.

Təbii ki, bütün bunlar Azərbaycanda vəziyyəti çətinləşdirmişdir. Hələ Sovetlər İttifaqı dövründə Azərbaycanda ən əvvəl Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə, Dağlıq Qarabağ problemi ilə, sonra isə ölkənin daxilində baş vermiş proseslərlə, silahlı dəstələrə və sairə malik ayrı-ayrı qüvvələrin hakimiyyət uğrunda mübarizə aparması ilə əlaqədar çox ağır vəziyyət yaranmışdı. Onlar bir dəfə, sonra ikinci dəfə hakimiyyəti devirdilər və 1993-cü ildə respublika vətəndaş müharibəsi həddinə gəlib çıxdı.

İndi aradan kifayət qədər vaxt keçmişdir və indi arxayın yaşayan, sizin dediyiniz kimi, gecə küçəyə qorxu-hürküsüz çıxan, gəzib-dolaşan və onları heç kimin narahat etməyəcəyini bilən adamlar əvvəllər nələr olduğunu bəzən unudurlar. 1993-cü ildə mən Bakıya gəldikdə, vəziyyət dəhşətli idi. Azərbaycan parçalanırdı, dağılırdı, cinayətkarlıq son həddə çatmışdı. Bununla yanaşı, müharibə gedirdi və bu vəziyyətdən istifadə edən Ermənistan silahlı birləşmələri irəliləyir və yeni-yeni ərazilərimizi işğal edirdilər.

O vaxt biz bunların hamısının qarşısını aldıq, amma bizdə hakimiyyət uğrunda, konstitusion hakimiyyəti devirmək uğrunda silahlı mübarizə xəstəliyi hələ ki, keçib getməyibdir. Belə əhval-ruhiyyə bu gün bəlkə də azdır, lakin hələ var.

1994-cü ilin oktyabrında biz silahlı yolla dövlət çevrilişi cəhdi ilə qarşılaşdıq. Bu cür cəhd 1995-ci ilin martında da olmuşdu. Yeri gəlmişkən, Azərbaycanda son dərəcə ağır, faciəli vəziyyət yaranmasının martda beş ili tamam olur.

1993-cü ildə vətəndaş müharibəsi baş verdi və onun qarşısını almaq mümkün oldu. 1994-cü ilin oktyabrında dövlət çevrilişi cəhdi edildi. Ola bilsin ki, tarixdə belə analoq yoxdur. Lakin o vaxtlar mən hərbi qüvvəyə, orduya və sairə malik deyildim, xalqa müraciət etdim və xalq Konstitusiya quruluşunun müdafiəsinə qalxdı və biz qiyamçıları zərərsizləşdirə bildik, onlar qaçıb dağıldılar. Onların böyük əksəriyyəti tutuldu və məhkəmə orqanlarımız tərəfindən məsuliyyətə cəlb olundu.

6 aydan sonra – 1995-ci ilin martında isə daha ciddi dövlət çevrilişi cəhdi edildi. Onda Daxili İşlər Nazirliyi qüvvələrinin bir hissəsi, yəni o vaxtlar yaradılmış XTDM – Xüsusi Təyinatlı Milis Dəstəsi əvvəlcə nazirliyin rəhbərliyinin tabeliyindən, sonra da dövlətin, prezidentin tabeliyindən çıxdı. Qanunsuz olaraq toplanmış çox böyük miqdarda silahı və əlbəttə, müəyyən terror fəaliyyəti, soyğunçuluq təcrübəsinə malik yaraqlıları olan, Azərbaycandakı müxtəlif siyasi partiyalarla, o cümlədən Xalq Cəbhəsi, Müsavat Partiyası ilə, Rusiyada olan Mütəllibovla, qaçıb aradan çıxan sabiq prezident Əbülfəz Elçibəylə əlaqəyə girən və şübhəsiz ki, xarici xüsusi idarələr tərəfindən idarə edilən bu dəstə dövlət çevrilişini həyata keçirməyə başladı.

Bu əlamət bizdə var idi və biz tədbirlər görürdük, məsələn, mən bu adamların ağıllarını başlarına yığıb onları öz cinayətkar niyyətlərindən əl çəkmələri üçün çox səylər göstərdim, onlarla danışıqlar apardım, hörmətli adamları, tanınmış yazıçılarımızı, alimlərimizi bu işə səfərbər etdim, bu silahlı dəstələrin bəzi rəhbərləri ilə danışıqlar apardım, lakin bütün bunlar bir nəticə vermədi. Çünki onlar, bir tərəfdən, həyasızlaşmışdılar, digər tərəfdən isə müxtəlif siyasi qüvvələrin, üstəlik, xarici xüsusi idarələrin dəstəyini hiss etmişdilər. Onlar burada hakimiyyətin əvvəlki hakimiyyət olmadığını başa düşməyərək, avantüraya getdilər – hakimiyyəti devirməyə çalışdılar. Onların ağıllarını başlarına yığmaq, bu hərəkətlərinə yol verməmək üçün göstərdiyim bütün cəhdlər, gördüyüm bütün tədbirlər heç bir nəticə vermədi.

Martın 17-nə keçən gecə onlar Prezident Sarayını – bax, bu binanı, televiziyanı, Müdafiə Nazirliyini, Daxili İşlər Nazirliyini tutmaq məqsədi ilə hücuma başladılar və hesab edirdilər ki, hakimiyyət artıq onların əlindədir.

Lakin biz tab gətirdik və bunun qarşısını aldıq. Doğrudur, bu zaman qan töküldü. 1994-cü ilin oktyabrında edilmiş ilk dövlət çevrilişi cəhdi zamanı qan tökülməmişdi. Bu dəfə isə qan töküldü. Lakin bu, onların günahı idi, çünki hücuma keçərək hesab edirdilər ki, birini, ikisini, üçünü öldürəcək, sonra isə prezidentə gəlib çıxacaqlar – onu ya həbs edəcək, ya da öldürəcək, hakimiyyəti öz əllərinə alacaqlar.

Tezliklə bu hadisənin beş ili tamam olacaqdır. Lakin, təkrar edirəm, onda biz Azərbaycanda yenidən vətəndaş müharibəsinə, onun bir dövlət kimi parçalanmasına gətirib çıxara biləcək bu faciəli vəziyyəti aradan qaldırdıq.

Doğrudur, onlar öz niyyətlərini həyata keçirmək fikrindən əl çəkmədilər. Təəccüblüdür ki, onlar bir dövlətin deyil, bir neçə dövlətin xüsusi idarələrinin köməyindən istifadə edirdilər. Omonçuların bir hissəsini tutmaq mümkün olmadı, onlar qaçıb aradan çıxdılar, müxtəlif ölkələrdə – Ukraynada, Rusiyada, Türkiyədə gizləndilər. Sonralar yenə də müxtəlif xüsusi idarələrin köməyi ilə onlar Azərbaycana toplaşdılar. Burada prezident xarici səfərdən qayıdarkən onun təyyarəsini vurmağa cəhd edildi, Ukrayna prezidentinin Bakıya rəsmi səfəri zamanı onun və Azərbaycan prezidentinin keçməli olduğu körpünü partlatmağa cəhd göstərildi.

Amma biz bütün bunların qarşısını aldıq. Təqsirkarların əksəriyyəti məsuliyyətə cəlb olunmuşdur. Düzdür, onların ilhamçılarından bəziləri respublikanın hüdudlarından kənardadır, həmin OMON-un başçılarından biri hazırda İranda fəaliyyət göstərir. Lakin hesab edirəm ki, indi Azərbaycanda hakimiyyət 1993-cü, 1994-cü və 1995-ci illərdə olmuş hakimiyyət deyildir. Biz sabitlik yaratmışıq, dövləti möhkəmlətmişik, ən başlıcası isə, sabitlik şəraiti yaratmışıq və adamlar arxayın yaşayır və işləyirlər.

Əlbəttə, islahatların həyata keçirilməsi, sosial, iqtisadi məsələlərin həlli sahəsində gördüyümüz tədbirlər həyatı gündən-günə yaxşılaşdırır. Dünən mən elmi işçilərin, səhiyyə, mədəniyyət, sosial sahələrdə çalışan bütün işçilərin əmək haqqının 25 faiz artırılması haqqında sərəncam imzaladım. Bundan bir neçə ay əvvəl mən bütün təhsil işçilərinin əmək haqqını 25 faiz qaldırdım. Bir çox digər tədbirlər də görülmüşdür.

Lakin bundan ötrü büdcə vəsaitinin olması üçün iqtisadiyyat işləməlidir, büdcəyə mədaxil olmalıdır. 1994-cü, 1995-ci illərdə bizdə inflyasiya 1600 faizə çatırdı. Ancaq üç ildir ki, bizdə inflyasiya yoxdur. İnflyasiya olmadığına görə bizdə istehlak mallarının qiymətləri aşağı düşür, mən əmək haqqını qaldırıram. Siz təsəvvür edirsinizmi? İnflyasiyanın olduğu şəraitdə əmək haqqının qaldırılmasını müəyyən dərəcədə başa düşmək olar. Bu, məcburi tədbirdir. Lakin inflyasiya yoxdur, istehlak mallarının qiymətləri aşağı düşür, milli valyutamızın məzənnəsi möhkəmlənir və mən adamların əmək haqqını qaldırıram. Bu, işimizin nəticəsidir. Buna görə də təbiidir ki, təkcə inzibati tədbirlərimizlə və ya dövlət sistemini möhkəmlətmək tədbirləri ilə indiki vəziyyətimizi yaratmaq olmazdı. Bundan ötrü çox işlər görmək, o cümlədən də iqtisadi, sosial islahatlar, hüquq sistemində, məhkəmə sistemində və s. islahatlar aparmaq lazım idi.

Buna görə də şadam ki, siz öz gözlərinizlə bunları tam olmasa da, müəyyən dərəcədə görürsünüz. Mənə xoşdur ki, siz buraya işimiz barədə beynəlxalq təşkilatların, beynəlxalq ekspertlərin konkret rəyləri ilə gəlmisiniz. Sizə təşəkkürümü bildirirəm və inanıram ki, sizinlə və ümumən bütün ictimai təşkilatlarla əməkdaşlığımız inkişaf edəcəkdir.

Yeri gəlmişkən, ictimai təşkilatın prezidenti ilə görüşməyim sizdə, nədənsə, müəyyən dərəcədə təəccüb doğurmuşdur. Bu, mənim üçün normal haldır. Çünki indi, cəmiyyətin demokratikləşməsi prosesinin getdiyi, demokratik, hüquqi dövlət qurduğumuz bir vaxtda biz bütün vasitələrdən istifadə etməliyik. Məsələn, mən dövlət orqanları ilə işi nə qədər mühüm bilirəmsə, ictimai təşkilatlarla da işi bir o qədər mühüm hesab edirəm. Buna görə də sizin səfərinizi və xoş təəssüratlarınızı bir daha alqışlayıram.

Siz mənə keçmişdən bəzi şeyləri xatırlatdınız. Bu, mənim üçün xoşdur. Bilirsinizmi, vaxt ötüb keçir, mənim özüm bəzi şeyləri unuduram. Unuduram ona görə yox ki, yaddaşım zəifləyibdir. Xeyr. Ona görə ki, o illərdə çox şeylər olubdur, onların hamısını eyni vaxtda yaddaşda saxlamaq olmur. Əgər bir-iki gün oturub hər şeyi yerbəyer etsəm, onda onların hamısını xatırlayaram.

Keçmişdə işlədiyim və ya mənim işimlə tanış olan adamlarla görüşdükdə və onlar konkret faktı mənə xatırlatdıqda, əlbəttə, bu, mənim üçün xoşdur. Çünki o vaxtlar da bütün bunlar asan olmamışdı.

Bax, siz dediniz ki, Tümendə işləyirdiniz və Azərbaycanda görülən işlərlə maraqlanırdınız. Bəli, 1969-cu ildə mən Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdə öz işimə digər partiya rəhbərləri ilə müqayisədə tamam başqa tərəfdən – korrupsiya ilə, hakimiyyətdən hər cür sui-istifadə halları ilə, cinayətkarlıqla, xalqın, dövlətin mülkiyyətinin oğurlanması ilə mübarizədən başladım.

Bu zəruri idi, çünki o vaxtlar respublikada vəziyyət bu cür idi. Lakin təkcə Azərbaycanda deyil, Sovetlər İttifaqının hər yerində vəziyyət belə idi. Haradasa bir qədər çox, haradasa bir qədər az idi. Ancaq əvvəllər belə bir psixologiya mövcud idi – bir halda ki, hər yerdə belədir, qoy bizdə də belə olsun. Çünki o vaxtlar hakimiyyət bu cür vəziyyətə ümumən öyrəşmişdi və hesab edirdi ki, bu, müəyyən dərəcədə qaçılmaz haldır.

Mən isə bu mübarizəyə başladım. Yeri gəlmişkən, deməliyəm ki, bu, dərhal Sovetlər İttifaqına və bütün dünyaya yayıldı. O vaxtlar Əliyevin məşhurluğu, nüfuzu təxminən bir neçə ayda elə artdı ki, adamlar bunu indiyədək xatırlayırlar.

O vaxtlar bununla yanaşı, mən aşkarlığa da başladım. Onu artıq sonralar, 80-ci illərin ortalarında bütün ölkədə həyata keçirməyə başladılar. Axı o vaxtlar belə bir psixologiya mövcud idi – əgər bir şey vardısa, onu MK-da, rayon partiya komitəsində, vilayət komitəsində müzakirə edir, qərar qəbul edirdilər, xalqın isə bundan xəbəri olmurdu. Mən isə hər şeyi mətbuata, televiziyaya verirdim. Öz aramızdır, bu, adamlarda çox böyük siyasi fəallıq doğururdu və mən də məhz bunu istəyirdim. Çünki, məsələn, filan birinci katibin rüşvətxorluqda ifşa olunduğundan və məsuliyyətə cəlb edildiyindən, filan nazirin, yaxud da filan prokurorun və ya milis rəisinin öz vəzifəsindən sui-istifadəyə görə işdən çıxarıldığından və məsuliyyətə cəlb edildiyindən adamlar xəbər tutanda xalq başa düşəcək ki, hakimiyyət orqanları bunların hamısını görürlər, bütün bunlara qarşı mübarizə aparırlar.

Belə olan halda xalq hakimiyyət orqanlarını dəstəkləyəcək və onlara kömək edəcəkdir. Çünki əvvəl belə bir əhval-ruhiyyə vardı ki, bu, sanki belə də olmalıdır.

Yadımdadır, 70-ci illərin təxminən ortalarında biz böyük sui-istifadə, rüşvətxorluq və bu kimi digər hallar olmuş bir rayonun işini MK-da müzakirə edirdik. O vaxt biz birinci katibi işdən çıxartdıq, sonra məhkəmə məsuliyyətinə cəlb etdik. Rüşvət vermək üstündə məsuliyyətə cəlb edilmiş bir-iki adamdan soruşdum – siz nə üçün rüşvət vermisiniz? Onlar deyirdilər – biz hesab edirdik ki, rayon partiya komitəsinin katibinə rüşvət verilməlidir, bunu normal hesab edirdik. Başa düşürsünüzmü, məsələ nə yerdədir?

Bir sözlə, sonra bu, tədricən yayıldı. Bax, siz deyirsiniz ki, uzaq Tümendə Azərbaycandan xəbərlər gözləyirdiniz. Siz bizim «Bakinski raboçi» qəzetini xatırlayırsınızmı? O, indi də mövcuddur. Bu qəzet rus dilində olduğuna görə bütün Sovetlər İttifaqında yayılırdı. Yadımdadır, mənə deyirdilər ki, onun qiyməti 10 qəpikdir, Tbilisidə isə onu 25 manata satırlar. Bu qəzeti digər respublikalarda da satmağa başladılar. Hər yerdə onu tanışlardan alıb oxuyur, göndərməyi xahiş edirdilər. Maraq böyük idi.

Mən indi də həmin mövqedəyəm, dəyişməmişəm. Əksinə, bu baxımdan daha da sərtləşmişəm. Nəyə görə? Ona görə ki, bu hallar indi daha geniş yayılmağa başlamışdır. Təkcə Azərbaycanda yox, təkcə postsovet məkanında yox, həm də bütün dünyada.

Bu yaxınlarda mən Avropa Birliyinin nümayəndələri ilə söhbət etdim və dedilər ki, sizdə korrupsiya var. Dedim ki, bəli, bizdə korrupsiya var, məgər sizdə yoxdurmu? Onların biri İtaliyadan, digəri isə Hollandiyadan idi. İtaliyalı dedi ki, bəli, bizdə də var. Hollandiyalı isə dedi ki, yoxdur. Mən ona dedim – sizdə də var. Siz Avropa Şurasında işləyirsiniz. Halbuki, yarım il bundan əvvəl Avropa Şurasının İqtisadi Komissiyasını – Jak Santer başda olmaqla, çox iri beynəlxalq təşkilatı ifşa etmişdilər. Yeri gəlmişkən, biz Santerlə, habelə Hollandiyadan olan Van den Brukla əməkdaşlıq edirdik. Onların hamısı korrupsiyaya görə istefa verməli oldu.

Yəni bu hal indi hər yerdə çox geniş yayılmışdır. Amma hər bir kəs sübut etmək istəyir ki, bu hal başqa ölkədə daha çoxdur və ya var, onlardasa yoxdur. Bu, doğru deyildir. Hesab edirəm ki, bu, hər yerdə var – haradasa çoxdur, haradasa azdır. Azərbaycanda da var, Rusiyada da, Qərb ölkələrində də çoxdur. Yeri gəlmişəkən, Qərb ölkələri sübut etməyə çalışırlar ki, bu, yalnız keçmiş Sovetlər İttifaqı və Şərqi Avropa ölkələri üçün səciyyəvi haldır. Buna görə də mənim prinsiplərim əsla dəyişməyibdir, əksinə, daha da sərtləşibdir.

Bəli, mən Ədliyyə Nazirliyində görüşümü də xatırlayıram. Mən bilən, o vaxt nazir Terebilov idi. Siyasi Büroda biz onu Ali Məhkəmənin sədri vəzifəsinə məsləhət gördük. Terebilovu mən təqdim etməli idim. Lakin Sovet İttifaqı Qəhrəmanı Kravtsovu nazir təyin etdilər. O, Rusiyanın prokuroru idi. Siyasi Büronun tapşırığı ilə mən həm Terebilovu, həm də Kravtsovu təqdim etməli idim. Lakin mən iki gün məşğul oldum, vaxtsa gedirdi, Terebilovun özü təqdimatsız Ali Məhkəməyə getdi. Çünki keçmişdə Ali Məhkəmə sədrinin müavini olmuşdu. Onu sonralar ədliyyə naziri təyin etdilər. Kravtsov isə təyin olunmuşdu, amma işə başlaya bilmirdi. Mənə zəng vurub dedilər ki, axı bu iş sizə tapşırılıbdır. Mən oraya gəldim. Yadımdadır, kollegiyanın geniş iclası keçirilirdi. Mən onu təqdim etdim, xatirimdədir, nitq söylədim. Şadam ki, siz bunu xatırlayırsınız. Hər halda, ədliyyə nazirliyi spesifik nazirlikdir. Məsələn, yollar nazirliyində və ya səhiyyə nazirliyində, mədəniyyət nazirliyində nitq söyləməyim başqa işdir, çünki onlar mənə daha yaxın sahələrdir. Amma ədliyyə...

Bəli, nitq söylədim. Nitqimdə o vaxtlar ədliyyə nazirliyi qarşısında duran vəzifələr əsas etibarilə öz əksini tapmışdı. O vaxtlar, 80-ci illərin ortalarında biz məhz qanunçuluğu möhkəmlətmək istəyirdik. Məsələn, mən Siyasi Büronun qərarı ilə əmək kollektivi haqqında ilk qanunun hazırlanması üzrə komissiyanın sədri təyin edilmişdim. Sonra biz dövlət müəssisəsi haqqında qanun hazırladıq. Yaxud da, məsələn, mən arbitraj haqqında qanunun hazırlanması üzrə komissiyaya başçılıq edirdim. O zaman biz arbitrajı ilk dəfə olaraq dövlətdən ayırdıq və onu müstəqil təşkilata çevirdik. O vaxtadək arbitraj Nazirlər Sovetinin tərkibində idi. Mən özüm Nazirlər Soveti sədrinin birinci müavini idim. Mən bu layihəni Nazirlər Sovetinin müzakirəsinə çıxartdıqda hamı etiraz etdi – necə yəni arbitraj Nazirlər Sovetinin tərkibindən çıxır. Mən onlara sübut etdim ki, arbitraj tabelikdə olmamalıdır və iqtisadi mübahisələri sərbəst həll edə bilməlidir. Arbitraj Nazirlər Sovetinin tabeliyində olduqda, iki nazirlik və ya hansısa müəssisələr iqtisadi mübahisə apardıqda, bir-birinə qarşı iddialar irəli sürdükdə, sədrin müavinlərindən biri öz müəssisəsinin və ya nazirliyinin, digəri isə öz müəssisəsinin və ya nazirliyinin mənafelərini müdafiə etdikdə, ədalət ola bilməz.

Bax, siz Lebedevi xatırladınız. O da mənə çoxdan unutduğum bir əhvalatı danışdı. Dedi ki, onlar özlərinə bina tikdirmək istəyirdilər. O vaxtlar isə inzibati binaların tikintisi qadağan edilmişdi. Deyir ki, oraya getdik, buraya getdik və sairə. Sonra dedilər ki, bu məsələni həll etsə, ancaq Əliyev həll edər, əgər siz onun qəbuluna duşsəniz... Deyir – mən çox cəhd göstərdim və nəhayət, Sizin qəbulunuza düşdüm. Siz baxdınız, məni dinlədiniz və yazdınız ki, icazə verirəm. Beləliklə, biz bu binanı tikdirdik. Deyir ki, Siz olmasaydınız, biz onu tikdirə bilməzdik.

Bir sözlə, şadam ki, o vaxtlar biz faydalı iş, özü də çoxlu iş görürdük. Mən xüsusilə şadam ki, adamlar bunu xatırlayırlar. Məsələn, mən təsəvvür etməzdim ki, siz keçmiş birgə işimiz haqqında bu qədər çoxlu fakt xatırlayırsınız.

Mən Moskvada işləyərkən qanunlar və sair hazırlanması ilə əlaqədar ədliyyə naziri ilə, akademiklər Kudryavtsev, Laptev ilə çox tez-tez görüşür, onlarla çox işləyir, müzakirə edirdim. O vaxtlar məsələlər mürəkkəb idi. Axı bizdə, Sovetlər İttifaqında hər şey partiyanın qərarı ilə həll edilirdi, qanun formal xarakter daşıyırdı. Qanunların yaradılması prosesinə isə əslində 80-ci illərin ortalarında başlanmışdı. Mən bu məsələlərlə çox məşğul olurdum və bu, mənə Sovetlər İttifaqının bir çox hüquqşünasları ilə ünsiyyətdə olmaq imkanı verirdi. Onların bir çoxu bu gün də fəal işləyir.

Şadam ki, sizin beynəlxalq təşkilat respublikamızla fəal əməkdaşlıq edir, daha doğrusu, respublikamız sizinlə əməkdaşlıq edir. Mən bunu alqışlayıram və hesab edirəm ki, bu əməkdaşlıq dərinləşməli və genişlənməlidir. Hesab edirəm ki, bunun faydası olacaq, ən əvvəl də bizim üçün. Çünki dünya təcrübəsini özündə cəmləşdirən belə beynəlxalq təşkilatın təcrübəsi hər bir ölkə üçün, o cümlədən Azərbaycan üçün çox faydalıdır.

Ağamirov bizim həmvətənimizdir? Siz Naxçıvana gəlmisinizmi?

**N a t i q  A ğ a m i r o v:** Bəli.

**H e y d ə r  Ə l i y e v:** Həyatımda ağır dövr – Naxçıvan dövrü olubdur. 1990-cı ildə mən Moskvadan gəldim, lakin mənə burada, Bakıda yaşamağa icazə vermədilər və mən Naxçıvanda yaşadım. O gəlmişdi, xatirindədir, necə ağır şəraitdə...

**N a t i q  A ğ a m i r o v:** Bunlar unudulmaz günlərdir.

**H e y d ə r  Ə l i y e v:** Azərbaycandan ayrı düşmüş və blokada vəziyyətində olan muxtar respublikanın, eləcə də mənim necə ağır şəraitdə yaşadığımızı xatırlayır. Mən orada üç ağır il keçirdim. Bir sözlə, mən onu həmin vaxtdan xatırlayıram.

Yaxşı, sağ olun.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ AZƏRBAYCANDAKI SƏFİRİ STENLİ ESKUDERO İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*14 mart 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Cənab sədr, xoş gördük. Mən sizi səmimi-qəlbdən salamlayıram.

**S t e n l i E s k u d e r o:** Çox sağ olun, cənab prezident. Vaxt ayırıb məni qəbul etdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Cənab prezident, çox sağ olun. Mən Sizinlə təxminən eyni vaxtda Amerika Birləşmiş Ştatlarında idim. Daha doğrusu, mən Sizdən bir neçə gün sonra Amerikaya yola düşdüm. Bu, çox uğurlu bir səfər oldu. Mən səfərim haqqında Sizə bir qədər sonra ətraflı məlumat vermək istəyirəm.

Cənab prezident, mən Vaşinqtonda olduğum zaman məlumat alırdım ki, Sizin də Amerikaya səfəriniz çox uğurlu keçir. Ölkələrimizin ikitərəfli münasibətlərinin bir sıra sahələrində müəyyən tərəqqi əldə edilmişdir. Elə bilirəm ki, hər iki tərəf bundan çox məmnundur.

Mən martın 10-da imzaladığınız sərəncamlar münasibətilə təbriklərimi Sizə yetirmək istəyirəm. Bunlardan birincisi «Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə Qarşı Komitəsinin və Beynəlxalq Amnistiya Təşkilatının Azərbaycana dair hesabatı ilə əlaqədar tədbirlər haqqında»dır. Sizin həmin sərəncamınızla işçi qrupu yaradılmışdır. Sözsüz ki, bu işçi qrupu Beynəlxalq Amnistiya Təşkilatının və Birləşmiş Millətlər Təşkilatının İşgəncələrə Qarşı Komitəsinin tövsiyələrinin həyata keçirilməsi ilə sıx məşğul olacaqdır. İkinci sərəncam isə «Beynəlxalq Qırmızı Xaç Komitəsinin azadlıqdan məhrumetmə yerlərində səlahiyyətlərinin həyata keçirilməsinin təmin edilməsi barədə»dir. Bununla da Beynəlxalq Qırmızı Xaç Komitəsi həbsxanada saxlanılanlara bundan sonra baş çəkə biləcəkdir.

Bunlar insan hüquqları və Azərbaycanın demokratikləşməsi yolunda irəliyə doğru atılan çox vacib addımlardır. Mən bu münasibətlə Sizi bir daha təbrik edirəm.

Cənab prezident, Siz bu sərəncamları martın 10-da imzalamısınız. Martın 10-u isə mənim anadan olduğum gündür. Ona görə də mən buna ikiqat sevinirəm.

**H e y d ə r Ə l i y e v:** Mən bəlkə bu sərəncamları sizin anadan olduğunuz gün münasibətilə imzalamışam. Sizin anadan olduğunuz günü bilirdim, ona görə də bu sərəncamları həmin gün imzalamışam.

**S t e n l i E s k u d e r o:** Cənab prezident, çox sağ olun. Xoş sözlərə görə minnətdarlığımı bildirirəm.

Martın 21-22-si Azərbaycanda Novruz bayramı günlərinə düşür. Təəssüflə də olsa, onu əlavə edim ki, Amerika qoşunlarının Avropada yerləşdirilmiş hissəsində qoşun komandirinin müavini, admiral Çarlz Abdekin başçılıq etdiyi nümayəndə heyəti bu bayram günlərində Bakıya səfərə gələcəkdir.

Admiral Abdek bu rütbədə, bu nüfuzda Azərbaycana səfər edən ilk amerikalı zabitdir. O, Bakıya gələrkən Amerika Birləşmiş Ştatlarının Azərbaycanla hərbi sahədə birgə işi barədə bir neçə layihə gətirəcəkdir. Əlbəttə, bu layihələrin həyata keçirilməsi mümkündür. Elə bilirəm ki, bu layihələr gələcəkdə uğurla yerinə yetiriləcəkdir.

Cənab prezident, mən bu layihələr barədə müvafiq sənədləri Prezidentin İcra Aparatının xarici əlaqələr şöbəsinə artıq təqdim etmişəm.

Cənab prezident, mən istərdim ki, digər məsələlər haqqında Sizinlə bir qədər sonra müzakirə aparım. Lakin bundan əvvəl istəyirəm ki, Amerika Birləşmiş Ştatlarına səfəriniz haqqında Sizin fikrinizi öyrənim. Bilirəm ki, mənim ölkəm Sizin bu səfərinizdən çox razıdır, bizim tərəf özünü çox xoşbəxt hiss edir.

**H e y d ə r Ə l i y e v:** Sağ olun, təşəkkür edirəm. Birincisi, sizi təbrik edirəm ki, öz ölkənizə uğurlu səfər etmisiniz və çox işlər görmüsünüz.

Mən Amerikaya səfərimi çox uğurlu hesab edirəm. Doğrudur, bu, işgüzar səfər idi, amma onun adının əhəmiyyəti yoxdur, əsas iş məzmunundadır. Təbiidir ki, mənim bu səfərimin ən əsas mənası prezident Bill Klintonla Ağ evdə görüşüb, demək olar, bütün məsələlər barəsində danışıqlar aparmağımız idi. Bilirsiniz ki, həmin görüşdə xanım Madlen Olbrayt, cənab Sendi Berger və digər rəsmi şəxslər də iştirak edirdilər.

Sonra biz cənab Sestanoviç, cənab Kavano ilə birgə Ermənistan–Azərbaycan münaqişəsinə aid məsələni demək olar, iki saat ayrıca müzakirə etdik. Başqa görüşlərim də oldu. Mən energetika naziri, kənd təsərrüfatı naziri ilə və xüsusən, Pentaqonda müdafiə naziri Uilyam Kohen ilə görüşdüm.

Hesab edirəm ki, Cons Hopkins Universitetinin Xüsusi Beynəlxalq Tədqiqatlar İnstitutunda mənim görüşüm çox maraqlı idi. Mən gördüm ki, həmin institutun salonuna xeyli adam toplaşmışdı, salon demək olar ki, tamamilə dolu idi. Onlar Azərbaycana, təbii ki, mənimlə görüşə çox böyük maraq göstərmişlər.

Amerika-Azərbaycan Ticarət Palatası böyük qəbul təşkil etmişdi. Amerika işgüzar dairələrinin bir çox nümayəndələri ilə orada çoxlu görüşlərimiz oldu. Amerikaya işgüzar səfərimin birinci gününün ertəsi – bazar

günü cənab Bjezinski məni evinə dəvət etdi. Biz həmin görüşdə keçmiş müdafiə naziri cənab Slezincer, Respublikaçılar Partiyasından keçmiş müdafiə nazirinin müavini olmuş səfir cənab Volfoviç və digər şəxslərlə ətraflı söhbət etdik.

Bütün bu görüşlərdə şəxsən mənim məqsədim Amerika-Azərbaycan əməkdaşlığını daha da sürətləndirmək, inkişaf etdirmək və yüksəklərə qaldırmaq idi. Biz bütün məsələlər, o cümlədən, Bakı–Ceyhan əsas ixrac boru kəməri və Transxəzər qaz kəməri sazişlərinin həyata keçirilməsi barədə fikir mübadiləsi apardıq. O vaxt Konqres üzvləri tətildə idilər, onlar istirahət edirdilər. Ona görə də onlarla görüşmək mümkün olmadı.

Hər halda, mən bir daha deyirəm, Amerikaya səfərim çox səmərəli, əhəmiyyətli oldu. Mən bundan çox razıyam. Amerika hökuməti, şəxsən prezident Bill Klinton Amerika Birləşmiş Ştatlarında olduğum bütün vaxtda – həm işgüzar səfərim, həm də müalicə edildiyim zamanı mənə çox böyük diqqət və qayğı göstərdilər.

Bilirsiniz ki, mən Cons Hopkins Universitetinin Xüsusi Beynəlxalq Tədqiqatlar İnstitutunda çıxış etdim. Sonra isə həmin universitetin Göz xəstəlikləri klinikasında gözümdə əməliyyat aparıldı. Mən təsəvvür etmirdim ki, bu universitet bu qədər böyük və çoxsahəlidir. Göz xəstəlikləri klinikası doğrudan da çox yüksək səviyyəlidir. Amerikada belə bir adət var ki, səhiyyə sahəsində olan institutların, xəstəxanaların işinə hər il qiymət verirlər. Orada mənə göstərdilər ki, Cons Hopkins Universitetinin Göz Xəstəlikləri klinikası birinci yerdədir. Orada çox yaxşı həkimlər, insanlar var. Mənim orada yeni dostlarım vardır.

Təbiidir ki, mən Klivlendə də getdim. Amma orada bir neçə saat oldum, cərrah Brüs Layt, kardioloq Murad Tuzçu və başqaları ilə görüşdüm. Onlar bu görüşümüzə çox sevindilər. Ən çox ona görə sevindilər ki, oradakı bütün müayinələrim göstərdi ki, ürək cərrahiyyə əməliyyatı ilə əlaqədar mənim səhhətim onların gözlədiyindən də yaxşıdır. Ona görə də mən bu səfərimi həm işgüzar, həm də şəxsi nöqteyi-nəzərdən çox uğurlu hesab edirəm. Xahiş edirəm, prezident cənab Bill Klintona, xanım Madlen Olbrayta, hökumətin başqa üzvlərinə mənə göstərilən diqqət, qayğı və dostluq münasibətinə görə bir daha təşəkkürümü çatdırasınız.

Mən ölkənizin yüksək rütbəli admiralının Azərbaycana səfərə gələcəyi barədə məlumat almışam. Mən Pentaqonda olanda müdafiə naziri cənab Uilyam Kohen ilə bir çox məsələləri müzakirə etdik. Sizin ölkənin admiralının Azərbaycana gəlməsini çox əhəmiyyətli hesab edirəm.

Siz deyirsiniz ki, martın 21–22-si istirahət günləridir. Amma bizim üçün istirahət günü yoxdur. Ona görə də qoy bu, sizi narahat etməsin.

Sizin başqa təklifləriniz də var, mən onları bilirəm. İndi bu barədə danışa bilərik.

## UKRAYNA PREZİDENTİ
## LEONİD KUÇMA İLƏ TƏKBƏTƏK
## GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*16 mart 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Xoş gördük, cənab Kuçma! Azərbaycana xoş gəlmişsiniz. Sizin Azərbaycana rəsmi səfərinizi yüksək qiymətləndirirəm. Həmçinin Ukraynanın Luqansk vilayətində şaxtada baş vermiş fəlakət ilə əlaqədar, cənab Leonid Kuçma, Sizə bir daha başsağlığı verirəm.

Azərbaycan ilə Ukrayna arasında dostluq, strateji tərəfdaşlıq münasibətlərinin gündən-günə möhkəmlənməsi hər iki tərəf üçün çox faydalıdır. Ölkələrimizin bütün sahələrində – siyasət, iqtisadiyyat, mədəniyyət, təhsil, elm və digər sahələrdə əlaqələrinin durmadan inkişaf etməsindən məmnunam.

Mən 1997-ci ilin martında dost Ukraynaya rəsmi səfərimi, nüfuzlu beynəlxalq təşkilatların tədbirlərində keçirdiyim görüşləri, apardığım danışıqları həmişə razılıqla xatırlayıram. Ölkələrimizin nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini müsbət dəyərləndirirəm. Ötən beş ildə imzalanmış dövlətlərarası və hökumətlərarası 60-dan çox sənəd Azərbaycan–Ukrayna əlaqələrinin bütün sahələrdə genişləndirilməsi üçün möhkəm zəmin yaratmışdır.

Bir sıra beynəlxalq və regional təşkilatlarda ölkələrimizin qarşılıqlı surətdə faydalı əlaqələri böyük əhəmiyyət daşıyır. Beynəlxalq həyatın bir çox məsələlərində Azərbaycan ilə Ukraynanın mövqeləri tam eyni və ya oxşardır. GUÖAM çərçivəsində əməkdaşlığın daha da sıxlaşdırılması vacibdir.

Azərbaycanın və Ukraynanın öz dövlət müstəqilliyini, suverenliyini möhkəmləndirmək mövqelərində qətiyyətlə dayandıqlarını bir daha yüksək dəyərləndirirəm.

Xüsusi qeyd etməliyəm ki, Ermənistanın ölkəmizə hərbi təcavüzü ağır nəticələrə səbəb olmuşdur. Respublikamız öz ərazi bütövlüyünün bərpa olunması tələbi ilə çıxış edir. Azərbaycanın haqq işini Ukrayna dövlətinin və şəxsən cənab Kuçmanın daim müdafiə etməsi, dəstəkləməsi məni çox razı edir.

**L e o n i d K u ç m a:** Əziz dostum Heydər Əliyev. Sizinlə yenidən görüşdən şərəf duyuram. Rəsmi səfərə dəvətə görə Sizə minnətdarlıq edirəm. Əziz bayram münasibətilə Azərbaycan xalqını və Azərbaycan dövlətinin başçısı kimi, Sizi səmimi-qəlbdən təbrik edirəm.

1995-ci ildə Azərbaycana ilk rəsmi səfərimi həmişə məmnunluqla xatırlayıram. Ölkələrimiz arasında münasibətlərin yüksələn xətlə inkişaf etməsinin və strateji tərəfdaşlığın daha da möhkəmlənməsinin xüsusi əhəmiyyət daşıdığını bildirirəm.

Azərbaycan ilə bütün sahələrdə əlaqələrin sıxlaşdırılmasına Ukrayna böyük maraq göstərir. Bir sıra beynəlxalq, regional təşkilatlarda, GUÖAM çərçivəsində ölkələrimizin əməkdaşlığının daha da genişləndirilməsini vacib hesab edirəm.

Ermənistan- Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk qrupu çərçivəsində və birbaşa aparılan danışıqların müsbət nəticələr verəcəyinə əminəm. Ukrayna Azərbaycanın mövqeyini, ərazi bütövlüyünün bərpa olunmasını həmişə müdafiə etmiş və bundan sonra da müdafiə edəcəkdir.

Azərbaycanın müdrik və çox zəngin təcrübəyə malik prezidenti Heydər Əliyev öz məsləhətləri ilə mənə həmişə düzgün yol göstərir. Çətin məqamlarda Ukraynaya daim kömək göstərdiyinə görə prezident Heydər Əliyevə bir daha dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

İkitərəfli əlaqələrin dərinləşdirilməsinə, ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə dair məsələlərin müzakirə edilməsini vacib hesab edirəm.

**H e y d ə r Ə l i y e v:** Elədir, cənab Kuçma. Mənə elə gəlir ki, biz həmçinin, tarixi Böyük İpək yolunun, Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin daha səmərəli işləməsi üçün Ukrayna–Azərbaycan əməkdaşlığını genişləndirməli, regionda vəziyyətin sabitləşməsi üçün əlimizdən gələni etməliyik.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN VƏ UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN TƏKBƏTƏK GÖRÜŞÜ BAŞA ÇATDIQDAN SONRA HƏR İKİ ÖLKƏNİN NÜMAYƏNDƏ HEYƏTİ ARASINDA AZƏRBAYCAN–UKRAYNA DANIŞIQLARINDA ÇIXIŞ

*Prezident sarayı*

*16 mart 2000-ci il*

**H e y d ə r Ə l i y e v:** Cənab prezident, çox hörmətli Leonid Daniloviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda ürəkdən salamlayıram və Sizə, Leonid Daniloviç, dəvətimi qəbul edib Azərbaycana rəsmi səfərə gəldiyinizə görə təşəkkür edirəm.

Son illər ölkələrimiz arasında təşəkkül tapmış münasibətlər yüksələn xətlə inkişaf edir. Bu, təbii ki, şəxsi əlaqələr, görüşlər, fikir mübadiləsi, dövlətlərarası münasibətlər məsələlərinin və digər məsələlərin müzakirəsi üçün zərurət və şərait yaradır.

Fikir mübadiləsinə keçməzdən əvvəl, faciəli hadisə və insan tələfatı ilə əlaqədar sizə bir daha başsağlığı vermək istərdim. Mən sizə başsağlığı teleqramı göndərmişdim və bu başsağlığını həlak olanların ailələrinə çatdırmaq xahişi ilə bunu bir daha şəxsən deyirəm.

Bu gün Azərbaycanda bayram günüdür. Bu, Azərbaycanın milli bayramıdır. Siz bizə bu bayram günündə gəlmisiniz və bu, çox xoşdur, çünki bayram bayramdır, biz bayram əhval-ruhiyyəsindəyik və deməli, sizin gəlişiniz bizim üçün sevinc və bayram olmaqla yanaşı, görüşümüz ikiqat bayram şəraitində keçəcəkdir.

Leonid Daniloviç, Sizin 1995-ci ildə Azərbaycana ilk rəsmi səfərinizdən sonra Ukrayna ilə Azərbaycan arasında əməkdaşlıq münasibətləri, bizim zənnimizcə, çox intensiv inkişaf etmişdir. Bu müddət ərzində bizim aramızda – prezidentlər arasında çox görüşlər, o cümlədən mənim 1997-ci ildə Ukraynaya rəsmi səfərim olubdur. Bundan əlavə, Yaltada, Kiyevdə, Moskvada, digər ölkələrdə çox görüşlər olubdur. Biz müxtəlif beynəlxalq konfrans və simpoziumlarda, dövlət başçılarının beynəlxalq görüşlərində birlikdə iştirak etmişik. Müxtəlif məsələlərin müzakirəsi üçün Azərbaycandan Ukraynaya və Ukraynadan Azərbaycana çox nümayəndə heyətləri gedib-gəlmişdir.

Bu gün məmnunluq hissi ilə demək olar ki, bu qısa müddətdə, təxminən beş ildə 60-dək dövlətlərarası, hökumətlərarası sənəd imzalanmışdır və bunlar da münasibətlərimizin gələcək inkişafının xarakterini müəyyənləşdirir.

Ukrayna Azərbaycan üçün dost ölkədir. Bizim fikrimizcə, bu illər ərzində münasibətlərimiz o dərəcədə inkişaf etmişdir ki, indi onlar dostluq, strateji tərəfdaşlıq, sıx əməkdaşlıq xarakteri daşıyır.

Bəyan edirəm ki, əvvəllər olduğu kimi, bu gün də biz dövlətlərimiz və xalqlarımız arasında bütün sahələrdə – siyasət, iqtisadiyyat, mədəniyyət, təhsil, elm və digər sahələrdə əməkdaşlığı çox yüksək qiymətləndiririk.

Məmnunluq hissi ilə deyə bilərəm ki, beynəlxalq həyatın bir çox məsələlərində, Ukraynada və Azərbaycanda həyata keçirilən tədbirlərdə Ukrayna ilə Azərbaycanın mövqeləri ya eynidir, ya da bir-birinə yaxındır.

Başlıcası isə, məncə, bundan ibarətdir ki, Azərbaycan və Ukrayna öz ölkələrinin milli, dövlət müstəqilliyinin, suverenliyinin müdafiəsi və möhkəmlənməsi mövqelərində qətiyyətlə dayanmışlar, Ukrayna və Azərbaycan demokratikləşdirmə, bazar iqtisadiyyatı yolu ilə əzmlə gedirlər. Təbii ki, bu, əməkdaşlığımız üçün əlverişli şərait yaradır. Düşünürəm ki, bu əməkdaşlığın daha da inkişaf etməsi, dərinləşməsi və genişlənməsi üçün hələ böyük ehtiyat mənbələri, imkanlar var. Sizin Azərbaycana səfəriniz bizə bu istiqamətdə yeni addımlar atmağa imkan verir.

Sizi bir daha salamlayıram.

**H e y d ə r Ə l i y e v:** Leonid Daniloviç, biz həm Ukrayna, həm də Azərbaycan nümayəndə heyətləri üzvlərinin məlumatını dinlədik. Hesab edirəm, onların verdikləri bütün məlumatlar təsdiqləyir ki, əməkdaşlığımız irəliləyir və yüksələn xətlə gedir.

Şübhəsiz ki, biz iqtisadi əməkdaşlığın inkişafı üçün tədbirlər görəcəyik. Sizin xahişinizlə neft məhsulları göndərilməsi haqqında öz öhdəliklərimizi yerinə yetirəcəyik, buna əmin ola bilərsiniz, heç bir problem olmayacaqdır.

Siz bilirsiniz ki, Azərbaycan neft, qaz hasilatında, neft məhsulları istehsalında böyük perspektivlərə malikdir. Bu mövzuda əvvəllər keçirilmiş söhbətlərimiz də qüvvədə qalır. Yəni Bakı–Supsa neft kəməri çəkməyimizin, - beynəlxalq konsorsium tərəfindən «Çıraq» platformasından çıxarılan neft indi bu kəmərlə faktiki olaraq ixrac edilir, - birlikdə xeyir-dua verdiyimiz və yaratdığımız Poti-İliçovsk bərə keçidinin, şübhəsiz, böyük perspektivi

olacaq və bunlar birgə həyata keçirdiyimiz böyük proqramın – TRASEKA-nın, İpək yolunun bərpasının bir hissəsidir.

1998-ci ilin sentyabrında keçirilmiş və sizin, Leonid Daniloviç, fəal iştirak etdiyiniz beynəlxalq konfransı böyük məmnunluqla xatırlayıram. Biz sizinlə bu məsələ barəsində sənədlər imzaladıq. Bu, Azərbaycan ilə Ukrayna arasında və Xəzəryanı ölkələr, yəni Mərkəzi Asiya ölkələri, Gürcüstan, Azərbaycan və Ukrayna arasında iqtisadi əməkdaşlığın daha da inkişaf etdirilməsinin strateji istiqamətlərindən biridir. Hesab edirəm ki, biz bu xətti, bu oxu möhkəmlətməli və inkişaf etdirməliyik, bunun nə dərəcədə səmərəli olacağını, mənə elə gəlir ki, gələcək göstərəcəkdir.

O ki qaldı siyasi sahədə əməkdaşlığa, bəli, 1997-ci ilin oktyabrında Strasburqda biz sizinlə GUÖAM-ın yaradılması haqqında təşəbbüs göstərdik. O vaxtlar bunun nə demək olduğu, niyə, necə yaradılması və sair bəzilərinə aydın deyildi. Bu, həmin ölkələrin dövlət başçılarının iradəsinin ifadəsi idi. İndi göründüyü kimi, əslində, qısa müddətdən sonra bizim bu təşkilat ölkələrimiz üçün çox böyük əhəmiyyət kəsb edir. Əlbəttə, hər şeydən öncə bu təşkilatın iqtisadi tərəfi. Lakin siyasi tərəfi də böyük əhəmiyyətə malikdir.

Təbii ki, Qərbi Avropa strukturlarına inteqrasiya sahəsində Ukraynanın böyük təcrübəsi var. Biz bu yolla gedirik və «Sülh naminə tərəfdaşlıq» proqramında əməkdaşlıqda da, Şimali Atlantika Assambleyasının proqramında əməkdaşlıqda da sizin təcrübənizə və dəstəyinizə ehtiyac duyuruq. Bu yolla getmiş ölkələrin təcrübəsindən, GUÖAM üçün bir model kimi, istifadə etmək barədə onların təklifini yaxşı təklif hesab edirəm. Biz bu təcrübədən nəyi götürə biləcəyimizi müəyyənləşdirmək üçün birgə işləməliyik.

Təkrar edirəm, biz bir çox siyasi məsələlərdə də sizin dəstəyinizə ehtiyac duyuruq. Mən şadam ki, bu gün siz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli barədə öz ölkənizin mövqeyini bir daha bəyan etdiniz. Bu gün bəyan edirəm ki, əlbəttə, Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı təcavüzü ilə əlaqədar çox itkilərimiz olmuşdur, neçə illərdir ərazimizin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır, oradan zorla qovulmuş bir milyondan artıq adam çox ağır şəraitdə, əksəriyyəti çadırlarda yaşayır. Buna baxmayaraq, belə bir şəraitdə biz məsələnin sülh yolu ilə nizama salınması üçün tədbirlər görürük. Bu baxımdan Ukrayna bizi həmişə fəal dəstəkləmişdir. Bizi dəstəkləməyiniz barədə bugünkü bəyanatınız da bizim üçün böyük əhəmiyyətə malikdir. Ümidvarıq ki, gələcəkdə Ukrayna Ermənistan–Azərbaycan münaqişəsinin dincliklə nizama salınması prosesinə öz töhfəsini verəcəkdir.

Biz Avropa Şurasına üzvlüyə namizədik və indi bu təşkilata daxil olmaq prosesi gedir. Siz bu yolu keçmisiniz, Ukrayna Avropa Şurasının üzvüdür. Biz bu yolla gedirik və burada da sizin dəstəyinizə ümid bəsləyirik.

Təkcə bunda deyil, həm də Azərbaycanın Avropa, Qərb Birliyinə inteqrasiyası ilə bağlı bütün digər işlərdə də biz sizin təcrübənizə də, dəstəyinizə də ehtiyac duyuruq. Ümidvaram ki, bütün bu məsələlərdə əməkdaşlığımız gələcəkdə daha səmərəli, daha bəhrəli olacaqdır.

Hazırlanmış sənədlər, xüsusən dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilə çox mühümdür. Bu, 1995-ci ildən sonra fəal əməkdaşlığımızın əslində yekunudur. Bu dövr ərzində biz bir sıra birgə sənədlər qəbul etmişik və beləliklə, addımbaaddım irəliləmişik. Elə bu gün imzalayacağımız sənədin də, şübhəsiz, gələcək əməkdaşlığımız üçün çox böyük əhəmiyyəti olacaqdır.

Digər sənəd – 2009-cu ilədək əməkdaşlığımız haqqında müqavilə də çox mühüm məzmuna malikdir və burada çox konkret tədbirlər nəzərdə tutur. Qalan bütün sənədlər də mühümdür. Buna görə də hesab edirəm ki, bu gün biz indiyədək görülmüş işlərdən razı qala bilərik və gələcəyə böyük nikbinliklə baxa bilərik, mən bunu nəzərdə tuturam ki, biz, demək olar, bütün məsələlərdə baxışların oxşarlığını görərək, əslində bütün məsələlərdə bir-birimizi başa düşürük.

## AZƏPBAYCAN–UKRAYNA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANAT

*Prezident sarayı*

*16 mart 2000-ci il*

**Azərbaycan prezidenti Heydər Əliyevin bəyanatı**

Hörmətli Leonid Daniloviç Kuçma!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bu gün Azərbaycanda əlamətdar gündür – Ukrayna prezidenti Leonid Daniloviç Kuçmanın Azərbaycana rəsmi səfəri başlanmışdır.

Xalqlarımız dövlət müstəqilliyi əldə etdikdən sonra Ukrayna ilə Azərbaycan arasındakı münasibətlər sıx dostluq, əməkdaşlıq, qarşılıqlı anlaşma və ən xoş münasibətlərlə səciyyələnir.

Son illər biz münasibətlərimizin inkişafında böyük yol keçmişik. Prezidentlərin, müxtəlif səviyyəli nümayəndə heyətlərinin çoxlu görüşləri olmuş, bu görüşlər zamanı bir sıra məsələlər müzakirə edilmiş, 60-dək dövlətlərarası, hökumətlərarası sənəd imzalanmışdır. Bu, ölkələrimiz arasında, dövlətlərimiz arasında daha uğurlu əməkdaşlığın təmin edilməsi üçün yaxşı normativ-hüquqi bazadır.

Ukrayna prezidenti çox hörmətli Leonid Daniloviçin indiki səfəri münasibətlərimizi daha yüksək səviyyəyə qaldırır. Mən onu nəzərdə tuturam ki, biz həm kifayət qədər sanballı inkişaf yolu keçmişik və həm də bu gün mühüm sənədlər, xüsusən dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilə imzaladıq.

Bu müqaviləyə böyük əhəmiyyət verirəm, çünki bu, sadəcə olaraq dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında sənəd deyildir, o həm də çox dərin məzmuna malikdir, beynəlxalq həyat, ölkələrimiz arasında münasibətlərin möhkəmləndirilməsi, dövlətlərimizdə müxtəlif islahatlar aparılması məsələlərində müstəqil Ukraynanın və müstəqil Azərbaycanın prinsipial xəttini bir daha və yenidən təsdiqləyir.

Mən şadam ki, Leonid Daniloviç dəvətimi qəbul etmiş və Azərbaycana səfərə gəlmişdir. Bu gün biz təkbətək kifayət qədər səmərəli söhbət etdik, bir çox məsələlər barəsində fikir mübadiləsi apardıq. Deyə bilərəm ki, müzakirə etdiyimiz bütün məsələlərdə biz baxışlarımızın uyğun gəldiyini gördük. Bu, şəxsən məni çox sevindirir, çünki biz Ukraynaya elə bir ölkə kimi baxırıq ki, onunla strateji xarakterli uzunmüddətli, uzunsürən və daimi əməkdaşlıq edəcəyik və etməliyik.

Bu gün nümayəndə heyətləri vasitəsilə apardığımız danışıqlar da, imzaladığımız sənədlər də indiyədək etdiyimiz əməkdaşlığın nəticəsidir. Demək istəyirəm ki, bizim müvafiq nazirliklər və baş idarələr, Azərbaycanın və Ukraynanın xarici işlər nazirlikləri, nazirlər kabinetləri bu görüşümüzün və imzaladığımız sənədlərin hazırlanması üçün böyük, səmərəli iş görmüşlər.

Mən söhbətlərdən də, fikir mübadiləsindən də, bu gün mühüm sənədlər imzalamağımızdan da çox məmnunam.

Leonid Daniloviç, Sizi bir daha salamlayır və sözü Sizə verirəm.

### Ukrayna prezidenti Leonid Kuçmanın bəyanatı

Cox hörmətli Heydər Əliyeviç!

Hörmətli xanımlar və cənablar, jurnalist korpusunun hörmətli nümayəndələri!

İlk öncə, qonaq kimi, Ukrayna nümayəndə heyətini mehribanlıqla və qonaqpərvərliklə qarşıladığına görə Azərbaycan tərəfinə ürəkdən və səmimiyyətlə təşəkkür etmək istəyirəm. Azərbaycan üçün belə böyük bayram günündə sizi əlavə zəhmətə saldığımıza görə bu gün müəyyən dərəcədə üzrxahlıq etdim. Lakin Heydər Əliyeviç əmin etdi ki, biz bu bayramı birlikdə qeyd edəcəyik.

**H e y d ə r Ə l i y e v:** Bax, bayram elə budur.

**L e o n i d K u ç m a:** Şadam ki, bu gün Heydər Əliyeviçlə - təkcə Ukraynada deyil, təkcə MDB-də deyil, həm də bütün dünyada məşhur olan dövlət xadimi və siyasi xadimlə uzun sürən dialoq aparmaq imkanım oldu. Artıq neçə illərdir ki, biz məhrəmanə münasibətlər saxlayırıq, aramızda həmişə konstruktiv dialoq olur.

Razılaşmaq istəyirəm ki, iki əsas sənədin – dostluq, əməkdaşlıq və tərəfdaşlıq haqqında müqavilənin, iqtisadi müqavilənin imzalanması bugünkü görüşümüzün, sözsüz, başlıca yekunu olmuşdur. Bu sənədlər bizə haqqında həmişə danışdığımız strateji tərəfdaşlığa həqiqətən nail olmaq üçün imkan verir. Bu, ən əvvəl Ukrayna tərəfinin, zənnimcə, həm də Azərbaycan tərəfinin xeyrinədir, eyni zamanda ümumi gələcəyimizə nikbinliklə baxmağımıza imkan yaradır.

Problemlərin siyasi bloku, həmişəki kimi, yenə də çox zəngin olmuşdur – bunlar Qafqazda sabitlik problemidir, Dağlıq Qarabağ, işğal edilmiş ərazi problemləridir, habelə qaçqınlar problemidir. Bu, nəinki iqtisadi, həm də ciddi siyasi problemdir. Mən Heydər Əliyeviçi əmin etdim ki, biz Azərbaycanın mövqeyinə tamamilə şərikik və bu problemlərin həllində hər hansı şəkildə çox yaxından iştirak etməyə hazırıq. Çünki həmin problemlər həll edilməsə, bu regionda heç vaxt sülh olmayacaqdır. Bu, heç də təkcə Azərbaycanın və Ermənistanın deyil, heç də təkcə qonşuların problemi deyildir. Düşünürəm ki, bu, qlobal problemdir və Birləşmiş Millətlər Təşkilatından, Təhlükəsizlik Şurasından tutmuş bütün beynəlxalq təşkilatlar onun həllinə qoşulmalıdırlar. Hesab edirəm ki, indi Ukraynanın Təhlükəsizlik Şurasının üzvü olmasını nəzərə alaraq, Ukrayna orada da öz sözünü deyəcəkdir.

Əlbəttə, biz ölkələrimizin MDB-də rolu və yerləri ilə, nəqliyyat dəhlizləri, ən əvvəl, Xəzər dənizi regionundan neft və qaz göndərilməsi ilə bağlı problemlərdən də yan keçmədik. Çoxdan planlaşdırılmış səfərimin Ukrayna üçün belə həyati əhəmiyyətli problem olan neft məhsulları göndərilməsi məsələsinin həllinin zəruriliyi ilə bir vaxtda düşməsinə görə müəyyən dərəcədə şad olduğumu söyləsəm, gərək ki, sirr açmış olmaram.

Mən Gürcüstanda dedim, işə bax ki, Ukraynanın həyatı üçün məsul anlarda, - keçən il məhsul yığımı zamanı, bu il əkin kampaniyası zamanı, - ona neft məhsullarının göndərilməsini dayandırmağı sanki kimsə qabaqcadan planlaşdırır. Buna görə də Heydər Əliyeviçə səmimi təşəkkürümü bildirmək istəyirəm ki, o, ötən il də, bu gün də Ukraynaya kömək etmiş və neft məhsullarının ilk hissəsi artıq göndərilmişdir.

Odur ki, biz sabahkı günə nikbinliklə baxırıq, hərçənd Ukraynada da, Azərbaycanda da problemlər çoxdur. Lakin əgər biz qarşılıqlı surətdə məqbul, faydalı qərarları birlikdə axtarmağa çalışsaq, əlbəttə, bu problemlər təklikdə olduğundan daha asan həll ediləcəkdir.

Bir sözlə, Heydər Əliyeviç, bir daha ürəkdən sağ olun deyirəm ki, strateji tərəfdaşımız – Azərbaycan ölkəsi var, böyük dostum – prezident Heydər Əliyeviç var, mən onunla gecə də, gündüz də ünsiyyətdə ola bilərəm və o, Ukrayna üçün ağır anlarda onun köməyinə gəlməkdən heç vaxt imtina etməyəcəkdir. Sağ olun.

* * *

**S u a l (*«Azadlıq» radiosu, «Obşaya qazeta»*): Sualım hər iki prezidentədir. Siz Şimali Qafqazdakı vəziyyəti müzakirə etdinizmi və əgər müzakirə etdinizsə, hazırda Çeçenistanda baş verən hadisələr barəsində prinsipial mövqeyiniz necədir? Siz Çeçenistan probleminin güc metodları əsasında həlli ilə razısınızmı? Siz Rusiyada Azərbaycanın və bəzən hətta Ukraynanın çeçen separatçılarını dəstəkləməkdə və onlara kömək etməkdə təqsirləndirilməsinə necə baxırsınız?**

**H e y d ə r Ə l i y e v:** Bayaq dediyim kimi, biz müasir beynəlxalq həyatın, demək olar, bütün məsələlərini müzakirə etdik. Şübhəsiz ki, biz Şimali Qafqazda, ümumən Qafqazda, o cümlədən Çeçenistanda vəziyyət barəsində də fikir mübadiləsi apardıq.

Əlbəttə, mən və Leonid Daniloviç böyük təəssüflə dedik ki, Çeçenistanda artıq neçə aydır müharibə gedir, özü də bu, hərbi əməliyyatların, necə deyərlər, ikinci dövrəsidir. Şübhəsiz ki, günahsız insanların həlak olması bizi narahat edir. Bununla yanaşı, biz terrorizm, separatizm və ekstremizmlə barışa bilmərik.

O ki qaldı Azərbaycanın mövqeyinə, ölkəmiz artıq 12 ildir, bəlkə bundan da çoxdur ki, separatizmdən əziyyət çəkir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi keçmiş Sovet İttifaqının ərazisindəki bütün

münaqişələrdən əvvəl, Dağlıq Qarabağdakı və Ermənistandakı bir qrup adamın məhz separatçı hərəkətləri nəticəsində yaranmışdır. Bu separatizm Ermənistanla Azərbaycan arasında müharibəyə gətirib çıxarmışdır. Ona görə də biz separatizmi dəstəkləyə bilmərik.

Biz hər hansı ölkənin ərazi bütövlüyünün pozulmasının əleyhinəyik. Hər hansı ölkənin ərazi bütövlüyünün pozulmazlığı haqqında beynəlxalq hüquqi prinsip, təbii ki, hamıya aiddir. Amma nədənsə belə hesab etmişlər ki, bu, Azərbaycan barəsində mümkündür. Azərbaycanın ərazi bütövlüyü artıq çoxdan, səkkiz ildən də əvvəl pozulmuşdur. Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Lakin bu gün ürək ağrısı ilə deyirəm ki, MDB-yə daxil olan ölkələr, elə Rusiyanın özü də və ya başqa Avropa ölkələri erməni separatizmini, Azərbaycanın ərazi bütövlüyünün pozulmasını nədənsə pisləmir, onlara qarşı sanksiyalar tətbiq etmirlər. Əksinə, bir sıra hallarda biz beynəlxalq sənədləri imzaladıqda və Ermənistan tərəfi bu və ya digər ölkənin ərazi bütövlüyü haqqında tezislə razılaşmadıqda, onlar konsensusdan istifadə edərək buna nail olurlar.

Buna görə də, təəssüf ki, dünyada, o cümlədən keçmiş Sovetlər İttifaqı məkanında mövcud olan ikili standart hamı üçün böyük faciədir. Lakin bu faciəyə bəziləri bir qədər əvvəl, digərləri bir qədər sonra məruz qalırlar. Əgər erməni separatçıları Dağlıq Qarabağın Azərbaycandan qoparılmasına çalışanda Sovet İttifaqı tərəfindən, sonra isə Rusiya, digər MDB ölkələri tərəfindən təsirli tədbirlər görülsəydi, onda sonralar Çeçenistanda, Abxaziyada, Dnestryanı bölgədə, keçmiş Sovetlər İttifaqının başqa regionlarında meydana gəlmiş münaqişələr bəlkə də olmazdı.

Bir halda separatizm bağışlanır, ölkənin ərazi bütövlüyünün pozulması görməməzliyə vurulur, digər halda isə separatizmə qarşı müharibə aparılır və o, ölkənin ərazi bütövlüyü uğrunda aparılır. Bununla mən əsla ölkənin ərazi bütövlüyünün qorunmasına qarşı, separatizm əleyhinə mübarizə aparılmasına qarşı çıxış etmək istəmirəm. Biz separatizmin əleyhinəyik, hər hansı ölkənin ərazi bütövlüyünün pozulmasının əleyhinəyik, beynəlxalq hüququn prinsiplərinə əməl olunmasına tərəfdarıq. Bu, hər bir dövlətin sərhədlərinin toxunulmazlığı, onun ərazisinin bütövlüyü deməkdir.

Görürsünüzmü, bu baxımdan bizdə necə də təzadlı hisslər var. Mən bu baxışları və bu əhval-ruhiyyəni əvvəllər də bildirmişdim, bu gün Leonid Daniloviç Kuçmaya da bildirdim.

**L e o n i d  K u ç m a:** Bu problemin Heydər Əliyeviçin şərhində qoyuluşu ilə razılaşmaya bilmərəm. Həqiqətən, bu gün dünyada ikili standartlar siyasəti mövcuddur. Əlbəttə, bu, Heydər Əliyeviçin dediyi separatizmi heç vaxt dayandırmayacaqdır və onda bu, əsrin ən başlıca xəstəliyinə çevriləcəkdir. Bu isə indi dünyada hamının pislədiyi terrorizmin törətdiyi xəstəlikdir, lakin biz ona qarşı konkret ciddi tədbirlər görülməsinin şahidi deyilik.

Əlbəttə, bu gün hamı və həmişə ərazi bütövlüyü prinsipini əsas tutmalıdır, xüsusən də ona görə ki, Birləşmiş Millətlər Təşkilatı kimi beynəlxalq təsisatlar var. Düşünürəm ki, bu, pozulmaz qayda olmalıdır. Əgər belə olmasa, onda biz bir-birimizə suallar verəcək, bir-birimizi qınayacaq və bu vəziyyətdən çıxış yolunu heç zaman tapmayacağıq.

Ona görə də biz Çeçenistan problemini ancaq Rusiya Federasiyasının ərazi bütövlüyü kontekstində nəzərdən keçirə bilərik. Çünki bu məsələdə zəncirvari reaksiyanın nə demək olduğunu, o cümlədən də Rusiya üçün nə demək olduğunu gözəl başa düşürük.

Məgər Moskva hadisələri, digər hadisələr Dağıstandan–Rusiya ərazisindən başlanmışdır? Hansı normal adam bununla razılaşa bilər və ya bunu qəbul edə bilər? Bu, bütün dünyada çox sürətlə yayılan xəstəlikdir.

Lakin bu zaman dinc əhalinin, əsasən qocaların, uşaqların əzab-əziyyət çəkməsinə də, əlbəttə, heç kim haqq qazandıra bilməz. Buna görə də biz ən əvvəl istəyirik ki, Çeçenistan problemi mümkün qədər tezliklə həll edilsin, Ceçenistanda çoxdan gözlənilən sülh, nəhayət, bərqərar olsun.

**S u a l (Azərbaycan Dövlət Televiziyası): Mənim sualım hörmətli Leonid Daniloviçədir. Səkkiz milyonluq Azərbaycan xalqı Sizi Heydər Əliyeviçin səmimi dostu kimi tanıyır. Bilmək istərdik, Sizi hansı səciyyəvi cəhətlər və xüsusiyyətlər yaxınlaşdırır?**

**L e o n i d  K u ç m a:** Bizim aramızda bir-birimizə son dərəcə böyük etimad var. Heydər Əliyeviç, bağışlayın, mən öz fikrimi deyirəm.

**H e y d ə r  Ə l i y e v:** Doğrudur.

**L e o n i d  K u ç m a:** Siyasətdə qarşılıqlı etimad isə çox böyük şeydir. Hesab edirəm ki, ölkələr və xalqlar arasında münasibətlər bu ölkələrin liderlərinin bir-birini nə dərəcədə başa düşməsindən çox asılıdır. Buna bir çox misallar, hətta müharibədən sonrakı tarixdən misallar gətirmək olar ki, gərgin dövlətlərarası münasibətlər sonralar dostluq, qarşılıqlı yardım və tərəfdaşlıq haqqında müqavilələrə çevrilmişdir. Helmut Kolun vaxtilə mənə çəkdiyi bir misalı deməyə bilmərəm. O demişdi ki, İkinci dünya müharibəsindən sonra Almaniya ilə Fransa arasında münasibətlər çox gərgin idi. Helmut Kolun söylədiyinə görə, Almaniya kansleri seçildikdən sonra o və Fransa prezidenti Fransua Mitteran hər ay Fransa və ya Almaniyada, yaxud da üçüncü ölkənin ərazisində görüşmək barədə razılığa gəlmişdilər. Hətta lüzum olmadıqda da bu görüşləri keçirirdilər və bunun

sayəsində də Almaniyanın və Fransanın yüksək siyasi dairələri, bu ölkələrin sakinləri öz dövlətlərinin gələcəyinə tamam başqa cür baxmağa başlamışdılar.

Burada da belədir. Əlbəttə, mən Heydər Əliyeviçin Ukrayna barəsində gördüyü işləri nəzərdə tuturam. Onu həmişə öz sözünün üstündə duran adam kimi Ukraynada yaxşı tanıyırlar. Bu isə mənə də inam verir ki, münasibətlərimiz üzərində səma həmişə açıq olacaqdır. Son dərəcə böyük təcrübəsi olan Heydər Əliyeviçin Azərbaycanın tarixinin ən ağır dövründə respublikaya başçılıq etməsini, bütün hadisələrin dinc məcrada inkişafına imkan verməsini Ukraynada biz, bir prezident kimi mən də görməyə bilməzdik. Buna görə də şadam ki, Heydər Əliyeviç mənim mehriban dostumdur və mən bu dostluğu həmişə əziz tutacağam.

**H e y d ə r Ə l i y e v:** Sağ olun. Belə başa düşdüm ki, bu sual mənə verilməmişdi, buna baxmayaraq öz fikrimi söyləməyə bilmərəm.

Əvvəla, Leonid Daniloviç, şübhə etməyin ki, dediklərinizin hamısı tamamilə mənim fikirlərimdir və mən dostluğumuzun, münasibətlərimizin xarakteri baxımından onları təsdiqləyirəm.

Öz tərəfimdən deyə bilərəm ki, axı dostluq ikitərəfli prosesdir. Burada həlledici amillər olduqca çoxdur. Ölkələrin liderləri üçün, siyasi xadimlər üçün ən başlıcası onların siyasi baxışlarıdır, siyasətidir. Müasir mərhələdə prezidentlər Kuçmanın və Əliyevin siyasi baxışlarının üst-üstə düşməsi bu illər ərzində aramızda yaranmış dostluğun və əməkdaşlığın məhz əsasını təşkil edir.

Leonid Daniloviçin Ukraynada apardığı daxili və xarici siyasət bizim həyata keçirdiyimiz siyasətə tam uyğundur. Yəni, biz bir çox məsələlərdə eyni mövqelərdə dururuq.

Bundan əlavə, şəxsi münasibətlərin də əhəmiyyəti var. Mən Leonid Daniloviçi çoxdan tanıyıram. O, Ukrayna prezidenti seçildiyi vaxtdan bəri isə aramızda əlaqələr güclənmiş, biz bir-birimizi daha yaxşı tanımışıq.

Mənə elə gəlir ki, bizim şəxsi xarakterlərimizdə oxşarlıq çoxdur. Leonid Kuçma doğru deyir ki, ölkə liderləri arasında sağlam əsasa malik səmimi dostluq xalqlar və ölkələr arasında münasibətlərin inkişafı üçün çox böyük əhəmiyyət kəsb edir.

Mən şadam ki, mənimlə Leonid Daniloviç Kuçma arasında çox sağlam, yaxşı, insani dostluq yaranmışdır. Bu dostluq mənə, o cümlədən bir çox məsələlərin həllində ümumi işimizə kömək edir. Əgər bu dostluq olmasaydı, tez-tez ünsiyyətlərimiz də olmazdı. Yadımdadır, mən Leonid Daniloviçin 60 illiyini onunla birlikdə qeyd etmək üçün xüsusi olaraq Yaltaya getmişdim. Mən də, o da çox şad olduq.

Yaxud da, məsələn, Ukraynada prezident seçkilərini biz Azərbaycanda böyük diqqətlə izləyirdik və Leonid Daniloviçin seçilməsini istəyirdik. Mən Kiyevə getməyə hazırlaşırdım, lakin mümkün olmadı. Əvəzində mən Ukrayna televiziyasına çox geniş müsahibə verdim və Ukraynanın lideri kimi, Ukraynanın qarşısında duran çətin və mürəkkəb məsələləri bu gün, bu mürəkkəb şəraitdə həll etməyə qadir olan adam kimi, Leonid Kuçmaya Azərbaycan xalqının münasibətini və öz münasibətimi Ukrayna ictimaiyyətinin nəzərinə çatdırdım. Bizim ümidimiz doğru çıxdı. Leonid Kuçma inamlı qələbə qazandı və təbii, mən elə şad idim ki, Leonid Kuçmanın andiçmə mərasimində iştirak etmək üçün Kiyevə getdim. Yeri gəlmişkən, mərasim çox gözəl şəraitdə keçdi.

Bizim şəxsi münasibətlərimizlə bağlı bir çox başqa faktları da göstərmək olar. Hesab edirəm ki, bu şəxsi münasibətlər, bizim şəxsi dostluğumuz Ukrayna ilə Azərbaycan arasında dostluq və əməkdaşlığın gələcək inkişafının əsasıdır.

**L e o n i d K u ç m a:** Onda gərək mən izahat verim. Mən Sizin seçkilərdən əvvəl Bakıya gəlməmişdim, çünki Sizin alternativinizin olmayacağına şübhə etmirdim.

**H e y d ə r Ə l i y e v:** Siz borclu qalırsınız. 2003-cü ildə seçkilər keçiriləcək...

**L e o n i d K u ç m a:** Yaxşı, gələrəm.

**H e y d ə r Ə l i y e v :** Əgər ehtiyac olsa.

**S u a l («*İnterfaks», Ukrayna*): Heydər Əliyeviç, Gürcüstan prezidenti Eduard Şevardnadze dünən Tbilisidə keçirilən mətbuat konfransında bildirmişdir ki, Gürcüstan 2005-ci ildə NATO-nun qapısını döymək niyyətindədir. Deyin, Azərbaycan NATO-nun qapısını döymək niyyətindədirmi? Belədirsə, onda nə vaxt?**

**İkinci sual Leonid Daniloviçədir. Leonid Daniloviç, Ukrayna öz borclarının restrukturizasiyasına və BVF tərəfindən geniş maliyyələşdirilməyə nail ola biləcəkmi?**

**L e o n i d K u ç m a:** Dünən çox yaxşı informasiya dərc edilmişdir ki, kreditorların 89 faizi Ukrayna tərəfinin təklif etdiyi şərtlərlə borcların restrukturizasiyasına razıdır. Odur ki, bu gün biz nikbin əhval-ruhiyyədəyik və demək olar, şübhə etmirik ki, Ukraynanın borcları hökmən restrukturizasiya ediləcəkdir.

Geniş maliyyələşdirilmə proqramına gəldikdə isə, yaxşı başa düşürsünüz ki, hazırda Beynəlxalq Valyuta Fondu üçün öncül məsələ kadr məsələsidir. Bu məsələ nə vaxt həll olunsa, – bu istiqamətdə bir neçə addım atılmışdır, belə ki, Avropa Birliyi və Amerika Birləşmiş Ştatları Avropa Yenidənqurma və İnkişaf Bankı prezidentinin namizədliyini dəstəkləmişlər, Yaponiya öz namizədini geri götürmüşdür, - yəqin, yaxın vaxtlarda BVF-in sədri seçiləcəkdir və onda Ukraynanın geniş maliyyələşdirilməsi proqramı üzrə dialoqu bərpa etmək mümkün olacaqdır.

**H e y d ə r Ə l i y e v:** Məndən NATO haqqında soruşurdunuz. Belə dəqiq proqnoz verdiyinə görə dostum, Gürcüstan prezidenti Eduard Şevardnadzenin bəyanatını məmnunluqla qəbul edirəm. Görünür, bunun üçün onun əsası var.

**L e o n i d K u ç m a:** Həmin vaxtadək onun prezidentliyinin ikinci müddəti qurtarır.

**H e y d ə r Ə l i y e v:** Ancaq, görünür, onun mülahizələri, hansısa proqramları var. Çünki NATO-ya daxil olmaq birtərəfli proses deyildir. NATO-ya daxil olmaq üçün gərək NATO da bu və ya digər ölkəni qəbul etmək istəsin. Buna belə sadə və bəsit şəkildə yanaşmaq olmaz. Mən Azərbaycanı nəzərdə tuturam.

Əlbəttə, biz «Sülh naminə tərəfdaşlıq» proqramı çərçivəsində əməkdaşlığımızı çox yüksək qiymətləndiririk və bu baxımdan Şimali Atlantika İttifaqında, NATO-nun həyata keçirdiyi bir çox digər tədbirlərdə çoxlu konkret addımlar atmışıq. Yeri gəlmişkən, bu gün danışıqlarımız zamanı Ukraynanın müdafiə naziri Ukrayna ilə NATO-nun bəzi birgə tədbirlər planlarından söhbət açdı və Azərbaycanı da bunlarda iştirak etməyə dəvət etdi. Hesab edirəm ki, biz bunu hökmən edəcəyik.

Yəni Azərbaycan ilə NATO arasında münasibətlərin inkişaf etməsi prosesi gedir. Hesab edirəm ki, bu proses normal gedir və bu düzgündür. Biz bu yolla gedəcəyik. Əgər bu, kiminsə xoşuna gəlmirsə, onun öz işidir. Lakin bundan guya xoşu gəlməyən adamların özləri deyirlər ki, NATO-ya daxil olmaq istəyirlər. Belə çıxır ki, hamı NATO-ya daxil olmaq istəyir. Bununla yanaşı, kimsə NATO-ya daxil olmaq istədiyini bəyan etdikdə, dərhal deyirlər ki, o, nə üçün bunu bəyan edir? Belə bir vəziyyətdə biz başqalarından geri qala bilmərik. Bax, belə.

**L e o n i d Ku ç m a:** Sox aydındır.

**S u a l («*Hezavisimaya qazeta*»): Leonid Daniloviç, neft sahəsində əməkdaşlıqda nə kimi irəliləyiş var?**

**L e o n i d K u ç m a:** Bu qəzet kimdən müstəqildir? Kimin qəzetidir? Hə, bu, «Nezavisimaya qazeta»dır. O, bütün MDB liderlərinin «sevimli» qəzetidir. Biz tez-tez oradan elə «komplimentlər» alırıq ki, düşünürsən, o, həqiqətənmi müstəf qildir?

**M ü x b i r: Qəzet o dərəcədə müstəqildir ki, artıq indi ondan heç nə asılı deyildir.**

**L e o n i d K u ç m a:** Mən Tbilisidə dedim və bu gün də təkrar etmək istəyirəm ki, biz yalnız bir ölkəyə, Rusiyaya ümid ola bilmərik, biz Ukraynaya enerji daşıyıcıları göndərilməsinin alternativ mənbələrini axtarırıq və axtaracağıq. Onlardan biri də Xəzər dənizi regionudur, Azərbaycandır. Odur ki, biz həmişə görüşəndə, şübhəsiz, bu mövzuda danışıqlar aparırıq. Planlarımıza, - onlar artıq təkcə Ukraynanın planları deyil, bizi başqa ölkələr də dəstəkləyir, - terminal tikintisi və Odessa-Brodı neft kəməri çəkilməsi daxildir. Biz bu kəmərin təxminən 700 kilometrindən 500 kilometrini çəkmişik. Gələn il boru kəmərini də, terminalı da istifadəyə verəcəyimizə Ukraynada şübhə edən yoxdur. Düşünürəm ki, bu cür imkan yarandıqdan sonra beynəlxalq şirkətlər də, neft çıxaran ölkələr də Ukraynanın təklifinə tamamilə və ya bir qədər başqa cür baxacaqlar.

Dekabr ayından Rusiyadan bir barrel belə neftin gəlmədiyi də «Nezavisimaya qazeta» üçün sirr deyildir. Həm də, ən təəccüblüsü odur ki, Ukrayna üçün yox, Rusiya üçün. Çünki Odessa neft emalı zavodu «LUKoyl»un mülkiyyətidir. Özəlləşdirmə zamanı «LUKoyl» bu zavoda müəyyən miqdarda neft göndərmək barədə öz üzərinə öhdəlik götürmüşdür, belə ki, biz istehsalın dayanması və adamların qovulması ilə nəticələnəcək özəlləşdirmə ilə razı deyilik. Lakin «LUKoyl» dekabr ayından bəri bir barrel də olsun neft göndərə bilmir, çünki ona imkan vermirlər.

Kremençuk neft emalı zavodu Tatarıstanla birgə müəssisədir. Tatarıstan neftinin tərkibində çoxlu miqdarda kükürd var və Kremençuk zavodu məxsusən Tatarıstan nefti üçün tikilmişdir. Bu nefti bilərəkdən Ukraynaya, Tatarıstan-Ukrayna zavoduna buraxmırlar. Onda deyin, Rusiya öz hərəkətləri ilə bizi alternativ mənbələr axtarmağa vadar etməyəcəkmi? Nəinki edəcək, o, bunu uğurla edir.

Odur ki, bu gün mən Heydər Əliyeviçə təşəkkürümü bildirdim ki, Azərbaycan çətin məqamda Ukraynaya kömək əlini uzadır. Rusiya isə sanki heç görmür. Özü də, gömrük haqqı yalnız Ukrayna üçün 20 dollaradək artırılmışdır. Baxmayaraq ki, bu gün neftin qiyməti 2,5 dəfə artmışdır.

Ona görə də mən bu yaxınlarda bəyan etmişəm və bu gün də təkrar edə bilərəm ki, Rusiya Ukraynaya nə qədər çox təzyiq göstərsə, biz ondan bir o qədər uzaqlaşacağıq. Əgər bu, Rusiyanın maraqlarına uyğundursa, qoy olsun. Lakin mən hesab edirəm ki, yox, bu, nə Ukraynanın, nə də Rusiyanın maraqlarına uyğun deyildir. Çünki Ukrayna Rusiya ilə strateji tərəfdaşlığa həvəs göstərir. Strateji tərəfdaşlıq isə bərabər hüquqlu, qarşılıqlı surətdə faydalı, xalqların maraqlarına cavab verən tərəfdaşlıq deməkdir.

Biz tez-tez qardaşıq və sairə kimi gəlişigözəl sözlər deməyi xoşlayırıq. Lakin hansısa problemlərin, ilk növbədə iqtisadi problemlərin həllinə gələndə isə, yalnız bir tərəfin maraqları nəzərə alınır. Bu tərəfdaşlıqdırmı? Yox.

Yaxud, 1994-cü ildə biz azad ticarət haqqında müqavilə imzaladıq. Biz onu dərhal parlamentdə ratifikasiya etdik, Rusiya isə indiyə qədər onu öz parlamentinə verməyibdir. Orada 63 məhsulun adının çıxarıldığı göstərilir və bu gün o, əlavə olaraq nəzərdən keçirilərkən Rusiya bizə daha 300-ə qədərini çıxarmağı təklif edir. Özü də, orada Ukraynadan Rusiyaya göndərilən bir sıra strateji mallara qadağa var. Bunun arxasında kim dayanır? Qoy sizin müstəqil qəzetiniz desin.

**S u a l** (*«Kommersant» qəzeti*)**: Leonid Daniloviç, Siz Ukrayna ilə Rusiya arasında qarşılıqlı münasibətlərin, o cümlədən ticarət sahəsində münasibətlərin bugünkü vəziyyətindən danışdınız. Siz Moskvanın bu cür mövqeyini nə ilə izah edərdiniz? Sizin fikrinizcə, Ukrayna-Rusiya münasibətlərinin, o cümlədən enerji ehtiyatları göndərilməsi məsələsində inkişaf perspektivləri necədir?**

**L e o n i d K u ç m a:** Belə bir atalar sözü var – üyüdülüb un olar. Ona görə də hesab edirəm ki, bunlar müvəqqəti, konyunktur çətinliklərdir. Onlar mütləq aradan qaldırılacaqdır. Axı tale belə gətirib ki, biz qonşuyuq. Qonşular isə həmişə sülh və dostluq şəraitində yaşamalı, bir-birini başa düşməli, bir-birinə hörmət və kömək etməlidirlər. Tarix göstərir ki, təzyiq siyasəti yaxşı nəticə vermir. Odur ki, iqtisadi müharibələr həmişə sülhlə bitir. Biz buna ümid edirik.

## AZƏRBAYCAN PREZİDENTİ ADINDAN UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ ZİYAFƏTDƏ NİTQ

*Bakı Əyləncə Mərkəzi*

*16 mart 2000-ci il*

Cənab prezident, hörmətli Leonid Daniloviç Kuçma!

Hörmətli qonaqlar, xanımlar və cənablar, dostlar!

Bu gün Azərbaycanda milli bayram – Qurban bayramıdır. Bu, müqəddəs və fərəhli bayramdır. Bu bayram günündə biz yaxın dostlarımızı – Ukrayna prezidenti Leonid Daniloviç Kuçmanı və onun nümayəndə heyətini qəbul edirik. Buna görə də ilk öncə istərdim ki, sizi bayram münasibətilə təbrik edim. Azərbaycanın bütün vətəndaşlarını Qurban bayramı münasibətilə təbrik etmək, hamıya sülh, əmin-amanlıq, firavanlıq, xoşbəxtlik, həyatda və işdə uğurlar arzulamaq istəyirəm.

Ukrayna prezidenti Leonid Daniloviç Kuçmanın Azərbaycana rəsmi səfəri Azərbaycan–Ukrayna münasibətləri salnaməsinin mühüm səhifəsidir.

Ukrayna və Azərbaycan xalqları arasında dostluq əlaqələrinin zəngin, qədim tarixi var. Biz Ukrayna və Azərbaycan xalqlarının bütün ən yaxşı nümayəndələrinə minnətdarlıq hissi ilə ehtiramımızı bildiririk. Onlar bu dostluq münasibətlərini onilliklər, yüzilliklər ərzində yaratmış, möhkəmlətmiş və inkişaf etdirmişlər.

Xalqlarımız arasında indiki münasibətlər keçmişlərdəki münasibətlərlə müqayisədə keyfiyyətcə başqa xarakterə malikdir. Ukrayna və Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra ölkələrimiz arasında dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq münasibətləri təşəkkül tapmışdır. Biz buna doğru lap əvvəldən, müstəqil dövlətlər olduğumuz ilk günlərdən irəliləmişik.

Tarixi baxımdan o qədər də çox vaxt ötməyibdir. Lakin biz böyük yol keçmiş və çox şeyə nail olmuşuq. Başlıcası budur ki, biz dostuq, dostluq münasibətləri saxlayırıq, həyatın bütün sahələrində Ukrayna ilə Azərbaycan arasında sıx əməkdaşlığı təmin edirik və siyasi, iqtisadi və sosial sahələrdə strateji tərəfdaşlıq səviyyəsinə çatmışıq.

Ukrayna böyük Avropa ölkəsidir, müstəqil dövlətdir, beynəlxalq həyatda, Avropada və bütün dünyada sanballı nüfuza malikdir. Biz Ukrayna ilə dostluğu və əməkdaşlığı özümüz üçün çox mühüm amil hesab edirik. Bu, ona əsaslanır ki, Ukrayna da, Azərbaycan da xalqlarımızın azad, müstəqil olmasını, öz taleyimizi özümüzün müəyyən etməyimizi, öz məsələlərimizi müstəqil həll etməyimizi və beynəlxalq birliyin tamhüquqlu üzvü olmağımızı yüksək qiymətləndirirlər.

Ukrayna böyük iqtisadi potensiala malik ölkədir, onun istedadlı xalqı, böyük elmi, zəngin mədəniyyəti var. Bütün bunlar indi, Ukraynanın müstəqil dövlət olduğu və əsl müstəqil siyasət apardığı, demokratiya, bazar iqtisadiyyatı, Avropa strukturlarına inteqrasiya yolu ilə getdiyi dövrdə daha dolğun şəkildə üzə çıxır.

Eyni hallar Azərbaycanda da baş verir. Ölkələrimiz arasında təşəkkül tapmış dostluğun, əməkdaşlığın və strateji tərəfdaşlığın başlıca əsası məhz budur. Zənnimcə, bu, Ukrayna üçün də, Azərbaycan üçün də böyük sərvətdir. Azərbaycanda biz bu münasibətləri, dostluğu yüksək qiymətləndiririk və əlbəttə, bu dəyərlərə həmişə sadiq qalacağıq.

Hörmətli Leonid Daniloviç Kuçmanın 1995-ci ildə Azərbaycana ilk rəsmi səfərindən sonra münasibətlərimiz xüsusilə intensiv inkişaf etməyə başlamışdır. O vaxtdan beş il ötmüşdür. Lakin, sözün düzü, bu görüşə hazırlaşarkən, bu dövrün salnaməsinin səhifələrini, necə deyərlər, vərəqləyərkən özüm də təəccübləndim ki, bir gör, biz nə qədər işlər görmüşük, nə qədər nailiyyətlər qazanmışıq. Onu nəzərdə tuturam ki, ölkələrimiz arasında 60-dan çox dövlətlərarası, hökumətlərarası sənəd imzalanmışdır, onlar əməkdaşlığımızın müqavilə-hüquqi əsasını müəyyənləşdirmişdir. Mən bu müddət ərzində dostum Leonid Daniloviç Kuçma ilə mənim aramda olmuş çoxsaylı görüşləri nəzərdə tuturam. Mən Ukrayna və Azərbaycan hökumət başçılarının, Ukrayna və Azərbaycanın müxtəlif nümayəndə heyətlərinin görüşlərini, təkcə iqtisadiyyat problemləri ilə deyil, başqa problemlərlə də bağlı daimi əlaqələri nəzərdə tuturam.

Hesab edirəm ki, ötən beş ildə böyük yol keçilmişdir, biz çox şeyə nail olmuşuq. Bu gün, Leonid Daniloviç Kuçmanın Azərbaycana rəsmi səfərinin başlandığı gün biz daha da irəlilədik. Biz təkbətək çox səmərəli söhbət etdik, bir çox məsələlər barəsində fikir mübadiləsi apardıq, dövlətlərarası münasibətlərin bir çox məsələləri, dünyada gedən proseslər barəsində baxışlarımızın tam oxşarlığını, anlayışımızın yekdilliyini bir daha təsdiqlədik.

Mən bu söhbətdən çox məmnunam və Leonid Daniloviç Kuçma ilə aramızdakı dostluq münasibətlərini, səmimi münasibətləri çox yüksək qiymətləndirirəm.

Nümayəndə heyətlərimiz də səmərəli iş apardılar. Başlıca iş səfərin hazırlanması dövründə görüldü, bu gün isə böyük fikir mübadiləsi oldu. Biz mühüm sənədlər imzaladıq, başlıcası isə, münasibətlərimizin gələcək inkişaf perspektivlərini müəyyənləşdirən sənəd – Ukrayna ilə Azərbaycan arasında dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq haqqında müqavilə imzaladıq.

İqtisadiyyat sahəsində əməkdaşlığımız üçün imkanlar olduqca böyükdür. Ümumi sərhədlərimiz olmasa da, biz yaxın qonşularıq, çox oxşar coğrafi və coğrafi-strateji mövqeyimiz var. Bundan əlavə, biz böyük İpək yolunun magistralı üstündə yerləşirik. Buna görə də əməkdaşlığımızın mühüm sahəsi məhz bundan ibarətdir ki, Ukrayna da, Azərbaycan da TRASEKA proqramının həyata keçirilməsinə, böyük İpək yolunun bərpası proqramına böyük əhəmiyyət verirlər.

1998-ci ilin sentyabrında Bakıda keçirilmiş və işində Leonid Daniloviç Kuçmanın fəal iştirak etdiyi beynəlxalq konfrans TRASEKA proqramını həyata keçirməyin və böyük İpək yolunu bərpa etməyin perspektivlərini və konkret yollarını müəyyənləşdirdi. Bu, bizim aramızda əməkdaşlıq üçün böyük imkanlar açır. Ölkələrimiz arasında əməkdaşlıq prosesində Azərbaycanın gələcək inkişafı üçün əhəmiyyətli sahələr Ukraynada olduqca çoxdur.

Xəzər hövzəsi, Xəzər dənizinin Azərbaycan sektorundakı neft və qaz sərvətləri, Transqafqaz magistralı, Bakı-Supsa, Bakı-Ceyhan neft kəmərləri, gələcəkdə isə neft məhsullarının indi çəkilməkdə olan Odessa–Brodı boru kəməri ilə nəql olunmaq üçün Ukraynaya göndərilməsi imkanları Ukraynanı, əlbəttə, cəlb edir.

Ola bilsin ki, bu, konkret məsələdir, lakin indi bu məsələlər çoxdur. Odur ki, biz malik olduğumuz imkanlardan istifadə etmək üçün konkret tədbirlər görməliyik. Bu isə əməkdaşlığımızı həm inkişaf etdirəcək, həm də möhkəmlədəcəkdir.

GUÖAM təşkilatında iştirakımız əməkdaşlığımızın mühüm amilidir. Bu təşkilatı ölkələrimiz – Ukrayna, Azərbaycan, Gürcüstan, Moldova 1997-ci ilin oktyabrında Strasburqda yaratmışlar. Sonra Özbəkistan da bizə qoşulmuşdur.

Qarşımızda ölkələrimizin milli mənafeləri ilə bağlı çox mühüm və nəcib məqsədlər durur. Bu təşkilat əsla hər hansı digər ölkələrə qarşı yönəldilməyibdir, o, ancaq öz coğrafi mövqeyi, iqtisadi və digər imkanları baxımından əməkdaşlıq spesifikasına malik olan ölkələrimiz arasında daha sıx əməkdaşlığı təmin etməkdən ötrü yaradılmış və mövcuddur. Bu gün biz belə əməkdaşlığa sadiqliyimizi bir daha təsdiqlədik və əlbəttə, bundan ötrü çox iş görəcəyik.

Ukrayna və Azərbaycan öz dövlət müstəqilliyinin möhkəmləndirilməsi və inkişafı ilə, müxtəlif siyasi, iqtisadi və sosial islahatların həyata keçirilməsi ilə bağlı eyni problemlərlə, eyni proseslərlə üzləşirlər. Əlbəttə, bu yolda çətinliklərimiz çoxdur. Lakin biz əminik ki, bu çətinlikləri dəf etmək mümkündür.

Ukrayna islahatların aparılmasında öndədir, Avropa strukturlarına inteqrasiya üçün çox addımlar atmışdır. Biz Ukraynanın təcrübəsindən istifadə edirik, bu işlərdə onun dəstəyinə ümid bəsləyirik. Ümidvarıq ki, bu sahədə də fəal əməkdaşlıq üçün imkanlarımız var.

Çox geniş iqtisadi və intellektual potensialları olan ölkə kimi, Ukrayna Avropanın yüksək inkişaf etmiş ölkəsinə çevrilmək, öz xalqına ən yaxşı həyat şəraiti təmin etmək üçün böyük perspektivə malikdir. Məsələn, mən Ukraynaya bələdəm və orada gedən prosesləri izləyirəm, inanıram ki, bütün bunlar yaxın gələcəyin reallığıdır.

Ukraynanın prezidenti, dostumuz – Azərbaycan xalqının dostu, şəxsən mənim dostum Leonid Daniloviç Kuçma Ukraynanın demokratikləşməsində, iqtisadi islahatların həyata keçirilməsində, onun dövlət müstəqilliyinin möhkəmləndirilməsində böyük rol oynayır.

Leonid Daniloviç Kuçmanın çox böyük fəaliyyəti Ukraynada da, onun hüdudlarından kənarda da geniş dəstəklənir, Ukraynaya da, onun lideri Leonid Daniloviç Kuçmaya da hüsn-rəğbət və hörmət qazandırır.

Leonid Daniloviç Kuçma Ukrayna ilə Azərbaycan arasında əməkdaşlığın möhkəmləndirilməsində də böyük rol oynayır. Təbii ki, əməkdaşlıq ikitərəfli prosesdir. Gərək buna hər iki tərəf çalışsın. Bütün bu illər ərzində mən Leonid Daniloviç Kuçmanın Azərbaycanla dostluğu və əməkdaşlığı necə qiymətləndirdiyini, bu əməkdaşlığın möhkəmlənməsi və inkişafı üçün nə qədər işlər gördüyünü həmişə müşahidə etmişəm.

Leonid Daniloviç Kuçma buna görə, böyük xidmətlərinə görə, Azərbaycanın ən yüksək ordeni – «İstiqlal» ordeni ilə təltif edilmişdir. Müstəqil Azərbaycan Respublikasının yüksək mükafatı Leonid Daniloviçə sabah təntənəli şəraitdə təqdim olunacaqdır.

Azərbaycanda ukraynalılar da yaşayırlar. Doğrudur, onlar çox deyil, təxminən 30 min nəfərdir. Lakin onlar Azərbaycanın tamhüquqlu vətəndaşlarıdır, iqtisadiyyata və Azərbaycanın həyatının digər sahələrinə böyük töhfə verirlər. Onlar keçmişdə çox işlər görmüşlər. Onlar bu gün də müstəqil Azərbaycan Respublikasının vətəndaşları olaraq, Azərbaycan üçün, Azərbaycan–Ukrayna dostluq münasibətlərinin möhkəmlənməsi üçün çox şey edirlər.

İndi Ukraynada da çoxlu azərbaycanlı yaşayır. Onlar təqribən 500 min nəfərdir. Bu gün Leonid Daniloviç Kuçmaya, Ukraynanın bütün hakimiyyət orqanlarına böyük təşəkkür hissi ilə demək istəyirəm ki, azərbaycanlılar Ukraynada öz doğma evlərindəki kimi yaşayırlar. Onların bir çoxu Ukrayna həyatının müxtəlif

sahələrində fəal çalışırlar. Onlar orada uzun illərdən bəri, on illərdən bəri yaşayırlar və həyatlarından razıdırlar. Bilirəm ki, Ukraynada yaşayan bütün azərbaycanlılar Ukraynada bu yaxınlarda keçirilmiş prezident seçkilərində Leonid Daniloviç Kuçmaya səs vermişlər.

**L e o n i d K u ç m a:** Ümumiyyətlə, onlar Sizə qulaq asırlar.

**H e y d ə r Ə l i y e v:** Onlar bizə nəinki qulaq asır, həm də Azərbaycan xalqının şəxsən sizə münasibətini hiss edirlər. Onlar Azərbaycan prezidentinin şəxsən sizə münasibətini hiss edirlər. Bundan əlavə, onlar Ukraynada sizin dəstəyinizi duyur, sizin Ukrayna xalqı üçün, Ukraynada yaşayan bütün vətəndaşlar üçün nə qədər böyük işlər gördüyünüzü, hələ nə qədər çox işlər görə biləcəyinizi görür və dərk edirlər. Odur ki, bu səsvermə kor-koranə deyildi, əksinə, hər şeydən əvvəl sizin Ukrayna xalqı qarşısında böyük xidmətlərinizə görə, Ukraynanın inkişafındakı böyük xidmətlərinizə görə şüurlu surətdə və qəlbin hökmü ilə edilmiş səsvermə idi.

Münasibətlərimizin indisi və gələcəyi üçün bu hal da mühüm amildir. Zənnimcə, indi münasibətlərimiz elə bir mərhələdədir ki, biz buna sevinə bilərik.

Bu gün biz mətbuat konfransında dedik, bir daha demək istəyirəm ki, Leonid Daniloviç Kuçma Azərbaycanda böyük nüfuz və hörmətə malikdir. Leonid Daniloviç mənim şəxsi dostumdur və mən fəxr edirəm ki, belə dostum var. Əlbəttə, bu dostluq çox böyük dövlətlərarası əhəmiyyətə malikdir, əslinə qalsa, o, ölkələr arasında dostluq münasibətləri, əməkdaşlıq, strateji tərəfdaşlıq adlandırdığımız amillərin mühüm tərkib hissəsidir.

Leonid Daniloviç, mənim dəvətimi qəbul edib, Azərbaycana gəldiyinizə görə sizə minnətdaram. Zənnimcə, mənim kimi, siz də məmnunsunuz ki, bu gün biz xeyli iş gördük. Hesab edirəm ki, Azərbaycana səfəriniz münasibətlərimizdə yeni dövrdür, onun gələcək üçün böyük əhəmiyyəti olacaqdır.

Müstəqil Ukraynanın şərəfinə badə qaldırmağı təklif edirəm!

Ukrayna xalqının şərəfinə!

Ukraynanın daha da çiçəklənməsi şərəfinə!

Ukrayna prezidenti, dostumuz Leonid Daniloviç Kuçmanın şərəfinə!

Ukrayna nümayəndə heyəti üzvlərinin şərəfinə!

Hörmətli dostlar, sizin sağlığınıza!

Leonid Daniloviç, sizin sağlığınıza, sizə işinizdə uğurlar, həyatda xoşbəxtlik arzulayır, gözəl ailənizə ən xoş diləklərimizi bildirirəm.

## UKRAYNA PREZİDENTİ LEONİD KUÇMANIN AZƏRBAYCAN İCTİMAİYYƏTİ İLƏ GÖRÜŞÜ VƏ ONA «İSTİQLAL» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*Prezident sarayı*

*17 mart 2000-ci il*

Cənab prezident, çox hörmətli Leonid Daniloviç Kuçma!

Hörmətli qonaqlar, hörmətli səfirlər, mətbuat nümayəndələri, xanımlar və cənablar!

Ukrayna prezidenti çox hörmətli Leonid Daniloviç Kuçmanın Azərbaycana rəsmi səfəri başa çatır. Biz bu səfəri və onun yekunlarını Ukrayna və onun prezidenti Leonid Daniloviç Kuçma tərəfindən Azərbaycana böyük diqqətin təzahürü kimi, ölkələrimiz və dövlətlərimiz arasında dostluğun və əməkdaşlığın getdikcə möhkəmlənməsinin sübutu kimi, bu çətin şəraitdə Azərbaycanın dəstəklənməsinin sübutu kimi qiymətləndiririk.

Leonid Daniloviç, səfərinizə görə, Ukrayna ilə Azərbaycan arasında dostluq və tərəfdaşlıq münasibətlərinin daha da inkişaf etməsi naminə sizinlə birlikdə həyata keçirə bildiyimiz böyük və səmərəli işə görə sizə bir daha təşəkkür edirəm.

Biz bu səfərdən və onun nəticələrindən çox məmnunuq, çünki yenidən fikir mübadiləsi apara, ölkələrimiz arasında dostluğun, əməkdaşlığın və tərəfdaşlığın daha da möhkəmlənməsinə yönəldilmiş dövlətlərarası münasibətlərimizə aid geniş əhatəli məsələləri müzakirə edə bildik. Biz dünyada baş verən proseslərə aid məsələlərin geniş dairəsini də müzakirə etdik.

Sizinlə birlikdə gördüyümüz işə yekun vuraraq, çox böyük məmnunluqla deyə bilərəm: mən şadam ki, biz yenə də və yenə də eyni mövqelərdəyik, belə deməyə həqiqətən əsasımız var ki, Ukrayna ilə Azərbaycan arasında dostluq və əməkdaşlıq strateji xarakterə malikdir.

Gənc müstəqil dövlət olan Azərbaycan öz xarici siyasətində dünyanın bütün ölkələri ilə, xüsusən qonşularla yaxşı, qarşılıqlı surətdə faydalı münasibətlər qurmağın zəruriliyini əsas tutur. Əlbəttə, bu zaman biz başlıca prinsipləri əsas tuturuq. Dövlətimizin bu başlıca prinsipləri və dostluq münasibətləri yaratdığımız və bu münasibətlərin inkişafına çalışdığımız dövlətin başlıca prinsipləri üst-üstə düşdükdə, şübhəsiz, gözəl nəticələrin şahidi oluruq.

Ukrayna olduqca zəngin iqtisadi və intellektual potensiala malik böyük ölkədir. Ukrayna çox mühüm coğrafi-strateji mövqedə yerləşir, müasir beynəlxalq həyatda, dünya siyasətində və Avropa Birliyi strukturlarında əhəmiyyətli rol oynayır. Buna görə də Ukrayna ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın bizim üçün çox böyük əhəmiyyəti var.

Lakin, dediyim kimi, başlıca şərtləri, əlbəttə ki, Ukrayna və Azərbaycanın xarici və daxili siyasətinin əsas prinsipləridir. Əslinə qalsa, dostluğumuzu da bu prinsiplər müəyyənləşdirir.

Mən bu prinsiplərdən danışarkən onu nəzərdə tuturam ki, gənc müstəqil dövlət olan Azərbaycan öz müstəqilliyini, suverenliyini möhkəmlətməyə və inkişaf etdirməyə, özünün ərazi bütövlüyünün, suverenliyinin pozulması ilə bağlı mürəkkəb problemləri həll etməyə, Ermənistanla münaqişə problemini – Azərbaycan ərazisinin bir hissəsi olan Dağlıq Qarabağı qoparıb Ermənistana birləşdirmək məqsədi ilə erməni separatçılarının Azərbaycanı zorla cəlb etdikləri problemi həll etməyə çalışır.

Azərbaycanın digər problemləri də çoxdur. Lakin bütün bu problemlərə, çətinliklərə baxmayaraq, biz öz azadlığımızın və dövlət müstəqilliyimizin ardıcıl şəkildə möhkəmləndirilməsini və inkişaf etdirilməsini, ümumbəşəri demokratik dəyərlərə sadiqliyi, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğunu, bazar iqtisadiyyatı yaradılması və dünya iqtisadiyyatına, Qərb strukturlarına inteqrasiya üçün nəzərdə tutulmuş iqtisadi islahatların aparılmasını öz daxili və xarici siyasətimizin əsası sayırıq.

Biz bütün bu məsələlərdə Ukraynanın və Azərbaycanın siyasi xəttinin tam uyğun gəldiyini görürük. Buna görə də, əslinə qalsa, Ukrayna ilə Azərbaycan arasında münasibətlərin yaradılmasının lap əvvəlindən, - bu, xüsusən 1995-ci ilə, Ukrayna prezidenti Leonid Daniloviç Kuçmanın Azərbaycana ilk rəsmi səfərə gəldiyi vaxta aiddir, - biz həmin prinsipləri əsas tutaraq, Ukrayna ilə dostluq və əməkdaşlığı möhkəmləndirməyin zəruriliyini, buna ehtiyac olduğunu görmüşük.

Şadam ki, münasibətimiz, rəyimiz, mövqemiz Ukrayna tərəfindən və onun prezidenti hörmətli Leonid Daniloviç Kuçma tərəfindən dəstəklənmişdir. Şadam, biz gördük ki, bütün bu prinsipial məsələlərdə Ukrayna da, Azərbaycan da eyni mövqe tutur, eyni siyasi xətt yeridirlər. Bax, bu da onu şərtləndirib ki, ötən beş il ərzində biz əməkdaşlığımız üçün, dostluğumuzun möhkəmlənməsi üçün etibarlı əsas yaradılması sahəsində böyük yol keçmişik və strateji tərəfdaşlıq münasibətləri səviyyəsinə çıxmışıq.

Biz artıq dünən dedik ki, bu qısa tarixi müddətdə Ukrayna ilə Azərbaycan arasında 60-dək sənəd imzalanmış və onların hamısı son dərəcə böyük əhəmiyyətə malikdir. Təbii ki, hər bir sənəd Ukrayna ilə Azərbaycan arasında münasibətlərin inkişafına dair konkret praktiki məsələlərin həlli ilə bağlı müəyyən əhəmiyyət daşıyır.

Leonid Daniloviç Kuçmanın Azərbaycana indiki səfərinin mühüm yekunu ondan ibarətdir ki, biz dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq haqqında çox mühüm sənəd imzaladıq. Bu, dövlətlərimizin, Leonid Daniloviç Kuçmanın və Azərbaycan prezidentinin birgə səylərinin nəticəsidir. İndi münasibətlərimizin, əməkdaşlığımızın perspektivini də məhz bu müəyyən edir.

Dünən və bu gün söhbətlərimiz zamanı biz yəqin etdik, hər halda, mən yəqin etdim ki, Azərbaycanla Ukrayna arasında dostluq münasibətlərinin, tərəfdaş əməkdaşlığının Azərbaycan üçün də, Ukrayna üçün də çox böyük əhəmiyyəti var. Hər halda, biz bunu yüksək qiymətləndiririk. Hesab edirəm ki, Ermənistanın təcavüzü ilə əlaqədar, müxtəlif xarici qüvvələr tərəfindən təzyiqlə bağlı çox çətinliklər çəkən və bir çox digər hallarla qarşılaşan Azərbaycan Ukrayna kimi belə strateji tərəfdaşa, dosta malik olmaqla qarşılaşdığımız mürəkkəb problemlərin həllində, şübhəsiz ki, ona ümid bəsləyə bilər.

Biz bilirik ki, Ukraynada da daxili və xarici xarakterli problemlər az deyildir. Dünən biz bu barədə çox ətraflı danışdıq. Yəni bizi ən əvvəl belə bir möhkəm inam bağlayır ki, biz milli azadlığı, dövlət müstəqilliyini möhkəmləndirmək yolu ilə gedirik. Bu mövqedə olan ölkələr sırasından dost və tərəfdaşları biz özümüzə həmin prinsipial mövqeləri əsas tutaraq müəyyənləşdiririk.

Biz Ukraynada həyatın gedişini, orada baş verən prosesləri, onun öz dövlət müstəqilliyinin qısa müddəti ərzində dünyada, Avropa Birliyində necə yüksək nüfuz qazandığını böyük diqqətlə izləyirik. Ukrayna bir çox Avropa strukturları ilə, demək olar, inteqrasiyadadır, BMT Təhlükəsizlik Şurasının üzvüdür və Dünya Birliyində özünə layiq yeri tutmaq üçün, görünür, hələ çox işlər görəcəkdir.

Bizi xüsusilə sevindirən odur ki, Ukrayna müstəqillik yolu ilə qətiyyətlə gedir. Ukraynanın tarixi bizə məlumdur. Biz bilirik ki, Ukrayna xalqının bir çox ən yaxşı övladları azadlıq, müstəqillik arzusu ilə yaşamış, bu amal uğrunda mübarizə aparmışlar. Lakin Ukrayna xalqının belə böyük xalq olmasına baxmayaraq, uzun illər və yüzilliklər ərzində o, öz istədiyinə, yəni azadlığa qovuşmaq imkanına malik olmamışdır.

Sovetlər İttifaqına daxil olmuş digər respublikalar kimi, Ukrayna da Sovetlər İttifaqının süqutundan sonra dövlət müstəqilliyini qazanmışdır. Ancaq bu, dövlət xarakterli akt idi. Milli müstəqilliyə, dövlət müstəqilliyinə nail olmaq özlüyündə tarixi əhəmiyyətə malikdir. Amma Azərbaycanın timsalında gördüyümüz kimi, ölkənin yeni şəraitdə müstəqillik mövqelərində təşəkkül tapması çətin işdir. Biz müstəqilliyə, açığını deyəcəyəm, asanlıqla nail olduq, ona görə ki, Sovetlər İttifaqı dağıldı və bu, bizim hamımıza öz dövlət müstəqilliyimizi bəyan etməyə şərait yaratdı. Lakin sonrakı illərdə həm daxili, həm də xarici xarakterli mürəkkəb, çətin proseslər getdi. Söz yox ki, tab gətirmək, müstəqilliyi qoruyub saxlamaq, möhkəmlətmək, inkişaf etdirmək bacarığı xalqın, təbii ki, dövlətin və şübhəsiz, dövlət liderinin öz işidir.

Xüsusən də ona görə ki, Ukrayna kimi çox böyük iqtisadi potensiala və çox mühüm strateji mövqeyə malik dövlət onu öz nüfuz dairəsinə salmaq istəyən müxtəlif ölkələrin diqqətini cəlb etmişdir və edir. Biz bunu çox yüksək qiymətləndiririk ki, ötən illər ərzində Ukrayna xalqı müstəqillik yolu ilə ardıcıl surətdə gedir, Ukrayna müstəqillik mövqelərində möhkəm dayanır, dünya siyasətində də, beynəlxalq təşkilatlarda, regional və beynəlxalq xarakterli müxtəlif məsələlərin həllində qətiyyətli, prinsipial mövqe – Ukrayna xalqının, müstəqil Ukraynanın milli mənafelərinə tam uyğun olan mövqe tutur.

Azərbaycanda biz məhz bu cür xətti həyata keçirərək, Ukraynada görülən bütün işləri yüksək qiymətləndiririk. Bir daha nəzərə çarpdırmaq istəyirəm ki, bu, dostluğumuzu, əməkdaşlığımızı və strateji tərəfdaşlığımızı müəyyənləşdirən mühüm amildir.

Təbii ki, hər bir ölkədə məsələləri hökumət, dövlət həll edir və mənim fikrimcə, çox şey dövlət liderlərindən asılıdır, xüsusən də belə mürəkkəb keçid dövründə. Mən demişəm və bu gün bir daha demək istəyirəm, şadam ki, qardaş Ukrayna xalqının Leonid Daniloviç Kuçma kimi layiqli lideri – prezidenti vardır.

Əlbəttə, istər daxili, istərsə də xarici siyasət məsələlərini həll etməyin Ukrayna üçün necə mürəkkəb və çətin olduğunu mən bu salonda əyləşənlərdən daha yaxşı bilirəm. Prezident Leonid Daniloviç Kuçma daxili xarakterli məsələləri həll edərkən, beynəlxalq təşkilatlarda çıxış edərkən, müxtəlif beynəlxalq və regional problemlər barəsində öz baxışlarını və mövqelərini açıqlayarkən onun fəaliyyətini izləyirəm. Öz xalqının layiqli lideri, öz xalqının layiqli oğlu olan Leonid Daniloviç Kuçmanın öz xalqının milli mənafelərini necə əzmlə və ardıcıllıqla qoruması məndə həmişə böyük heyranlıq hissi doğurur. Öz xalqının milli mənafeləri Leonid Daniloviç Kuçmanın həyatının və fəaliyyətinin başlıca amalıdır. Bizim dünənki və bugünkü görüşlərimiz, rəsmi çıxışlarımız zamanı hamı yəqin edə bildi ki, Leonid Daniloviç həqiqətən belə bir liderdir.

Lakin bu, göydən düşmür. Belə bir lider olmaq üçün böyük həyat yolu keçmək lazımdır, zəngin biliyə, böyük əməli fəaliyyət təcrübəsinə malik olmaq lazımdır, xarakter, iradə lazımdır. Bütün bunlar olmasa, onda, əlbəttə, xalq onun milli mənafelərini qorumağa qadir liderə malik ola bilməz.

Mən Leonid Daniloviç Kuçmanı çoxdan tanıyıram. Deyə bilərəm ki, Leonid Daniloviç təbiətən olduqca istedadlı insandır. O, öz istedadı sayəsində hələ ilk gənclik illərindən kosmos kimi, kosmik raketlərin, strateji

təyinatlı raketlərin ixtirası və böyük proqramların həyata keçirilməsi kimi çox mürəkkəb bir sahədə elm və praktikanın çox mühüm, ciddi məsələləri ilə məşğul olmuşdur. Biz bu proqramlara yaxşı bələdik.

Leonid Daniloviç Kuçma görkəmli alim, görkəmli mühəndis, görkəmli konstruktordur, ən başlıcası isə, bacarıqlı, istedadlı insandır. Bütün bunlar ona keçmişdə mürəkkəb məsələləri həll etməyə, kosmik texnika, raket texnikası sahəsində ümumdünya əhəmiyyətli çox böyük təşkilatlara başçılıq etməyə imkan vermişdir.

Lakin bu, onun keçmiş fəaliyyətidir. Görünür, Ukrayna müstəqil dövlətə çevrildikdən sonra onun geniş siyasi fəaliyyətə qoşulması üçün məhz bu, əsas olmuşdur. Çox zəngin həyat təcrübəsinə, şübhəsiz, böyük elmi potensiala və əməli fəaliyyət təcrübəsinə malik olan Leonid Daniloviç yeni şəraitdə, müstəqillik şəraitində Ukraynanın siyasi həyatına çox asanlıqla və tez daxil olmuş, məşhurlaşmış, Baş nazir təyin edilmiş, 1994-cü ildə isə ölkə prezidenti seçilmişdir.

Bütün bu illər ərzində mən onun fəaliyyətini diqqətlə izləmişəm və deyə bilərəm ki, hər şey əla idi. Hərçənd, çətinliklər lap çox olmuşdur. Biz bu çətinliklər barədə dəfələrlə danışmış, söhbət etmiş, fikir mübadiləsi aparmış, bir-birimizlə məsləhətləşmişik. Lakin Leonid Daniloviç bu çətin şəraitdə öz dövlətinin – Ukraynanın sükanı arxasında qətiyyətlə dayanmışdır, öz xalqının milli mənafelərini əzmlə qoruyur və məhz buna görə də 1999-cu ildə seçkilərdə prezident vəzifəsi uğrunda mürəkkəb mübarizədə Leonid Daniloviç yenidən inamlı qələbə qazandı və Ukraynanın prezidenti seçildi.

Açığını deyim ki, Leonid Daniloviçin dostu kimi, habelə Ukrayna ilə Azərbaycan arasında münasibətləri Azərbaycanın gələcək inkişafının mühüm amili hesab edən Azərbaycan prezidenti kimi, mənim üçün çox mühüm idi ki, Leonid Daniloviç qələbə qazansın. Mən olduqca şadam ki, bu qələbə qazanıldı və Leonid Daniloviç yenidən Ukraynanın prezidenti seçildi.

Leonid Daniloviç yenidən prezident seçildikdən sonra ötən qısa müddətdə əvvəllər çətin həll olunan daxili həyat məsələlərini həll etmək üçün çox tədbirlər görmüşdür. Əminəm ki, bundan sonra daha asan olacaq, Leonid Daniloviç öz seçicilərinin etimadını, əlbəttə, öz dostlarının ümidlərini şərəflə doğruldacaq və Ukraynanı onun olmalı olduğu səviyyəyə qaldıracaqdır.

Bu günlərdə biz ən çox Azərbaycan–Ukrayna münasibətlərindən danışdıq. Mən çıxışımın əvvəlində qeyd etdim ki, səfərin nəticələrindən, söhbətlərimizin məzmunundan, fikir mübadiləsindən, mühüm sənədlər imzalamağımızdan məmnunam. Lakin ölkələr arasında dostluğun möhkəmləndirilməsi, şübhəsiz ki, ikitərəfli prosesdir. Əvvəldə dediyim kimi, o, mücərrəd ola bilməz, dostluq və əməkdaşlıq müəyyən prinsiplər əsasında qurula bilər. Prinsiplər olmadan bu dostluq və əməkdaşlıq sırf formal xarakter daşıyacaqdır. Formal xarakter isə, məncə, heç bir ciddi ölkəyə, heç bir ciddi liderə gərək deyildir.

Azərbaycan–Ukrayna münasibətlərinin bu gün belə yüksək səviyyədə olmasında, bu səfər zamanı bizim münasibətlərimizin gələcək inkişafı üçün yol açmağımızda əziz dostum, çox hörmətli Leonid Daniloviç Kuçmanın olduqca böyük xidməti var.

Onun bu beş ildə həmin istiqamətdə gördüyü işlərin hamısını bu gün sadalamaq çətindir. Təkcə onu deyim ki, hər görüş zamanı mən Leonid Daniloviç Kuçmanın Azərbaycan xalqına, bizim taleyimizə, müstəqil Azərbaycana ən səmimi, ən hörmətli, ən xoş münasibətlər bəslədiyini görmüşəm.

Ukrayna və Azərbaycan böyüklüyünə görə, hər halda, bərabər ölkələr deyildir. Ukrayna çox böyük, Azərbaycan isə nisbətən kiçik ölkədir. Doğrudur, hər ölkənin öz üstünlükləri var. Ancaq liderlərin şəxsi münasibətlərinin, - dünən Leonid Daniloviç Kuçma bu barədə yaxşı dedi, - müstəsna əhəmiyyəti var.

Şadam ki, bizim aramızda şəxsi etimad, səmimi və yoldaşlıq münasibətləri yaranmışdır. Mən bütün bunlarda yenə də Leonid Daniloviç Kuçmanın xidmətini görürəm. Əvvəla, onun siyasi xəttini, dünyada baş verən proseslərə baxışlarını, demokratik dəyərlərə sadiqliyini, ikincisi, onun şəxsi insani keyfiyyətlərini, valehediciliyini, dostluq etmək və dostluğu qiymətləndirmək bacarığını görürəm. Mən bunların hamısını həmişə görmüşəm, indiki görüşümüz zamanı da bunların hamısını yenidən hiss etdim.

Buna görə də, Leonid Daniloviç, siz Azərbaycanda böyük nüfuz və hörmət qazanmısınız.

Azərbaycanda Ukrayna xalqına, Ukraynaya həmişə dostluq münasibəti bəslənilmişdir – əgər bir neçə əsr əvvəli götürsək, keçmiş dövrlərdə də, XX əsrdə də. Lakin Azərbaycanda Ukraynaya dostluq münasibəti biz müstəqil dövlətlər olduqdan sonra, Azərbaycan xalqı Ukraynanın və Ukrayna xalqının hansı yolla getdiyini gördükdən sonra xüsusilə inkişaf etmişdir.

Xalqa hörmət tutumlu ifadədir. Lakin şəxsən sizə hörmət böyükdür. Əvvəla, 1995-ci ildə də, 1998-ci ildə də Azərbaycana səfərləriniz zamanı siz ictimaiyyətimizə çox böyük təəssürat bağışlamısınız. İkincisi, burada adamlar, hər halda, mətbuat vasitəsilə bilirlər ki, müxtəlif beynəlxalq təşkilatlarda bizim aramızda nə qədər görüşlər olubdur. Dövlət başçılarının elə bir görüşü olmayıbdır ki, orada Leonid Daniloviçlə biz ayrıca görüşüb, bizi maraqlandıran məsələləri müzakirə etməyə imkan tapmayaq. Özü də bu görüşlərin keçirilməsi üçün təşəbbüslər eyni dərəcədə həm Leonid Daniloviçə, həm də mənə məxsusdur. Əlbəttə, bu gün mən özüm haqqında danışmaq istəmirəm, bu gün mən dostum Leonid Daniloviç haqqında danışıram. Əgər Leonid Daniloviçin həmin təşəbbüsünü, Azərbaycana, mənə göstərdiyi mehribanlığı hiss etməsəydim, təbii ki, onda mən

bəlkə də belə qətiyyətlə təşəbbüs göstərməzdim. Odur ki, bu məsələdə başlıca xidməti Leonid Daniloviç Kuçmaya aid edirəm.

Dövlətlərimiz, xalqlarımız arasında münasibətlərin məzmunu da məhz bütün bunlardan ibarətdir. Bütün bunlar prezidentlər arasında – Leonid Daniloviç Kuçma ilə mənim aramda dostluğu, dövləti əhəmiyyəti olan dostluğu əks etdirir. Bizim heç birimiz, - nə o, nə də mən, - hansısa şəxsi məqsədlər güdmürük. Bunların hamısı dövlətlərimizin naminədir, xalqlarımızın naminədir.

Leonid Daniloviçin müstəqil Azərbaycan Respublikasının ən yüksək mükafatına – «İstiqlal» ordeninə layiq görülməsini də, əslinə qalsa, məhz bütün bunlar şərtləndirmişdir.

Mən Azərbaycanın bu yüksək mükafatını bu gün sizə təqdim etmək şərəfinə malik olduğuma görə çox böyük məmnunluq duyuram. Yeri gəlmişkən, bu orden Azərbaycanın ən yüksək mükafatıdır. Çox simvolik haldır ki, bu orden «İstiqlal» adlanır. Mən Azərbaycanın bu yüksək mükafatını Ukrayna xalqının istiqlaliyyəti uğrunda böyük mübarizə, Azərbaycanın böyük dostuna, öz prinsiplərində möhkəm dayanın böyük insana təqdim edirəm.

## 1995-ci il MART DÖVLƏT ÇEVRİLİŞİNƏ CƏHDİN BEŞ İLLİYİNİN TAMAM OLMASI İLƏ ƏLAQƏDAR KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ ÇIXIŞ

*Prezident sarayı*

*17 mart 2000-ci il*

Hörmətli xanımlar və cənablar!

Bu gün Azərbaycan Respublikasının dövlətçiliyinin qorunub saxlanması ilə bağlı, eyni zamanda faciəli hadisələrlə əlaqədar mən sizi müşavirəyə dəvət etmişəm. Bildiyiniz kimi, son vaxtlar Azərbaycanda olan mənfi qüvvələr həm respublikadakı havadarlarının təsiri altında, həm də xaricdə olan ayrı-ayrı dairələrin, qüvvələrin – ölkəmizə qarşı təxribatçılıq hərəkətləri aparmaq istəyən şəxslərin göstərişi, məlumatları əsasında Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa çalışıblar.

Sizə məlumdur ki, son vaxtlar, son aylar respublikamızda və hətta ölkəmizdən kənarda Azərbaycanda dövlət çevrilişinin gözlənilməsi haqqında şayiələr, söhbətlər, danışıqlar geniş yayılmışdır. Bunlar hamısı Azərbaycanın və xarici ölkələrin mətbuatında, digər informasiya orqanlarında da əksini tapmışdır. Şübhəsiz ki, bu da respublikamızda, insanlarda narahatçılıq törədir, vahimə hissi yaradır, ölkəmizdə mənəvi-psixoloji mühitə mənfi təsir göstərir.

Bunlar hamısı olmuş həqiqətlərdir, sizə məlum olan faktlardır. Axır zamanlar belə söhbətlər gedir, bizə məlumatlar gəlirdi, şayiələr də yayılırdı: deyirdilər fevral ayında, fevral ayı keçəndən sonra mart ayında, ən nəhayət, Novruz bayramı ərəfəsində Azərbaycanda dövlət çevrilişi olacaq, ölkəmizin qanuni dövləti devriləcək və burada yenidən vətəndaş müharibəsi baş verəcəkdir. Hətta bəzi ölkələrin səfirləri son vaxtlar mənimlə görüşləri zamanı çox narahatçılıq hissi ilə bu məlumatların yayılması haqqında bildiklərini mənə çatdırır və müəyyən qədər xəbərdarlıq edirdilər.

Bu məlumatlar, xəbərdarlıqlar hamısı prezident kimi, mənim tərəfimdən təhlil olunurdu. Şübhəsiz ki, mən bunlara laqeyd baxa bilməzdim. Bunların hamısını nəzərə alırdım. Amma eyni zamanda həmişə, keçmişdə olduğu kimi, xalqın rəyini, əhval-ruhiyyəsini hiss edərək, xalqın dövlətçiliyimizi qorumaq əzmini, Azərbaycan prezidentini daim müdafiə etdiyini bilərək hesab edirdim ki, bunların heç birisi ya baş verə bilməz, yaxud da baş versə, heç bir nəticə əldə olunmaz.

Çevrilişin gözlənildiyi barədə son vaxtlar Moskva mətbuatında məlumatlar gedirdi, Mütəllibovun, Surət Hüseynovun müsahibələri, ayrı-ayrı müxbirlərin yazıları, qəzetlərdə, başqa informasiya orqanlarında verilən xəbərlər, şübhəsiz ki, respublikamızda aranı qızışdırırdı. Amma təkcə Moskvada deyil, başqa ölkələrdə də belə yazılar gedirdi. Nəhayət, son vaxtlar bu hadisələrin, yəni çevriliş əməliyyatının Rövşən Cavadovun və onun ətrafında olan Xüsusi Təyinatlı Polis Dəstəsinin gücü ilə aparılacağı bildirilirdi. Təəssüflər olsun ki, Rövşən Cavadov da bir-iki ay bundan əvvəl orada-burada, qəzetlərdə öz müsahibələrində, çıxışlarında bu fikirləri bir-başa, yaxud dolayısı ilə ifadə edirdi. Bizə gələn məlumatlardan görünürdü ki, Rövşən Cavadov öz dairəsində olan adamlarla daha açıq danışıqlar aparır, Azərbaycanda hakimiyyət dəyişikliyi etmək haqqında fikirlərini gizlətmirdi və bunu da bildirirdi. Bu məlumatlar da bizə gəlib çatırdı və biz onları əldə edəndən sonra müəyyən təhlillər aparıb lazımi tədbirlər görməyə çalışırdıq ki, bu hadisələrə yol verilməsin.

Rövşən Cavadov son vaxtlar ayrı-ayrı siyasi qüvvələrin, qrupların əlində, demək olar ki, bir alətə çevrilmişdi. O, guya böyük bir hərbi gücə malik olduğuna görə ayrı-ayrı qüvvələr bundan istifadə etməyə çalışmış, onu qızışdırmış, bəzi siyasi oyunlara sövq etmişdilər. O, gah gənclər təşkilatı yaradıb, gah bir xeyriyyə cəmiyyətinə rəhbərlik edib, gah başqa işlərlə məşğul olub – hər halda, öz işi ilə məşğul olmayıbdır. Ona rəvac verənlər, qızışdıranlar, havadarlıq edənlər, onu maliyyələşdirənlər – bunlar hamısı göz qabağında idi. Təəssüflər olsun ki, həmin mafioz qruplardan savayı, bu işlərə ayrı-ayrı siyasi partiyaların, ictimai təşkilatların nümayəndələri də qoşulmuşdu. Dediyim kimi, respublikamıza qarşı düşmənçilik mövqeyi tutan Mütəllibov, Surət Hüseynov, Rəhim Qazıyev və başqaları da bundan müxtəlif yollarla istifadə etməyə çalışmışlar.

Bunları nəzərə alaraq, - keçən dəfə televiziya ilə müraciətimdə də dedim, - Türkiyənin Azərbaycandakı səfiri hörmətli Altan Karamanoğlunun verdiyi məlumatlardan sonra, onun təklifi ilə və Rövşən Cavadovun, doğrudan da, nəsə edə biləcəyini hiss edərək mən onu yanıma dəvət etdim. Hesab etdim ki, əgər o, əyri yoldadırsa ona müəyyən məsələləri başa salmaq lazımdır. Ancaq o, birinci dəfə də, ikinci dəfə də təyin olunan vaxtda gəlmədi. Sonra o, öz ətrafında bu dəvətlər haqqında cürbəcür mənfi söhbətlər aparmışdır. Bunlar hamısı məlumdur.

Nəhayət, martın 12-dən 13-nə keçən gecə Qazax və Ağstafa rayonlarında həmin bu XTPD, Rövşən Cavadov və onun ətrafında olan banda tərəfindən dövlət çevrilişinə cəhd göstərilmişdir. İndi kim bunu necə ifadə edir,

ona necə qiymət verir – bu onun öz işidir, ancaq dövlət çevrilişinin buynuzu olmur ki! Əgər silahlı qüvvələr tərəfindən rayonda dövlət hakimiyyət orqanları zəbt edilibsə, onların fəaliyyəti dayandırılıbsa, polis orqanı zəbt olunubsa, bütün polis işçiləri tərksilah ediliblərsə, dövlətin silahları ayrı-ayrı adamların əlinə keçibsə, rabitə ələ keçirilibsə, - demək, bu rayonda dövlət hakimiyyəti devrilib, Qazaxda da, Ağstafada da belə olmuşdur. Biz bu məsələyə də yenə soyuqqanlıqla, təmkinlə yanaşdıq, məsələni araşdırıb lazımi tədbirlər görməyə çalışdıq. Bunu mən martın 15-dəki müraciətimdə demişəm, indi təkrar etməyə ehtiyac yoxdur. Ancaq bir həqiqət aydındır ki, Qazax, Ağstafa rayonlarında dövlət çevrilişinə cəhd başlanmış və həyata keçirilmişdi. İndi artıq məlum olan planlara görə o, davam edib digər rayonları da əhatə etməli və Bakıya gəlməli idi, yaxud Bakıda da bu çevriliş başlanmalı idi. Biz bunu hiss etdik və gördük.

Bizim iki gün ərzində məsələni sülh yolu ilə yatırtmaq və onun qarşısını almaq üçün gördüyümüz tədbirlər nəticə vermədi. Martın 13-dən 14-nə keçən gecə həmin silahlı dəstə öz niyyətini yerinə yetirmək üçün – yəni, Tovuz, Gəncə bölgələrini zəbt etmək üçün Tovuzda olan hərbi hissəyə hücum etdi, döyüş başlandı və bu döyüş nəticəsində o banda darmadağın oldu. Orada olan itkilər və bizim çətinliklərimiz sizə məlumdur. Bu gün artıq sizə deyə bilərəm ki, həmin bu bandanın üzvləri – orada deyirdilər ki, XTPD-nin cəmi 60 nəfər üzvü var, lakin onlar kənardan da adamlar cəlb edib silahlandırmışdılar – 160 nəfər həbs olunmuşdur.

Görürsünüz, bu qrup, bir neçə adam – ola bilər 10–15, 20–25 adam cinayət edərək nə qədər adamı dartıb bu cinayətə gətirib çıxarmışdır. Qeyd etdiyim kimi, biz bunun qarşısını aldıq. Ancaq bütün bu işlərə rəhbərlik edən Rövşən Cavadov öz niyyətlərindən əl çəkmədi. O, Qazaxa getmişdi ki, guya bu işlərin həll olunmasına kömək etsin. Kömək etmədi. Əksinə, orada aranı daha da qızışdırdı. Ondan sonra gəlib burada, 8-ci kilometr qəsəbəsində XTPD-nin bazasında bu dəstəni qızışdırıb, silahlandırıb dövlət çevrilişi etməyə hazırladı.

Bunların hamısını görərək və qarşıdakı təhlükəni, respublikamızda yenə də dövlət çevrilişi cəhdi baş verə biləcəyini hiss edərək mən martın 15-də televiziya ilə xalqa müraciət etdim. Müraciət məlumdur. Mən orada bütün prosesləri təhlil etdim. Müraciətimin əsas məqsədi ondan ibarət idi ki, Rövşən Cavadova, onun dəstəsinə və respublikamızın içindən, xaricindən ona havadarlıq edən, onu istiqamətləndirən, ona güc verən, bu işlərə sövq etdirən qüvvələrə başa salım ki, Azərbaycanı dağıtmaq, qan tökmək daha bəsdir. Bunlardan əl çəkmək, Azərbaycanın dövlətçiliyini qorumaq lazımdır. Azərbaycan xalqı artıq öz dövlətçiliyini qiymətləndirməlidir, bunu anlamalıdır və bunun nə qədər böyük sərvət olduğunu bilməlidir və hər bir vətəndaş bu sərvətin qorunmasına öz payını verməli, öz xidmətini göstərməlidir.

Deyə bilərəm ki, bizə, mənə gələn teleqramlardan, məktublardan, telefon zənglərindən və bu iki günün içərisində ictimaiyyətimizdə gedən proseslərdən məlum olur ki, mənim bu müraciətim xalq tərəfindən böyük rəğbətlə və hörmətlə qarşılanıbdır. Azərbaycan prezidentinin xarici və daxili siyasəti, onun fəaliyyəti və irəli sürdüyü vəzifələrin hamısı xalqın əksəriyyəti tərəfindən bəyənilibdir. Bu günlər respublikanın şəhərlərində, rayonlarında əmək kollektivlərində keçirilən yığıncaqlar, mitinqlər, gedən danışıqlar, müsahibələr, yazılar – hamısı onu göstərir ki, xalq həmrəydir, dövlətçiliyi qorumaq əzmindədir və prezidenti müdafiə edir.

Mən güman edirdim ki, şübhəsiz, buna ümid bəsləyirdim ki, bütün bunlar azğınlaşmış, mənəfiyyatını itirmiş insanları müəyyən qədər oyada bilər, onlara təsir edə bilər, onlar bunu anlaya bilərlər. Bir halda ki, insanlar, hörmətli adamlar, əmək kollektivləri, ağsaqqallar mitinqlər keçirir, çıxışlar edirlər, teleqramlar verirlər, televiziya və radio ilə öz fikirlərini deyirlər – onlar buna biganə qalmamalıdırlar. Mən bütün bunlardan həmin azğınlaşmış adamlara ictimaiyyətin təsiri kimi istifadə etməyə çalışdım. Ümidvar idim ki, bu, öz nəticəsini verəcəkdir.

Ancaq təəssüflər olsun ki, bu, istənilən nəticəni vermədi. Müraciətimlə yanaşı, mən bəzi başqa tədbirlər də gördüm, bəzi vasitələrlə XTPD-nin adamlarına çatdırdım ki, əgər onlar bu əməllərindən əl çəksələr – bunu öz müraciətimdə də dedim, - onlar əfv olunacaqlar, mən hətta onlara bundan da artıq bəzi vədlər verdim ki, işlə təmin olunacaqlar, onlara qayğı göstəriləcək. Lakin bütün bunları anlamadılar, başa düşmədilər.

Bilirsiniz ki, mən dünən bir fərman verdim. Bu fərmanın da məqsədi ondan ibarətdir ki, XTPD-də olan adamları bir də başa sala bilim ki, onlar cinayətlərindən əl çəksələr, sakit yaşayacaqlar və hətta cinayət etdiklərinə görə məsuliyyətə alınmayacaqlar. Mənim bu fərmanım dünən axşam televiziya ilə oxundu. Həmin XTPD-nin içərisində sağlam ruhlu adamlar çoxdur.

Oradan mənə belə təkliflər, xahişlər gəlmişdir ki, «Bizim əksəriyyətimiz buradan çıxmaq istəyirik. Sizin çağırışınızı qəbul edirik, müraciətinizə səs veririk. Ancaq burada yaranmış mənəvi-psixoloji mühit – bir tərəfdən, bizə olan təzyiq, zorakılıq, ikinci tərəfdən, özümüzdə olan qorxu bizə imkan vermir. Ona görə də sizin bu müraciətinizi və əfv haqqında bəyanatınızı bir hüquqi sənədlə də ifadə etsəniz, biz bu addımları ata bilərik». Bu müraciətləri nəzərə alaraq mən dünən belə bir fərman verdim.

Həmin bu XTPD-nin komandiri Nizami Şahmuradov və onun müavini Cəfərov dünən xahiş etdilər ki, onları qəbul edim. Baxmayaraq ki, günahkardırlar, onlar özləri çox cinayətlər ediblər – mən onları da qəbul etdim. Uzun-uzadı söhbətlər apardım. Xeyli vaxt sərf edərək onları başa salmağa çalışdım ki, siz çox pis yola düşmüsünüz, cinayət etmisiniz, bu yoldan çəkinin, siz komandirsiniz, gedin onları başa salın, anladın. Doğrudur, onlar bu danışıqlarda «Biz prezidenti dəstəkləyirik, prezidentin tərəfdarıyıq, biz siyasətə qarışmırıq,

siyasət adamı deyilik» və sair sözlər söylədilər. Ancaq bir həqiqət şəxsən mənə əvvəl də məlum idi və bu günlər daha da dəqiq məlum oldu ki, Rövşən Cavadov və onun qardaşı Mahir Cavadov mafioz hərəkətləri ilə və eyni zamanda mafioz qruplarla olan əlaqələri ilə həddindən artıq vəsait əldə edib, bu insanların bəzilərinə xeyli pul və başqa vəsaitlər verməklə, ikinci tərəfdən isə hədələyib qorxutmaqla bunları öz təsiri, tabeliyi altında saxlamış, demək olar ki, qul, özlərinin əlində alət etmişlər.

Mən dünən Nizami Şahmuradov və Cəfərovla danışığımda bunu bir daha hiss etdim. Mən onlara anlatdım ki, siz gəncsiniz, ayılın, başa düşün ki, bir, iki, üç adamın zoru altında, yaxud onun sizə verdiyi qeyri-qanuni maddi imtiyazlar, başqa şeylərlə əlaqədar bu cinayət yolu ilə gedirsiniz, bunun axırı yoxdur. Mən bunu da etdim.

Dünən axşam bizim hörmətli xalq şairimiz Bəxtiyar Vahabzadə mənə telefon etdi, narahatlığını bildirdi və dedi ki, mən nə edə bilərəm? Mən ona dedim ki, siz hər şeyi görürsünüz. Əgər Azərbaycan xalqı bu cür cinayətkar adamların əlinə düşüb, onların iradəsi altında yaşayacaqsa, mən hesab edirəm ki, bu xalqın artıq axırı gəlib çatıb. Siz bunları, bu prosesləri görürsünüz və mənim müraciətimi eşitmisiniz. Hərə öz sahəsində öz işini görsün. O da ürək ağrısı ilə dedi ki, bəli, bunlar hamısı məni incidir, ürəyimi ağrıdır və çox narahat edir. O dedi ki, mən öz tərəfimdən lazımi tədbirlər görərəm.

Yəni, martın 15-dəki müraciətimdən sonra apardığım işləri də sizə deyirəm və bu işlər də məhz onunla əlaqədardır ki, məsələləri sülh yolu ilə yatırdaq, cinayətkarları bu cinayət yolundan çəkindirək, respublikamızın dövlətçiliyini qoruyaq, ictimai-siyasi sabitliyi təmin edək və onun pozulmasına yol verməyək.

Ancaq bunlar nəticə vermədi. Bu günlər bizə ciddi məlumatlar gəlirdi ki, Rövşən Cavadov artıq dövlət çevrilişi etməyə hazırlaşıb və bunu həyata keçirəcəkdir. Rövşən Cavadov da bunu gizlətmirdi. Keçən il oktyabrın əvvəlində olduğu kimi, son günlər bu XTPD haqqında məlumat yayılandan sonra ayrı-ayrı mafioz adamlar, cürbəcür siyasətbazlar, guya siyasətlə məşğul olan adamlar başladılar ora axışmağa, onunla danışıqlar aparmağa. Bundan bəlkə hərə öz məqsədləri üçün istifadə etməyə çalışırdı. Şübhəsiz, xarici ölkələrin, respublikamızın müxbirləri də ora getdilər, onun fikirlərini bilmək istədilər. O, açıq-aydın müsahibələr verirdi. Siz bunları artıq bilirsiniz, bunlar mətbuatda da dərc olunub. Moskva televiziyası bunu həddindən artıq şişirdilmir şəkildə veribdir. Rövşən Cavadov başqa ölkələrin televiziya və mətbuat orqanlarında da öz niyyətlərini açıqca deyirdi və yenə də bildirirəm ki, bu, nəinki mətbuatda dərc olunub, hətta onun verdiyi müsahibələr barədə yazılar bizə də gəlibdir.

Bəli, o deyirdi ki, Azərbaycan Respublikasının rəhbərliyini zorakılıqla dəyişdirmək istəyir, vətəndaş müharibəsindən də çəkinməyəcək, vətəndaş müharibəsi olacaq. Hakimiyyəti ələ keçirmək, siyasi şura yaratmaq, bu şuraya rəhbərlik etmək istəyir və ayrı-ayrı partiyaların nümayəndələrini həmin siyasi şuraya dəvət edəcəkdir. Cürbəcür belə sözlər, çağırışlar, açıq bəyanatlar verirdi. Yəni, bu, gizli məlumatlar deyildi. O öz fikirlərini açıq-aydın bildirirdi.

Yəqin ki, bu elə onun öz şəxsiyyətinə xas olan bir şeydir və ona görə də təəssüf etməyə də ehtiyac yoxdur. Çünki görünür, o, bu cür tərbiyə almış və bu tərbiyənin sahibidir. Dövlətçilik haqqında, Azərbaycanın prezidenti haqqında, başqa vəzifəli şəxslər haqqında çox çirkin, təhqiramiz sözlər deməkdən də çəkinməmişdir. Hətta dünən və ya srağagün axşam Moskvanın hansı proqramındasa verirdilər, - o deyirdi ki, «Azərbaycanda real qüvvə məndə – Rövşən Cavadovdadır. Yəni, dövlət hakimiyyətində, Azərbaycan prezidentində deyil, bu qüvvəyə mən malikəm. Ona görə də bu qüvvə ilə mən Azərbaycanda dövləti dəyişdirəcəyəm».

Bu bəyanatların nə qədər təhlükəli, ağrıdıcı olmasına baxmayaraq, şəxsən mən onlara çox soyuqqanlıqla, çox səbrlə yanaşırdım və hesab edirdim ki, onlar heç bir nəticə verməyəcəkdir. Dünən bizə məlumatlar gəldi ki, orada dövlət çevrilişinin planı, dörd əməliyyat qrupu hazırlanıb, onların qarşısına vəzifə qoyulubdur: birincisi Prezident sarayını zəbt etmək, Azərbaycan prezidentini ya öldürmək, ya həbs etmək, ikincisi Ali Soveti zəbt etmək, üçüncüsü Azərbaycan milli televiziyasını zəbt etmək, dördüncüsü Respublika Daxili İşlər Nazirliyini zəbt etmək üçün ayrılmışdı.

Bunların icraçıları da artıq məlum idi. Bu tədbirin necə həyata keçirilməsi də aydın idi. Şübhəsiz ki, biz bunlara biganə qala bilməzdik, öz tədbirlərimizi görürdük. Bildiyiniz kimi, XTPD-nin bazasında onlar o silahları yerləşdirmişdilər və orada çox narahat hərəkətlər edirdilər. Bundan əlavə, onun ətrafında olan hər bir binanın damında iriçaplı və başqa növ silahlarla silahlanmış 15–20 nəfər adam da qoymuşdular. Bütün o meydan, məhəllə silah altında yaşayırdı. Bu, 5–6 evin üstündə idi. Gedənlər görmüşdülər.

Bütün bunlar onu göstərdi ki, bəli, onlar həqiqətən bu işə hazırlaşırlar. Bunları nəzərə alaraq biz o məhəlləni hərbi hissənin gücü ilə müəyyən qədər mühasirəyə almağa çalışdıq ki, orada giriş-çıxışa nəzarət olunsun, əgər onlar bir hərəkət edərlərsə, biz onun qarşısını ala bilək. Bizim o hərbi qüvvəmiz o qədər də böyük deyildi, sadəcə olaraq, orada vəziyyətə nəzarət etmək məqsədilə qoyulmuşdu.

Bu gecə təxminən saat 2 radələrində XTPD üzvləri artıq hücuma başladılar, atəş açdılar, birinci atəşlə bizim dörd əsgərimizi öldürdülər. Ondan sonra həmin planlarını həyata keçirməyə başladılar. Şübhəsiz ki, onlar bunun üçün orada olan hərbi qüvvələri ləğv etməli, məhv etməli idilər.

Əsgərlərimiz, silahlı qüvvələrimizdə xidmət edən zabitlərimiz, ordu dəstələri şücaət, mərdlik, müqavimət göstərdilər və böyük döyüş başlandı. Bu döyüş təxminən gecə saat 4-də çox şiddətləndi və saat 11.30-a, yaxud

11.40-a qədər davam etdi. Döyüş çox kəskin oldu. Onlar azğıncasına, vəhşicəsinə hərəkət etdilər. Əllərində olan böyük silahlardan atəş açdılar. Şübhəsiz ki, Azərbaycanın dövlətçiliyini qoruyan hərbi hissə də onlara qarşı atəş açdı.

İtkilər var, yaralananlar var. Böyük qan tökülüb. Bu, bizim üçün faciədir. Həmin bu əməliyyatlara başçılıq edən Rövşən Cavadov səhərə yaxın yaralanıb, sonra Daxili İşlər Nazirliyinin qospitalına gətirilib, orada ölüb. Onun qardaşı Mahir Cavadov öz evində iki gün böyük bir quldur dəstəsi ilə mühafizə olunaraq – Daxili İşlər Nazirliyinin əməkdaşları onu cinayətlərinə görə həbs etmək istəmişlər, orada müqavimət göstərmişdir, 5–6 polis nəfərini yaralamışdır, - oradan qaçıb bazaya girmişdi. Onun indi harada olduğu məlum deyil. O biriləri haqqında da mənim məlumatım yoxdur və bugünkü danışıq üçün bu, əsaslı deyil.

Hər halda, nəhayət, Rövşən Cavadov və onun himayəsində olan dəstələr uzun müddət ayrı-ayrı qüvvələrin təsiri altında, bu qüvvələr tərəfindən istiqamətləndirilərək Azərbaycanda ictimai-siyasi sabitliyi pozmaq, dövlətçiliyimizə qəsd etmək niyyətlərini son dərəcədə həyata keçirməyə çalışdılar, ancaq buna nail ola bilmədilər. Azərbaycanın mərd, cəsur əsgərləri, respublikamızın müstəqilliyinin, dövlətçiliyinin keşiyində duran Azərbaycan övladları onların cavabını verdilər, respublikamızın dövlətçiliyini, müstəqilliyini qorudular. Ancaq təəssüf ki, böyük itkilər oldu və böyük qan töküldü.

Mən bunu, qan töküləcəyini görürdüm. Ona görə əvvəllər də və xüsusən martın 15-də xalqa müraciət edəndə də dəfələrlə dedim ki, artıq bəsdir, qan tökmək lazım deyil. Ancaq bu insanlara nə qardaş qanı, nə millət qanı, nə xalq qanı əzizdir. Öz çirkin niyyətləri, əməlləri onlar üçün hər şeydən üstündür, özləri də bu çirkin əməllərinin qurbanı oldular.

Azərbaycan dövlətçiliyini, müstəqilliyini, suverenliyini, xalqın həyatını qoruyaraq həlak olmuş döyüşçülərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etməyi xahiş edirəm.

Allah onlara rəhmət eləsin!

Mən çıxışımın əvvəlində dedim, bu gecəki hadisə bir tərəfdən Azərbaycan dövlətinin qüdrətini, onun iradəsini bütün düşmən qüvvələrə – Azərbaycanın içində də, xaricində də olan qüvvələrə nümayiş etdirdi. Bu, Azərbaycan xalqının, müstəqil respublikamızın tarixində əlamətdar bir hadisədir, haldır və mən bunu yüksək qiymətləndirirəm.

Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin qorunması uğrunda xidmət göstərmiş döyüşçülərimizin hamısına, vətəndaşlarımıza öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Bütün bu işlərdə Müdafiə Nazirliyinin zabitləri, əsgərləri, Daxili İşlər Nazirliyinin, Xüsusi İdarənin, Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları iştirak etmişlər. Ancaq bu qiyamın, dövlət çevrilişinin qarşısının alınmasında Müdafiə Nazirliyi zabitlərinin, generallarının, əsgərlərinin və müdafiə naziri Səfər Əbiyevin, baş qərargahın rəisi Nəcməddin Sadıqovun xidmətlərini xüsusi qeyd edirəm və onlara təşəkkür edirəm.

Bizim orada döyüşən qəhrəman zabitlərimiz çoxdur. Həlak olanlar da və axıra qədər döyüşüb dövlətçiliyimizi qoruyanlar da var. Bunların hamısı qeyd olunacaqdır. Onların hamısı Azərbaycan Respublikası prezidentinin fərmanları ilə mükafatlandırılacaqdır. Ancaq orada bilavasitə döyüş aparanlardan alay komandiri Rövşən Əkbərovun, batalyon komandiri Ağayevin xidmətlərini xüsusi qeyd edirəm. Güman edirəm ki, burada ayrı-ayrı familiyaları çəkməyə daha ehtiyac yoxdur. Bizim bu müşavirəmiz ümumi siyasi xarakter daşıyır. Mən bəyan edirəm ki, heç kəs unudulmayacaq, hər kəsin xidməti qeyd olunacaqdır.

Görürsünüz, həyatımızın ziddiyyətləri necədir. Bir tərəfdə Azərbaycana, onun dövlətinə, müstəqilliyinə sədaqətlə xidmət edən gənc, qəhrəman övladlarımız, əsgərlərimiz, zabitlərimiz, ordumuz, ikinci tərəfdə isə Azərbaycan xalqına xəyanət edən, müstəqilliyimizi pozmaq, respublikamızı yenidən vətəndaş müharibəsinə sürükləmək, Azərbaycanı parçalamaq istəyən düşmən qüvvələr. Onlar bizim içimizdə və xaricdədir. Görünür ki, bu da həyatımızın gerçəkliyidir. Biz bunu bilməliyik və bunları bilərək öz işimizi qurmalıyıq. Bir sözlə, bu gecə, yəni martın 16-dan 17-ə keçən gecə Azərbaycanda güclü dövlət çevrilişi cəhdi meydana çıxdı və onun qarşısı məharətlə, cəsarətlə, dövlətin qüdrəti ilə alındı. Dövlət çevrilişinə bu cəhd keçmişdə olan cəhdlərin davamıdır. Bu, bilavasitə 1994-cü il okbyabrın əvvəlindən başlamış dövlət çevrilişi cəhdidir. Mən martın 15-də xalqa müraciətimdə bunu qeyd etdim. O vaxt da dövlət çevrilişini Surət Hüseynovla bərabər, əl-ələ Rövşən Cavadov hazırlayırdı, onun ətrafında olan quldur dəstələri hazırlayırdı və o vaxtda, o ərəfədə – sentyabr ayında, hətta avqust ayında Azərbaycan mətbuatında da, xarici mətbuatda da çevrilişin hazırlanması, gözlənilməsi barədə yazılar verilirdi. Surət Hüseynovun, Rövşən Cavadovun adları həmin yazılarda var idi.

Xatirinizdədir, mən Amerika Birləşmiş Ştatlarına, BMT Baş Məclisinin sessiyasına yola düşərkən İstanbulda dayandım. Burada mətbuat nümayəndələri böyük bir həyəcan hissi ilə mənə sual verirdilər və qəzetlərdə də böyük şriftlərlə yazılmış məqalələr göstərirdilər ki, Azərbaycanda çevriliş gözlənilir, bu çevrilişi Rövşən Cavadov, Surət Hüseynov edəcəklər. Orada bir neçə başqa familiya da yazılmışdı.

O vaxt bunlar hamısı bir yerdə idi. Həmin o dövlət çevrilişi cəhdi oktyabrın 4-də özünü büruzə verdi. O, oktyabrın əvvəlində başlanmışdı, Rövşən Cavadovun, onun qardaşı Mahir Cavadovun Azərbaycan Respublikası Prokurorluğunu zəbt edib orada qeyri-qanuni, cinayətkar hərəkətlər etməsindən başlanmışdı. O günlər

xatirimizdədir. Biz o günləri necə əzab-əziyyətlə keçdik və bizə nə qədər müdriklik, səbrlilik lazım idi ki, bu məsələlərin inkişaf etməsinə yol verməyək.

Ancaq bu hadisələr inkişaf etdi, oktyabrın 4-də çevriliş Gəncədə başlandı. Mənim xalqa müraciətim Rövşən Cavadovu məcbur etdi ki, geriyə çəkilsin. Amma onlar bir idilər, bizə məlumdur. Artıq mən bunu deyə bilərəm, o vaxt isə demək istəmirdim. Mən o vaxt istədim ki, Rövşən Cavadovu və onun yanında olanları gənc adamlar kimi, bu məsələləri bəlkə başa düşmədiklərinə, anlamadıqlarına görə bunlardan ayıram, onlara güzəşt etdim, onları bağışladım. Onunla söhbətlər apardım, başa saldım ki, bu yoldan çəkil. Ona görə də mən o vaxt bir neçə faktı demədim. Ancaq bu fakt məlum idi ki, respublika prokurorluğu zəbt olunanda Rövşən Cavadov Surət Hüseynova telefon etdi və bildirdi ki, «Mən prokurorluğu götürdüm, siz də gedin Ali Soveti və Prezident Aparatını götürün». Ondan sonra bir daha prokurorluqdan, baş prokurorun kabinetindən telefon edib Surət Hüseynova demişdi ki, «Biz hərəkət etmişik, siz niyə gecikirsiniz?».

Başqa sübutlar və dəlillər də var. Bunların hamısını istintaq açacaqdır. Ən nəhayət, oktyabrın 4-də mən televiziya ilə zalqa birbaşa müraciət edəndən sonra yüz minlərlə adam Prezident Aparatının qarşısına toplaşan zaman Rövşən Cavadov buraya gəldi, prezidentin yanında olduğunu göstərməyə çalışdı. Ancaq məlumdur ki, həmin bu binadan o, telefonla Gəncə ilə danışdı, orada olan Səfixanova və başqalarına bildirdi ki, «Biz fəaliyyətimizi dayandırdıq, siz də dayandırın, artıq geriyə çəkilirik».

Bunların hamısı bu məsələləri onların bir yerdə hazırladıqlarının sübutudur. İstintaqda başqa sübutlar da var.

Mən bunları sadəcə olaraq, açmaq istəmirdim. Çünki mən istəyirdim ki, Rövşən Cavadovu və onun yanında olan adamları tərbiyə edim, onları bu cinayət əməllərindən uzaqlaşdırım. Ancaq mümkün olmadı. Ona görə ki, görünür, bu insanın, gənc adamın təbiəti belə imiş. Ona görə ki, bu adam və onun qardaşı uzun illər Azərbaycanda azğınlıq ediblər, çox cinayət işləri görüblər və onların qarşısı alınmayıb. Ayrı-ayrı dairələr, ayrı-ayrı vəzifəli adamlar onlara havadarlıq ediblər, onları maliyyələşdiriblər, cinayətlərinin üstünü örtüblər. Bəziləri qorxub, bəziləri onlardan istifadə edib. Beləliklə, onlar qudurublar.

Xatirimdədir, 1993-cü ilin iyun ayında Əbülfəz Elçibəy məni Bakıya dəvət edəndə mən onunla söhbət edirdim. Gərək ki, bu söhbətdə Rəsul Quliyev də iştirak edirdi. Bəzi adamlardan söhbət düşdü. Gördüm ki, Əbülfəz Elçibəy çox böyük əzab-əziyyətlə deyir ki, bu Cavadov qardaşları nə qədər böyük cinayətlər edirlər. Eyni zamanda mən hiss etdim ki, bu adam nə qədər acizdir. Cinayətləri görür, ürək ağrısı ilə deyir, ancaq qarşısını ala bilmir. Niyə? Çünki onlar artıq çərçivədən çıxmışdılar və başqa-başqa dairələrdən o qədər idarə olunurdular ki, görünür. Əbülfəz Elçibəy də burada heç bir iş görə bilməmişdi.

Bir sözlə, yenə də deyirəm, görünür, pozulmuş mənəviyyatları onları belə bir axıra gətirib çıxartdı. Bu da tamamilə qanunauyğundur. Təbiidir. Belə də olmalı idi. Ancaq millətimizə, cəmiyyətimizə, dövlətimizə onlar nə qədər zərbələr vurur, işimizi ləngidir, pozur, - bunlar hamısı göz qabağındadır. Bir sözlə, bu çevriliş cəhdi oktyabrdakı dövlət çevrilişi cəhdinin təbii davamıdır və hamısı bir kompleksdir.

Artıq məlumdur ki, bunlar Moskvada yerləşmiş Mütəllibov, Surət Hüseynov, gah Moskvada, gah da deyirlər Azərbaycanda olan Rəhim Qazıyev və onlar kimi adamlar tərəfindən, habelə xarici ölkələrdəki ayrı-ayrı dairələr, Azərbaycandakı ayrı-ayrı mafioz qruplar tərəfindən idarə olunurlar. Təəssüf ki, Azərbaycanda da bəzi siyasi partiyalar, ictimai-siyasi təşkilatlar bu cür adamlardan, quldur dəstələrindən istifadə edir, öz hakimiyyət iddialarını yerinə yetirməyə çalışırlar. Təsadüfi deyil ki, bu son günlərdə Rövşən Cavadovun hərəkətlərinə o partiya ordan, bu partiya burdan müraciət verdi, bəzi partiyalar guya bizimlə onların arasında vasitəçilik etmək istədilər. Hətta bəzi təşkilatlar, partiyalar (ola bilər məndən sonra çıxış edənlər bunları desinlər) ümid bəslədilər ki, bəli, bu gün bizim haqqımızda bəyanat verəcək, biz bundan istifadə edəcəyik, sabah o birisinin haqqında bəyanat verəcək, - istifadə edəcəyik. Bunlar hamısı onu göstərir ki, guya müxalifətdə duran həmin bəzi partiyalar üçün də dövlət, xalq, millət qiymətli deyil. Ancaq öz şəxsi hikkələri, niyyətləri, çirkin hərəkətləri qiymətlidir.

Deməli, bu mənfi qüvvələrin hamısının birləşməsi gətirib Rövşən Cavadov kimi bir amilin meydana çıxmasına səbəb oldu. Hesab edirəm ki, bu, nəinki, bugünkü Azərbaycan üçün böyük bir təhlükə idi, həm də respublikamızın sabahı, gələcəyi üçün təhlükə idi. Çünki bu dəstə, bu qrup, böyük silahlara malik olan, çox böyük cinayətlər etmiş və çox böyük cinayətlər etməyə hazır olan adamlar, şübhəsiz, Azərbaycanı dağıtmağa qadir idilər. Onlar başqa vaxt da dağıda bilərdilər. Necə ki, 1993-cü ilin iyun ayında o birisi qrup dağıtdı, onlardan da çox dağıda bilərdilər. Ancaq mən yenə də məmnuniyyət hissi ilə deyirəm ki, Azərbaycan dövləti artıq özünü qorumağa qadirdir, gücü də, iradəsi də və bütün imkanları var. Azərbaycan öz dövlətçiliyini, müstəqilliyini bundan sonra qoruyub saxlayacaqdır.

Şübhəsiz ki, bütün bunlardan nəticə çıxarmaq lazımdır. Bu gecə bizim həyatımızda böyük faciə baş verib, insanlar tələf olub, qan tökülüb. Binalar dağılıbdır. Bu məhəllədə böyük atəşlər açılıbdır. Bir neçə gün bundan qabaq bu hadisələr Tovuzda, Qazaxda baş veribdir. Ancaq güman edirəm ki, biz artıq bunlara son qoyuruq. Bu itkilərimiz, çətinliklərimiz, bizə vurulan maddi və mənəvi zərbələr nə qədər ağır olsa da, eyni zamanda, onu göstərir ki, Azərbaycanda sabitlik saxlanılır, qorunur və bunu pozmaq heç də mümkün deyil.

Mən sizə deyim ki, bu son günlərdə respublikamızda yaranmış vəziyyət Azərbaycanın beynəlxalq aləmdə imicinə, nüfuzuna çox mənfi təsir göstərməyə başladı. Ayrı-ayrı ölkələrdə öz diplomatik missiyalarına göstəriş verdilər ki, onların əməkdaşları buradan çıxıb getsinlər. Bəzi ölkələrdən buraya gəlməyə hazırlaşan adamlar öz səfərlərini dayandırdılar. İş adamları fikirləşməyə başladılar ki, burada iş aparmaq, investisiya qoymaq bəlkə də bundan sonra təhlükəlidir. Bizdə sabitliyin pozulması Azərbaycanın ətrafında olan ölkələri də narahat edirdi.

Türkiyənin hörmətli prezidenti Süleyman Dəmirəl bu müddətdə Pakistandan mənimlə üç dəfə telefon əlaqəsi saxlayıb. Axırıncı dəfə dünən də zəng etdi. Hər dəfə də narahatçılığını bildirdi.

Azərbaycanda sabitliyin saxlanması, dövlətçiliyin qorunması haqqında rəsmi bəyanat verib. Türkiyənin Baş naziri, hörmətli xanım Tansu Çillər də bu barədə bəyanat verib. ABŞ Dövlət Departamenti bəyanat verib. Başqa ölkələrdən də bəyanatlar gəlir. Burada olan səfirliklərdən narahatçılıq hissi, eyni zamanda bəyanatlar gəlir. Bunlar hamısı onu göstərir ki, Azərbaycanın beynəlxalq aləmdə tutduğu mövqeyə, onun haqqında yaranmış fikrə, addım-addım, qram-qram yığılan imicimizə bu cinayətkarlar bir-iki günün içində nə qədər böyük zərbələr vurublar.

Güman edirəm ki, məsələ artıq hamıya, bütün dünyaya, ölkəyə məlum oldu. Çünki bəzi dairələrdə, təəssüf ki, Moskva televiziyasında bu hadisələrin şərhi şişirdilmiş və qızışdırıcı xarakter daşıyırdı. Bu hadisələrdən qabaq Moskva mətbuatında Mütəllibovun «Azərbaycan böyük dəyişikliklər qarşısındadır, qan töküləcək», Surət Hüseynovun «Azərbaycanda dövlət çevrilişi olacaq, qan töküləcək» məzmunlu müsahibələri verilmişdi. Hətta bir neçə gün bundan qabaq onlar orada bəyanat veriblər – düzdür, mətbuatda bu yoxdur – guya Mütəllibovla Surət Hüseynov hazırlaşırlar ki, bu hadisələr genişlənən kimi gəlsinlər burada hakimiyyətdə iştirak etsinlər. Yaxud, hakimiyyəti ələ alsınlar. Bunlar hamısı puça çıxdı və puça da çıxacaq idi. Mən bunları bilirdim, əmin idim. Ona görə ki, yenə də deyirəm, mən xalqımıza güvənərək buna əmin idim, öz iradəmə güvənərək buna əmin idim.

Ancaq bütün bunlardan nəticə çıxarılmalıdır. O mənada nəticələr çıxarılmalıdır ki, dövlətimizi qoruyan orqanlar gərək öz işlərini daha yaxşı qursunlar, möhkəmləndirsinlər. Çünki bu günlər əldə olunmuş nailiyyətlərlə yanaşı, bu orqanların işində böyük səhvlər, nöqsanlar da aşkar oldu, meydana çıxdı.

Ümumiyyətlə, hər bir insan, vətəndaş və xüsusən vəzifəli şəxs öz mövqeyini artıq müəyyən etməlidir. Son günlər mənə ordan-burdan xəbərlər gəldi: bəzi adamlar oturub fikirləşirlər, külək hansı tərəfə əsir – o tərəfə, bu tərəfə əsir? Mən hansı tərəfdə duracağam, nə təhər eləyəcəyəm? Bəzi adamlar öz qınına çəkilib gözləyirdi ki, nə təhər olacaq, kiminlə birləşəcəyəm, kim gələcək, kim gedəcək? Mən fikirləşirdim: yazıq bu adamlar! Bunlar nə qədər zavallı, nə qədər mənəviyyatsızdırlar ki, indi – Azərbaycan ayağa qalxdığı bir vaxtda da belə fikirlərlə yaşayırlar. Bəziləri bunu istəyirlər, ona görə belə yaşayırlar. Bəziləri yalnız özlərini saxlayıb, qoruyub, nəyin bahasına olursa-olsun, kimin hakimiyyətində – hətta Rövşən Cavadov kimi yaramaz bir adamın hakimiyyəti altında olsun, yaşamaq, öz vəzifəsində qalmaq barədə fikirləşirlər. Bunlar hamısı mənəviyyatsızlıq nümunələridir. Buna görə də hər kəs, hər bir vətəndaş bu işlərdən, proseslərdən nəticə çıxarmalıdır, cəmiyyətimizdə öz mövqeyini bildirməlidir, axıradək bir mövqedə durmalıdır.

Siz mənim mövqeyimi bilirsiniz: Azərbaycanın müstəqilliyi, dövlətçiliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, xalqımızın rifah halı – budur mənim mövqeyim. Azərbaycanın bu bəla vəziyyətindən çıxarılması, respublikamızın demokratiya yolu ilə getməsi, demokratik islahatların aparılması, demokratik seçkilərin keçirilməsi, demokratik Konstitusiyanın qəbul olunması – budur mənim mövqeyim. Mən bu mövqeyimlə yaşayıram, bundan sonra da bu mövqe ilə fəaliyyət göstərəcəyəm. Bütün dünyaya bəyan edirəm ki, heç bir qüvvə məni, xalq tərəfindən seçilmiş qanuni Azərbaycan prezidenti kimi, öz mövqeyimdən çəkindirə bilməz.

Bu gunlərdə gedən proseslər bunu bir daha sübut etdi.

Bax, bu hadisələr haqqında qısa məlumat və bəzi fikirlər bundan ibarətdir. Hesab edirəm ki, bizim güc nazirliklərinin başçıları bu hadisələr haqqında təfsilatlı məlumatlar versinlər ki, hər şey aşkar olsun. Mən buraya gələn gündən, yəni Azərbaycanda işə başladığım gündən aşkarlıq ruhunda fəaliyyət göstərirəm. Ona görə də buradakı çıxışlar canlı yayımla bütün Azərbaycana göstərilir. Mən xahiş etdim ki, buraya müxbirlər dəvət olunsun, onlar deyəsən burada iştirak edirlər. Xalqdan gizli heç bir şeyimiz yoxdur. Bir prezident kimi, mənim xalqdan gizli heç nəyim yoxdur. Hər şeyi açıq deyirəm, sabah da, gələcəkdə də açıq deyəcəyəm. Ona görə də xalqın, əhalinin daha geniş məlumat alması üçün istəyirəm ki, güc nazirlikləri, nazirlər mənim bu çıxışıma əlavə olaraq və yaxud hadisələrin təfsilatını çatdırmaq üçün öz sözlərini desinlər. *

---

* Müşavirədə Milli Təhlükəsizlik nazirinin vəzifəsini icra edən Namiq Abbasov, Daxili İşlər naziri Ramil Usubov, Müdafiə naziri Səfər Əbiyev, Respublika Baş Prokurorunun vəzifəsini icra edən Eldar Həsənov, Baş nazirin vəzifəsini icra edən Fuad Quliyev, Xarici İşlər naziri Həsən Həsənov, Ədliyyə nazirinin birinci müavini Südabə Həsənova və başqaları çıxış etdilər.

## YEKUN ÇIXIŞI

Görürəm ki, çıxış etmək istəyənlər çoxdur. Ancaq bildirmək istəyirəm ki, mənim təxirəsalınmaz çoxlu başqa işim də var. Hesab edirəm ki, artıq baş vermiş olan hadisə, onun səbəbləri və gedən proseslər burada açıq-aşkar bildirildi. Odur ki, mən bir neçə kəlmə ilə bu müşavirəni yekunlaşdırmaq istəyirəm.

Qeyd etmək istəyirəm ki, biz hamımız baş vermiş hadisələrdən nəticə çıxarmalıyıq. Bu hadisələr Azərbaycana müəyyən zərbələr vursa da, bizim üçün yeni dərd, kədər gətirsə də, eyni zamanda, dövlətçiliyimizin möhkəm, qüdrətli olduğunu nümayiş etdirdi və bir daha göstərdi ki, ölkəmizdə, respublikamızda hər bir vətəndaş qanun-qaydaya, Konstitusiyaya, insan hüquqlarının qorunmasına riayət etməlidir. Bir daha hamı bilməlidir ki, zor işlətməklə respublikamızda nəyəsə nail olmaq mümkün deyildir. Biz demokratiya yolu ilə gedirik, gedəcəyik, demokratik proseslərin inkişafı üçün hər cür şərait yaradılacaqdır. Lakin zorakılığa, güc işlədilməsinə yol verilməyəcəkdir. Bu, bizim qanunlarımıza, beynəlxalq hüquq normalarına ziddir və biz bunlara yol verməyəcəyik.

Şübhəsiz, heç kəs istəməzdi, mən də istəməzdim ki, öz şəxsi hikkələrini, şəxsi niyyətlərini zor gücünə həyata keçirməyə çalışan adamlar gəlib respublikamızı belə faciəli vəziyyətə salsın və özləri də həm fiziki, həm də mənəvi cəhətdən məhv olsunlar. Amma bu, onların öz günahıdır və onlara havadarlıq edənlərin, onları qızışdıranların, onlardan alət kimi istifadə edənlərin günahıdır. Bunları deməklə mən bütün siyasi qüvvələrə, qruplara, partiyalara, təşkilatlara, ayrı-ayrı şəxslərə müraciət və xəbərdarlıq edirəm ki, bu yollardan əl çəksinlər.

Respublikamız ağır keçid dövrünü yaşayır. Dərin iqtisadi-sosial böhran içindəyik. Xalqımızın böyük bir qismi maddi-iqtisadi cəhətdən əzab-əziyyət çəkir. Respublikamızdakı bir milyondan artıq qaçqın bizim üçün böyük bir problemdir. Onların həyat tərzi, yaşayışı bizim üçün böyük bir problemdir. Onların həyat tərzi, yaşayışı bizim diqqət mərkəzimizdədir. Ancaq, eyni zamanda onlara lazımi qayğı göstərmək üçün bizə işləməyə imkan vermək gərəkdir. Qeyri-qanuni yollarla zənginləşmiş qanunu pozan, mənəviyyatımıza zidd həyat tərzi keçirən ayrı-ayrı adamlar düşünməlidirlər ki, xalqın əksəriyyəti ağır vəziyyətdə yaşayır. Ağır vəziyyətdə yaşayanlar o kəslərdir ki, biz müharibə şəraitinə düşdüyümüz vaxtdan indiyədək respublikanın ağırlıqlarını öz üzərlərində aparırlar. Ona görə də bu hadisələr, bu faciə hər kəsə, hər bir siyasi quruma, hər bir ictimai təşkilata, hər bir siyasi partiyaya xəbərdarlıq kimi qəbul olunmalıdır.

Mən bir daha böyük məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, xalqımız yenə ağır bir sınaqdan çıxdı. Həm də bu sınaqdan çıxmağa xalqımızın müdrikliyi, milli həmrəyliyi, inamı, dövlətçiliyə hörmət və ehtiramı kömək etdi. Mən Azərbaycanın bütün vətəndaşlarını bir daha həmrəyliyə dəvət edirəm. Azərbaycanın bütün siyasi qurumlarını, təşkilatlarını, partiyalarını bir daha həmrəyliyə dəvət edirəm. Azərbaycanın bu günü və gələcəyi naminə. Əminəm ki, biz bu böyük sınaqdan çıxaraq, respublikada vəziyyəti daha da sabitləşdirməyə və qarşımızda duran vəzifələri həyata keçirməyə nail olacağıq. Mən buna əminəm. Dövlətçiliyə, Azərbaycanın Konstitusiyasına, Azərbaycanın hüquqi dövlət qurumuna xalq tərəfindən göstərilən bu dəstək, hörmət və ehtirama görə bütün Azərbaycan vətəndaşlarına, Azərbaycan xalqına təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bu ağır sınaq dövründə mərdlik və cəsarət göstərənlərə, xalqımızı bu böyük bəladan xilas edənlərə qəlbimdəki ən gözəl hissləri çatdırıb təşəkkürümü, minnətdarlığımı bildirirəm. Milli ordumuza, onun əsgərlərinə, zabitlərinə, hüquq-mühafizə orqanlarında fəaliyyət göstərən sədaqətli əməkdaşlara və bu ağır günlərdə çox zəhmət, əziyyət çəkmiş dövlət orqanlarına, vətəndaşlarımıza təşəkkürümü, minnətdarlığımı bildirirəm. Bu günlərdə respublikamıza böyük maraq göstərmiş, dövlətçiliyimizin qorunması sarıdan narahat olmuş və bizi dəstəkləmiş xarici ölkələrin rəhbərlərinə, onların diplomatik nümayəndəliklərinə, səfirliklərinə təşəkkürümü, minnətdarlığımı bildirirəm.

Bu faciəli gündə Azərbaycanın dövlətçiliyini qoruyaraq, cəsurluq göstərib şəhid olanların xatirəsini yad edirəm, onlara Allahdan rəhmət diləyirəm, ailələrinə başsağlığı verirəm, onlara Tanrıdan səbr diləyirəm. Onlar əmin ola bilərlər ki, Azərbaycan dövləti, Azərbaycan prezidenti qəhrəmanlıq göstərmiş şəhidlərimizin xatirəsini heç vaxt unutmayacaqlar. Şəhidlərin xatirəsi əbədiləşdiriləcək və ailələri daim dövlətin qayğısı ilə əhatə olunacaqlar.

Mən hesab edirəm ki, bu gün biz irəliyə daha inamla, nikbinliklə baxa bilərik. Qarşımızdakı planların həyata keçirilməsi üçün daha sərbəst fəaliyyət göstərə bilərik və əminəm ki, bizim gələcəyə doğru yolumuz uğurlu olacaqdır.

Hamımıza təşəkkür edirəm və bununla da bugünkü görüşü sona çatdırıram. Sağ olun.

## TÜRK DÖVLƏT VƏ TOPLULUQLARININ VIII DOSTLUQ, QARDAŞLIQ VƏ İŞBİRLİYİ QURULTAYINA

Hörmətli qurultay iştirakçıları!

Sizə – türk dövlət və topluluqlarının Samsunda keçirilən növbəti qurultayının nümayəndələrinə səmimi salamlarımı, ən xoş arzularımı yetirməkdən sonsuz qürur duyuram.

Bəşər tarixinə silinməz səhifələr yazmış, dünya sivilizasiyasının təşəkkülündə və inkişafında misilsiz rol oynamış türk xalqları zaman-zaman qlobal antitürk siyasəti ilə üzləşmişlər. Bizi uzun müddət bir-birimizdən ayrı salmağa, təkləməyə, möhtəşəm tarixi keçmişimizdən təcrid etməyə çalışmışlar. Lakin türk əzminin böyüklüyü, türk ruhunun əbədiyaşarlığı xalqlarımızın mənəvi bütövlüyünün parçalanmasına imkan verməmişdir. Biz əyilməmişik, sınmamışıq, tarixi türk kökümüzdən qaynaqlanaraq daim gələcəyə inamla baxmağı bacarmışıq. Bu gün öz taleyinin sahibi olan azad xalqlarımız və müstəqil cümhuriyyətlərimiz beynəlxalq aləmdə layiqli yerini tutur, başımız üstündə dalğalanan ay-ulduzlu mübarək bayraqlarımız basılmaz türk ruhunun təntənəsini dünyaya nümayiş etdirir.

Əziz dostlar!

Bildiyiniz kimi, türkdilli dövlətlərin zirvə görüşləri də gözəl bir ənənəyə çevrilmişdir. Növbəti zirvə toplantısı aprel ayında Bakıda keçiriləcəkdir. Dövlət rəhbərləri, ictimai-siyasi xadimlər, nüfuzlu elm, mədəniyyət adamları həmçinin ümummilli sərvətimiz olan «Kitabi-Dədə Qorqud» dastanlarının həmin günlərdə keçirilən yubiley təntənələrinə – Dədə Qorqud ocağına yığışacaqlar. Zirvə toplantısında ümummilli problemlərimiz qarşılıqlı münasibətlərimiz, xalqlarımız arasında hərtərəfli işbirliyinin perspektivləri, dövlətlərimizin sivilizasiyalı beynəlxalq aləmə inteqrasiyası yolları araşdırılacaqdır.

Əmin olduğumu bildirmək istəyirəm ki, türk dünyasının düşüncə adamlarının toplaşdığı növbəti dostluq, qardaşlıq və işbirliyi qurultayı da əməldə, fikirdə birlik kimi, ümumtale işimizə, xalqlarımızın milli-mənəvi bütövlüyünə öz layiqli töhfəsini verəcəkdir.

Qardaş xalqlarımızın bir-birinə daha da yaxınlaşmasında, mənəvi birliyimizin möhkəmlənməsində, milli, mədəni, tarixi dəyərlərimizin bizə bəxş etdiyi imkanların türk dünyasının ümumi mənafe işinə səfərbər olunması yolunda göstərdiyiniz fəaliyyəti yüksək qiymətləndirir, bu şərəfli yolda hər birinizə böyük uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 mart 2000-ci il*

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Xalqımızın əziz günü – qədim Novruz bayramı münasibətilə hamınızı ürəkdən təbrik edir, sizə xoş Novruz əhval-ruhiyyəsi arzulayıram.

İnsanları baharın gəlməsi, təbiətin oyanması, həyatın canlanması ilə müjdələyən Novruz bayramı ən qədim dövrlərdən bəri xalqımızın sevinc, şadlıq bayramı olmuş, tariximizin müxtəlif dövrlərində bəzi təzyiqlərə, süni maneələrə məruz qalmasına baxmayaraq bu günə qədər gəlib çatmışdır. Bu milli bayramımızın indi dövlət səviyyəsində geniş qeyd olunması Azərbaycanın müstəqilliyinin bəhrələrindəndir.

Novruz bayramı ürəklərdə saf duyğuların oyanması üçün, insanlar arasında səmimiyyət, mehribanlıq və qardaşlıq tellərinin möhkəmləndirilməsi, onların bir-birinə qayğı və diqqətinin artırılması üçün gözəl zəmin yaradır. Yaxınların yad olunması, umu-küsünün, kin-küdurətin aradan qaldırılması, cəmiyyətdə qarşılıqlı xoş münasibətlərin bərqərar olması Novruzun əsrlərin süzgəcindən keçərək formalaşmış gözəl ənənələrindəndir.

Bu bayram günlərində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş vətən övladlarının xatirəsini uca tutaraq onların qohum-əqrəbalarına ulu Tanrıdan səbr diləyirəm. İnanıram ki, Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsi, onun ərazi bütövlüyünün bərpa edilməsi, ölkəmizdə sülhün və əmin-amanlığın tam bərqərar olunması yolunda atdığımız hər bir uğurlu addım şəhidlərimizin ruhunu şad edəcəkdir.

Əziz günlərdə etdiyimiz ən ümdə arzu və diləklərdən biri də erməni təcavüzü nəticəsində torpaqlarından didərgin düşmüş soydaşlarımızın öz ev-eşiklərinə qaytarılmasıdır. Qoy bu arzu və diləklər gerçəkləşsin, qaçqın və köçkün bacı-qardaşlarımız gələcək Novruz bayramlarını öz ocaqları başında qeyd etsinlər.

Dünyanın müxtəlif güşələrində yaşayan bütün azərbaycanlılar bu ulu bayramı böyük təntənə ilə qeyd edirlər. Onların hamısını salamlayır, bayram münasibətilə hər birinə səmimi təbriklərimi göndərirəm.

Əziz bacı və qardaşlar!

Builki Novruz bayramı xalqımızın qədim mənəvi sərvəti – ölməz «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi təntənələrinin geniş keçirildiyi bir dövrə təsadüf edir. Hər iki hadisə Azərbaycan xalqının öz tarixi keçmişinə, milli köklərinə və ulu əcdadlarımızın qoyub getdiyi zəngin irsə, adət-ənənələrə bağlılığını və sədaqətini nümayiş etdirir.

Bahar bayramının bu il qeyd edilməsi onun əsrlərin, minilliklərin qovuşduğu bir məqama düşməsi ilə də əlamətdardır. Biz gələcəyə böyük nikbinlik və ümid ilə baxırıq. Əminəm ki, yeni əsrdə, yeni minillikdə xalqımız azad, müstəqil, demokratik bir ölkədə xoşbəxt və firavan yaşayacaq, bütün əziz günlərini həmişə ən xoş əhval-ruhiyyə ilə bayram edəcəkdir.

Novruz bayramı münasibətilə sizə cansağlığı və səadət diləyir, vətənin tərəqqisi naminə işlərinizdə böyük uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *18 mart 2000-ci il*

## 2000-ci il MARTIN 26-da KEÇİRİLƏCƏK BƏLƏDİYYƏ SEÇKİLƏRİ İLƏ ƏLAQƏDAR MÜŞAVİRƏDƏ NİTQ

*Prezident sarayı*

*20 mart 2000-ci il*

Mən sizin hamınızı, Azərbaycanın bütün vətəndaşlarını Novruz bayramı münasibətilə təbrik edirəm, hər bir insana, ölkəmizin hər bir vətəndaşına cansağlığı, səadət və uğurlar arzulayıram.

Bu gün sizi bayram tədbirlərindən ayırıb müşavirəyə dəvət etməkdə məqsəd ondan ibarətdir ki, bu, çox zəruridir. Çünki dekabrda keçirilmiş bələdiyyə seçkiləri zamanı seçkilər baş tutmayan məntəqələrdə, yaxud bəzi nöqsanlara, səhvlərə görə seçkilərin nəticələri ləğv olunmuş məntəqələrdə martın 26-da yeni seçkilər, yəni ikinci tur keçiriləcəkdir. Mən buna böyük əhəmiyyət verərək, lazım bildim ki, siz - bələdiyyə seçkilərinin yenidən keçiriləcəyi rayonların icra hakimiyyəti başçıları və respublikanın bir sıra digər yüksək vəzifəli şəxsləri bu müşavirəyə dəvət edilsinlər.

Azərbaycanda bələdiyyə seçkiləri ilk dəfədir ki, keçirilir. Bu, bizim ölkəmizdə demokratik qaydada qurulmuş təsisatlar sisteminin bir hissəsidir. Bu, bizim üçün yeni bir qurumdur, onun da özünəməxsus tələbləri vardır. Bunlar Azərbaycan Respublikasının Konstitusiyasında təsbit olunubdur. Təbiidir ki, Konstitusiyada ümumi müddəalar verilibdir. Ancaq bizim dövlət həyatımızda, ictimai-siyasi həyatımızda bələdiyyələrin rolu, vəzifələri hələ bundan sonra daha da açılacaq, vətəndaşlar və bələdiyyələrin özləri tərəfindən dərk olunacaqdır. Bunlar hamısı bələdiyyələrin istənilən səviyyədə fəaliyyət göstərməsini təmin edəcəkdir.

Biz bələdiyyə seçkilərinə xüsusi əhəmiyyət veririk. Çünki onlar yeni yerli, eyni zamanda qeyri-dövlət idarəetmə orqanlarıdır. Azərbaycanda belə orqanların yaranması ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesinin bir hissəsidir və demokratiyanın inkişaf etməsinin bir mərhələsidir.

Qeyd etdiyim kimi, bu, bizim üçün yenidir. Ola bilər ki, buradakı ilk addımlarda səhvlər də, çatışmazlıqlar da olsun. Bunlar da ötən seçkilər zamanı olubdur. Amma keçən ilin dekabr ayında bələdiyyələrə seçkilər keçirilməsi Azərbaycanda demokratiyanın inkişaf etməsi sahəsində irəliyə doğru atılmış yeni bir addımdır. Mən əminəm ki, biz bu ilk addımlarımızı sonralar daha da gücləndirəcəyik və Azərbaycanda bələdiyyə sistemi yaranacaq, fəaliyyət göstərəcəkdir, bir demokratik ölkə kimi Azərbaycanın inkişafına öz xidmətlərini verəcəkdir.

Dekabrın 12-də seçkilər ümumiyyətlə, uğurla keçibdir, onların nəticələri müsbət qiymətləndirilir. Müşahidəçilər tərəfindən bu seçkilərin nəticələri belə qiymətləndirilibdir ki, bu, demokratiya sahəsində yeni dəyərli bir addımdır. Ancaq dediyim kimi, səhvlər də, çatışmazlıqlar da olubdur. Bəzən görünür ki, bu səhvlər, çatışmazlıqlar insanların bu seçkilərin keçirilməsində lazımi səriştəsi olmamağından, yaxud da, sadəcə, məsələyə məsuliyyətsiz yanaşmağından baş veribdir. Bəzən də ayrı-ayrı yerlərdə kobud səhvlər buraxılıbdır.

Bilirsiniz ki, Bakı şəhərinin Nərimanov rayonunda kobud səhvlər buraxıldığına görə həmin rayonun icra hakimiyyəti başçısını elə bələdiyyə seçkiləri keçirilən gündə işdən azad etdim. Mən belə qərar qəbul edərək bütün dövlət orqanlarını və xüsusən, yerli icra hakimiyyəti orqanlarını, onların başçılarını xəbərdar etmək və onlara bildirmək istədim ki, biz hər bir məsələnin demokratik yolla həll olunmasını istəyirik. Hər bir seçki demokratik yolla keçirilməlidir. Demokratiya təmin edilən yerdə onun nəticələri də ədalətli və bizim üçün də məqbul olacaqdır. Ancaq bizim bəzi vəzifəli şəxslər, o cümlədən icra hakimiyyəti başçıları hələ ki, köhnə əhval-ruhiyyədən xilas ola bilməyiblər. Ona görə də buraxdıqları səhv həm bizim ümumi işimizə zərər gətirir, həm də onlar özləri vəzifələrindən məhrum olurlar.

Bilməlisiniz ki, bu, belə də olacaqdır. Çünki demokratik prinsiplərin həyata keçirilməsi Azərbaycanda demokratik dövlət quruluşunun ardıcıl surətdə təmin olunması üçün lazımdır. Amma kimsə hesab edirsə ki, o, başqa cür də hərəkət edə bilər və onun bu başqa cür hərəkəti guya Azərbaycanın dövlətçiliyinə, yaxud da bugünkü hakimiyyətə xidmət edir, çox böyük səhv edir. Bugünkü hakimiyyət – həm Azərbaycanın ali qanunvericilik orqanı parlament, həm də Azərbaycan prezidenti demokratik seçkilər əsasında seçilmiş hakimiyyətdir. Bugünkü iqtidar, hakimiyyət son yeddi ildə Azərbaycanda gördüyü işlərə, fəaliyyətinə görə Azərbaycan vətəndaşlarının əksəriyyətinin dəstəyinə nail olubdur, hüsn-rəğbətini qazanıbdır. Ona görə də bu həqiqət seçkilərdə həmişə təmin olunmalıdır.

Hansısa süni hərəkətlər edib, yəni nəyisə süni yolla düzəltməyə çalışmaq, - bu gün mən sizə, həm də ölkəmizin bütün ictimaiyyətinə, Azərbaycanın iqtidarında olan bütün şəxslərə, həm də bütün icra orqanlarında çalışanlara deyirəm, - belə hərəkətlər bizə zərər gətirir. Bizim bunlara ehtiyacımız yoxdur. Çünki bugünkü iqtidar Azərbaycan vətəndaşlarının əksəriyyətinin dəstəyini qazanıbdır. Əgər dəstəyini qazanıbsa, demək, onların əksəriyyəti də bugünkü iqtidara səs veribdir və səs verəcəkdir.

Ancaq eyni zamanda, təbiidir, demokratiya ondan ibarət deyildir ki, hamı bir adama, bir qüvvəyə səs versin. Demokratiya ondan ibarətdir ki, demokratiya, demokratik seçkilər cəmiyyətin müxtəlif təbəqələrinin fikirlərini əks etdirsin. Biz heç vaxt iddia etmirik ki, son vaxtlar ölkəmizdə nə qədər çox iş görmüşüksə, Azərbaycan vətəndaşlarının hamısı bizi dəstəkləyir. Yox, narazı olan təbəqələr, bugünkü siyasəti sadəcə, anlamayanlar, yaxud da ki, hakimiyyət uğrunda mübarizə edərək, təbiidir, öz məqsədlərinə nail olmaq üçün bugünkü iqtidarın əleyhinə təbliğat aparanlar vardır. Bəzi adamlar həmin təbliğatın təsiri altına düşürlər. Bunlar hamısı təbii haldır, ona öyrəşmək lazımdır. Bunları inkar etmək lazım deyildir. Ona görə də həm bu dəfəki, həm gələcəkdəki seçkilər – bütün seçkilər gərək ədalətli, demokratik olsun. Bunu da biz hamımız təmin etməliyik. Yerli icra hakimiyyəti orqanları isə burada öz üzərinə düşən vəzifələri həyata keçirməlidirlər. Onlar qanunsuz hərəkətlərlə – guya Azərbaycan iqtidarının nümayəndələrinə kömək etmək məqsədi ilə – əksinə, bizim işimizə zərər gətiriblər.

Mən bu sözləri əvvəlcədən deyərək, bildirmək istəyirəm ki, sizi bura dəvət etmişəm ki, bu barədə bir daha xəbərdarlıq edim.

Hesab edirəm ki, Mərkəzi Seçki Komissiyasının sədri Cəfər Vəliyev sizin qarşınızda duran vəzifələr və vəziyyət haqqında öz fikirlərini söyləməlidir. Ondan sonra, lazım olsa, mən indi dediklərimə əlavə edə bilərəm. Buyurun.

* * *

**C ə f ə r  V ə l i y e v** (*Mərkəzi Seçki Komissiyasının sədri*): Möhtərəm cənab prezident!

Hörmətli müşavirə iştirakçıları!

Məlum olduğu kimi, 1999-cu il dekabrın 12-də respublikamızda bələdiyyələrə seçkilər uğurla keçdi. Azərbaycan dövlətçiliyi tarixində yerli özünüidarə orqanlarına ilk seçkilər hazırlıq tədbirlərinin miqyasına, seçkilərdə iştirak edən seçki komissiyaları üzvlərinin, bələdiyyə üzvlərinə namizədlərin və onların vəkillərinin, 26 siyasi partiyanın və ictimai birliyin, habelə müşahidəçilərin sayına görə çox mühüm və böyük bir tədbir idi. Açıq və aşkar şəraitdə həyata keçirilən seçki tədbirlərinə 350 min nəfərdən artıq adam cəlb olunmuşdu.

Xarici ölkələrin və beynəlxalq təşkilatların, o cümlədən Avropanın Yerli və Regional Hakimiyyətlər Konqresinin, ABŞ-ın Beynəlxalq Seçki Sistemləri Fondunun və Milli Demokratiya İnstitutunun, Şərqi Avropa Demokratiya İnstitutunun, bəzi ölkələrin səfirliklərinin 40-a qədər müşahidəçisi də Mərkəzi Seçki Komissiyasında akkreditə olunmuşdur.

Avropanın Yerli və Regional Hakimiyyətlər Konqresi bələdiyyə seçkilərini ölkəmizdə demokratiya istiqamətində atılmış ilkin və mühüm addımlardan biri kimi qiymətləndirmişdir. Açıq və aşkar şəraitdə keçən seçkilər nəticəsində respublikamızda 51 şəhər, şəhərlərdə 8 rayon, 123 qəsəbə və 2409 kənd bələdiyyəsinə ümumən 20456 üzv seçilmişdir.

Bələdiyyə seçkiləri əhaliyə yerli özünüidarənin yaranmasında fəal iştirak etmək imkanı verdi, öz seçib-seçilmək hüquqlarından istifadə etməyə onların böyük maraq və məsuliyyətlə yanaşmasına, demokratik dövlət quruculuğu ilə irəliləyən ölkəmizdə ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə kömək etdi.

Lakin bələdiyyələrə ilk seçkilərin hazırlanması və keçirilməsi dövründə yol verilmiş bir sıra nöqsanlar nəticəsində bəzi seçki ərazilərinin 16 bələdiyyəsinə seçki baş tutmamış, səsvermənin gedişinə və səslər hesablanarkən onların nəticələrinə təsir göstərən qanun pozuntuları baş verdiyinə görə Mərkəzi Seçki Komissiyasının, həmçinin ayrı-ayrı ərazi seçki komissiyalarının qərarları ilə 60 bələdiyyədə seçkilərin nəticələri ləğv olunmuşdur.

Beləliklə, «Bələdiyyələrə seçkilərin qaydaları haqqında» qanuna müvafiq olaraq bu il martın 26-da 26 seçki ərazisinin 76 bələdiyyəsinə təkrar seçkilər təyin edilmişdir.

Mərkəzi Seçki Komissiyası bələdiyyələrə ilk seçkilərin təcrübəsini ümumiləşdirərək seçki komissiyalarının işinə tənqidi yanaşmışdır və indi təkrar seçkilərə ciddi hazırlıq gedir. Bir sıra ərazi və məntəqə seçki komissiyalarının tərkibi təzələnmiş, onların işindəki qüsurların aradan qaldırılması üçün tədbirlər görülmüşdür.

Cənab prezident, Mərkəzi Seçki Komissiyasının üzvləri və MSK aparatının məsul işçiləri dəfələrlə yerlərə getmiş, seçkilərə hazırlığın gedişi ilə tanış olmuş, seçki qanunu müddəalarının praktiki tətbiqi qaydalarını izah etmiş, komissiyalara yardım göstərmişlər.

Mərkəzi Seçki Komissiyası təkrar seçkilərin keçiriləcəyi ərazilərin ərazi seçki komissiyaları sədrlərinin seminar-müşavirələrini təşkil etmişdir. Sonuncu müşavirədə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri cənab Ramiz Mehdiyev iştirak etmişdir.

Cənab prezident, Siz də qeyd etdiniz, məlum olduğu kimi, ötən ilin dekabr seçkiləri zamanı Nərimanov rayonunda qanun pozuntularına yol verildiyinə görə burada seçki baş tutmamış sayılmışdır. Bələdiyyəyə təkrar seçkilərdə həmin nöqsanların təkrar olunmaması üçün seçki ərazisində xeyli iş aparılmış, ərazi və məntəqə seçki komissiyalarının tərkibi təzələnmiş, onların fəaliyyətini yaxşılaşdırmaq üçün bir sıra tədbirlər görülmüşdür.

Bununla belə, mart ayının əvvəllərində biz həmin rayonda bir daha araşdırma apardıq. Məlum oldu ki, yenə də bəzi nöqsanlara yol verilmişdir. Biz məcbur olduq ki, aşkar etdiyimiz nöqsanlarla əlaqədar martın 18-də yeni bir seminar keçirək. Mənim iştirakımla keçirilən bu təlim-seminarda biz çox ciddi söhbət apardıq.

**H e y d ə r Ə l i y e v:** Yəni Nərimanov rayonunda yenə də nöqsanlara yol verilir?

**C ə f ə r V ə l i y e v:** Bəli, bu yaxınlaradək bəzi məntəqələrdə nöqsanlar var idi. Cənab prezident, biz oraya komissiya göndərmişdik. Mən özüm də oraya getdim, ərazi və məntəqə seçki komissiyalarının sədrləri və üzvlərinin hamısının iştirakı ilə bir daha seminar keçirdim. İki saat ərzində bütün nöqsanları bir daha araşdırdıq. Onlar söz verdilər ki, bütün bu nöqsanları 10 gün müddətində aradan qaldıracaqlar.

**H e y d ə r Ə l i y e v:** Yaxşı, onlar özləri üçün nəticə çıxarmayıblar? İcra hakimiyyətinin başçısı vəzifəsindən azad edilibdir, yeni başçı təyin olunubdur. Bəs belə olarmı ki, hələ də nöqsanlara yol verilir? Bunlar xəstədir, nədir?

**R ə f a e l A l l a h v e r d i y e v** (*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*): Cənab prezident, bu nöqsanlar Nərimanov Rayon İcra Hakimiyyətinin yox, seçki komissiyasının işindədir.

**H e y d ə r Ə l i y e v:** Seçki komissiyasının üzvləri də Nərimanov rayonunun vətəndaşlarıdır.

**R ə f a e l A l l a h v e r d i y e v:** Cənab prezident, Siz dediyiniz kimi, onlar köhnə təsəvvürlü adamlardır. Onlar elə bilirlər ki, guya bu hərəkətləri ilə bizə yaxşılıq edirlər. Hətta namizədlərin arasında da belələri vardır. Cəfər Vəliyev bu işə düzgün qiymət verdi. Ondan sonra məhkəmələr də bu məsələ ilə əlaqədar şikayətlərə baxdılar, 5 nəfərin namizədliyini bərpa etdilər. Mən Sizə söz verə bilərəm ki, Sizin qarşımıza qoyduğunuz vəzifələr Nərimanov rayonunda tam həyata keçiriləcəkdir.

**H e y d ə r Ə l i y e v:** Yaxşı.

**C ə f ə r V ə l i y e v:** Cənab prezident, biz kömək məqsədi ilə orada yoxlama aparmışıq. Bildiyiniz kimi, 76 bələdiyyədən ən böyüyü Nərimanov rayon bələdiyyəsidir.

**H e y d ə r Ə l i y e v:** Doğru deyirsiniz, həmin rayonun ərazisi başqalarına nisbətən böyükdür.

**C ə f ə r V ə l i y e v:** Cənab prezident, bəli. Həmin rayonun 70 seçki məntəqəsi, 100 minə qədər seçicisi vardır. Ona görə də mən özüm oraya getdim, icra hakimiyyətinin başçısı ilə danışdım ki, sən lazım deyilsən, seminarı mən özüm keçirəcəyəm. Biz həmin seminarı özümüz keçirdik və onların qarşısında duran əsas vəzifələri müəyyənləşdirdik. Mənə elə gəlir ki, orada vəziyyət yaxşılaşıb və daha da yaxşılaşacaqdır.

Onu da qeyd edim ki, Avropa Şurasını təmsil edən ekspertlər qrupunun üzvləri dekabrın 12-də Şamaxı seçki ərazisinin Şamaxı şəhərində seçki zamanı seçkilərin gedişinə müdaxilə edilməsi faktı ilə də qarşılaşmışdılar.

Cənab prezident, yeri gəlmişkən onu da bildirmək istəyirəm ki, bizdə olan məlumata görə, Avropanın Yerli və Regional Hakimiyyətlər Konqresinin, habelə bəzi beynəlxalq təşkilatların bu günlərdə respublikamıza gələcək nümayəndələri və müşahidəçiləri bələdiyyələrə təkrar seçkilərdə də seçki ərazilərində olacaq, seçki məntəqələrində səsvermənin gedişi, seçki başa çatdıqdan sonra səslərin hesablanması prosesləri ilə yenidən maraqlanacaqlar. Onların hansı rayonlarda olacağını biz hələ bilmirik.

Mən bugünkü müşavirədə fürsətdən istifadə edib demək istəyirəm ki, gərək hamınız bu işə hazır olasınız. Onlar məntəqələrdə həm gündüz olacaq, oradakı qayda-qanuna baxacaqlar, həm də gecə qutular açıldıqdan sonra səslərin hesablanmasında iştirak edəcəklər.

Yuxarıda göstərdiyim mənfi hallara bir daha yol verilməməsi üçün son aylarda seçki ərazilərində lazımi iş aparılmışdır. Müvafiq seçki ərazilərində Mərkəzi Seçki Komissiyası üzvlərinin iştirakı ilə məntəqə seçki komissiyaları üçün bu günlərdə növbəti seminarlar keçirilir.

Cənab prezident, Mərkəzi Seçki Komissiyasının bir çox üzvləri hazırda rayonlardadırlar. Onların 7-8 nəfəri bu gün səhər mənə zəng ediblər, məlumat veriblər ki, hazırlığın vəziyyəti pis deyildir, amma nöqsanlar da vardır. Mən onlara tapşırdım ki, hələ öz işlərini davam etdirsinlər, bütün nöqsanların aradan qaldırılmasına kömək göstərsinlər.

Bələdiyyələrə təkrar seçkilərin son hazırlıq işlərini yoxlamaq, səsvermə günü yerlərdə seçki komissiyalarına metodiki yardım göstərmək məqsədi ilə Mərkəzi Seçki Komissiyasının üzvləri martın 24-dən 26-dək seçki ərazilərində olacaqlar.

Seçicilər arasında izahat işi aparılması üçün Mərkəzi Seçki Komissiyası üzvlərinin dövlət televiziyası ilə çıxışlarına, eləcə də təşviqat xarakterli telekliplərin nümayiş etdirilməsinə başlanmışdır. Bir sıra beynəlxalq təşkilatların köməyi ilə hazırladığımız teleklipler martın 21-dən 26-dək dövlət televiziyasında nümayiş etdiriləcəkdir. Biz Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin rəhbərliyi ilə bu barədə danışıqlar aparmışıq. Bundan əlavə, komissiyanın bir sıra üzvləri də televiziyada çıxış edəcəklər.

Bütün bunlarla yanaşı, seçkiyədək qalan qısa müddətdən maksimum istifadə olunmalıdır. İlk növbədə seçicilərin səsverməyə fəal gəlişini təmin etmək qayğısına qalmaq lazımdır. Bu, ən mühüm məsələlərdən biridir.

Bir məsələni də qeyd etmək istəyirəm ki, keçmiş zamanların rəqəmlərindən birdəfəlik əl çəkmək lazımdır. Bizim hamımıza 25–26, 27–30 faiz lazımdır. İndi 60–70 faiz rəqəmləri olmamalıdır. Doğrudur, bəzi rayonların icra hakimiyyəti başçıları deyirlər ki, Cəfər müəllim, kənd yeridir, ola bilər, hamı seçkilərdə iştirak etsin. Mən də bildirdim ki, bəli, əgər hamı seçkilərdə iştirak etsə, buna kimin nə sözü vardır?!

**H e y d ə r Ə l i y e v:** Bəli, hamı seçkilərə gəlməlidir. Gərək iş elə təşkil olunsun ki, hamı seçkilərdə iştirak etsin.

**C ə f ə r V ə l i y e v:** Bəli, təşkil etmək lazımdır ki, seçicilərin heç olmasa 25–26, 27–30 faizi seçkilərdə iştirak etsin.

İlk növbədə məntəqələrin yeri və seçkinin keçiriləcəyi vaxt barədə seçicilərə vaxtında məlumat çatdırmaq lazımdır. Məsələn, Nərimanov rayonunda seçicilərə bildiriş göndəriblər. Mən bu bildirişin qaydalarını onlara ətraflı izah etmişdim. Demişdim ki, bildirişi aparıb həyətə atıb qayıtmaq olmaz.

Bələdiyyə üzvlüyünə namizədlər haqqında da seçicilərə bir daha ətraflı məlumat vermək lazımdır. Seçkilərə hazırlığın daha yaxşı təşkil edilməsində məntəqə seçki komissiyası üzvlərinin, mənzil istismar idarəsi işçilərinin, seçki məntəqələrinin əksəriyyətinin yerləşdiyi məktəblərin müəllimlərinin və yuxarı sinif şagirdlərinin qüvvəsindən daha səmərəli istifadə etmək lazımdır. Kütləvi informasiya vasitələrinin, küçə və meydançalarda asılan təşviqat materiallarının da bu işə köməyi ola bilər.

Mən bir məsələni də qeyd etmək istəyirəm. Gələn qonaqlar yəqin ki, Nərimanov rayonunda olacaqlar. Hər bir seçki məntəqəsində guşələr düzəltmək lazımdır, orada namizədlərin tərcümeyi-halı, fotoşəkli olmalıdır. Ötən dəfə bu işdə nöqsanlara yol verilmişdi. Qonaqlar bu məsələlərə xüsusi diqqət yetirəcəklər. Xarici nümayəndələr martın 24-də Bakıda olacaqlar. Ola bilsin ki, Sumqayıta yox, Şamaxıya, başqa rayonlara da getsinlər. Xahiş edirəm, mən dediyim məsələləri qeyd edin və onların həll olunmasını yaddan çıxarmayın.

Yeri gəlmişkən, seçki komissiyalarının telefon rabitəsi, nəqliyyat vasitələri, elektrik enerjisi ilə təminatı da vacib şərtdir. Mən respublika Rabitə Nazirliyinin və «Azərenerji» Səhmdar Cəmiyyətinin rəhbərlərinə bu barədə məktub yazmışam, seçki keçiriləcək məntəqələrin siyahısını onlara göndərmişəm.

Nərimanov rayonunda məntəqə seçki komissiyalarının sədrləri metrodan pulsuz istifadə etmək istərkən onların vəsiqələrinə heç bir əhəmiyyət verilməyibdir. Mən metropolitenin rəisinə bu barədə məktub göndərdim və izah etdim ki, məntəqə seçki komissiyalarının sədrləri və üzvləri qanuna əsasən Bakı şəhərində metrodan pulsuz istifadə etməlidirlər. Biz bu sadə məsələləri dərk etməliyik.

Zənnimizcə, icra hakimiyyəti orqanları, müəssisə, təşkilat, idarə rəhbərləri bütün məsələlərin həll olunmasında seçki komissiyalarına yaxından kömək göstərməlidirlər. Seçki günü səsvermə binalarının, seçki nəticələrinin hesablanacağı otaqların elektrik enerjisi ilə fasiləsiz təmin olunmasına xüsusi fikir verilməlidir. Məncə, bunun nə qədər mühüm olduğunu izah etməyə lüzum yoxdur. Ancaq mən bu müşavirədən əvvəl bəzi yoldaşlara bir daha dedim ki, məntəqədə gecə saat 3.00-dək, bəlkə də səhərədək iş davam edəcək, ona görə də həmin ərazilərdə daim elektrik enerjisi olmalıdır. Çünki onlar bütün sənədləri həmin gecə hazırlamalıdırlar.

Mən bir məsələni də bildirmək istəyirəm. 76 bələdiyyəyə üzv seçilmək üçün 1300 namizəd vardır. Məntəqə seçki komissiyalarına kənardan heç bir təsir göstərilməməlidir. Hansı partiyanın üzvü olmasına baxmayaraq, hər kəs qanun yolu ilə səs toplamalıdır, seçilməlidir. Rayon icra hakimiyyəti başçıları məntəqə seçki komissiyalarının işinə qətiyyən qarışmamalıdırlar. Komissiyalar öz işlərini bilirlər, biz onlarla lazımi seminarlar keçirmişik, MSK-nın nümayəndələri də yerlərdədirlər.

Seçkilərədək qalan günlərdə seçki məntəqələrinin mühafizəsində, seçki günü asayişin qorunmasında, səsvermənin nəticələri müəyyən olunduqdan sonra protokolların və digər sənədlərin yuxarı seçki komissiyalarına təhlükəsiz çatdırılmasında polis orqanlarının köməyinə böyük ehtiyac vardır.

Mən daxili işlər naziri Ramil Usubovla bu barədə dəfələrlə danışmışam. Biz bu gün də danışdıq, siyahını ona verəcəyik. Mən cənab prezidentin yanında bir daha qeyd edirəm ki, Daxili İşlər Nazirliyi ötən dəfə bu işdə yaxından iştirak etdi. Mən əminəm ki, onlar bu dəfə bə bizə yaxından kömək göstərəcəklər.

Cənab prezident, icazə verin, çıxışımın axırında Sizi bir daha əmin edim ki, respublikamızda bələdiyyələrə təkrar seçkilərin yüksək səviyyədə keçməsi üçün əlimizdən gələni edəcəyik. Biz gərək bu dəfə seçkiləri yüksək səviyyədə, nümunəvi qaydada keçirək. Bu, bizdən və bugünkü müşavirədə iştirak edənlərdən çox asılıdır. Diqqətinizə görə çox sağ olun.

## YEKUN NİTQİ

Bələdiyyə seçkilərini mərkəzi və ərazi seçki komissiyaları aparır. İcra orqanları bu seçkilərə qarışmamalıdır. İcra orqanlarının vəzifəsi ərazi və məntəqə seçki komissiyalarına bu seçkilərin keçirilməsində onların üzərinə düşən vəzifələri, yardımı göstərməkdən ibarətdir. Mən bunu bir daha sizə çatdırıram və hər birinizdən tələb edirəm ki, siz bu çərçivədə hərəkət edəsiniz.

Mərkəzi Seçki Komissiyasının sədri Cəfər Vəliyev qarşıda duran vəzifələr haqqında burada ətraflı danışdı. Mən hamıdan – həm yerli icra hakimiyyəti orqanlarından, həm Azərbaycanın nazirlərindən və hökumətin, dövlətin başqa nümayəndələrindən tələb edirəm ki, Mərkəzi Seçki Komissiyasının tələblərinə, məsləhətlərinə, göstərişlərinə riayət olunsun. Buna görə də mən Cəfər Vəliyevin dediyi məsələlərə heç nəyi əlavə etmək istəmirəm. Tələb edirəm ki, Mərkəzi Seçki Komissiyasının sədri Cəfər Vəliyevin dediyi tələblər həyata

keçirilsin. Ancaq hər kəs öz səlahiyyəti çərçivəsində hərəkət etsin, heç kəs öz səlahiyyətini aşmasın. «Səlahiyyəti aşmasın» deyəndə, mən bizim icra orqanlarını, hüquq-mühafizə orqanlarını nəzərdə tuturam. Çünki ən çətin məsələ budur. Seçkilərdə bəzi çatışmazlıqlar, qanun pozuntuları və yaxud da seçkilər normal keçdiyi halda müşahidəçilərin bizə irad tutmasının çoxu ondan irəliyə gəlibdir.

İcra və hüquq-mühafizə orqanlarının nümayəndələri bəzən cürbəcür yollarla ya bu işə qarışaraq, yaxud da qarışmadan elə nəsə özünü göstərərək ki, «mən də burada varam», bəlkə də bu seçki prosesinə heç bir - nə müsbət, nə də mənfi təsir etmirlər, amma seçki prosesinin qanunsuz keçirildiyi barədə əsas yaradırlar.

Seçkilər ədalətli, sərbəst keçirilməlidir. Bəli, mən Cəfər Vəliyevin dediyi sözləri təsdiq edirəm ki, bizim icra orqanları gərək seçkilərə qədər lazımi təşkilati və təbliğati işlər aparsınlar ki, insanlar başa düşsünlər. Məsələn, Nərimanov rayonunda bütün rayon seçki aparır. Gərək bu rayonun seçiciləri bilsinlər ki, ayın 26-da bələdiyyə seçkisi var, seçki məntəqəsi filan yerdədir və gedib səs verməlidirlər. Bax, bu işi aparmaq lazımdır.

İcra orqanları seçicilərin seçki gününü bilmək, öz seçki hüququndan istifadə etmək, vətəndaşlıq borcunu yerinə yetirmək vəzifələrini onlara anlatmaq sahəsində öz fəaliyyətlərini göstərməlidirlər. Amma seçki günü kimisə məcbur etmək, yaxud seçki məntəqələrinə gələnlərin sayını süni surətdə artırmaq – bunlar hamısı böyük qəbahətdir, seçki prosesini pozmaq deməkdir, bizim bütün işimizə zərər vurmaqdır.

Beləliklə, hərə öz funksiyasını, səlahiyyətini bilməlidir, bu səlahiyyət çərçivəsində hərəkət etməlidir və onun üzərinə düşən vəzifələri tamamilə yerinə yetirməlidir.

Mən bugünkü müşavirənin əvvəlində də dedim ki, bizim məqsədimiz seçkiləri kiməsə demokratik göstərməkdən ibarət deyildir. Bizim məqsədimiz həqiqətən demokratik seçkilər keçirməkdən ibarətdir. Real vəziyyət bundan ibarətdir və bunu hamı başa düşməlidir ki, həm Azərbaycanda, həm də ölkəmizdən kənarda təkcə respublikamızın əhalisi deyil, demokratiya yoluna qoşulmuş bizim kimi dövlətlərin əhalisi həmin o köhnə psixologiyadan, əhval-ruhiyyədən tam aralana bilməyiblər. Burada başqa səbəblər yoxdur. Onlar bəzən çox təbii hərəkətlər edirlər, anlamadan səhvlər buraxırlar, sadəcə, hesab edirlər ki, belə də ola bilər. Məsələn, bizə irad tuturlar ki, nə üçün ailə başçısı gəlib arvadının, uşağının, bacısının, qonşusunun əvəzinə səs verir. Keçmişdə bu, belə olubdur, heç kəs buna mane olmayıbdır və heç kəs də deməyibdir ki, o, demokratik seçkini pozur. Amma bu, indi belə ola bilməz.

Əgər insanlar bu sistemə öyrəniblərsə, ondan indi də ayrıla bilmirlər. Xalqımızın mentaliteti belədir, - bunu açıq demək lazımdır, - bəzi yerlərdə düşünürlər ki, «mənim arvadım niyə gərək seçki məntəqəsinə getsin, gedib onun səsini mən verəcəyəm, onsuz da onun səsi həqiqətən mənim səsimdir». Mən bu fikirdəyəm və inanmıram ki, bizim hansısa ailədə ərlə arvad arasında namizədə səs vermək barədə fikir ayrılığı olsun. Başqa yerlərdə ola bilər, ancaq Azərbaycanda hələ ki, bu, ola bilməz.

Reallıq bundan ibarətdir. İndi bu reallığı qəbul etmək mümkün deyildir, biz də qəbul edə bilmərik. Amma müşahidə aparanlar bunu heç anlaya bilmirlər. Ona görə də gərək insanların psixologiyası artıq dəyişilsin. İnsanların psixologiyası bir gündə dəyişilmir. Onlara anlatmaq, onları başa salmaq lazımdır. Bunu etmək üçün dövlət işində işləyən adamların özlərinin psixologiyası gərək dəyişsin. Bax, dərd də burasındadır ki, biz dövlət orqanlarında çalışan insanların özlərinin psixologiyasını hələ tam dəyişdirə bilməmişik. Əgər dəyişdirə bilmiş olsaydıq, - rayonda icra hakimiyyəti başçısından böyük vəzifəli şəxs yoxdur, - niyə o bu səhvləri buraxır, bunu nə üçün edir? Deməк, o özü keçmiş psixologiya ilə yaşayır. Özü bununla yaşayanda, demək, seçicinin də keçmiş psixologiyasına bəraət qazandırır. Hesab edir ki, əksinə, bu, normal haldır.

Düzdür, qarşıdakı bələdiyyə seçkiləri o qədər də böyük həcmdə deyil, müəyyən bir lokal seçkilərdir. Ancaq biz burada da addımbaaddım irəliyə getməliyik.

Biz payızda Azərbaycanın Milli Məclisinə seçkilər keçirəcəyik. İndi bu seçkilərə hazırlıq işinə başlayırıq. Bu yaxınlarda seçki qanunu qəbul olunacaqdır. Çox ciddi hazırlıq aparılmalıdır ki, bu seçkilər demokratiyanın təmin edilməsi nöqteyi-nəzərindən keçmiş seçkilərdən daha da yüksək səviyyədə keçirilsin. Bunun üçün də hər bir vasitədən, o cümlədən, məsələn, martın 26-da keçiriləcək bələdiyyə seçkilərindən hamımız səmərəli istifadə etməliyik ki, insanların mentalitetində, psixologiyasında dəyişiklik əmələ gətirək. İnsanların hamısını da olmasa, heç olmasa tam əksəriyyətini bu demokratik prinsiplərə alışdıraq. Onlar buna alışsınlar, onu qavrasınlar. Çünki bundan sonra, gələcəkdə bizim ölkəmiz, xalqımız, millətimiz bu qanunlar, bu prinsiplər əsasında yaşayacaqlar.

Cəfər Vəliyev buradakı çıxışında dedi ki, müşahidəçilər gələcəklər, yerlərdə olacaqlar. Özü də bildirdi ki, bir az səhər, bir az axşam olacaqlar. Bu informasiya bəlkə lazımdır. Ancaq mən onu bildirmək istəyirəm ki, biz öz işimizi Konstitusiyamızın, demokratiyanın tələbləri əsasında şüurlu olaraq özümüz qurmalıyıq. Belə qurmaq ona görə deyil ki, müşahidəçi gələndə görsün ki, biz bunu belə etmişik. Əgər müşahidəçi yoxdursa, demək, pozuntuya yol vermək olar? Biz işimizi müşahidəçilərə görə qurmamalıyıq. Bilin, bax, bilin, hamı da, bütün Azərbaycan vətəndaşları da bilsin – biz müşahidəçilərə görə yox, özümüz bu yolla gedirik və bunu özümüz təmin etməliyik – müşahidəçi varsa da, yoxsa da, seçkinin gedişini səhər, yaxud axşam müşahidə edəcək. İndi belə fikir yarana bilər ki, o, səhər, yaxud axşam müşahidə edəcək, günorta müşahidəçi olmayacaq, qanunu pozmaq olar. Cəfər Vəliyev, sənin sözündən belə çıxır? Gərək sən özün düzgün başa düşəsən. Başa düşürsən ki, bu da köhnə mentalitetin nəticəsidir.

Bəli, mən bunu qəti deyirəm, siz bunları bilin, heç bir müşahidəçi Azərbaycanda çoxsaylı seçki məntəqələrinin heç də hamısını müşahidə edə bilməz. Gətirib hər məntəqəyə bir nəfər müşahidəçi də qoysan, o hər şeyi tam müşahidə edə bilməz. Ona görə bu müşahidəçilərin də fikirləri müəyyən qədər nisbi xarakter daşıyır. Ancaq təbiidir ki, onlar ayrı-ayrı bölgələrdə, məntəqələrdə olan vəziyyəti ümumiləşdirirlər və seçkilərə ümumi qiymət verirlər. Bu da onların prinsipidir. Nə etməli, biz onu dəyişdirə bilmərik. Amma özümüz demokratiyanı doğrudan da təmin etmək istəyiriksə, biz müşahidəçilərə heç fikir verməməliyik. Müşahidəçi gəlir-gəlsin, gəlmir-gəlməsin. Bunu biz özümüz şüurlu surətdə edirik. Bu, bizim demokratiyaya bağlılığımızdır. Bunu ona görə etmirik ki, müşahidəçi gəlib bizim haqqımızda yaxşı fikir desin. Bunu ona görə edirik ki, xalqımızı demokratik prinsiplərə alışdıraq, demokratik yolla aparaq. Biz bunu məhz ona görə edirik.

Güman edirəm ki, mənim bu sözlərim televiziya ilə veriləcəkdir. Mən sizdən tələb edirəm və bütün vətəndaşlara müraciət edirəm – artıq hamı anlasın ki, biz müstəqillik qazandıqdan sonra, xüsusən son 5–6 ildə Azərbaycanda demokratik prinsipləri ardıcıl surətdə tətbiq edirik, çox işlər görmüşük, çoxlu nailiyyətlərimiz vardır.

Biz bu işləri bundan sonra da görəcəyik, nailiyyətlərimiz bundan da artıq olacaqdır. Ancaq bir şərtlə: əgər biz ümumiyyətlə, millətimizin mentalitetində köklü dəyişikliklər edə bilsək, ayrı-ayrı insanları – insanların əksəriyyəti artıq bu demokratik prinsipləri qavrayıblar, ona alışıblar – o hissənin ki, hələ bunu anlamayıb, qavramayıb, buna alışmayıbdır, onların səviyyəsini seçkidən-seçkiyə qaldırsaq, onda 1000 nəfər, 100 nəfər, 50 nəfər müşahidəçi gəlməsinin bizim üçün fərqi olmayacaqdır. Yəni onu deyirəm ki, biz bu işləri müşahidəçilərdən yaxşı qiymət almaq üçün etmirik. Bu, bizim özümüzün prinsiplərimizdir. Bu, Azərbaycan prezidenti kimi mənim prinsiplərimdir. Bunu bilin, hamı, hər bir dövlət adamı, vətəndaş bilsin. Mən bu prinsiplərdən dönməyəcəyəm. Əgər kim mənim fəaliyyətimi dəstəkləyirsə, əgər kim bir prezident kimi mənə həqiqətən hörmət edirsə, o bu prinsiplər yolu ilə getməlidir. Onda bizim ölkəmizi mənim bax, bu siyasətim əsasında istənilən səviyyəyə qaldıracağıq.

Bilməlisiniz ki, ayrı-ayrı dövlətlər tərəfindən bizim ölkəmizə xüsusi maraq, diqqət, bəzi səbəblərdən subyektiv münasibətlər vardır. Bunu bilməlisiniz. Bizim ölkəmiz barəsində dünyada ikili standartlar vardır. Bu ikili standartlar da həmişə Azərbaycana zərbələr vurub. Ona görə hər halda biz demokratiya yoluna düşmüşüksə, gərək bu yolla gedən başqa ölkələrdən demokratiya prinsiplərini daha da yüksəklərə qaldıraq, daha da dərinlərə salaq, insanları buna daha da çox alışdıraq ki, ölkəmizə ikili standartlar nöqteyi-nəzərindən baxan adamlar bir söz tapa bilməsinlər.

Yenə də deyirəm, şəxsən mənim sözlərim o məqsəd daşımır ki, biz kimdənsə əla, yaxud yaxşı qiymət alaq, yox. İndi gəlin hər birimiz sadəcə, özümüzə baxaq. Hər birimiz gənclik dövrü keçirmişik, oxumuşuq. Kim orta məktəbdə də, ali məktəbdə də dərsi həqiqətən yaxşı oxuyubsa, çalışıbsa, o, həmişə yaxşı qiymət alıbdır. Doğrudur, orada da müəllimlərin bəziləri subyektivlik edirlər. Amma nə qədər subyektivlik etsələr də, yenə də yaxşı oxuyan tələbə öz biliyi ilə subyektivliyi, necə deyərlər, vurur, yarıb keçir. Amma kim yaxşı oxumayıbsa, elə vaxtını keçiribsə, yaxud tanışlıqla 3-4 dənə qiymət alıb, ya da elə-belə qalıbdır.

Bax, bu, sadə bir misaldır. Mən bu misalı niyə çəkirəm? Hər bir şey belədir. Əgər işi yaxşı görürüksə, bizə qarşı lap qərəzli qüvvələr də məcbur olacaqlar ki, bu yaxşı işi artıq dərk edə bilsinlər, yaxşı işin yaxşı olduğunu etiraf etsinlər. Onlar buna məcbur olacaqlar. Amma bu işi ortabab, yaxud zəif etsək, sonra da çalışsaq ki, müşahidəçi bunu gördü, onu görmədi, - onda biz yaxşı nailiyyət əldə edə bilməyəcəyik.

Mənim tələblərim bundan ibarətdir. Hüquq-mühafizə orqanlarından, daxili işlər nazirindən tələb edirəm ki, bir dənə işə qarışmayasınız. Başa düşdünüz? Bir dənə işə qarışmayın. Polisdə bu xəstəlikdir ki, gərək mütləq gəlib seçki məntəqəsinin içinə girsin, ya gəlib onun kənarında, yaxud da başqa yerdə dursun. Nəyə görə? «Mən də burada varam». Ay balam, əl çək, sən varsan, biz səni başqa yerdə görək. Qardaş, biz səni burada görmək istəmirik. Başa düşdün? Əyləşin.

Rabitə naziri Nadir Əhmədov, orda-burda çox danışırsan ki, rabitə belə gəldi, elə getdi, filan işlər görürsən. Səndən tələb edirəm ki, bütün seçki məntəqələrində rabitə bir saniyə də kəsilməsin. Anladın? Əyləş.

«Azərenerji» Səhmdar Cəmiyyətinin prezidenti Müslüm İmanov, mən bilirəm ki, elektrik enerjisi təchizatında indi müəyyən çətinliklər vardır. Amma bu məntəqələr şəxsən sənin xüsusi nəzarətin altında olmalıdır. Seçkilər başlanandan qurtaranadək elektrik enerjisi verilməsində bir yerdə bir saniyə də fasilə olmamalıdır. Anladınmı? Əyləş.

Mənim bu tələblərim hamıya aiddir. Yerli icra hakimiyyəti orqanlarına, icra hakimiyyəti başçılarına yenə də deyirəm – əgər istəyirsinizsə ki, bundan sonra sizə yenə də etimad göstərilsin, Azərbaycan prezidenti tərəfindən yenə də dəstəklənəsiniz, bu yolla gedin. Ancaq əgər bu yolla getməsəniz, gec-tez mənimki sizinlə tutmayacaqdır. Bunu bilin.

Bu kəskin sözləri deyərək, mən eyni zamanda inanıram ki, Cəfər Vəliyevin rəhbərliyi altında Mərkəzi Seçki Komissiyasının gördüyü çox işlər,- mən bunu yüksək qiymətləndirirəm, - ərazi seçki komissiyalarında, başqa komissiyalarda aparılan işlər öz nəticəsini verəcəkdir, buraya toplaşanların hamısı, hər kəs bu işin həyata keçirilməsinə öz xidmətini göstərəcək, payını verəcəkdir.

Bələdiyyə seçkiləri tamamilə qurtarandan sonra - bu proses indi artıq gedir – gərək bu bələdiyyələrin işlərinin təşkil edilməsi məsələsi ilə ciddi məşğul olunsun. Ancaq bu proses güclənməlidir. Prezidentin icra aparatı və başqa orqanlar bu işləri aparırlar. Mən bu barədə danışmaq istəmirəm. Mən sadəcə, bu fürsətdən istifadə edib icra hakimiyyəti başçılarına - burada olanlara da, olmayanlara da bildirmək istəyirəm ki, seçilmiş bələdiyyələrin işinin təşkil edilməsinə hər bir yardımı göstərmək lazımdır. Yenə də deyirəm, bu, bizim üçün yeni bir strukturdur. Bələdiyyələrin seçilməsi və onların anlanılması o qədər asan bir şey deyildir. Ancaq bələdiyyələrin fəaliyyəti üçün şərait yaradılması, onların fəaliyyətinin təmin olunması bunlardan da çətindir. Yerli icra hakimiyyəti orqanlarının vəzifəsi bunu təmin etməkdən ibarətdir.

Sağ olun. Bir daha bayramınızı təbrik edirəm!

## Q E Y D L Ə R

**1. Avropa Birliyi** (AB) – 1951-57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi - AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun - vahid valyutaya keçməsi - AVRO-ya) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra - AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 5-8,96,97,106,120,144,205, 206,207,208, 213,214,219,220,233,358,398,400.

**2. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdı. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. –6,19,41,68,69,88,90,113,119,121,129,143,158,174,209,210,229, 260,261,299,368.

**3. Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkələrin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 7,96,120,145,148,200,385.

**4. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

1992-ci ildən Azərbaycan Respublikası BMT-nin üzvüdür. – 7,251,298, 316.

**5. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə Qarabağ separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822,853, 874,884 qətnamələrinə görə erməni işğalçıları Azərbaycan torpaqlarını qeyri-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 7,16,17,40,59,64,66,68, 69,71,73,83,86,87,88, 89,90,105,110,117,118,123,128,129,130,131,135,137,138,139,142,143,162, 163,167,174,178,191,194,209,228,229,257,259,260,261,281,282,299,315, 322,352,373,377,379,380,398.

**6. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 $km^2$, əhalisi 101,6 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir.– 7.

**7. Şri-Lanka,** Şri–Lanka Sosialist Demokratik Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinə daxildir. Sahəsi 65,6 min $km^2$, əhalisi 18,3 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı rəsmi olaraq Cayavar denapurakotte, faktiki isə Kolombodur. – 8.

**8. Finlandiya,** F i n l a n d i y a R e s p u b l i k a s ı – Şimali Avropada dövlət. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Raytaxtı Helsinkidir. – 10.

**9. Tarya Holonen** (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə – ədliyyə, sosial müdafiə və xarici işlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının prezidentidir. – 10.

**10. Xorvatiya Respublikası** – Cənubi Avropada dövlət. Sahəsi 56,6 min km$^2$, əhalisi 4,8 milyon nəfərdir. İnzibati ərazisi 20 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Zaqrebdir. – 11.

**11. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal konslerdir. Ali qanunverici hakimiyyət orqanı – parlamentdən — bundestaq və bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 12,13,43,219,382.

**12. Çerhard Şroder** (d.1944) – Almaniyanın ictimai və siyasi xadimi. 1980-cı ildən Almaniya Bundestaqının üzvü, 1990-98-ci illərdə Aşağı Saksoniya vilayətinin nazir- prezidenti, 2000-06-cı illərdə Almaniyanın federal kansleri olmuşdur. – 13.

**13. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 62,7 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 14-27,43,44,49,50,51,52,53,54,55,67,71,96,105,116,126, 127,134,146,153,159-164,169,184,185,186,193,197,199,200,247,251,274, 293,343,409.

**14. Türkiyə Böyük Millət Məclisi (TBMM)** – Türkiyənin ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. – 14-27.

**15. Yıldırım Akbulut** (d.1935) – Türkiyənin siyasi və dövlət xadimi, hüquqşünas. Ana Vətən Partiyasının yaradıcılarından biri. 1983-cü ildə TBMM-nin sədr əvəzi, 1984-87-ci illərdə Türkiyə daxili işlər naziri, 1987-2005-ci illərdə TBMM-nin sədri, Baş nazir vəzifələrində çalışmışdır. 2005-ci ildə TBMM-nin deputatıdır. – 14-27,52,159,163.

**16. Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993-2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Süleyman Dəmirəlin siyasi fəaliyyətinin mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə-Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 15, 23,25,53,54,159,160,161,163,168,189,200,247, 422.

**17. Murtuz Ələsgərov,** M u r t u z N ə c ə f o ğ l u (d.1928) – Azərbaycanın dövlət xadimi. Hüquq elmləri doktoru, professor. Respublikanın əməkdar hüquqşünasıdır. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1993-cü ildə Bakı Dövlət Universitetinin rektoru olmuşdur. 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir. 1996-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri idi. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. –15.

**18. Atəşkəs rejimi** – 1994-cü il mayın 12-də Moskvada Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 18,41,87,129,299.

**19. 1993-cü il iyun hadisələri** – Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlə, Heydər Əliyevin xalqın tələbilə Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 20,82,132,149, 352,253,355.

**20. 1994-cü il oktyabr hadisələri** – oktyabrın 3-də Gəncə və Qazaxda, həmçinin Bakıda Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən dövlət çevrilişi cəhdi nəzərdə tutulur. Həmin gün Bakıda fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan Prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etmişdi. Gecə olmasına baxmayaraq Bakı və ona yaxın yerlərdən yüz minlərlə insan Prezident Sarayı qarşısına toplaşaraq milli və vətəndaşlıq həmrəyliyi nümayiş etdirərək Heydər Əliyevin siyasətini dəstəkləmişlər. – 20,132,353,355, 418.

**21. 1995-ci il mart hadisələri** – martın 12-13-də Qazax və Agstafa, martın 16-17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup üzvünün silahlı çıxışı nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu. – 20,132,353, 355,407,427.

**22. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici işlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələn dirmə Məsləhət Komitəsidir. – 22,80,119,121,149,268,269,270, 271,275,346,348,349,377,378,380.

**23. Mustafa Kamal Atatürk,** Qazi Mustafa Kamal (1881-1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923-38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildən «kamalçılar» milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soy adı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 23,24,25.

**24. İsparta** – Türkiyənin cənub-qərbində şəhər. Əhalisi 51 min nəfərdir. Xalçaçılığın ən iri mərkəzlərindəndir. – 23,54.

**25. Beynəlxalq Atatürk Sülh Mükafatı** – Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürkün «Yurdda sülh, cahanda sülh» prinsiplərinə uyğun olaraq regionda, beynəlxalq aləmdə və ölkələrarası münasibətlərdə sülh, dostluq, anlaşma və xoş məramlı əməkdaşlıq yaradılmasına xidmət edən görkəmli şəxsiyyətlərə verilir. Mükafat 1986-cı ildə təsis edilmişdir. – 24,25, 53,54.

**26. SSRİ, Sovetlər Birliyi** bax – Sovetlər İttifaqı

**27. Sovetlər İttifaqı**, Sovet Sosialist Respublikaları İttifaqı (SSRİ) – 1922–1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə – Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada Bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. – 25,38,39,40,42,43,44,47,81,82,83,85,86,97, 98,101,104,118,139,142,170,202,209,212,227,253,254,259,260,262,264, 265,270, 273,298,307,352, 356,358,359,361,379,401.

**28. «Əsrin müqaviləsi»** – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 26,82,91,119,122,285, 293.

**29. Moskva** – Rusiya Federasiyasının paytaxtı. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 27,55,82,105,132,157, 169,170,196,197,229,235,236,250,251,252,253,255,260,263,264,267,272, 274,276,347,361,371,371,381,388,408,420,422.

**30. Bakı-Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri Bakı-Tbilisi-Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı-Tbilisi-Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 27,64,66,67,69,70, 71,72,74,75,76,82,92,93,95,113,118,124,125,126,137,140,141,146,160, 162,163,175,192,199,365,393.

**31. Şevardnadze** Eduard Amvrosiyeviç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972-85-ci illərdə Gürcüstan KP MK-nın birinci katibi, 1985-90-cı illərdə SSRİ xarici işlər naziri, 1994-2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 27,51,55,56,189,214, 247,248,286,385.

**32. İran,** İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 28,29,57-62,84,92,101,124,126, 127,251,274,303,304.

**33. Xatəmi,** Məhəmməd Xatəmi (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989-92-ci illərdə İranın mədəniyyət və islam orijentasiyası naziri, 1997-2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 28,60.

**34. Ayətullah Xamenei,** Hüseyn Xamenei Seyid Əli (d.1939) – İranın dini və dövlət xadimi. 1981-89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. – 29.

**35. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ)** – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 32,82,91,145,188, 190,200,287,292,294,295.

**36. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı iki palatalı (Nümayəndələr palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 30-34,41,43,62-65,66-164,166-176,183-190,191-201,209,219,232,243-248, 260,267,286,296-309,359,362-366,385.

**37. «Pennzoyl»** – neft və təbii qaz ehtiyatlarının kəşfiyyatı, istismarı, sürtkü yağlarının istehsalı və satışı ilə məşğul olan şirkət. 1989-cu ildə yaradılmışdır. Mərkəzi ofisi ABŞ-ın Hyüston şəhərindədir. 10 min işçisi var.

«Pennzoyl» şirkəti Azərbaycanda 1992-ci ilin əvvəllərindən fəaliyyət göstərir. – 30,31,32,33,122,145.

**38. Klinton Bill,** Uilyam Ceferson Blayd (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992-2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış

dövlətlərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 32,62,63,64,66,68-70, 71,73,83,93,106,109,110,111,119,122,126,128,134,137,138,141,157,158, 167,174-176,187,189,191,192,199,218,229,243,244,247,286,299,309,364, 365,366.

**39. Oklahoma** – Amerika Birləşmiş Ştatlarında ştat. Sahəsi 181,1 min km$^2$, əhalisi 3,3 milyon nəfərdir. İnzibati mərkəzi Oklahoma – Sitidir. –32.

**40. «907-ci maddə» –** ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir. Buna baxmayaraq istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasiyası bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 33,67,70,71,82,99,110,111,121,123,130,134, 135,141,166,167,192,308,309.

**41. Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix-filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 43 ixtisas üzrə 13 minə yaxın tələbə təhsil alır. – 35-56.

**42. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919-20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı-Batum neft kəməri bərpa edildi. – 35,202,312.

**43. Azərbaycan Elmlər Akademiyası** – respublikanın ali elm ocağı. 1945-ci ildə Bakıda təsis edilmişdir. 2001-ci ilin may ayından Azərbaycan Milli Elmlər Akademiyası adlanır. Azərbaycan Milli EA-nın aşağıdakı bölmələri var: fizika; texnika və riyaziyyat elmləri; kimya elmləri; yer elmləri; biologiya elmləri; humanitar və ictimai elmlər. Burada elmin müxtəlif sahələrinə dair aktual problemlər üzərində tədqiqat işləri aparılır. Hər il onlarca elmi işin nəticəsi istehsalatda tətbiq olunur. – 35.

**44. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dovlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya respublika idarəetmə fopmalı demokratik federativ dövlətdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı iki palatalı – Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 38,41,46,47, 84,88,90,92,96,98,103,106,116,118,119,121,126,130,133,143,145,146, 157, 185,186,196,198,209,229,230,231,249-279,299,303,346-361,379,380,381, 387,388.

**45. Moskva Dövlət Universiteti**, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti – dünya elminin ən böyük mərkəzlərindən biri. 1755-ci ildə M.V.Lomonosovun təşəbbüsü ilə yaradılmışdır. Universitetdə 200-dən çox kafedra, 430 elmi-tədqiqat laboratoriyası, 4 elmi-tədqiqat institutu, 4 observatoriya, 12 elmi-tədqiqat stansiyası, 3 muzey, Botanika bağı, elmi kitabxana, nəşriyyatı var. Universitetdə 28 mindən çox tələbə təhsil alır. – 39,42,43,46,47,48.

**46. Fransa,** F r a n s a   R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici hakimiyyəti iki palatadan (Milli Məc-

lis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 41,43, 88,90,119,121,130,143,193,194,209,215,254,257,260,299,382.

**47. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3-9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə relsindən əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 41,54,85,106,143,261,299.

**48. Çeçenistan (İçkeriya)** – Rusiya Federasiyasında respublika. Paytaxtı Qroznı şəhəridir.

Orta əsrlərin əvvəllərində Çeçenistanın xeyli hissəsi Alan dövlətinin tərkibində idi. XIX əsrdə Rusiya Şimali Qafqazı işğal etməyə başladı. Çeçenlər öz torpaqlarından çıxarılır, onların yerinə burada kazaklar yerləşdirilirdi. Bu da Çeçenistanda milli-azadlıq hərəkatının başlanmasına səbəb oldu. Dağlıların bu hərəkatı (1817-1864) 1859-cu ildə Şeyx Şamil təslim olduqdan sonra yatırıldı və Çeçenistan tamamilə Rusiyaya birləşdirildi. 1991-92-ci illərdə Rusiya Federasiyası tərkibində müstəqil Çeçenistan Respublikası yaradıldı. – 41,90,92,93,103,118,126,228,230, 231,249,251,261,273, 274,379,380, 381.

**49. Loqunov Anatoli Aleksandroviç** (d.1926) – fizik nəzəriyyəçi, Rusiya Elmlər Akademiyasının akademiki. Sosialist Əməyi Qəhrəmanı. Lenin və Dövlət mükafatları laureatı. 1977-91-ci illədə Moskva Dövlət Universitetinin rektoru olmuşdur. – 43.

**50. İntibah,** R e n e s s a n s – Qərbi və Mərkəhi Avropa ölkələrinin mədəniyyət tarixində orta əsr mədəniyyətindən yeni dövr mədəniyyətinə keçid dövrü. Renessans mədəniyyətinin mühüm xüsusiyyətləri onun dünyəvi xarakter daşımasında, humanist dünyagörüşü, antik mədəni irsə müraciəti və onu sanki «dirçəltməsindədir». Renessans İtaliyada XIV-XVI əsrlər, digər ölkələrdə XV əsrin sonu XVI əsrlərdə başlamışdır. Bəzi şərqşünaslar Renessansın Asiyada (Çin, Hindistan, İran), həmçinin Zaqafqaziyada olduğunu göstərirlər. – 46.

**51. Sadovniçi Viktor Antonoviç** (d.1939) – informatika sahəsində alim. Rusiya Elmlər Akademiyasının akademiki. Dövlət mükafatı laureatı. 1992-ci ildən Moskva Dövlət Universitetinin rektoru. – 46, 49.

**52. Rəsulov Məcid,** M ə c i d  L ə t i f  o ğ l u (1916 – 1993) – fizika – riyaziyyat elmləri doktoru, professor. Azərbaycan MEA-nın akademiki. Tədqiqatları funksional analiz və diferensial tənliklər sahəsindədir. – 47.

**53. Zahid Xəlilov,** Z a h i d  İ s m a y ı l  o ğ l u (1911-1974) – riyaziyyatçı, mexanik, Azərbaycan MEA-nın akademiki, fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan Respublikası əməkdar elm və texnika xadimi. 1950-56,1967-74-cü illərdə Riyaziyyat və Mexanika İnstitutunun direktoru, 1957-59-cu illərdə AME vitse-prezidenti, 1962-67-ci illərdə prezidenti olmuşdur. Əsas tədqiqatları funksional analiz, onun inteqral və diferensial tənliklərə tətbiqi, səlt mühit mexanikası, tətbiqi riyaziyyat sahələrinə aiddir. Xəlilov funksional analizə dair SSRİ-də ilk dərsliyin müəllifidir. – 47.

**54. Azərbaycan Dövlət Tibb Universiteti** – respublikada tibb mütəxəssisləri hazırlayan ali məktəb. 1919-cu ildə Bakı universitetinin nəzdində tibb fakültəsi, 1920-ci ildə isə həmin fakültənin əsasında müstəqil tibb institutu yaradılmışdır. Universitetin 8 fakültəsi var. Universitetdə 6700 tələbə təhsil alır. – 49.

**55. Helsinki aktı** – 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 54,88,261.

**56. Qazaxıstan Respublikası** – Avroasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2724,9 min km$^2$, əhalisi 16 679 min nəfərdir. Dövlət başçısı – prezident, qanunvericilik orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 55,92,93,126,134,146,251,263,337,343.

**57. İran İslam İnqilabı** – İranın daxilində Milli Cəbhənin, xaricdən isə ruhanilərin Fransada mühacirətdə olan başçısı Ayətüllah Ruhulla Xomeyninin rəhbərlik etdiyi ümumxalq hərəkatı. Bu hərəkat getdikcə gücləndi və 1979-cu ildə şah (Məhəmməd Rza Pəhləvi) ölkəni tərk etdi. Mühacirətdən vətənə qayıtmış imam Xomeyni İran İslam Respublikasını elan etdi. – 57-61.

**58. İmam Xomeyni,** R u h u l l a M u s a v i (1903-1989) – 1979-cu ildən İran İslam Respublikasının başçısı, ayətüllah. 1964-cü ildə ölkədən qovulmuş, əvvəlcə İraqda, sonra isə Fransada mühacirətdə olmuşdur. 1979-cu ildə İrana qayıtmış, şah rejimini devirməyə və islam Respublikasını qurmağa nail olmuş inqilaba başçılıq etmişdir. –57.

**59. Naxçıvan Muxtar Respublikası** (1920-23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924-90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km$^2$, əhalisi 372,9 min nəfərdir. Hazırda 7 inzibati rayona (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur (Kəngərli) bölünmüşdür; 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kənd inzibati ərazi dairəsi var. – 59,82,89, 101, 105,129,130.

**60. Olbrayt Madlen** (d.1937) – ABŞ-ın tanınmış diplomatı və dövlət xadimi. 1989-cu ildən ABŞ-ın Milli Siyasət Mərkəzinin prezidentidir. 1993-cü ildə ABŞ-ın BMT-də daimi nümayəndəsi təyin edilmişdir. 1997-2000-ci illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. –62, 64,66,111,134, 137-138,141,152,161,167,191,229, 295,309,364,366

**61. Vaşinqton** – Amerika Birləşmiş Ştatlarının paytaxtı. Ölkənin siyasi, elm və mədəniyyət mərkəzi. Şəhər 1791-ci ildə salınmış və ABŞ-ın ilk prezidenti C.Vaşinqtonun şərəfinə adlandırılmışdır. – 63,64,68-164, 166-173,174,175,179,197,199,229,243,282,285,287,299,300, 301,362.

**62. Müsavat partiyası** – 1911-ci ildə Bakıda yaranıb. 1920-ci ildə fəaliyyəti qadağan edilib. 1992-ci ildən yenidən fəaliyyətə başlayıb. – 63,353.

**63. Transxəzər qaz kəməri** – Xəzər dənizi vasitəsilə Azərbaycandan Gürcüstana və Türkiyəyə Orta Asiya qazının nəqli barədə saziş. Bu lahiyəyə görə qaz Türkiyədən isə Avropa bazarlarına çatdırılacaqdır. – 64,66,69,70,71,106,113,127,184,185,186,187,188, 189,192,197,198,365.

**64. Ağ ev** – Vaşinqtonda ABŞ prezidentinin iqamətgahı və dəftərxanası (1800-cü ildən).1792-1829-cu illərdə inşa edilmişdir. ABŞ hökumətinə çox zaman Ağ ev deyilir. – 68-70,109,137,138,141,147,154,155,158, 174,192,218,229,244.

**65. Klivlend** – ABŞ-da şəhər. Klivlend ABŞ-ın sənaye, maliyyə-ticarət və mədəni mərkəzlərindən biri kimi tanınır. – 69,160,175,183,201, 301,365.

**66. Ruzvelt Franklin Delano** (1882-1945) –ABŞ-in görkəmli siyasi və dövlət xadimi. 1932-1944-cü illərdə 4 dəfə ABŞ prezidenti seçilmişdir. Ruzvelt İkinci dünya müharibəsi zamanı İngiltərə və SSRİ ilə antihitler koalisiyasının təşəbbüsçülərindən biri olmuşdur. – 70.

**67. Amerika Konqresi,** A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a r ı K o n q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 70,71,97,98,99,111,114,119,130, 131,134,135,141,192,193,196,229,308,309,365.

**68. Vəhhabilik** – ortodoksal islamda yaranmış dini-siyasi cərəyan. XVIII əsrin axırlarında Nəcddə yayılmışdı. Banisi Məhəmməd ibn Əbdül-Vəhhabdır. Başlıca ehkamı vahid allaha inamdır. Vəhhabilər Quranı qəbul etsələr də, islam dinində müqəddəslərə pərəstişi, dərvişliyi rədd edir, cihada böyük diqqət verirlər. Səudiyyə Ərəbistanında hakim ideologiya olan vəhhabilik Hindistan, Əfqanıstan, İndoneziya və bəzi Afrika ölkələrində də yayılmışdır. – 73.

**69. ATƏT-in İstanbul Zirvə görüşü** – 1999-cu il noyabrın 18-20-də Türkiyənin İstanbul şəhərində ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının iştirakı ilə keçirildi. Bu ATƏT-in son toplantısı idi.

İstanbul sammitində 3 sənəd qəbul olundu. Birincisi – İstanbul xartiyası – dünyada sülhün və təhlükəsizliyin təmin olunması, ölkələrin ərazi bütövlüyünün qorunması, baş vermiş münaqişələrin sülh yolu ilə həll olunması və s. İkinci sənəd Avropada adi silahlar haqqında idi. Üçüncü sənəd isə siyasi bəyannamə idi. – 75,105,106,146,157,175.

**70. «Şevron» korporasiyası** – dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən «Şevron»un dünyanın 100-ə qədər ölkəsində 450 filialı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41 000 işçisi var. 1879-cu ildə «Rpasifik Kost Oyl Kompani» adı ilə fəaliyyətə başlamışdır. – 75,122,147,162.

**71. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 77,96,120,144,148,280-283.

**72. Saparmurad Niyazov,** Saparmurad Ata oğlu (1940-2007) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi, 1990-cı ildən Türkmənistan Respublikasının prezidenti olmuşdur. – 80,106, 164,184,185.

**73. Henri Kissincer** (d.1923) – tanınmış Amerika dövlət xadimi, politoloq. 1952-ci ildən Beynəlxalq Harvard Seminarının icraçı direktoru olmuşdur. 1969-75-ci illərdə prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi işləmişdir. 1973-77-ci illərdə ABŞ-ın Dövlət Katibi olmuşdur.

Beynəlxalq problemlərə dair bir sıra kitabın müəllifidir. Beynəlxalq Nobel sülh mükafatı (1973-cü il) və bir sıra digər mükafatların laureatıdır. – 81,245.

**74. Yeni Zelandiya** – Sakit okeanın cənub-qərbində dövlət. Sahəsi 270,5 min km$^2$, əhalisi 3,62 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Böyük Britaniya kraliçası. Onu ölkədə general-qubernator təmsil edir. Qanunverici orqan parlamentdir. Paytaxtı Vellinqtondur. – 81.

**75. Antarktida** – cənub yarımkürəsində materik. Atlantik, Hind və Sakit okeanların cənub hissələri ilə əhatə olunur. Sahəsi 13975 min km$^2$. Bunun 1582 min km$^2$ adalar və şelf buzlaqlarıdır. Materik dayazlığı ilə birlikdə Antarktidanın sahəsi 16355 min km$^2$-dir. Antarktida Yerin ən yüksək materikidir. – 81.

**76. Brejnev Leonid İliç** (1906-1982) – Rusiyanın partiya və dövlət xadimi. 1964-82-ci illərdə Sov. İKP MK-nın Baş katibi, 1977-ci ildən həmçinin SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri olmuşdur. – 81.

**77. Surət Hüseynov,** Surət Davud oğlu (d.1959) – 1993-94-cü illərdə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. 1994-cü ilin oktyabrında Azərbaycanın müstəqilliyinə, suverenliyinə qarşı yönəlmiş çevriliş cəhdinə rəhbərlik etmişdir. – 82,408,409,418, 419,420,423.

**78. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 82,100,115,117,143,157, 169,300,301,385,386.

**79. Nizami Gəncəvi,** İlyas Yusif oğlu (1141-1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 84, 311.

**80. Xaqani Şirvani,** Əfzələddin İbrahim İbn Nəccar Şirvani (1126-1199) – Azərbaycan şairi, mütəfəkkir. Xaqani Azərbaycan ədəbiyyatının ən görkəmli simalarındandır. Xaqani Şirvaninin ədəbi irsi olduqca zəngindir. Onun epik poeziyanın ilk görkəmli nümunələrindən «Töhfət ül-İraqeyn» adlı məsnəvisi, «mədain xərabələr» adlı məşhur fəlsəfi qəsidəsi, «Həbsiyyə» adlandırılan qəsidələri və mərsiyələri klassik şərq ədəbiyyatının kamil əsərlərindəndir. – 84.

**81. Füzuli** Məhəmməd Süleyman oğlu (1494-1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 84,332.

**82. Nəsimi,** əsl adı Seyid Əli (1369-1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, «kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə öldürülmüşdür. – 84.

**83. XIX əsrin əvvəllərində Rusiya – İran müharibələri** (XIX əsr) – 1801-ci ildə Rusiyanın Şərqi Gürcüstanı, Çar-Balakən camaatlığını (1803), Gəncə xanlığını (1804) tütması İran və Türkiyənin, həmçinin İngiltərə və Fransanın güclü müqavimətinə rast gəldi. İran 1804-cü ilin iyununda Rusiyaya qarşı müharibəyə başladı. Lakin Abbas Mirzənin qoşunu İrəvan yaxınlığında vuruşmada məğlub oldu. 1805-ci ildə Qarabağ, Şəki, Şirvan xanlıqları da işğal edildi. 1806-cı il oktyabrın 3-də rus ordusu Bakını işğal etdi. 1813-cü ilə qədər davam edən qanlı doyüşlər Gülüstan müqaviləsi ilə (1813) nəticələndi. Şimali Azərbaycan xanlıqları Rusiyanın tabeliyinə keçdi.

1826-28-ci illərdə aparılan müharibə nəticəsində isə Naxçıvan, Abbasabad, Yerevan, Xoy, Mərənd, Urmiyə, Ərdəbil, Təbriz işğal edildi. Nəticədə Türkmənçay müqaviləsi (1828) imzalandı. Naxçıvan və İrəvan xanlıqları da Rusiyaya verildi. – 84,303.

**84. Oktyabr inqilabı,** Böyük Oktyabr sosialist inqilabı – müasir tarixşünaslıqda Oktyabr çevrilişi də adlanır. 1917-ci il oktyabrın 24-dən 25-nə (noyabrın 6-dan 7-nə) keçən gecə V.İ.Leninin başçılığı ilə bolşeviklər silahlı üsyan edərək Müvəqqəti hökuməti devirdilər. Bunun nəticəsində, V.İ.Lenin başda olmaqla, Rusiyada Sovet hökuməti - Xalq Komissarları Soveti yarandı. – 84,262.

**85. Pensilvaniya** – ABŞ-ın şimal-şərqində stat. Sahəsi 118,5 min $km^2$, əhalisi 12,1 milyon nəfərdir. İnzibati mərkəzi Xarrisberqdir. –85.

**86. Nobel qardaşları** – İsveç ixtiraçıları və sənayeçiləri. Silah istehsalı və ağ neft ticarəti ilə məşğul olmuşlar. Robert Nobel XIX əsrin 70-ci illərində Bakıya gəlmiş və neft işi ilə maraqlanmışdı. O, sonralar qardaşı Lüdviqi də bu işə cəlb etmiş və onlar 1879-cu ildə «Nobel qardaşları» şirkətini təsis etmişlər. Şirkətin demək olar bütün kapitalı, habelə illər boyu götürdüyü yüz milyon manatlarla izafi mənfəət Bakı neftinin hesabına qazanılmışdı. Tərkibinə əsas kapitalı 130 milyon manatdan çox olan 25 müxtəlif müəssisə daxil idi.

Nobel qardaşları inhisarlarının Bakıda fəaliyyəti Azərbaycan iqtisadiyyatının inkişafına səbəb oldu. Onların açdığı müəssisələrdə minlərlə azərbaycanlı işləmiş və onlar öz işlərinin gözəl mütəxəssisi olmuşlar. Onların sifarişi ilə İsveçdə tikilən və Xəzərə gətirilən «Zoroastr» gəmisi dünyada ilk neftdaşıyan tanker idi. Beynəlxalq Nobel mükafatları Alfred Nobelin vəsiyyətinə əsasən Nobel fondu tərəfindən təsis edilmişdir. Bu mükafat hər il məşhur alimlərə (etdikləri ixtiralara və gördükləri işlərə), ictimai və siyasi xadimlərə, yazıçı və şairlərə verilir. – 85.

**87. İkinci dünya müharibəsi** (1939-45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942-43-cü illərdə Sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də Sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 85,301,305,306,382.

**88. Bakı-Novorossiysk neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan Respublikası hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir hissəsi Bakı-Novorossiysk neft kəməridir. Bu kəmər 1997-ci ilin noyabrında istifadəyə verilmişdir. – 92,118,125,126,145.

**89. Bakı-Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı-Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

1999-cu ilin aprelin 17-də Supsada ilkin Xəzər neftinin Qərb istiqamətində nəqli üçün Bakı-Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 92,118,125, 126,145,372,393.

**90. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 96,251,271,331.

**91. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 96,97, 134,208,268,369,372,393.

**92. TRASEKA,** Transxəzər nəqliyyat dəhlizi – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik xətti də adlandırmaq olar. Transxəzər nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 97,208,369,372, 393.

**93. Sem Braunbək** (d.1956) – hüquqşünas. ABŞ Konqresi Nümayəndələr Palatasının üzvü, 1996-cı ildən senator, Xarici Əlaqələr Komitəsinin üzvü. – 97,98,134,135.

**94. Senat** – ABŞ-da (Konqresin) yuxarı palatası nəzərdə tutulur. – 97.

**95. Semüel Berger** – 1992-1993-cü illərdə ABŞ Dövlət Departamentinin siyasəti planlaşdırma şöbəsi direktorunun müavini və V.Klintonun xarici işlər üzrə böyük müşaviri işləmişdir. 1993-1997-ci illərdə prezidentin milli təhlükəsizlik məsələləri üzrə köməkçisinin müavini, 1997-2000-ci illərdə isə ABŞ prezidentinin milli tHlükəsizlik məsələləri üzrə köməkçisi olmuşdur. – 98,134,141,152,161,167,191, 229,244,364.

**96. Bjezinski Zbiqnev** (d.1928) – Amerikanın siyasi və dövlət xadimi, politoloq. 1977-81-ci illərdə ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri, 1981-ci ildən Strateji və Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəridir. 1987-91-ci illərdə ABŞ prezidentinin xarici kəşfiyyat üzrə müşavirlər komitəsinin üzvü olmuşdur. 1989-cu ildən Con Norkins universitetinin Nitse adına Dərinləşdirilmiş Beynəlxalq Tədqiqatlar Mərkəzinin rəhbəri, Amerika–Azərbaycan Ticarət Palatasının fəxri müşaviridir. – 98, 112-113,134,139-151,191,218,297,364.

**97. İrəvan,** R ə v a n , E r i v a n , Y e r e v a n, - orta ərlərdə və yeni dövrdə (1918-ci ilin mayın 29-dək İrəvan) Azərbaycan şəhəri. XVI ərin əvvəllərində Zəngi çayı sahilində dağlarda əhatə olunmuş düzənlikdə salınmışdır. İrəvan şəhəri dəfələrlə Səfəvi və Osmanlı qoşununun hücumlarına məruz qalmış, gah bu, gah da o biri dövlətin tərkibinə qatılmışdı. İkinci Rusiya-İran müharibəsi (1826-28) dövründə, Türkmənçay müqaviləsinə (1828) əasən, Rusiyaya birləşdirildi. XIX ərin 20-30-cu illədə İran və türkiyədən köçürülmüş çoxlu erməni İrəvanda yerləşdirilmişdi. 1918-ci ilin mayında daşnaksutyun partiyası liderlərinin başçılığı ilə Ermənistan Respublikası yarandı. 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti mayın 29-da keçirdiyi islasında İrəvan şəhərini «paytaxtı» olmayan Ermənistan Respublikasına güzəştə getdi. – 99,130.

**98. «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10-11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 100,167,300, 373,386.

**99. Zəngəzur mahalı,** Z ə n g ə z u r q ə z a s ı – XIX əsrin ikinci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. 1920-ci ilin dekabrında Sovet Rusiyasının təkidi ilə Zəngəzur Azərbaycandan zorla alınıb Ermənistana birləşdirildi. – 101,239.

**100. Mehri,** M e g r i, M i q r i r a y o n u – Ermənistan ərazisində azərbaycanlılar yaşayan ərazi, Tarixi mənbələrdə bu ərazinin Azərbaycana məxsus olduğu göstərilir. – 101,105,199.

**101. Məshədov Aslan** (1952-2003) – 1995-2003-cü illərdə tanınmamış Çeçenistan Respublikasının prezidenti olmuşdur. – 103.

**102. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,036 min km$^2$, əhalisi 70 min nəfərdən çoxdur (2005). Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində salınmışdır.

Naxçıvan e.ə. IX-VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində isə Albaniyanın tərkibində, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. XII əsrdə Azərbaycan Atabəylər Dövlətinin paytaxtı olmuşdur. 10 fevral 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olur. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil edilərkən respublikanın paytaxtı oldu. – 195,235,250,361.

**103. Avraam Linkoln** (1809-1865) – ABŞ-ın 16-cı prezidenti (1861-65), Respublikaçılar partiyasının yaradıcılarından biri və quldarlığın qəti əleyhdarı. Linkoln 1862-ci ildə homsted-akt (quldarlığın ləğvi) imzaladı. Məhz buna görə də 2-ci dəfə seçiləndən az sonra quldarlar tərəfindən qətlə yetirilir. – 112.

**104. Kennedi Con Fidcerald** (1917-1963) – ABŞ-ın 35-ci prezidenti (1961-63). Prezident olduğu zaman bir sıra sosial-iqtisadi reformalar irəli sürmüş. Hərbi blokların və ABŞ hərbi qüvvələrinin möhkəmlənməsinə çalışırdı. Dallasda öldürülmüşdür. – 112,113.

**105. Riçard Armitac** – R.Reyqanın prezidentliyi dövründə (1980-1988) müdafiə nazirinin beynəlxalq təhlükəsizlik üzrə müşaviri olmuşdur. C.Buşun (ata) prezidentliyi dövründə (1988-1992) xüsusi tapşırıqlar üzrə səfir işləyərkən yeni müstəqil dövlətlərə yardım göstərmək proqramının ikinci müəllifi olmuşdurdur. Həmin vaxtdan 907-ci düzəlişin əleyhinə çıxır. Amerika – Azərbaycan Ticarət Palatası Direktorlar Şurasının üzvüdür. – 115-116.

**106. ABŞ-ın Hərbi Dəniz Akademiyası** – dünyanın ən nüfuzlu hərbi təhsil ocaqlarından biri. Hərbi dəniz məktəbi kimi 1845-ci ildə təşkil edilmiş, beş il sonra isə Hərbi Dəniz Akademiyasına çevrilmişdir. Akademiyada təhsil müddəti 4 ildir. 1976-cı ildən etibarən akademiyaya qadınlar da qəbul edilir.

Akademiya şəhərciyinin sahəsi 338 akrdır. Burada 4 min kursant təhsil alır. – 115,116.

**107. GUÖAM** - Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi.

2006-cı ilin mayından bu beynəlxalq qurum «Demokratiya və iqtisadi inkişaf uğrunda təşkilat – GUAM» adlandı. – 116,231,232, 368,373,393.

**108. «Vaşinqton post»** – ABŞ-da gündəlik qəzet. Əsası 1877-ci ildə qoyulmuşdur. Tirajı təxminən 500 min nüsxədir. – 117-123,191.

**109. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 118,177-179.

**110. Dağıstan,** D a ğ ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyasının tərkibində. Sahəsi 50,3 min km$^2$, əhalisi 2094,6 min nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 118,231,251,274,381.

**111. Yeltsin Boris Nikolayeviç** (1931-2007) – Rusiyanın siyasi və dövlət xadimi. 1991-2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. – 119,133.

**112. «Eksson»** – dünyanın ən iri və Amerikanın qocaman sənaye korporasiyalarından biri. Mənzil-qərargahı Amerikanın Dallas şəhərində yerləşir. 1882-ci ildə Con Rokfeller tərəfindən yaradılmışdır. Hazırda dünyanın 90-dan çox ölkəsində fəaliyyət göstərir. Korporasiyada 95 min adam işləyir. 18 ölkədə yerləşən 30 neftayırma müəssisəsinin tam və ya şərikli sahibidir. – 122,145.

**113. «Mobil»** – dünyanın ən iri neft şirkətlərindən biri. 1986-cı ildə yaradılmışdır. Şirkət neft və qaz yataqlarının kəşfiyyatı, neft və qaz hasilatı, satışı, emalı və nəql olunması ilə, kimyəvi maddələr istehsalı və elmi-tədqiqat işləri ilə məşğul olur. – 122.

**114. «Yunokal»** – neft şirkəti. 1980-ci ildə ABŞ-ın Santa-Paula şəhərində «Kaliforniya neft şirkəti» adı ilə yaradılmışdır. «Yunokal» Azərbaycanda fəaliyyət göstərən ilk beynəlxalq neft şirkətlərindəndir. – 122, 145.

**115. «Konoko»** – beynəlxalq korporasiya. 1875-ci ildə yaradılmışdır. Dünyada özəl neft şirkətləri arasında 9-cu yeri tutur. Baş ofisi ABŞ-dadır. Dünyanın 25-dən çox ölkəsində fəaliyyət göstərir. 17 minə yaxın işçisi var. «Konoko» şirkəti neft yataqlarının kəşfiyyatı, işlənməsi, xam neft və qaz hasilatı, habelə yüksəkqiymətli qaz emalı ilə məşğuldur. Şirkət, eyni zamanda, neft emalı və satışı ilə məşğul olur. – 122,145,153.

**116. «Teksako»** – neft şirkəti. Fəaliyyətini 1902-ci ildən Spinditor Hilldə (ABŞ,Texas ştatı) ilkin neft hasil olan vaxtdan başlamışdır. O vaxtdan genişlənərək «Teksako» şirkəti dünyanın ən nəhəng beynəlxalq enerji şirkəti sırasına çıxmışdır. Dünyanın təxminən 150 ölkəsində neft və qaz sənayesi sahəsində fəaliyyət göstərir. İllik gəliri 30 milyarddan çox ABŞ dolları təşkil edir. – 122.

**117. «Frontera Resoursez»** – özəl beynəlxalq enerji şirkəti. Baş ofisi Hyüston şəhərindədir. Şirkət yeni meydana çıxan beynəlxalq bazarlarda energetika layihələrinin tədqiqi ilə məşğuldur. Azərbaycanda nümayəndəliyi var. Şirkət Azərbaycanda quruda yerləşən neft yataqlarının kəşfiyyatı və işlənməsi ilə də məşğul olmaq niyyətindədir. – 122.

**118. «Nyu-York Tayms»** – ABŞ-da gündəlik qəzet. 1851-ci ildən Nyu-Yorkda nəşr edilir. Tirajı 837,2 min (bazar günündə 1,4 milyon) nüsxədir. – 124-136,191.

**119. «Statoyl»** – Norveçin «Statoyl» şirkəti 1972-ci ildən fəaliyyət göstərir. Şirkət Şimal dənizinin Norveç sektorunda ən iri neft-qaz istehsalçısıdır. Hazırda dünyanın 19 ölkəsində neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. Şirkət 1994-cü ildən Azərbaycan neft layihələrində fəal iştirak edir. – 127,145.

**120. İlham Əliyev**, İ l h a m H e y d ə r o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat, siyasi elmlər doktoru. 2003-cü ildən Azərbaycan Respublikasının prezidenti. Ümummilli lider Heydər Əliyevin oğludur. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən birinci vitse-prezidenti. Azərbaycan Respublikasının neft strategiyasının hazırlanmasında və həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin yüksək mükafatlarına layiq görülmüşdür.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi İlham Əliyevin böyük xidmətləri var. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respub-

likanın digər rayonlarında dünya standartlarına cavab verən olimpiya idman-sağlamlıq kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

İlham Əliyevin doğma Azərbaycanımızın inkişafında böyük xidmətləri var. Onun dövründə ölkə iqtisadiyyatı, qeyri neft sektoru sürətlə inkişaf etmiş, eyni zamanda ölkəyə qoyulan xarici investisiyalar xeyli artmışdır.

İlham Əliyev tərəfindən irəli sürülmüş «Regionların inkişafı haqqında dövlət proqramına» əsasən respublikanın şəhər və rayonlarında onlarla sənaye müəssisəsi açılmış, yüz minlərlə iş yerləri yaradılmış və geniş abadlıq işləri görülür. Məhz bunun nəticəsidir ki, Gəncədə maşınqayırma zavodu, Sumqayıtda alüminium zavodu yenidən təmir edilib istifadəyə verilmiş, minlərlə yeni iş yeri açılmış və insanlar işlə təmin edilmişlər.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» və Fransanın «Fəxri legionun böyük xaç komandoru» ordenləri ilə təltif olunmuşdur. Bir çox xarici dövlətlərin nüfuzlu akademiyalarının və universitetlərinin fəxri akademiki və doktorudur. – 128,187,188,189,190.

**121. ATƏT-in Lissabon sammiti** – 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Lissabon Zirvə toplantısında müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan-Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyevin qəti, prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın statusunun yalnız Azərbaycan Respublikasının tərkibində müəyyən olunması öz əksini tapdı. – 130,210,228.

**122. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali Radadır. Paytaxtı Kiyev şəhəridir. – 132,232,233,350,367-406.

**123. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994-2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 132,367-406.

**124. Putin,** Vladimir Vladimiroviç (d.1952) – 2000-ci ilin mayından Rusiya Federasiyasının prezidenti. 1975-97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998-99-cu illərdə MTİ-in direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 1999-cu ilin dekabrından Rusiya Federasiyasının prezidenti vəzifəsini icra etmişdir. Hazırda Rusiya Federasiyanın Baş naziridir. – 132,133, 157,196,229,267,268,269,274.

**125. Corc Buş Herbert** (d.12.6.1924) – Amerikanın görkəmli dövlət xadimi. 1980-89-cu illərdə ABŞ-ın vitse-prezidenti, 1989-92-ci illərdə ABŞ-ın 41-ci prezidenti olmuşdur. – 133.

**126. Nümayəndələr Palatası** – ABŞ-da parlamentin aşağı palatasının adı. Nümayəndələr Palatası ABŞ-da 1787-ci il Konstitusiyasına əsasən yaradılmışdır. – 134.

**127. Amerika-Azərbaycan Ticarət Palatası.** 1996-cı ildə yaradılmışdır. Özəl, qeyri-kommersiya təşkilatıdır. 160 üzvü var. – 139-151,364.

**128. Kalitski,** Kalitski Yan (d.1948) — ABŞ hökumətinin yeni müstəqillik qazanmış ölkələr üzrə energetika və ticarət məsələlərinə dair əlaqələndirici, ticarət nazirliyinin xüsusi müşaviridir. – 139-151,243-248.

**129. 1979-cu il Əfqanıstan hadisələri** – 1978-ci ildə Əfqanıstan Demokratik Xalq Partiyası ölkədə dövlət çevrilişi etdi. Bunun nəticəsində vətəndaş müharibəsi başladı. Ölkədə əmin-amanlıq yaratmaq məqsədilə hakim partiyanın dəvətilə sovet ordu hissələri Əfqanıstana girir. Ancaq nə mərkəzi hökumət, nədə sovet qoşunları ölkədə stabillik yarada bilmir.

Nəhayət 1989-cu ildə sovet ordusu beynəlxalq ictimaiyyətin tələbilə Əfqanıstanı tərk etdi. – 143,218.

**130. Yalta** – Ukraynada kurort-şəhər, Qara dəniz sahilində liman. – 144,371,384.

**131. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 145.

**132. Cənubi Karolina** – ABŞ-ın cənub-şərqində ştat. Sahəsi 80,6 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. İnzibati mərkəzi Kolumbiyadır. – 153.

**133. Respublkaçılar Partiyası** – ABŞ-ın iki əsas partiyasından biri. 1854-cü ildə yaradılmışdır. 1861-85, 1889-93, 1897-1913, 1021-33,1953-61,1969-77,1981-1993 və 2001-ci illərdə hakimiyyətdə olmuşlar. – 153, 154,365.

**134. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974-76 və 1986-88-ci illərdə Fransanın Baş naziri, 1977-95-ci illərdə Paris şəhərinin meri olmuşdur. 1974-76-cı illərdə qollistlərin Respublikanın Müdafiəsi naminə Demokratik İttifaqı partiyasının Baş katibi, 1976-cı ildən Respublikanın Müdafiəsi naminə Birlik partiyasının sədridir. 1995-ci ildən Fransa Respublikasının prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 157, 218.

**135. Albert Qor** (d.1948) – Amerikanın siyasi və dövlət xadimi. Hüquqşünas. 1992-2000-ci illərdə ABŞ-ın ABŞ-ın vitse-prezidenti olmuşdur. – 193.

**136. Ecevit Bülənd** (1925-2006) – Türkiyənin siyasi və dövlət xadimi. 1974,1978-79 və 1997-2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri olmuşdur. 1972-80-ci illərdə Respublika Xalq Partiyasının, 1978-88-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi idi. – 159, 163,200.

**137. Cəm İsmayıl** – (1940-2007) – Türkiyənin siyasi və ictimai xadimi, 1997-2003-cü illərdə Türkiyə Respublikasının xarici işlər naziri vəzifəsində işləmişdir. Türkiyə-Yunanıstan münasibətlərinin yaxşılaşmasında mühüm rolu olmuşdur. – 159,164.

**138. Uilyam Kohen** (1940) – 1973-1979-cu illərdə Nümayəndələr Palatasının, 1979-1997-ci illərdə ABŞ Senatının üzvü olmuşdur. 1997-2000-ci illərdə ABŞ-ın müdafiə naziri idi. Bir çox mükafatların laureatı, səkkiz kitabın müəllifidir. – 166-167,191,244,300,364,366.

**139. Hafiz Paşayev,** H a f i z M i r C ə l a l o ğ l u (d.1941) – diplomat. Fizika-riyaziyyat elmləri doktoru. 1992-2006-cı illərdə Amerika Birləşmiş Ştatlarında Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikası xarici işlər nazirinin müavini və Ali Diplomatiya Akademiyasının rektorudur. – 170.

**140. Skalfaro Oskar Luici** (d.1918) – İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas, Xristian Demokratik Partiyasının rəhbərlərindən biri. Bir neçə dəfə İtaliya parlamentinə deputat seçilmiş, 1992-ci ildə parlamentin sədri olmuşdur. 1966-87-ci illərə qədər bir sıra nazirliklərə rəhbərlik etmiş,1992-ci ildə isə İtaliya Respublikasının prezidenti seçilmişdir. Hazırda sabiq prezident kimi ömürlük senatordur. – 170,219.

**141. Prodi Romano** (d.1939) –İtaliyanın siyasi və dövlət xadimi, hüquqşünas. 70-ci illərin axırlarında sənaye naziri, 80-ci illərin sonunda isə Sənaye Yenidənqurma İnstitutunun prezidenti seçilmişdir. 1995-ci ildən sol mərkəzçilər koalisiyasına başçılıq edir. Romano Prodi müxtəlif yüksək dövlət vəzifələrində işləmiş və Baş nazir olmuşdur. – 170,219.

**142. «Eni-ACİP»** – İtaliyanın neft şirkətlərindən biri. Neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. – 170.

**143. Bruney,** B r u n e y S u l t a n l ı ğ ı– Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min $km^2$, əhalisi 300 min nəfərdir. Bruney konstitusion-monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bandar – Seri –Beqavandır. – 180.

**144. Qambiya,** Q a m b i y a  R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 11,3 min km$^2$, əhalisi 1148 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Bansuadır. –181.

**145. Estoniya,** E s t o n i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1492 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallindir. – 182.

**146. Lennart Meri** (d.1929) – Eston yazıçısı. 1992-ci ildən Estoniya Respublikasının prezidenti. 1986-1990-cı illərdə Estoniya Yazıçılar İttifaqının katibi, 1990-cu ildən Estoniya xarici işlər naziri olmuşdur. – 182,224,228,233.

**147. «Şell»** – infrastrukturların formalaşdırılmasında, neft və kəmərlərin çəkilməsində, onların layihələrinin həyata keçirilməsində fəaliyyət göstərən korporasiya. Dünyanın 100-dən çox ölkəsində şirkətləri var. Dünyanın 34 ölkəsində 53 neftayırma zavodu tam və ya qismən «Şell»ə məxsusdur. – 184,185.

**148. Xalq Cəbhəsi,** A z ə r b a y c a n  X a l q  c ə b h ə s i (AXC) – ictimai-siyasi təşkilat. 1989-cu ildə təsis konfransı keçirilmiş, Proqram və Nizamnaməsi qəbul olunmuşdur. 1999-cu il iyulun 25-də keçirilmiş qurultayının qərarı ilə Azərbaycan Xalq Cəbhəsi Partiyası adlandırılmışdır. – 196,353.

**149. ORT** – Rusiya İctimai Televiziyası. MDB ölkələrinin 98 faizdən çox əhalisi üçün verilişlər aparır. Müxbir məntəqələri Rusiyada, MDB –də və dünyanın bir çox ölkələrində fəaliyyət göstərir. – 196,198.

**150. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 51 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 198.

**151. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986-92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 199,200.

**152. Azərbaycan Dövlət Teleqraf Agentliyi (Azər TAc)** – Azərbaycanda dövlət informasiya orqanı. 1920-ci ildə yaradılmışdır. Əvvəllər Azərinform adlanırdı. 1992-ci ildən Azər TAc kimi fəaliyyət göstərir. Azərbaycan Respublikası mətbuatı, televiziya və radiosu üçün xarici və daxili informasiyanı yayır, respublikanın həyatı haqqında ölkədə və xaricdə yaymaq üçün informasiya verir. – 202-203.

**153. Küveyt,** K ü v e y t  d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 1708 km$^2$, əhalisi 2 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Mili Məclisə tabedir. Paytaxtı əl-Küveytdir. – 204.

**154. Avropa Parlamenti** – Avropa Şurasının orqanlarından biri. İştirakçı ölkələrin əhalisinə görə ümumi səsvermə yolu ilə 5 il müddətinə seçilik. AP aylıq sessiyaları Strasburqda, fövqəladə islasları AP-nin komitələri işləyən Brüsseldə, Katibliyi isə Lüksemburqdadır. Azərbaycan 2001-ci ildən Avropa Parlamentinin üzvüdür. – 205-220.

**155. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını qorumaq, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə nazirliklərinin müşavirəsi və katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 206,207,208, 224,225,349,350, 358,374.

**156. Brüssel** – Belçika krallığının paytaxtı. Haqqında ilk məlumata XI əsr sənədlərində rast gəlinir. 1830-cu ildən Belçikanın paytaxtı, ölkənin iqtisadi, siyasi və mədəni mərkəzidir. –206.

**157. Strasburq** – Şərqi Fransada şəhər. X əsrdən Almaniya Krallığının hakimiyyəti altında olmuşdur. 1681-ci ildə Fransaya birləşdirilmişdir. Avrora Şurası bu şəhərdə yerləşir. – 206,373.

**158. İNOQEYT** – neft və qazın Avropaya ixracı proqramı. – 208.

**159. Mstislav Rostropoviç,** Rostropoviç Mstislav Leo-poldoviç (1927-2007) – Bakıda doğulmuş böyük rus musiqiçi, violençelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ xalq artisti. Bakı Musiqi Akademiyasının fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal», «Şöhrət» və «Heydər Əliyev» ordenləri ilə təltif olunmuşdur. – 218,258.

**160. Bosniya–Hersoqovina** – 1945-92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikası tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman, serb və xorvat) milli- dini zəmində qarşıdurma yarandı və qanlı hərbi konfrantasiyaya səbəb oldu. 1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında şaziş imzalandı. 1995-ci ildə qüvvəyə minən konstitusiyaya görə ölkədə, Birləşmiş Bosniya – Hersoqovinadan ibarət federativ respublika yarandı. – 221.

**161. Avstriya,** Avstriya Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Milli Şura və Federal Şura) parlamentdir. Paytaxtı Vyanadır. – 222.

**162. Vilayət Quliyev,** Vilayət Muxtar oğlu (d.1952) – filoloq, diplomat. Filologiya elmləri doktoru. 1996-200-ci illərdə Milli Məclisin deputatı olmuşdur. 1999-2004-ci illərdə Azərbaycan Respublikası xarici işlər naziri vəzifəsində çalışmışdır. Hazırda Azərbaycan Respublikasının Polşa Respublikasında fövqəladə və səlahiyyətli səfiridir. – 226,227.

**163. Tallin** – Estoniyanın paytaxtı. 1219-1977-ci illərdə rəsmi adı Revel idi. XIII-XVI əsrlərdə əvvəlcə Danimarkanın sonra isə İsveçin hakimiyyəti altında olmuşdur. 1710-cu ildən isə Rusiyaya birləşdirilmişdi. 1918-ci ildən Estoniya Respublikasının paytaxtıdır. – 226,227,235.

**164. Tartu** –Estoniyada şəhər. Tartu 1030-cu ildən Yuryev adı ilə məlum idi. 1919-cu ildən isə Tartudur. – 227.

**165. Tur Heyerdal** (1914-2002) – Norveç etnoqrafi və arxeoloqu. Köhnə dünya (Asiya, Avropa, Afrika) və Yeni Dünya (Amerika) arasında xalqların transogean miqrasiyasının mümkünlüyünü tədqiq etmişdir. 1969 və 1970-ci illərdə papirusdan hazırlanmış «Ra» və «Ra-2» qayıqlarında Afrikadan Amerikaya, 1977-78-ci illərdə qamışdan qayrılmış «Tiqris» qayığında Əlkürna (İraq) – Cibuti marşrutu ilə ekspedisiyalar təşkil etmişdir. 2 dəfə Azərbaycanda olmuş, Qobustan qaya təsvirlərinə, qədim Şabran şəhərinin qalıqlarına baxmış, bu abidələr barədə qiymətli mülahizələr söyləmişdir. – 227.

**166. Rusiya və Belarus İttifaqı** – 1997-ci ildə təşkil edilmişdir. Burada hər iki ölkənin ali idarəçilik sisteminin vahid pul, sərhəd, parlament yaradılması, rus və belarus xalqlarının birləşməsi və s. nəzərdə tutulmuşdur. – 232.

**167. Kiyev** – Ukrayna Respublikasının paytaxtı. VI əsrdə salınmışdır. IX-XII əsrlərdə Kiyev Rus dövlətinin mərkəzi idi. 1654-cü ildə Ukrayna Rusiya ilə yenidən birləşdikdən sonra Kiyev Ukraynanın iqtisadi və mədəni mərkəzi kimi inkişaf etmişdir. 1934-cü ildə Ukraynanın paytaxtı Xarkovdan Kiyevə köçürüldü. Kiyev Ukraynanın ən iri sənaye, mədəniyyət və elmi mərkəzidir. – 235,236,274,371, 384.

**168. Leninqrad** – (1914-cü ilədək Sankt-Peterburq, 1924-cü ilədək Petroqrad, 1991-ci ildən yenidən Sank-Peterburq) – Rusiya Federasiyasının böyük sənaye, mədəniyyət və elm mərkəzi. Əsası 1703-cü ildə I Pyotr tərəfindən qoyulmuşdur. 1918-ci ilədək Rusiyanın paytaxtı olmuşdur. – 235,236,253,256.

**169. Mozambik,** Mozambik Respublikası – Cənub-Şərqi Afrikada dövlət. Sahəsi 802 min km$^2$, əhalisi 17,9 milyon nəfərdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı – Respublika Assambleyasıdır. Paytaxtı Marutudur. – 241.

**170. Mərakeş,** Mərakeş Krallığı – Şimal-Qərbi Afrikada dövlət. Sahəsi 446,6 min km$^2$, əhalisi 26,7 milyon nəfərdir. İnzibati ərazisi 35 əyalətə və 8 prefektura bölünür. Mərakeş konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı birpalatalı Nümayəndələr palatasıdır. Paytaxtı Rabatdır. – 242.

**171. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 km2, əhalisi 146,9 min nəfərdir. – 253.

**172. Kosıgin Aleksey Nikolayeviç** (1904-1980) – Rusiyanın dövlət və siyasi xadimi. Müxtəlif illərdə nazir, Sov. İKP MK Siyasi Bürosunun üzvü, 1964-80-ci illərdə SSRİ Nazirlər Sovetinin sədri olmuşdur. – 254,255.

**173. Qorbaçov,** M i x a i l S e r g e y e v i ç (d.1931) – 1985-91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990-91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin təşkilatçısı və günahkarıdır. – 255.

**174. Rıjkov Nikolay İvanoviç** (d.1929) – Rusiyanın dövlət və siyasi xadimi. SSRİ Nazirlər Sovetinin sədri olmuşdur. 1995-ci ildən Dövlət Dumasının üzvü və Rusiya Xalq Vətənpərvərlik İcraiyyə İttifaqının sədridir. – 255.

**175. Solomentsev Mixail Sergeyeviç** (d.1913) – Rusiya Federasiyasının partiya və dövlət xadimi. İki dəfə Sosialist Əməyi Qəhrəmanı. 1971-1983-cü illərdə RSFSR Nazirlər Sovetinin sədri, 1983-1991-ci illərdə Sov.İKP MK yanında Partiya Nəzarəti Komissiyasının sədri idi. – 256.

**176. Bloxin Nikolay Nikolayeviç** (1912-1993) – cərrah-onkoloq, akademik, 1960-68, 1977-87-ci illərdə TEA-nın prezidenti, Sosialist Əməyi Qəhrəmanı. Əsərləri, əsasən, plastik və bərpa cərrahlığına, travmatologiya və onkologiyaya aiddir. – 256.

**177. Əli Həsənov,** Ə l i Ş a m i l o ğ l u (d.1948) – mühəndis –mexanik. 1998-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri Üzrə Dövlət Komitəsinin sədridir. 1996-2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 257.

**178. Kuril adaları** – Kamçatka yarımadası ilə Nokkaydo adaları arasında adalar qruru. Rusiya Federasiyasının Saxalin vilayətinin tərkibinə daxildir. Uzunluğu təqribən 1200 km, sahəsi təqribən 15,6 min km2. 1855-ci ildə Rusiya-Yaponiya müqaviləsinə əsasən Kiril adaları Rusiya mülkiyyəti elan edildi. 1875-ci il müqaviləsinə əsasən Yaponiya idarəçiliyinə keçdi. Krım konfransının qərarı ilə 1945-ci ildə yenidən Rusiyaya qaytarıldı. – 257.

**179. Tatarıstan,** T a t a r ı s t a n R e s p u b l i k a s ı – Rusiya Federasiyası tərkibində federal vilayət. Sahəsi 68 min km$^2$, əhalisi 3773,8 min nəfərdir. – 261,387.

**180. Lujkov Yuri Mixayloviç** (d.1936) – Rusiyanın istimai və dövlət xadimi. 1992-ci ildən Moskva şəhərinin meridir. Moskva şəhəri ilə Azərbaycan arasında iqtisadi və mədəni əlaqələrin güclənməsi və möhkəmləndirilməsində yaxından iştirak edir. – 264.

**181. Si-En-En,** «K e y b l N y u s N e t u o r k» – ABŞ-da peyk-kabel informasiya televiziya kanalı. Əsası 1980-ci ildə Atlanta şəhərində qoyulmuşdur. Bütün sutka ərzində 150-yə qədər ölkəyə ingilis dilində xəbərlər yayımlayır. Dünyanın müxtəlif regionlarında 25 nümayəndəliyi var. – 267.

**182. «MİR»** – dövlətlərarası teleradio şirkəti. 1993-cü ildə MDB dövlət başçılarının qərarı ilə yaradılmışdır. Əsasən tamaşaçılara və dinləyicilərə MDB ölkələri və xalqları haqqında ətraflı məlumat verir. – 267, 268.

**183. Raykin Arkadi İsaakoviç** (1911-1987) – rus estrada artisti. SSRİ xal artisti, Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı. 1939-cu ildən Leninqrad Miniatür Teatrının əvvəlcə artisti, sonradan bədii rəhbəri və quruluşçu rejissoru olmuşdur. – 264.

**184. Nəsirəddin Tusi,** M ə h ə m m ə d i b n H ə s ə n (1201-1274) – Azərbaycanın ensiklopediyaçı alimi, dövlət xadimi. Təsis etdiyi Marağa Astronomiya Rəsədxanası (1259) qısa müddətdə böyük elmi mərkəzə çevrilmiş, burada bir çox məşhur riyaziyyatçı və astronom alimlər yetişmişdir. – 271.

**185. Üzeyir Hacıbəyov,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885-1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 271.

**186. 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi.** Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən Sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin Qanlı Yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 272, 314.

**187. 1956-ci il Macarıstan hadisələri** – 1956-cı ildə Macarıstanda kommunist rejiminə qarşı kütləvi surətdə xalq hərəkatı başladı. Bu hərəkat sovet qoşunları tərəfindən yatırıldı. – 273.

**188. 1968-ci il Çexoslovakiya hadisələri** – 1968-ci ildə Çexoslovakiyada demokratik qüvvələr yaranmağa başladı. Bu qüvvələr ölkədə sovet rejiminə qarşı çıxmağa başladı. Bu zaman Varşava Paktı Ölkələrinin hərbi qüvvələri Çexoslovakiyaya yeridildi. Ölkədəki demokratik qüvvələr kütləvi surətdə həbs və məhv edildi. – 273.

**189. Çernomırdin** V i k t o r S t e p a n o v i ç (d.1938) – Rusiya Federasiyasının dövlət xadimi, diplomat. 1992-98-ci illər Rusiya Federasiyasının Baş naziri olmuş, hazırda Rusiya Federasiyasının Ukrayna Respublikasında fövqəladə və səlahiyyətli səfiridir. – 279.

**190. Devid Vuqvord** (d.1946) – neftçi-mühəndis, 1999-cu ildən «BP-Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Ərəb əmirliklərində, Norveç, Rusiya və ABŞ-da «BP» şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail və Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 284-295.

**191. Natiq Əliyev,** N a t i q A g a ə l i o ğ l u (d.1947) – 1993-2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 284-295.

**192. Rəsul Quliyev,** R ə s u l B a y r a m o ğ l u (d.1947) – 1993-96-cı illərdə Milli Məclisin sədri olmuşdur. – 294,420.

**193. Xoşbəxt Yusifzadə,** X o ş b ə x t B a ğ ı o ğ l u (d.1930) – neftçi-geoloq, geologiya-minerologiya elmləri doktoru. Azərbaycan Milli Elmlər Akademiyasının akademiki. 1994-2000-ci illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 2004-cü ildən isə birinci vitse-prezidentdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 294.

**194. Yuqoslaviya hadisələri** – 1980-ci illərdən başlayaraq Yuqoslaviyada (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikasını (SRY) yaratdılar. 1999-cu ildə Serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılığa başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülh məramlı ordusu albanları şerblərdən qorumaq üçün Kosovaya girdi. 2002-ci ildə SRY Serbiya və Çernoqoriya adı ilə adlandırıldı. 2006-cı ildə keçirilən referendum nəticəsində Çernoqoriya da Serbiyadan ayrıldı və müstəqil dövlət yaratdı. – 301.

**195. Gülüstan müqaviləsi** (1813) – birinci Rusiya-İran müharibəsinə son qoymuş müqavilə. Oktyabrın 12(24)-də Qarabağın Gülüstan kəndində bağlanmışdır. Rusiya –İran arasında əvvəlcə barışıq aktı, sonra isə on bir maddədən ibarət sülh müqaviləsi imzalanmışdı. Bu müqaviləyə əsasən hər iki dövlət arasında yeni sərhəd xətləri müəyyən edildi. 1814-cü il sentyabrın 15-dən qüvvəyə minən Gülüstan müqaviləsi vahid Azərbaycanın iki işğalçı dövlət tərəfindən bölüşdürülməsinin əsasını qoydu. – 303.

**196. Türkmənçay müqaviləsi** (1828) – XIX əsrin əvvəllərində Rusiya-İran müharibələri başa çatdıqdan sonra, Təbriz yaxınlığındakı Türkmənçay kəndində bağlanmış müqavilə. 16 maddədən ibarət olan Türkmənçay müqaviləsinə əsasən Cənubi Qafqaz əraziləri, o cümlədən Şimali Azərbaycan Rusiyaya birləşdirildi, Cənubi Azərbaycan torpaqları isə İranda qaldı. Türkmənçay müqaviləsinin 3-cü maddəsinə əsasən Araz çayının o tayı və bu tayı üzrə İrəvan və Naxçıvan xanlıqları Rusiya imperiyasının tam mülkiyyətinə keçdi. – 303.

**197. XX əsrin əvvəlində Rusiya –Yaponiya müharibəsi (1904-1905)** – Çin və Koreyanı bölüşdürmək uğrunda başlanmış müharibə. Müharibəni yaponlar başlamış 1904-cü il yanvarın 27-ə keçən gecə yaponlar qəfildən Port-Artura hücum edib, Sakit okean eskadrilyasını darmadağın etdilər. İyulda Yapon ordusu Saxalunu tutdular. Müharibənin son mərhələsi Susima vuruşması (1905) oldu. Müharibə Portsmum sülh müqaviləsi (1905) ilə başa çatdı. – 305.

**198. Birinci dünya müharibəsi** (1914-18) – iki böyük dövlətlərin koalisiyası arasında müharibə – Mərkəzi böyük dövlətlər (Almaniya, Avstriya-Macarıstan, Türkiyə, Bolqarıstan) və Antanta (Rusiya, Fransa, Böyük Britaniya, Serbiya, sonradan Yaponiya, İtaliya, Rumıniya, ABŞ və başqaları, hamısı 34 dövlət). 1914-ci il iyunun 15-də serb millətçisi tərəfindən Avstriya-Macarıstan şahzadəsi Frans Ferdinandın öldürülməsi müharibənin başlanmasına səbəb oldu. 1914-17-ci illərdə hər iki tərəf böyük itki verməlרinə baxmayaraq, qarşılarına qoyduqları məqsədə nail ola bilmədilər.

1917-ci ilin əvvəlində ABŞ-ın Almaniyaya qarşı müharibəyə girməsi Almaniya blokunu zəiflətdi. 1918-ci ildə Sovet Rusiyası müharibədən çıxdı və Brest sülh müqaviləsi imzalandı. Almaniyanın vəziyyəti get-gedə pisləşdiyinə görə Antanta ilə Kompyen barışığı imzalandı.

Birinci dünya müharibəsi Almaniya və onun müttəfiqlərinin tam məğliyyəti ilə başa çatdı. – 305.

**199. «Kitabi-Dədə Qorqud»** – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV-XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) saxlanılır. – 311,329-344,428,431.

**200. Naxçıvani Əcəmi Əbubəkr oğlu (**XII əsrin 20-ci illəri – XII əsrin sonu) — orta əsr Azərbaycan memarlığının görkəmli nümayəndəsi, Naxçıvan memarlıq məktəbinin banisi. O, Naxçıvanda Yusif ibn Küseyir türbəsini, Möminə xatun türbəsini, Böyük Cümə məscidini və mənbələrdə «Darülmük» adlandırılan Eldəgəzlər sarayını yaratmışdır. –311.

**201. Mömünə xatun türbəsi** – Azərbaycan milli memarlığının möhtəşəm abidəsi, Şərq memarlıq incilərindən biri. 1186-cı ildə Naxcıvan şəhərinin qərb hissəsində tikilmişdir (memarı Əcəmi Əbu Bəkr oğlu Naxçıvani). Azərbaycan Atabəylər dövlətinin banisi Şəmsəddin Eldəniz arvadı Mömünə xatunun qəbri üzərində məqbərə yaradılmasına qərar vermiş, onun tikintisini oğlu Məhəmməd Cahan Pəhləvan hicri 582-ci ilin məhərrəm ayında (aprel, 1186) başa çatdırmışdır. Elin yaddaşında «Atabəy günbəzi» adı ilə qalmışdır. Abidənin baştağında küfi xətti ilə bu sözlər yazılmışdır. «Biz gedirik, ancaq qalır rizigar. Biz ölürük, əsər qalır yadigar». Kompozisiyaya, yetkinliyə, ayrıntılarının incə, zərif işlənməsinə və memarlıq həllinə görə türbə orta əsrlər memarlıq sənətinin şah əsərlərindən sayılır. – 311.

**202. Məhsəti Gəncəvi ( ?-? )** – XII əsr Azərbaycan şairi. M.Gəncəvi əsasən, rübai janrında yazmışdır. Rübailəri dünyəviliyi, humanizmi, nikbinliyi ilə seçilir. – 311.

**203. Qızıl Arslan,** Osman Müzəffərəddin (?-1191) – Eldəgəzlər sülaləsinin hökmdarı (1186-91), atabəy, Şəmsəddin Eldəgəzin oğlu. Qızıl Arslan zamanında Eldəgəzlər dövləti daha da gücləndi. Hətta Şirvanşahlar da Eldəgəzlərin vassallığını qəbul etmişdi. Şimali və Cənubi Azərbaycan ərazisinin vahid bir dövlət daxilində birləşməsi iqtisadiyyatın, elm və mədəniyyətin inkişafına şərait yaratdı. – 311.

**204. Özbək Müzəffərəddin** (? – 1225) – Eldəgəz hökmdarı (1210-25), Məhəmməd Cahan Pəhləvanın oğlu. Özbəyin dövründə monqollar ilk dəfə Azərbaycana soxuldu. 1225-ci ildə Xarəzmşah Calal əd-din Azərbaycana hücum etdi. Əvvəlcə Gəncəyə, sonra isə Əlincəqalaya qaçan Özbək orada da vəfat etmişdir. – 311.

**205. Şah İsmayıl Xətai** (1487-1524) — Azərbaycan Səfəvilər dövlətinin banisi. Dövlət xadimi və sərkərdə, şair. 1501-ci ilin payızında Təbrizə daxil olan I Şah İsmayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olmaqla Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. I Şah İsmayılın dövründə Səfəvilər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrildi.

I Şah İsmayıl «Xətai» təxəllüsü ilə Azərbaycan, fars və ərəb dillərində şerlər yazmışdır. – 311.

**206. Uzun Həsən** (1423/24-1478) – Ağqoyunlu hökmdarı (1468-78), görkəmli sərkərdə və diplomat. 1467-ci ildə Cahan şahı məğlub edən Uzun Həsən Qaraqoyunlu dövlətinə son qoyaraq mərkəzi Təbriz şəhəri olmaqla «Xorasandan Qaramana qədər uzanan» Ağqoyunlu dövlətinin əsasını qoymuşdur. – 311.

**207. Sara xatun** (?-?) – Ağqoyunlu dövlətinin siyasi həyatında mühüm rol oynamış qadın (XV əsr), Uzun Həsənin anası, diplomat. Ağqoyunlu dövlətinin möhkəmləndirilməsində yaxından iştirak etmiş, Uzun Həsənin ən məsul diplomatik tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmişdi. – 311.

**208. Xəlilüllah II** (?-1535) – Şirvanşah (1524-35), Dərbəndilər sülaləsindən idi. Səfəvilərdən asılı vəziyyətə düşən II Xəlilüllah I Şah İsmayılın qızı Pərixan xanımla evlənmişdi. – 311.

**209. Pəri xanım,** P ə r i x a n   x a n ı m (?-1550/51-ci ildən əvvəl) – Səfəvilər dövlətinin siyasi həyatında mühüm rol oynamış qadın; I Şah İsmayılın (1500-24) qızı, 1521-ci ildə Şirvanşah II Xəlilüllaha ərə getmişdi. – 311.

**210. Şah Abbas I** (1571-1629) – İran şahı. Səfəvilər sülaləsindəndir. Şah Abbas nizami ordu yaratmış, vergi işini qaydaya salmış, geniş tikinti işləri aparmışdı. O, Bəhreyn adalarını (1601-02), Qəndəhar (1621), Hörmüz adalarını (1622), İraqı (1623-38) tutmuşdu. I Şah Abbas Avropa ölkələri ilə siyasi və ticarət əlaqələri yaratmışdı. – 312.

**211. Xeyransabəyim,** X e y r a n   N i s ə   b ə y i m (?-1579) – Səfəvilər dövlətinin siyasi həyatında mühüm rol oynamış qadın. Səfəvi hökmdarı Məhəmməd Xudavəndənin (1578-87) arvadı, I Şah Abbasın anası. – 312.

**212. Tuti Bikə** ( ? – 1786) – Quba xanlığının siyasi həyatında mühüm rol oynamış qadın. Fətəli xanın arvadı, Qaraqaytaq hakimi Əmir Həmzənin bacısı. 1776-cı ildən Dərbənd şəhərinin idarəsi Tuti Bikəyə tapşırılmışdı. Çavduşan vuruşmasında (1774) Tuti Bikə Dərbəndin müdafiəsinə şəxsən rəhbərlik etmişdi. – 312.

**213. Natəvan,** X u r ş u d b a n u (1832-1897) – tanınmış Azərbaycan şairi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şerlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. Natəvan həm də istedadlı rəssam olmuşdur. – 312.

**214. Ağabəyimağa Ağabacı** (1781-1831) – Azərbaycan şairi. İbrahimxəlil xanın qızıdır. 1801-ci ildə İran şahı Fətəli şah Qacara ərə verilmişdir. Bir neçə şeri məlumdu. – 312.

**215. Qonçəbəyim** (1827- ?) Azərbaycan şairəsi,sonuncu Naxçıvan xanı Ehsan xan Kəngərlinin qızı. «Qonçeyi-ülfət» ədəbi məclisinin iştirakçılarından olmuşdur. Qoncəbəyim nakam məhəbbət mövzusunda lirik şerlər müəllifidir. – 312.

**216. Fatma xanım Kəminə** (1841-1898) – Azərbaycan şairəsi. Bilikli olduğuna görə «Mirzə Fatma xanım» adı ilə də tanınmışdır. «Məclisi fəramuşam» və «Məclisi üns» ədəbi məclislərində fəal iştirak etmişdir. Şeirlərinin çoxu məhəbbət mövzusundadır. – 312.

**217. Həmidə xanım Cavanşir,** Məmmədquluzadə – Cavanşir Həmidə xanım Əhməd bəy qızı (1873-1955) – Azərbaycanın ilk maarifçi qadınlarından biri, xeyriyyəçi, C.Məmmədquluzadənin həyat yoldaşı. Kəhrizli kəndində qadınlar üçün ilk məktəb və toxuculuq emalatxanası açmışdır. Həmidə xanım Qafqvz Müsəlman Qadınları Xeyriyyə Cəmiyyətinin (1908-17) yaradıcılarından biri olmuşdur. Həmidə xanım C.Məmmədquluzadə haqqındja xatirələrini yazmışdır. – 312.

**218. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. Bakıdadır. 1905-14-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin baş fasadındakı üçtağlı eyvanı, cinahlarındakı minarələr və gümbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı sferik gunbəzlə örtülmüşdür. İbadət zalının içməkan quruluşu yerli memarluq konstriksiyalrı ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı-Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 312.

**219. Nəriman Nərimanov,** N ə r i m a n   N ə c ə f   o ğ l u (1870-1925) – görkəmli dövlət xadimi, yazıçı və publisist, həkim. 1917-ci ildən Bakı Xalq Komissarları Sovetinin tərkibinə daxil olur.

1920-ci il aprelin 27-də Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi ərəfəsində Nərimanov qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin, sonra isə Azərbaycan SSR XKS-nin sədri seçildi. O, Azərbaycan xalqının maraqlarını müdafiə etdiyinə görə 1922-ci ildə Moskvaya çağırılır və SSRİ-nin 1-ci Sovetlər qurultayında (1922) SSRİ MİK-nin sədri seçilir. – 313.

**220. Leyla Məmmədbəyova,** L e y l a  Ə l ə s g ə r  q ı z ı (1909-1989) ilk Azərbaycan təyyarəçi qadınlardan biri. Tuşino təyyarə meydanında paraşütlə tullanan ilk azərbaycanlı qadındır. Böyük Vətən müharibəsində desantçı paraşütçülər hazırlamışdır. – 313.

**221. Seyidməmmədova Züleyxa,** Z ü l e y x a  H ə b i b  q ı z ı (1919 -1994) - ilk azərbaycanlı təyyarəçi qadınlardan biri. N.J.Jukovski adına hərbi Hava Akadlemiyasını bitirmişdir. Böyük Vətən müharibəsində qırıcı təyyarəçi və qadınlardan ibarət qırıcı aviasiya polkunun komandiri olmuş, 500-dən artıq döyüş uçuşu keçirmişdir. – 313.

**222. Şövkət Səlimova,** Ş ö v k ə t  Ş a h b a z  q ı z ı (1920-1999) – ilk azərbaycanlı qadın gəmi kapitanı. Azərbaycan Respublikası əməkdar iqtisadçısı. Səlimova əvvəlcə gəmi kapitanı köməkçisi, sonra isə kapitan vəzifəsində uzaq dənizlərə səfər etmişdir. Böyük Vətən müharibəsi dövründə Səlimovanın başçılıq etdiyi gəmi heyəti Xəzər dənizi vasitəsilə cəbhəni hərbi ləvazimat və yanacaqla təmin edirdi. – 313.

**223. Mərziyə Davudova,** M ə r z i y ə  Y u s i f  q ı z ı (1901-1962) – aktrisa. Geniş yaradıcılıq diapozonuna malik olan M.Davudova müxtəlif xarkterli rolları eyni ustalıqla ifa etmişdir. Davudova Azərbaycan səhnəsində Şekspir faciələrinin ən yaxşı ifaçılarından olmuşdur. SSRİ xalq artisti, SSRİ Dövlət mükaftı laureatı. – 313.

**224. Hökumə Qurbanova,** H ö h u m ə  A b b a s ə l i  q ı z ı (1913-1988) – aktrisa. SSRİ xalq artisti, M.F.Axundov mükafatı laureatı. H.Qurbanova yaradıcılığının əsas mövzusunu qəhrəman, mübariz xarakterli, yüksək bəşəri ideallarla aşılanmış güclü insan obrazı təşkil edir. Şekspir dramaturqiyasında ən mürəkkəb qadın obrazlarından olan Kleopatranın daxili aləmini ustalıqla aça bilmişdir. O, bir çox bədii filmlərdə də çəkilmişdir. – 313.

**225. Münəvvər Kələntərli,** M ü n ə v v ə r  S ə m ə d  q ı z ı (1912-1963) – Azərbaycan aktrisası. «Arşın mal alan» filmində yaratdığı Cahan xala obrazı M.Kələntərliyə böyük şöhrət qazandırmışdır. SSRİ Dövlət mükafatı laureatı. – 313.

**226. Barat Şəkinskaya,** B a r a t  H ə b i b  q ı z ı (1914-1999) – aktrisa. Azərbaycan Respublikasının xalq artisti. Onun yaratdığı obrazlar yüksək aktyorluq məharəti, səmimiliyi, temperamenti ilə fərqlənmişdir. Şəkinskaya lirik, dramatik rollarla yanaşı, komik, xarakterik rolların ifaçısı kimi də tanınmışdır. – 313.

**227. Leyla Bədirbəyli,** L e y l a  A ğ a l a r  q ı z ı (1920-1999) – görkəmli səhnə ustası, Azərbaycanın xalq artisti. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan Milli Dram Teatrında fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 313.

**228. Nəsibə Zeynalova,** N ə s i b ə  C a h a n g i r  q ı z ı (1917-2003) – Azərbaycan Respublikasının xalq artisti, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Cahangir Zeynalovun qızıdır. 1941-ci ildən Azərbaycan Musiqili Komediya Teatrının solisti olmuşdur. Zeynalova Azərbaycan komediya tarixinə daxil olmuş unudulmaz səhnə obrazları yaratmışdır. Zeynalovanın aktyor sənəti üçün zəngin mimika və obrazı ən xırda incəliklərinə açmaq bacarığı, milli kolorit səciyyəvidir. Zeynalova bir sıra filmlərdə də çəkilmişdir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 313.

**229. Şəfiqə Məmmədova,** Ş ə f i q ə  H a ş ı m  q ı z ı (d.1945) – aktrisa. Azərbaycan Respublikasının xalq artisti. SSRİ və Azərbaycan Respublikası Dövlət mükafatları daureatı. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli məclisinin deputatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 313.

**230. Amalya Pənahova,** A m a l y a  Ə l i ş  q ı z ı (d.1945) – Azərbaycan aktrisası. Əmək fəaliyyətinə Azərbaycan Akademik Dram Teatrında başlamışdır. Teatr səhnəsində rəngarəng və yaddaqalan obrazlar yaratmışdır. Azərbaycanın xalq artistidir. Bakı Bələdiyyə Teatrının bədii rəhbəri və direktorudur. 2000-2005-ci illərdə Milli Məclisin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 313.

**231. Qəmər Almaszadə,** Q ə m ə r  H a c a ğ a  q ı z ı (1915-2006) – Azərbaycan balet artisti, baletmeyster və pedaqoq, ilk azərbaycanlı balerina. Azərbaycan və SSRİ xalq artisti. SSRİ Dövlət mükafatı laureatıdır. Azərbaycan balet məktəbinin yaradıcılarından olan Almaszadənin sənətkarlığı klassik xoreoqrafiya ənənələri ilə

xalq rəqs yaradıcılığı xüsusiyyətlərinin vəhdətinə əsaslanmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 313,325,326.

**232. Leyla Vəkilova,** L e y l a M ə h ə d q ı z ı (1927-1999) – Azərbaycan balet artisti. Azərbaycan və SSRİ xalq artisti. 1943-71-ci illərdə M.F.Axundov adına Azərbaycan Akademik Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. L.Vəkilova milli baletlərdə klassik rəqs texnikası və Azərbaycan xalq rəqslərinə xas elementlərdən məharətlə istifadə etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 313.

**233. Rəfiqə Axundova,** R ə f i q ə H a c ı q ı z ı (d.1931) – Azərbaycan balet artisti, baletmeyster. Azərbaycanın xalq artisti. Azərbaycan Dövlət Opera və balet teatrında Maqsud Məmmədovla birlikdə bir sıra baletlərin quruluşunu vermişdir. – 313.

**234. Şövkət Məmmədova,** Ş ö v k ə t H ə s ə n q ı z ı (1897-1981) – Azərbaycan müğənnisi, pedaqoq, musiqi xadimi, ilk azərbaycanlı professional qadın müğənni. SSRİ xalq artisti. İki dəfə Milanda (1911,1927-29) məşhur Qərb müğənnilərindən dərs almışdır. Güclü musiqi duyumu və yüksək vokal mədəniyyətinə, məlahətli, axıcı səsə malik olan Ş.Məmmədovanın ifası, həmçinin aktyorluq məharəti ilə fərqlənmişdir. O, Azərbaycan opera səhnəsində rus və dünya vokal sənətinin ən yaxşı ənənələrini milli musiqi xüsusiyyətləri ilə əlaqələndirmişdir. – 313.

**235. Şövkət Ələkbərova,** Ş ö v k ə t F e y z u l l a q ı z ı (1922-1993) – Azərbaycan müğənnisi. Məlahətli, yumşaq tembrli səsi olan Şövkət xanımın ifaçılığı üçün yüksək vokal mədəniyyəti, dərin emosionallıq və lirizm səviyyəvi idi. Məharətli gəzişmələr, improvizasiya ustalığı onun muğam yaradıcılığının əsas məziyyətlərindəndir. Azərbaycan Respublikasının xalq artisti. – 313.

**236. Sara Qədimova,** S a r a B ə b i ş q ı z ı (1922-2005) – Azərbaycan müğənnisi. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. –313.

**237. Rübabə Muradova,** R ü b a b ə X ə l i l q ı z ı (1933-1983) – Azərbaycan müğənnisi. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. R.Muradova güclü, təsirli və müxtəlif çalarlı səsə, orijinal ifaçılıq üslubuna malik sənətkar olmuşdur. – 313.

**238. Tükəzban İsmayılova,** T ü k ə z b a n M ə h ə r r ə m q ı z ı (1923-2008) – xalq artisti. Böyük Vətən müharibəsinin iştirakçısı. Uzun müddət Azərbaycan Dövlət Televiziya və Radio Şirkətinin və Filarmoniyanın solisti olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 313.

**239. Zeynəb Xanlarova,** Z e y n ə b Y ə h y a q ı z ı (d.1936) – müğənni, xanəndə. Azərbaycan və SSRİ xalq artisti. Xanlarovanın pereprtuarında muğam, təsnif, Azərbaycan xalq mahnıları və Azərbaycan bəstəkarlarının mahnıları əsas yer tutur. Xalq musiqisinin, eləcə də Azərbaycan bəstəkarlarının mahnılarının populyarlaşmasında xidməti böyükdür. Azərbaycan Respublikası Milli Məclisinin (2000-ci ildən) üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 313.

**240. Ağabacı Rzayeva,** A ğ a b a c ı İ s m a y ı l q ı z ı (1912-1975) – ilk azərbaycanlı qadın bəstəkarlarından biri. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi. Yaradıcılığında mahnı və romanslar mühüm yer tutmuşdur. – 313.

**241. Firəngiz Əlizadə,** F i r ə n g i z Ə l i a ğ a q ı z ı (d.1947) – pianoçu, bəstəkar. Azərbaycan Respublikasının xalq artisti. 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının sədridir. 2008-ci ildə YUNESKO tərəfindən dünyanın artisti adlandırılmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 314.

**242. Vəcihə Səmədova,** V ə c i h ə Ə l i q ı z ı (1924-1965) – Azərbaycan boyakarı. Portret, mənzərə və tematik tablolar çəkmişdir. Mənzərə və tematik tabloları («Azərbaycan bəstəkarları», «Mahnı», «Goygölün sahilində», «Kürün sahilində», «Xəbər gözləyənlər») zəngin milli koloriti, lakonikliyi və kompozisiya aydınlığı ilə fərqlənir. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi idi. – 314.

**243. Reyhan Topşuboşova,** R e y h a n İ b r a h i m q ı z ı (1905-1970) – Azərbaycan rəssamı, Mustafa bəy Topçubaşovun həyat yoldaşı. Portret, məişət, mənzərə janrlarında işləmiş, eləcədə süjetli kompozisiyalar və

naturmortlar çəkmişdir. Mənzərələrində Abşeron təbiətinin təşviri əsas yer tutur. Mahnı və rəqs ansamlbları üçün geyim eskizləri də hazırlamışdır. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi idi. – 314.

**244. Güllü Mustafayeva,** G ü l l ü H a c a ğ a q ı z ı (1919-1994) – Azərbaycan boyakarı. Tematik tablolar və portretlər yaratmışdır. G.Mustafaynva yaradıcılığında uşaq portretləri xüsusi silsilə təşkil edir. Azərbaycan Respublikasının xalq rəssamı. – 314.

**245. Elmira Şahtaxtinskaya,** E l m i r a H ə b i b u l l a q ı z ı (1930-1996) – rəssam. Azərbaycan Respublikasının xalq rəssamı və əməkdar incəsənət xadimi. Plakat və dəzgah rəsmlərinin müəllifidir. 70-ci illərdə çəkdiyi «Azərbaycan qədim mədəniyyət diyarıdır» plakat silsiləsində Azərbaycanın orta əsrlərdə yaşayıb yaratmış elm və mədəniyyət xadimlərinin (N.Tusi, N.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, Ə. Naxçıvani, S.Məhəmməd v.b.), 70-80-ci illərdə isə müasir sənətkarların (Ü. Hacıbəyov, H.Cavid, S.Vurğun, S.Bəhlulzadə, Q.Qarayev, F.Əmirov və b.) portretlər qalereyasını yaratmışdır. – 314.

**246. Maral xanım Rəhmanzadə,** M a r a l Y u s i f q ı z ı (1916-2008) – rəssam, qrafik. Azərbaycanın xalq rəssamı. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 314.

**247. Nigar Rəfibəyli,** N i g a r X u d a d a t q ı z ı (1913-1981) – Azərbaycanın xalq şairi. N.Rəfibəyli lirik şerlər müəllifidir. Vətənimizin gözəl təbiət mənzərələri, Azərbaycan qadınlarının mənəvi zənginliyi, vətənpərvərlik, sülh, demokratiya, azadlıq ideyaları yazdığı şer və poemaların əsas mövzusudur. – 314.

**248. Mədinə Gülgün,** Ə l ə k b ə r z a d ə M ə d i n ə N ə s r u l l a q ı z ı (1926-1991) – Azərbaycan şairi. Əməkdar incəsənət xadimi. 1938-ci ildə ailəliklə Cənubi Azərbaycana köçmüş, milli demokratik hərəkata qoşulmuşdur. Milli hökumət irtica qüvvələri tərəfindən boğulduqdan sonra Bakıya qayıtmışdı. Vətən məhəbbətinin, İran xalqlarının, o cümlədən azərbaycanlıların azadlıq mübarizəsinin tərənnümü şeir və poemalarının əsas mövzusudur. – 314.

**249. Hökumə Billuri,** H ö k u m ə İ b r a h i m q ı z ı (1926-2000) – Azərbaycan şairi. İran Azərbaycanındakı milli azadlıq mübarizəsinin, vətənpərvərlik və beynəlmiləlçiliyin tərənnümü şeirlərinin əsas mövzusudur. Azərbaycanın xalq şairidir. – 314.

**250. Əzizə Cəfərzadə,** Ə z i z ə M ə m m ə d q ı z ı (1921-2003)– Azərbaycan yazıçısı, ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor. XIX əsr Azərbaycan ədəbiyyatına, aşıq şeirinə dair tədqiqatları var. S.Ə.Şirvaniyə həsr olunmuş «Aləmdə səsim var mənim», Nişat Şirvanidən bəhs edən «Vətənə qayıt», M.Ə.Sabirlə A.Səhhətin dostluğundan danışan «Yad et məni» romanlarından ibarət trilogiyanın, mövzusu XVI əsr Azərbaycan tarixindən alınmış «Bakı-1501» romanının müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 314.

**251. Xanımana Əlibəyli,** X a n ı m a n a S a b i r q ı z ı (1923-2007) – Azərbaycan yazıçısı. Adətən, uşaqlar üçün yazmışdır. Əlibəylinin yazdığı şeir və poemalarında yüksək mənəvi keyfiyyətlər tərənnüm olunur. – 314.

**252. 8 mart Beynəlxalq qadınlar günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq qadınlar gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların 2-ci Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 319-324.

**253. Azərbaycan Dövlət Opera və Balet Teatrı –** Respublikanın ən böyük musiqi teatrı. Azərbaycan XKS-nin 1920-ci il 1 iyul tarixli qərarı ilə Birləşmiş Dövlət Teatrı tərkibində opera truppası kimi yaradılmışdı. 1924-cü ildə opera truppası bu teatrdan ayrılaraq müstəqil opera və balet teatrına çevrilmişdir. 1928-ci ildə teatra M.F.Axundovun adı verilmişdir. 1959-cu ildən Akademik Opera və Balet Teatrı adlanır. – 325,327.

**254. Həmid Araslı,** H ə m i d M ə h ə m m ə d t a ğ ı o ğ l u (1909-1983) – əbədiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki, 1960-68-ci illərdə Nizami adına Azərbaycan Əbədiyyatı Muzeyinin direktoru, 1970-ci ildən ömrünün sonuna kimi Azərbaycan Respublikası MEA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunun direktoru olmuşdur. Araslı qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı,

Nəsimi, Kişvəri, Əmani, Saib Təbrizi, Qövsi Təbrizi, Məhcur Şirvani, Vaqif, Vidadi haqqında tədqiqat əsərlərinin müəllifidir. Nizami və Füzuli irsinin öyrənilməsində xüsusilə mühüm işlər görmüşdür. Azərbaycan folklorunun, «Kitabi-Dədə Qorqud», «Koroğlu» dastanları və aşıq yaradıcılığının tədqiqi ilə də məşğul olmuşdur. – 333.

**255. Bartold Vasili Vladimiroviç** (1869-1930) – şərqşünas, akademik. Bartold rus şərqşünaslıq məktəbinin banilərindəndir. Başlıca əsərləri Orta Asiya, İran, Ərəb xəlifəliyi, islam və şərqşünaslıq tarixinə aiddir. Azərbaycan tarixi, folkloru və ədəbiyyatı haqqında da tədqiqatları var. – 333.

**256. Fəraməz Maqsudov,** F ə r a m ə z Q ə z ə n f ə r o ğ l u (1930-2000) – Azərbaycan riyaziyyatçısı, elm təşkilatçısı, siyasi xadim. 1997-2000-ci illərdə Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. Birinci çağırış Milli Məclisin deputatı seçilmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 329-344.

**257. Nazarbayev Nursultan,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989-91-cı illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-cı ildə Qazaxıstan SSR-in prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 338.

**258. Rəfael Allahverdiyev,** R ə f a e l X a n ə l i o ğ l u (d.1945) – 1993-2001-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. 1995-2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. – 329-344,438.

**259. Elçin Əfəndiyev,** E l ç i n İ l y a s o ğ l u (d.1943) – Azərbaycan yazıçısı, ictimai və dövlət xadimi. Azərbaycan Respublikasının xalq yazıçısı. Yazıçı İlyas Əfəndiyevin oğlu. Azərbaycan Yazıçılar Birliyinin katibi, Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr «Vətən» cəmiyyətinin sədri vəzifəsində işləmişdir. 1993-cü ildən Azərbaycan Respublikasının Baş nazirinin müavinidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 329-344.

**260. Fərhad Xəlilov,** F ə r h a d Q u r b a n o ğ l u (d.1946) – rəssam. Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi. Azərbaycan Rəsamlar İttifaqının sədri. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 329-344.

**261. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zil-hiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahının bağışlanması günü kimi qeyd edirlər. – 345,390.

**262. Fərman Salmanov,** S a l m a n o v F ə r m a n Q u r b a n o ğ l u (1928-2008) – mühəndis-geoloq. Lenin mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. Qərbi Sibirdə onun bilavasitə rəhbəliyi ilə ən iri neft və qaz yataqları kəşf edilmişdir. – 347.

**263. Həsənov Eldar,** E l d a r H ü m b ə t o ğ l u (d.1955) – 1995-2000-ci illərdə Azərbaycan Respublikasının baş prokuroru olmuşdur. 2001-ci ildən Azərbaycan Respublikasının Rumıniyada Fövqəladə və Səlahiyyətli səfiridir. – 348.

**264. Hacıyev Xanlar,** X a n l a r İ r ş a d F a i q o ğ l u (d.1966) – hüquqşünas. 1993-98-ci illərdə Ali Məhkəmənin sədri, 1998-ildə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri olmuşdur. Hazırda Avropa Məhkəməsinin üzvüdür. – 348.

**265. Elçibəy,** Ə l i y e v Ə b ü l f ə z Q ə d i r q u l u o ğ l u (1938-2000) – 1989-cu ildə yaradılan AXC-nin, sonralar AXCP-nin sədri. 1992-93-cü illərdə Azərbaycan Respublikasının prezidenti olmuşdur. – 353,420.

**266. Mütəllibov Ayaz,** A y a z N i y a z i o ğ l u (d.1938) - 1989-90-cı illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1990-cı ildə Azərbaycan KP MK-nın birinci katibi seçilmişdir. 1992-ci ildə Azərbaycan Respublikasının prezidenti olmuşdur. Ayaz Mütəllibov işində ciddi səhvlərə yol vermiş, nəticədə Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan azərbaycanlı əhalini çıxarmış və ərazini işğal etməyə nail olmuşlar. – 353,409,420,422,423.

**267. OMON** – 1992-95-ci illərdə Daxili İşlər Nazirliyinin tərkibində olan Xüsusi Təyinatlı Polis Dəstələri (XTRD) – 355.

**268. Kudryavtsev Vladimir Nikolayeviç** (d.1923) – hüquqşünas, akademik. Rusiya EA-nın vitse-prezidenti Dövlət mükafatı laureatı. – 361.
**269. Laptev Vladimir Viktoroviç** (d.1924) – hüquqşünas, Rusiya EA-nın akademiki. – 361.

**270. Novruz bayramı** – qədim xalq bayramı. Şimal yarımkürəsində astronomik yazın başlandığı gecə-gündüz bərabərliyi günündə (martın 21-22-də ) keçirilir. Qədim zamanlardan başlayaraq İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Özbəkistan və bəzi Şərq ölkələri baharın – yeni ilin gəlişini şənliklərlə qarşılayırlar. Respublikamız müstəqillik qazanandan sonra Novruz bayramı rəsmi ümumxalq bayramı və istirahət günü elan edilmişdir. – 363,430-431,432.

**271. Poti – İliçovsk – Varna bərə keçidi** – Ukrayna ərazisi ilə, Qara dəniz, Gürcüstan, Azərbaycan, Türkmənistan, Özbəkistan vasitəsilə yüklərin Qərbdən Şərqə, Şərqdən Qərbə hərəkətini təmin edəcəkdir. 1999-cu il aprelin 17-də açılmışdır. – 372.

**272. «Azadlıq» radiosu** – Şərqi Avropanın və başqa regionların bəzi ölkələrində verilişlər aparan ABŞ-ın dövlət radiostansiyası. İlkin mənzil-qərargahı Münhendədir. «Azad Avropa» verilişlərə 1950-ci ildən, «Azadlıq» isə 1953-cü ildən başlamışdır. – 379.

**273. Helmut Kol** (d.1930) –Almaniyanın görkəmli siyasi və dövlət xadimi. 1973-98-ci illərdə Xristian-Demokratlar İttifaqının sədri, 1982-98-ci illərdə isə AFR-də kansler olmuşdur. H.Kolun ən böyük xidməti ikiyə bölünmüş Almaniyanı birləşdirməsi olmuşdur. – 382.

**274. Fransua Mitteran** (1916-1996) – 1981-95-ci illərdə Fransanın prezidenti. 1971-81-ci illərdə Fransa Sosialist Partiyasının Birinci katibi, 1965-68-ci illərdə demokratik və sosialist sol qüvvələri Federasiyasının lideri olmuşdur. – 382.

**275. Avropa Yenidənqurma və İnkişaf Bankı** – Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 57 üzvü var, həmçinin Avropa İnvestisiya Bankı və Avropa Birliyi ora daxildir. – 385.

**276. Rəhim Qazıyev**, Rəhim Həsən oğlu (d.1943) – texnika elmləri namizədi. 1992-93-cü illərdə Azərbaycan Respublikasının müdafiə naziri olmuşdur. Ordu quruculuğunda kobud səhvlərə yol vermiş, nəticədə Azərbaycan torpaqlarının bir hissəsi, o cümlədən Şuşa şəhəri ermənilər tərəfindən işğal olunmuşdur. – 409,420.
**277. Bəxtiyar Vahabzadə**, Bəxtiyar Mahmud oğlu (d.1925) – Azərbaycanın xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, 1991-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın akademikidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 413.

**278. Səfər Əbiyev**, Səfər Axundbala oğlu (d.1950) – general-polkovnik. 1995-ci ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. – 417.

**279. Tansu Çillər** (d.1946) – Türkiyənin siyasi və dövlət xadimi. 1991-ci ildən TVMM-nin üzvü, 1993-cü ildən isə «Doğru yol» partiyasının sədri, 1993-95-ci illərdə türkiyə Cümhuriyyətinin Baş naziri olmuşdur. – 422.

**280. ABŞ Dövlət Departamenti** – ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi, dövlət katibi başçılıq edir, prezidentin və Konqresin hazırladığı xarici siyasi xətti həyata keçirir. – 422.

**281. Ramiz Mehdiyev**, Ramiz Ənvər oğlu (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978-80-ci illərdə rayon partiya komitəsinin birinci katibi, 1980-81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981-83-cü illərdə Azərbaycan KP MK-da partiya təşkilat işi şöbəsinin müdiri, 1983-88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988-94-cü illərdə Azərbaycan Respublikası MEA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəridir. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin

deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Nyu-York Elmlər Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının fəxri üzvü. – 437.

**282. Cəfər Vəliyev,** C ə f ə r C ə b r a y ı l o ğ l u (d.1930) – hüquqşünas. 1962-79-cu illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1987-92-ci illərdə Azərbaycan Respublikasının Daxili İşlər naziri, 1992-2000-ci illərdə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri olmuşdur. – 435,438,439,441,443,444,446,449.

## Şəxsi adlar göstəricisi


| | |
|---|---|
| **Abdek Çarlz** | – 363 |
| **Axundova Rəfiqə** | – 313 |
| **Axundova Şəfiqə** | – 313 |
| **Ağabacı Ağabəyimağa** | – 312 |
| **Ağamirov Natiq** | – 346-361 |
| **Ağasiyev Xanlar** | – 234-238 |
| **Ağayev** | – 417 |
| **Akbay Günay** | – 49 |
| **Akbulut Yıldırım** | – 14-27,159,163,200 |
| **Allahverdiyev Rəfael** | – 329-344,438 |
| **Almaszadə Qəmər** | – 313,325,326 |
| **Anar** | – 329-344 |
| **Andropov Yuri** | – 81 |
| **Araslı Həmid** | – 333 |
| **Armitac Riçard** | – 115-116 |
| **Aşurbəyli Rzayeva Nabat xanım** | – 312 |
| **Atatürk** | – 23,24,25 |
| **Ayətullah Xomenei** | – 29 |
| **Bakatin** | – 272 |
| **Baki İlkin** | – 159-164 |
| **Balkan** | – 186 |
| **Balter Uilyam** | – 350 |
| **Bartold** | – 333 |
| **Batti Renato** | – 5-8 |
| **Bayramova Ceyran** | – 313 |
| **Berger Semüel (Senli)** | – 98,134,141,152,161,167,191,229, 244,364 |
| **Beşayev Silan** | – 103 |
| **Beyker** | – 98,134 |
| **Bədirbəyli Leyla** | – 313 |
| **Bikdeli Əlirza** | – 57-62 |
| **Bjeznski Zbiqnev** | – 98,112-113,134,139-151,191,218, 297,364 |
| **Bloxin Nikolay** | – 256 |
| **Bobkov** | – 272 |
| **Boqdanov Vsevolod** | – 249-279 |
| **Braun Con** | – 285,286 |
| **Braunbək Sem** | – 97,98,134,135 |
| **Brejnev Leonid** | – 81 |
| **Bruk Van Den** | – 213,359 |
| **Buş Corc Herber** | – 133 |
| **Buş Corc** | – 153,192,193 |
| **Cabir əl-Əhməd əl-Cabir əs-Sabah** | – 204 |
| **Cavanşir Həmidə xanım** | – 312 |
| **Cavadov Mahir** | – 413,419 |
| **Cavadov Rövşən** | –408,409,410,411,413,414,416,418, 419,420,421,429 |
| **Cəfərov** | – 412,413 |
| **Cəm İsmayıl** | – 159,164,200 |
| **Cəmşidov Şamil** | – 329-344 |
| **Çaxmaqçı Lütfi** | – 50 |
| **Çernomırdin** | – 279 |
| **Çillər Tansu** | – 422 |
| **Çissano Joakim** | – 241 |
| **Davudova Mərziyə** | – 313 |
| **Denktaş Rauf** | – 161 |

**Dəmirçizadə** – 333
**Dəmirəl Süleyman** – 15,23,25,53,54,159,160,161,163, 168,189,200,247,422
**Dilbazi Mirvarid** – 314
**Durlu Tahsin** – 51
**Ecevit Bülənd** – 159,163,200
**Elçibəy** – 353,420
**Eliason Qrem** – 139-151
**Eskudero Stenli** – 62-65,363-366
**Əbiyev Səfər** – 417
**Əhmədov Nadir** – 449
**Əhmədova Səltənət** – 312
**Əfəndiyev Elçin** – 329-344
**Əkbərov Canəli** – 327-328
**Əkbərov Rövşən** – 417
**Ələkbərova Şövkət** – 313
**Ələsgərov** – 186,187,190,199
**Əliyev İlham** – 128,187,188,189,190
**Əliyev Natiq** – 284-295
**Əlizadə Firəngiz** – 314
**Əsgərova Gültəkin** – 314
**Əsgərova Salatın** – 314
**Gəncəvi Məhsəti** – 311
**Füzuli** – 84,332
**Hacıbəyov Üzeyir** – 271
**Hacıyev Xanlar** – 348
**Hacıyev Niyazi** – 234-238
**Hayat Fred** – 120
**Halone Tarya** – 10
**Harmon Ceyms** – 78-79
**Heyerdal Tur** – 227
**Heyls Teodor** – 296-309
**Hendrik İlves Tomas** – 223-233
**Həsənoğlu Ənvər** – 49
**Həsənov Eldar** – 348
**Həsənov Əli** – 257
**Hopvud Endi** – 284-295
**Hüseynov Surət** – 82,408,409,418,419,420,423
**Xanlarova Zeynəb** – 313
**Xətai Şah İsmayıl** – 311
**Xatəmi** – 28,60
**Xeyransa Bəyim** – 312
**Xəlilov Fərhad** – 329-344
**Xəlilov Zahid** – 47
**Xəlilüllah II** – 311
**İqlberger Lourens** – 152-158
**İmam Xomeyni** – 57
**İmanov Müslüm** – 449
**İsmayılova Tükəzban** – 313
**İzzetbeqoviç Aliya** – 221
**Jelnoroviç Natalya** – 249-279
**Jukov** – 251
**Kalitski Yan** – 139-151,243-248
**Karamanoğlu Altan** – 409
**Karter Linda** – 171-173
**Kavano Kerri** – 109,111,137,364
**Kennedi Con** – 112,113
**Kələntərli Münəvvər** – 313
**Kəminə Fatma xanım** – 312

**Kissincer Henri** – 81,245
**Klinton Bill** – 32,62,63,64,66,68-70,71,73,83, 93,106,109,110,111,119,122,126, 128,134,137,138,141,157,158,167, 174-176,187,189,191,192,199,218, 229,243,244,247,286,299,309,364, 365,366
**Koçaryan Robert** – 16,18,19,68,69,89,90,120,157, 158,199
**Kohen Uilyam** – 166-167,191,244,300,364,366
**Kol Helmut** – 219,382
**Kolodkin** – 350
**Kopari Jan** – 107
**Kosıgin Aleksey** – 254,255
**Kravtsov** – 359
**Kuçma Leonid** – 132,367-406
**Kudryavtsev Vladimir** – 361
**Kuzniçevski Vladimir** – 249-279
**Qacar Gövhər xanım** – 312
**Qədimova Sara** – 313
**Qədri Fatma** – 313
**Qurbanova Hökumə** – 313
**Qahrton Per** – 205-220
**Qazıyev Rəhim** – 409,420
**Qətibə xanım** – 311
**Qızıl Arslan** – 311
**Qlikman Dən** – 76-77,167,191,244
**Qor Albert** – 193
**Qorbaçov** – 255
**Qönçəbim** – 312
**Quliyev Həbib** – 234-238
**Quliyev Rəsul** – 294,420
**Quliyev Vilayət** – 226,227
**Qurbanova Hökumə** – 313
**Lagenduk Joot** – 205-220
**Laptev Vladimir** – 361
**Layt Brüs** – 365
**Lebedev Vyaçeslav** – 348,360
**Lennart Meri** – 182,224,228,233
**Liqaçov** – 255
**Linkoln Avraam** – 112
**Loqunov Anatoli** – 47
**Lujkov Yuri** – 264
**Lukaşik Yulian** – 249-279
**Makkafi Karen** – 114,122-123
**Makkeyn** – 153
**Maqsudov Fəraməz** – 329-344
**Mehdiyev Ramiz** – 437
**Mehrəliyeva Fatma** – 313
**Mesic Stepu** – 11
**Metreveli Roin** – 50
**Məhəmməd VI** – 242
**Məhərrəmov Abel** – 45,52
**Məhinbanu** – 311
**Məmmədbəyova Leyla** – 313
**Məmmədova Şövkət** – 313
**Məmmədova Şəfiqə** – 313
**Məshədov Aslan** – 103
**Mitteran Fransua** – 382

**Muradova Rübabə** – 313
**Mustafayeva Güllü** – 314
**Mütəllibov Ayaz** – 353,409,420,422,423
**Naxçıvani Əcəmi** – 311
**Natəvan Xurşidbanu** – 312
**Nazarbayev Nursultan** – 338
**Neşatayeva** – 350
**Nərimanov Nəriman** – 312
**Nəsimi** – 84
**Nikols Lərri** – 30-34
**Niyazov Saparmurad** – 80,106,164,184,185
**Nizami** – 84,311
**Nur Alan** – 106
**Nuriyeva Sona** – 313
**Nüşabə** – 311
**Okonnor Cudi** – 280-283
**Olbrayt** – 62,64,66,111,134,137-138,141, 152,161,167,191,229,299,309,364, 366
**Özal Turqut** – 54
**Özbək xan** – 311
**Paşayev Hafiz** – 170
**Pənahova Amalya** – 313
**Pəri xanım** – 311
**Prodi** – 7,170,219
**Putin Vladimir** – 132,133,157,196,229,267,268, 269,274
**Rasizadə Artur** – 199,200
**Rau Yohannes** – 12
**Raykin Arkadi** – 264
**Rəhmanzadə Maral** – 314
**Rəfibəyli Nigar** – 314
**Remminqton Frederik** – 32
**Rəsulov Məcid** – 47
**Riçardson Bill** – 74-75,167,187,191,244
**Rıjkov** – 255
**Rostropoviç Mstislav** – 218,258
**Roulinqc Cerri Con** – 310
**Rudolf Con** – 296-309
**Ruzvelt Franklin** – 70
**Rzayeva Ağabacı** – 313
**Rzayeva Həqiqət** – 313
**Sadıqov Nəcməddin** – 417
**Sadovniçi Viktor** – 46,49
**Salleo Ferdinando** – 169-171
**Salmanov Fərman** – 347
**Santer Jak** – 213,358
**Saraxatun** – 311
**Sestanoviç Stiv** – 109-111,137,152
**Sevik Süha** – 50
**Seyidməmmədova Züleyxa** – 313
**Seyidzadə Dilarə** – 237
**Səfixanov** – 419
**Səlimova Şövkət** – 313
**Səmədova Vəcihə** – 314
**Skalfaro** – 170,219
**Slezincer** – 191,365
**Smit Ed** – 183-190

**Solomentsev** – 256
**Sorensen Patsu** – 205-220
**Start Valter** – 168-169
**Sviət Devid** – 296-309
**Suxarev Aleksandr** – 348,349
**Şah Abbas** – 312
**Şahmuradov Nizami** – 412,413
**Şahnigar xanım** – 312
**Şahtaxtinskaya Elmira** – 314
**Şaləhmədov Qadilbek** – 249-279
**Şaymiyev** – 251
**Şelton Elizabet** – 296-309
**Şərifov Abid** – 199
**Şevardnadze Eduard** – 27,51,55,56,189,214,247,248, 286,385
**Şəkinskaya Barat** – 313
**Şiple Cenni** – 9
**Şirak Jak** – 157,218
**Şıxlinski Əliağa** – 305
**Şıxlinskaya Nigar xanım** – 312
**Şröder Gerhard** – 13
**Şults** – 183
**Şüssel Volfqanq** – 222
**Tarasenko Nikolay** – 249-279
**Talışinskaya Məsməxanım** – 312
**Topçubaşova Reyhan** – 314
**Tomson Tomas** – 296-309
**Trebkov Andrey** – 346-361
**Tusi Nəsirəddin** – 271
**Tuti Bikə** – 312
**Tuzçu Murad** – 365
**Umaratunqa Bandaranaike** – 8
**Uzun Həsən** – 311
**Vahabzadə Bəxtiyar** – 413
**Vəkilova Leyla** – 313
**Vəliyev Cəfər** – 435,438,439,441,443,444,446,449
**Vilson Ross** – 109-111
**Volfoviç Pol** – 80-108,191,245,365
**Vulf** – 199,247
**Vudvord Devid** – 284-295
**Yakovlev Yevgeni** – 349
**Yapraq Tevfik** – 280-283
**Yazov** – 272
**Yefimov İqor** – 31
**Yeltsin Boris** – 119,133
**Yıldırım İbrahim** – 14-27,52,159,163
**Yusifzadə Xoşbəxt** – 294
**Zeynalova Nəsibə** – 313

## Coğrafi adlar göstəricisi


**Abxaziya** – 41,91,229,380
**Afrika** – 143,218,252
**Ağstafa** – 409,410
**Almaniya** – 12,13,43,219,382
**Alyaska** – 147,197
**Amerika Birləşmiş Ştatları** –14,30-34,41,43,62-65,66-164,166-176,183-190,191-201,209,219,232, 243-248,260,267,286,296-309,359, 362-366,385
**Ankara** – 24,27,54,159,197,247,285
**Anqola** – 286
**Antarktida** – 81
**Araz çayı** – 212
**Asiya** – 85,96,97,105,147,298
**Aşqabad** – 186,187
**Avropa** – 82,85,90,91,96,97,101,145,147, 207,208,215,231,232,233,267,298, 274,391
**Avstraliya** – 257
**Avstriya Respublikası** – 222
**Bakı** –8,9,10,11,12,13,18,28,29,49,50,52, 74,81,82,92,108,130,160,169,184, 198,203,211,240,241,243,244,247, 252,267,298,326,328,340,341,345, 352,361,363,384,393,429,431,433
**Belarus** – 98
**Belçika** – 215
**Bosniya və Hersoqovina** – 221
**Böyük Britaniya** – 43,72,219,350
**Braziliya** – 31
**Bruney Sultanlığı** – 180
**Brüssel** – 6,7,206
**Cenevrə** – 144
**Ceyhan** – 247
**Cənubi Amerika** – 252,254,256
**Cənubi Avropa** – 281
**Cənubi Karolina** – 153
**Cənubi Qafqaz** – 27,44,56,60,69,96,98,100,105, 106,135,155,163,175,205,210,211, 212,213,230,267,298,303,304
**Çeçenistan** – 41,90,92,93,103,118,126,228,230, 231,249,251,261,273,274,379,380, 381
**Çexoslovakiya** – 273
**Çikaqo** – 301
**Çin** – 97
**Dağıstan** – 118,231,251,274,281
**Dağlıq Qarabağ** – 7,16,17,40,59,64,66,68,69,71,73, 83,86,87,88,89,90,105,110,117,118,123,128,129,130,131,135,137,138, 139,142,143,162,163,167,174,178, 191,194,209,228,229,257,259,260, 261,281,282,299,315,322,352,373, 377,379,380,398
**Davos** – 19,62,64,66,67,68,89,116,147,285
**Dnestryanı** – 90,380
**Drezden** – 331,335
**Estoniya** – 182,223-238
**Əfqanıstan** – 143,218
**Finlandiya** – 10

**Fransa** – 41,43,88,90,119,121,130,143,193, 194,209,215,254,257,260,299,382
**Gəncə** – 410,419
**Gürcüstan** – 27,44,55,56,67,92,93,96,97,106, 125,126,127,134,135,145,146,160, 185,186,187,212,214,229,230,232, 247,286,303,372,378,385,393
**Helsinki** – 54
**Hindistan** – 218
**Hollandiya** – 213,358
**Hyüston** – 301
**Xəzər dənizi** – 64,71,90,91,92,93,94,121,126, 127, 137,140,141,142,144,145,146, 147,153,155,163,171,175,184,251, 253,284,285,287,292,295,298,372, 378,387,393
**Xocalı** – 118,177-179
**Xorvatiya Respublikası** – 11
**İngiltərə** – 194
**İnquşetiya** – 231
**İran** – 28,29,57-62,84,92,101,124,126, 127,251,274,303,304
**İspaniya** – 97
**İsparta** – 23,54
**İsrail** – 189
**İstanbul** – 7,27,69,74,93,105,126,127,191, 199,247,291,418
**İsveçrə** – 219
**İtaliya** – 169-171,215,254,358
**Kaliforniya** – 257
**Kazan** – 251
**Kiyev** – 235,236,274,371,384
**Klivlend** – 69,160,175,183,201,301,365
**Koreya** – 251
**Kremençuk** – 387
**Kuril adaları** – 257
**Kür çayı** – 212
**Küveyt** – 204
**Qafqaz** – 27,54,60,73,83,84,90,96,98,103, 106,107,141,142,144,147,150,155, 163,227,230,254,298,299,377,379
**Qana Respublikası** – 310
**Qambiya Respublikası** – 181
**Qara dəniz** – 92,125,145
**Qazax** – 409,410,421
**Qazaxıstan** – 55,92,93,126,134,146,251,263, 337,343
**Qərbi Avropa** – 373
**Qərbi Sibir** – 347
**Qırğızıstan** – 55,134,337
**Laçın** – 199
**Latviya** – 227,234
**Leninqrad** – 235,236,253,256
**Lənkəran** – 253
**Litva** – 227,234
**London** – 183,184,191,198,285
**Luqansk** – 367
**Macarıstan** – 273
**Mehri** – 101,105,199
**Meksika körfəzi** – 286
**Mərakeş** – 242
**Mərkəzi Asiya** – 83,98,107,263,372
**Misir** – 31
**Moldova** – 90,232,393

**Moskva** – 27,55,82,105,132,157,169,170, 196,197,229,235,236,250,251,252, 253,255,260,263,264,267,272,274, 276,347,361,371,381,388,408,420, 422
**Mozambik Respublikası** – 241
**Murmansk** – 265
**Naxçıvan** – 6,195,235,250,361
**Naxçıvan Muxtar Respublikası** – 59,82,89,101,105,129,130
**Norveç** – 227
**Novorossiysk** – 92,125
**Nyu-York** – 301
**Odessa** – 387
**Ohayo** – 301
**Oklahoma** – 32
**Orta Asiya** – 254
**Osetiya** – 90
**Özbəkistan** – 55,97,134,231,232,337,343,393
**Pakistan** – 274
**Pekin** – 315,316
**Pensilvaniya** – 85
**Riqa** – 235
**Rumıniya** – 98,134
**Rusiya** –38,41,46,47,84,88,90,92,96,98, 103,106,116,118,119,121,126,130, 133,143,145,146,157,185,186,196, 198,209,229,230,231,249-279,299, 303,346-361, 379,380,381,387,388
**Samsun** – 428
**Sankt-Peterburq** – 271
**Sərəxs** – 97
**Səudiyyə Ərəbistanı** – 274
**Strasburq** – 206,373
**Supsa** – 92,125,145
**Şərqi Avropa** – 208,281,359
**Şimali Qafqaz** – 231,379
**Şimali Osetiya** – 231
**Şri-Lanka** – 8
**Tallin** – 226,227,235
**Tatarıstan** – 261,387
**Tartu** – 227
**Tbilisi** – 44,211,247,258,385,387
**Tovuz** – 410,421
**Trinidad** – 286
**Türkiyə** –14-27,43,44,49,50,51,52,53,54, 55,67,71,96,105,106,116,126,127, 134,146,153,159-164,169,184,185, 186,193,197,199,200,247,251,274, 293,343,409
**Tümen** – 346,356
**Türkmənistan** – 55,71,80,92,97,106,127,134,165, 184,185,186,189,190,331,343
**Ukrayna** – 132,232,233,350,367-406
**Vaşinqton** –63,64,68-164,166-173,174,175, 179,197,199,229,243,282,285,287, 299,300,301,362
**Venesuela** – 31
**Yaxın Şərq** – 143
**Yalta** – 144,371,384
**Yaponiya** – 97,251,257,385
**Yeni Zelandiya** – 9,81
**Yerevan** – 99,130
**Yuqoslaviya** – 301
**Zelenoqrad** – 265
**Zəngəzur** – 101,239

**Kitabı çapa hazırlayan** *Tofiq Babayev*

**Rəssamı** *Fuad Fərəcov*
**Texniki redaktoru** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 31,5.
Uçot vərəqi 32. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2, ev 3.
"Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.